AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 4

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2025

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, prof.Dr.Uzok Jurokulov (Özbəkistan), filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Paşa Kərimov.

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2025, №4

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2025

www. filologiyameseleleri.com

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 3-8

DİLÇİLİK

https://doi.org/10.62837/2025.4.3

ÇİNGİZ QARAŞARLI
ADU
Filologiya elmləri doktoru, professor

İşğalçı kim idi? Türklər, yoxsa bizanslılar

Xülasə

Məqalədə Troyanın türk ölkəsi olduğuna dair VII-XV əsr Avropa tarixçilərinin verdikləri məlumatlarda tarixi gerçəkliyin əks olunması dil faktları əsasında sübut olunur: troyalıların daşıdıqları Priam, Alber, Askan, Dardan, Eney kimi onlarca qədim türk şəxs adları və Troya kökənli etrusklara aid yazıların qədim türk dillərində oxunması (3; 4) Avropa müəlliflərinin Troya haqqında yazdıqlarının gerçək olduğundan xəbər verir.

Gerçək budur ki, heç də türk sultanları «Bizans torpağını» deyil, məhz bizanslılar əski türk yurdu Troyanı işğal etmişdilər.

Tarixi keçmişdən xəbəri olan Fateh Sultan Mehmed İstanbulu azad edərkən, Troyanın intiqamını aldığını nahaq yerə dilə gətirməmişdi. Türk sultanları əzəldən türk yurdu olmuş Anadolunu işğal deyil, azad etmişdilər. İspaniyalı müəllif Pero Tafur 1437-ci ildə İstanbula gəldiyi zaman xalq arasında "türklə Troyanın intiqamını alacaqlar" fikrinin dolaşdığını qeyd edir (1, s.99).

1930-cu illərin ünlü dilçisi akademik N.Y.Marr əski çağlarda Aralıq dənizi sahillərində türklərin yunan və romalılardan çox əvvəllər yaşadığını, burada türkcənin yunan və latıncadan daha əvvəllər danışıldığını söylərkən (9, s.119), heç şübhəsiz troyalıları, etruskları və Yunanıstanın erkən sakinləri pelasqları nəzərdə tutmuşdur.

Açar sözlər: bizanslılar, türklər, Sultan Mehmed, Troya, Konstantinopol

Hazırda öz gerçək tarixlərini ya unutmuş, ya da bilərəkdən saxtalaşdıran yunanlıların bəşəriyyəti inandırmağa çalışdıqları mifə görə, Konstantinopol da, onun yerləşdiyi Anadolu da tarixən bizanslılara məxsus olmuş və bu əraziyə ilkin olaraq Osmanlı dönəmində gəlmiş türklər onların yurdlarını işğal etmişlər.

Anadolunun Bizans imperiyası tərkibinə daxil olmasından çox-çox əvvəllər bu bölgədə mövcud olmuş qüdrətli Troya və onun əhalisinin mənşəyi haqqında isə çağdaş avropalılar susurlar. Halbuki, bu ərazinin daha qədim sakinləri troyalıların türk olduqlarını VII-XIV əsrlərə aid Avropa yazarları açıqca qeyd edirlər. VII əsrə

aid Fredeqar Xronikasına görə, Türklər Troyanın istilasından sonra iskit torpaqlarında yerləşmişdilər (1, s.95).

Troyalıların türk olduqlarını XII-XIV əsr Avropa müəllifləri Nikole Gilles, Tireli Vilyam, Andrea Dandalo, Brakkiolini, İsidor, Feliks Fabri və digərləri yazırlar (1).

İstanbulu fəth edən Sultan Mehmed 1462-ci ildə Midillinin fəthi zamanı Çanakkaledə Troya xarabalıqlarının olduğu yerə gələrək, qəhrəmanların məzarlarını araşdırmışdı. Troya haqqında bütün yazılanlardan xəbərdar olan Fateh Sultan Mehmed Troya xarabalığındaykən başını aşağı əyərək demişdi: «Allah məni bu şəhərin və xalqının müttəfiqi olaraq bu zamanadək qoruyub saxladı. Biz bu şəhərin düşmənlərinə qalib gəldik. Yunanlıların biz asiyalılara qarşı etdikləri pis davranışların intiqamını aradan uzun zaman keçməsinə baxmayaraq, onların nəsillərindən aldıq» (1, s.103).

Sultan Mehmedin dediyindən göründüyü kimi, İstanbulun fəthini o, işğal deyil, qisas hesab etmiş, vaxtilə yunanlıların işğal etdikləri bu torpağı gec də olsa qurtardığını dilə gətirmişdi.

Troyalılarla türklərin eyni şəxs adlarını daşımaları da qədim Avropa mənbələrinin məlumatlarını təsdiq edir:

Priam troyalıları qədim türklərlə bağlayan ilginc bir şəxs adıdır. O, Troyanın sonuncu çarı olmuş və Troya onun çarlığı dövründə süquta uğramışdır.

Priam şəxs adına qədim türk (qazax) eposunda («Priyamın hekayəti») rast gəlirik. Burada **Priyam** Turan ölkəsinin qəhrəmanı, Əfrasiyab bahadırı kimi təsvir olunur (2, s.123).

Troya – türk onomastik paralelləri arasında çox sayda şəxs, tayfa, yer və mifoloji surətlərin adlarını aşkar edirik (3). Həmin adların türk variantları qədim türk dilində, eləcə də qədim türk adlarını qoruyub saxlamış qazax, qırğız, tatar, başqırd, çuvaş və Sibir türklərinin dillərində aşkar olunur:

Alber. Troyalı döyüşçüyə məxsus **Alber** şəxs adı qədim türk antroponimiyasındakı **Alper, Alp er, Alp ər** şəxs adının fonetik variantıdır. Türkoloq N.A.Baskakov **Alper** şəxs adının **alp** («igid», «qəhrəman») və **er** («ər», «bahadır») sözləri əsasında yarandığını yazır (6, s.136-137).

Əfsanəvi Turan ölkəsinin hökmdarı **Alp er Tonqa** eyni adı daşımışdır.

Alp qədim türk dilində bir neçə mürəkkəb şəxs adının da tərkibində işlənmişdir: **Alp Tarxan, Alp Teqin, Alp Turmuş**.

Askan. Homerin «İliada» poemasında troyalılardan biri bu adı daşıyır. Bu şəxs adının tam qarşılığına hunlarda və müasir altay türklərinin dilində rast gəlirik.

Türk dilləri əsasında bu şəxs adının aydın etimoloji yozumu vardır: çuvaşca **askan** sözü «şux», «dəcəl», «çoşğun», «azğın», «güclü» mənalarını ifadə edir.

Paris. Troya çarı Priamın oğlanlarından biri olmuş Paris xakas türklərinə aid **Paris** kişi adı ilə müqayisə edilə bilər. Bu şəxs adı başqa türk dillərindəki **Baris, Barıs, Barış, Bars** variantlarında işlənmiş kişi adının xakas variantıdır. *b>p* samit

əvəzlənməsinin geniş müşahidə edildiyi xakas dilində cingiltili **b** samiti ilə deyilən şəxs adına rast gəlinmir.

Adın etimologiyasına gəldikdə isə, o, türk dillərində igidlik, qüvvətlilik rəmzi olmuş **bars/baris** ("pələng") sözündən olub, qədim türklərə aid **Bars beg, Barskan, Bars buğa, Barsğan** və digər şəxs adlarında da özünü göstərir.

Araşdırılan şəxs adının xakas variantı (**Paris**) ***bars*** sözünün kar samitlə (**p**) deyilən aşağıdakı variantlarına uyğun gəlir: **pars** (qaraqalpaq), **parıs** (altay) və b.

Atas. Troya çarı Priamın digər oğlunun daşıdığı bu ad qazaxlara məxsus **Atas** kişi adı ilə səsləşir. Bu ad türk dillərindəki **"ata"** və bənzərlik bildirən qeyri-məhsuldar **s** şəkilçisindən ibarət olub, müasir başqırd dilindəki **atas** ("ataya oxşar") sözündə də müşahidə olunur.

Dolon. Troyalılara məxsus bu şəxs adı qırğızların işlətdiyi **Dolon**, qazax dilindəki **Dolan** kişi adları ilə eyni səslənir. Qırğız şəcərələrində **Dolon** bu xalqın əcdadı kimi təsvir olunur.

Aytilla. Apollodora görə, Troya çarı Priamın bacısının adı **Aytilla** imiş. Qırğızlara məxsus **Aytilla** şəxs adı eyni mənşəlidir.

Kapaney. Troyalının daşıdığı bu şəxs adının əsasını qədim türk **Kapan** şəxs adı təşkil edir. **-ey** isə türk şəxs adlarında geniş istifadə edilən **-ey/-ay** şəkilçisidir.

N.A.Baskakov **Kapan** şəxs adının «qəhrəman», «cəngavər» mənalarında olduğunu göstərir (6, s.54).

Batiya. Antik qaynaqlarda **Batiya** Troyanın ilk çarı Tevkrin qızı, Dardanın arvadı hesab edilir. Eyni qədim şəxs adı – **Bətiya** müasir qazaxların antroponimiyasında işlənməkdədir.

Tarna. Troya vilayətlərindən biri **Tarna** adlanırdı. X əsrin əvvəlinə aid Bizans, ərəb və yəhudi tarixçilərinin əsərlərində **tarna** adlı xəzər tayfasından bəhs olunur. Xəzər xaqanı İosifin məktubunda (X əsr) **Tarna** xəzərlərə qohum olan **Bulqar, Oğuz, Bizal** və s. tayfalar arasında yer alır (7, s.74).

Qarqar. Troyadakı İda dağının bir zirvəsi **Qarqar** adlanırdı; Homerin "İliada" poemasında Troyada Zevsin vətəni sayılan **Qarqara** adlı vilayətdən bəhs olunur.

Troya yaxınlığında **Qarqar** adlı şəhərin də olduğu haqqında məlumat vardır.

Məlum olduğu kimi, **qarqar (karkar)** məhz türk xalqlarının onomastikasında çox geniş yayılmışdır. Ona dağ və çay adı kimi Azərbaycan və Qazaxıstanda, vilayət adı kimi Orta Asiyada (qədim kimaklara məxsus **Qarqarxan** vilayəti), etnonim kimi Qafqaz Albaniyasında (**qarqarlar**) və Türkmənistanda (ersarı tayfasına məxsus **qarqar** nəsli), şəxs adı kimi «Manas» dastanında (**Karkar**) rast gəlinir.

Strabon tərəfindən Anadolunun şərqində yerləşdirilən **qarqar** etnoniminin də eyni etnosa, yəni türklərə aidiyyəti heç bir şübhə doğurmur. Buna əsas verən həm də odur ki, tarixçi qarqarları Anadolunun şərqində mövcud olmuş **Themiskir** adlı düzənlik ilə bağlayır. Onun yazdığına əsasən, qarqarlar Meotida (Azov dənizi) sahillərinə **Themiskir** adlanan yerdən gəlmiş və orada traklarla birlikdə

amazonkalara qarşı vuruşmuşlar (5, s.22).

Antik ədəbiyyatda «məhsuldar torpaq» mənasında işlədilən **terramar** (italyanca «yağlı torpaq») ifadəsi işığında **Themiskir** toponiminin qədim türkcə olduğunu şəffaf şəkildə görmək olur: qədim türk, uyğur. **semiz** «yağlı», qədim türk. **kıra,** türk**. kır** «düzənlik», «çöl», «tarla».

Troya – türk etnik qohumluğunun izlərinə mifologiyada da rast gəlinir.

Bayana. Qeyri-yunan mənşəli tanrılardan biri olan Afroditanın Troyadakı epiteti **Bayana** kimi səslənirdi.

Troyalıların **Bayana** adlandırdığı ilahə türk xalqlarının mifologiyasında himayəçi qadın tanrısı **Bayana** surətidir (9, s.178).

Bayana türk dillərindəki ***bay*** («himayəçi», «böyük», «müqəddəs») və **ana** («ana», «qadın») sözlərindən əmələ gəlir. Qədim türklər **Bayanaya** «tayfanın qadın himayəçisi», «ulu anası» kimi tapınmışlar.

Təqdim ediyimiz dil faktları isə troyalıların onomastikasındakı türkizmlərin sadəcə bir qismidir (3; 4).

Nəticə

Araşdırma bu qənaətə gəlməyə əsas verir ki, Bizans imperiyasının bir zamanlar işğal altında saxladığı Anadolu ərazisində daha qədim çağlarda əfsanəvi Troya mövcud idi. Troyalıların qədim Avropa müəllifləri (VII-XIII) tərəfindən Türk mənşəli sayılması isə avropalıların yüz illər ərzində «Asiyalı türklərin» Anadolunu işğal etmələrinə dair formalaşdırdıqları təsəvvürlərin qeyri-elmi və uydurma olduğunu üzə çıxarır.

Bu uydurmanı ifşa edən mühüm bir dəlil isə troyalıların daşıdıqları qədim türk adları, eləcə də onların onomastikasındakı digər qədim türk elementləridir.

Troyalıların türk olduqlarına dair onlarca qədim Avropa yazarlarının məlumatları, eləcə də troyalılarla türklərin ümumi şəxs və tayfa adları hələ Bizans işğalından çox-çox öncə Anadoluda türk mənşəli xalqın yaşadığına sübutdur. Bu isə Anadolu ərazisində **türklərin deyil, məhz bizanslıların işğalçı olduqlarını** açıqca göstərir.

İstifadə edilmiş ədəbiyyat

1. Afyoncu E. Truva'nın İntikamı. Yeditepe, İstanbul, 2011, 166 s.
2. Коныратбаев Э. Казак эпосы жяне тюркология. Алматы: Гылым, 1987, 365 с.
3. Qaraşarlı Ç. Truvalılar ve Etrüskler Türk idiler. Konya: Kömen yayınları, 2015, 166 s.
4. Qaraşarlı Ç. Troyalılar Türk idilər. Bakı: Elm və Təhsil, 2013, 126 s.

5. Алиев К. Античные источники по истории Азербайджана. Баку: Элм, 1986, 131 с.
6. Баскаков Н.А. Тюркская лексика в «Слове о полку Игорове», Москва: Наука, 1985, 207 с.
7. Коковцев П.К. Еврейско-хазарская переписка в X веке. Ленинград, АН СССР, 1932, 135 с.
8. Самойлович А.Н. Тюркология и новое учение о языке, XLV Академику Н.Я.Марру. М., -Л.: АН СССР, 1935.
9. Суперанская А.В. Имя через века и страны. М.: Наука, 1976, 192 с.

Ч.М.Гарашарлы

Кто был окупант: тюрки или византийцы

Резюме

Греки, или в связи с забвением об их истинном историческом прошлом, или же с намерением фальсификации истинную историю, считают Анатолию с включением Константинополя, своим родным территорием. Однако им не желательно запоминать, что когда-то эти земли принадлежали троянцам до образования Византийской империи. Наверняка это связано с сообщениями древнеевропейских авторов и источников, считающих троянцев тюрками по происхождению.

Правдивости этих сообщений оправдывают множество факторов, в том числе, древнетюркские имена которые носили троянцы.

Даже Султан Мехмед после его победы над византийцами посетил руины Трои, проклоняя голову сказал, что он отомстил грекам за зло, те которые принесли родным троянцам, хотя долгое время прошло от того времени.

Слова Султана служит доказательством, того что он был хорошо осведомлен об этническом происхождении троянцев. Эта этническая реалия была известна историкам того времени.

Ключевые слова: византийцы, тюрки, Султан Мехмед, Троя, Константинопол.

Ch.M.Garasharly

Who were the occupant: Turks or Bysantians

The Greeks, who have either forgotten their real history, or simply falsify it, allege Anatolia together with Istanbul to have been occupied by the Ottomans. However they avoid mentioning the historical fact that this territory once belonged to Troy, whose population by the European authors of the 7th-13th centuries are presented as Turks by origin.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 3-8

The truthfulness of this information is proved by the Turkic layer of the Trojan onomasticon in which most personal names are Old Turkic by origin.

During Sultan Mehmed's visit to the ruins of Troy he said although long time had passed from the time the Greeks had inflicted the Trojans great sufferings, he revenged the Greeks for all they had committed. İt shows that Sultan Mehmed had got information about the past of the land he had conquered.

Key words: Bysantians, Turks, Sultan Mehmed, Troy, Istanbul.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya elmləri doktoru Fəridə Allahverdiyeva
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 9-14

https://doi.org/10.62837/2025.4.9

SƏBİNƏ NAMİK QIZI ƏLİYEVA
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
email: sebineeliyeva2014@mail.ru

MÜASİR AZƏRBAYCAN DİLİ VƏ "DİVANİ LÜĞƏT-İT-TÜRK" ƏSƏRİ ARASINDA ORTAQLIQ TƏŞKİL EDƏN SADƏ İSİMLƏR

Açar sözlər: "Divani lüğət-it-türk, isim, sadə isimlər, eynilik.
Ключевые слова: «Дивани-турецкий словарь», существительное, простые существительные, идентичность.
Key words: "Diwani lughat-it-Turk", noun, simple nouns, identity.

Dahi filoloq, dilçi, türk ruhunun tərcumanı, türkologiya elminin banisi olan Mahmud Kaşğarinin həyatı haqqında çox geniş məlumatlarımız olmasa da onun "Divani lüğət-it-türk" əsəri uzun illər dilçilərin, türkoloqların maraq dairəsində olmuş, bu əsər günümüzdə də dilçi alimlər tərəfindən tədqiqata cəlb edilərək aktuallığını qoruyub saxlaya bilmişdir.

Kaşğarinin "Divani lüğət-it türk" əsəri həm məzmun, həm həcm, həm də yazılma tarixi baxımından türkologiya elminin həm ən qədim, həm də ən qiymətli əsəridir desək yanılmarıq. Türk dünyasının əvəzolunmaz abidəsi olan bu əsərin Azərbaycan dilinə tərcüməsi, nəşri, filologiyanın elmi dövriyyəsinə daxil edilməsi, istər geniş oxucu kütləsinə, istərsə də ziyalılara çatdırılması ölkəmizin elmi-mədəni həyatında mühüm hadisə kimi qiymətləndirilmişdir.

Bu əsərin əsas əhəmiyyətli xüsusiyyətlərindən biri min il bundan əvvəlki Azərbaycan dilini, mədəniyyət və tariximizin ən başlıca mənbəyi kimi elm sahəsində yeni istiqamətlər və üfüqlər açmış, daha şaxəli və dərin tədqiqatlar aparmağa kömək olmuşdur.

M. Kaşğarinin addım-addım türk dünyasını gəzərək qələmə aldığı "Divani lüğət-it-türk" əsəri, daha dəqiq desək, ensiklopediyası türk əsilli xalqların ləhcələri, dil xüsusiyyətləri, milli və mədəni varlıqları və qələmə alındığı dövrün yazı qaydaları və qrammatikasını əks etdirməsi baxımından olduqca dəyərli əsərdir. "Divan" ərəb dilində qələmə alınmış, qrammatik məlumatları, sözlüyü ərəb leksikoqrafiyasının prinsiplərinə uyğun olaraq qurulmuşdur.

Bu əsər yalnız lüğət deyil, türk soylu tayfaların yayılma arealı, yaşam tərzi, mifologiyası, tarixini, mədəniyyətini və s. öyrənmək üçün ən dəyərli mənbədir desək yanılmarıq. M. Kaşğari türk olmağı ilə öyünmüş bu adın onlara Allah tərəfindən verilmiş olduğuna və onun üstünlüyünə inanmışdır. Bununla yanaşı o, türk dilinin ən az ərəb dili qədər zəngin olduğunu vurğulayaraq "Divan"ın girişində türk dilinin ərəb

dili ilə birlikdə "qoşulu yarışan at" kimi hərəkət etdiyini qeyd edir [3, 54]. Böyük türkoloq, türk dillərinin, mədəniyyətinin, söz varlığının zənginliyi də nümayiş etdirir.

Qeyd edək edək ki, əsərdə türk sözü hörmət, böyüklərə ehtiram, mərd, igid xüsusiyyətlərə malik bir boyun adıdır. Bununla yanaşı türk sözü "güc" və "gənc" mənalarını da bildirir [3, 170]. Tədqiqatlarımız əsasın da deyə bilərik ki, Kaşğariyə görə, iyirmi qəbilədən ibarət olan türklər nuh peyğənbərin oğlu Yafəsdən qaynaqlanır. Eyni zamanda müəllif bildirir ki, bu adı onlara Tanrı verib.

Əsərin müasir türk dilləri üçün əhəmiyyəti saymaqla bitməyəcək qədər çoxdur. Lakin təəssüf hissi ilə bildirfməliyik ki, bu "Divan"dan indiki və gələcək nəslə iki mühüm səbəbdən yararlanmaq çətinlik törədir. Əvvəla, əsər türk-ərəb lüğətidir bu səbəbdən türk sözlərinin təsviri və izahı ərəb dilində təqdim olunmuşdur. Bununla əlaqədar olaraq ərəb dilini mükəmməl səviyyədə bilməyənlərin bu lüğətdən faydalanması qeyri-mümkündür. Digər tərəfdən isə bu mənbədən istifadə etmək üçün yalnız ərəb dilini mükəmməl bilmək də kifayət etmir. Daha dəqiq desək, istifadə olunmuş üsul da ərəb dilinin xüsusiyyətlərinə aid olduğundan tələb olunan sözü əlifba sırası ilə tapmaq da mümkün deyildir. Burada ərəb sözlərinin qruplaşdırılmasına əsasən axtarış vermək olur. Bu kimi problem nəzərə alındığından əsər müasir Azərbaycan dilinə tərcümə edilmişdir.

Kaşğarinin bu dəyərli "Divan"nı ilə bağlı bir çox türk dilçiləri çoxsaylı tədqiqat işləri aparmışlar. Müasir dövrümüzdə də əsərlə bağlı araşdırmalar davam etməkdədir. Əsərin bizə görə ən maraqlı tərəfi türk dillərinin kökünü, tarixi variantının öyrənilməsində əvəzsiz rola malik olmasıdır [3, 95].

Əsərlə bağlı Azərbaycan dilçiləri də bir çox tədqiqatlar aparmış, əsərin dilimizin tarixi qatlarının öyrənilməsindəki əhəmiyyəti dəfələrlə vurğulanmışdır. Aparılan tədqiqatlar müxtəlif şaxəli olması ilə diqqətə layiqdir. Qeyd etməliyik ki, müasir dövrümüzdə də dilçilərimiz "Divan"la bağlı araşdırmalarını davam etməkdədir.

Qədim türk yazılı abidələrində isimlər istər xarici, istərsə də yerli türkoloqlar tərəfindən xüsusi tədqiqat obyekti kimi araşdırılmışdır. Kaşğarinin "Divan"ında isə isimlə bağlı araşdırmalar bir qədər sonrakı dövürləri əhatə edir. "Divan"da nitq hissələrinin hər biri istisnasız olaraq o cümlədən də isimlər geniş formada təmsil olunmuşdur. Ramiz Əskərin tədqiqatlarına əsasən qeyd edə bilərik ki, "Divan"ın Azərbaycan dilinə tərcüməsində verilmiş 7796 maddənin yarısından çoxu adların payına düşür [2, 141].

Əsərdəki sadə isimələrlə bağlı tədqiqatımıza əsasən deyə bilərik ki, müəllif türk dilindəki heca məsələsinə ərəb qrammatikasına uyğun olaraq hərf prizmasından yanaşmışdır. O, türk dilində sözlərin iki hərfli (bir hecalı) və ya üç hərfli (iki hecalı) olduğunu qeyd edir. Məsələn: at (bir hecalı), azuk=azuqə (iki hecalı).

Tədqiqatlarımıza əsasən qeyd edə bilərik ki, "Divan" da dörd hərfli sadə isimlər də vardır. Məsələn: çağmur=sağlam, yağmur=yağış.

Bununla yanaşı əsərdə beş, altı və nəhayət yeddi hərfli sadə isimlərin də yer aldığını qeyd etməliyik. Beş hərfli sadə sözlər üç hecalıdır. Məsələn: **kuruğşak** sözünə nəzər yetirək bu söz "Divan"da qursaq, mədə və kaftanın iki ətəyindən biri mənasında istifadə edilmişdir. Altı hərflilər isə dörd hecalı ola bilər. Altı hərflilərdən isə **kudhurğun** sözünü nümunə kimi göstərə bilərik bu söz quyruqaltı və quşqun mənalarında istifadə edilmişdir.

Nəhayət sadə isimlərdən danışarkən burda yeddi hərfli sözlərdən də istifadə olunduğunu qeyd etmək yerinə düşər. Lakin onu da vurğulamalıyıq ki, "Divan"da yeddi hərfli sadə isimlərin sayı olduqca azdır. Məsələn: yeddi hərfli (faktiki olaraq üç hecalı, səkkiz hərfli) **zarğunçmud** sözünü misal göstərə bilərik ki, bu söz bir növ ətirli dağ reyhanı mənasında istifadə olunur [1, 43].

Belə ki, "Divan"da bir, iki hecalı sadə isimlər say etibarı ilə olduqca çoxdur. Bu tipli isimlərin struktur və qəlibləri haqqında Ramiz Əskər ətraflı məlumat vermişdir. O, lüğətdəki sadə isimlərin struktur qəlibini on səkkiz formasını qeyd edir.

Lüğətdə sözlərdəki hecaların sayı artdıqca təbii ki, struktur variasiyaları da müvafiq olaraq çoxalır. Onu da deməliyik ki, əsərdə üç hecalı isimlərin sayı olduqca çoxdur lakın onların bir çoxunun sadə isim olub olmaması şübhə doğurur. "Divan"da dörd, beş və daha çox hecalı sadə isimlərə isə rast gəlinmir.

Qeyd etməliyik ki, "Divan"da verilən isimlər quruluşuna görə sadə, düzəltmə və mürəkkəbdir. Bu da müasir Azərbaycan dili ilə səsləşir.Bildiyimiz kimi yalnız bir kökdən ibarət olan, şəkilçi qəbul etməyən, məhfum və əşyaların adlarını bildirən isimlərə sadə isimlər deyilir. "Divan"da verilən isimlər iki, üç və bəzən dörd hecadan ibarətdir. Divanda bir kökdən ibarət olan və bir, iki hecalı sadə isimlər say etibarı ilə üstünlük təşkil edir. Məsələn: **əs, at ər, ot** və s [5, 77]. kimi isimlər bu qəbildəndir.

Müasir Azərbaycan dilinə nəzər yetirsək bir kökdən ibarət olan isimlərin bir çoxunun "Divan"da istifadə olunan bir köklü sadə isimlərlə ortaqlıq təşkil etdiyini deyə bilərik. Məsələn: yuxarıda qeyd etdiyimiz **ot** və **at** sözləri bu qəbildəndir. Hansı ki, istər Kaşğarinin "Divan"ında, istərsə də çağdaş Azərbaycan dilində eyni mənada istifadə olunur. **Ər** sözü isə "Divan"da igid mənasında istifadə olunur. Uzun illər dilimizdə bu mənada istifadə olunan ər sözü müasir dilimizdə həmin mənada istifadə edilmir.

"Divan"da müasir dilimizlə ortaqlıq təşkil edən sözlərin tədqiqi zamanı hərf fərqi ilə müasir dövürdən fərqlənən sözlərin də az olmadığını müşahidə etdik. Məsələn **təmür, əv, suv** sözlərini nəzərdən keçirək. Belə ki, bu sözləri oxuduqda mənaları bizə aydın olsa da görürük ki, müasir dövrümüzdə bu sözlər eyni məna daşısalar da fərqli formada yazılır. Daha dəqiq desək, müasir dövrümüzdə təmür yox dəmir, əv yox ev, suv yox su formasında yazılır və tələffüz edilir.

Əsərdə mücərrəd mənalı sadə isimlər də say etibarı ilə az deyildir. Bu sözlər arasından da müasir Azərbaycan dili ilə uyğunluq təşkil edən sözlərlə qarşılaşmaq mümkündür. Lakin burda da müəyyən hərf fərqləri ilə qarşılaşırıq. Məsələn

"Divan"da verilən **umunc** sözünü misal göstərə bilərik. Bu söz çağdaş dilimizdə ümid, ümid etmə mənalarında istifadə olunur.

Sadə isimlərin tədqiqi zamanı müasir Azərbaycan dili ilə olduğu kimi eynilik təşkil edən sözlərin də az olmadığını müşahidə etdik. **Ana, ata, oba, arı** və s [2, 76]. kimi sözlər müasir Azərbaycan dilində də eyni formada yazılaraq "Divan"da istifadə olunduğu mənada istifadə edilir.

"Divan"da istifadə edilən isimlər yalnız bir köklü isimlər olmayıb, kəmiyyət şəkilçili sadə isimlərə də yer verilmişdir. Bildiyimiz kimi kəmiyyət kateqoriyası usmə aid olan morfoloji kateqoriyalardan biridir. Qeyd etməliyik ki, müasir dövrümüzdəki -lar, -lər cəm şəkilçilərindən əlavə fərqli cəm şəkilçilərindən də istifadə olunub. Doğrudur, bu cəm şəkilçilərinin bəziləri müasir dialektlərimizdə istifadə olunsa da biz ədəbi dilə uyğun olan -lar, -lər şəkilçiləri ilə cəmlənən sadə isimləri nəzərdən keçirək: **ər+lər, arvad+lar** və s [2, 77]. kimi sözləri qeyd edə bilərik.

Bütün bunlarla yanaşı "Divan"da müxtəlif məna kateqoriyalarına aid olan sadə isimlər vardır ki, müasir dilimizlə səsləşir. Səma cisimlərinin adlarına nəzər yetirsək burada **Ay** sözünün bugün də eyni formada istifadə olunduğunu deyə bilərik. Bundan əlavə **yulduz** sözü ilə də qarşılaşırıq hansı ki, müasir dövrümüzdə ulduz formasında istifadə edilsə də uzun illər dilimizdə yulduz şəklində olmuşdur.

Tədqiqatlarımıza əsasən deyə bilərik ki, sadə isimlərdə ən az dəyişiklik insan anatomiyası və fiziologiya ilə bağlı olan sözlərdə təsadüf edilir. Məsələn: **sol əlig=sol əl, köz=göz, yüz=üz, biləк=biləк, kulak=qulaq** və s [6, 37]. Gördüyümüz kimi insan anatomiyası ilə bağlı sözlərin demək olar ki, əksəriyyəti çox az dəyişikliyə uğrayaraq bugünkü dilimizdə də istifadə edilir.

Ev heyvanlarının adaları ilə bağlı sadə isimlərə nəzər yetirsək burda da hərf fərqi ilə müasir Azərbaycan dilindən fəqlənən sözlərin üstünlük təşkil etdiyini görürük. Məsələn: **tay= day, dayça, koç=qoç, oğlak=oğlaq** kimi sözlərə nəzər yetirsək görərik ki, bu sözlər də müasir dilimizdən çox fərqlənmir. Yalnız müəyyən hərf fərqi ilə çağdaş dilimizdən ayrılır.

Eyni hal bitki adları ilə bağlı olan sözlərdə də müşahidə olunur**. Yığac=ağac, çəçək=çiçək, buğday=buğda** kimi sözlər hərf fərqi ilə müasir dövrümüzdən fərqlənir. Lakin "Divan"da bu sözləri oxuduqda onları rahatlıqla başa düşmək mümkündür. Bitki adlarını ifadə edən sözləri nəzərdən keçirdiyimiz zaman burda arpa sözü ilə qarşılaşdıq. Qeyd etməliyik ki, bu söz çağdaş dilimizdə də eyni formada istifadə edilir.

Lüğətin hərbi leksikası ilə bağlı sözlərə nəzər yetirdiyimiz zaman deyə bilərik ki, burda bir çox sözlər müasir dilimizlə uyğunluq təşkil etmir. Fikrimizcə, bu hal tarixi, ictimai və siyasi dövrün sürətli dəyişməsi ilə əlaqədar olaraq baş vermişdir. Lakin **bayrak=bayraq, kılıç=qılınc** kimi sözlərdə müasir dilimizə yaxınlıq vardır.

Yemək, ərzaq adları ilə bağlı sözlərin də əksəriyyəti çağdaş dövrdə çox az fərqlərlə istifadə olunmaqdadır. Bu kimi sözlərə **yuğa=yuxa, lavaş, yağ=yağ, sirkə=sirkə, kurut=qurut** və s [4, 121]. kimi sözləri misal gətirə bilərik. Bu qəbildən olan sözlər say etibarı ilə kifayət qədər çoxdur. Daha dəqiq desək, ərzaq adlarını ifadə edən sözlərin bir çoxu müasir Azərbaycan dili ilə eynilik təşkil edir. Bəziləri isə müəyyən hərf fərqi ilə çağdaş dilimizdən ayrılır. Lakin bu tipli sözləri də rahatlıqla başa düşmək mümkündür.

Xülasə, M. Kaşğarinin divanında verilən sadə isimlərin bir çoxu dilimizlə eynilik təşkil etsə də hərf fərqi ilə müasir Azərbaycan dilindən fərqlənən sözlər daha çox üstünlük təşkil edir. Fikrimizcə, bu sözlər tarixən Azərbaycan dilində uzun illər "Divan"da əks olunduğu şəkildə istifadə edilmiş, tarixi, ictimai-siyasi dəyişikliklərlə əlaqədər olaraq bugünkü formada istifadə olunmağa başlanılmışdır.

Müasir dilçiliyin keçdiyi inkişaf yolunun tədqiq edilməsi baxımından olduqca əhəmiyyətli olan bu kimi araşdırmalar həm dilçilik, həm də dil tarixi üçün zəngin faktlar verir. "Divani lüğət-it-türk" əsəri ilə bağlı demək olar ki, aparılan araşdırmalar hər zaman öz aktuallığını qoruyub saxlayır. Bu kimi araşdırmalar elmi nəzəriyyələrin daha da dəqiqləşməsinə və gələcək tədqiqatların əhatəsini genişləndirməyə istiqamət verən tədqiqat kimi olduqca əhəmiyyətlidir.

Kaşğarinin bu əsəri mədəni dəyərlərə çox böyük bir ehtiramdır. Bir sözlə bu lüğət türk dillərinə aid əlimizə gəlib çatan ilk mənbə kimi çox dəyərlidir. M. Kaşğarinin adı və bizlərə ərmağan etdiyi qiymətli "Divani lüğət-it-türk" əsəri min il sonra yaşayır və bundan sonra da minlərcə il yaşayacaqdır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əskər R. Mahmud Kaşğari və onun "Divanü lüğət-it-türk" əsəri. – Bakı: MBM. 2008, s. 432.
2. Əskər R. Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk" əsəri üzrə biblioqrafik və qrammatik göstərici. – Bakı: MBM. 2008, s. 192.
3. Əzizov, E. M.Kaşğari lüğəti və XI əsrin türk dialektləri. Söz xəzinəsi. Bakı. Maarif. 1995, s. 163.
4. Hüseynova M. Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri. – Bakı: ADPU nəşriyyatı. 2022, s. 274.
5. Kaşğari M. Divanü lüğat-it-Türk I cild. Bakı. Elm və təhsil. 2024, s. 544.
6. Kaşğari M. Divanü lüğat-it-Türk. II cild. Bakı. Ozan. 2006, s. 400.

XÜLASƏ

Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsəri bütün dövrlərdə türk dillərinin tədqiqi, öyrənilməsi və tarixi qatlarının araşdırılması baxımından ən vacib mənbələrdən biri olmuşdur. Çağdaş Azərbaycan dilində aparılan araşdırmalarda da

bu əsər öz aktuallığını qoruyub saxlamaqdadır. Müasir araşdırmalar əsasən "Divan"da verilən sözlərin çağdaş dilimizlə uyğunluğu baxımından tədqiq edilməsi istiqamətindədir. Bizim məqaləmizdə isə sadə isimlərin çağdaş Azərbaycan dili ilə uyğunluğu araşdırılmış, eynilik təşkil edən sözlər seçilərək məqalədə əks olunmuşdur. "Divan"ın bu istiqamətdə tədqiq edilməsi müasir dilimizin tarixi qatları, leksikası və morfologiyasının öyrənilməsi və müasir dövrümüzlə uyğunluğunun müəyyənləşdirilməsi baxımından dəyərlidir.

САБИНА НАМИК АЛИЕВА

ПРОСТЫЕ СУЩЕСТВИТЕЛЬНЫЕ, ИМЕЮЩИЕ ОБЩИЕ ОТНОШЕНИЯ МЕЖДУ СОВРЕМЕННЫМ АЗЕРБАЙДЖАНСКИМ ЯЗЫКОМ И «ДИВАНИ ЛУГАТ-ИТ-ТУРК»

РЕЗЮМЕ

«Словарь Дивани-ит-Турецкий» Махмуда Кашгари был одним из важнейших источников для изучения, изучения и исторических пластов тюркских языков на протяжении всей истории. Данная работа сохраняет свою актуальность в исследованиях, проводимых в области современного азербайджанского языка. Современные исследования в основном сосредоточены на изучении слов, приведенных в «Диване», с точки зрения их совместимости с нашим современным языком. В нашей статье была рассмотрена сочетаемость нарицательных имен существительных с современным азербайджанским языком, а также были отобраны и отражены в статье слова, составляющие их. Изучение «Дивана» в этом направлении ценно с точки зрения изучения исторических пластов, лексики и морфологии нашего современного языка и определения его актуальности для нашей современной эпохи.

SABINA NAMIK ALIYEVA

COMMON NOUNS BETWEEN MODERN AZERBAIJAN LANGUAGE AND THE WORK "DİWAN LUGHAT-IT-TURK"

SUMMARY

Mahmud Kashgari's work "Diwani lughat-it-Turk" has been one of the most important sources in terms of research, study and historical layers of Turkic languages at all times. This work also maintains its relevance in the research conducted on the modern Azerbaijani language. Modern research is mainly aimed at studying the words given in "Divan" in terms of their compatibility with our modern language. In our article, the compatibility of simple nouns with the modern Azerbaijani language was investigated, and the words that constitute the identity were selected and reflected in the article. The study of "Divan" in this direction is valuable in terms of studying the historical layers, lexis and morphology of our modern language and determining its compatibility with our modern era.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: professor Mahirə Hüseynova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,
Filologiya məsələləri № 4, 2025
Səh. 15-21

ISSN 2224-9257

https://doi.org/10.62837/2025.4.15

XƏYALƏ ƏLIYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti

POLİSEMİYANIN EKSPRESSİV POTENSİALI: LEKSİK POLİSEMİYA

Xülasə

Polisemiyanın ekspressiv potensialı xüsusilə leksik polisemiyanın imkanları kontekstində dilin emosional və üslubi ifadə gücünün formalaşmasında mühüm rol oynayır. Leksik polisemiyanın verdiyi çoxmənalılıq bir sözün müxtəlif kontekstlərdə fərqli mənalar ifadə etməsinə və bu yolla mətnə əlavə emosional və təsirli çalarlar qatmasına şərait yaradır. Bu, dilin yalnız informasiya ötürmək deyil, eyni zamanda fikir və hissləri daha obrazlı və ifadəli şəkildə təqdim etmək funksiyasına xidmət edir.

Müasir dövrdə dilin kommunikativ imkanlarının genişlənməsi, bədii ədəbiyyat və tərcümə sahələrində sözlərin çoxmənalı istifadəsinin aktuallaşması leksik polisemiyanın ekspressiv potensialının araşdırılmasını zəruri edir. Məqalənin məqsədi leksik polisemiyanın müxtəlif kontekstlərdə necə emosional və üslubi çalar yaratdığını və nitqin ifadəliliyinə xidmət etdiyini təhlil etməkdir. Beləliklə, bu tədqiqat polisemiyanın yalnız semantik deyil, həm də ekspressiv və üslubi qatlarının üzə çıxarılması baxımından mühüm elmi və praktik əhəmiyyət kəsb edir.

Polisemik strukturların ekspressivlik baxımından potensialını daha dərindən dəyərləndirmək üçün ilk növbədə bu strukturların daşıdığı funksiyaların sistemli şəkildə təhlili vacibdir. Bu təhlil çərçivəsində polisemik vahidlərin mətnə hansı emosional çalarlar əlavə etdiyi, qeyri-müəyyənlik yaratmaqla semantik çoxmənalılığa necə təsir göstərdiyi, ironiyanın formalaşmasında və implicit (gizli) mənaların ötürülməsində hansı rolu oynadığı müəyyən edilməlidir. Beləliklə, bu funksiyalar arasında xüsusilə emosional təsir gücü, semantik qeyri-müəyyənlik və kontekstual çoxmənalılıq baxımından ən mühüm olanların seçilməsi, polisemik strukturun ekspressiv imkanlarını tam şəkildə üzə çıxarmağa imkan verir.

Açar sözlər: polisemiya, leksik polisemiya, semantik məna, diffuziya, leksik məna

Leksik polisemiya — eyni dil vahidinin, yəni bir sözün müxtəlif kontekstlərdə gerçəkliyin fərqli obyekt və hadisələrini ifadə etmək qabiliyyətidir. Bu xüsusiyyət, sözün semantik strukturunun çoxqatlılığını və kontekstual çevikliyini göstərir [6, s. 82]. Məsələn, ingilis dilindəki *"field"* ismi bir neçə leksik mənada işlədilə bilər və müxtəlif sahələri, fəaliyyət növlərini və ya məkan anlayışlarını ifadə edir.

1. *çöl, otlaq, geniş ərazi* (məs.: a green field);
2. *faydalı qazıntılar yatağı* (məs.: oil field);
3. *idman meydançası* (məs.: football field);
4. *yarış iştirakçılarının ümumi qrupu* (məs.: a strong field of competitors);
5. *döyüş meydanı* (məs.: field of battle);
6. *fəaliyyət sahəsi, təsir dairəsi* (məs.: field of operation);
7. *elm və ya peşə sahəsi* (məs.: field of science);
8. *rəsm əsərində fon, əsas qat* (məs.: the red field of the painting);
9. *heraldikada qalxanın sahəsi və ya hissəsi* (field);
10. *elektrik və ya maqnit sahəsi* (məs.: electromagnetic field);
11. *tədqiqat sahəsi* (məs.: field research) [4, s.56].

Bu nümunələr leksik polisemiyanın yalnız semantik zənginlik deyil, həm də ünsiyyət baxımından dilin ifadə imkanlarını necə genişləndirdiyini nümayiş etdirir.

Polisemik sözlərin konkret mənasının müəyyənləşdirilməsi prosesi birbaşa olaraq həmin sözün digər leksik vahidlərlə olan birləşmə qabiliyyətindən — yəni leksik-semantik uyğunluqdan (valensiyadan) asılıdır. Sözlərin kontekstdə qazandığı məna çalarları, əsasən, onları müşayiət edən sözlər və ifadələrlə müəyyən edilir. Məsələn, *field* sözü *field theory* (sahə nəzəriyyəsi), *magnetic field* (maqnit sahəsi) və *field hockey* (xokkey meydançası) kimi söz birləşmələrində müxtəlif semantik sahələri əhatə edən tamamilə fərqli leksik mənalarda çıxış edir. Bu tip birləşmələrdə sözün məzmunu yalnız izolyasiya olunmuş halda deyil, məhz sintaktik və semantik kontekstdə dəyərləndirildikdə aydın olur. Beləliklə, polisemik sözlərin funksional imkanlarının və ekspressiv potensialının reallaşması, ilk növbədə, onların mətn daxilində digər leksik vahidlərlə qurduğu əlaqələr vasitəsilə baş verir.

Sözün konkret mənasının ortaya çıxması yalnız onun birbaşa kontekstindən deyil, həm də daha geniş kontekstdən və ümumi nitq mövzusundan asılıdır. Həmçinin, kontekstin rolu yalnız çoxmənalı sözün müəyyən mənasını şərtləndirməkdə deyil, bəzi hallarda semantik diffuziya yaratmaqla da özünü göstərir. Semantik diffuziya dedikdə, müxtəlif leksik mənaların bir-birinə qarışması və onların fərqləndirilməsinin zəruri olmadığı vəziyyətlər nəzərdə tutulur. Məsələn, bəzi mənalar yalnız müəyyənləşdirici sözlərlə birlikdə işlənir, bu zaman onların məna çalarları konkretləşir, məsələn *"magnetic field"* (maqnit sahəsi). Bəzi hallarda isə çoxmənalı söz frazeoloji tərkiblərlə birləşərək sabit ifadə formalarına çevrilir, məsələn *"field of vision"* (görmə sahəsi), burada mənalar artıq kontekstual şəkildə formalaşır. Beləliklə, yalnız leksik uyğunluqlar və söz yaradıcılığı xüsusiyyətləri deyil, həm də sözün qrammatik uyğunluqları, yəni müəyyən qrammatik strukturlarda necə işlənməsi, sözün müxtəlif mənalarını müəyyən edir [3, s.78].

Çoxmənalı sözlər arasında müəyyən bir əlaqə mövcuddur və bu əlaqə onları eyni sözün müxtəlif mənaları kimi qəbul etməyə imkan verir, fərqli olaraq, omonimlərdə (eyni sözün fərqli mənaları) belə bir əlaqə yoxdur. Bəzi tədqiqatlarda

bu leksik mənalar "leksiko-semantik variantlar" adlandırılır. Sözün mənası, onun istifadə edildiyi kontekstdən və situasiyadan asılı olaraq dəyişir, yəni söz öz semantikasını müxtəlif tərəflərdən göstərir. Hətta sözün daha uzaq mənaları belə, həmin kontekstdə hələ də potensial olaraq mövcuddur. Bu, həmçinin, sözün mənalarının inkişafını məhdudlaşdıran faktorlar və bu sözün törəmələrindən və sinonimlərdən istifadə etmə imkanı ilə bağlıdır.

Çoxmənalı sözlərin mənaları müəyyən bir semantik bütöv təşkil edir və bu əlaqə, sözlərin reallıqlarda (forma, xarici görünüş, rəng, mövqe, funksionallıq) oxşarlıq və ya yaxınlıq əsasında qurulur. Bu prinsiplə əlaqəli olaraq, sözlərin mənaları arasında metaforik və metonimik əlaqələr fərqləndirilir. Çoxmənalı sözlərin mənaları arasındakı semantik əlaqə, həmçinin onların ortaq elementlərə – semantik birliyə malik olması ilə də ifadə olunur. Bununla yanaşı, bəzi hallarda sözün transfer edilmiş (məcaz) mənaları, əsas mənaların ümumi elementləri ilə deyil, yalnız assosiativ xüsusiyyətlər və ya əlaqəli əlamətlərlə əlaqədar olur. Məsələn, *"to cast a shadow"* (kölgə salmaq) və *"a shadow of doubt"* (şübhə kölgəsi) ifadələrində olduğu kimi. Bu cür mənaların izahı, həmin sözün digər mənalarına xas olan xüsusiyyətləri ehtiva etmir və yalnız xüsusi assosiativ əlaqələrə əsaslanır [7, s. 83].

Çoxmənalı sözlərin əsas (birbaşa) və törəmə (məcaz) mənalarının ayırd edilməsi zamanı, sözün bu mənalarla əlaqəsi paradiqmatik və sintaqmatik baxımdan nəzərdən keçirilir. Əsas mənalar paradiqmatik cəhətdən daha sabitdir və sintaqmatik baxımdan daha sərbəstdir. Bu, əsas mənanın ən az kontekstdən asılı olan mənada olduğunu göstərir (yəni, söz kontekstdən kənarda səsləndirildikdə, dil istifadəçisinin ağlında ilk yaranan mənadır). Əsas və törəmə mənalar arasındakı əlaqə sabit deyil; bəzi hallarda, sözün tarixən ikinci dərəcəli mənaları əsas və əsaslı mənalar halına gəlir. Çoxmənalı sözün mənalarının birləşməsi hər zaman müəyyən bir təşkilatlanma ilə xarakterizə olunur, bu da sözün mənalarının yenidən bölüşdürülməsi (semantik strukturunun dəyişməsi) ilə təsdiq olunur. Sözün özlüyü ümumiyyətlə şübhə altına alınmaz. *"Çoxmənalı sözün strukturunda ümumi mənanı ayırd etmək çətindir, çünki çoxmənalı sözlərin müxtəlif predmetlər və hadisələrlə əlaqəsi, onlara ümumi və birləşdirici bir mənanın verilməsini çətinləşdirir. Belə olduqda, bu ümumiləşdirilmiş məna çox geniş və konkretlikdən uzaq olacaq (həddindən artıq "həcmli"), ya da məzmun baxımından boş, yəni praktik olaraq faydasız olacaq"* [5, s. 14].

İngilis dili leksikasının özünəməxsusluğu və onun semantik strukturunun digər dillərlə uyğun gəlməməsi, əsas etibarilə, bu dildəki polisemiyanın spesifik xüsusiyyətləri ilə bağlıdır. İngilis dilində çoxmənalılığın formalaşmasına və inkişafına təsir edən əsas amillərdən biri uzun tarixi dövr ərzində baş vermiş kütləvi leksik alınmalardır. Bu alınmalar nəticəsində dilə daxil olan sözlər zamanla yeni kontekstlərdə işlənərək əlavə semantik yüklər qazanmış və çoxmənalı hala gəlmişdir. Eyni zamanda, ingilis dilinin beynəlxalq miqyasda geniş yayılması və sürətli inkişafı

da onun semantik sistemində dinamik dəyişikliklərə, o cümlədən polisemiyanın dərinləşməsinə səbəb olmuşdur.

Mövcud adların artıq müəyyən mənaları ilə təkrarlanan istifadəsinin əsas səbəbləri, ən çox ehtimal ki, dilə aid olmayan (ekstraparadiqmatik) faktorlardan irəli gəlir. İnsanların həyatında baş verən müxtəlif tarixi, sosial, iqtisadi və texnoloji dəyişikliklər yeni adların və terminlərin yaranmasına və mövcud olanların yenidən istifadəsinə zərurət yaradır.

Yeni adlandırmalara olan ehtiyacın ödənilməsi məqsədilə dil sistemində artıq mövcud olan nominativ vasitələrin yeni, kontekstdən irəli gələn mənalarda işlədilməsi geniş yayılmışdır. Başqa sözlə, leksik vahidlərin semantik imkanları genişlənərək, əvvəlki əsas mənaları ilə yanaşı, yeni konseptual sahələri ifadə etməyə başlamışdır. Məsələn, *collar* (ənənəvi olaraq "yaxa, yaxalıq" mənasında) texniki sahədə "halqa, şayba" kimi işlədilir; *cage* (əvvəllər "qəfəs") artıq moda sahəsində "dar don üzərindən geyilən, üstü krujevalı libas" mənasında istifadə olunur; *ship* isə ("gəmi" mənası ilə yanaşı) müasir texnologiyada "raket qurğuları vasitəsilə orbitə buraxılan kosmik aparat" mənasını da kəsb etmişdir. Bu nümunələr leksik vahidlərin semantik strukturunun kontekstual və funksional tələblərə uyğun olaraq necə inkişaf etdiyini göstərir [2, s.46].

Sözün semantik dəyişməsində sosial faktorlar, xüsusən də müəyyən sosial qruplar tərəfindən sözlərin istifadəsi mühüm rol oynayır. Hər bir sosial mühit özünəməxsus adlandırma sisteminə malikdir, bu da həmin sözün müxtəlif sosial, mədəni və peşə qruplarında fərqli məna kəsb etməsinə səbəb olur. Nəticədə, bu sözlər çoxmənalı olur [1, s.113]. Məsələn, müasir ingilis dilində *ring* sözü bir sıra mənalarda işlədilir: "yaxa" (jurnalistikada), "alpinistlərin ipi üçün halqa", "basketbol halqası", "sirk arenası", "güləş rinqi" və s. Eyni şəkildə, *doctor* sözü də müxtəlif mənalarda işlədilir: "həkim", "elmi dərəcə", "teoloq" (din alimləri). Bu nümunələr sosial və peşə mühitlərinin təsiri ilə sözlərin mənalarının necə genişləndiyini və çoxmənalılığını göstərir.

Leksik polisemiyanın inkişafını müəyyənləşdirən amillərdən biri də psixoloji səbəblərdir. Belə ki, müəyyən qorxu hissləri və dini inanclar səbəbindən insanların bəzən adətən tabu olan anlayışları ifadə etməkdən çəkinməsi, semantik dəyişikliklərə səbəb ola bilər. Məsələn, xurafat üzündən insanlar şeytanın, pis ruhların, Tanrının adını çəkməkdən qaçınır. Həmçinin, bəzi narahat edici və həssas mövzular – məsələn, xəstəlik, ölüm və s. – haqqında danışarkən insanlar ehtiyatla yanaşır, çünki bu mövzular adətən sosial baxımdan tabu olaraq qəbul edilir. Bütün bunlar, həmçinin obyektlər və hadisələrə qarşı emosional qiymətləndirmə dəyişiklikləri ilə əlaqəlidir. Belə vəziyyətlərdə danışanlar ehtiyac duyduqları mənaları ifadə etmək üçün evfemizmlərdən istifadə etməyə başlayırlar. Zaman keçdikcə, bu evfemizmlər orijinal mənalarından fərqli olaraq, yeni və sabit semantik xüsusiyyətlərə malik olur.

Yeni mənaların yaranmasında çoxmənalı ingilis isimlərinin dəyişən sosial və mədəni tələblərlə əlaqəsi böyük rol oynayır. Məsələn, *hostess* sözü əvvəlcə yalnız ev sahibəsi və ya mehmanxana sahibi kimi işlədilirdisə, son dövrlərdə bu söz, həm də pullu tərəfdaş (gecə klubunda çalışan qadın) mənasında istifadə edilməyə başlanmışdır. Eyni şəkildə, *head* sözü "baş" mənasından əlavə, "narkoman" mənasını da qazanmışdır. Bundan başqa, *model mystery* ifadəsi son illərdə "asudə həyat tərzi keçirən qadın" mənasında işlədilir. Bu nümunələr sosial dəyişikliklərin, xüsusilə də yeni reallıqların və ya mövcud anlayışların dilin semantik strukturlarına necə təsir etdiyini göstərir.

Çoxmənalılıq həm də sinonimlərin fərqlənməsi nəticəsində meydana gələ bilər. Məsələn, ingilis dilindəki *bird* (quş) və *fowl* (ev quşu, xüsusən toyuq) sözləri arasında olduğu kimi. Bundan əlavə, semantik analogiya da çoxmənalılığa səbəb ola bilər. Belə halda, bir söz qrupundakı hər hansı bir söz yeni mənalar qazandıqca, digər sözlər də analoji şəkildə oxşar mənalar əldə edir. Məsələn, ingilis dilindəki *get*, *grasp* kimi sözlər, *catch* (tutmaq, yaxalamaq) sözünə sinonim olaraq, "mənanı tutmaq, anlamaq" mənasını qazanmışdır. Bu analoji inkişaf nəticəsində, *get* və *grasp* da "anlamaq, dərk etmək" mənasını əldə etmişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, daxili dil amillərinin təsiri, eksterlinqvistik amillər tərəfindən çoxmənalılığın yaranmasına təsir göstərmək qədər aydın deyil və bu səbəbdən də daha az öyrənilmişdir. Semantik dəyişikliklərin səbəbləri, əvvəlki bölmələrdə göstərildiyi kimi, müxtəlif ola bilər. Həmçinin, bu dəyişikliklər öz təbiətinə görə fərqli xarakter daşıyır, çünki onların əsasında müxtəlif qanunauyğunluqlar dayanır. Başqa sözlə, bir obyektin adının başqa bir obyektə tətbiqi qeyri-adi və ya təsadüfi şəkildə baş vermir. Bu prosesin əsasında assosiasiyaların qanunları dayanır. Bu qanunlar, bir sözün tarixi inkişafı prosesində baş verən semantik dəyişikliklərin növlərini müəyyənləşdirir.

Ədəbiyyat

1. Hacıyeva, S. Bədii mətndə çoxmənalılığın üslubi funksiyaları. // Bakı: Filologiya məsələləri, - 2020. №1, s. 112–118.
2. Yusifova, R. Leksik polisemiyanın semantik və funksional xüsusiyyətləri. // Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Əsərləri, 2015. №3, s. 45–52.
3. Lyons, J. Semantics (Vol. 1–2). Cambridge University Press, 1977.
4. Murphy, M.L. Lexical Meaning. Cambridge Textbooks in Linguistics, 2010.
5. Болдырев Н.Н. Значение и смысл с когнитивной точки зрения и проблема многозначности / Н.Н. Болдырев // Когнитивная семантика: материалы Второй международной школы-семинара по когнитивной лингвистике, Тамбов, 11-14 сент. 2000 г. - Тамбов: Тамбов. ун-т, 2000. - с.11-17.

6.Гак В.Г. Семантическая структура слова как компонент семантической структуры высказываний // Семантическая структура слова. - М., 2001, с. 80-92.
7.Губанова И.С. Многозначность слова в языке речи. М. - 2004, с.74-86.

KHAYALA ALIYEVA

THE EXPRESSIVE POTENTIAL OF POLYSEMY: LEXICAL POLYSEMY

ABSTRACT

The expressive potential of polysemy, particularly within the framework of lexical polysemy, plays a significant role in shaping the emotional and stylistic expressiveness of language. The multiplicity of meanings provided by lexical polysemy allows a single word to convey different meanings in various contexts, thereby adding additional emotional and stylistic nuances to the text. This contributes to the function of language not only as a means of transmitting information, but also as a tool for conveying thoughts and emotions in a more vivid and expressive manner.

In contemporary linguistic studies, the expansion of language's communicative capabilities and the increasing relevance of polysemous word usage in literary discourse and translation practices highlight the necessity of exploring the expressive potential of lexical polysemy. The primary objective of this article is to examine how lexical polysemy functions in various contextual environments to create emotional and stylistic nuances, thereby contributing to the overall expressiveness of speech. Consequently, this research is of both theoretical and practical significance, as it aims to uncover not only the semantic dimensions of polysemy but also its expressive and stylistic functions, which are essential for a deeper understanding of language dynamics in modern communication.

In order to comprehensively evaluate the expressive potential of polysemous structures, it is essential to systematically analyze the functions they perform within discourse. Within this analytical framework, particular attention should be paid to the emotional overtones that polysemous units contribute to the text, the way they generate semantic ambiguity through intentional uncertainty, and their role in the construction of irony and the transmission of implicit (hidden) meanings. Identifying and distinguishing the most significant among these functions—particularly those related to emotional impact, semantic indeterminacy, and contextual multiplicity of meaning—allows for a more precise and in-depth understanding of the expressive capacities inherent in polysemous structures.

Keywords: polysemy, lexical polysemy, semantic meaning, diffusion, lexical meaning

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 15-21

ХАЯЛА АЛИЕВА

ЭКСПРЕССИВНЫЙ ПОТЕНЦИАЛ ПОЛИСЕМИИ: ЛЕКСИЧЕСКАЯ ПОЛИСЕМИЯ

РЕЗЮМЕ

Экспрессивный потенциал полисемии, особенно в контексте возможностей лексической полисемии, играет важную роль в формировании эмоциональной и стилистической выразительности языка. Многозначность, которую обеспечивает лексическая полисемия, позволяет одному слову выражать различные значения в зависимости от контекста, тем самым придавая тексту дополнительные эмоциональные и выразительные оттенки. Это способствует реализации функции языка не только как средства передачи информации, но и как инструмента для более образного и выразительного выражения мыслей и чувств. В современную эпоху расширения коммуникативных возможностей языка и актуализации многозначного употребления слов в художественной литературе и сфере перевода изучение экспрессивного потенциала лексической полисемии приобретает особую актуальность. Цель данной статьи — проанализировать, каким образом лексическая полисемия в различных контекстах создает эмоциональные и стилистические оттенки и каким образом она способствует выразительности речи. Таким образом, данное исследование представляет собой значимый научный и практический вклад, направленный на выявление не только семантических, но и экспрессивных и стилистических аспектов полисемии.

Современными исследователями подмечен такой интересный факт: частотность напрямую связана с расстоянием от ядерной зоны – до периферии. Причём, во всех направлениях от центра. Если частотность по параболе постепенно снижается, то это расстояние в определённом процентном соотношении сокращается. Некоторые лингвисты при определённом контекстном окружении всё же причисляют некоторые прилагательные с цветонаименованием к терминам.

Например: «пломбирный» (имеется в виду белый или белесый оттенок угощения в виде мороженого – пломбира). Далее, от существительного «цветок» образуется прилагательное «цветочный». С одной стороны, речь идёт о любом ярком, бросающемся в глаза цвете. С другой стороны, цвет как бы смешивается с запахами. Так, чаще используется в словосочетании «цветочный запах» [духов]. Затем, от существительного «пепел» образуется прилагательное «пепельный». Понятно, что имеется в виду серый или тёмный цвет. Здесь же отметим, что архаизмы в русском языке также располагаются на периферии ядра ЛСП слов цветообозначений.

Семантическое поле цвета симптоматично включает в себя также и словосочетания, а в некоторых случаях соединение нескольких слов (цвет крови, бараньей ноги, конской гривы). Кстати сказать, азербайджанские лингвисты и литераторы-тюркологи выяснили, что эти цвета очень часто встречаются в эпосе «Китаби-Деде-Коркут».

Специфика систем имён прилагательных с цветообозначениями проявляется уже на уровне организации членов ядра. Об этом ясно свидетельствуют расхождения в квантитативном составе имён прилагательных

ядра в разных языках. Например, английское слов «blue» вовсе не идентично азербайджанскому «qöy», потому что охватывает сферу наименования только голубого цвета и исключает синий или зелёный. Они обозначаются иными лексемами. Примечательно, что цветовой спектр азербайджанского слова также значительно шире, чем русского «синий». В сферу qöy включаются ещё и такие цвета, как синевато-голубой, то есть синий с голубым отливом, собственно голубой (чистый цвет, как любят выражаться художники) и даже зелёный (правда, последний встречается реже). В русском языке это прилагательное конкретизировано, а оттенки выражаются словосочетанием.

Объективно говоря, в современном русском языке ядро и периферия цвета соотносятся друг с другом по аналогии с группой главных и вторичных цветонаименований. Поясним эту мысль. Первые, в основном, характеризуются номинативным признаком лиц, вещей или объектов природы и являются наиболее распространёнными. Белый, красный, черный, коричневый, серый и т.п. Показательно, что в тексте художественной литературы они могут быть как абстрактными, так и конкретными словами. Вторые – производные от них. Например, белый, «как молоко», «как снег»; чёрный, «как сажа», красный или алый, «как кровь» и т.д. Причём, названия объектов природы или окружающих предметов могут иметь с характерологическую окраску («похожий на молоко», «чёрен, как пепел»). От них же легко образуются такие слова, как молочный, пепельный (его производные: пепельно-серый или пепельно-чёрный). А также кровавый или ало-кровавый. В данном случае те имена прилагательные, которые пишутся через дефис, разумеется, становятся более абстрактными. Конкретика в них уходит как бы сама собой.

Использованная литература:

1.Гак В.Г. О контрастивной лингвистике. М.: Наука, 1989, выпуск XXV, с. 5-17.
2.Шмелёв Д.Н. Приёмы семантического анализа лексики. М.: Наука, 1973, с.280
3.Грановская Л.М. Цветообозначения в истории русской лексики. В книге: Русская историческая лексикология. М.: Наука, 1968, с. 83-95.
4.Потебня А.А. Из записок по русской грамматике. Харьков, 1899, т. III, 322 с.
5.Магеррамова Г.А. Синтаксический параллелизм в «Слове о полку Игореве» и «Книге моего деда Коркута». Дисс. … канд. филол. наук. Баку, 2008, 153 с.
6. Мустафаева К.С. Семантическая структура и символическое значение цветообозначений в эпосах «Китаби-Деде Коркут» и «Беовульф». Дисс. канд. филол. наук. Баку, 2018, 165 с.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 55-62

DÜNYANIN DİL ŞƏKİLLƏRİNİN PARÇASI KİMİ RƏNGLİ SİFƏTLƏR ADLARI RUS DİLİNDƏ

Rus dilində rəng sifətləri əsas və törəmə çalarların fərqləndiyi iyerarxik bir quruluş təşkil edir.

Müxtəlif dillərdə rəng terminlərinin formalaşması prosesi öz xüsusiyyətlərinə malikdir. Rus dilində mürəkkəb formalar geniş istifadə olunur, digər dillərdə isə analitik konstruksiyalar üstünlük təşkil edir.

Rəngin semantik sahəsi dilin həm universal, həm də spesifik xüsusiyyətlərini əks etdirən dinamik sistemdir. Bu mövzunun öyrənilməsi dilin strukturunu və onun ətrafdakı reallıqla qarşılıqlı əlaqəsini daha yaxşı başa düşməyə kömək edir.

Açar sözlər: rəng formalaşması, sifət, rəngin semantik sahəsi, dilçilik, rus dili

SABINA RAHIMOVA

COLOR-MARKED ADJECTIVES AS PART OF THE LINGUISTIC WORLDVIEW IN THE RUSSIAN LANGUAGE

SUMMARY

Color adjectives in Russian form a hierarchical structure, where basic and derivative shades are distinguished.

The process of forming color designations in different languages has its own characteristics. In Russian, complex forms are widely used, while in other languages, analytical constructions prevail.

The semantic field of color is a dynamic system that reflects both universal and specific features of the language. Research on this topic contributes to a better understanding of the structure of language and its interaction with the surrounding reality.

Keywords: color formation, adjective, semantic field of color, linguistics, Russian language.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyci: fil.ü.f.d.Yusufxanova N.Ə.
tərəfindən çapa tövsiyyə olunmuşdur.

, .

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,
Filologiya məsələləri № 4, 2025
Səh.63-67
ISSN 2224-9257

https://doi.org/10.62837/2025.4.63

SEVINC CAFAROVA
sevinc.ceferova110@gmail.com
İSMAYILOVA CHIMNAZ
chimnaz_ismailbeyli@mail.ru
KHULIYEVA SHARQIYA
squliyeva1@gmail.com
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun 167
Amu.edu.az

TRANSLATION AND INTERPRETATION OF NEW WORDS

Key words: interpretation, translation, difference, type, language, sinkhron.

The difference between translation and interpretation lies in each service's medium: interpreters translate spoken language orally, while translators translate the written word. Interpretation isn't word-for-word translation of a spoken message (1, page. 25-35).

The difference between interpreting and translation is only the difference in the medium: the interpreter translates orally, while a translator interprets, written text. Both interpreting and translation deep knowledge of more than one language (2.p.45)

The key difference between translation and interpretation is in the timing. Interpretation takes place on the spot. The process can occur in person, over

The differences in skills are greater than their similarities. The biggest difference between interpreters and translators is that most translators use computer-aided tools in their work. The biggest difference between interpreters and translators is that most translators use computer-aided tools in their work. Translators work on any information in written form: Websites, print, video subtitles, software, multimedia, the phone or via video. Translation can happen long after the source text is created. The key skills of the translators are the ability to understand the source language and the culture of the country where the text originated. Interpreters must have extraordinary listening abilities, especially simultaneous interpreting conferences and meetings, medical appointments, legal proceedings, live TV coverage, sign language. Oral translation is included in the services of almost every translation agency.

Interpretation is required at conferences, meetings and in any event involving people that speak different languages. There are following types of interpretation: consecutive, simultaneous whispered, written text, sign language interpering. Let's analyze them separately. In consecutive interpreting speaker's textis interpreted usually by time slots of 5 or 15 minutes, depending on the difficulty of the text

interpreting by shoter phases is also called parroting. Consecutive-requires no special equipment's during the speech.

Simultaneous interpretation is performed at interpreter's booth simultaneously with the speaker's presentation and the text in the target language reaches the listeners through special headphones. There are normally at least two interpreters in the interpreter's booth since one interpreter cannot interpret for more than half an hour on a continuous basis. Whispered interpreting is similar to simultaneous interpretation. Interpretation often refers to A, B and C language.

A language is the mother tongue of interpreter from and into which he or she interprets. B language is an active foreign language that interpreter command at very good level and into and from which he/she can interpret. Legal translation requires highly trained translator as it involves the translation of legal documents such as statutes contracts and treaties (Jaaskelainen R. studies: what are they? 2005)

Their importance in the English language calls forth observance of specific methods of translation and requires learning, lexical – semantical fealtures of English neologisms. Like other lexical groups neologisms acquire cannot active meanings in the text and they denote emotional colour in the communication. Their fore the article is devoted to reveal stylistic features of neologisms.

The deal with the means of communication which is developing and prospering today. The majority of words that are generally used as terms in both Azerbaijani and English were formed in the ancient times of language. Linguistic and psychological problems arising in the process of translating nationally colorful words are either in the absence of these words in other languages or in the absence of full meaning. Undoubtedly, ethnogenesis, ethnic identity and ethnospsychological factors play a role in the formation of such words. The ethnic of this language as it forms.

A language is the mother tongue of interpreter, from and into which he or she interprets. B language is an active foreign language that interpreter commands at a very good level and into and from which he/she can interpret. C language is a passive foreign language from which interpreter interprets only into his/her native language and not vice versa. Interpre- ter usually (also translator) has one B language and one or two C languages. There is also con- ference interpreting, which usually entails simultaneous interpreting and may in turn be court interpreting, media interpreting, public sector interpreting and so on. Behind the online transla- tion tool, a software program analyses the text according to predefined linguistic rules and re- constructs the text in a different language according to the corresponding rules of the target language. They do not produce perfect copy of the submitted text in another language. A free translation service or online translation tool can never substitute a human translator and should only be used when you want to translate text written in a foreign language into your native lan- guage or a language you understand (Newmark, P. About Translation: Multilingual Matters. Clevedon, Philadelphia,

Adelaide, Multilingual Matters Ltd., 1991.) (3,page 5-6) Computer translation refers to translations of anything to do with computers such as software, instructions and help files. Fi- nancial Translation is the translation of text of a financial nature like banking, stocks, commodi- ties, and investment funds. General translations are less complicated and the language used is not high level. In general translation, there is no specific or technical terminology used. Legal translation requires highly trained translators as it involves the translation of legal documents such as statutes, contracts and treaties..(Jaaskelainen, R. Translation studies: what are they? 2005) (4,page 20-25) Literary translation is the translation of novels, poems, and plays. A literary translator must be capable of also translating feelings, cultural nuances, humor and other subtle elements of the literary work. Medical translations are also highly complex and will involve translating medical packaging, textbooks, medical equipment manuals and drug labeling. specialization is necessary. Now that you understand the vast field of translation. Having a professional transla- tor is necessary in order for your translation to be accurate and professionally prepared. (Willi- ams, J; A. Chesterman. A Beginner's Guide to Doing Research in Translation Studies. Manc- hester, Saint Jerome Publishing. pp. 12-13, 2002.) As the time for contemplation is very scarce in the case of simultaneous interpreting, interpreters may fall into difficulties when trying to convey e.g. jokes or idioms, as the detection of equivalents may require more time that is avai- lable in the interpretation process. Simultaneous and whispered interpreting leaves minimum ti- me to think, one must react immediately when the speaker has begun a sentence. Consecutive interpreting offers a bit more time, for interpreting is slightly delayed. Written translation provi-des as much time as stipulated by the deadline, and, as a rule, translator has time to go over the translation. Team work applies to simultaneous interpretation where each booth has two or three interpreters that help each other if necessary. Translators, however, mostly work alone, although they may consult with specialists, etc.

CAFAROVA SEVINC
İSMAYILOVA CHIMNAZ
KHULIYEVA SHARQIYA

SUMMARY
STYLISTIC FEATURES IN TRANSLATION AND İNTERPRETATION OF ENGLISH NEOLOGISMS

As we know interpretation and translation are closely related linguistic fields. There are some differences and similatities between them is in the timing. Interpretation takes place on the spot while translation can happen long after the source text is created. The process can occur in person, over the phone, or via video. This gives translators enough time to utilize technologies and reference materials to

generate accurate, high-quality-translations. Another difference between them is the difference in the medium: The interpreter translates orally and it sounds only one time, while a translator interprets written text. Both interpreting and translation deep knowledge of more than one language.The article deals with the English neologism convering all spheres of the science and social life. Their importance in the English language calls forth observance of specific methods of translation and it requires learning lexical-semantical fealtures of English neologisms. Their fore the article is devoted to reveal stylistic features of neologisms: The article deals with the role and meaning of neologisms in the contemporary English language, formation of new words with help of English.

References

1. Larson, Miedre. Z. Translation: Theory a Practice, Tension and Inderdependence, 1991.
2. Duff, A Translation 1989 Murphy, B. Teaching translation and teaching through translation, 1988.
3. Newmark, P. About Translation: Multilingual Matters. Clevedon, Philadelphia, Adelaide, Multilingual Matters Ltd., 1991.
4. Jaaskelainen, R. Translation studies: what are they? 2005.
5. Harvey, M.A. beginner's course in legal translation the case of culture-bound terms, 2003.

CƏFƏROVA SEVINC
İSMAYILOVA ÇIMNAZ
QULIYEVA ŞƏRQIYYƏ

XÜLASƏ

YENI SÖZLƏRIN TƏRCÜMƏSI PROSESINDƏ NƏZƏRƏ ÇARPAN UYĞUNLUQLAR VƏ ÇƏTINLIKLƏR

İllərlə yeni sözlər terminlər ifadələrlə zənginləşir və bir çox dəyişikliklərə məruz qalırlar. İnsanların ifadə tərzi, düşünmə formaları da dəyişir. Bu baxımdan son dövrlər tərcümə üslubu da köklü dəyişikliklərə məruz qalır. Müasir dövrün tələblərinə cavab verir.

Məqaləmizdə neoqolizmin şifahi və yazılı tərcümə və şəhrində stilistik xüsusiyyətlərindən bəhs edilir. Neoqolizm – yeni sözlərin klassizmdir.

Yazılı və şifahi tərcümə eyni zamanda bədii və elmi tərcümə kimi iki növə ayrılır. Elmi tərcümənin əsas qollarından biri siyasi publissitik əsərlərin tərcüməsidir. Şifahi tərcümənin iki əsas növü var. a)fasilə və b) ardıcıl(sinxron) tərcümə. Bu növ tərcümədən elmi və ictimai-siyasi konfranslarda, qrultaylarda istifadə edilir. Yazılı tərcümə material əldə edildikdən bir müddət sonra da tərcümə oluna bilər. Proses

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.63-67

şəxsən, telefon və ya video vasitəsilə də baş verə bilər. Bu tərcümələrə dəqiq, yüksək keyfiyyətli tərcümə etmək üçün texnologiyalardan və istinad materiallarından istifadə etmək üçün kifayət qədər vaxt var.

ДЖАФАРОВА СЕВИНДЖ
ИСМАЙЛОВА ЧИМНАЗ
КУЛИЕВА ШАРГИЯ

РЕЗЮМЕ

УСТНЫЙ И ПИСЬМЕННЫЙ ПЕРЕВОД

В этой статье говорится об устном и письменном переводе. Как ты знаеш, интерпретация и перевод тесно связаны между собой лингвистическими полями. Есть некоторые различия и сходства между толкованием и переводом. Основное различие между ними заключается в сроках. Устный перевод происходить на месте. Процесс может происходить лично, по телефону или через видео. Другое различие между ними- это различие в среде. Как устный, так и письменный перевод предполагают глубокое знание более чем одного языка . Различия в навыках больше, чем их сходства. Устный переводчик должен умет переводить на месте в обоих направлениях без использования словарей и других материалов. Устный перевод требуется на конференциях, совещаниях. В любом случае с участием людей говорящих на разных языках.

, .

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Prof.Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyyə olunmuşdur

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 68--73

https://doi.org/10.62837/2025.4.68

AYNUR POLUYEVA
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov küçəsi 134
pva.aynur999@gmail.com

SİNONİMLƏR VƏ ONLARIN KONTEKST DAXİLİNDƏ ƏVƏZLƏNMƏSİ

XÜLASƏ

Bu məqalə dilçilərin sinonimlərin və sinonim sözlərin müəyyən kontekstdə əvəzlənməsinə müxtəlif yanaşmalarından bəhs edir. Müasir ingilis dilində sinonimlərin leksik-semantik mənası, kontekst daxilində işlədilməsi, konteksə uyğun düzgün və dəqiq sözün seçilməsi dilçiliyin mübahisəli problemlərindən biridir. Dilçilərin bu məsələyə bir çox ziddiyyətli yanaşmaları var. Bəzi dilçilərin fikrincə, sözlər kontekstdə o qədər dəqiq işlədilməlidir ki, onları başqa sinonimlə əvəz etmək olmasın, bəziləri isə bunun tam əksini iddia edirlər. Bildiyimiz kimi, sinonimlər dil və nitq prosesində üslub müxtəlifliyinin və emosional-ekspressiv tonun formalaşmasında mühüm rol oynayır. Beləliklə, kontekstdə bir sözü dəqiq müəyyən etmək üçün ilk növbədə sözlərin məzmununu araşdırmaq lazımdır. Belə ki, kontekstin ümumi məzmunu ilə sinonimin leksik-semantik mənası arasındakı əlaqə hələ də dilçilər tərəfindən araşdırılan bir sahədir.

Açar sözlər: sinonimlər, kontekst, əvəzləmə, leksik-semantik məna, məzmun

Sinonim sözlər eyni dilin eyni və ya oxşar məna ifadə etməsinə və ya müxtəlif sözlərin eyni bir anlayışı ifadə etməsinə deyilir. Dilin təbiətindən belə bir nəticəyə gəlmək olar ki, hər dilin özünəməxsus tarixi, motivasiyası və xüsusi işlənmə konteksti var. Bununla yanaşı, elə sözlər də var ki, kommunikasiya aktı üçün olduqca lazımsızdır, dilin zənginliyini təmin etməkdənsə, onu artıq şəkildə yükləyir, ifadəliliyini pozur. Belə ki, əgər iki söz həm mənaca, həm də işlənmə funksiyasına görə tamamilə eynidirsə və istənilən kontekst daxilində heç bir məna fərqi yaratmadan biri digərini əvəz edə bilirsə, bu zaman, komponentlərdən biri ya mənasını dəyişir, ya da dilin istifadəsindən çıxır. Sözlər sinonimik qaydalar əsasında analiz edilərək, məna eyniliyi və oxşarlığı cəhətdən qruplaşdırılır. Sinonimlər elə sözlərdir ki, kontekst daxilində bir-birini əvəzləyə və ya yerdəyişmə edə bilir, lakin bununla belə sinonimlər arasında olduqca yüngül, gözəçarpmaz semantik məna fərqləri vardır. Belə ki, çox az sayda sinonimlər var ki, bütün konnotativ məna çalarlarında üst-üstə düşərək mənaca fərqlənmədən bütün kontekstlərdə qarşılıqlı əvəzlənə bilsin. İngilis dilində sinonimlərin zəngin olması bizim özümüzü daha rahat ifadə etməyimiz üçün müxtəlif formalar verir və daha geniş imkanlar yaradır, lakin əsas məsələ həmin sinonimlər cərgəsindən bizə, bizim

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.68-73

nitqimizə və mövzumuza uyğun olanını seçib istifadə etməkdir. Bu halda, kontekst fenomenini məna anlaşılmazlığının qarşısını alan profilkatik güc kimi təsvir edə bilərik. Sinonim sözlər öz həqiqi mənalarını kontekst daxilində digər sözlərlə münasibətdə aşkar edir. N.Məmmədov "Dilçiliyin əsasları" kitabında qeyd edir: "Dilin lüğət tərkibində bir qrup sözlər vardır ki, onlar müxtəlif səs tərkiblərindən ibarət olub, ya eyni və ya bir-birinə çox yaxın mənaları ifadə edir; bunlara sinonimlər deyilir". [14] Sinonimlərin əsas funksiyası eyni fenomenin və ya anlayışın müxtəlif aspektlərini, məna çalarını və variantlarını müəyyənləşdirməkdir. Sinonimlərin öyrənilməsi dil öyrənmə prosesinin əvəzedilməz hissəsidir. Belə ki, sözün sinonimlər cərgəsindən düzgün seçilərək istifadə olunması istər yazılı, istərsə də şifahi nitqdə bütövlükdə kontekstin mənasına və emosional-üslubi çalarlığına, məzmununa, ekspressivliyə və dəyərinə olduqca böyük təsir göstərir.

Kontekst ilə doğru sinonim söz arasındakı əlaqəni Mark Tven belə bir müqayisə ilə izah edir: "Düzgün sözlə dəqiq söz arasındakı fərq, şimşək ilə işıq böcəyi arasındakı fərqə bənzəyir". [19]

Bunu da qeyd edək ki, sinonimlər arasındakı fərq konnotativ mənaya, başqa sözlə desək, konnotasiyalara əsaslanır. İ.R.Qalperin sinonimləri onların denotativ və konnotativ mənaları əsasında tədqiq edərək göstərir ki, digər dillərdə olduğu kimi müasir ingilis dilinin lüğət tərkibində də elə söz qrupları vardır ki, onlar ümumi mənasına, məntiqi predmetinə, emosional çalarlığına və ya kontekstuallığına görə fərqlənir. D.Kristal isə göstərir ki, leksemlər çox nadir hallarda tamamilə eyni məna ifadə edir. Buna səbəb kimi sözlərin daşıdığı üslubi rəngarəngliyin, regional əlamətlərin, emosional çalarlığın və digər əlamətlərin nəzərə alınmalı olduğunu vurğulayır. Bütün bunlara əlavə olaraq, sinonimlərin öyrənilməsində kontekst əsas məsələlərdən biri olduğunu da qeyd edir. [3]

Sinonimiyanı bir qarderob kimi təsəvvür edərək belə bir nümunə göstərək. Məsələn, hansısa bir tədbirə getdiyimiz zaman məkana və tədbirə uyğun geyimlər seçib geyinirik, eynilə fikirlərimizi aydın, düzgün və dəqiq ifadə etmək üçün sözlərimizi həmin kontekstə uyğun seçdiyimiz kimi. Belə ki, sinonimlər qrupunu təşkil edən sözlər nə qədər eyni və ya oxşar məna ifadə etsələr də, hər bir komponentin özünəməxsus cəhətləri var və bu özünü kontekst daxilində daha aydın göstərir. Belə ki, gedəcəyimiz yerə uyğun hazırlaşmamağımız bizi nə qədər gülünc vəziyyətə sala bilərsə, kontekstə uyğun olmayan sinonimin istifadəsi də bir o qədər bizi pis vəziyyətə sala bilər.

Sosiolinqvistika bəhsindən bildiyimiz kimi dil ilə cəmiyyət daima bir-biri ilə əlaqəlidir və hətta varlıqları bir-birindən ayrı düşünülə bilməz. Sinonimlər də hər bir dilin özünəməxsus əlamətlərini əks etdirir. Buna görə də sinonim sözləri bir dildən başqa dilə tərcümə etdikdə diqqətli olmaq lazımdır. Bəzən tərcümə zamanı ya sinonimlərin mənası itir, ya da yalnış tərcümə olunur, ya da ki, anlayışın ifadə etdiyi mənanı dəqiq ifadə etmək mümkün olmur. Çünki hər bir cəmiyyətin və hər bir dilin

öz mənəvi, tarixi yaddaşı var. Həmin ərazidə yaşayan insanlar hər hansı bir əhvalatı, tarixi hadisəni və ya gündəlik həyatdan olan istənilən bir anlayışı çox rahatlıqla başa düşə bilirlər, lakin bu o demək deyil ki, bu dili öyrənən hər kəs də həmin anlayışı olduğu kimi dərk edəcəkdir. Sinonim sözlərin istifadəsində müxtəlif kontekstləri tədqiq etdikdə, həmçinin rəsmi və qeyri-rəsmi üslublar nəzərə alınır. Belə ki, sinonimləri istifadə edərkən, ilk növbədə, kontekstin məzmununa hansı dərəcədə uyğun olub-olmadığına diqqət edilməlidir. Məsələn, *"take (rəsmi) – catch (qeyri-rəsmi)"; "travel by (rəsmi) - figure out (qeyri-rəsmi), get the message (qeyri-rəsmi)"; "understand (qeyri-rəsmi), perceive (qeyri-rəsmi) - puzzle out (rəsmi)"; "phone (qeyri-rəsmi) - contact (rəsmi)"* nümunələrində sinonim cərgələrini təşkil edən sözlərdən biri rəsmi, digəri isə qeyri-rəsmi kontekstlər üçün istifadəyə uyğundur.

Hər hansı bir kontekst daxilində danışanın ifadə etdiyi fikir ilə onun istinad etdiyi obyekt arasındakı münasibətə əsasən üslubi sinonimlər iki formada olur: evfemizmlər və kakofemizmlər. Əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, həm evfemizm, həm də kakofemizmlər üslubi sinonimlərin xüsusi bir qrupunu formalaşdırır. Evfemizmlər, istinad edilən obyektə müsbət münasibət, yəni ehtiram və hörmət ifadə etmək üçün istifadə olunan sözlərdir. Dilçi alimlər evfemizmlərdən söhbət açarkən onların mənbəyinin vaxtilə qoyulmuş qadağalardan, yəni tabulardan və cəmiyyət içində yayılmış, keçmiş zamanda dildən-dilə yayılan batil inanclardan yarandığını qeyd edirlər.

Kontekst daxilində obyektə olan münasibətlə əlaqədar digər bir sinonim qrupu isə kakofemizmlərdir. Müasir ingilis dilində də bu cür üslubi sinonimlər kontekstə üslubi rənagərənglik və emosional çalarlıq qatmaq məqsədilə istifadə edilir, lakin kakofemizmlər istinad edilən obyektə qarşı mənfi münasibəti ifadə etmək üçün istifadə edilir. Onu da qeyd etmək istərdim ki, evfemizmlər və kakofemizmlərdən istifadə həm nitqimizin, həm də bədii ədəbiyyatda obrazların dilinin zənginləşdirmək, üslubi çalar qatmaq üçün yaxşı vasitələrdir. Hər ikisi ekpressiv-üslubi və ictimai faktor olduöundan bədii ədəbiyyatda olduqca geniş istifadə olunur.

Bəzi dilçi alimlər sinonimlərin əvəzlənməsini sinonimlər tərifində əsas kriteriya kimi götürməyə cəhd etmişlər. S.Ulman da linqvistik kontekstdə sinonimlərin bir-birini əvəzləyə bilməsini əsas götürən dilçilərdəndir. O, mənanın linqvistik oxşarlığına əsaslanaraq yazır ki, əgər sinonimlər qrupuna daxil olan hər bir komponent eyni kontekstdə işlənə bilirsə, demək, onlar sinonimdir. S.Ulman sinonimlərə kontekstual cəhətdən yanaşaraq sinonimlərin istənilən kontekstdə bir-birini qarşılıqlı əvəzləyə bilməsini iddia edir, lakin bu cür sözlər dilin lüğət tərkibində çox azdır. [24]

İ.V.Arnold sinonim sözlərin qarşılıqlı əvəzlənmə prinsipini fonologiyadan götürdüyü subsitusiya metodu ilə müqayisə edərək analiz edir. [25]

Bəzən elə sözlər olur ki, kontekst daxilində xüsusi yerləri və xüsusi

konnotativ strukturu olduğundan onları başqa sinonim sözlərlə əvəzləyə bilmirsən. Sinonimin xüsusi xarakteri olduğundun əvəzlənməni sinonimiyanın kriteriyası hesab etmək çətindir. Onları ya əvəzləmək mümkün olmur, ya əvəzləmə məsləhət deyil, ya da heç bir məna ifadə etmir. Məsələn, *"pretty – good-looking – handsome - beautiful"* sinonimləri bir-birini tamamilə əvəzləyə bilmir. Çünki hər biri insan gözəlliyini özünəməxsus şəkildə təsvir edir və hətta "handsome" sözü adətən kişi cinsinə aid edilir. Burada "beautiful" sinonimi qrupun dominant sinonimidir.

Sinonimlər cərgəsini təşkil edən sözlər mənşəyinə görə eyni və müxtəlif növ komponentlərdən, bir sözlə, milli və alınma sözlərdən ibarət ola bilər. Məsələn, "to answer" və "to begin" felləri ingilis dilinin milli sözləri, sinonimləri olan "to respond" və "to start" isə fransız və latın dili mənşəli sözlərdir.

İngilis dilinin lüğət tərkibində qısaltma üsulu ilə formalaşdırılmış üslubi sinonimlər də mövcuddur. Misal üçün, "phone" sinonimi "telephone"; "fancy" sözü isə "fantasy" sözünün qısaldılmış formalarıdır. Bu cür sinonimlər kontekst daxilində istifadəsi şairin, yazıçının və ya danışanın nitqinə canlılıq, üslubi çalar qatmağa kömək edir. Üslubi sinonimlərdən danışarkən, daha bir xarakterik xüsusiyyətini vurğulamaq lazım gəlir. Bəzən bir sinonim bir qrup sözlə və ya bir qrup söz cəmi bir sinonimlə qarşılıqlı şəkildə əvəz edilə və ya yerdəyişmə edilə bilir. İndi isə aşağıdakı nümunələrə nəzər yetirək: "Care of him! Yes, I really believe Darcy does take care of him in those points where he most wants care. From something that he told me in our journey hither, I have reason to think Bingley very much indebted to him..." (Jane Austen, "Pride and Prejudice") Nümunədəki "to take care of" ifadəsinin əvəzinə isə "to protect" sözünün sinonimik qarşılığı kimi istifadə oluna bilər.

Hər bir sinonim sözün özünəməxsus frazeoloji əlaqələnmə xüsusiyyəti olduğundan, sabit ifadələr daxilində sözlərin sinonimləri ilə əvəzlənməsi mümkün deyil. A.V.Kunin sabit ifadələrin sərbəst ifadələrdən fərqli olaraq, sinonimlik xarakterinin olduğunu vurğulayır. Bəzi sabit ifadələrdə isə leksik komponentlər mənası dəyişmədən yerdəyişmə edilə bilir. Məsələn, "cast fling something in somebody's teeth" və ya "cast throw something in somebody's teeth". [2]

Bəzən də elə sinonimlər olur ki, vaxtilə bütün kontekstlərdə qarşılıqlı əvəzlənə bildiklərinə halda, zaman keçdikcə dildəki inkişafla yanaşı tərəflərdən biri artıq ifadə etdiyi mənanı dəyişə bilir. Məsələn, "merry – gay – happy" və s.

Əvəzlənmə və ya yerdəyişmə hadisəsi ilə bağlı M.Rzazadənin bu fikri ilə razılaşa bilərik. M.Rzazadə yazır: "Sinonimlər bir-birini qeyd və şərtsiz əvəz etmək üçün deyil, bir anlayışın və məzmunun müxtəlif məna incəliklərini vermək, ifadənin təsirini, bədii gözəlliyini artırmaq, fikri konkret, aydın, parlaq etmək və onu rəngarəng vasitələrlə ifadə etmək üçündür". [15]

Dilçi alimlər tərəfindən sinonim sözlər arasındakı leksik-semantik və üslubi fərqləri üzvlərin müqayisəsi metodu ilə araşdırmaq, sinonimlər cərgəsinin komponentləri arasındakı əlaqələri təyin etdikdən sonra linqvistik tədqiqatlarda

önəmli yer tutmuşdur. Qeyd edək ki, yerdəyişmə və neytrallaşdırma hadisələri əvəzləmə yolu ilə yoxlanılır və bu metod fonologiyadan semasiologiya tərəfindən alınmışdır. Belə ki, sinonim sözlərin əsas leksik dəyərini müəyyənləşdirmək üçün sinonim qarşılıqları ilə əvəzləyərək nəticələrini müşahidə etmək lazımdır. İngilis dilində sinonimiyanın hərtərəfli və dərin linqvistik tədqiqi, leksikologiya və semasiologiya sahələrində də sinonim sözlərin araşdırılması diçiləri bu sahəyə cəlb edəcəkdir.

ƏDƏBİYYAT

1. Abdullayev S.Ə. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı, 2013, 596s.
2. Arnold I.V. The English word. Москва, 1986, 293p.
3. Crystal D. The Cambridge Encyclopedia of Language. Cambridge University Press, 1992, 496p.
4. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1977, 270s.
5. Galperin I.R. Stylistics. Moscow, 1977, 334p.
6. Ginzburg R.S., Khidekel S.S., Knyazeva Y.Y., Sankin A.A. A Course in Modern English 7. Lexicology. Higher school publishin house, Moscow 1996, 267p.
8. Qurbanov A.M. Nitq mədəniyyətinin inkişafında sinonimikanın rolu. Azərbaycan məktəbi, №7, 1966, s.22-30.
9. Harris Z.S. Co-ocurence and transformation in linguistic strycture. L., 1957, 152p.
10. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili (I hissə). Bakı, 2010, 450s.
11. Арбекова Т.И. Лексикология английского языка. М., 1977, 239с.
12. Raevskaya N.M. English Lexicology. Moscow, 1973, 302p.
13. Бережан С.Г. Теория семантический полей и синонимия. М., 1967, 248с.
14. N.Məmmədov. Diçiliyin əsasları, Bakı, 1961, səh105yeri, səh 260
15. Ə.M.Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı, B. 1962, 122-123yeri. 270s.
16. Rayevskaya N.M. English Lexicology. Moscow, 1973, 302p.
17. Webster's New Dictionary of Synonyms. G&C. Merriam Company Publishers.
18. Springfield, Massachusetts. USA, 1984, 909p.
19. Антрушина В.Б. и др. Лек сикология английского языка. Москва, 1985, 220с.
20. Арбекова Т.И. К вопросу о взаимоотношениях между синонимами. Москва, 1963, 168с.
21. Loftier H. English synonymy and how to use them. Leipzig, 1979, 242p.
22. Webster's New Dictionary of Synonyms. G&C. Merriam Company Publishers.
23. Springfield, Massachusetts. USA, 1968, 443p.
24. Ullmann S. The principles of semantics. Glasgow, 1957, 217p.
25. Арнольд И.В. Лекси кология современного английского языка. М., 1986, 295с.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.68-73

AYNUR POLUYEVA

SYNONYMS AND THEIR REPLACEMENT IN CONTEXT

SUMMARY

This article describes the different approaches of linguists to the replacement of synonyms and synonymous words within a particular context. The lexical-semantic meaning of synonyms in modern English, their use within the context, the choice of the correct and accurate word in accordance with the context is one of the controversial problems of linguistics. There are many conflicting approaches to this issue by linguists. According to some linguists, words should be used so precisely in the context that they cannot be replaced by another synonym, while others claim the exact opposite. As we know, synonyms play an important role in the formation of stylistic diversity and emotional-expressive tone in the language and speech process. Thus, in order to accurately identify a word in the context, it is first necessary to examine the content of the words. Thus, the relationship between the general content of the context and the lexical-semantic meaning of a synonym is still an area that is still being studied by linguists.

Key words: synonyms, context, substitution, lexical-semantic meaning, content

АЙНУР ПОЛУЕВА

СИНОНИМЫ И ИХ ЗАМЕНА В КОНТЕКСТЕ

РЕЗЮМЕ

В этой статье описываются различные подходы лингвистов к замене синонимов и синонимичных слов в определенном контексте. Лексико-семантическое значение синонимов в современном английском языке, их использование в контексте, выбор правильного и точного слова в соответствии с контекстом является одной из спорных проблем лингвистики. Есть много противоречивых подходов к этому вопросу со стороны лингвистов. По мнению некоторых лингвистов, слова должны использоваться настолько точно в контексте, что их нельзя заменить другим синонимом, в то время как другие утверждают прямо противоположное. Как известно, синонимы играют важную роль в формировании стилистического разнообразия и эмоционально-выразительного тона в языковом и речевом процессе. Таким образом, чтобы точно идентифицировать слово в контексте, сначала необходимо изучить содержание слов. Таким образом, связь между общим содержанием контекста и лексико-семантическим значением синонима по-прежнему остается предметом изучения лингвистов.

Ключевые слова: синонимов, контекст, замена, лексико-семантическое значение, содержание.

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Zərinə Aslanova tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 74-85

https://doi.org/10.62837/2025.4.74

SAMİRƏ MƏMMƏDOVA
(ADPU)

İNGİLİS DİLİNİN TƏDRİS ZAMANI ATALAR SÖZLƏRİNİN ÖYRƏDİLMƏ METODOLOGİYASI VƏ TƏTBİQİ ÜSULLARI

XÜLASƏ

Bu məqalədə ingilis dili dərslərində atalar sözlərinin öyrədilməsinin metodologiyası və tətbiqi üsulları araşdırılır. Atalar sözləri dilin mədəni və mənəvi tərəfini əks etdirən ifadələr olduğu üçün onların tədrisi şagirdlərin dil bacarıqlarının, xüsusilə də danışıq və dinləmə qabiliyyətlərinin inkişafına töhfə verir. Məqalədə atalar sözlərinin yadda qalmasına kömək edən müxtəlif metodlar, o cümlədən kontekstual təlim, dramatizasiya, vizual materiallardan istifadə və müqayisəli təhlil kimi yanaşmalar təqdim olunur. Həmçinin, müxtəlif yaş qrupları və dil səviyyələri üçün uyğun tətbiq nümunələri və dərs planları da nəzərdən keçirilir. Araşdırmanın nəticələrinə əsasən, atalar sözlərinin tədrisə inteqrasiyası şagirdlərin həm dil, həm də mədəniyyət baxımından inkişafına müsbət təsir göstərir.

Açar sözlər: İngilis dili tədrisi, atalar sözləri, tədris metodologiyası, mədəniyyətlərarası təlim, dil bacarıqları, pedaqoji yanaşmalar.

SAMİRA MAMMADOVA

METHODOLOGY AND APPLICATION OF PROVERBS IN TEACHING ENGLISH

ABSTRACT

This article examines the methodology and application of proverbs in English language lessons. Since proverbs are expressions that reflect the cultural and spiritual side of the language, their teaching contributes to the development of students' language skills, especially speaking and listening skills. The article presents various methods that help in memorizing proverbs, including approaches such as contextual learning, dramatization, the use of visual materials, and comparative analysis. It also reviews examples of applications and lesson plans suitable for different age groups and language levels. According to the results of the study, the integration of proverbs into teaching has a positive effect on the development of students in terms of both language and culture.

Keywords: English teaching, proverbs, teaching methodology, intercultural learning, language skills, pedagogical approaches.

МЕТОДИКА И ПРИМЕНЕНИЕ ПОСЛОВИЦ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются методика и методы преподавания пословиц на уроках английского языка. Поскольку пословицы — это

выражения, отражающие культурные и духовные аспекты языка, их преподавание способствует развитию языковых навыков учащихся, особенно навыков говорения и аудирования. В статье представлены различные методы, помогающие запоминать пословицы, в том числе такие подходы, как контекстное обучение, драматизация, использование наглядных материалов и сравнительный анализ. Также рассматриваются подходящие примеры применения и планы уроков для разных возрастных групп и уровней владения языком. По результатам исследования, включение пословиц в процесс обучения оказывает положительное влияние на развитие учащихся как в языковом, так и в культурном плане.

Ключевые слова: Преподавание английского языка, пословицы, методика преподавания, межкультурное обучение, языковые навыки, педагогические подходы.

Dilin öyrədilməsi sadəcə qrammatika və lüğət biliklərinin aşılanması ilə məhdudlaşmır; əksinə, bu proses dilin daşıdığı mədəniyyətin, dəyərlərin və düşüncə tərzinin də şagirdlərə ötürülməsini tələb edir. Xüsusilə də xarici dil olaraq ingilis dilinin tədrisində bu yanaşma daha da aktuallaşır. Bu baxımdan, atalar sözləri dilin yalnız leksik və ya frazeoloji vahidləri deyil, həm də xalqın hikmətini, tarixi təcrübəsini və dünyagörüşünü özündə əks etdirən canlı nümunələrdir. Atalar sözlərinin öyrədilməsi şagirdlərin dili yalnız texniki cəhətdən deyil, həm də kontekstual və mənəvi aspektdən mənimsəməsinə imkan yaradır.İngilis və Azərbaycan dillərindəki atalar sözləri xalq müdrikliyinin daşıyıcısı kimi çıxış edir və bu ifadələr vasitəsilə həm düşüncə tərzi, həm də mədəniyyətlərarası fərqlər açıq şəkildə görünür. Buna görə də ingilis dilinin tədrisi zamanı atalar sözlərinin öyrədilməsi təkcə dil öyrənməyi deyil, həm də mədəniyyətləri anlamağı təşviq edir. Eyni zamanda, bu ifadələrin mənimsənilməsi şagirdlərin nitq zənginliyini artırır, onların ünsiyyət bacarıqlarını gücləndirir və ingilis dilində təbii danışıq mühitinə uyğunlaşmalarını asanlaşdırır.Müasir dövrdə pedaqoji yanaşmaların dəyişməsi ilə metodologiyalar da fərqlənmişdir. Artıq müəllimlər yalnız informasiyanı verən deyil, şagirdləri fəal şəkildə öyrənməyə cəlb edən təşkilatçılara çevrilmişdir. Bu baxımdan atalar sözlərinin tədrisində də interaktiv və yaradıcı metodlardan istifadə edilməsi, texnologiyanın dərsə inteqrasiyası və müqayisəli yanaşmalar daha çox əhəmiyyət qazanmışdır.Bu işdə əsas məqsəd, ingilis dilinin tədrisində atalar sözlərinin öyrədilmə metodologiyasını və tətbiq yollarını araşdırmaq, eyni zamanda onların dil öyrənməsində oynadığı rolu, pedaqoji effektivliyini və şagirdlərin təlim motivasiyasına təsirini elmi əsaslarla izah etməkdir. Eyni zamanda, bu mövzuda yerli və xarici tədris təcrübələri müqayisə ediləcək, praktiki nümunələrlə yanaşı, müasir texnologiyaların bu sahədə istifadəsinə də toxunulacaqdır. [1 : 71 s.]

Mövzunun aktuallığı - Qloballaşan dünyada müxtəlif dillərin və mədəniyyətlərin qarşılıqlı əlaqəsi dil tədrisini yalnız kommunikativ vasitə kimi deyil, həm də mə-

dəniyyətlərarası anlaşmanın əsas komponenti kimi ön plana çıxarır. Xüsusilə ingilis dili – beynəlxalq ünsiyyət, təhsil və texnologiyanın aparıcı dili kimi – bu kontekstdə daha böyük əhəmiyyət kəsb edir. Belə bir şəraitdə, dilin yalnız qrammatika və söz ehtiyatı ilə deyil, eyni zamanda onun daşıdığı mədəni və mənəvi dəyərlərlə birlikdə öyrədilməsi zərurətə çevrilmişdir.Atalar sözləri xalqın yüzilliklər boyu topladığı təcrübənin, həyat fəlsəfəsinin və düşüncə tərzinin qısa, lakonik ifadələridir. Onların tədrisi təkcə şagirdlərin leksik biliklərini zənginləşdirmir, həm də onlara dilin kontekstual və mədəni tərəflərini başa düşmək imkanı yaradır. Bu isə, dil öyrənən şəxslərin həm şifahi, həm də yazılı nitqdə ifadə imkanlarını artırır və onlara real ünsiyyət mühitində daha uğurlu olmaq imkanı verir.Hazırkı dövrdə kommunikativ tədris metodlarının üstünlük təşkil etməsi ilə bərabər, interkultural kompetensiyaların formalaşdırılması da vacib didaktik hədəflərdən birinə çevrilmişdir. Bu baxımdan, atalar sözlərinin tədrisə inteqrasiyası şagirdlərin yalnız dili deyil, eyni zamanda həmin dilin daşıdığı dəyərləri də qavramasına kömək edir. Digər tərəfdən, Azərbaycan və ingilis dillərindəki atalar sözlərinin müqayisəli təhlili şagirdlərdə analitik düşüncə tərzinin formalaşmasına da xidmət edir.Mövzunun aktuallığı həmçinin ondan irəli gəlir ki, müasir tədris metodologiyasında fərdiləşdirilmiş və marağa əsaslanan öyrənmə prinsipləri getdikcə önəm qazanır. Atalar sözləri isə öz məzmunu və ifadə gücü ilə şagirdlərin marağını cəlb edir, dərs prosesini monotonluqdan çıxarır və onu daha canlı və yadda qalan edir.Bütün bu amillər göstərir ki, ingilis dilinin tədrisində atalar sözlərinin öyrədilməsi yalnız faydalı deyil, həm də müasir təhsil tələblərinə tam uyğun gələn zəruri metodik istiqamətdir. [2 : 11 s.]

İngilis dilinin öyrədilməsi prosesi zamanla təkamülə uğrayaraq müxtəlif metodoloji yanaşmalarla zənginləşmişdir. Hər bir metod öz dövrünün pedaqoji tələblərinə və tədris şəraitinə uyğun olaraq formalaşmışdır. Bu gün ingilis dili tədrisində ən çox istifadə edilən metodologiyalar arasında qrammatika-oxu metodu, audiolingval metod, kommunikativ yanaşma, situasiya əsaslı öyrənmə, layihə əsaslı təlim və təlimdə oyun elementlərinin tətbiqi xüsusilə diqqət çəkir.Qrammatika-oxu metodu XIX əsrdə geniş yayılmış və əsasən yazılı mətnlərin tərcüməsi, qrammatik qaydaların əzbərlənməsi və tərcüməyə əsaslanan tapşırıqlarla xarakterizə olunurdu. Bu metod daha çox akademik məqsədlər üçün yararlı olsa da, danışıq bacarıqlarının inkişafı baxımından məhdudiyyətlərə malik idi.Audiolingval metod XX əsrin ortalarında inkişaf etmiş və dilin dinləmə və təkrar yolu ilə öyrənilməsini əsas götürmüşdür. Burada dil bir vərdiş kimi qəbul olunur və təkrarlanan dialoqlar, nümunələr və drills vasitəsilə öyrənilir. Bu metod şifahi bacarıqların inkişafı üçün effektiv olsa da, yaradıcı ifadə imkanlarını məhdudlaşdırırdı. [4 : 68 s.]

Dil sadəcə bir ünsiyyət vasitəsi deyil, həm də bir xalqın düşüncə tərzini, mənəvi dəyərlərini, həyat fəlsəfəsini və mədəniyyətini özündə əks etdirən mühüm sosial hadisədir. Bu baxımdan, atalar sözləri dilin yalnız struktur elementi kimi deyil,

həm də onun mədəni daşıyıcısı və sosial simvolu kimi çıxış edir. İngilis dilinin tədrisində atalar sözlərinin öyrədilməsi, şagirdlərin bu dili yalnız texniki cəhətdən deyil, həm də semantik və funksional baxımdan dərindən mənimsəməsi üçün mühüm vasitədir.Atalar sözləri xalq müdrikliyinin, tarixi yaddaşın və həyat təcrübəsinin qısa, təsirli və mənalı ifadələridir. Onlar dilin ruhunu və mahiyyətini əks etdirən, insanlar arasında sosial münasibətləri tənzimləyən, etik dəyərləri aşılayan, dünya görüşünü formalaşdıran vasitələrdir. Buna görə də bu ifadələrin xarici dil dərslərində tədrisi müxtəlif istiqamətlərdə ciddi pedaqoji və psixoloji əhəmiyyət daşıyır.Şagirdlərdə mədəni şüurun inkişafı - Atalar sözlərinin öyrədilməsi vasitəsilə şagirdlər öyrəndikləri dilin daşıyıcılarının mədəniyyətinə, dəyərlərinə və dünyagörüşünə yaxınlaşırlar. Bu, onlarda mədəni empatiya və tolerantlıq hisslərinin formalaşmasına, mədəniyyətlərarası fərqləri anlamalarına və hörmətlə yanaşmalarına kömək edir. Müqayisəli şəkildə həm Azərbaycan, həm də ingilis atalar sözlərinin təqdim olunması şagirdlərə mədəni oxşarlıqları və fərqlilikləri anlamaqda kömək edir.Nitq bacarıqlarının inkişafı - Atalar sözləri şagirdlərin danışıq və yazı bacarıqlarını zənginləşdirmək üçün əvəzolunmaz mənbədir. Onların düzgün kontekstdə istifadəsi, fikrin daha dəqiq və emosional şəkildə ifadə olunmasına imkan verir. Atalar sözlərini öyrənən və aktiv şəkildə istifadə edən şagirdlər daha obrazlı, təsirli və canlı nitq qurmaq bacarığı əldə edirlər. Bu, həm yazılı, həm də şifahi ünsiyyətdə özünü göstərir.Analitik və tənqidi təfəkkürün formalaşması - Atalar sözləri əksər hallarda dolayı və məcazi mənalı ifadələrdir. Bu isə şagirdlərin həmin ifadələrin mənasını anlamaq üçün düşünməsini, konteksti analiz etməsini və müvafiq nəticələr çıxarmasını tələb edir. Belə yanaşma şagirdlərin analitik və tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirir və onların mətnlərə yanaşma metodlarını zənginləşdirir.

Motivasiya və maraq - Ənənəvi metodlarla öyrədilən dil qaydaları və lüğət təlimi şagirdlər üçün bəzən monoton görünə bilər. Halbuki atalar sözləri onların marağını cəlb edən, həyatla əlaqələndirilə bilən ifadələrdir. Şagirdlər belə ifadələri öyrənərkən həm əylənir, həm də yadda qalıcı şəkildə məlumat mənimsəyirlər. Bu isə dərslərə marağı artırır və motivasiyanı yüksəldir.İnteqrativ öyrənmə imkanı - Atalar sözlərinin tədrisi təkcə ingilis dili ilə məhdudlaşmır. Onlar digər fənlərlə – məsələn, ədəbiyyat, tarix, vətəndaşlıq və mədəniyyət dərsləri ilə inteqrasiya edilə bilər. Bu yanaşma fənlərarası əlaqələri gücləndirir və şagirdlərə öyrəndikləri bilikləri müxtəlif sahələrdə tətbiq etmək imkanı verir.Əxlaqi və sosial tərbiyə funksiyası - Atalar sözləri yalnız dil öyrətmir, həm də insani və ictimai dəyərləri təbliğ edir. Bu ifadələrdə dürüstlük, əməksevərlik, mərhəmət, ədalət, müdriklik və digər pozitiv keyfiyyətlər təşviq olunur. Xarici dil dərslərində bu məzmunlu ifadələrin öyrədilməsi şagirdlərin şəxsiyyətinin formalaşmasına və sosial adaptasiyasına da müsbət təsir göstərir.Kognitiv inkişaf və yaddaşın gücləndirilməsi - Atalar sözlərinin qısa, lakonik və ritmik quruluşu onların yadda qalmasını asanlaşdırır. Bu isə şagirdlərin yaddaşını gücləndirir və ümumi kognitiv bacarıqlarının inkişafına töhfə verir. Dərslərdə bu cür

ifadələrdən istifadə həm vizual, həm eşitmə, həm də kinestetik öyrənmə tiplərinə uyğun gələn metodlar tətbiq etməyə şərait yaradır.Nəticə olaraq demək olar ki, atalar sözlərinin ingilis dilinin tədrisinə daxil edilməsi yalnız əlavə material kimi deyil, sistemli, məqsədyönlü və metodik yanaşma ilə reallaşdırılmalıdır. Bu tədris forması həm funksional, həm də humanitar istiqamətdə böyük əhəmiyyət daşıyır. Bu səbəbdən, atalar sözlərinin tədrisi dil öyrənmənin dərinləşdirilməsi, şəxsiyyətin formalaşması və mədəniyyətlərarası anlaşmanın inkişafı baxımından əvəzolunmaz rol oynayır.[5 : 65-66]

Atalar sözlərinin ingilis dili dərslərində effektiv şəkildə öyrədilməsi üçün müxtəlif pedaqoji metodlar və müasir tədris yanaşmalarından istifadə olunmalıdır. Bu ifadələrin məzmunu, məcaziliyi, kontekstual istifadəsi və mədəni aspektləri nəzərə alınaraq tədris prosesi sistemli şəkildə qurulmalı və şagirdlərin yaş xüsusiyyətləri, dil səviyyəsi, maraqları və öyrənmə tərzləri nəzərə alınmalıdır. Atalar sözlərinin tədrisi təkcə məlumat ötürmək deyil, həm də şagirdlərdə dil və mədəniyyət anlayışının formalaşması, düşüncə tərzinin inkişafı və ünsiyyət bacarıqlarının gücləndirilməsi baxımından mühüm rol oynayır.Kommunikativ yanaşma (Communicative Language Teaching – CLT) - Bu yanaşma dili canlı ünsiyyət vasitəsi kimi öyrətməyi hədəfləyir. Atalar sözlərinin bu metodla tədrisi şagirdlərin real həyat kontekstində ifadələri başa düşməsinə və tətbiq etməsinə yönəlir. Müəllimlər şagirdlərə atalar sözlərini konkret danışıq situasiyalarında təqdim edir və onların təbii şəkildə ifadələri istifadə etmələrini təşviq edir.Məqsəd və tətbiq:Dialoqlar qurmaq, rollu oyunlar vasitəsilə ifadələrin istifadəsini öyrətmək.Situativ danışıq fəaliyyətləri təşkil etmək.Qrup müzakirələrində atalar sözlərinin istifadəsini təşviq etmək.Kontekstual öyrənmə yanaşması (Contextual Learning Approach). Atalar sözləri tədris edilərkən onların istifadə olunduğu real kontekstlərin təqdim olunması şagirdlərin anlam və tətbiq bacarıqlarını artırır. Bu metodda ifadə yalnız sözlərin izahı kimi deyil, həm də situasiya ilə əlaqəli şəkildə verilir. Kontekstual öyrənmə şagirdlərə yalnız “nə” sualını deyil, “nə üçün” və “harada” suallarını da cavablandırmağa kömək edir.Tətbiq nümunələri:Qısa hekayələr və ya xəbərlər içərisində atalar sözlərinin istifadəsi.Film fraqmentləri və audio materiallardan istifadə edərək ifadələrin kontekstdə tanıdılması.Müxtəlif həyat situasiyaları üçün uyğun atalar sözlərinin seçilməsi

İnteraktiv metodlar. İnteraktiv təlim şagirdin passiv dinləyici deyil, aktiv iştirakçı olduğu bir prosesdir. Atalar sözlərinin interaktiv təlimlə öyrədilməsi şagirdlərin dərsə marağını artırır və ifadələrin daha tez yadda qalmasına kömək edir.Əsas interaktiv üsullar:Qrup işi və beyin həmləsi (brainstorming): Müəyyən bir mövzu ətrafında atalar sözlərinin toplanması və izahı.Rollu oyunlar: Şagirdlərə gündəlik həyat situasiyalarında atalar sözlərindən istifadə etmə imkanı yaratmaq .Quiz və oyunlar: Flashcard oyunları, “tap atalar sözünü” tipli yarışmalar.Müqayisəli tədris metodu - Bu metodda Azərbaycan və ingilis dillərindəki atalar sözləri

müqayisə edilir. Bu, şagirdlərdə həm dillə, həm də mədəniyyətlə bağlı analitik təfəkkürün inkişafına səbəb olur. Onlar həm öz ana dillərindəki, həm də öyrəndikləri dildəki bənzər və fərqli ifadələri müqayisə edərək fərqli mədəni dəyərləri tanıyırlar.Nümunəvi fəaliyyətlər:

- Cütləşdirmə məşqləri (ingilis və Azərbaycan atalar sözlərini uyğunlaşdırmaq)
- Müxtəlif dillərdə oxşar mənalı atalar sözlərinin təhlili
- Mədəniyyətlərarası layihələr və təqdimatlar

Audiovizual metodlar - Görmə və eşitmə vasitələrinin istifadəsi tədrisdə əhəmiyyətli yer tutur. Atalar sözlərinin öyrədilməsində film parçaları, videolar, animasiyalar, mahnı və aforizmlər vasitəsilə təqdim edilməsi, onların mənimsənilməsini asanlaşdırır. Vizual yaddaş və emosional təsir vasitəsilə öyrənmə daha dərin və qalıcı olur.Metodun üstünlükləri:

- Fərqli öyrənmə tiplərinə (vizual, eşitmə) cavab verir
- Şagirdin diqqətini cəlb edir və öyrənmə prosesini maraqlı edir
- Real həyat dili ilə tanışlıq yaradır

Kreativ və yazılı ifadə metodları- Atalar sözləri əsasında şagirdlərdən hekayə, inşa və esse yazmaları istənilə bilər. Bu metod yazılı nitq bacarıqlarını inkişaf etdirir və onların dil üzərində sərbəst işləməsinə imkan verir.Mümkün yazılı fəaliyyətlər:

- Verilmiş atalar sözü əsasında hekayə yazmaq
- Atalar sözünün müxtəlif situasiyalarda istifadəsinə dair esse
- Müxtəlif atalar sözlərini birləşdirərək yaradıcı mətn hazırlamaq

Layihə əsaslı öyrənmə (Project-Based Learning) - Şagirdlərə müəyyən bir mövzu ətrafında araşdırma apararaq atalar sözlərini toplayıb təqdim etmə tapşırığı verilir. Bu metod həm tədqiqat bacarıqlarını, həm də əməkdaşlıq və təqdimat qabiliyyətlərini inkişaf etdirir.Nümunəvi layihələr:

- "İngilis və Azərbaycan atalar sözlərində ailə və dəyərlər" mövzusunda təqdimat
- Rəqəmsal plakat, video çarx və ya blog şəklində layihələr hazırlamaq
- Mədəniyyətlərarası müqayisə layihələri

Diferensiallaşdırılmış öyrənmə yanaşması - Fərqli səviyyəli şagirdlərin ehtiyaclarına uyğun tapşırıqlar verilir. Aşağı səviyyəli şagirdlərə sadə mənalı atalar sözləri təqdim olunarkən, irəliləmiş səviyyəli şagirdlərə onların məcazi mənalarını izah etmək, situasiya ilə əlaqələndirmək kimi daha kompleks fəaliyyətlər təqdim olunur.Atalar sözlərinin tədrisində metod və yanaşmaların düzgün seçilməsi şagirdlərin bu ifadələri yalnız yadda saxlamasını deyil, həm də mənimsəməsini, tətbiq etməsini və dildən funksional istifadə etməsini təmin edir. Müasir təlim fəlsəfəsinə uyğun olaraq şagirdyönümlü, kommunikativ, interaktiv və inteqrativ yanaşmalar atalar sözlərinin öyrədilməsini daha təsirli və məqsədyönlü edir. Müəllim bu metodları şagirdin yaşına, dil səviyyəsinə, maraqlarına və tədris mühitinə

uyğunlaşdırmaqla həm dil öyrənməyə, həm də mədəni dəyərlərin ötürülməsinə xidmət edə bilər. [2 : 18-20 s.]

İngilis dilinin tədrisi zamanı atalar sözlərinin öyrədilməsi olduqca faydalı və zəngin nəticələr versə də, bu proses müəyyən çətinliklərlə müşayiət olunur. Bu çətinliklər həm şagirdlərin dil səviyyəsi, həm müəllimlərin peşəkarlığı, həm də ümumi tədris mühitindən qaynaqlana bilər. Həmçinin atalar sözlərinin özünün məcazi və mədəni xarakter daşıması onların öyrədilməsini digər leksik vahidlərdən daha mürəkkəb edir. Aşağıda bu çətinliklər sistemli şəkildə təsnif edilərək təhlil olunur:Məcazi mənanın anlaşılmaması - Atalar sözləri adətən məcazi mənalı, dolayı ifadələrdən ibarətdir. Bu isə xüsusilə dil öyrənməyə yeni başlayan və ya dil səviyyəsi zəif olan şagirdlər üçün başa düşülməz ola bilər. Onlar bu ifadələri sözbəsöz tərcümə etməyə çalışdıqda mənanı tamamilə itirə və yanlış anlama ilə qarşılaşa bilərlər.Məsələn: “Don’t cry over spilt milk” ifadəsi yeni öyrənənlər tərəfindən “dökülmüş südə ağlama” kimi başa düşülə bilər, halbuki bu, “keçmişə görə peşman olmağın mənasız olduğu” fikrini ifadə edir.Mədəniyyət fərqlərindən irəli gələn anlaşılmazlıqlar - Atalar sözləri bir xalqın tarixini, adət-ənənəsini və dünya görüşünü əks etdirdiyi üçün onların mənası bəzən başqa bir mədəniyyətə mənsub insan üçün anlaşılmaz olur. Şagirdlər ifadənin arxasında duran mədəni kodu və konteksti anlamadan onun məğzini qavramaqda çətinlik çəkirlər.Nümunə: “The early bird catches the worm” ifadəsi, İngilis mədəniyyətində məhsuldarlıqla bağlı olan təqdirəlayiq davranışı göstərsə də, bənzər bir anlam Azərbaycan dilində fərqli ifadələrlə verilir. Şagird mədəni bənzətməni dərk etmədikdə ifadə mənasız görünə bilər.Şifahi və yazılı nitqdə istifadədə tərəddüdlər - Şagirdlər atalar sözlərini nəzəri olaraq öyrənsələr də, onları praktiki nitq fəaliyyətində – xüsusilə yazılı inşa və ya şifahi çıxış zamanı – istifadə etməkdə tərəddüd edirlər. Bu, ya ifadənin mənasını tam mənimsəməmək, ya da kontekstdə düzgün istifadə etməyə əmin olmamaq səbəbindən baş verir.Tərcümə zamanı yaranan çətinliklər - Bəzən müəllimlər və ya şagirdlər atalar sözlərini birbaşa tərcümə etməyə çalışırlar. Halbuki atalar sözlərinin çoxunun müvafiq qarşılığı başqa dildə fərqli söz birləşməsi ilə ifadə olunur. Bu isə semantik və üslubi səhvlərə gətirib çıxarır.Məsələn: “Every cloud has a silver lining” ifadəsini birbaşa tərcümə etmək deyil, “Hər bir pisliyin bir xeyri vardır” mənasında təqdim etmək daha doğrudur.Dərs vəsaitlərinin və metodik materialların məhdudluğu - Atalar sözlərinin tədrisinə həsr olunmuş dərs vəsaitləri və metodik materiallar kifayət qədər deyil. Bu, müəllimlərin müvafiq ifadələri necə təqdim etməli olduqları barədə müəyyən çətinlik yaşamalarına səbəb olur. Materialların azlığı tədrisin sistemsiz və təsadüfi aparılmasına gətirib çıxarır.Müəllimin metodoloji hazırlıq səviyyəsi - Bəzi hallarda müəllimlərin atalar sözlərinin tədrisinə dair metodoloji bilikləri və bacarıqları yetərli olmur. Onlar bu ifadələrin təqdim olunmasında ən uyğun üsulları seçməkdə, kontekst yaratmaqda və ifadəni yaş səviyyəsinə uyğunlaşdırmaqda çətinlik çəkə bilərlər.Motivasiya və marağın azlığı - Şagirdlər

bəzən atalar sözlərini öyrənməyə maraq göstərmirlər. Bunun səbəbi ifadələrin "köhnəlmiş" və ya "praktik olmayan" hesab olunmasıdır. Əgər müəllim ifadənin gündəlik həyatda istifadəsini göstərməzsə və onun maraqlı kontekstini təqdim etməzsə, şagird öyrənməyə həvəssiz yanaşır.Vaxt məhdudiyyəti -;İngilis dili dərslərində çoxsaylı mövzular və dil bacarıqları üzərində işləmək tələb olunduğu üçün atalar sözlərinə xüsusi vaxt ayırmaq bəzən mümkün olmur. Bu da onların öyrədilməsini ya səthi, ya da ümumiyyətlə nəzərdənkənar edir.Dəyərləndirmə meyarlarının olmaması - Atalar sözlərinin istifadəsini qiymətləndirmək üçün konkret rubrik və ya kriteriyaların olmaması da bir çətinlikdir. Müəllimlərin bu sahədə subyektiv və qeyri-dəqiq yanaşmaları, tədrisin nəticələrinin düzgün ölçülməsinə mane ola bilər.Atalar sözlərinin tədrisində qarşıya çıxan bu çətinliklər, onların tədrisinin sistemsiz və təsadüfi aparılması ilə daha da dərinləşir. Bunun qarşısını almaq üçün müəllimlər metodik cəhətdən hazırlıqlı olmalı, ifadələrin təqdimatında interaktiv, kommunikativ və mədəniyyətlərarası yanaşmalardan istifadə etməlidirlər. Eyni zamanda, tədris planına bu ifadələrin inteqrasiyası və qiymətləndirilmə mexanizmlərinin qurulması da zəruridir. [5 : 69 s.]

Atalar sözləri xalqın həyat təcrübəsinin, mədəni dəyərlərinin və mənəvi dünyagörüşünün yığcam şəkildə ifadə formasıdır. Müxtəlif dillərdə yaranmış atalar sözləri ümumbəşəri ideyalar ətrafında formalaşsa da, onların təqdim forması, obrazlar sistemi, məcazlı dili və istifadə olunan simvollar mədəniyyətlər arasında fərqlilik göstərir. Bu baxımdan, İngilis və Azərbaycan atalar sözlərinin müqayisəli təhlili həm dilin, həm də mədəniyyətin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.[2 : 23 s.]

Məna və ideya baxımından oxşarlıqlar

Hər iki dildə bəzi atalar sözləri eyni ideyanı ifadə edir. Bu, ümumbəşəri dəyərlərin və həyat qanunauyğunluqlarının fərqli xalqlarda da oxşar formada yaşamasından irəli gəlir.

İngilis atalar sözü → Azərbaycan atalar sözü → İfadə etdiyi fikir

"Practice makes perfect" → "Məşq insanı kamilləşdirir" → Davamlı məşq və təcrübə ilə bacarıq artır.

"A friend in need is a friend indeed" → "Dost dar gündə tanınar" → Əsl dost çətin gündə bilinir.

"Look before you leap" → "Min ölç, bir biç" → Tələskən qərarlar risklidir.

"No pain, no gain" → "Əziyyət olmadan zəhmət olmaz" → Uğur zəhmət tələb edir.

Bu cür uyğunluqlar, dil öyrənən şagirdlər üçün çox faydalıdır, çünki yeni ifadələri öz ana dillərindəki qarşılıqlarla müqayisə etməklə daha yaxşı mənimsəyə bilirlər.[4 : 70 s.]

Obraz və simvolların fərqliliyi - Bəzi hallarda, ideya eyni olsa da, ifadədə istifadə olunan obraz və simvollar fərqlidir. Bu isə mədəniyyətlərin təbiətə, heyvanlara, gündəlik həyat hadisələrinə yanaşma tərzindən qaynaqlanır.

İngilis atalar sözü → Azərbaycan atalar sözü → Qeyd

"Don't put all your eggs in one basket" → "Bütün yumurtanı bir səbətə yığma" (eyni də ola bilər) → Eyni mənalı ifadə, amma bəzən birbaşa tərcümə qəbul olunmur.

"Every cloud has a silver lining" → "Hər bir pis işin bir xeyri var" → İngiliscədə "bulud" obrazı, Azərbaycanda ümumi həyat təcrübəsi.

"Let sleeping dogs lie" → "Yatan it oyadılmaz" → Hər iki dildə obraz eynidir, lakin ifadə tərzi dəyişə bilər.

Fərqli məzmun və milli dəyərlər - Bəzi atalar sözləri yalnız həmin xalqa və onun tarixi-mədəni kontekstinə xasdır. Onların başqa dildə tam qarşılığını tapmaq çətindir. Bu zaman ifadə ya tərcümə olunur, ya da izahla təqdim edilir.İngilis dili:

"Barking dogs seldom bite" – Qışqıran adamlar adətən təhlükəli olmur.

"The squeaky wheel gets the grease" – Səs çıxaran problem diqqət görür.

Azərbaycan dili:

"Arxalı it qurd basar" – Güclü arxa olan zəfər çalar.

"Dəvə yükünü bilsə, çölde otlamaz" – İnsanın öz gücünü bilməsi vacibdir.

Bu tip atalar sözləri tədris zamanı şagirdlərə mədəniyyətlərarası fərqlilikləri göstərmək və onların dillərarası müqayisə bacarığını inkişaf etdirmək üçün əla vəsaitdir.

Dil və üslub xüsusiyyətləri - Azərbaycan atalar sözləri daha çox aşıq şeiri üslubunda, ahəngli və bədii şəkildə formalaşır. İngilis atalar sözləri isə daha yığcam və praktiki tərzdədir. Məsələn:

Azərbaycan: "Əldən gələn odun söndürməz."

İngilis: "What's done is done."

Bununla yanaşı, Azərbaycan dilində bəzən atalar sözləri qoşma cümlələr şəklində verilir, İngiliscədə isə cümlə daha qısa və sadə olur.

İngilis və Azərbaycan atalar sözlərinin müqayisəli təhlili göstərir ki, fərqli xalqlar bənzər həyat təcrübələrini müxtəlif dillərdə və obrazlarla ifadə etsələr də, ortaq dəyərlər və mənalar mövcuddur. Bu müqayisə, şagirdlərə həm linqvistik, həm də mədəniyyətlərarası şüur qazandırır. Tədris zamanı bu oxşar və fərqli cəhətlərin izahı, həm İngilis dilinin, həm də ümumi düşüncə tərzinin daha dərindən mənimsənilməsinə xidmət edir.[1 : 75 s.]

Müasir texnologiyalar ingilis dili tədrisini daha çevik, effektiv və motivasiyaedici edir. Bu vasitələr həm müəllim, həm də şagird üçün geniş imkanlar təqdim edir. Lakin texnologiyanın uğurla tətbiqi onun düzgün və məqsədyönlü istifadəsindən asılıdır. Müəllimlər bu resursları pedaqoji məqsədlərlə birləşdirərək şagirdlərdə dil bacarıqlarının hərtərəfli inkişafına nail ola bilərlər.Müasir tədris

metodologiyasında ən mühüm prinsiplərdən biri fərdi yanaşmadır. Fərdi yanaşma hər bir şagirdin bilik səviyyəsi, öyrənmə tərzi, maraqları, intellektual və psixoloji xüsusiyyətləri nəzərə alınaraq qurulan tədris prosesidir. İngilis dili kimi praktiki bacarıqlar tələb edən bir fəndə bu yanaşma xüsusilə əhəmiyyətlidir. Fərqli bacarığa, motivasiyaya və qabiliyyətə malik şagirdlər eyni tədris metodları ilə bərabər nəticələr göstərə bilməzlər. Buna görə də müəllim dərsi planlaşdırarkən differensial yanaşmadan istifadə etməli və şagirdlərə fərdi yanaşmalıdır. [5 : 73 s.]

İngilis dili bu gün beynəlxalq ünsiyyət, təhsil, elm və texnologiyanın əsas dillərindən biri kimi qlobal əhəmiyyətə malikdir. Buna baxmayaraq, onun tədrisi zamanı bir çox pedaqoji, metodoloji və praktiki çətinliklər ortaya çıxır. Bu çətinliklərin düzgün təhlili və effektiv həll yollarının tapılması, tədrisin keyfiyyətini artırmaq baxımından olduqca vacibdir[1 : 78s.]

İnnovativ pedaqogikanın əsas istiqamətlərindən biri də inteqrativ tədris yanaşmasıdır. Bu yanaşma, bir neçə fənnin və ya bacarığın birgə şəkildə öyrədilməsi və qarşılıqlı əlaqə içində inkişaf etdirilməsi prinsiplərinə əsaslanır. İngilis dilinin tədrisində bu yanaşmanın tətbiqi, dil bacarıqlarının daha funksional və həyati konteksdə formalaşmasına səbəb olur.İnteqrativ tədrisin əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1. Fənlərarası əlaqə: İngilis dili tədrisində tarix, coğrafiya, biologiya, incəsənət və digər fənlərin mövzularından istifadə etməklə, həm dil bacarıqları inkişaf etdirilir, həm də şagirdin ümumi dünyagörüşü genişlənir.Məsələn: “Climate change” mövzusunda dərs keçərkən həm coğrafi biliklər tətbiq olunur, həm də yeni leksika və qrammatik strukturlar öyrədilir.

2. Bacarıqların kompleks inkişafı: Dinləmə, danışma, oxu və yazı bacarıqları eyni mövzu ətrafında, koordinasiyalı şəkildə inteqrasiya olunur. Bu, dildə düşünmə və ünsiyyət qabiliyyətini artırır.

3. Əməkdaşlığa əsaslanan öyrənmə: Şagirdlər birgə layihələr, təqdimatlar və interaktiv tapşırıqlarla həm dil bacarıqlarını, həm də sosial kompetensiyalarını inkişaf etdirirlər. 3 : 105]

Müasir dövrdə təhsil sisteminin əsas məqsədlərindən biri qlobal standartlara cavab verən, çevik düşüncəli və peşəkar kadrların hazırlanmasıdır. Xüsusilə xarici dil müəllimlərinin hazırlığı bu sahədə xüsusi diqqət tələb edir. İngilis dili müəllimi yalnız bilik ötürən deyil, eyni zamanda düşünən, analiz edən, texnologiya ilə işləyən və müxtəlif öyrənmə ehtiyaclarına cavab verən bir şəxsiyyət olmalıdır. Bu baxımdan, onun peşəkar hazırlığı və davamlı inkişafı təhsil sistemində prioritet istiqamətlərdən sayılır.İngilis dili müəlliminin peşəkar hazırlığının komponentləri - İngilis dili müəlliminin hazırlığı yalnız dil biliklərindən ibarət deyil. Peşəkar müəllim aşağıdakı sahələrdə bilikli və bacarıqlı olmalıdır:Dilin struktur bilikləri: Morfologiya, sintaksis, fonetika, leksika, semantika və stilistika.Dilin praktik tətbiqi: Dinləmə, oxuma, yazma və danışma bacarıqları üzrə yüksək səriştə.Metodoloji hazırlıq: Müxtəlif yaş

və səviyyələr üzrə tədris strategiyalarını bilmək, dərsləri planlaşdırmaq və təhlil etmək bacarığı.Psixoloji və pedaqoji biliklər: Şagirdlərin yaş, psixoloji və fərdi xüsusiyyətlərini nəzərə almaq, motivasiya vermək və dəstəkləyici mühit yaratmaq.Texnoloji savadlılıq: Rəqəmsal platformalarda dərs aparmaq, interaktiv alətlərdən (Zoom, Google Classroom, Quizlet və s.) istifadə bacarığı.Fasiləsiz inkişafın əhəmiyyəti və zəruriliyi - Dil daim dəyişən və inkişaf edən bir sistemdir. İngilis dili də bu baxımdan istisna deyil. Yeni sözlər, ifadələr, qrammatik trendlər, kommunikasiya modelləri və metodik yanaşmalar müəllimin daima yenilənməsini zəruri edir. Fasiləsiz inkişaf dedikdə aşağıdakılar nəzərdə tutulur:İxtisasartırma kurslarında iştirak – Dövlət və qeyri-dövlət təşkilatları tərəfindən təşkil edilən metodiki seminar və treninqlər.Rəqəmsal dövrdə müəllimin rolu - Yeni nəsil şagirdlər texnologiya ilə böyüyürlər. Bu, müəllimlər üçün həm fürsət, həm də çağırışdır. Müasir müəllim:İnteraktiv dərs dizayn etməli,Multimediya materiallardan istifadə etməli (videolar, slaydlar, interaktiv oyunlar),Distant tədris alətlərini effektiv şəkildə tətbiq etməlidir.Texnologiya müəllimə həm dərs strukturunda çeviklik, həm də şagirdin diqqətini cəlb etmək imkanı yaradır. Eyni zamanda müəllim, şagirdlərin rəqəmsal savadlılığını da inkişaf etdirməlidir. [4 : 76 s.]

Müəllimlərin motivasiyası və peşə bağlılığı - Fasiləsiz inkişaf yalnız xarici motivasiya ilə deyil, daxili motivasiya və özünə qarşı məsuliyyətlə mümkündür. Bu səbəbdən müəllim:Öz uğurlarını qeyd etməli,Özünü qiymətləndirmə aparmalı,Peşəsində anlam və məqsəd hiss etməlidir.Bunun üçün məktəb rəhbərliyi də motivasiyaedici şərait yaratmalıdır: uğurlu müəllimlər tanınmalı, metodik fəaliyyətlərə dəstək göstərilməlidir.Beynəlxalq təcrübədən nümunələr - Finlandiya modeli: İngilis dili müəllimləri dərindən akademik və praktik hazırlıq alır. Dərs yükü azdır, müəllimə özünü inkişaf etdirmək üçün vaxt verilir.Cənubi Koreya və Yaponiya: Müəllimlərə müntəzəm olaraq seminarlar və treninqlər keçirilir. Təcrübəli müəllimlər yeni müəllimlərə mentorluq edir.Avropa İttifaqı ölkələri: Müəllimlərin sertifikatları dövri olaraq yenilənməlidir. Fasiləsiz inkişaf qanunvericiliklə tənzimlənir.Azərbaycanda vəziyyət və perspektivlər - Azərbaycanda müəllimlərin peşəkar inkişafı sahəsində bir sıra irəliləyişlər müşahidə olunur: Müəllimlərin işə qəbulu üzrə imtahan sistemi şəffaflaşdırılıb. Müəllimlərin peşəkar inkişaf mərkəzləri fəaliyyət göstərir. Onlayn resurslar və distant təlimlər genişlənməkdədir.

Nəticə

Atalar sözləri bir xalqın dil mədəniyyətini, sosial düşüncə tərzini, milli mənəvi dünyasını və tarix boyu formalaşmış həyat təcrübəsini özündə əks etdirən qısa, lakin dərin mənalı ifadələrdir. Onlar nəsildən-nəslə ötürülən hikmət nümunələri olmaqla bərabər, dilin semantik zənginliyini və xalqın dünyagörüşünü də aydın şəkildə əks etdirir. Bu baxımdan, İngilis və Azərbaycan atalar sözlərinin müqayisəli təhlili yalnız dilçilik aspektindən deyil, həm də mədəniyyətlərarası tədqiqat baxımından mühüm əhəmiyyətə malikdir.Müqayisə göstərir ki, İngilis və Azərbaycan atalar sözləri bir

çox hallarda oxşar məna və ideyalar ətrafında formalaşsa da, onların ifadə tərzi, istifadə olunan obrazlar, bədii vasitələr və simvollar fərqlidir. Bu fərqliliklər hər bir xalqın spesifik mədəni mühitini, dini inanclarını, tarixi şəraitini və təbiətə münasibətini əks etdirir. Məsələn, İngilis atalar sözlərində daha çox konkret və praktiki yanaşma müşahidə olunur, ifadələr qısa, məntiqli və aydın olur. Azərbaycan atalar sözləri isə bədii dəyərlərlə zəngindir, ahəngdar, şeiriyyətli və obrazlı dillə formalaşır.Bununla yanaşı, hər iki xalqın atalar sözlərində ortaq dəyərlərin – dostluq, zəhmətkeşlik, ehtiyatlılıq, doğruluq, səbir və ədalətin – ifadə olunması onların universal mənəvi prinsiplərə əsaslandığını göstərir. Bu isə sübut edir ki, dillər və mədəniyyətlər fərqli olsa da, insanlıq dəyərləri eynidir və hər bir xalq bu dəyərləri fərqli formalarda ifadə etməyi bacarmışdır.Tədris baxımından bu müqayisəli təhlilin əhəmiyyəti daha da artır. Şagirdlər atalar sözlərinin həm öz ana dillərində, həm də öyrəndikləri dildə izahını və tətbiqini öyrəndikcə yalnız lüğət və qrammatika deyil, həm də mədəni şüur və anlayış qazanırlar. Onlar iki xalqın dil fərqlərini və bənzərliklərini müşahidə edərək analitik və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, öyrəndikləri dili daha funksional və mənalı şəkildə mənimsəyirlər.Bundan başqa, bu cür müqayisəli yanaşma şagirdlərdə mədəniyyətlərarası tolerantlıq, empati və geniş dünya görüşü formalaşdırır. Şagirdlər öyrəndikləri ifadələrin arxasında duran milli dəyərləri və mədəni kodları anladıqca, həmin dili sadəcə ünsiyyət vasitəsi kimi deyil, bütöv bir dünyagörüş sistemi kimi qəbul etməyə başlayırlar.Bütün bu amilləri nəzərə alaraq demək olar ki, atalar sözlərinin müqayisəli təhlili təkcə dil öyrənməyə deyil, eyni zamanda fərdin şəxsiyyət kimi formalaşmasına, mədəni kimlik və sosial dəyərlərin mənimsənilməsinə də böyük təsir göstərir. Müasir tədris metodologiyasında bu cür yanaşmaların tətbiqi zəruridir, çünki bu, şagirdləri sadəcə bilik daşıyıcısına deyil, həm də düşünən, müqayisə edən, dəyərləndirən və mədəniyyətləri anlayan fərdlərə çevirir.

Ədəbiyyat:

1. Əliyeva, S. (2018). Xarici dillərin tədrisi metodikası. Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Məmmədova, N. (2020). Fərdi yanaşma prinsipi ilə dil öyrənmə metodları. Bakı: Təhsil Nəşriyyatı.
3. Richards, J. C., & Rodgers, T. S. (2014). Approaches and Methods in Language Teaching (3rd ed.). Cambridge University Press.
4. Harmer, J. (2015). The Practice of English Language Teaching (5th ed.). Pearson Education Limited.
5. Brown, H. D. (2007). Principles of Language Learning and Teaching. Pearson Longman.

, .
Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21 05 2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Aysel Şərifova tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 86-90

https://doi.org/10.62837/2025.4.86

SADIXOVA SARIGÜL ORUC
ADPU
sarigulsadixova1960@gmail.com

LEKSİK-SEMANTİK ÜSULLA YARANAN TERMINLƏR

XÜLASƏ

Azərbaycan ədəbi dilinin lüğət tərkibinin inkişafında ictimai-siyasi hadisələrin təsiri böyükdür.Belə ki, cəmiyyətin iqtisadi, siyasi, ictimai-mədəni həyatındakı inkişafla əlaqədar olaraq dilin leksik-terminoloji potensialının zənginləşməsinə real zəmin yaranır. Dilin yeni sözlərlə zənginləşməsi və mövcud mənalarının dəyişilməsi ictimai həyatda və ictimai fikirdə yaranan yeni inkişafla əlaqədardır. Yəni dilin lüğət tərkibi tələbatla bağlı müxtəlif dəyişikliklərə məruz qalır. Odur ki, ədəbi dilin lüğət tərkibinin tərcümə hesabına zənginləşməsi milli dil əlaqələri zəminində mühüm istiqamətlərdən biri hesab olunur. Zənginləşmə elə bir prosesdir ki, burada lüğət tərkibinin diaxron mənzərəsi açılır, tarixi-mədəni inkişafın dildə faktlaşma üsulları meydana çıxır. Ona görə də dilin lüğət tərkibinin zənginləşməsində əsas mənbə dilin daxili imkanlarıdır. K.M.Musayev yazır: ‘’Türk dillərinin leksik tərkibinin zənginləşməsi məsələləri haqqında nəzəri tədqiqatlar lazımdır. Məlumdur ki, türk dilləri leksikasının zənginləşməsi həm daxili imkanlardan, materiallardan, vasitələrdən və yolladan istifadə yolu ilə sözdüzəltmə hesabına, həm də dünyanın başqa dillərindən sözalma hesabına olur. Sözdüzəltmə və onun müxtəlif yollarının (sintetik, analitik, fonetik, leksik) mahiyyətini aydınlaşdırma və alınmalara nəzəri və praktiki qiymət – onları daha da dərindən öyrənmək üçün geniş imkanlar açır.’’

Dilin lüğət tərkibinin zənginləşməsinin əsasında dildə olan sözlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi (kalkaetmə) və alınmalar durur. Ümumiyyətlə, söz yaradıcılığında əsas yeri leksik-semantik və qrammatik üsullar, həmçinin başqa dillərdən kalkalar tutur.Kalka üsulu ilə söz yaradıcılığı müasir Azərbaycan dilinin leksik-qrammatik sisteminin inkişafının əsas yollarından biri olaraq leksika və söz yaradıcılığını, semantika və tərcüməşünaslıq məsələlərini özündə əks etdirir. Tərcümə dilin lüğət tərkibinin leksik-semantik potensialını zənginləşdirən mühüm mənbələrdən biridir.

Açar sözlər: ictimai-siyasi, iqtisadi, cəmiyyət, vasitə, əlaqə, motivasiya.

Tərcümə dilində işlədilən bir çox leksik vahidlər lüğət tərkibinin bir elementi olsa da, çox zaman ümumişlək səciyyə daşımır, müəyyən sahələrdə, bu və ya digər situativ şəraitdə işlədilir. Xüsusilə, müasir dövrdə ingilis və rus dilindəki elmi-kütləvi ədəbiyyatın təsiri altında müxtəlif materialların Azərbaycan dilinə tərcüməsi ilə

əlaqədar dilimizə bir çox söz və terminlər keçmiş və bunların quruluşu kimi formalaşan yeni söz və ifadələr yaranmağa başlamışdır Belə ki, ictimai-iqtisadi, siyasi inkişaf dilin söz yaradıcılığı sistemində də özünü göstərir, dildə kalkalar kimi yeni növlü leksik-qrammatik vahidlərin yaranmasına səbəb olur.Buna görə də elmi-texniki tərəqqi ilə bağlı olan anlayışları ifadə etmək üçün yeni məzmun Azərbaycan dilinin özündə mövcud olan moldellərlə verilir.

Tərcümə prosesində yeni anlayış ifadə edən söz və ifadələr müqabilində ikinci dildə semantik motivasiya mövcud olduğu halda bunlar kalka edilir. Deməli, yeni anlayış və mənanın başqa dildə ifadəsi üçün onun özünün daxili struktur modelləri müəyyən edilmiş olur. Hazırda Azərbaycan dilinə ingilis və rus dillərindən elmi-texniki, siyasi mətnlərin tərcüməsilə bağlı leksik vahidlər daxil olur və onlar aid olduğu sahələrdə işlənir. Bu zaman əmələ gələn vahidlərin hər biri dilin öz daxili materialı əsasında yarandığına görə dilin daxili inkişaf qanunları həlledici rol oynayır. Tərcümə prosesində leksik vahidlərin yaradılmasında ən geniş istifadə edilən üsullardan biri də kalka yoludur. Bu üsulun mahiyyəti haqqında dilçilik ədəbiyyatında müxtəlif fikirlər mövcuddur: ‘’Kalka sözün hissələr üzrə tərcümə edilib, sonra həmin hissələrin mexaniki surətdə birləşdirilməsidir.’’

Bu yolla yeni termin yaradılarkən tərcümə olunan bu və ya digər söz, termin həmin dilə (tərcümə edilən dildə) eyni mənanı verən sözlərlə, sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır. Buna görə də tərcümə olunan terminin, termin-söz birləşmələrinin tam qarşılığı göstərilməlidir. Əks halda onu kalka adlandırmaq olmaz. Təbiidir ki, hərfi tərcümə (kalka üsulu bəzən hərfi tərcümədə adlandırılır) prosesində qarşılıqlı tərcümə olan dillərin qurulunun yaxınlıq dərəcəsi, dilin lüğət tərkibinin, kalka edilən dildəki söz yaradıcılığı yollarının inkişaf dərəcəsi və sair amillər mühüm rol oynayır.

Demək, yeni yaranan hər bir kalka əlaqədar olduğu dilin uyğun sözləri ilə müqayisədə öz funksiyasını düzgün yerinə yetirməli və dildə işləklik qazanmalıdır. Buna görə də tərcümə dəqiq olmalı, nəzərdə tutulan anlayışın əsas mahiyyətini ifadə etməlidir. Məsələn «qruzopodğemnik» sözünün «yükqaldiran» kalkasindaki birinci komponent «qruz - yük» sözləri ikinci komponent «qaldıran» qarşılığına qisman uyğun gələrək yeni anlayış bildirmişdir. Elaca da, zakonomernıy- qanunauyğun, «zemlemer- yerölçən»; nadstroyka - üstqurum; vodooçistitelğ – sutəmizləyən va s. terminlar dilin daxili imkanlari əsasında, yəni dilin sözyaradıcı va sözdüzəldici qanunlari əsasında yaranmışdır. Göründüyü kimi bu prosesdə dilin daxili materialı həlledici rol oynayır, sözlər dilin daxili imkanları əsasında yaranır və başqa dilə məxsus sözlərin quruluşu kimi formalaşması naticəsində yeni söz və yeni söz modeli yaranır. Lakin dilçilikdə mübahisəli məsələlərdən biri də kalka yolu ile yaranan termin sözlerin alınma hesab olunmasıdır.

V.V.Ivanov yazır: «Yeni sözün başqa dilde mövcud olan sözün tasiri altında yaranması faktı kalkaetməni alınmanin xüsusi növü kimi qiymətləndirməyə imkan

verən əlamətlərdən biridir» D.S.Lotte isə yazır: «Əcnəbi sözün leksik cəhətdən mənimsənilməsinin daha tam formasını tərcümə üsulu ile alınmalar (kalkalar) təşkil edir. Tərcümə üsulu ilə söz alınan zaman ana dili materiallarının köməyi ilə əcnəbi sözün mənası sözyaratma prinsipleri, semantik quruluşu («daxili forması») mənimsənilir»

N.Xudiyev yazır: «Kalkalar dilin öz daxili imkanları hesabına (həm söz və səkilçilər, həm də struktur milli olur) yaransa da, onların meydana çıxması üçün bilavasitə etimon dilin təsiri olur. Belə ki, etimon dilin təsiri ilə əvvala sözün va ya ifadənin bütün komponentləri müvafiq kalka olunur. Digər tərəfdən isə bəzi istisnalar nəzərə alınmazsa, struktur eyniliyi saxlanır, daha doğrusu, söz birləşməsi söz birləşməsinə, söz sözə kalka edilir» .

N.K.Dmitriyev də alınmaları və kalkaları bir-birindən fərqləndirərək göstərirdi ki, onlar müxtəlif tətbiq üsullarına malikdir. Belə ki, tək-tək leksik vahidlər alınır, iki və daha artıq sözün birləşməsi ilə kalka edilir.Deməli, kalkalar söz yaradıcılığının bir formasi olub, dilin daxili imkanları hesabına kənar dil elementlarının təsiri ilə yaranan dil vahidləridir. Göründüyü kimi bu fikirlərin ümumi cəhəti ondan ibarətdir ki, kalkalar başqa bir dile məxsus sözlərin, yaxud söz birləşmələrinin ana dilinin müvafiq sözləri və söz birləşmələri ilə dəqiq tərcümə etmək üçün həmin sözlərin modelləri əsasında qurulmuş sözlər, yaxud ifadələrdir.

Ədəbiyyat

1. M.M.Рокровский Избранные работы по языкознанию.M. 1959 səh.82.

2. К.М.Мусаев. Основные проблемы изучения лексики трюкских языков. СТ, 1978, №3, стр.35.

3. В.В.Иванов. Терминология и заимстования в современном китайском языке. М., 1973, с.86.,96

4. Д.С.Дотте. Вопросы заимствования и упорядочения иноязычных терминов и терминоэлементов. М., 1982, с.5.

5.Xudiyev N. Azərbaycan ədabi dilinin sovet dövrü. Maarif nəşriyyatı, B., 1989, S.232.

6.Azərbaycan dilinin izahlı lüğəti.4 c.Baki"Elm", 1987.109.

T. S.Abdullayeva.Müasir Azərbaycan dilində zərf."Maarif" nəşriyyatı, Bakı, 1991.s.37.

8. Azərbaycan dilinin izahlı lüğəti dörd cilddə.III cild.səh.226.

SADIKHOVA SARIGUL ORUJ

Terms created by the lexical-semantic method

SUMMARY

Key words: socio-political, economic, society, tool, communication, motivation.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.86-90

The impact of social and political events on the development of the vocabulary of the literary language of Azerbaijan is great. Thus, in connection with the development in the economic, political, social and cultural life of the society, a real basis for the enrichment of the lexical-terminological potential of the language is created. The enrichment of the language with new words and the change of existing meanings is related to the new development in social life and public opinion. That is, the vocabulary of the language undergoes various changes due to demand. Therefore, the enrichment of the vocabulary of the literary language through translation is considered one of the important directions in terms of national language relations. Enrichment is a process in which the diachronic picture of the vocabulary is revealed, and the methods of historical-cultural development in the language appear. Therefore, the main source for the enrichment of the vocabulary of the language is the internal capabilities of the language. K.M. Musayev writes: "There is a need for theoretical studies on the issues of enriching the lexical composition of Turkish languages. It is known that the enrichment of the lexicon of Turkish languages is due to word correction through the use of internal opportunities, materials, tools and methods, and due to borrowing words from other languages of the world. Clarification of the nature of word correction and its various ways (synthetic, analytical, phonetic, lexical) and theoretical and practical assessment of borrowings - opens wide opportunities to study them more deeply.

The enrichment of the vocabulary of the language is based on the expansion of the semantic meaning of the words in the language, the methods of word creation, the process of translation from other languages (copying) and borrowings. In general, lexical-semantic and grammatical methods, as well as kalkas from other languages take the main place in word creation. Word creation by the kalka method reflects the issues of lexicon and word creation, semantics and translation studies as one of the main ways of developing the lexical-grammatical system of the modern Azerbaijani language. Translation is one of the important sources that enriches the lexical-semantic potential of the vocabulary of the language.

САДЫХОВА САРЫГЮЛЬ ОРУДЖ

Термины, созданные лексико-семантическим методом

РЕЗЮМЕ

Ключевые слова: социально-политический, экономический, общество, инструмент, коммуникация, мотивация.

Влияние общественно-политических событий на развитие словарного запаса литературного языка Азербайджана велико. Таким образом, в связи с развитием экономической, политической, социальной и культурной жизни общества создается реальная основа для обогащения. создается лексико-

терминологический потенциал языка. Обогащение языка новыми словами и изменение существующих значений связано с новым развитием общественной жизни и общественного мнения. То есть словарный запас языка претерпевает различные изменения в зависимости от спроса. Поэтому обогащение словарного запаса литературного языка посредством перевода считается одним из важных направлений с точки зрения национальных языковых отношений. Обогащение – это процесс, в котором раскрывается диахроническая картина словарного запаса, появляются способы историко-культурного развития в языке. Поэтому основным источником обогащения словарного запаса языка являются внутренние возможности языка. К.М. Мусаев пишет: «Существует необходимость теоретических исследований по вопросам обогащения лексического состава тюркских языков. Известно, что обогащение лексики турецких языков происходит за счет коррекции слов за счет использования внутренних возможностей, материалов, инструментов и методов, а также за счет заимствования слов из других языков мира. Уточнение сущности исправления слов и его различных способов (синтетического, аналитического, фонетического, лексического), а также теоретической и практической оценки заимствований - открывает широкие возможности для их более глубокого изучения.

Обогащение словарного запаса языка основано на расширении смыслового значения слов в языке, способов словотворчества, процесса перевода с других языков (копирования) и заимствований. В целом в словотворчестве основное место занимают лексико-семантический и грамматический методы, а также калки из других языков. основные пути развития лексико-грамматической системы современного азербайджанского языка. Перевод является одним из важных источников, обогащающих лексико-семантический потенциал словарного запаса языка.

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21 05 2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Əliyeva tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.91-97

https://doi.org/10.62837/2025.4.91

SAMİRƏ MƏRDANLI
Bakı Dövlət Universitetinin doktorantı və əməkdaşı
Bakı Dövlət Universiteti, Zahid Xəlilov 23, AZ1148
mardanli.samira@gmail.com, +994 51 620 00 99
Orcid ID: 0009-0002-9062-0782

"SİRLƏR XƏZİNƏSİ"NDƏ FRAZEOLOJİ VAHİDLƏR VƏ ONLARIN SEMANTİK YÜKÜ: MƏNƏVİ-ƏXLAQI DİDAKTİKA XÜLASƏ

Nizami Gəncəvinin Xəmsəsinin ilk poeması olan didaktik poema kimi tanınan "Sirlər xəzinəsi" ("Məxzənül-Əsrar") əsəri nəcib insani məziyyətlər və əxlaqi təriflələ zəngindir. Nizami əsərində sözlərin hərfi mənasından kənar məna qatlarını çatdırmaq üçün frazeoloji vahidlərdən - sabit məcazi və ya simvolik ifadələrdən ustalıqla istifadə edir. Bu frazeoloji vahidlər (Azərbaycan dilçiliyində sabit birləşmələr də deyilir) idiom kimi fəaliyyət göstərərək, mürəkkəb fikirləri obrazlı ifadə etmək üçün vahid semantik vahidlər kimi çıxış edir. Bu ifadələrin bir çoxu şeirin didaktik mesajlarını canlı obrazlarla əhatə edən mühüm əxlaqi-etik kodlar daşıyır. Bu məqalədə "Məxzənül-Əsrar"ın farsca mətnindən seçilmiş frazeoloji vahidlər təhlil edilir. Burada "qəlbin güzgüsü", "dünyanın qum saatı" və s. kimi metaforik və simvolik ifadələrə diqqət yetirərək, onların semantik yükünü və müasir Azərbaycan dilindəki ekvivalentlərini və ya analoqlarını araşdırmağa və təhlil etməyə çalışmışıq. Məqalə Nizaminin bədii dilinin obrazlı ifadələri necə zamana sığmayan etik müdrikliyin daşıyıcısına çevirdiyini vurğulayır.

Açar sözlər: Nizami Gəncəvi, Sirlər xəzinəsi, frazeoloji vahidlər, didaktika, leksika, məcaz

Summary

The first poem of Nizami Ganjavi's Khamsa, the "Treasure of Secrets" ("Makhzan-ul-Asrar"), known as a didactic poem, is rich in noble human virtues and moral definitions. In his work, Nizami skillfully uses phraseological units - fixed figurative or symbolic expressions - to convey layers of meaning beyond the literal meaning of words. These phraseological units (also called fixed combinations in Azerbaijani linguistics) act as idioms and act as single semantic units to figuratively express complex ideas. Many of these expressions carry important moral and ethical codes that surround the didactic messages of the poem with vivid images.

This article analyzes phraseological units selected from the Persian text of "Makhzan-ul-Asrar". Here, "the mirror of the heart", "the hourglass of the world", etc. We have tried to investigate and analyze their semantic load and their equivalents or

analogues in the modern Azerbaijani language, focusing on metaphorical and symbolic expressions such as. The article emphasizes how Nizami's artistic language turns figurative expressions into carriers of timeless ethical wisdom.

Keywords: Nizami Ganjavi, Treasury of Secrets, phraseological units, didactics, lexicon, metaphor

Резюме

Первая поэма Низами Гянджеви «Хамсе», известная как дидактическая поэма «Сокровищница тайн» («Махзан-ул-Асрар»), богата благородными человеческими добродетелями и моральными похвалами. В своем творчестве Низами мастерски использует фразеологизмы — устойчивые образные или символические выражения — для передачи смысловых пластов, выходящих за рамки буквального значения слов. Эти фразеологические единицы (в азербайджанской лингвистике их также называют устойчивыми соединениями) функционируют как идиомы, выступая в качестве отдельных семантических единиц для образного выражения сложных идей. Многие из этих выражений несут в себе важные моральные и этические нормы, которые дополняют дидактические послания стихотворения яркими образами. В статье анализируются отдельные фразеологические единицы из персидского текста «Махзан-уль-Асрар». Здесь «зеркало сердца», «песочные часы мира» и т. д. Мы попытались исследовать и проанализировать их смысловую нагрузку и их эквиваленты или аналоги в современном азербайджанском языке, сосредоточившись на метафорических и символических выражениях, таких как: В статье подчеркивается, как художественный язык Низами превращает образные выражения в носителей вневременной этической мудрости.

Ключевые слова: Низами Гянджеви, Сокровищница тайн, фразеологизмы, дидактика, лексика, метафора

GİRİŞ. Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poeması metaforik deyimlərlə, simvolik obrazlarla zəngindir. Əsərdə güzgü və əks etdirmə, zaman, nitq və sükut kimi obrazlara müraciət diqqəti xüsusilə cəlb edir. Nizami həqiqət, özünü tanıma və dürüstlükdən bəhs edərkən “qəlbin aynası” və həqiqəti üzə çıxaran güzgünü sındırmamaq kimi, həyatın və maddi dünyanın keçici təbiətini vurğulayarkən “dünyanın qum saatı” kimi ifadələrdən metaforalardan istifadə olunur. Nizami dili qılıca bənzədir, “su kimi dinlə, güzgü kimi gördüyünü demə” (“eşitdiyini su kimi yu, gördüyünü güzgü kimi demə”) kimi nəsihətlər verir, nitqdə təmkin və hikməti önə çəkir. [3, 25]

Əsas hissə. Sirlər xəzinəsi” poemasında diqqət çəkən məcazlardan biri “qəlbin güzgüsü”dür. Nizami Bəhramşahın tərifi haqqında olan bölmədə farsca yazdığı “من زانوی سر دل آینهٔ” (ayine-ye del sər-e zanu-ye man)-“Qəlbimin güzgüsü

dizimin üstünə qoyuldu" kimi tərcümə oluna bilər. [1, 31] Bu poetik obraz şairi meditativ, şəkildə təsvir edir – sanki o, ürəyinin güzgüsünü cilalamaq və yoxlamaq üçün dizinin üstünə qoymuşdur. Sonrakı sətirlərdə Nizami davam edir: "این به که من پرداختم آینه / درانداختم دیده آینهٔ - yəni "Mən özümü bu güzgüyə həsr etmişəm, görən güzgünü kənara atmışam". Şair burada "güzgü" ruhu və ya batini simvollaşdırır, qəlb güzgüsünü cilalamaq isə qəlbin həqiqəti və ilahi nuru əks etdirmək üçün saflaşdırılmasını göstərir. Azərbaycan dilində qarşılığı olan "qəlbin aynası" ifadəsi azərbaycanca vicdan və ya daxili təmizliyi göstərmək üçün işlənmişdir. Yəni gözlər qəlbin güzgüsüdür, insanın daxili hissləri zahirdə əks olunur. Nizaminin istifadəsində isə güzgü elə qəlbin özüdür, onu təmiz saxlamaq lazımdır. Bu frazeoloji vahidin semantik yükü təsəvvüf fikrinə əsaslanır ki, qəlb ancaq günahlardan (çirkabdan) təmizləndikdə ilahi həqiqəti əks etdirə bilər. Nizami dühası özünü tanımağın, səmimiyyətin və mənəvi saflığın vacibliyini əxlaqi-didaktik vahidlə böyük ustalıqla ifadə edərək, insanın öz daxilini güzgü kimi mütəmadi olaraq yoxlaması və cilalamasının doğru və fəzilətli qalmaq üçün əsas vasitə olduğunu vurğulayır. [6]

Digər beytdə o, "رسد تابی آینه کدام ز تا" – "ki, hansı güzgüdən parıltı gəlsin" deyərkən ürəyinin güzgüsündə bir bəsirət şüası parlaması üçün uzun müddət sərf etdiyini təsvir edir. Nizaminin işlətdiyi "qəlbin aynası" əslində insanın həqiqi mənliyini və ilahi olanı əks etdirməsinin semantik yükünü vurğulayır. Beləki, hiylədən uzaq, aydın, dürüst bir ürək yetişdirmək üçün etik nəsihət xarakterli bu ifadə vurğulayaraq, "qəlbin aynasını təmizləmək" və ya "qəlbin aynasını təmiz saxlamaq", yəni vicdanını təmiz saxlamaqla oxşar fikri ifadə etməkdədir. Bu, Nizaminin həqiqət və təvazökarlıq dərsləri vermək üçün istifadə etdiyi digər güzgü ilə əlaqəli metaforaların əsasını təşkil edir. [4, 20]

"Sirlər xəzinəsi"nin bəlkə də ən məşhur müddəalarından biri "تو نقش چون آینه خطاست شکستن آینه شکن، خود / راست بنمود (Ayine çun naqş-e to benomud rast, khod şekən, ayine şekəstən xətast) güzgü haqqındakı qoşmadır ki, burada şair "Güzgü sizə əsl obrazınızı göstərdisə, özünüzü sındırın – güzgünü sındırmaq səhvdir" demək istəyir. Nizami bu aforizmi həqiqəti söyləyən bir müdrik və zalım padşah haqqında hekayəsi daxilində də ifadə edir. Burada müdrik dərviş padşahın eyblərini səmimi şəkildə göstərməklə bir növ ona "güzgü tutmuşdur". Qüsurlarının üzə çıxmasından qəzəblənən padşah, onu cəzalandırmaq haqqında düşünür. Bu zaman müdrik qoca yuxarıdakı misraları söyləyərək, özünü doğruçu güzgü ilə müqayisə edir və padşaha həqiqəti susdurmaqdansa, özünü islah etməyi tövsiyə edir. "توام دارآینه نیک و بد در" – "Mən yaxşı və pisdə sizin güzgü daşıyıcınızam (güzgü sahibi)" ifadəsi–məşhur sətirlərdən əvvəl gəlir, məcazi mənanı açıq şəkildə ifadə edir. Bu frazeoloji vahidin semantik yükü dürüstlük və təvazökarlıq haqqında güclü bir etik göstəricidir: eyiblərinizi üzə çıxaran elçini (güzgünü) qınamayın və məhv etməyin; əvəzinə özünüzü islahat edin. [1, 146]

Bu fikir fars dilində bir atalar sözünə çevrilmişdir. Nizaminin vurğuladığı əsas didaktik fikir aydındır – "doğruluq fəzilətdir, konstruktiv tənqidi qəbul etmək isə müdriklik yoludur". Nizami göstərir ki, hökmdar (və ya hər hansı bir şəxs) dürüst məsləhətin "güzgüsünü sındırmamalıdır". Bunun əvəzinə insan öz çatışmazlıqlarını etiraf etməyə mane olan eqo və ya qüruru "parçalamalıdır". Doğrudan da, həqiqətin güzgü metaforasından bir çox klassik şairlər istifadə edir. Nizami onu "Məxzənül-əsrar"a daxil etməklə, poemanın didaktik missiyasının məhək daşı olan həqiqəti qəbul etmək və özünü islah etmək kimi məzmunu vurğulayır. Hekayənin nəticəsində padşah müdrikin məsləhətinə qulaq asır, öz yollarının "əyriliyini" dərk edir və avtoritarlıqdan ədalətə çevirir. Beləliklə, " خطاست شکستن آینه " ("güzgü sındırmaq düzgün deyil") ifadəsi təvazökarlığı və həqiqəti qəbul etməyi təbliğ edən yığcam ifadə kimi müasir dövrdə də öz aktuallığını saxlayır. [5, 28]

Güzgü motivindən əksinə istifadədə, Nizami həm də həddindən artıq nöqsan tapmaqdan, yenə güzgü təsvirindən istifadə etməkdən çəkindirir. O, "مکن نویسیعیب دارعیب نفسی از نشوی تا / وارآیینه" (başqalarının eyiblərini güzgü kimi yazmayın, ki, öz nəfsinizdə (qürurunuz) qüsurlu olmayasınız) misrasında "وارآیینه نویسیعیب" ifadəsilə güzgü kimi başqalarının hər bir qüsurunu əks etdirən bir insanı təsvir edir və insanları bu cür davranışlardan çəkindirməyə çalışır. Bu frazeoloji vahidin semantik yükü təvazökarlıq, empatiya və özünüdərk ətrafında dövr edir. İnsan öz vəzifəsi kimi başqalarının qüsurlarını həvəslə göstərməməlidir, çünki belə etməklə insan təkəbbürü (eqo) bəsləyə və öz qüsurlarına göz yuma bilər. [8, 22] Bu zaman insan özü haqqında həqiqəti qəbul etməli olduğu halda, başqaları haqqında həqiqəti çatdırarkən diqqətli və mülayim olmalıdır. Nizaminin ifadəsi isə onu poetik şəkildə güzgüyə bağlayır: adi güzgü hər şeyi fərq etmədən göstərir. Lakin insanlar eyni şeyi etməməlidirlər; əxlaqi nəzakət tələb edir ki, başqalarının qüsurlarını üzə çıxarmaq üçün ədalətli səbəb yoxdursa, onları örtək. Bu, Nizaminin ondan əvvəl və sonrakı sətirlərdə vurğuladığı məşhur islam etik anlayışı olan پوشی (puşi) - başqalarının eyiblərini ört-basdır etmək anlayışından müvafiq şəkildə istifadə edir ki, "بین خود صورتِ / فراز کن دگران عیب ز دیده ساز عیب درو و" (dide ze eyb-e digəran kon fəraz / surət-e xod bin o dəru eyb saz) – "Özünə bax, öz eybini öz gözündən gör, öz eybini tap), "دست به آری هنر تا مبین عیب" (eyb məbin, ta honar ari be dəst) – "nöqsanı axtarma ki, fəzilət əldə edəsən" kimi misralarda bunu açıq şəkildə görürük. Bu öyüd-nəsihətlərdə güzgü ikili simvol rolunu oynayır: o, özünü əks etdirmək üçün bir vasitədir, lakin başqaları ilə münasibət qurmaq üçün problemli bir modeldir. Nizami bu mənfi bənzətmədə "güzgü"dən istifadə etməklə təvazökarlıq və mərhəmətin dəyərini kodlaşdırır və oxuculara sərt mühakimə yürütməkdən çəkinməyi tövsiyə edir. Bu, əvvəlki güzgü metaforasını tamamlayır: birlikdə götürdükdə, başqalarına qarşı bağışlayarkən özləri haqqında həqiqəti qəbul etməyə çağırırlar. Bu tarazlıq Nizaminin etik davranış haqqında incəlik anlayışını nümayiş etdirən "Sirlər xəzinəsi"ndə əsas əxlaq

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.91-97

kodeksidir. Nizami Gəncəvi nitq və səssizlik müzakirəsini su və güzgü ilə bağlı daha bir parlaq bənzətmə cütü ilə genişləndirir.

است گوشی‌گران وقتِ مشنو، بد
است خاموشی نوبت مگو، زشت
بشوی شنیدی چه هر صفت‌آب
مگوی ببینی چه‌آن سان‌آینه

(Pis eşitmə, indi baha-dinləmə vaxtıdır (yəni seçici olun); Çirkin sözlər danışma – susmaq vaxtıdır... Su kimi, eşitdiyiniz hər şeyi yuyun; Güzgü kimi, gördüyünüzü deməyin.) [1, 241]

Burada "مگوی ببینی آنچه سان‌آینه" ifadəsi hərfi mənada "Güzgü kimi gördüyünü danışma" deməkdir. Nizamini məcazi fikri ilk baxışdan bu paradoksal görünür, çünki güzgü əslində gördüyünü göstərir, ancaq su yazıları yuyub heç bir iz buraxmadığı kimi, qeybəti də, başqalarından eşitdiyin sirləri də unutmaq lazımdır; və güzgü səssizcə hər şeyə şahid olduğu, ancaq özü lal qaldığı kimi, insan müşahidə etdiklərini danışaraq etimadlara xəyanət etməməlidir. Mahiyyət etibarı ilə bu qoşma nitqdə təmkin, gizlilik və təmkin fikirlərini ehtiva edir. Su və güzgü burada ideal sirdaşın iki xüsusiyyətinin simvoludur – su deyilənləri yox edir, güzgü isə hər şeyi "görsə" də, heç vaxt ondan danışmır. [2, 27] Deməli, bu frazeoloji vahidin semantik yükü sirr saxlamağın, böhtan yaymamağın, nitqdə ehtiyatlı olmağın vacibliyidir. O, məxfilik və etibarlılıq (məxfilik və etibarlılıq) əxlaq kodeksini əks etdirir. Qeyd etmək lazımdır ki, bu nəsihət şeirin Nizaminin oxucuya bir sıra imperativ əxlaqi göstərişləri təlqin etdiyi hissədə də görünür. Su/güzgü qoşmasını əhatə edən sətirlər eyni mövzunu gücləndirir: (Pis sözə qulaq asma, çirkin söz danışma). Həqiqətən də Nizami açıq şəkildə "درست هازبان به سرها آفتِ" – "rəhbərlərin bəlası dildədir" ifadəsində bildirir. Nizami bu nəsihətlərin bir hissəsini su və güzgü bənzətmələri formasında səsləndirməklə bir daha linqvistik ifadəni əxlaq dərsinə çevirir. [1, 164]

است ساعت یکی چو دنیا حاصل
است طاعت به همه کز کن طاعت

(dünyanın hasili bir saat kimidir, ona görə də yaxşı işlər gör, çünki Allaha itaət hər şeydən daha yaxşıdır) [1, 23]

Nizami "Hasil-e donya çu yek saət əst" ifadəsi ilə əslində bütün dünya həyatını bir saata bənzədərək, zamanın və keçici dünyanın təsvirinə müraciət edir. Dünyanın qazancı bircə saat kimidir demək, həm də, bu ifadənin semantik əhəmiyyəti yer üzündəki həyatın efemer xarakterini biruzə verir. Bununla müəllif İslam və Farsdilli ədəbiyyatda ortaq bir mövzu olan bu dünyanın bir an kimi keçici olması fikri və buna görə də mənəvi və əxlaqi hərəkətlərə üstünlük vermək lazım olduğunu təlqin edir. Bu frazeoloji vahiddə irəli sürülən əxlaqi-etik kod dünya ləzzətlərinin və həyatın özünün keçici olduğunu bilərək, saleh yaşayaraq, vaxtdan səmərəli istifadə etməyə nəsihətdir.

Bunlarla yanaşı, Nizaminin "Sirlər xəzinəsi" əsərində hər biri əxlaqi və ya fəlsəfi anlayışları ifadə edən çoxsaylı frazeoloji incilər vardır.

است اندکی حیات مرغ قفس در

(can quşu qəfəsdə çox qalmır) [1, 106]

Bu misrada şair ruh və bədən üçün quş-qəfəs metaforasından istifadə edir, ölüm və axirət haqqında xatırlatma, dünyəvi boş şeylərdən uzaqlaşmağı təşviq edən fikir ortaya qoyur, mənəvi hazırlıq ehtiyacını gücləndirir. Bu ifadələrin hər biri - istər metafora, istər bənzətmə, istərsə də aforizm - şeirin didaktikasına öz töhfəsini verir. Müasir alimlərin müşahidə etdiyi kimi, Nizaminin hekayə və ifadələri həm zahiri səthi mənaya, həm də, gizli didaktik məzmuna malikdir və oxucunun diqqətini daha dərin həqiqətlərə yönəldir. Nizami bu frazeoloji vahidləri məharətlə öz poeziyasına daxil etməklə onun əxlaq dərslərinin mücərrəd təbliğat deyil, oxucunun zehnində və dilin özündə yaşayan, yaddaqalan obraz və deyimlər olmasını təmin etmişdir. [9, 288]

Nəticə. Nizami Gəncəvinin "Sirlər xəzinəsi" ("Məxzənül-əsrər") əsərindəki frazeoloji vahidlərin tədqiqi bu mühüm əsərdə linqvistik ifadə ilə etik nəsihət arasında dərin həmrəylik üzə çıxarır. Güzgü, su, qum saatı, quş və digər simvolların metaforalarının hərfi mənalarını çox üstələyən - dürüstlük, özünü düşünmə, təvazökarlıq, bağışlama, təmkinlilik və dindarlıq kimi semantik məna daşıyıcısı anlamında işlədilməsi Nizaminin çatdırmaq istədiyi mənəvi və əxlaqi təlimi özündə ehtiva edir. Bu fikirləri canlı ifadələr və obrazlara daxil etməklə, Nizami onun nəsihətlərinin dillər və əsrlər arasında əks-səda doğurmasını təmin etmiş, bu günkü fars və azərbaycan dillərində bu deyimlərin çoxunun davamlı olması ilə nəticələnmişdir. [7, 288]

Dilçilik nöqteyi-nəzərindən Nizaminin frazeoloji vahidlərdən istifadə etməsi fars dilini mükəmməl şəkildə mənimsədiyinin hətta, onun gündəlik sözləri fəlsəfi düşüncənin daşıyıcılarına çevirməsinin şahidi oluruq. Əsas odur ki, bu frazeoloji vahidlərdə şifrələnən mənəvi-əxlaqi dəyərlər təkcə Nizaminin deyil, digər klassik şairlərin və əxlaq filosoflarının da tərənnüm etdiyi ümumbəşəri dəyərlərlə üst-üstə düşür. Nizamini fərqləndirən onun bu dəyərləri çatdırdığı gözəllikdir. Güzgü haqqında bir beyt liderlik və təvazökarlıq haqqında çox şey öyrədə bilər; bir saata yaxın qısa bir metafora insanın həyat prioritetlərini yönləndirə bilər. Bu effektivlik isə etik anlayışların poetik dilin şairin toxunuşunun məharətindən irəli gəlir. Nəticədə, Sirlər xəzinəsi əsəri əslində iki səviyyədə fəaliyyət göstərir ki, zahirdə təxəyyülü qüvvətləndirən poeziyası ilə zövq verərkən; daha dərin səviyyədə, o, oxucunu etik zərifliyinə doğru çağırır və onu istiqamətləndirir, formalaşdırır. Bu ikili funksiya Nizami yaradıcılığının rəmzidir ki, bir tədqiqatçı onu mənzum formada "etik və mənəvi bəyan" adlandırır. Beləliklə aydın olur ki, Nizami poeziyasının tədqiqi frazeoloji və semantik fokusdan çox faydalanır. Xəzain əl-Əsrarın dediyi kimi "Sirlər Xəzinəsi" əsərindəki idiomatik ifadələrə və metaforalara ciddi diqqət yetirməklə insan sözlərin hərfi mənaları altında gizlənən dərin "xəzinələrə" çıxış əldə

edir. Buradakı sirlər əbədi əxlaqi həqiqətlər, xəzinə sandıqları isə diqqətli təfsir yolu ilə açmalı olduğumuz frazeoloji vahidlərdir. Nəhayət, bu məqalə Nizami Gəncəvi irsinin təkcə ədəbi və linqvistik deyil, həm də əxlaqi-mənəvi xarakterdə olduğunu vurğulayır. Sirlər xəzinəsindəki frazeoloji vahidlər dillər və əsrlər boyu ötürülən didaktik irs daşıyır ki, bu da maarifləndirməyə, ilham verməyə və əks etdirməyə davam edir. Bu əxlaqi-əxlaqi ifadə vasitələri həmişə olduğu kimi aktual olduğu müasir dünyada Nizaminin dilini öyrənmək öz dəyərlərimizi daha dərindən dərk edir. Nizaminin zəmanəsinə qədər saxladığı güzgü bu gün də əksimizi bizə göstərə bilər – bir şərtlə ki, biz onu "sındırmaq" yox, ondan dərs götürsək. Mahiyyət etibarilə, dil gözəlliyi və dərinliyi prizmasından Nizaminin səsi bizə çatır, yaxşı həyatın "həqiqəti axtar, təvazökar ol, müdrik danış, bu dünyanın keçici təbiətini xatırla" kimi sadə, lakin dərin anlamlarını çatdırır ki, "Sirlər xəzinəsi"nin frazeoloji xəzinə sandığını açdığımız zaman üzə çıxan daş-qaşlar məhz bunlardır.

Ədəbiyyat siyahısı

1. وحید حسن حواشی و تصحیح با ای گنجه نظامی حکیم الاسرار مخزن .حمیدیان سعید دکتر .دستگردی تهران، آفتاب نشر، ۱۳۷۶ ۲۳۷ ص.
2. Rüstəm Əliyev, Sirlər xəzinəsi (Məxzənül-əsrar) filoloji tərcümə, Elm Nəşriyyatı, Bakı, 1981.
   Hacı F. Qurbansoy, "'Sirlər xəzinəsi'ndən iki beytin tərcüməsi haqqında," Ədəbiyyat qəzeti, 14 Oct 2021.
3. Mehdi Rahimpour, "Şərh və təhlil: Nizami Gəncəvinin Məxzənül-əsrarında bəzi ədəbi xüsusiyyətlər" in Mötəber Ədəbiyyat, 2020.
   "الاسرارمخزن در اخلاقی هایسفارش از برخی" (Some Ethical Admonitions in Makhzan al-Asrar), Khane-yi Moulana online article, 2022.
   E. E. Bertels, Низами: Творческий путь поэта (Nizami: The Creative Path of the Poet), Moscow, 1956.
4. Christopher Shackle & J. Stephenson (eds.), A Key to the Treasure of the Hakīm – Artistic and Humanistic Aspects of Nizami Ganjavi's Heritage, Leiden: Leiden University Press, 2011. library.oapen.orgdegruyterbrill.com.
5. Zəhra Allahverdiyeva, "On the history of study of Nizami Ganjavi in Azerbaijan," Proceedings of Institute of Literature *(*AMEA*)*, 2021.
6. Amir Esmaeil Azar, Mahnaz Najafi. An Investigation of Nezami's Works Translated in the West (France, England, and Germany). European Online Journal of Natural and Social Sciences. Vol.4, №2. 2015

, .

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21 05 2025
Elmi rəhbər: f.e.d, professor Möhsün Nağısoylu tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 98-106

https://doi.org/10.62837/2025.4.98

SALMANOVA GÜLTƏKIN ƏZIM QIZI
Azərbaycan Dillər Universiteti

K. ABDULLANIN "YARIMÇIQ ƏLYAZMA" ROMANININ İNGİLİS DİLİNƏ TƏRCÜMƏSİNDƏ MORFOLOJİ VƏ SİNTAKTİK SƏVİYYƏDƏ FUNKSİONAL EKVİVALENTLİYİN TƏHLİLİ

Xülasə:

Məqalə, K. Abdullanın "Yarımçıq Əlyazma" romanının ingilis dilinə tərcüməsində morfoloji və sintaktik səviyyədə funksional ekvivalentliyin təhlilinə həsr olunub. Tərcümə prosesində morfoloji və sintaktik strukturların fərqli dillər arasında necə uyğunlaşdırıldığı və bu uyğunlaşmanın mənanın düzgün ötürülməsinə necə təsir etdiyi araşdırılır. Romanın orijinalında istifadə olunan morfoloji quruluşlar – şəkilçilər, köklər, feil formaları və sintaktik quruluşlar – cümlə tipləri, söz birləşmələri tərcümədə funksional ekvivalentlik prinsipinə əsasən təhlil olunur.

Məqalədə, Azərbaycan dilindəki morfoloji və sintaktik xüsusiyyətlərin ingilis dilinə uyğun tərcümə edilməsinin çətinlikləri və bu çətinliklərin necə aradan qaldırıldığı, funksional ekvivalentlik prinsipinin tətbiqi ilə izah olunur. Eyni zamanda, tərcümə prosesində dil və mədəniyyətin qarşılıqlı təsirinin roluna da toxunulur, çünki orijinalın mədəni və sosial kontekstinin tərcüməyə necə əks olunduğu vurğulanır.

Romanın tərcüməsində eyni funksiyanı yerinə yetirən morfoloji və sintaktik strukturların seçilməsi və tərcüməçinin bu strukturları necə uyğunlaşdırması məsələsi əsas mövzulardan biridir. Məqalə, həmçinin tərcümə prosesinin keyfiyyətini artıran və dilin struktur xüsusiyyətlərinə hörmətlə yanaşan funksional ekvivalentlik yanaşmasının tərcümə dünyasında necə tətbiq olunduğunu nümayiş etdirir.

Bu təhlil, tərcüməçilərə və dilçilərə morfoloji və sintaktik səviyyədə dilin strukturlarını uyğunlaşdırarkən mənanı itirməmək və mədəniyyətlərarası bağları qorumaq üçün faydalı bir baxış açısı təqdim edir.

Açar sözlər: funksional ekvivalentlik, tərcümə, morfoloji struktur, sintaktik struktur, mədəniyyət, dilin qarşılıqlı təsiri

Gultakin Azim Salmanova

ANALYSIS OF FUNCTIONAL EQUIVALENCE AT THE MORPHOLOGICAL AND SYNTACTIC LEVELS IN THE ENGLISH TRANSLATION OF K. ABDULLA'S NOVEL "THE UNFINISHED MANUSCRIPT"

Abstract

The article is dedicated to the analysis of functional equivalence at the morphological and syntactic levels in the English translation of K. Abdullayev's novel The Incomplete Manuscript. The study explores how morphological and

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.98-106

syntactic structures are adapted across languages during the translation process and how this adaptation affects the accurate transmission of meaning. The morphological structures used in the original text – such as affixes, roots, verb forms – and syntactic structures like sentence types and word combinations, are analyzed according to the principle of functional equivalence in the translation.

The paper discusses the difficulties encountered in translating the morphological and syntactic features from Azerbaijani to English and how these challenges were addressed through the application of functional equivalence. The role of the interaction between language and culture during the translation process is also highlighted, as the impact of the original text's cultural and social context on the translation is examined.

One of the central themes of the article is the selection of morphological and syntactic structures that serve the same function and how the translator adjusts these structures to achieve an equivalent meaning. The article also demonstrates how the functional equivalence approach, which respects the structural characteristics of the language, enhances the quality of the translation.

This analysis provides a valuable perspective for translators and linguists on how to maintain meaning while adjusting the structures at the morphological and syntactic levels and preserving the intercultural connections in the translation.

Key words: functional equivalence, translation, morphological structure, syntactic structure, culture, linguistic interaction.

Салманова Гюльтекин Азим кызы

АНАЛИЗ ФУНКЦИОНАЛЬНОЙ ЭКВИВАЛЕНТНОСТИ НА МОРФОЛОГИЧЕСКОМ И СИНТАКСИЧЕСКОМ УРОВНЯХ В АНГЛИЙСКОМ ПЕРЕВОДЕ РОМАНА К. АБДУЛЛЫ «НЕПОЛНАЯ РУКОПИСЬ»

Аннотация:

Статья посвящена анализу морфологического и синтаксического уровня функциональной эквивалентности в переводе романа К. Абдуллы "Неполная рукопись" на английский язык. Исследуется, как морфологические и синтаксические структуры адаптируются между различными языками в процессе перевода и как эта адаптация влияет на точную передачу значения. Морфологические структуры, использованные в оригинале романа — аффиксы, корни, формы глаголов и синтаксические конструкции — типы предложений, словосочетания — анализируются в соответствии с принципом функциональной эквивалентности в переводе.

В статье рассматриваются трудности перевода морфологических и синтаксических особенностей азербайджанского языка на английский и как эти

трудности были преодолены с помощью применения принципа функциональной эквивалентности. Также подчеркивается роль взаимодействия языка и культуры в процессе перевода, поскольку рассматривается, как культурный и социальный контекст оригинала отражается в переводе.

Одной из ключевых тем статьи является выбор морфологических и синтаксических структур, выполняющих одну и ту же функцию, и как переводчик адаптирует эти структуры. Статья также демонстрирует, как подход функциональной эквивалентности, который уважает структурные особенности языка, улучшает качество перевода.

Этот анализ предоставляет полезную перспективу для переводчиков и лингвистов, помогая сохранить значение при адаптации структур на морфологическом и синтаксическом уровнях и сохранить межкультурные связи в процессе перевода.

***Ключевые слова*:** функциональная эквивалентность, перевод, морфологическая структура, синтаксическая структура, культура, взаимодействие языков.

Funksional ekvivalentlik, xüsusilə tərcümə, linqivistika sahələrində istifadə olunan bir anlayışdır. Bu anlayış, bir dilin funksiyasını və ya rolunu digər bir dildə eyni şəkildə yerinə yetirən bir vahid ilə əvəz etməyi ifadə edir. Başqa sözlə, funksional ekvivalentlik bir ifadənin, konseptin və ya strukturun öz mənasını və funksiyasını qoruyaraq fərqli bir kontekstdə istifadə olunmasıdır.

Funksional ekvivalentlik dilin bütün səviyyələrində reallaşır. Bədii əsərlərdən əlavə elmi və rəsmi işgüzar üslublarda da funksional ekvivalentlik anlayışına rast gəlinir. Xüsusilə terminlərin tərcüməsində funksional ekvivalentliyin tapılması və bu prosesdəki çətinliklər meydana çıxır. "Hər bir dil özünəməxsus semantik quruluşa malik olduğundan ingilis və Azərbaycan dillərində işlədilən terminlərin tam ekvivalentini tapmaq qeyri mümkündür. Məlumdur ki, terminoloji ekvivalentlik tərcümədə ən vacib məsələlərdən biridir. Tərcümə nəzəriyyəsində işlədilən — ekvivalentlik termini bu problemin geniş kontekstdə təhlil edilməsinə imkan yaratdı. Tərcümədə ekvivalentliyin mənası eynilik, adekvatlıq, uyğunluq deməkdir. Tərcümə nəzəriyyəsində bu problem bir sıra alimlər tərəfindən səciyyələndirilmişdir.

Funksional ekvivalentlik, tərcümə nəzəriyyəsində çox mühüm bir anlayışdır. Bu yanaşmaya əsasən, tərcümə edilən mətnin mədəni və dil xüsusiyyətlərini qorumağa çalışarkən, eyni funksiyanı yerinə yetirən ifadələrin seçilməsi məqsəd qoyulur. Eyni zamanda tərcümə edilən mətnin orijinal dilin və ya mətnin məqsədinin eyni funksiyasını, mesajını və ya təsirini qoruyaraq başqa bir dilə adaptasiya etməkdir. Funksional ekvivalentliyi Kamal Abdullanın "Yarımçıq əlyazma" əsərinin ingiliscə tərcüməsinin nümunələri üzərində nəzərdən keçirək:

Dilçilikdə semantik funksional ekvivalentlik də mövcuddur. Bu halda, bir dilin istifadə etdiyi bir ifadənin və ya sintaktik strukturların digər dildəki qarşılığı tapılaraq mənanın qorunması təmin edilir. Bu, daha çox mədəni adaptasiya və qrammatik strukturların funksional olaraq ekvivalent olmasına yönəlmiş yanaşmadır.

Funksional ekvivalentlik, literal (sözbəsöz) tərcümədən fərqlidir. Literal tərcümə bu, mətnin orijinalını olduğu kimi, hər bir sözün birbaşa tərcüməsi ilə həyata keçirilən tərcümə növüdür. Bu yanaşma, mətnin strukturunu və sözlərini mümkün qədər qoruyur, yəni orijinal dilin sintaktik və leksik quruluşları tərcümə edilən dildə də eyni şəkildə ifadə edilir.

Literal tərcümə, adətən mənanın itirilməməsi üçün istifadə olunsa da, bəzən tərcümə edilən dilin sintaktik və semantik xüsusiyyətləri nəzərə alınmadığı üçün təbii və anlaşıqlı olmaya bilər. Buna görə də, çox vaxt daha təbii və mədəni kontekstə uyğun tərcümə üsulları, məsələn, funksional tərcümə və ya adaptasiya seçilir.

Literal tərcümənin çatışmazlığı, hər iki dilin və mədəniyyətin fərqli strukturlarını nəzərə almadığı üçün mənanın yanlış və ya qeyri-dəqiq ötürülməsinə səbəb ola bilər.

Bədii ədəbiyyatın tərcüməsində hərfi tərcümə o qədər əlverişli olmasa da, əsərdə hərfi tərcümə nümunələrinə çox rast gəlinir:

Bir neçə gün də keçdi. Nə isə məni yenidən Əlyazmalar fonduna çəkib gətirdi [2, s.6].

A few days passed and something had drawn me back to the Manuscripts Institute [3, s.2].

Şərqşünas qızın sözlərindən sonra mənə bir anlıq elə gəldi ki, deyəsən, nəsə bir sirr qapısının önündəyəm [2, s.8].

After hearing the Orientalist`s odd remarks I suddenly felt that I was at the door to a secret [3, s.3].

İlahi, mən axı niyə bu qədər sirr hərisiyəm? [2, s. 3]

Oh, God. Why am I so greedy for a secret? [3, s.9].

Gördüyümüz kimi, cümlələr tam hərfi tərcümə nəticəsində mənbə dildən hədəf dilə çevrilmişdir.

Bəzən frazeoloji birləşmələr də olduğu kimi hədəf dilə çevrilir. *Bayandır xan qaşlarını çatıb başladı pəncərədən baxaraq o quşcuğazın hərəkətlərinə diqqət etməyə* [2,s.11]. *Bayandır khan furrowed her brows and began to pay attention to the movements of that little bird while looking out the window* [3, s.130].

“Furrowed” sözünün mənası “çatmaq” və ya “qatlamaq”dır, xüsusilə üz ifadəsində, məsələn, qaşların çatılması ilə bağlı. Bu, narahatlıq, qəzəb və ya diqqət göstərmək kimi duyğuları ifadə edə bilər.

Təəccübdən Qazanın gözləri dörd olmuşdur[2, s.30]. .

Out of astonishment, Gazan's eyes widened [3, s.36]. .

Bildiyimiz kimi, ingilis dilində "*təəccübdən gözləri dörd olmaq*" frazeologizmi yoxdur. Bunun qarşılığı kimi ingilis dilində "Widened" leksik vahidindən hesab olunur. "Widened" ingilis dilində "genişləndi" və ya "yayılmaq" mənasında istifadə olunan bir sözdür. Bu, bir şeyin ölçüsünün və ya sahəsinin böyüməsi və açılması anlamına gəlir. Məsələn, "his eyes widened" ("gözləri genişləndi") ifadəsi, birinin gözlərinin təəccüb və ya qorxudan böyüdüyünü bildirir.

Şəmsəddinin ağzı isə dəyirman daşı kimi dən-dən söz üyüdürdü: – Xan, bir məni dinlə. Nə zamandır bu sözlər qəlbimi deşib duruur [2, s.122].

Shamseddin's mouth, like a millstone, was grinding words one by one: Khan, just listen to me. These words have been piercing my heart for a long time [3, s.130].

Funksional ekvivalentlik isə, mətnin ümumi funksiyasını və məqsədini qorumağa çalışır, hətta bəzən mənanın daha uyğun bir şəkildə ifadə edilməsi üçün söz və ifadə dəyişiklikləri edilir.

"Mənbə və hədəf dillər fərqli mədəniyyətlərə malik olduqda, bəzi mövzu və anlayışları hədəf dildə təbii olaraq əks etdirmək müəyyən çətinliklər yaradır. Əlbəttə, bir xalqın qəbul etdiyi adət digərləri tərəfindən qəbuledilməz ola bilər. Bu baxımdan, bir mədəniyyətə xas olan adət və ənənənin digər fərqli mədəniyyətə malik dildə ifadə edilməsi müəyyən anlaşılmazlıqlara səbəb ola bilər. Mədəniyyətlər arasında müxtəlifliyi göstərən qeydlərin istifadəsi isə tərcümə zamanı yaranan çətinlikləri aradan qaldırmaq üçün əhəmiyyətli vasitə hesab edilir" [4, s.195]

Funksional ekvivalentlik, bir dil və ya sistemin funksiyasını və ya rolunu qorumağa yönəlmiş bir yanaşmadır. Tərcümə, proqramlaşdırma, sosial və mədəni uyğunlaşma sahələrində istifadə edilir. Bu yanaşma, mədəni və dil xüsusiyyətlərini qorumaqla yanaşı, istifadəçilərə və ya dinləyicilərə eyni mesajı verməyi hədəfləyir.

Funksional ekvivalentlik dilin müxtəlif səviyyələrində – leksik, morfoloji, sintaktik, frazeoloji laylarında reallaşır. Morfoloji və sintaktik ekvivalentlik qrammatik ekvivalentlik adı altında birləşir [8].

Qrammatik ekvivalentlik, iki dildə eyni funksiyanı yerinə yetirən qrammatik strukturların qarşılıqlı mübadiləsidir. Məsələn, bir dilin cümlə quruluşu, zaman formaları və ya şəkilçiləri digər dildə eyni və ya oxşar şəkildə ifadə oluna bilər. Qrammatik ekvivalentlik, dilin qrammatik normalarına uyğun şəkildə tərcümə aparmaq və ya fərqli dillərdə qrammatik strukturları müqayisə etmək üçün vacibdir.

Xanım mən dışarı çıxdım, Beyrəyi çağırdım, ikimiz də qayıdıb gəldik Qazanın yanına [2, s.134].

Lady, I went outside, I wandered around, and then we both returned and sat next to Gazan [3, s.137].

Şah sərkərdələri cinaha bölürdü [2,s.141].

The king was dividing the commanders into factions [3,s.151].

Hər iki cümlə eyni funksiyanı yerinə yetirir — iki nəfər və bir obyekt haqqında məlumat verir. Burada cümlə quruluşu fərqlidir. Azərbaycan dilində cümlə

"Subyekt + Obyekt + Feil" formasında, ingilis dilində isə "Subyekt + Feil + Obyekt" formasında qurulub), amma eyni mənanı daşıyır, yəni burada qrammatik ekvivalentlik mövcuddur.

Əsərin Azərbaycan dilindən ingilis dilinə tərcüməsində zaman formalarının tərcüməsi də maraq kəsb edir. Bildiyimiz kimi, ingilis dilində ümumilikdə 12 əsas zaman forması var. Bunlar üç əsas kateqoriyaya ayrılır: *keçmiş, indiki* və *gələcək* zamanlar. Hər bir kateqoriya özündə sadə, davamedici (progressiv), bitmiş (perfect) və bitmiş davamedici (perfect progressive) zaman formalarını ehtiva edir. Azərbaycan dilində isə üç zaman forması mövcuddur. Keçmiş, indiki, gələcək zaman. Məhz bu səbəbdən də Azərbaycan dilindən ingilis dilinə funksional tərcümədə zamanlar arasında fərqli nüanslar nəzərə çarpır:

Osmanlı Sultan Səlimlə şahın döyüşü Çaldıran adlı bir kənd vardı orada başladı [2,s.156].

There was a village called Chaldiran, where the battle between the Ottoman Sultan Selim and the Shah began [3,s.161]

[3,s.161]

Qadir tanrı bir bəndəyə o quyunu nəsib etməsin, elə ora düşdüyündə bağrı çatlar [2,s.170].

May Almighty God not grant such a fate to a servant, for when he falls into it, his heart will break [3,s.177].

Hər iki cümlə gələcəkdə baş verəcək bir hadisəni ifadə edir. Azərbaycan dilində feilin gələcək zaman şəkilçisi "*-acaq*[2]", ingilis dilində isə "*will*" köməkçi feilindən istifadə edilir. Burada gələcək zaman funksiyası eyni şəkildə ifadə olunub, yəni qrammatik ekvivalentlik mövcuddur.

1. Mənsubiyyət kateqoriyası (Genitive case):

Bildiyimiz kimi Azərbaycan dilində mənsubiyyət kateqoriyası mənsubiyyət şəkilçiləri vasitəsilə düzəlir. Lakin ingilis dilində mənsubiyyət əvəzlikləri mövcuddur. Bu əvəzliklər birbaşa sahiblik (mənsubiyyət) əlaqəsini göstərir. Bu əvəzliklər, şəxslərin və ya şeylərin bir-birinə aid olduğunu ifadə edir. İngilis dilindəki əsas mənsubiyyət əvəzlikləri aşağıdakılardır: my - mənim; your - sənin, sizin; his - onun (kişi üçün); her - onun (qadın üçün); its - onun (heyvanlar və qeyri-canlılar üçün); our – bizim; their – onların. Nümunə:

Bayındır xan bir xeyli dinmədi. Saqqalını səbrlə tumarladı [2,s.180].

Bayandir Khan remained silent for a long time. He was patiently stroking his beard. [3, s.187].

Sonra Qazan mənə töhmət etdi, başıma qaxınc etdi [2,s.190].

Then, Ghazan scolded me, reproached me for what he had done for me. [3, s.199].

[3, s.199].

Həpimiz şaşardıq, çün gözümüzü açan zaman Qorqudu ortalıqda bardaş qurub oturmuş gördük [2, s.160].

We were all confused, and when we opened our eyes, we saw that Gorgud was sitting cross-legged in the middle [3, s.166].

Burada mənsubiyyətin eyni funksiyası yerinə yetirilir, lakin müxtəlif qrammatik vasitələrlə ifadə edilir.

Qrammatik ekvivalentlik tərcümə prosesində vacib rol oynayır. Tərcümə edərkən, mətnin orijinal qrammatik strukturlarını başqa bir dilin qrammatik qaydalarına uyğunlaşdırmaq tələb olunur. Bu, tərcüməçinin həm orijinal dilin qrammatik strukturlarını başa düşməsi, həm də hədəf dilin qrammatikasını düzgün istifadə etməsi ilə mümkündür. Qrammatik ekvivalentlik tərcümədə mənanın dəqiq və doğru şəkildə ötürülməsini təmin edir.

1. Qrammatik ekvivalentlik, dilin qrammatik quruluşunun tərcümədə pozulmamasını təmin edir.
2. Tərcümənin keyfiyyəti qrammatik ekvivalentliyin düzgün istifadəsi ilə artır, çünki dilin orijinal strukturuna uyğun şəkildə tərcümə olunur.

"Problemin şərhində əvvəlcə *"transformasiya*" termininin açıqlanması çox vacibdir. Mənbələrdən görünür ki, bu termin ingilis mənşəli olan "*transformation*" sözündəndir. Tərcümə lüğətlərində "transformasiya" termininin latınca *transformo, transformator* sözündən olduğu göstərilir və şəklini dəyişmə, başqa şəklə keçmə, bir haldan başqa hala düşmə mənasında işlədilməsi qeyd olunur" [1, s.3].

Qrammatik ekvivalentlik, dilin qrammatik strukturlarının qarşılıqlı uyğunluğunu təmin edən vacib bir anlayışdır. Bu anlayış, tərcümə prosesində dilin qrammatik strukturlarının uyğunlaşdırılmasını və eyni funksiyanı yerinə yetirməsini təmin edir, həmçinin dilin mətinlərdəki mənalarının dəqiq ötürülməsi üçün əhəmiyyətlidir.

Morfoloji ekvivalentlik dilçilikdə, xüsusilə tərcümə və morfologiya sahəsində istifadə olunan bir anlayışdır və dilin morfoloji strukturlarının qarşılıqlı olaraq bir-birini təkrarlaması və ya eyni funksiyanı yerinə yetirməsi ilə bağlıdır. Morfoloji ekvivalentlik, müxtəlif dillərdə morfemlər, şəkilçilər və köklərin eyni və ya oxşar funksiyanı yerinə yetirən qarşılıqlı ifadə formalarını təmsil edir.

Morfoloji ekvivalentlik, müəyyən bir dilin morfoloji strukturunun başqa bir dildəki qarşılığı ilə əvəz olunmasıdır. Bu, bir dilin morfoloji vasitələri ilə formalaşan bir ifadənin, başqa bir dildə də morfoloji olaraq uyğun bir şəkildə tərcümə edilməsidir. Məqsəd, morfoloji strukturların eyni funksiyanı yerinə yetirərək mənanın qorunmasını təmin etməkdir.

Morfoloji ekvivalentlik, dilin morfologiyasının iki müxtəlif dil arasında qarşılıqlı şəkildə uyğunlaşmasıdır. Burada morfologiya dedikdə, dilin sözləri yaratmaq üçün istifadə etdiyi kök və şəkilçi morfemlər nəzərdə tutulur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.98-106

Morfoloji ekvivalentlik tərcümə sahəsində xüsusilə vacibdir, çünki bir dilin morfoloji strukturlarını digər dilə tərcümə edərkən uyğun şəkilçilər və morfemlər istifadə olunmalıdır. Tərcümə zamanı bu ekvivalentlərdən istifadə etmək, mətndəki morfoloji dəqiqliyi və funksional uyğunluğu qorumağa kömək edir.

Kafirin casusu hazır oldu [2,s.180].
The infidel's spy is ready[3, s.187] . — *Yiyəlik hal*

Qazan quyuya gedirdi. Quyu onun zindanı idi.
Gazan was going to the well. The well was his prison.Yönlük hal

Azərbaycan dilindəki *–a*[2] yönlük şəkilçisi ingilis dilindəki *"to"* sözönü ilə qarşılanır.

Şahımız onu üzən, qüssələndirən Çaldırandan qayıdırdı [2, s.145].
Our king was returning from Çaldıran, which had saddened
Çıxışlıq hal
and distressed him [3, s.150].

Azərbaycan dilindəki *–dan*[2] çıxışlıq şəkilçisi də funksional tərcümə zamanı *"from"* sözönü ilə qarşılanır.

Morfoloji ekvivalentlik, tərcümə prosesində mənanın və qrammatik quruluşların düzgün çatdırılmasını təmin edir. Morfoloji quruluşuna və mənsub olduğu dil ailəsinə görə fərqli dillərdə morfoloji strukturların uyğunlaşdırılması, dilin daxili quruluşunun pozulmaması üçün vacibdir.

Morfoloji ekvivalentlik, sözlərin qurulmasında və strukturunda uyğunluğu qoruyaraq dilin qaydalarına uyğun tərcümənin aparılmasına imkan verir.

Morfoloji ekvivalentlik, müxtəlif dillərdə morfoloji strukturların qarşılıqlı uyğunluğunu ifadə edən vacib bir anlayışdır. Dilin morfoloji xüsusiyyətlərinin düzgün tərcümə edilməsi və qarşılıqlı olaraq uyğunlaşdırılması, həm dilin quruluşunu qorumağa, həm də düzgün mənanın ötürülməsinə kömək edir.

Sintaktik funksional ekvivalentlik dilçilikdə iki dil arasında sintaktik quruluşların və funksiyaların oxşar və ya qarşılıqlı olaraq uyğun olmasını ifadə edən bir anlayışdır. Bu anlayış, əsasən tərcümə prosesində istifadə olunur və cümlə quruluşunun eyni mənanı daşıyan fərqli sintaktik quruluşlarla ifadə edilməsini nəzərdə tutur. Sintaktik funksional ekvivalentlikdə məqsəd, cümlənin strukturunu dəyişdirərkən, onun məna və funksiyasını qorumaqdır.

Sintaktik funksional ekvivalentlikdə cümlə quruluşları müxtəlif dillərdə müxtəlif şəkildə qurula bilər, amma eyni funksiyanı yerinə yetirirlər. Burada əsas olan, cümlənin quruluşunun dəyişməsi ilə yanaşı, onun məqsəd və mənasının qorunmasıdır. Bu anlayışda, bir dilin sintaktik quruluşu başqa bir dilin sintaktik quruluşuna uyğunlaşdırıla bilər. Məsələn, bir dildə sadə cümlə istifadə edilərkən, digər dildə buna mürəkkəb cümlə ilə qarşılıq verilə bilər.

Bu dəfə Şahın səsində adətən ona yad olan bir sərtlik var idi [2, s.110].

This time, there was an unusual harshness in the king's voice [3, s.116].
Bir şərt qoydular ki, Xanım hələ belə birisini heç eşitməmişdik [2, s.116].
They said a condition, Lady, that none of us had ever heard before [3, s.120].

Sintaktik funksional ekvivalentlik tərcümə prosesində əhəmiyyətli bir rol oynayır, çünki dilin struktur dəyişikliklərinə baxmayaraq, məna tam şəkildə qorunmalıdır. Bu prinsipi tətbiq edərək, tərcüməçi iki dil arasında informasiya ötürülməsinin düzgünlüyünü təmin edir. Sintaktik funksional ekvivalentlik, cümlənin struktural və funksional aspektlərinin təhlili əsasında, orijinal mətndəki məqsəd və məna tərcümə olunan dildə uyğun bir şəkildə əks etdirilməlidir. Tərcüməçi, cümlə quruluşunun dəyişdirilməsi zamanı məna və funksiyanı qorumaq məqsədilə, hər iki dilin sintaktik xüsusiyyətlərinə uyğun olaraq, eyni funksiyanı yerinə yetirən alternativ bir quruluş seçməlidir. Bu yanaşma, tərcümənin yüksək keyfiyyətini təmin etməklə yanaşı, həm də dilin təbii axışını qorumağa kömək edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abbasova N. Transformasiyanın ümumi məsələlərinə dair [Elektron resurs] https:// www. researchgate. net/ publication /370074130_ Transformasi-yanın_umumi_msllrin_dair
2. Abdulla K. Yarımçıq əlyazma / Bakı: Mütərcim, 2012. -288 s.
3. Abdulla, K. The Incomplete Manuscript / Translated from Azerbaijani by A.Thompson. – Strategic Book Publishing, – 2013. – 210 p.
4. Qasımova, A. Formal və dinamik ekvivalent yönümlü tərcümənin prinsipləri // İPƏK YOLU, No.1, 2021, səh.193-200
5. Məmmədova T. Hüquqi mətnlərin tərcüməsində terminoloji ekvivalentlik problemi. Semiotik yanaşma // Dil və ədəbiyyat, X cild, №2, 2020
6. Nağıyeva Ş. Poetik tərcümədə obrazlar sisteminin verilməsi üsulları (Azərbaycan və ingilis poeziyasının qarşılıqlı tərcüməsində adekvatlığın saxlanması) Elm. dok. dissertasiyanın avtoreferatı, - Bakı – 2022.
7. Джошкун Ж.З. Функциональная эквивалентность при переводе устойчивых выражений [Elektron resurs] https://cyberleninka. ru/article/n/ funktsionalnaya-ekvivalentnost-pri-perevode-ustoychivyh-vyrazheniy
8. Чернякова Ю.С. Функциональная эквивалентность лексикосемантичес-кого уровня [Elektron resurs] https://cyberleninka. ru/article/n/ funktsio-nalnaya-ekvivalentost-leksiko-semanticheskogo-urovnya

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: f.f.d.dos. Elina Fərəcova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.107-111

https://doi.org/10.62837/2025.4.107

AYGÜN VAHID QIZI RÜSTƏMZADƏ
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
Elektron poçt ünvanı:
r.aygun.h289@gmail.com

İNGİLİS DİLİNDƏ SÖZ DÜZƏLTMƏ ÜSULLARI

Xülasə:

Məqalədə müasir ingilis dilində söz düzəltmə üsulları tədqiq edilir. Söz düzəltmə üsullarının ingilis dilində yaranması tədqiq edildiyindən, məqalədə əvvəlcə ingilis dili haqqında məlumat verilir. Müasir dünyada ingilis dilinin yeri, ingilis dilinin dünya dilləri arasında mövqeyi kimi məsələlər haqqında məlumat verilir. Məlum olur ki, ingilis dili hazırda dünyada ən çox işlədilən xarici dildir və dünya dillərinə rəhbərlik edir. İngilis dili artıq çox ölkədə ikinci ana dili kimi qəbul edilir.

Məqalədə sonra ingilis dilində söz düzəltmə üsulları müzakirə edilir. Məqalədə söz düzəldilməsində ön və son şəkilçilər haqqında yazılır. İngilis dilində morfoloji quruluşlarına görə sözlərin təsnifatı verilir və onların sadə, düzəltmə və mürəkkəb olmaqla üç hissəyə bölünməsi haqqında yazılır. Yeni sözlərin yaranmasında xüsusilə düzəltmə və mürəkkəb sözlərə diqqət cəlb olunur.

Açar sözlər: ***ingilis dili, söz, təsnifat, mürəkkəb, sadə, vasitə***

İngilis dilində müxtəlif nitq hissələrinə aid söz düzəltmədə üsullarında hansı ön və ya son şəkilçilərin işlədilməsi haqqında məlumat verilir.

Məqalədə xüsusilə söz düzəltmə üsullarında məhsuldar olan şəkilçilər haqqında yazılır.

Məqalə hazırda da aktual hesab edilir. Dilin lüğət tərkibi dəyişir, daim inkişaf edir və bu inkişaf prosesində dilə yeni sözlər daxil olur. Sözlərin yaranmasından asılı olaraq söz düzəltmədə üsullarında da zamanla yenilənmə olur ki, bu da məqalənin hazırda aktual olmasının göstəricisidir.

İngilis dili çox məhsuldar dildir. Bu gün dünyada ən geniş yayılmış dillərdən biri hesab edilir. D.Kristal yazır ki: *"İngilis dili dünyada ən geniş yayılmış dil olmasına baxmayaraq, danışanlarının sayına görə Çin (mandarin) dilindən sonra ikinci yerdə gəlir. Hazırda dünyada ingilis dilində 427 milyondan çox insan danışır"* [1, s.289].

Bütün ölkələrdə ingilis dilinin rolu birmənalı şəkildə qəbul edildiyindən o, qlobal dil hesab edilir [1, s.2].

İngilis dilinin qlobal dil kimi digər ölkələr tərəfindən qəbul edilməsinin iki yolu var: rəsmi dil kimi təsbit edilir və təhsildə birinci rəsmi dil sayılır. Bəzi hallarda

bu konstitusiyada ayrıca maddə ilə ikinci dil kimi təsbit olunur. Dünyanın 70 ölkəsində ingilis dili xüsusi statusu olan dil kimi qəbul edilmişdir. Bunların arasında Qana, Nigeriya, Sinqapur, Hindistan və s. kimi ölkələrin də adları vardır. Bu baxımdan ingilis dili digər dillərdən – fransız, alman, ispan və ərəb dillərindən çox irəlidədir.

Hazırda ingilis dili dünyanın 100 ölkəsində xarici dil kimi tədris olunur. İngilis dili Çində, Rusiyada, İspaniyada, Misirdə və Braziliyada, elə Azərbaycanın özündə də əsas xarici dil kimi tədris olunur.

Dil tarixinin bütün mərhələlərində yeni söz əmələ gələ bilər. İngilis dilində bir sıra yeni sözlərin yaranması xüsusi şəxslərin adı ilə bağlıdır. C.Çoser ingilis dilinə çox miqdarda söz gətirmiş və həmçinin yüzlərlə yeni söz yaratmışdır. U.Şekspir də ingilis dilində yeni sözləri yaratması ilə tanınır [2, s. 56].

Bır sıra mürəkkəb sözlərin yaranması qədim dövrlərə təsadüf edir. Qədimdə bir sıra mürəkkəb sözlər indi işlədildiyi mənada deyil, bir qədər fərqli mənalar ifadə edirdi. Məsələn, *boat* "qayıq" və *house* "ev" sözlərindən *house-boat* kimi mürəkkəb söz yaranmışdır və bu söz "yaşayış evi kimi istifadə olunan qayıq" və *boat-house* "su kənarında qayıqları saxlamaq üçün olan ev" kimi tərcümə edilirdi. Bu qəbildən olan digər mürəkkəb sözləri nəzərdən keçirdək: *sunrise* "günəşin doğması" və *sunset* "günəşin batması" sözlərində işlədilmiş *sun* "günəş" sözü hərəkətin subyekti, *sun-worship* "günəşə pərəstiş" sözündə hərəkətin *obyekti*, *sunspot* "gün ləkəsi" sözündə hərəkətin *yeri*, *sundial* "günəş saatı" sözündə *əlaqələndirici vasitə*, *sunbeam* "günəş şüası" və *sunlight* "günəş işığı" kimi mənalar ifadə edilir. *Schoolboy* "məktəbli oğlan", *bedroom* "yataq otağı", *wheel-wright* "avtomobil təkərlərini təmir edən usta" və s. kimi mürəkkəb sözlər danışıqda çox işlədilir [2, s. 102].

Sözlər və söz formalarının fərqləndirilməsində diqqətli olmaq lazımdır. Ənənəvi qrammatikada sözün formalarının fərqləndirilməsi "şəkilçi" vasitəsilə müəyyən olunur. XIX əsr alimlərindən hesab edilən V. von Humboldt dünyadakı dillərin üç növünü fərqləndirməyi təklif etmişdir. Onlar belə adlanır: "şəkilçili", "aqlyutinativ" və "təcrid olunan" dillər [3, s.144]. Məsələn, klassik yunan dilində şəkilçi olduqca çoxdur. Yunan dilində *-o* şəkilçisi ilə beş kateqoriyanı təqdim edə bilən sözlər yarana bilər. İngilis dilində hər üç növə aid olan sözlər mövcuddur. Məsələn, *by, near, to* kimi sözönləri sabit hesab olunduqlarından onlar "təcrid edilmiş" növə, *see/saw* kimi sözlər şəkilçili, *love/loves/loved/loving* kimi sözlər isə aqlyutinativ növə aid hesab edilir [3].

1976-cı ildən başlayaraq müasir ingilis dilində söz yaradıcılığının tədqiqinə aid işlərə rast gəlinməyə başlandı. C.C.Frays *"İngilis dilinin quruluşu"* əsərində söz yaradıcılığına geniş yer vermişdir [4, s.52]. S.Palmer "Dilimiz" kitabında qədim ingilis dilindən başlayaraq ingilis dilində söz yaradıcılığının tədqiqinə bütöv bir fəsli aid etmişdir [5].

O.D.Meşkov və P.M.Karaşukun tədqiqatlarında ingilis dilinin söz yaradıcılığı geniş şəkildə araşdırılmış və ingilis dilinin söz düzəldici vasitələri təsvir edilmişdir. Vurğulamaq lazımdır ki, müasir ingilis dilinin söz yaradıcılığının sistemini öyrənməkdə hər iki əsərin əhəmiyyəti böyükdür. 1972-ci ildə T.A.Rastorquyeva *"İngilis dilinin tarixi ilə bağlı mühazirələr toplusu"* əsərində ingilis dilində söz yaradıcılığını geniş şəkildə araşdırmışdır [6, s.11].

Söz yaradıcılığı dilçiliyin mühüm sahələrindən biri hesab edilir və aşağıdakı üsulları müəyyənləşdirilir:

1. Söz kökünə müxtəlif şəkilçilər artırmaqla söz düzəldilməsi;
2. Söz kökünə söz artırmaqla söz düzəldilməsi;
3. Sözün bir nitq hissəsindən başqa bir nitq hissəsinə keçməsi ilə yeni söz düzəldilməsi;
4. Sözə yeni məna verməklə söz düzəldilməsi.

A.Axundov yazır ki, müxtəlif dillərdə müxtəlif şəkilçilər olduğundan söz yaradıcılığı müxtəlif növlərdə müşahidə olunur [7, s.90]:

a) öz şəkilçili;
b) son şəkilçili;
c) iç şəkilçili.

Sözün eyni zamanda müxtəlif şəkilçilərin, məsələn, prefiks, infiks və postfikslərin iştirakı nəticəsində də yarana bilməsi mümkündür. İngilis dili analitik dil quruluşuna malik olmaqla flektiv dil tipinə məxsusdur və söz düzəldilməsinin bu növünə ingilis dilində çox rast gəlinir. Söz kökünə şəkilçi artırmaqla yaranan sözlər düzəltmə sözlər adlanır. Söz kökünə söz artırmaqla söz yaradılması sintaktik yolla yaranan söz yaradıcılığına aiddir. Sintaktik yolla yaranan sözlərin iki növü mövcuddur:

a) iki sözün birləşməsi ilə yaranan söz yaradıcılığı. İngilis dilində isim əmələ gətirən mürəkkəb isimləri nümunə verə bilərik: *plum tree* "gavalı ağacı", (isim+isim); feil əmələ gətirənlər: *browbeat* "qəhvəyi" (feil+feil);

b) üç və daha artıq söz sözün birləşməsi ilə yaranan söz yaradıcılığı. Məsələn, *go away* "tərk etmək, çıxıb getmək", *give up* "əl çəkmək, tərgitmək, vaz keçmək" və s.

İngilis dilində söz yaradıcılığının dörd əsas növü müəyyənləşmişdir: prefikslər, suffikslər, konversiya və mürəkkəb sözlərin yaranması.

Prefikslər sözün əvvəlinə artırılan şəkilçilər hesab edilir. İngilis dili prefikslərlə kifayət qədər zəngin hesab edilir.

Suffikslər isə sözün sonuna artırılan şəkilçilər hesab edilir. C.C.Frayz *"İngilis dilinin Quruluşu"* əsərində yazır ki, suffikslərin əsas məqsədi sözün hansı sinifə aid olmasını göstərməkdir. Məsələn, isim əmələ gətirən suffukslər, sifət əmələ gətirən siffukslər və s. [4].

Söz yaradıcılığının sözün bir nitq hissəsindən başqa növ nitq hissəsinə keçməsi söz düzəldici şəkilçiləri olmayan dillərdə geniş yayılmışdır. Söz yaradıcılığının bu üsuluna konversiya deyilir. Konversiyanı nitq hissələrinin müxtəlif cümlə üzvü vəzifəsində işlənməsi kimi sintaktik hadisə ilə məhdudlaşdırmaq olmaz. Bu konversiyanın yalnız bir növü kimi müəyyən edilə bilər. Konversiyanın aşağıdakı növləri müəyyən edilmişdir: *substantivləşmə, adyektivləşmə, pronominallaşma, verballaşma, adverbiallaşma, konyuksionallaşma.*

İngilis dilində söz düzəltmə üsulları ilə bağlı o nəticəyə gəlirik ki, ingilis dilində söz yaradıcılığı prosesi çoxsaylı metodlar və üsullar vasitəsilə həyata keçirilir. Tədqiqatın nəticələrinə əsasən, ən məhsuldar söz yaradıcılığı üsulları affiksasiya və söz birləşməsi üsullarıdır. Bu üsullar ən geniş yayılmış və dilin inkişafında əsas rol oynayan metodlardır.

ƏDƏBİYYAT

1. Crystal, D. The English Language. / D.Crystal. – UK: Penguin Books, – 1988. – 312 p.
2. Potter, S. Dilimiz. / İngilis dilindən tərcümə etdilər: F.Y.Veysəlli, S.B.Mustafayeva. – Bakı, – 2014. – 167 s.
3. Humboldt, W.von. On Language. / Humboldt W.von. – Cambridge: Cambridge University Press, – 1999. – 344 p.
4. Fries, Ch.C. The Structure of English. / Ch.C.Fries. – New York: York Press, – 1952. – 304 p.
5. Palmer, F.H. Grammar of spoken English. / F.H.Palmer. –Cambridge: Cambridge University Press, – 1969. – 341 p.
6. Расторгуева, T.A. History of the English language. / T.A.Расторгуева, И.Ф.Жданова. – Москва: Высшая школа, – 1972. – 175 с.
7. Axundov, A. Ümumi dilçilik. / A.Axundov. – Bakı: Maarif, – 1988. – 272 s.
8. Nəbiyeva, N.Ə. Müasir ingilis və Azərbaycan dillərində mürəkkəb isimlər. / N.Ə.Nəbiyeva. Bakı, Mütərcim, – 2005., – 128 s.

Rustamzade A.

WORD FORMATION METHODS IN ENGLISH

Summary

The article deals with the methods of word formation in modern English. Since the emergence of word formation methods in English is studied, the article first provides information about the English language. Information is provided on issues such as the place of English in the modern world, the position of English among world languages. English turns out to be the most widely used foreign language in the world and leads the world languages. English has already been accepted as a second native language in many countries. The methods of word formation in

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.107-111

English have also been discussed in the article. Basically, prefixes and suffixes in word formation have been fully investigated in the present research. Besides, the English language is classified according to their morphological structure and their division into three parts: simple, compound, and complex. Particular attention is paid to derivative and compound words in the formation of new words.

Besides, information is provided on which prefixes or suffixes are used in word formation methods for various parts of speech in English. The article particularly focuses on suffixes that are effective in word formation methods. The article is still considered to be relevant today. The vocabulary of a language is changing, constantly developing, and in this process of development, new words enter the language. Depending on the formation of words, word formation methods also change over time, which is an indicator of the current relevance of the article.

Key words: *English, word, classification, compound, simple, means*

Рустамзаде А.

СПОСОБЫ ОБРАЗОВАНИЯ СЛОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

Резюме

В статье рассматриваются способы словообразования в современном английском языке. Поскольку изучается возникновение способов словообразования в английском языке, в статье сначала дается информация об английском языке. Приводится информация по таким вопросам, как место английского языка в современном мире, положение английского языка среди мировых языков. Английский язык оказывается самым широко используемым иностранным языком в мире и лидирует среди мировых языков. Английский язык уже принят в качестве второго родного языка во многих странах. В статье также обсуждаются способы словообразования в английском языке. В основном, в настоящем исследовании полностью исследованы префиксы и суффиксы в словообразовании. Кроме того, английский язык классифицируется по морфологической структуре и разделению на три части: простые, составные и сложные. Особое внимание уделяется производным и сложным словам при образовании новых слов. Кроме того, дается информация о том, какие префиксы или суффиксы используются в способах словообразования для различных частей речи в английском языке. В статье особое внимание уделяется суффиксам, которые эффективны в способах словообразования. Статья по-прежнему считается актуальной в настоящее время. Словарный состав языка меняется, постоянно развивается, и в этом процессе развития в язык входят новые слова. В зависимости от образования слов со временем меняются и способы словообразования, что является показателем актуальности статьи на сегодняшний день.

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21 05 2025

Rəyçi: filologiya elmləri doktoru, professor Fəridə Məhəmmədəli qızı Allahverdiyeva tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 112-117

https://doi.org/10.62837/2025.4.112

ELJAN MAYIS SALIMLI
Khazar University, English Language and Literature Department, MA student
elcanselim@gmail.com

LANGUAGE SWITCHING IN ENGLISH-FRENCH HUMOROUS DISCOURSE

SUMMARY

The main aim of this article is to explore the role of code-switching in bilingual humour that combines English and French. First, the paper looks at the global spread of bilingualism and how code-switching is used in various contexts. It is noted that bilingual individuals often switch between languages during communication, and such switching is strategically employed for humorous purposes, too. Then the paper highlights that this type of humour is often built on language play, including puns based on phonetic and semantic differences. Furthermore, the article demonstrates how code-switching is used to generate comedic effects in English-French humorous discourse through examples. The study shows that bilingual Anglo-French humour, by making use of code-switching, creates multilayered jokes that rely on linguistic confusion, phonetic ambiguity, and learners' misinterpretations. These jokes play on the audience's ability to understand both languages, which makes the humour richer. Ultimately, the article concludes that code-switching serves as a key device in bilingual humour, enhancing its effectiveness by emphasising contrasts between languages.

Keywords: code-switching, bilingual humour, English-French comedy, Anglo-French humour

Introduction

Today, bilingualism is a recognised means of communication in many countries, where two languages are officially used nationwide. For example, in Canada and Belgium, both French and English have official status. Countries like Switzerland and India are multilingual. In Switzerland German, French, Italian, and Romansh are official languages. Even if not officially recognised, bilingual communities are widely spread in different parts of the world. In such regions, using two languages has become a normal part of daily life. For instance, in Tabriz, Borchali, and Derbent, people commonly use Azerbaijani Turkish along with Persian, Georgian, and Russian, respectively [7, p.149].

In most bilingual communities, there are no fixed or official rules about which language to use. Speakers must choose a certain language whenever they talk. They can also switch from one language to another or mix them, even in very short

sentences [9, p.96]. When bilingual or bidialectal speakers switch between different languages or dialects depending on whom they are talking to or where they are, it is called code-switching [1, p.83].

Sometimes people switch their codes to create a comedic effect. For example, in Norway, Standard Norwegian is used in schools, but children might tell jokes in their local dialect. In Paraguay, Guaraní is seen as more suitable for telling jokes and humorous stories. So, a Paraguayan might discuss a serious political issue in Spanish, but they switch to Guaraní for a humorous point. Similarly, Fijians switch from Fijian to Hindi for jokes. Hindi is not typically used among Fijians, which is why even the switch itself creates humour [2, p.39].

Vaid also supported the idea that code-switching can be very crucial in humour production. In multilingual communities, playing with the sounds and rules of language is common, and being bilingual may even encourage this creativity. Bilinguals can enjoy language play in ways that monolinguals cannot. They can switch between languages, mix them, and use associations between the two languages to express different identities or escape from difficult situations [6].

Bilingual humour is a special kind of humour. It is defined as the funny effect that happens when two languages interact in certain ways. It emerges through the combination of words from different languages in unexpected and humorous ways. People use mimicry and mispronunciation and misunderstanding to show how words sound similar or have ambiguous meanings. The purpose behind this type of humour can be either deliberate or unintentional. When someone misinterprets a word from one language through its meaning in another language, they create unintentional humour. Accidental humour emerges from unexpected language meanings and double meanings that occur in the language. Signs located in areas where non-native English speakers live frequently display these examples. Some forms of humour rely on incorrect pronunciation and grammatical errors. The term accent humour describes this phenomenon. The use of dialect humour occurs when a person's regional accent leads to communication breakdowns [6, pp.157-158].

Bilingual humour includes not just set-piece jokes and riddles, but also a wide range of funny observations, stories and incidents found in published works, TV and radio broadcasts. Anglo-French humour is a special form of bilingual humour. Its main areas include code-switching, language errors, self-repair strategies, Franglais, puns, and literal translations [5].

The field of monolingual humour research has received extensive attention across multiple perspectives, yet bilingual humour between English and French remains relatively understudied. This paper explores the use of code-switching in bilingual comedy that combines English and French.

Code-Switching in Humour

Several studies have investigated code-switching in different mediums of bilingual humour. For example, Kawwami examined the use of code-switching in stand-up comedy shows aired on Metro TV in Indonesia. The research demonstrated that intra-sentential switching between Indonesian and English occurred most frequently because it helps explain meanings and improve audience understanding while generating humorous effects [3].

Likewise, Vizcaíno examined humorous code-mixed airline advertisements from Vueling to understand how Spanish colloquial expressions become humorous through the addition of English and French. The author demonstrated how formal linguistic humour functions through structural and phonetic deviations according to theories of incongruity and multilingual advertising. The seemingly globalised advertisements maintain Spanish cultural identity through their code-switching method, which embeds foreign elements within recognisable local frames [8].

More recently, Lamabelawa and Nurhamidah studied the code-switching behaviour of Emily Cooper in Season 1 of "Emily in Paris" by identifying different switching types and social reasons for her English-to-French language shifts. The authors showed that Emily used different types of switching to demonstrate her cultural adaptation and social bonding in the French environment [4].

These studies demonstrated how code-switching functions as a creative and strategic communication tool across television, comedy, and advertising to build meaning and establish audience connections and cultural identities through multilingual expression.

Switching between English and French in Bilingual Comedy

Leeds gave the following joke as an example which illustrates how code-switching serves to create humour through its use [5, p.140]:

Student: "Miss, can we do French now?"

Teacher: "Mais oui."

Student: "Sorry, may we do French now?"

The joke uses inter-sentential code-switching when the teacher responds with the French phrase "Mais oui," which means "Of course." The student misinterprets the code-switch because he fails to recognise that the French phrase "Mais oui" matches the request to start French class instead of correcting his modal verb usage between "can" and "may." The student's incorrect understanding of the code-switch leads him to correct his English statement without noticing the French language transition. The comedic effect emerges from this situation because code-switching generates a humorous effect through linguistic confusion. This multilayered example demonstrates how bilingual humour depends on language alternation to create unexpected effects, which serve as a fundamental component of comedic mechanisms.

Another joke from Leeds' paper shows how French-English phonetic similarities enable code-switching to generate humour [5, p.141]:

Teacher: "Où est le pain, Tommy?"

Tommy: "Le pain is in my knee, Miss."

The joke presents a typical case of phonetic misinterpretation and semantic confusion which occurs in bilingual learning situations. The teacher poses this question ("Où est le pain?" – "Where is the bread?") as a basic French prompt. Tommy uses the English word "pain" instead of the French word for bread in his humorous response. Tommy uses intra-sentential code-switching when he combines French and English words in his statement "Le pain is in my knee." This example demonstrates how code-switching creates humour by utilising the multiple meanings and homographic properties of the word "pain" across different languages. The joke demonstrates a phonetic pun through the use of similar sounds between languages, although the words have different meanings. This particular joke demonstrates how code-switching produces humour by using language differences and learner mistakes which appear often in bilingual comedic speech.

Conclusion

As can be seen from the given examples, switching between English and French is effective in making jokes in bilingual humour that combines these two languages. It is a way for people to play with the sounds and meanings of words. For speakers who can understand both languages, it is a mix of both which creates more layers of humour that make the jokes cleverer and funnier.

References

1) Crystal, D. (2008). *A dictionary of linguistics and phonetics* (6th ed.). Blackwell Publishing.

2) Holmes, J. (2013). *An Introduction to Sociolinguistics*. Routledge.

3) Kawwami, A. M. (2015). Code switching used by the comics in stand up comedy show on Metro TV. Universitas Islam Negeri Maulana Malik Ibrahim.

4) Lamabelawa, M. T. P. N., & Nurhamidah, I. (2024). An analysis of code switching used by Emily Cooper in the series Emily in Paris Season 1 (2020). *Jurnal Ilmiah Sultan Agung, Universitas Islam Sultan Agung*, 209-218.

5) Leeds, Bt., C. (1992). Bilingual Anglo-French humor: an analysis of the potential for humor based on the interlocking of the two languages. *HUMOR*, *5*(1-2), 129-148. https://doi.org/10.1515/humr.1992.5.1-2.129

6) Vaid, J. (2006). 6. Joking Across Languages: Perspectives on Humour, Emotion, and Bilingualism. In A. Pavlenko (Ed.), *Bilingual Minds: Emotional Experience, Expression, and Representation* (pp. 152-182). Bristol, Blue Ridge Summit: Multilingual Matters. https://doi.org/10.21832/9781853598746-008

7) Veysəlli, F. (2007). *Dil*. Bakı: Təhsil NPM.

8) Vizcaíno, M. J. G. (2015). Humor in code-mixed airline advertising. *Pragmatics Quarterly Publication of the International Pragmatics Association (IPrA)*, 145–170. https://doi.org/10.1075/prag.21.1.08gar

9) Wardhaugh, R., & Fuller, J. M. (2015). *An introduction to sociolinguistics* (7th ed.). John Wiley & Sons.

ELCAN MAYİS OĞLU SƏLİMLİ

İNGİLİS–FRANSIZ YUMORİSTİK DİSKURSUNDA DİLLƏR ARASINDA DƏYİŞMƏLƏR

XÜLASƏ

Bu məqalənin əsas məqsədi ingilis və fransız dillərinin birləşməsindən əmələ gələn ikidilli yumorda dillərin çarpazlaşması hadisəsinin rolunu araşdırmaqdır. Əvvəla, dünyada ikidilliliyin yayılması və dillərin çarpazlaşmasının müxtəlif kontekstlərdə necə istifadə edildiyinə nəzər salınır. Bildirilir ki, ikidilli şəxslər ünsiyyət zamanı tez-tez dillər arasında keçid edirlər və bu cür keçidlər bəzən məqsədli şəkildə yumoru tətikləmək üçün də istifadə olunur. Məqalədə daha sonra vurğulanır ki, bu tip yumor çox vaxt fonetik və semantik fərqlərə əsaslanan dil və söz oyunları üzərində qurulur. Bundan əlavə, məqalədə nümunələr vasitəsilə dillərin çarpazlaşmasının ingilis-fransız yumoristik diskursunda gülməli təsir oyatmaq üçün necə istifadə edildiyi göstərilir. Tədqiqat göstərir ki, dillərin çarpazlaşmasından istifadə etməklə ingilis-fransız ikidilli yumoru çoxşaxəli zarafatlar ortaya çıxardır. Bu zarafatlar dil çaşqınlığına, fonetik qeyri-müəyyənliyə və dil öyrənənlərin səhv başa düşmələrinə əsaslanır. Eyni zamanda, belə zarafatlar auditoriyanın hər iki dili anlama qabiliyyətinə əsaslanır və bu da yumoru daha zəngin edir. Nəhayət, məqalə belə nəticəyə gəlir ki, dillərin çarpazlaşması ikidilli yumorda əsas vasitə kimi çıxış edir və dillər arasındakı fərqlərdən ustalıqla istifadə edərək onun təsirini artırır.

Açar sözlər: dillərin çarpazlaşması, ikidilli yumor, ingilis-fransız komediyası, ingilis-fransız yumoru

ЭЛДЖАН МАИС ОГЛУ САЛИМЛИ

ПЕРЕКЛЮЧЕНИЕ ЯЗЫКОВ В АНГЛО-ФРАНЦУЗСКОМ ЮМОРИСТИЧЕСКОМ ДИСКУРСЕ

РЕЗЮМЕ

Основная цель данной статьи – исследовать роль переключения кодов в билингвальном юморе, объединяющем английский и французский языки. В первую очередь рассматривается глобальное распространение билингвизма и то, как переключение кодов используется в различных контекстах. Отмечается, что билингвальные носители языка часто переходят с одного языка на другой в

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.112-117

процессе общения, и такие переходы могут целенаправленно использоваться для создания комического эффекта. Далее в статье подчеркивается, что подобный тип юмора часто основан на языковой игре, включая каламбуры, построенные на фонетических и семантических различиях. Кроме того, с помощью примеров демонстрируется, как переключение кодов используется для создания юмористического эффекта в англо-французском дискурсе. Исследование показывает, что англо-французский билингвальный юмор, используя переключение кодов, создает многослойные шутки, основанные на языковой путанице, фонетической двусмысленности и неправильном толковании со стороны изучающих язык. Эти шутки опираются на способность аудитории понимать оба языка, что делает юмор более насыщенным. В конечном итоге в статье делается вывод о том, что переключение кодов служит ключевым инструментом в билингвальном юморе, усиливая его выразительность за счёт акцентирования различий между языками.

Ключевые слова: переключение кодов, билингвальный юмор, англо-французская комедия, англо-французский юмор

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
, . **Çapa qəbul olunma tarixi: 21.05.2025**
Rəyçi: fil.ü.f.d., Milana Abbasova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 118-124

https://doi.org/10.62837/2025.4.118

MEHRİBAN CAVADOVA
Bakı Musiqi Akademiyasının humanitar fənlər kafedrasının müəllimi, dosent
dilchilik2001@gmail.com

LİNQVOKULTUROLOGİYANIN NƏZƏRİ ASPEKTLƏRİNƏ DAİR

Annotasiya. Məlumdur ki, linqvokulturologiya, dilin və mədəniyyətin qarşılıqlı əlaqəsini öyrənən bir dilçilik sahəsidir. Bu elm sahəsi, bir dilin yalnız ünsiyyət vasitəsi olmaqla kifayətlənməyib, həm də bir xalqın mədəniyyətini, sosial strukturlarını və düşüncə tərzini əks etdirdiyini öyrənir və bunu necə etdiyini araşdırır. Bəllidir ki, dil, cəmiyyətin adət-ənənələrini, dəyərlərini və dünyagörüşünü özündə ehtiva edən bir kommunikasiya vasitəsidir. Bu və ya digər xalqın daşıdığı dilin özünəməxsusluqları və xüsusiyyətləri hər zaman o dil daşıyıcılarının milli və etnik kimliyini müəyyənləşdirir və ictimai-sosial münasibətləri formalaşdırır.

Linqvokulturologiya, öz növbəsində, bir neçə istiqaməti özündə əks etdirir ki, onun əsas mövzuları içərisində təbii ki, dilin mədəniyyətlə bağlılığı və əlaqələri, dilin kimlik formalaşdırma və sosial statusu müəyyən etmə funksiyası, mədəniyyətlərarası kommunikasiya və tərcümə məsələləri ön plana çıxır. Dilin mədəniyyətlə əlaqəsi, bir çox səviyyələrdə özünü büruzə verir ki, bunların içərisində ifadələr və deyimlər aparıcı yerlərdən birini tutur və bu dilin mədəniyyəti necə əks etdirdiyini göstərir. Eyni zamanda, dilin sosial dəyişikliklərə necə uyğunlaşdığı, yeni sözlərin və ifadələrin yaranması, həmçinin dilin müxtəlif sosial qruplar tərəfindən necə istifadə edildiyi də linqvokulturologiyanı əsas predmetlərindəndir. Buradan çıxış edərək, qeyd edə bilərik ki, linqvokulturologiya, dilin cəmiyyətdəki dəyişikliklərə necə həssas yanaşdığını, bu dəyişiklərlə necə əlaqəli olduğunu, bundan əlavə, mədəniyyətlərarası ünsiyyətin düzgün həyata keçirilməsi üçün vacib olan mədəni anlayışların necə ötürülməli olduğunu öyrənir.

Beləliklə, deyə bilərik ki, linqvokulturologiya dilin yalnız bir ünsiyyət vasitəsi olmadığını, həm də mədəniyyətin təzahürü olduğunu və sosial münasibətlərin qurulmasında mühüm rol oynadığını öyrənən elm sahəsidir. Bu sahə, dilin və mədəniyyətin qarşılıqlı əlaqələrini başa düşməyə kömək edir və mədəniyyətlərarası kommunikasiya məsələlərində daha düzgün və dəqiq yanaşma aparmağın yollarını göstərir.

Açar sözlər: linqvokulturologiya, dil və mədəniyyət, mədəniyyətlərarası kommunikasiya, sosial dəyişikliklər, identiklik, mədəni kodlar

Giriş. Linqvokulturologiya (linqvo-dil, cultura-mədəniyyət, loqos-elm sözlərinin birləşməsindən yaranıb) dil və mədəniyyətin qarşılıqlı əlaqəsini araşdıran

bir dilçilik sahədir. Dilçiliyin son illər mühüm istiqamətlərindən birinə çevrilmiş linqvokulturologiya dilin mənsub olduğu xalqın mədəniyyətini, düşüncə tərzini və ictimai-sosial strukturlarını əks etdirdiyini öyrənir, yəni başqa sözlə, bir xalqın dili onun düşüncə tərzini, dünyagörüşünü, ənənələrini və dəyərlərini necə əks etdirir. Linqvokulturologiya, dilin sadəcə ünsiyyət vasitəsi olmadığını, həm də insanların dünyagörüşünü, dəyərlərini və kimliyini formalaşdıran bir vasitə olduğunu öz tədqiqat obyektinə çevirmişdir. Hər bir xalqın dilində həmin dilin daşılıcılarının mədəniyyəti, bu mədəniyyətin özünəməxsusluqları, adət-ənənələri və ictimai-sosial qanunauyğunluqları əks olunur. Linqvokulturologiya müstəqil elm sahəsi kimi XX əsrin ikinci yarısında meydana gəlmişdir. Əgər kulturologiya insanın özünü n təbiətə, cəmiyyətə, tarixə, incəsənətə və digər sosial və mədəni həyat sahələrinə münasibətini öyrənirsə, dilçilik isə dil vasitəsilə mental modellər şəklində dünyagörüşü şəkli olaraq əks olunana nomaları öyrənir, linqvokulturologiya sə, öz növbəsində, həm dili, həm də mədəniyyəti bu dialoq və qarşılıqlı əlaqə içində araşdırır. Linqvokulturologiya dilçiliyin və kulturologiyanın birləşməsindən və kəsişməsində yaranana bir elm sahəsidir. Başqa sözlə, linqvokulturologiya xalqın mədəniyyətinin dildə əks olunan və sabitləşən təzahürlərini araşdırır. Bu sahə etnolinqvistika və sosiolinqvistika ilə sıx əlaqəlidir. Son illər linqvokulturologiyanın elmi və metodoloji aparatını müəyyən edən, dil materiallarını təsvir edən, dil faktlarını analiz edən və əhəmiyyətli nəzəri ümumiləşdirmələr aparan çoxlu sayda elmi işlər yazılmış, tədqiqatlar aprılmışdır. Bütün bu tədqiqatlara baxmayaraq deyə bilərik ki, linqvokulturologiya bir elm kimi hələ də öz inkişafını davam etdirir və onun nəzəri aparatının təkmilləşdirilməsinə ehtiyac duyulur. Mədəniyyət və dili ümumilikdə öyrəndikdə, xüsusilə konkret milli mədəniyyət və konkret dilin müqayisəsi zamanı onların strukturlarında funksional və daxili iyerarxik planda müəyyən bir izomorfizmi aşkar edilir. Həmçinin, ədəbi dillə dialektləri fərqləndirdikdə, hər bir etnomədəniyyətdə dörd mədəniyyət tipi müəyyənləşdirilir: savadlı təbəqənin mədəniyyəti, yəni elitar mədəniyyət; xalq mədəniyyəti, kəndli mədəniyyəti; orta mədəniyyət, xalq danışığına uyğun olan və adətən xalq üçün mədəniyyət və ya üçüncü mədəniyyət; ənənəvi peşə submədəniyyəti, ticarət, peşə və sənətlə əlaqədar olan mədəniyyət.

Linqvokulturologiyada dilə bir neçə aspektlərdən fərqli yanaşmalar mövcuddur ki, onları əsasən bu şəkildə ümumiləşdirmək olar: Birincisi, *dil və mədəniyyət arasındakı əlaqədir* ki, burada dilin mədəniyyəti necə əks etdirdiyi, həmçinin mədəniyyətin dili necə formalaşdırdığını araşdırılır; ikincisi, *dil və kimlik* məsələsidir ki, bir xalqın dilindəki xüsusiyyətlərin, onların kimliyinə və dünyagörüşünə necə təsir etdiyini araşdırır; üçüncüsü, *mədəniyyətlərarası kommunikasiyadır ki,* tərcümə məsələləri də bura daxil edilir. Bu istiqamət həm də fərqli mədəniyyətlər arasında dilin rolunu, mədəni fərqlilikləri düzgün çatdırmaqda dilin əhəmiyyətini araşdırır; dördüncüsü, *sosial dəyişikliklər* məsələsidir ki, dilin

cəmiyyətdəki ictimai-sosial və mədəni dəyişikliklərə münasibətini, yəni bu dəyişikliklər fonunda dəyişdiyini və ya du dəyişikliklərə uyğunlaşdığını öyrənir.bu istiqamətlərin hər birinə ayrılıqda nəzər salaq.

Dil və mədəniyyətin əlaqəsi. Bəllidir ki, dil və mədəniyyət arasında sıx bir əlaqə hər zaman mövcud olmuşdur. Əsində dil hər zaman mədəniyyətin bilavasitə və birbaşa ifadə forması olmuşdur. Başqa sözlə, mədəniyyətin təzahürü hər zaman dil vasitəsilə nümayiş olunub. Hər bir dil, cəmiyyətin özünəməxsusluqlarını, maddi-mənəvi dəyərlərini, tarixini və ictimai-sosial münasibətlərini əks etdirir. Hər bir xalqın dilindəki sözlər, ifadələr, məsəllər və deyimlər, həmin xalqın həyat tərzini, adət-ənənələrini və dünyagörüşünü əks etdirir.

Çağdaş dönəmdə dil və mədəniyyətin əlaqəsinın bir neçə istiqamətdə öyrənildiyinin şahidi oluruq. Onlardan birincisi, etnolinqvistikadır ki, dili mədəniyyətə münasibətdə öyrənir. Burada dil, entomədəni və etnopsixoloji faktorlar da nəzərə alınır. Bundan əlavə, linqvodiyarşünaslıq istiqaməti də var ki, onu nəzəri və tətbiqi növləri fərqləndirilir. Bu sırada üçüncü gələn istiqamət isə, müraciət etdiyimiz linqvokulturologiyadır.

Dil və kimlik. Dil hər zaman bu və ya digər xalqın kimliyini təsbit edən mühüm amillərdən biri hesab olunub. Hər bir dil öz daşıyıcıları olan xalqın tarixini, mədəniyyətini, inanc və həyat tərzini özündə ehtiva edir. Dil vasitəsilə həmin xalqın nümayəndələri mədəniyyətlərini, dünyagörüşlərini və maddi-mənəvi dəyərlərini başqalarına ötürürlər. Dildə olan sözlər, ifadələr və s. xalqın necə düşündüyünü və ətrafla necə münasibətdə olduğunu, bu münasibəti necə qurduğunu göstərir. Dil, həm də kimliyin müəyyən edilməsi ilə əlaqədar olaraq mühüm rol oynayır, çünki bir xalqın dilindəki ifadələr, onun ictimai-sosial statusunu və cəmiyyətdəki mövqeyini müəyyənləşdirir. Dilin müxtəlif istifadə formaları, insanın sosial və mədəni kimliyini təyin edir və onun sosial qruplarla əlaqəsini göstərir.

Mədəniyyətlərarası kommunikasiya. Mədəniyyətlərarası kommunikasiya, dilin mədəniyyətlərarası əlaqələrdəki əhəmiyyətini və rolunu vurğulayan bir sahədir. Bəllidir ki, xalqların qarşılıqlı anlaşmasında, mədəniyyətlərarası əlaqələrin qurulmasında və bu əlaqələri davamlı olmasında dilin mühüm rolu vardır. Bu səbəbdən dilin, mədəniyyətin öyrənilməsi hər zaman diqqət mərkəzində olmalıdır, çünki insanların istər maddi, istərsə də mənəvi ünsiyyəti, qarşılıqlı əlaqələri, qarşılıqlı anlaşma məhz dildən və mədəniyyətdən başlayır. Hər bir mədəniyyətin özünün xüsusi dil normaları, ünsiyyət qaydaları və davranış kodları vardır. Bu səbəbdən, mədəniyyətlərarası ünsiyyət zamanı yalnız dil bilmək kifayət deyil; həmçinin həmin dilin içindəki mədəni kodları da anlamaq vacibdir. Bu səbəbdən mədəniyyətlərarası kommunkasiyada əhəmiyyətli rol oynayan tərcüməçilər, yalnız sözləri deyil, mədəniyyətlər arasındakı fərqləri də düzgün şəkildə ötürməyi bacarmalıdırlar.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.118-124

İctimai-sosial dəyişikliklər. Dil cəmiyyətdə baş verən bütün hadisələrə, o cümlədən, ictimai-sosial dəyişikliklərə qarşı hər zaman öz həssas münasibəti ilə fərqlənib. Başqa sözlə desək, bu istiqamət sosial dəyişikliklər, dilin necə istifadə edildiyini və hansı sözlərin müasir dövrə uyğun olaraq ortaya çıxdığını öyrənir. Bundan əlavə, dildəki dəyişikliklər, bilirik ki, sosial, iqtisadi və siyasi dəyişikliklərlə hər zaman sıx bağlı olub. İKT inkişafı dildə yeni anlayışların və terminlərin yaranması ilə nəticələnib. Məlumdur ki, bu yeni sözlər yalnız dilə yeni terminlər gətirmir, həm də cəmiyyətin inkişafı ilə bağlı vacib sosial və iqtisadi dəyişiklikləri əks etdirir.

Bundan əlavə, dilin sosial qruplara qarşı da həssasdır. Soial qruplara uyğun olaraq dil də dəyişə bilir. Cəmiyyətdə gənclərin istifadə etdiyi xüsusi sözlər və terminlər, ifadələr cəmiyyətdəki sosial mövqelərini, təsirləri və bu gənclik kimliyinin ifadəçisinə çevrilir. Cəmiyyətin müəyyən təbəqələrinin istifadə etdiyi dil, təbii ki, rəsmi mühitdə istifadə olunan dildən fərqlənir və bu fərqlər onu göstərir ki, insanların sosial statuslarına və yaşadıqları mühitə görə dil də dəyişir.

Linqvokulturologiyanın obyekti dilin diskursiv funksiyası hesab olunur. Linqvokulturologiyanın obyektinin müəyyən edilməsində əsas tutulan konsepsiyaya görə, dil mədəniyyətin və həyatın bütün əsas sahələrində fəal iştirak edir, reallığı qavrama və anlama prosesində hər zaman mövcud olur. dilçilərin qeyd etdiyi kimi, "yuxarıda göstərilən konsepsiyaya görə, dil, dünyanın ilkin konseptualizasiyasının ümumi formasıdır, dünyanın təbiətindəki qeyri-şüuri, təsadüfi biliklərin ifadəçisi və qoruyucusudur, eyni zamanda insan həyatında sosial əhəmiyyətli hadisələrin tarixi yaddaşıdır. Beləliklə, dil mədəniyyətin güzgüsüdür, keçmiş mədəniyyətlərin üzü, intuisiyaları və dünyabaxışlarının kateqoriyalarını əks etdirir" (Постовалова, 1999: 30). Müasir dilçilikdə linqvokulturologiyanın belə bir tərifi formalaşmışdır: linqvokulturologiya canlı dildə maddi və mənəvi mədəniyyətin həyata keçirilməsi proseslərini və nəticələrini, dil və mədəniyyətin qarşılıqlı əlaqəsini öyrənən elmi sahədir. Linqvokulturologiyaya etnolinqvistikanın bir istiqaməti kimi də yanaşırlar. Amma linqvokulturologiyanın özünəməxsusluğu ondadır ki, o, dil və mədəniyyət arasındakı əlaqələri sinxron perspektivdən nəzərdən keçirir və yalnız qeyri-bərabər vahidlərlə məhdudlaşmır.

Beləliklə, linqvokulturologiya kulturologiya, linqvodiyarşünaslıq, etnolinqvistika, sosiolinqvistika kimi bir sıra əlaqəli elmlərin "kəsişməsində" yaranmışdır və onlarla sıx qarşılıqlı əlaqə saxlayır, amma onlarla müqayisədə özünəməxsusluğu və inteqrativ təhlil aspektinə malikdir. Linqvokulturologiya - sintez tipli kompleks elmi sahədir, mədəniyyət və dilin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini öyrənir və bu prosesi dil və qeyri-dil məzmununun vahid strukturu kimi sistemli metodlarla əks etdirir, müasir prioritetlərə və mədəniyyət quruculuğu, normalar sistemi və ümumbəşəri dəyərlər istiqamətində yönəlir.

Etnomədəniyyətin özünəməxsusluqlarının şərhini linqvokulturologiya aspektindən tədqiq olunan obyektlərin və hadisələrin obrazlarının əks olunduğu sözlərdə axtarmaq lazımdır, çünki məhz söz hərəkətdən doğur və onun gizli enerjisini və mədəni fəaliyyətin potensial modelini daşıyır. Mədəniyyətlə işarələnmiş söz vasitəsilə insanın yaşadığı koordinat sistemi müəyyənləşdirilir, burada dünya obrazı formalaşır və bu, etnomədəniyyətin əsas tərkib hissəsidir (Лурье, 1997: 221). Sözün səs və ya qrafik materiallığının arxasında konkret bir etnokültürün dünyasından canlı obrazın fraqmenti dayanır. Mənaların sistemliliyi isə mədəniyyətin öz sistemliyinin, orada formalaşan dünya obrazının strukturunun əksidir (Алефиренко, 2010: 21). Linqvokulturologiya və kognitiv dilçiliyin qarşılıqlı əlaqəsi, mədəniyyətin ən dərin guşələrindən birini açır, dil şüuru, bu olmadan dili tam mənimsəmək mümkün deyil. Beləliklə, söylənilənləri ümumiləşdirərək qeyd edək ki, linqvokulturologiya dil və mədəniyyət haqqında elmi-mədəni düşüncənin yeni tədqiqat paradiqmasıdır. O, tədqiqat sahəsini sadəcə genişləndirmir, həm də onun imkanlarını daha dərindən və çoxşaxəli şəkildə başa düşməyə imkan verir. Bu baxımdan, linqvodiyarşünaslıq linqvokulturologiyanın əlavə sahəsi kimi öyrənilə bilər.

Nəticə. Beləliklə, söylənilənlərdən belə qənaətə gəlmək olar ki, linqvokulturologiya, dilin və mədəniyyətin qarşılıqlı əlaqədə olduğunu və bir-birinə necə təsir göstərdiyini öyrənən mühüm bir dilçilik sahədir. Bəllidir ki, dil hər zaman yalnız bir ünsiyyət vasitəsi olmayıb, həm də bir xalqın kimliyini, mədəniyyətini və dəyərlərini əks etdirən bir vasitədir. Hər bir dil, onun daşıyıcılarının malik olduğu mədəniyyətin təzahürüdür və bu da öz növbəsində, cəmiyyətin sosial və tarixi inkişafının göstəricisidir. Dilin mədəniyyətlə necə əlaqəli olduğu, mədəniyyətlərarası kommunikasiya və ictimai-sosial dəyişikliklər üzərindəki təsirini daha yaxşı başa düşmək üçün linqvokulturologiya əhəmiyyətli bir sahə hesab olunur. Linqvokulturologiya bütün söylənilənləri - dilin və mədəniyyətin qarşılıqlı inkişafını, dəyişməsini və bir-birinə təsirini anlamağa kömək edir.

ƏDƏBİYYAT

Алефиренко Н.Ф. (2010). Лингвокультурология. Ценностно-смысловое пространство языка. М.: Флинта: Наука, - 214 с.

Лурье, С.В. (1997). Историческая этнология. М.: Аспект Пресс. - 448 с.

Постовалова, В. (1999). Лингвокультурология в свете антропоцентрической парадигмы. К проблеме оснований и границ современной фразеологии // Фразеология в контексте культуры. - с. 30.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.118-124

Мехрибан Джавадова

О ТЕОРЕТИЧЕСКИХ АСПЕКТАХ ЛИНГВОКУЛЬТУРОЛОГИИ

АННОТАЦИЯ

Лингвокультурология — это область лингвистики, изучающая взаимосвязь языка и культуры. Эта наука исследует, что язык не только является средством общения, но также отражает культуру, социальные структуры и мировоззрение народа, а также изучает, как это происходит. Является очевидным, что язык — это средство коммуникации, которое включает в себя традиции, ценности и мировоззрение общества. Уникальные особенности языка того или иного народа всегда определяют его национальную и этническую идентичность, а также формируют социальные отношения.

Лингвокультурология, в свою очередь, включает несколько направлений, основными темами которых являются, конечно, связь языка с культурой и его отношение к ней, функция языка в формировании идентичности и социального статуса, межкультурная коммуникация и вопросы перевода. Связь языка с культурой проявляется на различных уровнях, и среди них выражения и поговорки занимают важное место, показывая, как язык отражает культуру. Кроме того, важной темой лингвокультурологии является то, как язык адаптируется к социальным изменениям, появление новых слов и выражений, а также использование языка различными социальными группами. Исходя из этого, можно отметить, что лингвокультурология изучает, как язык чувствительно реагирует на изменения в обществе, как он связан с этими изменениями, а также как должны передаваться важные культурные концепции для правильного осуществления межкультурной коммуникации.

Таким образом, можно сказать, что лингвокультурология — это наука, изучающая не только язык как средство общения, но и его отражение культуры, а также его важную роль в формировании социальных отношений. Эта область помогает понять взаимосвязь языка и культуры и предоставляет пути для более правильного и точного подхода к вопросам межкультурной коммуникации.

Ключевые слова: лингвокультурология, язык и культура, межкультурная коммуникация, социальные изменения, идентичность, культурные коды

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 118-124

Mehriban Javadova

ON THE THEORETICAL ASPECTS OF LINGUOCULTUROLOGY

ANNOTATION

Linguoculturology is a branch of linguistics that studies the interaction between language and culture. This field of science examines that language is not only a means of communication but also reflects the culture, social structures, and worldview of a people, and investigates how this happens. It is evident that language is a means of communication that includes the traditions, values, and worldview of society. The unique characteristics of the language of any given people always define their national and ethnic identity and shape social relations.

Linguoculturology, in turn, covers several directions, with the main topics including, of course, the relationship between language and culture, language's role in shaping identity and determining social status, intercultural communication, and issues of translation. The relationship between language and culture manifests itself at various levels, and among them, expressions and idioms occupy a leading place, showing how language reflects culture. Additionally, an important area of linguoculturology is how language adapts to social changes, the emergence of new words and expressions, and how language is used by different social groups. From this perspective, it can be noted that linguoculturology examines how language sensitively responds to changes in society, how it relates to these changes, and also how important cultural concepts should be transmitted for the proper implementation of intercultural communication.

Therefore, it can be said that linguoculturology is a field of science that studies not only language as a means of communication but also its reflection of culture, and its important role in forming social relations. This field helps to understand the relationship between language and culture and provides ways for a more accurate and precise approach to intercultural communication issues.

Keywords: linguoculturology, language and culture, intercultural communication, social changes, identity, cultural codes

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanlı tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.125-135

https://doi.org/10.62837/2025.4.125

AFAQ MƏMMƏDOVA
fil.ü.f.d., dosent
BDU
Türkologiya kafedrası
afam129@gmail.com

TARİXİ XARƏZM TÜRKCƏSİNDƏ TÜRK MƏNŞƏLİ GEYİM AKSESUARLARI VƏ BƏZƏK ƏŞYALARININ ADLARI: LEKSİK-SEMANTİK TƏHLİL

XÜLASƏ

Hər bir xalqın geyim növləri, geyimlə bağlı aksesuar və bəzək əşyaları, ilk növbədə, onun yaşadığı coğrafi mühit, iqlim şəraiti, adət-ənənələri, dini baxışları və tarixi amillərlə müəyyən edilir. Bu səbəbdən leksikanın tematik bölgüsündə geyimlə bağlı sözlər müəyyən etnik xüsusiyyətləri özündə əks etdirir. Türklərin geniş coğrafiyaya yayılması onların geyim və bəzək ənənələrinə də zənginlik və rəngarənglik qatmışdır. Lakin zaman keçdikcə, müasir dəbin təsiri ilə bir çox qədim geyim və aksesuarlar, həm fiziki olaraq, həm də leksik səviyyədə unudulmuşdur.

Türk xalqlarının geyim mədəniyyətinə dair qədim nümunələr əsasən muzeylərdə, milli bayramlarda, bədii filmlərdə, teatr tamaşalarında, rəsm əsərlərində və müəyyən hallarda yaşlı nəslin həyatında və ya yaddaşında qorunub saxlanılmışdır. Qədim türk mənşəli geyim aksesuarları və bəzək əşyalarının adlarına yazılı abidələrdə də rast gəlmək mümkündür. Bu məqalənin əsas məqsədi həmin leksemləri müəyyənləşdirmək və təqdim etməkdir.

Tədqiqata Xarəzm türkcəsində yazılmış beş əsərin – *Müqəddimətül-ədəb*, *Qissəsül-ənbiya*, *Müinül-mürid*, *Nəhcül-fəradis* və *Xarəzmcə Quran tərcüməsi*nin dili cəlb olunmuşdur. Nəticədə əsərlərdə kifayət qədər maraqlı və zəngin türk mənşəli geyimlə bağlı aksesuar və bəzək əşyalarının adları müəyyən edilmişdir. Həmçinin tədqiqat obyektinə daxil olan əsərlərin dilində həmin leksik vahidlərin mənşə baxımından statistik hesablanması aparılmış və məlum olmuşdur ki, XIII-XIV əsrlər Xarəzm türkcəsində türk mənşəli bəzək və aksesuar adları alınma sözlərə nisbətən üstünlük təşkil etməkdədir. Bu araşdırmadan sinxron və diaxron müstəvidə tarixi müqayisəli tədqiqatların aparılmasında zəngin dil materialı kimi istifadə olunacağı nəzərdə tutulur.

Açar sözlər: *Xarəzm türkcəsi, geyim aksesuarları, bəzək əşyaları, tarixi türk leksikası, türk mənşəli sözlər*

Giriş

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 125-135

Tarixi dövrlər içərisində orta türk dövrünün ilk mərhələlərini əhatə edən Xarəzm türkcəsində yazılmış əsərlərin dilində bir sıra maraqlı dil faktları bu günədək özünü qoruyub saxlamışdır. Bu mətnlərdə həm sonrakı dövrlər üçün artıq arxaikləşmiş leksik qatın izlərinə, həm də həmin dövrə məxsus yeni derivatların formalaşmasına rast gəlmək mümkündür. Xarəzm ədəbi türk dili, qaraxanlı (xaqaniyyə) türkcəsinin davamı olub, əsasən XII–XIV əsrləri əhatə edir. Məqalədə Xarəzm türkcəsinə aid olan *Müqəddimətül-ədəb*, *Qissəsül-ənbiya*, *Müinül-mürid*, *Nəhcül-fəradis* əsərləri və Xarəzmcə Quran tərcüməsi tədqiqata cəlb olunmuşdur. Sözügedən mənbə əsərlərdə işlənmiş geyimlə əlaqədar aksesuarlar və bəzək əşyalarına dair leksemlər seçilərək leksik-semantik xüsusiyyətlərinə görə bir neçə qrup üzrə təqdim və təhlil edilmişdir. Bu çərçivədə həm arxaikləşmiş, həm də həmin dövr üçün yeni olan termin və ifadələr araşdırılmış, onların semantik yükləri və funksional tətbiqi dəyərləndirilmişdir. Araşdırmada əsasən təsviri-linqvistik metod, müqayisəli təhlil və semantik qruplaşdırma üsullarından istifadə olunmuşdur. Eyni zamanda, bəzi hallarda etimoloji yanaşmaya da yer verilmişdir ki, bu da leksemlərin mənşəyini və zaman içindəki semantik dəyişmələrini müəyyənləşdirməyə imkan yaratmışdır.

Xarəzm türkcəsində yazılmış əsərlərin dilində türk mənşəli geyim aksesurları

Tarixən türklərin geyimində kəmər vacib aksesuar olmuşdur. Kəmərlərin bəzisi geyim, kaftan üçün, bəzisi ox və ya alətləri qoymaq üçün, bir digərləri isə kəməri taxan insanın statusunu göstərmək üçün geyilirdi. "Göytürk dövrü Orxon heykəllərinin hamısında kəmər mövcuddur" (12; 41). Xarəzm türkcəsində yazılan əsərlərdə də müxtəlif kəmər adlarının istifadə edilməsi bu aksesuarın türklərin geyimində xüsusi yerə malik olduğundan xəbər verir: *içqur, ilərsük, kəmər, qayış, qur, toqa*.

İçqur

İçqur urundu (MƏ 138/8) "kəmər taxdı"

Orta əsrlərdə yazılan əlyazmalarda adı keçən *içqur* (DLT, I, 110; ƏH, 38; İM, 99) sözünün etimologiyası haqqında T.Hacıyev belə yazmışdır: "sözdə ahəngin pozulması mürəkkəb sözün tərkib hissələri ilə bağlıdır: *iç+kur* - bu, *qurşaq* sözünün *ku / kur* ünsürüdür" (İM; 99). DLT-də "qurşaq, kəmər" mənasında *qur* (DLT, I, 339) sözü də vardır.

İlərsük

... ilərsükingə bağlap yatğıl (NF 189/14) "...şalvarın bağına bağlayıb, yat"

DLT-də "şalvar bağı" (DLT, I, 207), "Əl-idrak haşiyəsi" lüğətində "ilişdirilən, bağlanan şey" (6; 25) mənalarında təsbit edilən sözün etimologiyası haqqında Hasan Eren "Kökünü bilmiyoruz. Ancak *-sük* ekiyle kurulduğu anlaşılıyor" (2; 189) yazmışdır. İbn Mühənna lüğətində isə *ilərsük* sözünün qarşısında "bağ" mənası göstərildikdən sonra belə izah da verilmişdir: "torba ağzını, yaxud şalvarın

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.125-135

başını büzüb içinə keçirilən qalın ip (xalq arasında buna "gözək" və həmin büzmək işinə də "gözəmək" deyərlər. Şalvarın başına keçirilən bu *gözək* vaxtilə toqqanı əvəz edirdi)" (İM, 100).

Qayış və *kəmər*

Qayış qamçı birlə mənim uçamqa urdıŋız (QE 235v16) "qayış, qamçı ilə mənim kürəyimə vurdunuz".

...altun kəmər kəltürüŋ (NF 278/12) "...qızıl kəmər gətirin".

Qayış və *kəməri* bir-birindən fərqləndirən xüsusiyyətləri orta əsrlərdə yazılan lüğətlərdən təsbit edirik.

M.Kaşğaridə *qayış* sözü (ذ) "zəl" hərfi ilə yazılmış və "heyvan gönündən düzəldiyi" (DLT, I, 372) haqqında məlumat verilmişdir. İbni Mühənna lüğətində *qayış* sözünün qarşısında belə məlumat vardır: "işlənmiş dəridən kəsilən dar və uzun parça, qayış" (İM, 39). Kəmərin isə belə bir neçə dəfə deyil, bir dəfə sarılaraq toqqa ilə bağlanması haqqında məlumatı Şəmsəddin Samidən alırıq. Belə ki, o, "Qamusi-türki"də *kəmər* sözünün qarşısında "quşaq, lisanımızda bir qaç dəfə sarılıb bağlanan quşağa kəmər denilməyib, beli yalnız bir kərə saran və toqqa ilə bağlanana denir" (KT, 1182) izahını vermişdir.

Yuxarıda qeyd olunan kəmər adlarından başqa, əsərlərdə "şalvar bağı" mənasında *tiz ton bağı, iç ton bağı* söz birləşmələrinə də rast gəlirik. Fikrimizcə buradakı *tiz ton bağı* sadəcə şalvarın bel bağını ifadə etmək üçün deyil, həmçinin şalvarın ayaq hissələrindəki bağları ifadə etmək üçün də istifadə olunurdu. Belə ki, arxeoloji qazıntılar zamanı bir çox müxtəlif əşyalar ilə bərabər paltar qalıqlar tapan V.V.Radlov qədim türklərin şalvar bağı haqqında belə bir məlumat verir: "Bir şalvarın alt hissəsi çox yaxşı qorunmuşdu. O qədər dar idi ki, hər halda onları dar çəkmələrin içinə salırdılar. Şalvarın aşağı hissəsinin bir tərəfi kəsik idi və bu kəsik, həmçinin şalvarın qırağı incə ip ilə tikilmişdi. Həmin iplər aşağıya doğru sallanırdı və çox güman ki, şalvarların kənarlarını topuqda bağlamağa xidmət edirdi" (11; 476). Deməli, şalvar bağı deyildiyi zaman ola bilsin ki, yalnız beldəki bağ deyil, həmçinin yuxarıda qeyd olunan topuqdakı bağ da nəzərdə tutulurdu.

Xarəzm türkcəsində yazılmış əsərlərin dilində türk mənşəli daş-qaş, bəzək, zinət əşyaları

Biləzük "bilərzik"

biləzük yüzük ya qıraŋdın nisab (MM 13a7) "bilərzik, üzük və mirvarinin nisabı (hesablanmalıdır)".

Orta əsrlərdən müasir dövrümüzə qədər işlək olan söz, qədim uyğurcada *bilärzök / biläzök / bilärzük* (14; 170), DLT-də *biləzük* (DLT, II, 117), İbn Mühənna lüğətində *biləzüg* "bilərzik, biləyə taxılan bəzək şeyi" (İM, 77), qıpçaq əsərlərində *bilezik* / *bilezük* (13; 31) formalarında işlənmişdir. Monqol dilində tarixən işlənən *bilərzük* (10; 119) sözünün türk dilindən keçdiyini söyləmək olar. Leksemin

etimologiyasına gəlincə isə *bilək* və *yüzük* sözlərinin birləşməsi və eliziya hadisəsi nəticəsində yarandığı görünür.

boğmaq = çındar "boyunbağı"

...boyunğa boğmaqne gərək (QE 77r5) "boyuna boyunbağı nəyə lazımdır".

... çındar urdı aŋa (MƏ 100/1) "boyunbağı taxdı ona".

Xarəzm ədəbi türk dilində yazılan əsərlərdə "boyunbağı" ifadə edən yuxarıdakı iki söz işlənmişdir. Bunlardan *çındar* sözü yalnız *Müqəddimətül-ədəb* əsərində təsbit edilmişdir. *Boğmaq* isə orta əsrlərdə işlək sözlərdəndir və M.Kaşğari bu sözün qarşısında belə məlumat yazır: "Boyunbağı, sinəbənd. Bu, qızıl və gümüşdən düzəldilir, üzərinə qiymətli daşlar və incilər işlənir və gərdək gecəsi üçün süslənən gəlinin boynuna taxılır" (DLT, I, 454).

ısırğa/ısırqa = küpə "sırğa"

Isırqa urundı avrat (MƏ 175/6) "arvad sırğa taxdı".

Arxeoloji qazıntılarda tapılan qədim türklərə məxsus daş heykəllərdə kişilərin qulağında sırğa olması, qədimdə sırğanın cins fərqi qoyulmadan həm qadın, həm də kişilərin taxdığını söyləmək mümkündür. Hətta xüsusi qəhrəmanlıq göstərən igidlərə sırğa hədiyyə edildiyi faktı da vardır. Belə ki, Fidovsinin "Şahnamə" əsərində Qubadı öldürən türk sərkərdəsi Barmana Əfrasiyab (Alp Ər Tonqa) misli görünməmiş xələt, sırğa və s. hədiyyə edir (5; 378).* "Dədə Qorqud kitabı"nda "Qalın Oğuz bəylərini bir-bir atından yıxan Qazlıq qoca oğlı bəy Yegnəyin" də qulağında qızıl sırğa (qulağı altun kubəli) vardı (7; 61). Həmçinin, Mahmud Kaşğaridə sözü gedən leksik vahidlərdən yalnız *küpə* qeyd edilmiş və onun da qarşısında qadın və ya kişiyə məxsusluğu göstərilməmişdir. Qadınlarda da *sırğa* müxtəlif mənaları ifadə edirdi. Məsələn, Altaylar haqqında məlumat verən Radlov qızların böyüdükləri zaman *sırğa* taxdıqlarını və onların *sırğalu,* yəni "sırğa taxan" mənası ilə bərabər "gəlin" ("nikah yaşında qız" daha doğru tərcümə olar -A.M.) anlamını da ifadə etdiyini yazmışdır. Radlov daha sonra sözün ifadə etdiyi mənanı daha yaxşı izah etmək üçün belə bir misal da vermişdir "...necə ki rus ata mənim evdə iki gəlinim var deyir (yəni mənim evdə iki böyük qızım var)" (11; 133). Fikrimizcə, Radlovun burda qeyd etmək istədiyi "ərə getməli yaşda olan qız" mənasıdır.

Orta əsrlərdə yazılan əsərlərdə hər iki sözün işləndiyini görürük: *küpə* (ƏH, 55) və *kübə* (7; 61), *sırğa* sözünün isə *ısırğak* (13; 102), *ısırka* (1; 1001), *sırğa* (ƏH, 91) fonetik variantlarında.

Isırğa sözün etimologiyasını *as-* feili ilə əlaqələndirmək istəyənlər olsa da (9; 068), əslində bu, *ısır-* "dişləmək" feili ilə *-ğa* şəkilçisindən əmələ gəlmişdir. Həmçinin, qeyd etmək lazımdır ki, müasir türk dillərində *sırğa* (Azərbaycan, qazax,

* Qeyd etmək lazımdır ki, "Şahnamə"nin nə Azərbaycan (2; 233) , nə də rus dilinə (4; 288) olunan tərcümələrində orijinal nüsxədə iki beyt arasına yazılan bu məlumat öz əksini tapmamışdır.

qırğız, tatarca) / *isirğa* (özbəkcə) / *ısırğa* (türkməncə) formalarında sabitləşən söz, rus dilinə də keçmiş və *serqa* kimi işlənməkdədir.

Qaş "qiymətli daş"

...ceş qaş içrə... (XQT 84a1) "...qiymətli daş içində"

Peyğəmbər ol yüzükni sol əlginiŋ kiçik barmaqıŋa qatar ərdi taqı qaşını iş yaŋa qoyar ərdi (NF 77/17) "Peyğəmbər o üzüyü sol əlinin kiçik barmağına taxıb qaşını iç tərəfə edərdi".

Tədqiq etdiyimiz əsərlərdən *qaş* sözü *Nəhcül-fəradis* əsəri ilə Xarəzmcə Quran tərcüməsində işlənmişdir: *Nəhcül-fəradis* əsərində "üzük qaşı" (17/7), Quran tərcüməsində isə "dəyərli daş" (84a1) mənasında. Orta əsrlərdə yazılan bəzi kitablarda *qaş* sözünün qarşılığı dəyərli daşların hamısı deyil, sadəcə nefrit olduğu göstərilir (9; 0103). Mahmud Kaşğari də DLT-də *qaş* sözünün "ləkəsiz ağ və ya qara daş, nefrit" olduğu haqqında yazdıqdan sonra, belə bir maraqlı məlumatı da qeyd etmişdir: "bunun ağını üzük qaşına qoyurlar, adamı şimşəkdən, susuzluqdan və ildırım vurmasından qoruyur" (DLT, III, 153)

Qıraŋ "qadın zinət əşyası"

Müinül-mürid əsərində işlənən bu sözə başqa əsərlərdə rast gəlmədik. Əlyazmada əski əlifba ilə aydın şəkildə قِرانک (13a7) yazılmışdır: *biləzük yüzük ya qıraŋdın nisab* "bilərzik, üzük ya da (başqa) zinət əşyasından zəkat miqdarı".

Muncuq "muncuq"

Qissəsül-ənbiya əsərində منجوق (234r13), *Nəhcül-fəradis* əsərində bir yerdə مُونجوُق (414/11), başqa bir cümlədə isə مُنجُوق (414/12) imlasında yazılan sözləri Aysu Ata *monçuq* (QE, 338; NF, 288) kimi transkripsiya etmişdir. Biz *muncuq* formasında verməyi məqsədəuyğun saydıq. *Müqəddimətül-ədəb* əsərinin monqolca lüğətində isə bu söz مونجاق (10; 405) imlasında verilmişdir.

Yinçü / yünçü "inci, mirvari"

Ayırtlayu tüzdi yinçüni (MƏ 86/8) "Ayırıb düzdü mirvariləri".

Yinçü sözü haqqında M.Kaşğari "oğuzlar və qıpçaqlar "y" hərfini "ç"yə çevirərək buna *çinçü* deyirlər" (DLT, I) yazmışdır.

Ürüŋ yünçü "mərcan"

Xarəzm türkcəsi Quran tərcüməsində ərəb mənşəli *mərcan* sözünün izahı kimi türkcə *ürüŋ yünçü* (XQT 179b6) birləşməsi işlənmişdir. *Ürüŋ* sözü Xarəzm türkcəsində yazılan əsərlərdə "ağ, bəyaz" mənasındadır (MƏ 101/8; QE 6r1; XQT 96b5). Həmçinin, Mahmud Kaşğarinin yazdığından anladığımız qədəri ilə oğuzların "ak" dediyinə başqa türklər *ürüŋ* deyirlər (DLT, I, 191). Əslində *mərcan* sözü "dənizdən çıxarılan tünd-qırmızı rəngli muncuqvarı qadın bəzəyi"dir (8, II, 52).

Yüzük "üzük"

...ya əliŋizdəki yüzükni maŋa berməgünçə... (QE 21v11) "...ya əlinizdəki üzüyü mənə verməyincə..."

İşlək sözlərdən olan *yüzük*, tədqiqata cəlb etdiyimiz əsərlərin hamısında qeydə alınmışdır. Həmçinin bu leksik vahid müasir türk dillərində kiçik fonetik fərqlərlə işlənməkdədir.

Cədvəl 1: Tədqiqata cəlb olunan əsərlərin dilində işlənmiş türk mənşəli aksesuar və daş-qaş, bəzək əşyalarının adları

ÓÓÓMƏ	QE	MM	NF	XQT	Mənası
biləzük (98/6)	biləzük (115r16)	biləzük (13a7)		biləzük (88a4)	bilərzik
	boğmaq (77r5)				boyunbağı
çındar (100/1)					boyunbağı
ısırğa (175/6)	ısırğa (48r13)	ısırqa (13a7)			sırğa
içqur (138/8)					kəmər
	iç ton bağı (58r2)				tuman bağı
			ilərsük (189/14)		şalvar bağı
ilmək (19/4)					ilmək
			kəmər (278/12)		kəmər
küpə (79/7)					sırğa
			qaş (77/17)	qaş (84a1)	üzük qaşı
qayış (149/4)	qayış (235v16)		qayış (372/2)		qayış
		qıraŋ (13a7)			qadın zinət əşyası
qur (84/8)			qur (82/11)		kəmər
muncuq (86/8)	muncuq (114v16)		muncuq (414/11)		muncuq; boyunbağı
			sürmə (347/11)		sürmə

	tiz ton bağı (82v21)				şalvar bağı
	toqa (148v10)				toqqa
tuvaq (180/8)					duvaq
tügmə (36/7)					düymə
urun- (138/8)					geymək, taxmaq
				ürüŋ yünçü (179b6)	mərcan
yinçü (86/8)	yinçü (76v21)		yinçü (57/1)	yinçü (159b6) yünçü (184a7)	inci
yüzük (179/7)	yüzük (21v11)	yüzük (13a7)	yüzük (77/16)	yüzük (150b6)	üzük

Əsərlərdəki leksik vahidlər haqqında bir neçə məsələni də qeyd etmək lazımdır. Sözün semantikasından asılı olaraq abidələrdə *-lıq* və ya *-lığ* (söz sonunda -q və ya -ğ olması) şəkilçilərinin işlənməsi müşahidə olunur. Məsələn, *başlığ* sözü QE (222r5), NF (184/9), MƏ (143/3) və XQT-də (135b11) "yaralı" mənasında, *başlıq* isə "papaq" (QE 74v6) anlamındadır. Bundan başqa, eyni söz müxtəlif əsərlərdə fərqli mənalarda işlənmişdir: MƏ-də "sırğa" mənasındakı *küpə*, XQT-də "dəmir" (anıŋ birlə *küpə* yarıqlar itər irdi (11b6) "onunla dəmir zirehlər düzəldərdi") anlamında işlənmişdir.

Abidələrdə türk mənşəli aksesuar və daş-qaş, bəzək əşyalarına paralel olaraq işlənən alınma mənşəli sözlər də az deyil: dürr (ə) (QE 134/13) "inci", əqiq (ə) (QE 50v8) "dəyərli daş", gövhər (f) (MƏ 80/5) "dəyərli daş", ləl (ə) (QE 65v9) "qırmızı dəyərli daş", lülü (ə) (QE 65v9) "mirvari", mərcan (ə) (XQT 50b8) "mərcan", nigin (f) (QE 249v5) "üzük", yaqut (ə) (NF), zəbərcəd (f) (QE 151v20) "yaşıla çalan qiymətli daş", ziynət (ə) (QE 65v10) "bəzək, ziynət", zümrüd (ə) (XQT 150b7) "zümrüd", zünnar (ə) (MƏ 170/7) "keşişlərin bellərinə bağladıqları ucları sallanan hörmə qurşaq".

Nəticə

Xarəzm türkcəsində yazılmış əsərlərin lüğət tərkibi, həmin dövrün leksik mənzərəsini, cəmiyyətin gündəlik həyatını və mədəni xüsusiyyətlərini əks etdirən zəngin dil faktları ilə doludur. Bu məqalədə geyim aksesuarları və zinət əşyalarına

dair türk mənşəli leksemlər seçilərək leksik-semantik baxımdan təhlil edilmiş, onların tarixi, morfoloji və funksional xüsusiyyətləri ortaya qoyulmuşdur.

Araşdırma nəticəsində məlum olmuşdur ki, Xarəzm türkcəsində işlənən geyim və bəzək əşyaları ilə bağlı bir çox söz qədim türk dillərinə söykənir və bu sözlərin əksəriyyəti bu gün də müasir türk dillərində işlənməkdədir. Belə sözlər arasında *biləzük, içqur, qayış, küpə, sırğa, qaş, yüzük, muncuq, yünçü* və sairə xüsusi yer tutur. Eyni zamanda, həmin dövrdə ərəb və fars mənşəli alınma sözlərin də bu sahədə geniş yer tutduğu müşahidə olunur. Bu da orta əsrlər Türk-İslam mədəniyyətinin təsir dairəsini və dilə daxil olan leksik təbəqənin müxtəlifliyini göstərir.

Tədqiq edilən leksemlərin semantik çalarları, morfoloji quruluşları və məna genişlənmələri türk dilçiliyi üçün əhəmiyyətli faktlar təqdim edir. Bu cür araşdırmalar yalnız leksik təhlillə məhdudlaşmır, həm də tarixi, sosial və mədəni məlumatların bərpası baxımından əhəmiyyətlidir.

Nəticə etibarilə, Xarəzm türkcəsində geyim və zinət əşyalarına dair leksik vahidlərin araşdırılması həm Türk dili tarixinin daha dərindən öyrənilməsi, həm də bu sahədə gələcək tədqiqatlar üçün möhkəm zəmin yaradır. Gələcəkdə bu tip leksemlərin digər Türk dilləri və dialektləri ilə müqayisəli şəkildə öyrənilməsi, sözlərin semantik inkişaf xəttinin izlənilməsi məqsədəuyğun olardı.

Qısaltmalar

DLT: Kaşğari Mahmud. Divanü Lüğat-it-Türk. Tərcümə edən və nəşrə hazırlayan: Əskər, R. IV cilddə. Bakı: Ozan, 2006.
ə: ərəb mənşəli
ƏH: Caferoğlu A. Abu Hayyan. Kitab al-idrak li-lisan al-Atrak. İstanbul: Evkaf, 1931.
XQT: Şimşek, Y. Harezm türkçesinde Kur'an tercümesi. Meşhed nüshası (293 No.), Giriş, metin, dizin. I ve II cilt. Ankara: Akçağ, 2019.
f: fars mənşəli
İM: Seyid Əhməd Cəmaləddin İbn Mühənna. Hilyətül-insan və həlbətül-lisan. Tərcümə edən: Tofiq Hacıyev. Bakı: Kitab aləmi, 2008.
QE: Ata, A. Nasırü'd-din bin Burhanü'd-din Rabguzi. Kısasü'l-Enbiya. (Peygamber kıssaları). II. Dizin. Ankara: TDK yayınları, 1997.
KT ش. سامی قاموس ترکی اقدام مطبعهسی ۱۳۱۸
MƏ: Yüce, N. Ebu'l-Kâsım Cârullâh Mahmud bin ʿOmar bin Muhmmed bin Ahmed ez-Zamaḫşari, el-Ḫvârizmi Mukaddimetü'l-edeb. Ḫvârizm türkçesi ile tercümeli Şuşter nüshası. Giriş, Dil özellikleri, metin, indeks. Ankara: Türk Dil Kurumu Yayınları, 1993.
MM: Karamanlıoğlu, A.F. Şeyh Şeref Hace. Muinü'l Mürid. (Transkripsiyonlu metin, dizin - tıpkıbasım), İstanbul: Beşir Kitabevi, 2006.

NF: Ata A. Nehcü'l Ferâdîs. Uştmahlarnınˆg Açuk Yolı. Cennetlerin Açık Yolu. III Dizin-Sözlük, Türk Dil Kurumu Yayınları. Ankara: TDK yayınları, 1998.

Ədəbiyyat

1. Agar M.E. Kitābi fi'l-fıkh bi-lisāni't-türki (inceleme- metin- sözlük). Doktora tezi. İstanbul, 1989,
2. Eren H. Türk dilinin etimolojik sözlüğü. Ankara: Bizim Büro Basımevi, 1999.
3. Firdovsi. Şahnamə. Tərcümə edən: Mübariz Əlizadə. Bakı: "Öndər", 2004.
4. Фирдоуси Шахнаме. Том первый. Издание подготовили Ц.Б.Бану, А.Лахути, А.А.Стариков. Москва: Издательство Академии Наук СССР, 1957.
5. Firdevsi. Şehname. I. Çeviren: Necati Lugal, Kenan Akyüz. İstanbul: Milli Eğitim Bakanlığı Yayınları, 1956.
6. İzbulak V. El-idrak haşiyesi. İstanbul: Devlet Basımevi, 1936.
7. Kitabi-Dədəm Qorqud əla lisani-taifeyi-oğuzan. Tərtib edən: Samət Əlizadə. Bakı: Yeni Nəşrlər Evi, 1999.
8. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. II cilddə. Bakı: Şərq-Qərb, 2005.
9. Мелиоранский П.М. Араб филолог о турецком языке. Санктпетербург: «Типография Императорской Академии Наук», 1900, LXXXIV+0122.
10. Поппе Н.Н. Монгольский словарь Мукаддимат ал-адаб. Москва - Ленинград: «Издательство Академии Наук СССР», 1938.
11. Радлов В. Из Сибири. Страница дневника. Москва: «Наука», 1989
12. Tavkul U. Tarihi türk erkek kıyafetleri. Milli Folklor. (19), 1994 s.40-45.
13. Toparlı R., Hanifi V., Karaatlı R. Kıpçak türkçesi sözlüğü. Ankara: Türk Dil Kurumu Yayınları, 2007.
14. Wilkens J. Handwörterbuch des Altuigurischen. Eski uygurcanın el sözlüğü. Universitats Verlag Göttingen, 2021.

Afag Mammadova

Names of Turkic-Origin Clothing Accessories and Ornaments in Historical Khwarezmian Turkic: A Lexical-Semantic Analysis

Abstract

The types of clothing, accessories, and ornaments associated with dress in every nation are primarily shaped by the geographical environment, climatic conditions, customs and traditions, religious beliefs, and historical factors of that society. Therefore, in the thematic classification of the lexicon, clothing-related vocabulary often reflects specific ethnic characteristics. The wide geographical

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 125-135

spread of Turkic peoples has contributed to the richness and diversity of their clothing and ornamentation traditions. However, over time, under the influence of modern fashion, many ancient garments and accessories have been forgotten both physically and lexically.

Ancient examples of the clothing culture of Turkic peoples have been preserved mainly in museums, national celebrations, artistic films, theatrical performances, paintings, and, in certain cases, in the lives and memories of the older generation. Names of traditional Turkic clothing accessories and ornaments can also be found in written monuments. The primary aim of this article is to identify and present such lexemes.

The study focuses on the language of five works written in Khwarezmian Turkic: *Muqaddimat al-Adab*, *Qisas al-Anbiya*, *Muʿīn al-Murīd*, *Nahj al-Farādis*, and the Khwarezmian translation of the Quran. As a result, a considerable number of intriguing and rich Turkic-origin names for clothing-related accessories and ornaments have been identified. Furthermore, the origins of these lexical items in the examined texts were statistically analyzed, revealing that in 13th–14th century Khwarezmian Turkic, native Turkic terms for accessories and ornaments predominated over loanwords. It is anticipated that the findings of this study will serve as a valuable linguistic resource for both synchronic and diachronic historical-comparative research.

Keywords: Khwarezmian Turkic, clothing accessories, ornaments, historical Turkic lexicon, Turkic-origin words

Афаг Мамедова

Наименования аксессуаров и украшений тюркского происхождения в историческом хорезмско-тюркском языке: лексико-семантический анализ

Резюме

Формирование типов национальной одежды, а также сопутствующих аксессуаров и украшений определяется, прежде всего, географической средой обитания, климатом, культурными традициями, религиозными убеждениями и историческими условиями. В связи с этим в тематическом делении лексики слова, связанные с одеждой, отражают определённые этнические особенности. Широкое расселение тюркских народов способствовало богатству и разнообразию их традиций в области одежды и украшений. Однако с течением времени под влиянием современной моды многие древние элементы одежды и аксессуары были забыты как в физическом, так и в лексическом плане.

Древние образцы культуры одежды тюркских народов сохранились главным образом в музеях, в национальных праздниках, художественных фильмах, театральных постановках, живописи, а в отдельных случаях — в жизни и памяти старшего поколения. Названия аксессуаров и украшений

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.125-135

тюркского происхождения также встречаются в письменных памятниках. Основной целью данной статьи является выявление и представление таких лексем.

В исследование были включены языковые материалы пяти произведений, написанных на хорезмском тюркском языке: *Мукаддимат ал-Адаб*, *Кисас ал-Анбия*, *Муин ал-Мурид*, *Надж аль-Фарадис* и хорезмский перевод Корана. В результате были зафиксированы многочисленные интересные и богатые по содержанию тюркские наименования аксессуаров и украшений, связанных с одеждой. Также было проведено статистическое исследование происхождения данных лексических единиц, показавшее, что в хорезмском тюркском языке XIII–XIV веков названия тюркского происхождения преобладают над заимствованными словами. Ожидается, что результаты данного исследования послужат ценным языковым материалом для проведения синхронных и диахронных сравнительно-исторических исследований.

Ключевые слова: хорезмско-тюркский язык, аксессуары одежды, украшения, историческая тюркская лексика, слова тюркского происхождения

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
, .
Rəyçi: dosent Firəngiz Kərimli
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 136-142

https://doi.org/10.62837/2025.4.136

GÜLNARƏ ƏLƏKBƏR QIZI ZEYNALOVA
Azərbaycan Dövlət İqtisad Universiteti,
UNEC, "Azərbaycan dili" kafedrası,
baş müəllim, Azərbaycan dili ixtisasında
filologiya elmləri üzrə fəlsəfə doktoru
qzeynalova@mail.ru

İŞGÜZAR KOMMUNİKASİYA PROSESİNDƏ DEFİNİTİV TERMİNLƏRİN ROLU

Açar sözlər: *işgüzar kommunikasiya, definitiv terminlər, anlayış, dəqiqlik, aydınlıq.*

Ключевые слова: *деловая коммуникация, дефинитивные термины, понятие, точность, ясность.*

Key words: *business communication, definitive terms, understanding, precision, clarity.*

Müasir dövrdə texnikanın, elm sahələrinin inkişafı ilə bağlı olaraq Azərbaycan dilində terminologiya zənginləşir. Sosial cəmiyyətdə, mədəni, iqtisadi və elmi-texniki sahələrdəki dəyişmələr yeni terminlərin yaranmasını şərtləndirir. Nəzəri biliklər yeni anlayışlarla, terminlərlə ifadə olunur və əsas təfəkkür forması anlayış vasitəsi ilə reallaşır. Odur ki, bütün elmlərin inkişaf səviyyəsi anlayış və terminlərin inkişafı ilə təyin olunur. Elmlərin inkişafında daimi dəyişmələr baş verir, sahəyə yeni terminlər daxil olur, elmlərin əsas anlayışları təkrar dərketmədən keçir və nəticədə terminologiya inkişaf edir. İnformatika, kibernetika, bionika və s. yeni elm sahələrinin özlərinə məxsus terminoloji sistemləri əmələ gəlir. Hər bir elm sahəsinin terminlər sistemi məzmun və formaca yeni terminlərlə zənginləşir. Günümüzdə sosial cəmiyyətdə, ictimai həyatda baş verən dəyişmələr də dildə yeni terminlərin yaranmasına səbəb olur. İnkişaf edən bütün sahələr yeni terminləri və onların yeni tiplərinin funksional əlamətlərini − nominativ (siqnifikativ), informativ, kommunikativ, requlyativ, sistemyaradıcı, definitiv funksiyalarını meydana çıxarır. Hər bir yenilik yeni terminlərin meydana gəlməsini tələb edir. Tələb daha çox terminin sadəcə olaraq istifadəsini deyil, eyni zamanda, onun daxilindəki məzmun və formanın ən başlıca əlamətlərinin təyin olunmasıdır. Bu cür təqdim olunma yeni tipli terminləri şərtləndirir ki, bunlardan da ən mühümü onların definisiyasının dəqiq təyin edilməsi və adlandırılmasıdır.

Müasir elmi ədəbiyyatda mənaya dilin ən vacib və ayrılmaz tərkib hissəsi, onun daimi inqredientlərindən biri kimi yanaşılır. Əslində, müəyyən təfəkkür məzmununun ifadə olunması və anlaşılması hər bir dilin əsas funksiyası olan

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.136-142

kommunikativ funksiyasının əsasını təşkil edir və dilin də bir ictimai hadisə kimi başlıca məqsədi bundan ibarətdir. "*Dilin ifadəetmə planından (xarici forma) fərqli olaraq məzmun planı (məna, iç forma) birbaşa insana yönəldiyinə və ideal, abstrakt mahiyyətinə görə sanki hamıya aydın olan, mübahisə doğurmayan bir anlayış kimi uzun müddət kənarda qalmışdır"* [2, s.24].

Əyani-konkret anlayışa aidlik, terminin başlıca fərqləndirici əlaməti sayılmalıdır. Belə ki, termin anlayışı bu anlayışın diferensial əlamətləri xüsusunda təyin edir. Birmənalı terminin bir anlayışı, çoxmənalı terminin isə bir neçə anlayışı mövcuddur. Bu zaman terminin kontekstdən asılı olma prinsipi pozulmuş olur. Kontekstə görə isə terminin məna variantlarını dürüstləşdirmək mümkündür. Bu da bəllidir ki, terminin əmələ gəlməsi prosesində birinci mərhələ hər hansı bir anlayışın definisiyasının, izah və şərhinin verilməsi məsələsidir və bundan sonra hər bir termin mütləq tərifə sahib olmalıdır. Belə olan halda çoxmənalılığa malik terminin seminin (mənasının) miqdarı qədər definisiyası olmalıdır. Əgər anlayışda iki definisiya mövcuddursa və onlardan hər biri ayrıca bir anlayışı müəyyənləşdirə bilirsə, söhbət müəyyən sahə terminologiyasında olan müxtəlif anlayışlara yönəlməlidir. Həmin anlayışlar bir-birindən heç olmasa bir əlamətə görə diferensiallaşmalıdır.

İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə terminlərin yaranmasının ənənəvi üsulları və qanunauyğunluqları, bunların elmi şəkildə açıqlanması da terminşünaslıqda zəruri tədqiqat sahəsidir. Həm də bu zaman həmin terminlərin daşıdıqları məna yükünə nə dərəcədə uyğun surətdə işlədilməsinə, əsas məzmununu nə dərəcədə əks etdirməsinə diqqət yetirmək vacib məsələlərdəndir. Belə ki, gərəkli elmi istiqamət olan termin yaradıcılığında terminlərin birmənalı olması mühüm şərtdir. "Əmtəə", "özəlləşdirmə", "məzənnə", "tələb və təklif", "mübadilə", "kapital", "dəyər", "deflyasiya" və s. kimi terminləri nümunə göstərmək olar. Bu sahə terminlərini nəzərdən keçirərkən, nəzərə almaq lazımdır ki, onların təyinində də terminoloji prinsiplər əsas götürülmüşdür. İqtisadiyyatı əhatə edən, bu sahəni özlüyündə inkişaf etdirən, onun ayrılmaz hissəsinə çevrilmiş bu kimi definitiv terminlər anlayışı dəqiq ifadə etməlidir.

Günümüzdə arzu edilən kommersiya nəticələrinə nail olmaq üçün bazardakı təsərrüfat subyektləri işgüzar kommunikasiyaya girməli olurlar. Belə ki, kommersiya sövdələşmələrinin uğurlu olması işgüzar yazışmaların və işgüzar danışıqların nə dərəcədə düzgün aparılmasından, zəruri sənədlərin düzgün tərtib edilməsindən, kütləvi informasiya vasitələrindən nə qədər bacarıqla istifadə olunacağından birbaşa asılıdır.

Sadəcə ünsiyyətdən fərqli olaraq işgüzar kommunikasiyanın əsas xüsusiyyəti onun iş xarakterli olmasındadır. Belə ki, işgüzar kommunikasiya informasiya mübadiləsi, işgüzar ünsiyyətin təşkili, müqavilə imzalanması, birgə fəaliyyət və s. kimi fərqli xarakterli məqsədlərə yönəldilir. Ünsiyyətin bu növü kommunikasiya

iştirakçılarından heç olmasa birinin müəyyən fəaliyyət növünü optimallaşdırmaq məqsədinin olmasını tələb edir. Deməli, işgüzar kommunikasiya ortaq bir iş fəaliyyətidir və burada kommunikasiya iştirakçıları onun uğurla həyata keçirilməsi üçün bir-birinə əhəmiyyətli olan şəxslər qismində çıxış edirlər.

Əsas məqsədi praktiki və əməli məsələlərin həlli, əməkdaşlığın qurulması, iş proseslərinin səmərəliyinin artırılması olan işgüzar kommunikasiyada rəsmi üslub, təmkinlilik, konkretlik, effektivlik və aydınlıq ön planda olur. İqtisadiyyat, menecment, marketinq, layihə idarəçiliyi və s. kimi sahələrə aid terminlərin üstünlük təşkil etdiyi işgüzar kommunikasiyada onların tətbiq sahələri müxtəlif növ işgüzar yazışmalar ─ e-poçtlar, hesabatlar, təqdimatlar, müqavilələr, işgüzar görüşlər və sairdir. Bu kommunikasiya növündə aydınlıq, sisemlilik və müvafiq terminologiyadan istifadə əsasdır. İşgüzar kommunikasiya daha çox tətbiqi nəticələrə yönəlir.

Aydınlığın və dəqiqliyin vacib şərt olduğu işgüzar kommunikasiya prosesində işgüzar yazışma və danışıqlar zamanı, qeyd edildiyi kimi, terminlərdən düzgün istifadə məlumatın tam, düzgün anlaşılmasını təmin edir. Məsələn, müqavilənin şərtlərində və ya layihə təqdimatında hər bir ifadənin dəqiq məzmunu müəyyənləşdirilməlidir. Eyni zamanda, müvafiq sahəyə aid definitiv terminlərdən istifadə edən işgüzar kommunikasiya iştirakçısı daha peşəkar və daha etibarlı təsir bağışlayır. Bu isə tərəfdaşlarla və müştərilərlə münasibətlərin möhkəmlənməsinə kömək edir. Dəqiq terminlərdən istifadə fikirlərin yanlış anlaşılması və ya müxtəlif interpretasiyaların yaranması riskini minimuma endirir.

Bu hissədə definitiv terminlər haqqında bir qədər ətraflı məlumat vermək istərdim. Kommunikasiyada qarşılıqlı anlaşmanın dəqiqliyini və aydınlığını təmin etməklə böyük əhəmiyyət daşıyan definitiv terminlər müəyyən mövzu və ya sahə ilə bağlı konkret və dəyişməz anlayışları ifadə edir, bu da qarışıqlığın və yanlış anlaşmanın qarşısını alır, müxtəlif sahələrdə çalışan insanların eyni anlayışlar üzərində razılaşmasını təmin edir. Kommunikasiyada bu terminlərdən istifadə iş birliyinin uğurlu olması prosesini asanlaşdırır, məlumatların və təlimatların yanlışlığa yol vermədən ötürülməsini, kommunikasiya iştirakçılarının eyni mövzuda danışmalarını və eyni mənanı nəzərdə tutmalarını təmin edir.

Definitivlik müxtəlif sistemli dillərdə özünü bu və ya digər dərəcədə, formada göstərən universal linqvistik kateqoriyadır. Bu kateqoriya fonunda yaranan definitiv terminlər müxtəlif dillərdə sahə terminlərinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Definitivliyin nitq prosesində insanların bir-birini qarşılıqlı olaraq tez və dəqiq başa düşməsindəki imkanları haqqında dılçilik ədəbiyyatında fikirlər söylənilmişdir. Dilçi alim R.Z.Səfərova öz namizədlik dissertasiyasının avtoreferatında definitivlikdən bəhs edərək yazır ki, "*dəqiqləşdirilmiş və mənasını tez çatdıran*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.136-142

terminoloji vahidlər də bu sıraya daxildir. Tərif qəlibinə sığan terminlər bu qəbildəndir".

Dilçi alimlərimizdən A.Q.Həsənov "Azərbaycan dilində müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası" əsərində definitivlik kateqoriyasının nitq prosesində mühüm rolunu, xüsusilə insanların bir-birini qarşılıqlı olaraq tez və dəqiq başa düşməsinə imkan yaratdığını xüsusi vurğulayır. Həqiqətən, anlayış dəqiq olanda, onu qavramaq da asan olur. Definitiv terminlər müxtəlif sahələrdə istifadə olunan dəqiq və dəyişməz anlayışları ifadə edir. Bu terminlər hər hansı bir anlayışı dəqiq və aydın şəkildə müəyyən edən terminlərdir və onların mənası şərhsiz olaraq qəbul edilir. Məsələn, hüquqşünaslıqda hüquq norması, mülki hüquq, mülkiyyət, müqavilə; riyaziyyat elmində inteqral, vektor, törəmə, funksiyanın limiti, xətt; tibb elmində ürək, beyin, homeostaz, antigen və s. Dəqiqlik və aydınlıq bu terminlərin mühüm xüsusiyyətidir və müxtəlif kontekstlərdə bu növ terminlər eyni mənanı daşıyır. Bu terminlər subyektiv qiymətləndirmələrə və şəxsi baxışlara əsaslanmayan anlayışlardır.

Respublikanın müstəqillik əldə etməsindən və xarici ölkələrlə birbaşa əlaqəsindən sonra dilimizin lüğət tərkibinə definitiv xarakterli beynəlxalq terminlər axını da gücləndi. Avropa mənşəli belə terminlərin əksəriyyəti informatika, kommunikasiya prosesləri ilə əlaqədar olaraq dilimizə kalka və tərcümə edildi. Bir çoxu da olduğu kimi işlənməyə başladı. Məsələn: "interaktiv" terminini götürək. Bu definitiv termin təlim sisteminə son illər bir metod kimi daxil olmuşdur. Avropa mənşəli bu definitiv terminin kafi və zəruri əlaməti "fəal, aktiv əlaqə" mənasındadır. S.İsrafilova "Azərbaycan dilində informatika terminlərinin leksik-semantik təhlili" əsərində yazır ki, *pedaqoji üsul kimi interaktivlik müəllimin rəhbərliyi altında şagirdlərin müxtəlif informasiya mənbələri (kitab, sxem, videomaqnitafon, bədii əsərlər, nitq nümunələri və s.) üzərində "tədqiqat" apararaq özünün müəyyən nəticəyə gəlməsi, müvafiq bilik və bacarıqlar əldə etməsinə xidmət edən üsul, yol və metodların məcmusudur* [4, s.51].

İşgüzar yazışmalarda, xüsusən də müqavilələrdə və ya hüquqi sənədlərdə definitiv terminlər hüquqi uyğunsuluqları önləmək və tərəflərin hüquqlarını qorumaq baxımından çox əhəmiyyətlidir.

İşgüzar kommunikasiya kontekstində dəqiq terminologiya həm yazılı, həm də şifahi ünsiyyətin effektivliyini artırır. Məsələn, layihə menecmentində "çatdırılma vaxtı" və ya "məsuliyyət" kimi terminlər qeyri-dəqiq istifadə olunarsa, işin vaxtında tamamlanması və ya məsuliyyət bölgüsündə problemlər ortaya çıxa bilər.

Definitiv terminlərdən geniş istifadə işgüzar kommunikasiyanın strukturunu gücləndirir və səhv anlaşılmaların qarşısını alır. Məsələn, layihə idarəçiliyində "risklərin qiymətləndirilməsi" və "resursların bölgüsü" kimi definitiv terminlər layihənin effektivliyini artırır və iştirakçıların vəzifələrini daha dəqiq anlamalarını

təmin edir. Marketinq və satışda "hədəf auditoriya" və "rəqabət üstünlüyü" kimi bu növ terminlər strategiyanı daha aydın şəkildə formalaşdırmağa kömək edir.

Definitiv terminlər işgüzar mühitdə fərqli sahələrdən olan mütəxəssislərin terminlərə eyni məna verməsi üçün birləşdirici(ortaq) dil rolunu oynayır. Beynəlxalq şirkətlərdə, xüsusilə müxtəlif dillərdə danışan komandalar arasında standart definitiv terminlərin istifadəsi global əməkdaşlıqda böyük əhəmiyyətə malikdir.

İşgüzar kommunikasiyada sənədlərin (hüquqi sənədlərin, müqavilələrin, əməliyyat protokollarının və s.) hüquqi və texniki cəhətdən dəqiqliyinin təmin edilməsində də bu terminlərin xüsusi yeri var. Məsələn, müqavilələrdə "qeyd-şərtsiz razılaşma" definitiv terminindən istifadə tərəflərin öhdəliklərinin tam aydın olmasını təmin edir; texniki sənədlərdə "İSO standartı" kimi definitiv terminlər məhsulun keyfiyyətini təsvir edir və beynəlxalq standartlara uyğunluğunu vurğulayır.

Bu terminlərdən istifadənin strateji qərar qəbul etmədə də əhəmiyyəti danılmazdır. Belə ki, definitiv terminlərdən istifadə qərar qəbul etmə prosesini sürətləndirir və bu, qərarların effektivliyini artırır. Məsələn, maliyyə ilə bağlı qərarlarda "likvidlilik göstəricisi" və "kapital dövriyyəsi" kimi terminlər maliyyə analizində kömək edir; insan resursları ilə bağlı "performans göstəriciləri" və "mükafatlandırma siyasəti" kimi terminlər kadr idarəçiliyində mühüm rol oynayır.

Müasir dövrümüzdə terminlər informasiya ötürücüsü kimi terminlər daha fəal iştirak edir. Terminoloji informasiya anlayış (semantik) informasiyasıdır, onun işarəvilik, semiotiklik təbiəti mövcuddur. Bu yolla dildə xüsusi anlayışlar ifadə olunur. Buraya terminin definisiyası da daxildir. Yeni informasiya yeni terminləri doğurur və belə informasiyalar nəticəsində meydana çıxan yeni terminlər sahənin inkişafını təmin edir. Məsələn, qloballaşma, sivilizasiya ilə bağlı yeni terminlər yaranır və bu fakt definitiv termin-anlayışlarla uyğunlaşır. Müəyyən informasiya daşıyan terminlər müəyyən sahədə yeni məlumatlar verməklə yanaşı terminoloji leksikanın zənginləşməsinə gətirib çıxarır.

Sözlərdə semantik cəhətdən dəyişmələr baş verməsi dilin daxili qanunauyğunluqlarının təbiətindən irəli gəlir. Bununla yanaşı, sözlərdə daxili anlayış tamamilə itmir. Sözlərin məna dəyişmələri, həmçinin bəzi variantları bir-birindən fərqləndirən zahiri əlamət yoxdursa, söz xaricində həmin variantların bir-biri ilə bağlılığına dəlalət edən dilxarici amillərlə yanaşı, məna birliyinin paradiqmatik sistem və sintaktik struktur meyarları müəyyənləşdirilirsə, o zaman yenə də sözün mahiyyəti mühafizə olunur .

Rəqəmsallaşma ilə birlikdə işgüzar kommunikasiya terminləri daha spesifik texnologiyaya inteqrasiya olunmuş hala gəlir. Məsələn, İT sahəsində "bulud hesablama", "kiber təhlükəsizlik" terminləri iş prosesinə yeniliklər gətirir; əməliyyat sistemləri üzrə "ERP sistemi" kimi terminlər işlərin avtomatlaşdırılmasını asanlaşdırır.

Verilmiş nümunələr işgüzar kommunikasiya prosesində definitiv terminlərin yalnız fikir aydınlığını artırmaqla deyil, həm də işlərin daha səmərəli şəkildə həyata keçirilməsinə mühüm töhfə verdiyini əsaslandırır.

Standartlaşdırılmış və təsdiqlənmiş anlayışlar olaraq qəbul edilmiş definitiv terminlər müxtəlif dillərdə də oxşar mənaya malik olur. Belə ki, müəyyən anlayışlar üçün standartlaşdırılmış bu terminlər onların istifadə edildiyi hər yerdə eyni mənaya gəlməsini təmin edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Sadıqova S.A. Azərbaycan dilinin terminologiyasının standartlaşdırma formaları.−Bakı, Elm,2005,348 s.
2. Məmmədov İ. Azərbaycan dilinin semantikası.−Bakı,Xəzər,2006,372 s.
3. Vəliyulla Cəfərov. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya.−Bakı Dövlət Universiteti, 2022,182s.
4. İsrafilova S. Azərbaycan dilində informatika terminlərinin leksik-semantik təhlili. Bakı, Beynəlxalq Universitetin nəşri,2006,132s.
5. http://www.google.ru/search?q=definitiv+&btnG(10.02.2018)

İşgüzar kommunikasiya prosesində definitiv terminlərin rolu

Xülasə

Əsas məqsədi praktiki və əməli məsələlərin həlli, əməkdaşlığın qurulması, iş proseslərinin səmərəliyinin artırılması olan işgüzar kommunikasiyada aydınlığın və dəqiqliyin təmin edilməsi vacib şərtdir. Bu məqsədlə işgüzar kommunikasiya prosesində işgüzar yazışma və danışıqlar zamanı terminlərdən düzgün istifadə məlumatın tam, düzgün anlaşılmasını təmin edir. Bu mənada definitiv terminlər kommunikasiyada daha böyük əhəmiyyət daşıyır. Bu terminlər müəyyən mövzu və ya sahə ilə bağlı konkret və dəyişməz anlayışları ifadə etməklə işgüzar kommunikasiya zamanı qarışıqlığın və yanlış anlaşmaların qarşısını alır, nəticədə tərəfdaşların eyni anlayışlar üzərində razılaşmalarını və əməkdaşlığın daha effektiv və səmərəli, uğurlu olmasını təmin edir.

Гюльнара Зейналова

Роль дефинитивных терминов в процессе деловой коммуникации

Резюме

Основной целью деловой коммуникации, направленной на решение практических задач, создание сотрудничества и повышение эффективности деловых процессов, является обеспечение ясности и точности при деловой коммуникации. Правильное использование терминов в деловых переписках и переговорах обеспечивает полное и точное восприятие информации. В этом смысле дефинитивные термины играют существенную роль в коммуникции.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 136-142

Эти термины конкретно и неизменно выражают понятия, связанные с определенной темой или областью, что предотвращает путаницу и недоразумение в деловом общении. В результате, это позволяет партнерам договариваться на основе единых понятий, что и обеспечивает более успешное соотрудничество.

Gulnare Zeynalova

The role of definitional terms in business communication processes

Summary

The main goal of business communication aimed at solving practical problems, creating cooperation and increasing the efficiency of business processes is to ensure clarity and accuracy in business communication. The correct use of terms in business correspondence and negotiations ensures a complete and accurate perception of information. In this sense, definitional terms play an essential role in communication. These terms specifically and invariably express concepts related to a certain topic or area, which prevents confusion and misunderstanding in business communication. As a result, this allows partners to agree on the basis of common concepts, which ensures more successful cooperation.

. **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
, **Rəyçi: filologiya elmləri doktoru, professor Sayalı Sadıqova tərəfindən çapa tövsiyyə olunmuşdur.**

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.143-151

https://doi.org/10.62837/2025.4.143

KÖNÜL ÜMÜD QIZI EYVAZOVA
Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının doktorantı
kenul.khalil93@mail.ru

TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNİN ŞİVƏLƏRİNDƏ RƏNG BİLDİRƏN BƏZİ SÖZLƏRİN AREAL XÜSUSİYYƏTLƏRİ

Giriş. Müasir türk dillərində rəng bildirən sözlər öz zənginliyi ilə seçilən lüğəvi vahidlərdən sayılır. Əsasən, türkmənşəli olan bu qrup sözlərə qədim dövr və orta əsrlər türk yazılı abidələrinin dilində də rast gəlmək mümkündür. Bu leksemlərin müəyyən bir qismi çağdaş türk dillərində arxaikləşsə də, onların izlərini dialekt və şivələrdə müşahidə etmək mümkündür. Bu baxımdan türk və Azərbaycan dillərinin şivələrində rəng bildirən sözlər geniş yer tutmaqla yanaşı, qeyd etdiyimiz kimi, onlar həm əski türkcənin izlərini qoruyub-saxlayır, həm də müəyyən spesifik cəhətlər kəsb edir. Bu spesifiklik onunla xarakterizə olunur ki, rəng bildirən sözlər (fonetik fərqlər buraya aid olunmur) türkcələrdə ya müxtəlif ifadələrin tərkibində öz semantik sahəsini genişləndirir, ya da şivələrdə areal səciyyəli anlamların ifadəçisi kimi təzahür edir. Tədqiqata cəlb etdiyimiz *qara, ağ, göy, sarı* və "qara, qaraşın" mənasını verən *yağız* sözləri də belə lüğəvi vahidlərdən sayılır. Hər iki türkcənin şivələrində yer tutan və ortaq əlamətlərlə yanaşı, areal səciyyə daşıyan bu sözlərin işlənmə xüsusiyyətlərinə diqqət yetirərkən aydın olur ki, onlar rəng qavramı ilə bərabər, digər mənaların daşıyıcısı kimi də ünsiyyətə xidmət edirlər. Bu cəhətdən məqalədə *qara, ağ, göy, sarı* və *yağız* sözlərinin hər iki dilin şivələrində işlənmə dairəsi təsviri və tarixi-müqayisəli üsulla ilk dəfə araşdırılır.

Rəng bildirən bəzi sözlərin areal özəllikləri. Tarixən türk dillərində, o cümlədən yazılı abidələrdə əlamət və keyfiyyət bildirən sözlərin işlənmə dairəsi o qədər də geniş olmamışdır. Orxon-Yenisey abidələrinə həsr edilmiş əsərlərin bir qismində əlamət bildirən sözlər ayrıca deyil, adlar qrupunun tərkibində qeyd olunmuşdur. Lakin abidələrin qrammatik quruluşundan bəhs olunan bir sıra ədəbiyyatlarda müasir türk dillərində işlənən əlamət və keyfiyyət bildirən sözlərin məhz Orxon-Yenisey abidələrində formalaşdığı göstərilmişdir. F.Zeynalov yazır ki, "pratürk dövründə, çox ehtimal ki, bu kateqoriya olmamış, sonradan adların bir qismi ancaq əlamət və keyfiyyət bildirən söz qrupu kimi tədricən sabitləşmişdir. Bu proses uzun əsrlər boyu davam etmiş, hələ indi də müşahidə edilməkdədir" [14, s. 60]. Müəllif onu da vurğulayır ki, *qara, göy, soyuq*... kimi leksemlər əvvəlcə ad bildirmiş, sonradan zamanla əlamət və keyfiyyətin ifadəçisi kimi çıxış etmişlər.

Əlamət bildirən sözlər içərisində rəng qarvamı ifadə edənlər xüsusi yer tutur. Geniş şəkildə olmasa da, qədim yazılı abidələrdə müəyyən rəng adlarına rast gəlinir ki, bunlar ya antroponimlərin və toponimlərin bir komponenti kimi, ya da sadəcə rəng adı kimi işlənmişdir. Məsələn, Yenisey abidələrində qeydə alınan ***kara, gök, ak,***

sarığ, yağız kimi rəng bildirən sözlər müasir türk dillərində müxtəlif fonetik fərqlərlə işlənməkdədir. Haqqında bəhs olunan bu lüğəvi vahidlər türk və Azərbaycan ədəbi dilləri ilə yanaşı, şivələrdə də aktiv kommunikativ özəlliyə malikdir. Areal əlamətlərlə müşayiət olunan bu sözlərdən ancaq *yağız* leksemi Azərbaycan dilində arxaikləşərək ünsiyyətdən çıxmışdır.

Kara // qara. Yenisey abidələrində *kara* sözünə üç - a) rəng; b) qara camaat; c) böyük, ulu mənalarında rast gəlinir: *Kanım tülbəri,* ***kara*** *bodun, külüg kadaşım, sizimə, el eşim ər üküş ər, küdəgülərim, kız gəlinlərim, bökmədim.* Xanımım, qara camaatdan, məşhur dostumdan, sizdən, el dostum ərdən, çoxlu igidlərdən, oğlan igiddən, kürəkənlərimdən, qız-gəlinlərimdən doymadım (Uyuk Turan abidəsi). ***Kara*** *bodunım katığlanın.* Qara xalqım möhkəmlənin (Elegeş abidəsi).

Qədim türk mədəniyyətində qara rəngə dair mifoloji mənalar müxtəlif dövrlərdə müsbət, yaxud mənfi şəkillərdə dəyişilərək istifadə olunmuşdur. Ancaq ağ rəngin əksinə olaraq, qara bir çox hallarda mənfi anlamları əks etdirmişdir. Elə türk mifologiyasında *qara ruhlar* ifadəsinin olması bu rəngin mənfi mənada işlənməsinə sübutdur. Qara rəng abidələrdə həm də şimal istiqamətini ifadə etmişdir. Bundan başqa, "Dədə Qorqud kitabı"nda *qara donlu kafirlər* ifadəsinin işləndiyini görə bilərik. Qara rəng qədim türk mədəniyyətində "yas" mənasını da ifadə etmişdir ki, "*Ağ çıxarıb qara geyinmək"* deyimi də epsoun dilində yer almışdır. "Dədə Qorqud kitabı"nda *kara* sözünün rəng mənasından əlavə "nəhəng, böyük" anlamlarına da rast gəlinir: *Toqsan başlu ban evlərin* ***qara*** *yer üzərinə dikdirmişdi* [8, s. 42].

Yenisey abidələrinin dilində *kara* sözü həm də "qara xalq" mənasında işlənmişdir. Bəzi tədqiqatçılar buradakı *kara bodun* ifadəsinin "avam xalq" mənasında işləndiyini vurğulayırlar. Lakin bunun əksinə, abidədə *ak bodun* ifadəsinə rast gəlinmir. "Yenisey abidələrində işlənən *kara* sözü "güclü, böyük" mənalarındadır. Çünki abidələrdə işlənən "qara xalq" etibar edilən, dəyər verilən bir məfhum olduğuna görə onun "avam xalq" mənasında işlənməsi mümkün deyil" [16]. Ancaq A. Kononov "kara bodun" ifadəsinə fərqli aspektdən yanaşmış və onu "xalq" mənası ifadə edən iki lüğəvi vahidin birləşməsindən əmələ gəlmiş qoşa söz olması qənaəti ilə çıxış etmişdir. Tədqiqatçı "kara" leksemində semantik genişlənməni İran dillərinin təsiri ilə izah etmiş və onu "kara, karan" sözləri ilə əlaqələndirmişdir. A.Əhmədovaya görə, "burada məna dəyişməsi məhz sözün öz daxili mənasından doğur, *kara* sözünün "aidlik, ümumilik" mənası *kara bodun* "qara camaat" ifadəsinin meydana çıxmasına səbəb olmuş və bu ifadənin ellipsisə uğraması nəticəsində *kara* sözü ayrılıqda da "xalq, qara camaat, aşağı təbəqə" mənasını qazanmışdır" [5, s. 64-65].

Yenisey abidələrində *kara* sözü eyni zamanda antroponimlərin birinci komponenti kimi də işlənir: *Kara kanka.* Qara xan (I Uybat abidəsi). *Ər atım Kara yaş.* İgid adım Qara yaş (I Qara Bulun abidəsi).

M.Kaşğarinin "Divan"ında *qara* sözü həm "böyük, ulu", həm də rəng mənasını ifadə etmişdir: *kara ərük* - "qara ərik", "albuxara" [6, I, s. 137]. Sərhəddə yaşayan bir

türk oymağı. Onlara *kara yığaç* da deyilir [6, I, s. 179]; At rənglərindən saya (düz, tam, tüm) rəng. *tüm kara at* - düm qara at [6, I, s. 344].

Qara sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər vardır. H.Eren "Türk dilinin etimoloji sözlüyü"ndə bu sözün "yer üzünün dənizlə örtülü olmayan hissəsi, torpaq" mənası ifadə etdiyini göstərir. Müəllif qeyd edir ki, A.Tietze və G.Dörferə görə, leksem ərəb mənşəli "karra" sözündən meydana gəlmişdir. A.Kononov bu sözün türk dilinin dialektlərində istifadə edildiyini nəzərə alaraq həmin fikrə qatılmamışdır. Kormuşin də "torpaq" mənasında işlənən *kara* sözünü ən tünd rəngə verilən *kara* sözündən ayırmamış, ancaq monqol dilində *karanın* "torpaq" mənası vermədiyini bildirmişdir" [4, s. 210].

Müasir ədəbi dilimizdə *kara* sözü *qara* fonoformasında işlənərək "rəng" mənası bildirir. Bu sözün "böyük, ulu" mənası arxaikləşmiş və sadəcə bir sıra toponimlərdə öz izini saxlamışdır: Qarabağ, Qaradağ, Qarayazı, Qaraçay və s. Azərbaycan dilinin dialektlərində isə bu leksem areal xarakterli müəyyən anlamlar daşıyır: a) xuruş, aşın qarası (B., İs., Min., Şam., S.); b) adambaşına bölünmüş torpaq sahəsi (Min.); c) mürəkkəb (İs., Uc.); ç) 12 dərz (taxıl) (Zən.) [1, s. 278].

Türk dilinin şivələrində də *qara//kara* leksemi rəng qavramı ilə yanaşı, müəyyən anlamların ifadəçisi kimi də çıxış edir. Samsun, Ordu şivələrində "suç, günah", İspartada "iftira, ləkə", Çorumda "gecə gözətçisi", Konyada "açar", Malatyada "su içində torpaq hissə", əksər dialektlərdə isə rəng mənalarını bildirir [13]. Türk dili dialektlərində rast gəlinən bu anlamları paralel olaraq dilimiz də müşahidə edə bilərik: qara – pis, mənhus, kədər doğuran, fitnəkar, mürtəce, yas, matəm, cəmiyyətin istismar olunan təbəqəsi (qara camaat), ağır şəraitdə işləyən şəxs (qara işçi), "heçlik" anlamında (qara qəpiyi olmamaq) [2]. *Kara* sözü müasir türk dilində həm də "dənizdən əlavə quru torpaq sahələri" mənasında işlədilir (kara yolu) [11, s. 132]. Leksem həmçinin türk dilində "karakol", Azərbaycan dilində isə "qaravul" sözünün tərkibində öz izlərini saxlamaqdadır.

Ağ // ak. Yenisey abidələrində *ak* sözü rəng mənasında antroponimlərin birinci komponenti kimi işlənmişdir. *Ər atım Yaş Ak Baş bən.* İgid adım Yaş (gənc) Ak (ağ) Başam. (Uyuk Arxan abidəsi). *Ər atım Akbaş Atık, İnal ögə bən, yetmiş yaşımda.* İgid adım Akbaş (ağbaş) Atık (atılmış), İnal ögəyəm, yetmiş yaşımda (I Tuva abidəsi).

Qədim türk mədəniyyətində aydınlıq, işıq, günəş, hava, ədalət, ululuq, müdriklik, hörmət, etibar kimi mübsət halların ifadəsində bu sözdən istifadə olunmuşdur. *Ağ saqqallı qoca* ifadəsi də ağ rəngin "ululuq" mənasına nümunə ola bilər. Qədim türklərdə əsas istiqamət hesab olunan qərb ağ rənglə ifadə olunmuşdur [12, s. 96]. Ümumiyyətlə, ağ rəng bütün digər rənglərin anası hesab edilir. Bundan başqa, "Dədə Qorqud kitabı"nda "*qırmızı və qara otaq"*dan əlavə, "*ağ otaq*" ifadəsinə də rast gəlinir. "Divani lüğət-it türk"də qeyd olunur ki, "hər şeyin ağına və süd bəyazına yalnız oğuzlar ak, digər türklər alacalı olan atlara ak at deyirdilər".

Ağ sözü müasir türk dillərində aşağıdakı şəkillərdə işlənir:

Ak//aq - türk, qazax, qırğız, noqay, qaraqalpaq, tatar, başqırd, uyğur, Altay;

Ağ//ay - Azərbaycan, qaqauz, karaim;

Ax//ah - türkmən, karaim

A°k//a°q - özbək [9, s. 558].

V.Radlov *ak* sözünün bütün türk dillərində rəng mənası ifadə etdiyini göstərmişdir. Bundan əlavə, müəllif "gözün ağı", "yumurtanın ağı", "üzü ağ olmaq" kimi ifadələrin işləndiyini də qeyd etmişdir. A. Vamberi *ak, ağ* sözünün "ay, ey" sözləri ilə əlaqəli olduğunu bildirmişdir [3, s. 56].

Türk ədəbi dilində "ak" fonoformasında həm rəng, həm də "fiziki və mənəvi təmizlik, rahat, xoşbəxt" mənalarında işlənən bu söz şivələrdə fərqli məzmunda müşahidə olunur: "yaşmaq, baş örtüyü" (İsparta, Niğdə), "alt paltarı" (Amasya), "ayran" (Samsun, Malatya), "göz bəbəyinə enən ağ ləkə, boz" (Niğdə), "gölün dərin və otsuz hissəsi", "ağartı" (Afyon), "çörək" (Rizə) [13].

Ağ sözü Azərbaycan dilinin dialektlərində müxtəlif mənalarda işlənməkdədir: a) var-dövlət, varidat (İm.); b) yeməli bitki adı (Q.); c) süfrə (S.); ç) alt paltarın və ya şalvarın ortası (Xaç., Şəm., S.) [1, s.13].

Hər iki türkcənin şivələrində qeydə alınan anlamlar Azərbaycan ədəbi dilində də müşahidə olunur. Daha çox məcazi mənada təzahür edən bu məqamları danışıq dilində və bədii üslubda sıx görmək olar. Belə ki, leksem "ifrat, mübaliğəli" (ağ yalan), "xoşbəxt(lik)" (ağ gün), "kəfən" mənaları ilə yanaşı, "üzünə ağ olmaq", "ağ eləmək", "ağını çıxarmaq" kimi frazeoloji birləşmələrin tərkibində də işlənir. Qeyd edək ki, frazeoloji birləşmələrdəki *ağ* sözü qədim türkcədə "yüksəlmək, qalxmaq, çıxmaq" mənasını verən "ağmaq" feilinə söykənir ki, bunu "Kitabi-Dədə Qorqud" dastanında və klassik şeir dilində (pərvaza ağdı; "Kürsiyi-rəhmana ağdun… Nəsimi") də müşahidə edə bilərik. Hazırda Füzuli rayon şivələrində həmin leksemin işləndiyi qeydə alınmışdır: "Qoyun dağa ağdı" [7, s. 210].

Gök // göy. Bu söz Yenisey abidələrinin dilində üç - a) göy rəng; b) gök tenri; c) kög türk mənalarında işlənmişdir: *Kök teqride gün, ay azıdım, yerimə, yıta, sizimə adırıltım.* Mavi göylərdə günü, ayı itirdim (görmədim), yerimdən, əfsus, sizdən ayrıldım (Elegeş abidəsi).

Göy rənginin göy tanrısı ilə əlaqəsi ilk dəfə Orxon-Yenisey abidələrində görülmüşdür. Belə ki, göy tanrı göydə mövcuddur və onun simvolu bu rəngdir. Maraqlıdır ki, "Oğuznamə"nin uyğurca nüsxəsində də oğuzlara kömək etmək üçün göydən işıq içində göy qurd (gök böri) enir. Ümumən, göy rəngin insanların və heyvanların təsvirində istifadə olunması onların müqəddəsliyini bildirmək baxımından önəmli sayılmışdır.

Bir çox xalqlarda göy (mavi) rəng əbədiyyət, əbədilik, sadiqlik rəmzi sayılır. Türk xalqlarında, o cümlədən Azərbaycan türklərində göy (mavi) rəng başqa mənalarla yanaşı, həm də sevincin, şadlığın, xoş xəbərin simvolu olaraq bilinir. Bu,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.143-151

bilavasitə göy rəngin öz adını Tanrı məkanı göydən alması ilə bağlıdır. Əski mifoloji təsəvvürlərdə Tanrı özü həm də göy rəngli bilinirmiş, başqa sözlə, göy rəng Tanrı rəngi sayılırmış. Altay əfsanələrində də Tanrı "göy saqqallı bir ixtiyar" olaraq tanıdılmışdır.

Göy rəngin qəm, kədər, ələm, ölüm-itim, hüzn, yas, matəm bildirməsi də məlumdur. "Kitabi-Dədə Qorqud" abidəsində bir kimsənin hüznlü olduğunu bildirmək üçün ev-eşiyini qara rənglə yanaşı, həm də göy rəngə bəzəyib-boyaması və göy rəngli don geyinməsi yer almışdır. Bamsı Beyrək əsirlikdən xilas olub evlərinə yetişdikdə bulaqdan su aparan bacısının ağladığını görür. O, bacısının nə üçün ağladığını öyrənmək istədikdə həm də soruşur: "Qaralı, göylü otağı sorar olsam, kölgə kimin?" Bacısı da dərdli-dərdli: "Qaralı, göylü otağı sorar olsan Ağam Beyrəyindir Ağam Beyrək gedəli köçərim yox". Düşmənlərə əsir düşmüş Uruz onu xilas etməyə gələn atasına - Salur Qazana deyir: "Anam mənim üçün göy geyib qara sarınsın, Qalın Oğuz elində yasımı tutsun".

Göy sözü müasir türk dillərində aşağıdakı şəkillərdə işlənir:

1. Gö:k - türkmən,
2. Gök - türk, qaqauz, kumandin, özbək
3. Göy - Azərbaycan
4. Kök - yakut, qırğız, qazax, noqay, karaim.

Müasir türk dillərində bəzən "boz qurd" anlamında *göy börü* işlədilir. Başqırd dilində qurda *aq böri* deyilir. Gök//göy sözü bəzi türk dillərində "boz", "bozumtul", "çal" yaxud "ala" mənalarını ifadə edir.

Türk ədəbi dilində "səma", "kosmos", "rəng" mənalarında işlənən *göy* sözü şivələrdə areal xarakterli əlamətləri də özündə əks etdirir: "yetişməmiş, kal" (Uşak, Burdur, Dənizli, Bursa, Sinop), "yaşıl" (Dənizli, Aydın, Bolu), "göyərçinə bənzər quş" (İzmir), "erkək dəvə" (Qaziantep) [13].

Azərbaycan dilinin şivələrində *göy* lekseminin aşağıdakı mənalarına rast gəlinir: a) kürəkən (Gəd., Tov.); b) xəsis (Qaz., Şəm., Tov.); c) yetişməmiş, kal (Göy., Zər., Neft.); ç) göycəqarğa quşu (Qaz.) [1, s. 186-187].

Müqayisədən də aydın görünür ki, *göy* sözünün "yetişməmiş, kal", "quş" məzmunu bildirməsi hər iki türkcənin şivələri üçün ortaq cəhətlərdən biridir. *Göy* sözü Azərbaycan dilində türk şivələrindəki kimi "yaşıl" (göy meşə, göy-göyərti) məzmunu ilə yanaşı, "bədənin hər hansı bir yerində zərbə nəticəsində yaranan ləkə" (bədəni gömgöy idi, yumruqla gözünü göyərtmək) məzmununu da daşıyır ki, türk ədəbi dilində bu qavram *mor* (bənövşəyi), *morar(t)mak* leksemləri ilə ifadə olunur.

Yağız. Azərbaycan dilindən fərqli olaraq, türk dilində işlənən bu leksem Yenisey abidələrinin dilində *qonur, qəhvəyi* mənasını ifadə edir. Abidədə *yağız* sözü həm də *yağır* fonoformasında işlənmişdir: *Sarı sinig yağız yerig.* Sarı sinig qonur yeri (III Güzgü). *Sizə yalnaras elinə, ər yağır yerkə arat ança erdi.* Elimə, igid qonur yerə arat eləcə idi. (Tuqutyup abidəsi).

Yağız sözü "Divanü lüğat-it türk" əsərində qızıl ilə qara arasında rəng olaraq verilmişdir. Bəzi hallarda *yağız* və *kara* sözlərinin hər ikisi torpaq, yer, ölkə, quru sahə mənaları ifadə edir: "Bu, qırmızı ilə qara arasında bir rəngdir. Buna bənzədilərək yer üzünə *yağız yer* deyilir" [6, III, s.18].

"Qutadqu bilik" əsərində həm *qara,* həm də *yağız* sözləri sinonim mənalarda işlənmişdir: *"Nə fayda onun da görəcəyi yer bu qara torpağın altı, bu yağız yerin çuxurudur"*. "Altun yaruk" əsərinin Çin dilindəki mətnində *yağız* "böyük dünya" mənasını ifadə etmişdir [15].

Bu söz Uyğur xaqanlığı dövründə də "qəhvəyi", "qonur" və "yer üzü" mənalarında işlənmişdir: *Kökli yağızlı içinte yaruk yaltrık yaltrdı.* Göyüzündə, yer üzündə parlaq işıq işıldadı. "Uyğur xaqanlığı dövründən sonra *yağız* sözü "yer üzü" mənasında işlənməsə də, rəng mənası ilə müasir türk dilində işlənməkdədir" [12, s. 99].

Leksem türk ədəbi dilində qədim türkcəyə məxsus "əsmər" (qara, qaraşın) mənasını qorumaqla yanaşı, şivələrdə areal xarakterli anlamları da bildirir: *qara, qaraşın* (əksər şivələr), *igid* (Manisa), *gözəl* (Konya), *tərs, inadkar* (İçel, Kırşehir), *qulluq edilmiş, baxımlı heyvan* (Sivas, Konya) [13]. Müasir Azərbaycan ədəbi dilində və onun şivələrində *yağız* sözü arxaikləşmişdir.

Sarı. Yenisey abidələrində bu lüğəvi vahidə bir yerdə rast gəlinir: *Sarı sinig yağız yerig.* Sarı sinig qonur yeri. (III Güzgü). Bu söz abidələrdə sadəcə rəng mənasında müşahidə olunur.

Sarı rəng türk xalqlarının mifologiyasında dünyanın mərkəzi qavramı ilə yanaşı, müdriklik anlayışı da ifadə edir. Dünyanın mərkəzini bildirdiyinə görə bu həm də mərkəzi hakimiyyəti və qüdrəti əks etdirir. Bu inanc şamanizmlə əlaqədar əmələ gəlmişdir: şamançılıq dövründə Sarı Albastı və Sarı Albıs adlanan qoruyucu bir ruhun varlığı türklərin inancları arasında yer almışdır. Buna görə də türklər arasında sarı mənfi məna ifadə etmişdir [9, s. 561].

Sarı rəng həm də günəşin rəngi və simvoludur. Türk dastanlarında isə sarı rəng pislik, və fəlakət, həm də xəstəlik simvolu hesab olunur. *Sarı* sözü bir sıra fonetik fərqlərlə demək olar ki, bütün müasir türk dillərində rəng mənasında işlənir:

Sa:rı - türkmən, özbək dilinin dialektləri

Sarı - türk, qaqauz, Azərbaycan, qumuq, karaim, qırğız, qazax, qaraqalpaq, noqay, tatar, Altay, teleut

Sarä - çuvaş, kumandı

Säaruy - xalac

Sarığ - xakas, tuva, tofalar, uyğur dilinin dialektləri,

Seriğ - Uyğur, Uyğur dialektləri [9, s. 572]

Türk dilinin şivələrində "sarı" rəng bildirməklə yanaşı, digər anlamların da ifadəçisi kimi çıxış edir: kürək, bel (Ordu), tərəf, doğru (Qars) [13]. Leksem Azərbaycan dilinin Tovuz şivəsində "uçurum" mənasında qeydə alınmışdır [1, s. 420]. Hər iki türkcənin ədəbi dilində bu söz "solğun" mənasında mənasında da işlənir

ki, bu məzmun "saralıb-solmaq" (türkcə *sararmak*) feilində daha çox əksini tapır. "Sarı" sözünün feil (*sarımaq*) və qoşma kimi (*evə sarı, səndən sarı*) kimi işlənməsi də hər iki dil üçün ortaq səciyyəvi əlamətlərdən sayılır.

Nəticə. Hər iki türkcənin şivələrində işlənən *qara, ağ, göy, yağız, sarı* sözlərinin müqayisəli təhlili onu göstərir ki, əsasən, əlamət – rəng bildirən bu leksemlər qədim türkcənin izlərini saxlamaqla yanaşı, yeni özəlliklər də kəsb etmişlər. Belə ki, haqqında bəhs olunan sözlər şivələrdə rəng bildirmək məzmununu saxlamaqla yanaşı, müxtəlif anlamların ifadəçisi kimi də ünsiyyətə xidmət edirlər və areal səciyyə daşıyan bu mənaların bəziləri hər iki dilin şivələri üçün ortaq səciyyə daşıyır. Ümumən, türk dillərində əlamət bildirən bütün sözlərin tarixi-müqayisəli yöndən təhlili, nəinki rəng bildirən, eləcə də digər sifətlərin ortaq cəhətlərini və areal özəlliklərini müəyyənləşdirmək və hər iki türk dilinin tarixi izlərini öyrənmək baxımından xüsusilə maraqlıdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Şərq-Qərb, 2007, 566 s.
2. Azərbaycan dilinin izalı lüğəti: https://obastan.com/qara/23597?l=ru (22.04.2025)
3. Древнетюркский словарв. Под ред. В.М.Наделлева, Д.М.Насилова, З.Р.Тенишева, А.М.Щербака. Ленинград, 1969, 676 с.
4. Eren H. Türk dilinin etimolojik sözlüğü. 1. Baskı. Ankara: Bizim Büro Basımevi, 1999, 514 s.
5. Əhmədova A. Yenisey abidələrində söz yaradıcılığı. Bakı: Elm və təhsil, 2024, 190 s.
6. Əskər R. Mahmud Kaşğari. Divanü lüğat-it-türk: 4 cilddə. Bakı: Ozan, 2008, I c. 512 s.; II c. 400 s.; III c. 400 s.; IV c. 752 s.
7. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və təhsil, 2016, 348 s.
8. Kitabi-Dədə Qorqud (Tərtib edən H.Araslı) Bakı: Azərnəşr, 1962, 176 s.
9. Küçük S. Tarihi türk lehçelerinde renk adlandırmaları. Turkish Studies International Periodical For the Languages, Literature and History of Turkish or Turkic Volume 5/1 Winter 2010, s 556-577.
10. Məmmədli M. Azərbaycan dialektologiyası. Bakı: "Zərdabi Nəşr" MMC, 2019, 352 s.
11. Şen S. Eski türkçede gök ile yerin adlandırılışında renklere dayalı deyim aktarmalarından yararlanma ve "kara" sözcüyünün kökeni üzerine / İlmi araşdırmalar. №24. 2007, s129-136.
12. Toker İ. Renk Simgeciliği ve Din: Türk kültür yapısı içinde Ak-Kara Renk Karşıtlığı ve Bu Karşıtlığın Modern Türk Söylemindeki Tezahürleri Üzerine. Ankara Üniversitesi İlahiyat Fakültesi Dergisi №50, 2009, s.93-112
13. Türk Dil Kurumu Sözlükleri: https://sozluk.gov.tr/ (22.04.2025)
14. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası. I hissə. Bakı: "MBM" nəşriyyatı, 2008, 354 s.

15. http://www.tdk.org.tr/index.php?option=com_ttas&view=ttas&kategori1=derayr&sozid1
16. https://www.academia.edu/81832712/T%C3%9CRK_M%C4%B0TOLOJ%C4%B0S%C4%B0NDE_RENKLER%C4%B0N_%C4%B0FADE_ETT%C4%B0%C4%9E%C4%B0_ANLAMLAR

Xülasə

Məqalədə türk və Azərbaycan dillərinin şivələrində işlənən bəzi rəng bildirən lüğəvi vahidlərin – *qara, ağ, göy, sarı* və *yağız* sözlərinin linqvistik təhlili aparılmışdır. Türk və Azərbaycan dillərinin şivələrində rəng ifadə edən leksemlər geniş işlənmə tezliyinə malik olmaqla yanaşı, bu qrup sözlər həm əski türkcənin izlərini qoruyub-saxlayır, həm də müəyyən spesifik cəhətlər kəsb edir. Bu spesifiklik onunla xarakterizə olunur ki, rəng bildirən sözlər türkcələrdə ya müxtəlif ifadələrin tərkibində öz semantik sahəsini genişləndirir, ya da şivələrdə areal səciyyəli anlamların ifadəçisi kimi təzahür edir. Tədqiqata cəlb olunan *qara, ağ, göy, sarı* və "qara, qaraşın" mənasını verən *yağız* sözləri də belə lüğəvi vahidlərdən sayılır. Hər iki türkcənin şivələrində yer tutan və ortaq əlamətlərlə yanaşı, areal səciyyə daşıyan bu sözlərin işlənmə xüsusiyyətlərinə diqqət yetirərkən aydın olur ki, onlar rəng qavramı ilə bərabər, digər mənaların daşıyıcısı kimi də ünsiyyətə xidmət edirlər. Bu cəhətdən məqalədə *qara, ağ, göy, sarı* və *yağız* sözlərinin hər iki dilin şivələrində işlənmə dairəsi təsviri və tarixi-müqayisəli üsulla ilk dəfə araşdırılmışdır.

Açar sözlər: *türk dili, Azərbaycan dili, şivələr, areal leksika, rəng bildirən sözlər*.

Resume

The areal characteristics of the some words denoting color in the dialects of the Turkish and Azerbaijani languages

Konul Umud Eyvazova

The article presents a linguistic analysis of some color-denoting lexical units used in the dialects of the Turkish and Azerbaijani languages - the words *qara, ağ, göy, sarı* and *yağız* (black, white, blue, yellow and brunette). In addition to the wide frequency of use of color-denoting lexemes in the dialects of the Turkish and Azerbaijani languages, this group of the words both preserves traces of the old Turkish and acquires certain specific features. This specificity is characterized by the fact that words denoting color in the Turkic languages either expand their semantic field in the composition of various expressions, or appear as expressions of areal meanings in dialects. The words *qara, ağ, göy, sarı* and *yağız* meaning "black, brunette" involved in the study are also considered such lexical units. When paying attention to the usage characteristics of these words, which are present in the dialects of the both Turkic languages and have common features and areal characteristics, it

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.143-151

becomes clear that they serve communication as carriers of other meanings along with the concept of color. In this regard, the article examines for the first time the usage range of the words *qara, ağ, göy, sarı* and *yağız* in the dialects of both languages using a descriptive and historical-comparative methods.

Keywords*: Turkish language, Azerbaijani language, dialects, areal lexicon, words denoting color*.

Резюме

Ареальные характеристики некоторых слов, обозначающих цвет в диалектах турецкого и азербайджанского языков

Конуль Умуд кызы Эйвазова

В статье представлен лингвистический анализ некоторых цветообозначающих лексических единиц, используемых в диалектах турецкого и азербайджанского языков, - слов *qara, ağ, göy*, *sarı* и *yağız* (черный, белый, синий, желтый и брюнет). Помимо широкой частотности использования цветообозначающих лексем в диалектах турецкого и азербайджанского языков, эта группа слов как сохраняет следы древнетюркского, так и приобретает определенные специфические черты. Эта специфика характеризуется тем, что слова, обозначающие цвет в тюркских языках, либо расширяют свое семантическое поле в составе различных выражений, либо выступают в качестве выражения ареальных значений в диалектах. К таким лексическим единицам относятся также привлеченные к исследованию слова *qara, ağ, göy, sarı* и *yağız* со значением «черный, брюнет». При рассмотрении особенностей употребления этих слов, которые присутствуют в диалектах обоих тюркских языков и имеют общие черты и ареальные характеристики, становится ясно, что они служат средством коммуникации как носители других значений наряду с понятием цвета. В этой связи в статье впервые рассматривается спектр употребления слов *qara, ağ, göy, sarı* и *yağız* в диалектах обоих языков с использованием описательного и историко-сравнительного методов.

Ключевые слова: *турецкий язык, азербайджанский язык, диалекты, ареальная лексика, слова обозначающие цвет*.

. **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
, **Rəyçi:** filologiya elmləri doktoru, professor M.Ə.Məmmədov
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 152-162

https://doi.org/10.62837/2025.4.152

AFƏT ƏLİYEVA NƏRİMAN
Bakı Slavyan Universiteti, müəllim
aafani@mail.ru

LA STYLISTIQUE COMME UNE BRANCHE DE LA LINGUISTIQUE

Açar sözlər: dilçilik, üslubiyyat, fransız dili, yazılı üslub, danışıq dili, terminologiya,
Mots clés : la linguistique, la stylistique, le français, le style écrit, la langue parlée, la termilologie
Key words: linguistics, stylistics, french language, written style, spoken language, terminology
Ключевые слова: лингвистика, стилистика, французский язык, письменный стиль, разговорный язык, терминология

Le thème qui nous intéresse et que nous essayons d'analyser dans cet article est très actuel dans le prèsent en français. En même temps on peut remarquer que le sujet "La stylistique comme une branche de la linguistique" est un thème très intéresant dans la langue française. Le terme stylistique est un dérivé du mot français « style » venant du latin « stilus » qui dans l'Antiquité avait plusieurs acceptions. Ce mot latin signifiait poinçon baguette dont un bout était pointu et l'autre plat, qui servait à écrire sur des tablettes cirées. Du bout pointu on traçait les lettres, du bout plat on les effaçait au besoin. Ainsi cette baguette avait une double fonction : On s'en servait pour écrire et pour faire des corrections dans l'écrit. De là, les autres acceptions du mot « stilus » : action d'écrire, exercice par écrit, enfin manière d'écrire, art d'écrire.

En France, les discussions sur le style a été toujours vivant. Nous pouvons dire que, au XVIème siècle on commence à formuler les conceptions littéraires et linguistiques qui attirent l'attention, et présente un intérêt pour l'évaluation de la stylistique française. Ces sont les poètes de la Pléiade qui formulent leurs conceptions pour la première fois. Ces poètes traitent des problèmes de l'enrichissement du vocabulaire et du choix des moyens d'expression. Puis, au XVIIème siècle les gens lettrés, grammairiens, lexicographes, écrivains et poètes discutent les problèmes de la langue et du style. Un grand poète et théoricien du classicisme français, Boileau définit dans son «*Art poétique* » les genres littéraires et les procédés de style. « *La notion des genres littéraires est inséparable de celle du style. On peut dire que à chaque genre correspond son style* ». (*4. p.157)*

Au XVIIIème siècle les grands écrivains et philosophes comme Buffon, Alembert, Condillac et les autres, dans ses ouvrages, se sont prononcés sur les problèmes du classement des styles. Faisons attentions au classement des styles.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.152-162

Voltaire distingue, dans son livre « Dictionnaire philosophique », le style simple et le relevé, Marmontel le simple, le moyen et le sublime, Ferraud distingue les styles polémiques, critique, satirique, plaisant, comique. Ferraud parle dans son œuvre du style simple ou de conversation, à ne pas confondre avec le familier qui a un degré de plus de liberté. (*2. p.78-135)*

Charles Bally, un grand représentant de l'école saussurienne de Genève dans son « *Traité de stylistique française* », en 1909, « il définit l'objet de la stylistique française, ce qui est extérieur au contenu notionnel. D'après Charles Bally la stylistique étudie les faits d'expression du langage du point de vue de leur contenu affectif. Ainsi c'est le contenu affectif du langage que lui considère comme l'objet de la stylistique. En même temps, ce philologue préfère de parler exclusivement à l'étude du français tel qu'on parle et en refusant l'étude de la langue des belles-lettres, du style individuel des écrivains. Bally refuse d'envisager les phénomènes stylistiques à un point de vue historique. Selon ce grand savant, la stylistique étudie les faits d'expression dans les cadres d'une seule époque, c'est-à-dire la stylistique est synchronique. La stylistique peut être, en générale, collective ou individuelle, elle doit commencer par la langue maternelle et le langage parlé. (*1. p. 23-69)*

Le linguiste allemand Léo Spitzer, dans son « *Etudes de style »* définit le style comme *« la mise en œuvre méthodique des éléments fournis par la langue». (3. p. 38)*

De cette manière, en définissant la stylistique nous allons répondre à deux questions de l'importance primordiale: Qu'est-ce que la stylistique ? et A quoi sert la stylistique?

La stylistique est une branche de la philologie qui étudie le choix et l'emploi des faits de langue qui servent à exprimer une idée, selon les circonstances de l'énoncé. La stylistique est une science plutôt pratique qui offre des règles de bon langage et enseigne l'art de bien écrire et de bien parler. Donc, la stylistique s'intéresse au choix que nous pouvons faire les recherches à tous les niveaux de la langue: niveau phonétique, lexical, grammatical.

La stylistique a deux tâches essentielles : la première c'est l'étude de la valeur stylistique, et la deuxième c'est l'étude du style d'une œuvre littéraire, du style individuel d'un écrivain ou d'une école littéraire. La stylistique présente différentes branches assez distinctes : la stylistique historique, la stylistique comparative, la stylistique descriptive qui présente lui aussi → la stylistique linguistique, la stylistique fonctionnelle, la stylistique communicative. Dont chaque branche a son objet propre. Les facteurs du choix dépendent des différents moyens langagiers: le niveau culturel du sujet parlant, son origine sociale, son état psychologique, ce sont les conditions dans lesquelles se déroule la communication, etc.

Pour préciser l'objet et les taches de la stylistique, il faut souligner les rapports entre elle et les autres branches de la linguistique ou non linguistiques. La stylistique

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 152-162

est étroitement liée avec les autres sciences de la linguistique, tel que : la grammaire, la lexicologie, la phonétique. Ces trois sciences étudient la même matière, une même langue. Mais si la grammaire et la lexicologie s'attache à l'étude d'un des aspects de la langue, la stylistique en recouvre tout le domaine, c'est-à-dire, les sons, les mots, les formes grammaticales et c. Donc, la grammaire ou la phonétique nous enseignent de parler correctement, sans fautes, la stylistique nous apprend à nous exprimer bien, à adapter notre langage aux conditions de la communication. Parfois on dit que la stylistique est la sœur cadette de grammaire et de lexicologie françaises.

Dans le français moderne on peut distinguer, le groupe de styles réunis sous le nom de styles écrits, et de l'autre, le style qu'on parle, dit le français parlé, la langue parlée. Le français parlé, lui aussi, n'est pas uniforme : on distingue la langue parlée normalisée et la langue parlée familière. La première variété correspond aux normes du langage correct. La seconde, tout en suivant les règles essentielles, présentent souvent de nombreuses particularités lexicales, grammaticales et phonétiques condamnées par la norme. Le français parlé n'est pas non plus unanime. Dans le code orale on distingue : le style soigné de prononciation, le style familier de prononciation, le français populaire, argot, dialecte et c. Si le style soigné de prononciation reste conforme à la norme littéraire, les deux autres sont en dehors de la norme littéraire. La langue parlée est employée pour les communications orales, dans la conversation de tous les jours. On utilise de la langue parlée dans les communications immédiates et spontanées. C'est le style de la communication spontanée entre les amis, les camarades de travail, les parents.

Le niveau lexical est stylistiquement un des plus riches. Le français possède toute une série de mots pour désigner un même objet, une même qualité, une même notion qui se distinguent par leur couleur stylistique dont les composantes sont: la composante axiologique ou affective, imagée et symbolique.

Le lexique usuel constitue le fonds essentiel de toute langue. Les mots usuels sont employés dans toutes les sphères de la communication par les femmes et les hommes, par les ouvriers et par les savants, par les artistes, les ingénieurs, les paysans, les enfants, par tout le monde. Mais il existe un vocabulaire qui est essentiellement propre à la langue parlée. Parmi les mots et les locutions, on distingue deux couches:

1. Le lexique « *familier* », ce sont les mots et expressions qui ne respectent pas les normes de la langue, mais qui sont employés le plus souvent dans la conversation familière.

2. Le lexique « *populaire* », qui s'écarte de la norme et se trouve dans le fonds littéraire. *(6. p. 56-80)*

La langue parlée crée son lexique à elle, par des moyens divers : *Les suffixes diminutifs – ot, otte, et, ette, iller,* et c. Par exemple : *chansonnette, garçonnet, maisonnette, jardinet, pauvret, pauvrette, pâlot et c.* ; *Les suffixes péjoratifs,*

nominaux et verbaux – aille, ard, asse, aud, et c. Par exemple : *marmaille, piétaille, richard, bonasse* et c. ; *Les préfixes – r, re, de, dé,* et c. Par exemple : *relire, rajouter, défaire, et c.*

Il y a deux manières de former des mots nouveaux propres au français parlé. Ce sont l'abréviation par retranchement d'une partie du mot et la réduplication.

L'abréviation porte surtout sur les substantifs. L'abréviation se fait par apocope, c'est retranchement de la dernière ou des dernières syllabes du mot. Par exemple : *« auto »* pour « *automobile »,* ou par aphérèse, c'est retranchement du commencement du mot. Par exemple : *« cipal »* pour *« garde municipal »*

Beaucoup de ces abréviations, employées d'abord dans le français courant. Par exemple : *photo, cinéma, vélo, métro, et c.* D'autres abréviations *apéro - apéritif, ciné - cinéma, mélo - mélodramatique, occase - occasion, perme – permission* ne sont employées que familièrement.

La stylistique répond à la question comment on parle ou l'on écrit, quels moyens on choisit dans différentes sphères de communication ayant un sujet et une fonction définis. De cette sorte les styles se classent en:

Les styles fonctionnels. Ce sont les styles écrits du français moderne : Le style officiel ou administratif, le style scientifique, le style publiciste ou mass média, la langue des belles – lettres, le style oratoire, le style épistolaire

Les styles de l'énoncé : Le style narratif, le style descriptif, le style accumulatif, dialogue, monologue, monologue intérieur, discours indirect libre.

Les styles selon le degré d'expressivité : Le style neutre, le style expressif ou affectif.

On divise les styles expressifs en : Le style familier, le style concis, le style sublime, emphatique, le style recherché, l'ironie.

Les styles selon les tendances littéraires : Le style des classiques, le style des écrivains romantiques, le style des écrivains réalistes, le style des symbolistes, le style des écrivains progressistes du XXème siècle et d'autres.

Entre les styles écrits existent certains traits communs qui permettent de les réunir ensemble et de les opposer aux styles parlés. On peut dire que, tous les styles écrits ont un caractère plus soigné. Chacun des styles écrits a plusieurs genres.

Le style officiel est le langage de l'administration et des affaires. Le style officiel se caractérise par son objectivité, sa clarté, son caractère impersonnel. Les communications entre les ministères, les administrations publiques ou privées, les magistratures, les organismes ont leurs normes et leurs règles, exigent un style spécial. C'est le style officiel. Les sphères d'application du style officiel sont multiples et variées. Le style officiel a les traits particuliers selon la sphère d'emploi. Ceux qui sont rédigés dans le style officiel sont : texte de loi, document administratif, convention internationale, lettres d'affaires.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 152-162

L'un des genres principaux du style officiel est *texte de loi.* Ce qui attire en premier lieu l'attention dans ce style, c'est la complexité de la syntaxe, la longueur de la phrase. Le style officiel est conservateur. Il conserve des tournures grammaticales archaïques. Ces archaïsmes de grammaire sont transférés de loi en loi, de code en code, les nouvelles lois sont formulées d'après les anciens modèles. La langue de l'administration et des affaires a son vocabulaire. Ce vocabulaire varie selon le genre du document. Il faut remarquer que le texte de loi se compose des mots isolés et locutions, de caractère spécial.

Le genre suivant c'est *le texte administratif*. C'est encore la complexité de la phrase qui attire l'attention dans la syntaxe d'un document de ce genre. Nous y voyons aussi l'emploi du pronom personnel de la première personne du pluriel – de *« nous »* au lieu du singulier. Ce pluriel, dit « pluriel de majesté » se trouve dans la langue de l'administration. Ce fait stylistique est très ancien. On le trouve dans les ordonnances des rois français. Aujourd'hui ce pluriel de majesté, continue son emploi dans les documents administratifs.

Et, le genre dernier c'est *les lettres d'affaires*. Une lettre d'affaires doit être brève, mais compréhensible et complète. Ici on utilise, des propositions développées, complexes, de la terminologie spéciale et de formules traditionnelles. Ces termes et ces formules ont un caractère particulier. Ce sont des formules de politesse finales. Il y a des formules de politesse qui commencent et qui terminent une lettre. Par exemple : *Monsieur, l'expression de nos sentiments distingués, Nous avons l'honneur de..., Je vous prie d'agréer, Nous vous remercions de...,*

Le style scientifique occupe une place plus importante dans le système des styles fonctionnels. La sphère de son emploi s'élargit au développement de la science et de la technique. Sa terminologie pénètre aujourd'hui sur les pages des journaux, dans la littérature et même dans la vie courante. Le style scientifique a une terminologie spéciale. Elle s'enrichit de termes nouveaux et rejette les termes vieillis. Les mots et les expressions de la langue parlée familière est rarement admis dans le style scientifique. On en trouve parfois dans un énoncé écrit, surtout en cas de polémique. Les différentes branches de la science ne s'emploient pas la même terminologie. Les sciences exactes en utilisent plus souvent que les sciences naturelles et les humanités. Le style scientifique se réalise le plus souvent par écrits. Par exemple ; *traités, monographies, articles, thèses, ouvrages de référence, etc.*

Le style scientifique se réalise le plus souvent par écrit sous forme d'un monologue, par exemple, une discussion publique. Il sert de moyen de communication aux savants, aux ingénieurs, aux professeurs et étudiants des universités. La forme écrite le style scientifique est plus soigné que la forme orale. Plus rarement le style scientifique se réalise sous forme d'écrit oralisé, par exemple, les rapports des savants pendant des congrès ou des conférences scientifiques, ou de

communication orale, par exemple, une discussion non préparée des savants devant la table ronde, et c.

Le style des journalistes et publicistes est le style de la presse écrite, de la radio, de la télévision, des films documentaires. On recourt à ce style pour traiter les problèmes actuels de la vie sociale et politique. Les textes écrits dans ce style sont : articles de fond, informations, pamphlets, les manifestations oratoire. Toutes ces variétés de genre ont leurs particularités de style. Une journaliste ou un publiciste tâche non seulement de démontrer ses thèses par des arguments logiques. Il fait appel à l'imagination, aux sentiments du lecteur. Quant à la syntaxe, la presse suit les normes de la langue écrite. La phrase est complexe, la mis en relief a une valeur logique, aussi affective. Le choix du vocabulaire dépend du genre de l'énoncé. Pour les genres informatifs elle est plus simple, pour les genres analytiques beaucoup plus compliquée.

Le style des belles-lettres. C'est la langue de la littérature, l'ensemble des styles individuels des écrivains et des poètes. Il ne faut pas confondre le style des belles-lettres, la langue de la littérature avec la notion de la langue littéraire. Un écrivain ou un poète peut utiliser dans ses œuvres les moyens conformes à la norme littéraire, mais aussi les faits condamnés par cette norme nécessaires pour mieux peindre ses personnages, leur milieu. Le style d'un écrivain possède une forme personnelle, affective, esthétique. Une œuvre littéraire cultive le sentiment esthétique, le sentiment beau chez le lecteur. Aucun des styles étudies ne jouent ce rôle. L'écrivain met en œuvre les faits de langue choisis pour exprimer son idée par des images concrètes, par de tableaux. Pour lui, la langue est un instrument qui permet de peindre la réalité selon les conceptions et de la transposer en images.

Le lexique styles écrits comprend des mots et des expressions qui ont la valeur de termes spéciaux. Chaque style fonctionnel écrit possède sa propre terminologie. Il existe la terminologie scientifique, administrative, sportive, etc. Chaque terme s'emploie dans une sphère de communication bien déterminée.

Terminologie scientifique: *phonologie, prosodie, tube électronique, cathode, etc.*

Terminologie administrative: ratification, plénipotentiaire, parapher, protocole, code pénal, etc.

Terminologie des journalistes: adepte, démocratie, dictature, etc.

La terminologie spéciale représente une partie du vocabulaire de tel ou tel style écrit à côté du lexique usuel et d'une troisième couche qu'on pourrait appeler «*lexique livresque*». Dans les styles écrits – dans un ouvrage scientifique, dans un document ou un article de journal – la couleur stylistique des termes passe inaperçue. C'est dans un contexte où leur emploi est insolite.

La valeur stylistique des mots et locutions vieillis est fonction de leur caractère insolite. On distingue deux catégories de mots vieillis, les mots historiques et les

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 152-162

archaïsmes. Les mots historiques sont les vocables qui sont sortis d'usage et maintenant disparues.

Le vocabulaire d'une langue s'enrichit à l'aide de néologismes, c'est – à – dire de mots de sens nouveau et de locutions nouvellement créées. Les néologismes naissent dans les différents styles de la langue. Les néologismes créés pour les besoins du jour, pour désigner des faits d'actualité, et c. Par exemple, pause – café, les vacanceux, les aoûtiens, speakerine, et c.

Le niveau le plus bas est occupé dans notre classification par le lexique argotique. Aujourd'hui une grande partie de l'argot a perdu son caractère secret et s'emploie largement par les Français. Finalement ce terme s'applique aujourd'hui à toute sorte de langages professionnels. On parle de l'argot militaire, de l'argot des écoles, de l'argot du théâtre, de l'argot des aviateurs, etc. Par exemple, l'argot scolaire: *sécher les cours, plonger, exam, exo, bouquin, colle et c*. L'argot du spectacle: *les planches, répète, tête à l'huile, saucisson.*

Un autre niveau lexical appelle *synonyme.* Les mots ou locutions dont la forme est différente, mais la signification est la même sont appelés synonymes ; nous pouvons facilement employer l'un ou l'autre des synonymes, mais il n'y a jamais d'identité absolue entre eux. Il y a 2 types de synonymes : Les synonymes idéographiques et les synonymes stylistiques. *Les synonymes idéographiques* expriment des notions très proches et se diffèrent par des nuances de sens. Par exemple, parmi les synonymes « *quitter qn, abandonner qn, laisser qn* » c'est « *quitter* » qui exprime de la manière la plus compréhensive le sens général qu'ils ont tous. Se séparer de quelqu'un pour quelque temps ou pour toujours, volontairement ou contre son gré. *Abandonner*, c'est quitter quelqu'un pour toujours, sans plus s'intéresser au sort de l'abandonné. *Laisser*, c'est se séparer d'une personne qui reste dans l'endroit dont on s'éloigne.

Les synonymes stylistiques expriment la même idée, le même objet, mais ils s'opposent par des aires d'emploi différent. Par exemple, manger – neutre, bouffer – vulgaire ; travailler – neutre, bosser – vulgaire ; faire – neutre, foutre – vulgaire, et c.

La stylistique s'intéresse aux *tropes*, c'est-à-dire aux mots et expressions employées dans un sens figuré senti comme tel par les usagers. Le trope embellit le texte, le rend plus vivant. On distingue plusieurs espèces de tropes selon la nature des rapports qu'ils établissent entre les réalités :

La métaphore est un trope qui désigne un objet ou une idée par un mot qui convient pour un autre objet ou une autre idée. Dans le vers de Louis Aragon, « j'écris dans un pays dévasté par la peste » il y a une métaphore « *peste* ». le mot « *peste* » signifie au sens propre – maladie épidémique, au sens figuré – une chose nuisible.

La métonymie est la nomination d'un objet ou d'un phénomène par un mot désignant un autre objet, un autre phénomène, lié au premier par quelque rapport

objectif ou logique. Certains noms de lieu désignent des produits qui y sont fabriqués. Par exemple, *champagne – vin récolté dans les vignobles de Champagne.*

La comparaison imagée quand on dit « *Il est fort comme son père* », c'est une comparaison exacte. Mais si l'on dit «*Il est fort comme un bœuf»,* c'est une comparaison imagée. Ce procédé consiste à comparer un objet à un autre pour le représenter d'une manière spectaculaire ou pour en mettre en lumière quelque trait important.

En conclusion, on peut dire que la stylistique moderne s'occupe de deux grands problèmes. D'une part, elle étudie les ressources stylistiques d'une langue nationale à tous ses niveaux et, d'autre part, elle s'intéresse au fonctionnement du langage dans les différentes sphères de l'activité humaine, c'est-à-dire aux différents styles fonctionnels.

BIBLIOGRAPHIE

1. Charles Bally, « Traité de stylistique française», Paris, Hachette, 1909.
2. Jean François Féraud, « Le Dictionnaire critique de la langue française », France, 1807.
3. Léo Spitzer, « Etude de style », Paris, Gallimard, 1980.
4. Nicolas Boileau, "Art poétique", Paris, Hachette. 1972.
5. O.V. Stanislav, « Stylistique française. Cours théorique et pratique », Леci Українки, 2010.
6. S. V. Smolïankina, « Стилистика французкої мови », Xarkïv, Вид-во НУА, 2010.

Les sites web :

1. https://philo-lettres.fr/old/litterature_francaise/cours_stylistique.htm
2. https://fr.wikipedia.org/wiki/Stylistique
3. http://www.phil.muni.cz/stylistika/studie/place.htm

XÜLASƏ

Üslubiyyat dilçiliyin bir qolu kimi

Yazılan məqalənin "Üslubiyyat dilçiliyin bir sahəsi kimi" mövzusu, ümumiyyətlə üslub anlayışı fransız dilində olduqca maraqlı və genişdir. Bu məqalənin obyekti fransız üslubiyyatının və müxtəlif üslubların formalaşma prosesidir.

Bu elmi tədqiqat işini yazmaqda əsas məqsəd, üslubiyyatın bir elm sahəsi kimi inkişafını qeyd etmək, alimlərin müxtəlif dövrlərdə üslubiyyatın müxtəlif üslub anlayışları haqqında qeyd etdiyi fikirləri təhlil etməkdir. Digər əsas məqsədlərdən biri isə fransız dilində istifadə olunan şifahi və yazılı üslubların təhlil olunması, üslubi fərqlərin təhlil edilərək qeyd olunmasıdır.

Bu baxımdan məqalənin ilk hissəsində üslubiyyat sahəsi haqqında geniş şəkildə məlumat verilmişdir. Məqalənin növbəti səhifələrində isə fransız dilində istifadə olunan müxtəlif yazılı və şifahi üslublar təhlil edilərək, misallar göstərilmişdir.

Üslubiyyat elminin obyekt və vəzifələrini aydınlaşdırmaq üçün onun dilçiliyin və ya qeyri-dilçiliyin digər sahələri ilə əlaqəsini vurğulamaq önəmlidir. Üslubiyyatın digər elm sahələri ilə sıx bağlıdır, məsələn: qrammatika, leksikologiya, fonetika. Bu üç elm sahəsi eyni mövzunu, eyni dili öyrənir. Belə ki, qrammatika və ya fonetika bizə düzgün, səhvsiz danışmağı öyrədirsə, üslubiyyat özümüzü yaxşı ifadə etməyi, dilimizi ünsiyyət şəraitinə uyğunlaşdırmağı öyrədir. Bəzən deyilir ki, süslubiyyat fransız qrammatikası və leksikologiyasının ən önəmli parçasıdır.

Məqalənin nəzəri və praktik əhəmiyyəti olduqca önəmli hesab oluna bilər. "Üslubiyyat" dilçiliyin bir qolu olub, dil faktlarının seçimi və onların işlənmə yerini öyrənən elm sahəsidir. Eyni zamanda qeyd etmək lazımdır ki, üslubiyyat düzgün dili qaydaları, yaxşı və yerində istifadə olunan yazı və danışıq sənətini öyrədən kifayət qədər praktik bir elmdir. Bu və ya digər dilin üslubi imkanlarını öyrənən dilçilik sahəsi üslubiyyatın əsas vahidi "üslubdur". "Üslub" dedikdə dil vasitələrinin məqsədyönlü istifadə üsulu forması nəzərdə tutulur. Üslubiyyat elmi kifayət qədər fərqli sahələri təqdim edir: tarixi üslubiyyat və müqayisəli üslubiyyat. Müqayisəli üslubiyyat öz novbəsində təsviri, linqvistik, funksional və kommunikativ üslubiyyatları təqdim edir. Hər bir üslubi sahənin öz məqsədi var. Üslubların istifadə olunması və seçim amilləri müxtəlif dil vasitələrindən asılıdır. Belə ki, danışan subyektin mədəni səviyyəsi, onun sosial mənşəyi, psixoloji vəziyyəti və s., bunların hər biri ünsiyyətin baş verməsi üçün əsas şərtlərdir. Dil vasitələrindən məqsədyönlü istifadə forması özünü 2 formada göstərə bilir: yazılı və şifahi formada. Fransız dilində yazılı üslub formaları : bədii üslub, elmi üslub, publisistik üslub, rəsmi - işgüzar üslub. Fransız dilində şifahi üslub forması kimi məişət üslubu misal göstərmək olar. Danışıq dili emosional xarakter daşıyır, ona görə də söhbət zamanı sözügedən əşyalara və ya insanlara qarşı hiss və emosiyaları asanlıqla görmək olar.

ABSTRACT

Stylistics as a branch of linguistics

The topic of the written article "Style as a field of linguistics", the concept of style in general is quite interesting and wide in French. The object of this article is the formation process of French stylistics and different styles.

The main purpose of writing this scientific research paper is to note the development of stylistics as a scientific field, to analyze the opinions of scholars about different stylistic concepts of stylistics in different periods. One of the other main goals is to analyze the spoken and written styles used in the French language, and to analyze and note the stylistic differences.

In this regard, the first part of the article provides extensive information about the field of stylistics. In the next pages of the article, various written and spoken styles used in French are analyzed and examples are shown.

In order to clarify the objects and tasks of the science of stylistics, it is important to emphasize its relationship with other fields of linguistics or non-linguistics. It is closely related to other scientific fields of stylistics, for example: grammar, lexicology, phonetics. These three fields of science study the same subject and the same language. So, if grammar or phonetics teaches us to speak correctly and without mistakes, stylistics teaches us to express ourselves well and to adapt our language to communication conditions. It is sometimes said that stylistics is the most important part of French grammar and lexicology.

The theoretical and practical importance of the article can be considered very important. "Stylistics" is a branch of linguistics, a branch of science that studies the selection of language facts and their place of development. At the same time, it should be noted that stylistics is a rather practical science that teaches correct language rules, good and appropriate writing and speaking. The main unit of stylistics is "style", the branch of linguistics that studies the stylistic possibilities of this or that language. "Style" refers to the form of purposeful use of language tools. The science of stylistics presents quite different fields: historical stylistics and comparative stylistics. The science of stylistics presents quite different fields: historical stylistics and comparative stylistics. Comparative stylistics in turn presents descriptive, linguistic, functional and communicative stylistics. Each stylistic area has its own purpose. The use of styles and selection factors depend on different language tools. Thus, the cultural level of the speaking subject, his social origin, psychological state, etc., each of these are the main conditions for the occurrence of communication. The form of purposeful use of language means can manifest itself in 2 forms: in written and oral form. Forms of written style in French: artistic style, scientific style, journalistic style, formal - business style. An example of a form of spoken style in French is the domestic style. Spoken language is emotional in nature, so it is easy to see feelings and emotions towards the things or people in question during the conversation.

РЕЗЮМЕ

Стилистика как раздел языкознания

Тема написанной статьи «Стиль как область лингвистики», понятие стиля в целом во французском языке довольно интересно и широко. Объектом данной статьи является процесс формирования французской стилистики и различных стилей.

Основная цель написания данной научно-исследовательской работы – отметить развитие стилистики как научной области, проанализировать мнения

ученых о различных стилистических концепциях стилистики в разные периоды. Одна из других основных целей — проанализировать разговорные и письменные стили, используемые во французском языке, а также проанализировать и отметить стилистические различия.

Для выяснения объектов и задач науки стилистики важно подчеркнуть ее связь с другими областями языкознания или нелингвистики. Она тесно связана с другими научными областями стилистики, например: грамматикой, лексикологией, фонетикой. Эти три области науки изучают один и тот же предмет и один и тот же язык. Итак, если грамматика или фонетика учат нас говорить правильно и без ошибок, то стилистика учит хорошо выражать мысли и приспосабливать свой язык к условиям общения. Иногда говорят, что стилистика — важнейшая часть французской грамматики и лексикологии.

В связи с этим в первой части статьи даются обширные сведения о области стилистики. На следующих страницах статьи анализируются различные письменные и устные стили, используемые во французском языке, и приводятся примеры. Теоретическое и практическое значение статьи можно признать очень важным. «Стиль» — раздел языкознания, область науки, изучающая выделение языковых фактов и место их развития. Наука стилистика представляет совершенно разные области: историческую стилистику и сопоставительную стилистику. Сопоставительная стилистика в свою очередь представляет собой описательную, лингвистическую, функциональную и коммуникативную стилистику. Каждое стилистическое направление имеет свое предназначение. Использование стилей и факторов выбора зависит от разных языковых инструментов. Таким образом, культурный уровень говорящего субъекта, его социальное происхождение, психологическое состояние и т. д. — все это является основными условиями возникновения общения. Форма целенаправленного использования языковых средств может проявляться в двух формах: письменной и устной. Формы письменного стиля во французском языке: художественный стиль, научный стиль, публицистический стиль, официально-деловой стиль. Примером формы разговорного стиля во французском языке является домашний стиль. Разговорная речь эмоциональна по своей природе, поэтому во время разговора легко увидеть чувства и эмоции по отношению к вещам или людям, о которых идет речь.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
, .
Rəyçi: Fil.f.d.dos.Vəfa Seyid Mirəhməd qızı
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.163-172

https://doi.org/10.62837/2025.4.163

BAXŞƏLİYEVA NATAVAN RASİM QIZI
Azərbaycan Dillər Universiteti
İngilis dilinin qrammatikası kafedrası
natavanabbas@gmail.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ QRAMMATİK SİNONİMLƏRİN VƏ VARİANTLARIN TƏDQİQİ

Açar sözlər *Sinonimlik, qrammatik sinonimlik, sintaktik sinonimlik, variantlar, qrammatik variantlar, dilçilik, kommunikasiya.*

Ключевые слова: *Синонимия, грамматическая синонимия, синтаксическая синонимия, варианты, грамматические варианты, лингвистика, коммуникация.*

Key words*: Synonymy, grammatical synonymy, syntactic synonymy, variants, grammatical variants, linguistics, communication*

Sinonimlik kimi, variantlılıq da dil sisteminin universal xüsusiyyətidir. Bu iki dil hadisəsi fərqli və biri digəri ilə kəsişməyən hadisələrdir. İnvariantlılıq problemi ilk dəfə dilin birtərəfli (unilateral) vahidlərinə - fonemlərə münasibətdə tətbiq edilmişdir. Fonetik-fonoloji səviyyənin vahidlərinin variativləşməsi funksiyasına görə vahid fonemdə birləşən səslərin fiziki fərqliliyi baxımından nəzərdən keçirilmişdir. Məhz bu səbəbdən sinonimlik hadisəsi ilə variativliyin əlaqəsindən danışmazdan əvvəl, variativlik məsələsinə nəzər salmaq məqsədəuyğundur.

Məlum olduğu kimi, dil sistemində baş verən dəyişikliklər bütün dillərə xas təbii prosesdir. Digər mühüm dil hadisələri kimi variativlik də dilin bütün səviyyələrində özünü mütləq şəkildə göstərir. Reallaşmada dil vahidləri dilin müxtəlif səviyyələrində müxtəlif variantlarda reallaşır. F.Y.Veysəllinin fikrincə, *"dilin müxtəlif səviyyələrində öz təcəssümünü tapan variativlik eyni zamanda dil sisteminin obyektiv immanent xüsusiyyətidir"* [3, s.17].

Dilin ikitərəfli vahidləri onlara xas semantik məzmunla xarakterizə olunur ki, bu da həmin vahidlərin variativləşməsini fonemlərin variativləşməsi problemindən prinsipial şəkildə fərqləndirir. Dilçiliyə o da məlumdur ki, ikitərəfli dil vahidlərinin variativləşməsinə münasibətdə xüsusi nəzəri mənbələrdə ortaq fikir mövcud deyildir. Bəzi dilçilər variativliyi dil vahidlərinin məna tərəfi ilə deyil, yalnız formal strukturu ilə əlaqələndirirlər, digərləri isə vacib və qeyri-vacib variant və dubletlərin fərqləndirilməsini təklif edirlər. E.V.Qulqa və E.İ.Şendelsin fikrincə, "*vacib variantlar dil sahəsində ikincidərəcəli əlamətlərin dəyişməsi nəticəsində yaranır*" [4, s.18]. Vacib variantların fərqliliklərinə onların üslubi-emosional çalarları aid edilir, lakin bu fərqlər həm də dil vahidləri arasında sinonimlik münasibətlərinin təyin olunmasında

ayırd edilir ki, bu da sintaktik səviyyədə sinonimlər və variantlar arasında fərqlilikdə dəqiq əsaslandırmanın olmamasından xəbər verir.

Vacib və qeyri-vacib variantlar arasındakı fərq ikitərəfli dil vahidlərinin ikitərəfli – formal və semantik variativləşməsi ilə bağlıdır və semantik variativləşmə, öz növbəsində, ifadə planının eyniliyində məzmun planının fərqliliyinə, formal variativləşmə isə məzmun planının eyniliyində ifadə planının fərqliliyinə əsaslanır. Sinonimlik və variativliyin fərqləndirilməsində mühüm məqam formal variativləşmənin semantik variativləşmə ilə üst-üstə düşməməsidir. Variantlılıq münasibətində olan dil vahidləri formal strukturda yalnız qismən dəyişikliklərlə müşayiət olunur. Bu formal dəyişikliklər həmin vahidin əsas linqvistik dəyərinin dəyişməsi ilə əlaqəli deyildir. Sərbəst variativləşmə münasibətində olan variant formaları biri digəri ilə müqayisədə əlavə informasiya daşımır (danışanın sosial, milli, yaş, peşə mənsubiyyəti haqqında). Variantlardan fərqli olaraq, sinonimlər bu cür informasıyanın daşıyıcılarıdır.

Ünsiyyət zamanı dilin ən mühüm keyfiyyətlərindən biri kimi bir dil vasitəsindən digər dil vasitəsinə keçə bilmək götürülür ki, bu da danışana öz fikirlərini müstəqil şəkildə ifadə etməklə yanaşı, bu prosesi müxtəlif vasitələrin köməyi ilə həyata keçirmək imkanı verir.

Vahid bir fikrin fərqli yollarla və ya müxtəlif dil vasitələrindən istifadə edilərək ifadə edilməsi *perifraz*, *(fərqli üsullar və ya vasitələrlə ifadə etmə)* adlanır. Variantlar ünsiyyət prosesinin fərqli səviyyələrində aşkara çıxır. Məsələn,

"qabları yumaq – qavları yumaq"; "toyuq – töyux"; "qırıq – qırıx" və s.

İngilis dilində də varianta müxtəlif dil səviyyələrində rast gəlmək olur, məsələn, "*The cat's eyes" – "the eyes of the cat"; "The novels of Dickens" – "Dickens' novels" – "Dickens's novels".*

Dilin səviyyələri daxilində fərqli dil variantlarına rast gəlinir. Məsələn,

1) eyni mənanın ifadə vasitəsi və ya variantı hesab edilən leksik sinonimlər. Məsələn, Azərbaycan dilində: *"oxumaq – təhsil almaq"; "kiçik – balaca – xırda – qısa"* və s. İngilis dilində: *"to teach – to educate – to give knowledge"; "small – little – tiny – short";*

2) eyniköklü sözlər. Məsələn, *"alma – alqı"; "satma – satış"; "selling – sale";*

3) sinonimik sintaktik konstruksiyalar və ya tərkiblər. Məsələn, Azərbaycan dilində: *"Evdən çıxarkən, o, bütün əşyalarını götürdü // Evdən çıxanda, o, bütün əşyalarını götürdü // Evdən çıxan zaman, o, bütün əşyalarını götürdü"*. İngilis dilində: *"While leaving the house, he took all his things // On leaving the house, he took all his things";*

4) budaq cümlələr. Məsələn, Azərbaycan dilində: "*Baxmayaraq ki, o, ev almışdı, o, evi təmir edə bilmirdi // o, ev alsa da (belə), evi təmir edə bilmirdi"*. İngilis dilində: *"Though (although) he was tired, he continued working // Tired as he was, he continued working".*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.163-172

Sözlər və ifadələrin sinonim münasibətində çıxış etməsi daha çox sinonimik qrup yaradan vahidlərin məzmunundakı fərqli semlərlə bağlıdır. Məsələn:

Azərbaycan dilində: *"yağış artır, güclənir, lakin böyümür; problemlər artır, lakin genişlənmir"; "zibil atmaq/tullamaq/yerə tökmək, lakin zibili yerə vurmaq mümkün deyildir" və s.*

İngilis dilində: *"a tall boy / a high building" (mountain); "a small box / a short man"*.

Variantlar sinonimlərdən fərqli olaraq mənaları bir-birindən seçilməyən dil vahidləridir. Başqa sözlə desək, eyni mahiyyətə, məzmuna malik olan dil vahidləri fonetik quruluş baxımından fərqləndikdə variantlar yaranır.

Sosial və linqvistik prizmadan yanaşdıqda variativliyin meydana çıxması diqqət çəkən bir məsələdir, çünki müxtəlif dil variantları aşağıdakılardan asılı olaraq işlədilə bilər.

a) müxtəlif sosial təbəqələrə aid olan dil istifadəçiləri;

b) kommunikasiya zamanı yaranan fərqliliklər, eyni fikri müxtəlif şəkildə ifadə etmə istəyi.

Yəni qrammatik variantlar nitq vərdişləri, dialektal xüsusiyyətlər və fonetik fərqlərlə bağlı yaranır. Məsələn, Azərbaycan dilində: *"O, gələcək, /. O,gələcəkdir. Bu məsələ qəlizdir. / Qəlizdir bu məsələ (inversiya)".* İngilis dilində: *"learnt (britaniya ingilis dili), / learned (amerika ingilis dili). Want to sleep?/ Do you want to sleep? İ really love this flower. / This flower I really love. Because it was hot, I opened the window, / I opened the window, because it was hot".*

Variativlik dilin bütün səviyyələrinin - fonoloji, morfoloji, leksik, sintaktik vahidlərinə xas immanent xüsusiyyətdir. Variativlik dil vahidlərinə xas xüsusiyyətdir və hər hansı bir dil vahidi dəyişikliyə məruz qalsa da, onun mahiyyəti, məzmunu dəyişmir. Müasir Azərbaycan diliçiliyində fonologiya sahəsində variativliyə dair xeyli tədqiqatların aparılmasına baxmayaraq, bu sahədə bəzi məsələlər ya öz həllini tapmayıb, ya da onların yenidən tədqiq olunmasına ehtiyac duyulur.

Variativliklə bağlı tədqiqatlar arasında F.Y.Veysəllinin əsərləri xüsusi çəkiyə malikdir. Dil vahidlərinin danışıqda variativləşməsinin başlıca səbəblərini F.Y.Veysəlli belə izah edir: "*Dilin müxtəlif səviyyələrinin vahidlərinin variativliyi sistemdaxili qanunlara tabedir və dildaxili qaydalarla tənzimlənir. Bu halda söhbət mövqe, kombinasiya və distribusiya ilə şərtlənən srukturdaxili variativlikdən gedir. Strukturdaxili variativlik sisiolinqvistik amillərlə şərtlənən variativliyə qarşı qoyulur*" [3, s.73].

Variativlik dil vahidinin sadəcə dəyişməsinə deyil, yeni mahiyyətin yaranmasına gətirib çıxarmayan dəyişməsidir. Variativlik dəyişkənlik və sabitlik tələb edir, başqa sözlə, o, dəyişkənlik və sabitliyin vəhdətini təmsil edir. Variativlik dilin təkamül prosesinin obyektiv nəticəsidir, canlı dilin əvəzsiz xassəsidir. Dil vahidlərinin funksional sisteminin imkan verdiyi və onların işlənmə konteksti ilə

şərtlənmiş dəyişməsi olan variativlik təbii dilin bütün səviyyələrinə xas obyektiv immanent keyfiyyətdir.

K.M.Abdullayev invariant-variant münasibətlərini araşdırarkən qeyd edir ki, *"hər bir variantda deyilənlərin nəticəsində, bir tərəfdən, invariant mahiyyətini, invariant əlamətini, digər tərəfdən, spesifik variant mahiyyətini qeyd etmək olar. Variantın variant mahiyyətini situasiyanın tipi, adresatın spesifikliyi və lokallaşmanın digər elementləri kimi faktorlar şərtləndirir"* [1, s.211].

Variantda invarianta məxsus ümumi xüsusiyyətlərlə yanaşı, həm də variantın məhz özünə aid olan fəqli cəhətlər də vardır. R.M.Həsənovanın qeydinə görə, *"hər bir dildə söz əsas struktur-semantik vahiddir və variativlik dildə sözün mövcud üç aspektini əhatə edir: 1) fonetik aspekt; 2) morfoloji aspekt; 3) semantik aspekt"* [2, s.33].

Variativlikdən danışdıqda, məzmunun tam eyniliyi, yəni sözün mənasını dəyişdirmədən formasının dəyişməsi və ya dil vahidinin strukturunun fərqlənməsi nəzərdə tutulur. Dil sisteminin ümumi cəhətlərinin, daxili keyfiyyətlərinin açılmasında variativlik məsələsi özünəməxsus yer tutur. Variantlar fərqli dil səviyyələrində özünü büruzə verir və onun dildə işlənməsi araşdırılan dillərin özünəməxsus cəhətlərindən asılıdır. Sinonimlərlə variantların fərqləndirilməsi müasir variatologiyanın mühüm məsələlərindən biridir. L.V.Kropotova mətnlər üzrə variant və sinonim təzahürlərinin distribusiyası ilə onların sonrakı hipotetik üslubi şərhinin müqayisəsi əsasında sinonimlik və variantlığın fərqləndirilməsinin əsas meyarlarının icmalını vermişdir. L.V. Kropotovanın fikrincə, "*dil vahidlərinin semantik variativliyi dedikdə, məzmun planında fərqlilik, ifadə planında oxşarlıq, formal variativlik dedikdə isə ifadə planında fərqlilik, məzmun planında oxşarlıq nəzərdə tutulur*" [6, s.161].

Variantlar sintaktik dil səviyyəsində kifayət qədər araşdırılmamışdır. Sintaktik vahidlərin semantik və sintaktik keyfiyyətlərlə əhatə olunması variantların sintaktik səviyyədə tədqiq edilməsində bəzən problemlər yaradır. Sintaktik vahidlərin sinonimliyi – variativlyi ilə bağlı xeyli sayda nəzəri fikirlər mövcuddur. Dilçilər arasında bu məsələ ilə əlaqədar fərqli yanaşmalar vardır və bu fərqli baxışlar özünü, R.M.Həsənovanın da yazdığı kimi, ilk növbədə, "variant-invariant" məsələsinin izahında göstərir [2, s.33].

Dilçiliyin leksikologiya bölməsində öyrənilməsinə baxmayaraq, sinonimlik qrammatikanın da tədqiqat obyektinə çevrilmiş dil hadisələrindən biri hesab edilir.

Dilçilikdə qrammatik sinonimlik anlayışını ilk dəfə A.M.Peşkovski işlətmişdir. Qrammatik sinonimliyi geniş mənada qəbul edən müəllif onu *"qrammatik mənasına görə bir-birinə oxşar olan sözlər və söz birləşmələrinin mənası"* [7, s.78] kimi şərh etmişdir. Onu da xatırlatmaq istərdik ki, sovet dilçiliyində A.M.Peşkovskinin yaradıcılığından başlayaraq sinonimliyə binar hadisə

kimi baxılmağa başlanmışdır, yəni sinonim məzmun və ifadə planları baxımından öyrənilən ikitərəfli dil vahidi kimi müəyyən edilmişdir [7].

Sintaktik modellərin qrammatik xüsusiyyətlərinə və yerinə yetirdiyi funksiyalara görə yaxınlığı qrammatik variantlarla qrammatik sinonimlərin əsas cəhətidir. Dilçilikdə bəzi mütəxəssislər sintaktik səviyyədə yaranan sinonimləri bəzən sintaktik variant, digər dilçilər isə sintaktik səviyyədə yaranan variantları sinonimlər hesab edirlər. Dilçilər arasında sintaktik sinonimlər və sintaktik variantlarla bağlı fikir ayrılığının əsasında duran başlıca amil araşdırılan dil vahidlərinin formal baxımdan fərqli və məna baxımından uyğun olmasıdır. Mənaca bir-birinə oxşar fərqli sintaktik konstruksiyalar və ya formalar qrammatik və ya sintaktik sinonimlər hesab olunur və bu modellər oxşar mənalara malik olsa da, əsla eynilik kəsb etmir. Onlar arasındakı fərqlilik yalnız bu konstruksiyaların müxtəlif quruluşlu olması ilə bitmir, eyni zamanda, ötürülən informasiyanın xüsusiyyətində və nə dərəcədə əhatəli olmasında da aşkara çıxır. Başqa sözlə, qrammatik sinonimlərdə oxşar qrammatik məna müxtəlif formada ifadə edilə bilir.

Sintaktik sinonimləri təyin etməyin beş əsas meyarı fərqləndirilir:

1. Sintaktik modellərin mənanı saxlamaqla asanlıqla əvəzlənə bilməsi;
2. Müxtəlif sintaktik modellərlə verilmiş mənanın eyniliyi;
3. Sintaktik modellərlə ifadə edilmiş qrammatik mənaların adekvatlığı və eyni funksiya daşıması;
4. Modellərin struktur sırasının ümumiliyi;
5. Kifayət qədər çox sözü əhatə etmək.

Məsələn, ingilis dilində nümunələrə baxaq.

a) Cerund tərkibi - şərt budaq cümləli tabeli mürəkkəb cümlə. Məsələn,

He will not participate in the meeting without me being supported. // He will not participate in the meeting if I am not supported. 'Əgər məni dəstəkləməsələr, o, bu görüşdə iştirak etməyəcək'.

b) Müstəqil nominativ feili sifət tərkibi - şərt budaq cümləsi. Məsələn,

Financial budget permitting, the project will be implemented. // If the financial budget permits, the project will be implemented. 'Büdcə imkan verərsə, layihə həyata keçiriləcəkdir'.

Azərbaycan dilində nümunələrə nəzər salaq.

*"... nə qədər yaxından bələd oluram onların xasiyyətinə, bir o qədər də əmin oluram ki, bu iş alınmaz" // "... onların xasiyyətinə yaxından bələd olduqca bu işin alınmayacağına bir o qədər əmin oluram"*cümlələrinə nəzər salaq.

Burada bir cümlə daxilində kəmiyyət və tamamlıq budaq cümlələri müvafiq olaraq tərkiblərlə əvəzlənir, yəni onlar bir-birinə qrammatik sinonim olur.

Sintaktik sinonimlərdən fərqli olaraq, sintaktik variantların özəyini qrammatik konstruksiyanın tərkibindəki sözləri nəzərə almadan məhz variantlar özləri təşkil edir. İ.M.Jilinin fikrincə, *"sintaktik variantlardan danışarkən yalnız bu vahidlərin sintaktik*

səviyyəyə aid olması deyil, eyni zamanda, məna eyniliyi, yəni semantik bərabərlik də xüsusi nəzərə alınmalıdır" [5, s.43].

Sintaktik strukturların sinonimliyi sintaktik variantlıq məsələsi ilə əlaqəlidir, lakin onlar bir-birindən fərqlənir. Sintaktik variantlarda mənalar tam eynilik təşkil edir. Sintaktik sinonimlər leksik tərkib baxımından yaxın olduğundan, aşağıda verilmiş söz birləşmələri sintaktik variant olsa da sintaktik səviyyədə yaranan sinonimliyin əlamətinə malikdir. Məsələn,

"divarı rəngləmək – divarı boyamaq";
"gül dərmək – gül yığmaq";
"çətinlikdən xilas olmaq – çətinlikdən qurtulmaq";
"ev yığışdırmaq – ev təmizləmək".

Sintaktik sinonimlikdən danışdıqda, dildə sintaktik modellər arasında müəyyən qrammatik əlaqənin olduğunu da qeyd etmək lazımdır. Bu növ oxşar və ya bərabərsəviyyəli sintaktik modellər dildə sintaktik sinonimlər qrupunu yaradır.

Dilçiliyə gətirilmiş hər iki termin – variantlar və sintaktik sinonimlər arasında fərqlərin müəyyənləşdirilməsi baxımından mütəxəssislərin nəzər nöqtələrinə də diqqət yetirmək vacibdir. E.İ.Şendels variantlar və qrammatik sinonimlərin fərqini belə göstərmişdir: *"... qrammatik sinonimliyə semantik və struktur baxımından bir-birindən fərqli sintaktik konstruksiyalar daxildir. Onların mənasındakı fərq daima sistemli göstəricilərlə əhatələnən qrammatik mənalar sisteminə aiddir. Sintaktik strukturların mənası bir-birinə oxşardır, amma bu modellər heç vaxt eyni olmur. Variant isə modelin daxilində baş verən dəyişikliklər olub, onu başqa bir modelə çevirmir. Variantlar sinonimlərdən fərqlənir, çünki variantlar ya semantik baxımdan tam eyni olur, ya da onların mənalarındakı fərqlər qrammatik mənaların sistemini pozmur"* [9, s.13].

Beləliklə, qrammatik sinonim dedikdə, mənaca bir-birinə yaxın, lakin üst-üstə düşməyən sintaktik konstruksiyalar nəzərdə tutulur. Variant modelləri dedikdə isə, başqa modelə çevrilmədən modelin daxilində baş verən dəyişikliklər nəzərdə tutulur.

E.İ.Şendelsə görə, *"bir model daxilində onun yeni bir modelə çevrilməsinə səbəb olmayan dəyişmələr sintaktik variantdır"* [8, s.12]. Müəllif həm yeni struktur, həm də variantın eyni qrammatik vasitələrin köməyilə yaranması fikrini müdafiə edir və variativliyi belə qiymətləndirir: *"yeni yaranan konstruksyalar kimi, variantlar da oxşar qrammatik vasitələrin iştirakı ilə yaranır. Həm kommunikativ, həm də sintaktik vahid olan cümlənin variantları eyni funksiyaya malik olsa da, müxtəlif formaya malik olur. Variativlik sintaksisin üç cəhəti əsasında, yəni onun struktur, məna və kommunikativ aspektləri əsasında meydana çıxır"* [8, s.12]

Variantlar və yeni konstruksiyaların vahid qrammatik vasitələrin iştirakı ilə formalaşdığını iddia edən E.İ.Şendelsə görə, *"əsas xüsusiyyətlərin dəyişməsi mütləq qrammatik məna sistemində fərqliliklərə səbəb olmalıdır ki, bu proses də nəticədə strukturun tamlığının pozulub yoxa çıxması ilə bitir. Modelin zəruri xüsusiyyətlərinə*

malik olan və digər variantlar arasında üstünlük təşkil edən struktur yarana bilir. Eyni keyfiyyətə malik variantlara da rast gəlmək mümkündür" [8, s.20].

Qrammatik səviyyədə sinonimlər və qrammatik variantlar üçün oxşar əlamətlərdən biri onların hər ikisinin eyni dil səviyyəsində aşkar edilməsidir.

Linqvistik müstəvidə sintaktik sinonimlik hadisəsinə dair fərqli baxışlarla yanaşı, ümumi fikirlərə də rast gəlmək mümkündür. Qrammatik sinonimlik hadisəsini tədqiq edən dilçilər sintaktik strukturların sinonimlik xüsusiyyətlərini aydınlaşdırarkən fonetik struktur və məna xüsusiyyətlərini başlıca cəhət kimi qəbul edirlər. Sintaktik modellərin tərkibindəki sözlərin eyni və ya oxşar olması, bu konstruksiyaların qrammatik mənasının ümumi olması, bu modellərin müxtəlifstrukturlu olması dilçilərin etiraf etdilkləri ümumi fikirlərdir.

Dilçiliyin nəzəri məsələlərinə aid mənbələrdə sintaktik variantların mənasının izahında oxşar fikirlər də vardır. Əksər mənbələrdə məna eyniliyi, forma müxtəlifliyi ön plandadır. Sinonimik və variativ vahidlər arasında bir neçə əlamətə görə fərq qoymaq olar. Sinonimik əlamətlərə aşağıdakılar aiddir:

1) yaxın mənalı, lakin semantik və üslubi cəhətdən fərqli vahidlər;
2) əksər kontekstlərdə qarşılıqlı əvəzlənə bilən vahidlər;
3) digər sözlərlə fərqli birləşmə xüsusiyyətinə malik vahidlər.

Variantların əlamətləri isə aşağıdakılardır:

1) semantik, üslubi cəhətdən və birləşmə baxımından eyni olan vahidlər;
2) bütün kontekstlərdə qarşılıqlı əvəzlənə bilən vahidlər;

Başqa sözlə, variantlar dedikdə, eyni mənaya malik olan dil işarələrinin zahiri görünüşcə, formaca uyğunsuzluğu başa düşülür [5, s.43].

Burada frazeoloji evfemizmlərdə də sinonimlik və variativlik məsələsini nəzərdən keçirmək məqsədəuyğundur. Frazeoloji evfemizmlərin sinonimliyi frazeoloji evfemizmlərin variantlığından fərqlənir. Frazeoloji evfemizmlərdə sinonimlər variantlardan fərqli olaraq, obrazlı olmayan frazeoloji evfemizmlərdən də yarana bilər. Frazeoloji evfemizmlərin variantlarını bütün kontekstlərdə bir-biri ilə əvəz etmək mümükündür. Bu cəhət frazeoloji evfemizmlərin sinonimliyində vacib şərt deyildir. Frazeoloji evfemizmlərin sinonimləri strukturuna görə bir-birindən tam fərqlənir, frazeoloji evfemizmlərin variantlarında isə buna nadir hallarda rast gəlinir.

Sinonimlik və variativlik bir-birinə yaxın dil hadisələridir. Frazeoloji evfemizmlərdə sinonimlik və variativlik yalnız bir dil çərçivəsində qalmır, çünki hər hansı bir frazeoloji evfemizmin digər variant və sinonimləri həm eyni bir dildə, həm də bir neçə dildə mövcud ola bilər. Məsələn,

"Make a clean breast" – "to confess" - (etiraf etmək, ürəyini boşaltmaq) mənasında işlədilir. Bu ifadə qədim fransız dilində də işlədilmişdir. Lakin, "*to come clean"* ingilis dilinin Amerika variantında istifadə olunan eynimənalı bir evfemizmdir. Azərbaycan dilində bu ifadə "*ürəyini boşaltmaq, doğru yola gəlmək"* kimi işlədilir.

"Your best way is to make a clean breast of the facts" – I answered" [10, s.48] – (*Sənin ən yaxşı seçimin faktları etiraf etməyindir, - mən cavab verdim);*

"I will do my best to get the lawers to "come clean", but if they will not tell you, I can't imagine their telling me" [11, s.83] – (*Mən əlimdən gələni edəcəm ki, hüquqşünaslar həqiqətləri etiraf etsinlər (ürəklərini boşaltsınlar, doğru yola gəlsinlər), lakin əgər onlar sənə deməsələr, onların mənə demələrini təsəvvür edə bilmirəm (ağlımdan belə keçirə bilmirəm).*

Beləliklə, əlamət və səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirdikdən sonra deyə bilərik ki, sintaktik (qrammatik) sinonimlərin təşkil olunduğu sözlər oxşar və ya mənaca bir-birinə yaxın olur, sintaktik səviyyədə yaranan sinonimlər funksional baxımdan eyni, lakin müxtəlif struktura malik olur və bir-birini əvəz edə bilir, yəni onlar bir-birindən fərqli strukturlara malik olsalar da, ümumi qrammatik məna kəsb edən sintaktik modellərdir.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev, K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri / K.M.Abdullayev. – Bakı: MTM İnnovation nəşriyyatı, – 2016. – 359 s.
2. Həsənova, R.M. Müxtəlifsistemli dillərdə güzəşt budaq cümləli tabeli mürəkkəb cümlələrin variativliyi: (ingilis və Azərbaycan dilləri materialları əsasında): /filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı, ADU, 2017. – 156 s.
3. Вейсалов (Вейсялли), Ф.Я. Проблема вариативности языковых единиц. /Seqment və superseqment vahidlərin variativliyinin fonetik təsviri / Ф.Я.Вейсялли. – Bakı: Nurlan, – 1990. – c. 13-17.
4. Гулыга, Е.В. Грамматико-лексические поля в современном немецком языке / Е.В.Гулыга, Е.И. Шендельс. -Москва : Просвещение, 1969. 184 с.
5. Жилин, И.М. Использование синонимики и вариативности языковых единиц при переводе /Тетради переводчика/ И.М.Жилин; под ред. Л.С.Бархударова / – Москва: Наука, –1984. – с. 42-43.
6. Кропотова, Л. В. Проблема разграничения синонимии и вариантности // – Тамбов: Изд-во Грамота, Филологические науки. Вопросы теории и практики, – 2009. № 2 (4), – с. 157-161.
7. Пешковский, А.М. Русский синтаксис в научном освещении. Изд.8., доп. / А.М.Пешковский. – Москва: Языки славянской культуры, –2001. – 544 с.
8. Шендельс, Е.И. Грамматическая синонимия (на базе морфологии глагола в современном немецком языке): /автореф. дисс. доктора филол. наук/ – Москва: Наука, 1964. – 77 с.
9. Шендельс, Е.И. Синтаксические варианты. // – Москва: Наука, Филологические науки, – 1962. №1, – с.8-18.

10. Doyle, C. The Adventure of the Speckled Band / C.Doyle. – Moscow: Visshaya shkola, – 1988. – 94 p.
11. Galsworthy, J. "Passers-By" – second Interlude of A Modern Comedy / J.Galsworthy. – Moscow: Visshaya shkola, – 1983. – 172 p.

Baxşəliyeva Natavan Rasim qızı

İngilis və Azərbaycan dillərində qrammatik sinonimlərin və variantların tədqiqi.

Xülasə

Məqalə ingilis və Azərbaycan dillərində qrammatik sinonimlik və qrammatik variantlara həsr olunmuşdur. Məqalədə variantlarla sinonimlərin dildə işlənməsi, oxşar və fərqli xüsusiyyətləri təhlil olunmuşdur. Sintaktik modellərin qrammatik xüsusiyyətlərinə və yerinə yetirdiyi funksiyalara görə yaxınlığı qrammatik variantlarla qrammatik sinonimlərin əsas cəhətidir. Qrammatik səviyyədə sinonimlər və qrammatik variantlar üçün oxşar əlamətlərdən biri də onların hər ikisinin eyni dil səviyyəsində aşkar edilməsidir.

Variantlar sinonimlərdən fərqli olaraq mənaları bir-birindən seçilməyən dil vahidləridir. Başqa sözlə desək, eyni mahiyyətə, məzmuna malik olan dil vahidləri fonetik quruluş baxımından fərqləndikdə variantlar yaranır.

Mənaca bir-birinə oxşar fərqli sintaktik konstruksiyalar və ya formalar qrammatik və ya sintaktik sinonimlər hesab olunur və bu modellər oxşar mənalara malik olsa da, əsla eynilik kəsb etmir. Onlar arasındakı fərqlilik yalnız bu konstruksiyaların müxtəlif quruluşlu olması ilə bitmir, eyni zamanda, ötürülən informasiyanın xüsusiyyətində və nə dərəcədə əhatəli olmasında da aşkara çıxır. Başqa sözlə, qrammatik sinonimlərdə oxşar qrammatik məna müxtəlif formada ifadə edilə bilir. Beləliklə, qrammatik sinonim və variantlar fərqli dil hadisələridir və onları fərqləndirmək mümkündür.

BAKHSHALIYEVA NATAVAN RASIM

STUDY OF GRAMMATICAL SYNONYMS AND VARIANTS IN ENGLISH AND AZERBAIJAN LANGUAGES.

SUMMARY

The article is dedicated to grammatical synonymy and grammatical variants in English and Azerbaijani languages. The article analyzes the use of variants and synonyms in the language, their similar and differing features. The similarity of syntactic models in terms of grammatical features and functions performed is the main feature of grammatical variants and grammatical synonyms. One of the similar features for synonyms and grammatical variants at the grammatical level is that they are both found at the same language level.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 163-172

Variants, unlike synonyms, are linguistic units whose meanings are indistinguishable from each other. In other words, variants emerge when linguistic units with the same essence and content differ in terms of phonetic structure.

Different syntactic constructions or forms that are similar in meaning are considered grammatical or syntactic synonyms, and although these models have similar meanings, they are never identical. The difference between them is not only demonstrated through the structural difference of these constructions, but also through the nature and extent of the information transmitted. In other words, in grammatical synonyms, a similar grammatical meaning can be expressed in different forms. Thus, grammatical synonyms and variants are different linguistic phenomena and it is possible to distinguish them.

ИЗУЧЕНИЕ ГРАММАТИЧЕСКИХ СИНОНИМОВ И ВАРИАНТОВ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ.

РЕЗЮМЕ

Статья посвящена грамматической синонимии и грамматическим вариантам в английском и азербайджанском языках. В статье анализируется использование вариантов и синонимов в языке, их похожые и различаюшиеся черты. Сходство синтаксических моделей по грамматическим признакам и выполняемым функциям является основной чертой грамматических вариантов и грамматических синонимов. Одной из схожих черт для синонимов и грамматических вариантов на грамматическом уровне является то, что они оба встречаются на одном и том же языковом уровне. Варианты, в отличие от синонимов, являются языковыми единицами, значения которых неотличимы друг от друга. Другими словами, варианты возникают, когда языковые единицы с одинаковой сущностью и содержанием различаются по фонетической структуре. Различные синтаксические конструкции или формы, которые близки по значению, считаются грамматическими или синтаксическими синонимами, и хотя эти модели имеют схожие значения, они никогда не бывают идентичными. Разница между ними заключается не только в разной структуре этих конструкций, но и в характере и объеме передаваемой информации. Другими словами, в грамматических синонимах схожее грамматическое значение может быть выражено в разных формах. Таким образом, грамматические синонимы и варианты — это разные языковые явления, и их можно различать.

, .

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi. f.e.d., dos. L.M.Cəfərova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.173-177

https://doi.org/10.62837/2025.4.173

AYSEL İBRAHİMOVA
ADPU
Üzeyir Hacıbəyli küç., 68
e-mail:aysel-ibrahimova2015@mail.ru

MÜASİR İNGİLİS DİLİNDƏ İŞGÜZAR YAZIŞMALARIN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Linqvistik təhlil nəticəsində müəyyənləşdirilmiş ayrı-ayrı situasiyalara xas olan linqvistik xüsusiyyətlərin aşkar edilməsi işgüzar yazışmaların əsasını təşkil etməlidir.

Müasir zamanda bu proses "ehtiyac və tələbatların təhlili" (needs analysis) adını almışdır. Sözü gedən proses həm də "ehtmal edilən situasiyaların təhlili" (target situation analysis) kimi tanınmaqdadır. Ehtimal edilən situasiyaların təhlili bu sahənin artıq tanınmış mütəxəssisləri, həm də müxtəlif sahələrin mütəxəssisləri tərəfindən qəbul edilmiş mərhələdə baş verir. Müasir dünyada qlobal ünsiyyət dili statusunu qazanmış ingilis dilindən kommunikativ məqsədlərə nail olmaq üçün istifadə etmək qabiliyyətinə malik olan gənclərin hazırlanması qarşıya qoyulan əsas vəzifələrdən biridir.

Hazırda çalışan hər hansı kadr ixtisas profilindən asılı olmayaraq, İKT-nin imkanlarından istifadə etməklə müxtəlif sahələrdə bilik səviyyələrini artırmalı, ixtisasları ilə bağlı olan dünya təcrübəsindən faydalanmaq və ondan istifadə etmək qabiliyyətinə malik olmalıdırlar. Dildə ifadə olunan fikrin qlobal obrazı sənədlərdə də dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır. Meydana gələn çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Məzmunun dil formasının sənədlərin dili ilə bu cür yaxınlaşdırılması ona görə asanlaşır ki, məlumatın müəyyən fraqmentinin qavranılmasında, həmçinin stereotiplər, yaxud sxemlər fəaliyyət göstərir.

Beləliklə, xəbər sənədin dili ilə ötürülür. Fikirlə söz arasında daha bir nitq - fikir prosesi vardır ki, bu da sənədlərin təsnifatı və onun özünün xüsusi növləri ilə bağlıdır.

Açar sözlər: strategiya, nitq, dil, kontekst, yazı

İşgüzar yazışmaların mümkün kommunikativ situasiyalarda uğurla işlədilmə tezliyi onların daha çox araşdırılması tələbini gündəm edir. Sözügedən məsələ bu baxımdan aktual görünür. Bu işdə intensiv araşdırmalar, müşahidələr məqsədəuyğun hesab edilir. Eyni zamanda statistik məlumatların təqdimatı da maraqlı hesab edilən

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 173-177

faktlardandır. İşgüzar yazışmalar zamanı ən başlıca funksiyalardan biri həmin dildə danışanların mədəniyyətini qəbul etmə bacarığına yiyələnməkdir. Bu proses ali bacarıqlar sırasına daxil olaraq təcrübə sahəsində deyil, yalnız insanın savadı, fərdi inkişaf səviyyəsi, özünə və dünyaya olan tənqidi münasibətdən asılıdır.

Beləliklə, istər sənədlərin dili ilə, istərsə də bu və ya digər formada ünsiyyətin ümdə vəzifəsi məlumatı ötürmək və ötürülən məlumatı başa düşməkdən ibarətdir ki, bu da əsasən sənədlər, yazışmalar vasitəsilə gerçəkləşir[1,s.21].

İnsanlar mürəkkəb dil fəaliyyətində iştirak edərək, bir-birlərini başa düşür və hətta səsli ünsiyyətin mahiyyətini açıb göstərmək istəyəndə səssiz ünsiyyəti də nəzərə alırlar[4, s.101].

Dil bizim hər birimizin həyatında istənilən sahədə mühüm rol oynayır. İnkişafımız, iqtisadiyyatımız, ailədə, cəmiyyətdə, siyasi, elmi və ümumiyyətlə gündəlik fəaliyyətimiz dillə bağlıdır. Oxuyuruq, yazırıq, zəng edirik, cavab veririk, görüş təyin edirik, əhvalat danışırıq, bütün bunlar, habelə alış-veriş, uzaq-yaxın, dostlar və qohumlarla əlaqələrimiz dillə mümkündür. Dil səsləndirilməlidir, səslə verilən məlumat eşidilməlidir və qavranılaraq dərk edilməlidir. Yalnız belə olduqda dil səriştəsi, dil bilikləri həyata keçir, yəni uğurlu ünsiyyət baş tutur. Dilin ünsiyyət vasitəsi olması onun sistemlilik keyfiyyətinə malik olmasından irəli gəlir. Bəzən isə səslənmə alınmayanda sənədlərin, yazılmış hərflərin dili ilə danışmaq məcburiyyətində qalırıq. Bu isə müxtəlif sahələrin, o cümlədən işgüzar yazışmaların inkişafını günün tələbinə çevirir. İşgüzar yazışmalarla bağlı elmi ədəbiyyatda bir çox müddəalar vardır. Belə ki, sözügedən məsələdə dil xüsusiyyətləri araşdırılarkən maraqlı faktlarla da qarşılaşırıq. Burada meyarlar tamamilə fərqli xarakterə malikdir. Xüsusilə, iştirakçıların davranışlarındakı fərqlərdə bu aydın nəzərə çarpır. Burada qarşı tərəflərin maraq və təklifləri xüsusi nəzərə alınır. Dil faktlarına ciddi şəkildə nəzarət tələb olunur.

Bu gün müasir təşkilatlarda işgüzar yazışmaların müxtəlif növlərindən istifadə olunur ki, onlardan ən çox istifadə olunanı məktublardır.

İşgüzar yazışmaların müasir təşkilatlarda istifadə olunan növlərindən olan məktublar yazılarkən müvafiq tələblərə cavab verməlidir[3, s.185]. Məlumatın ötürülməsini nəzərdə tutan bütün sənəd növləri, o cümlədən məktublar qeydiyyatdan keçməlidir. Məktublar yazılarkən kifayət qədər diqqətli olmaq tələb olunur. Belə ki, xırda bir səhv anlaşılmazlığa, münaqişələrə təkan verə bilər. İşgüzar məktubların dil xüsusiyyətlərindən bəhs edərkən reklam məktubları da maraq kəsb edir. Bu zaman üslub tərtibatı mühüm əhəmiyyət kəsb edir.

Reklam məktubunda adətən təklif olunan əmtəə və xidmətlər haqqında məlumat verildiyindən, o müəyyən sxem üzrə tərtib edilir:

1. Adresata müraciət.

Məsələn, “Hörmətli cənablar!”və yaxud “Hörmətli əməkdaşlar!”

Maraqlı burasıdır ki, reklam məktubunun tərtibində xitablar dil faktı kimi öndə gedir.

Yuxarıda qeyd etdiyimiz "Hörmətli cənablar!"və yaxud "Hörmətli əməkdaşlar!"

ifadələri buna misaldır.

2. Şirkətin qısa və lakonik təqdimatı.

3. Əmtəə və xidmətlərin meyarlarının qarşı tərəfə bildirilməsi

4.Əlavə və buna bağlı şərtlər barədə məlumat verilməsi

Daha sonra isə əməkdaşlığın konkret təsviri verilir.

Topdan və pərakəndə satış haqqında təkliflər bu sırada yer alır. Lazım olarsa mallardan bir nüsxənin qarşı tərəfə ötürülməsi də bu sıralamaya aiddir. Eyni zamanda suallara cavab üçün hazırlıqlı olmaq da vacib şərtlərdəndir. Gələcək əməkdaşlığa ümid bəsləmək və bunu ifadə etmək də işin faydalı tərəfi ola bilər. Daha sonra imzalar atılır.

Müasir təşkilatlarda istifadə olunan əsas sənəd növlərindən biri də ərizədir. Bu söz mənşəcə "ərz" sözündəndir.

Ərizə mahiyyət etibarilə iki formada yazılır:

1. Şikayət ərizəsi
2. Xahiş ərizəsi

Ərizə dedikdə, onun mahiyyətində vətəndaşın istəklərinin həyata keçirilməsi ilə bağlı məsələlər yer alır. Bura vətəndaşın arzu və istəklərinin həyata keçirilməsi, mənafeyinin qorunması və s. daxildir.

Bundan başqa, işə qəbulla bağlı ərizə, mənzil verilməsi ilə bağlı, təkliflər paketinin göndərilməsi və s. də bu sırada yer alır. Ərizə rəsmi dövlət dilində yazılmalı, düşünülmüş, lakonik, yığcam, anlaşıqlı yazılmalıdır.

Müraciət zamanı müəyyən alicənab, gözəl insan və s. kimi söz və ifadələrin işlədilməsinə yol verilmir. Tərcümeyi- halda xüsusi isimlər böyük hərflə işlədilir.

Bundan əlavə, tərcümeyi- hal yazılarkən uzun -uzadı söz və ifadələr, şəxsin emosional sferasının sənəddə təsviri yolverilməz hesab edilir.Sənədlərdə sözlər arasında bağlayıcı olan cümlələrə rast gəlinir.Bu bağlayıcılar işlənən zaman sadalama özünü göstərir. Bu zaman bağlayıcı aparıcı rol oynayır, məzmun bağlayıcının ümumi qrammatik - semantik məzmunundan asılı olur.

Hər iki dildə bitişdirmə, qarşılıq, bölüşdürmə bağlayıcıları, iştirak və inkar bildirən bu növ bağlayıcılardan birinin iştirak etdiyi cümlələrdə, sadalama intonasiyası öz əhəmiyyətini itirir.

Onu da qeyd etmək lazımdır ki, tərcümeyi- hal yazılarkən xronoloji tarixin ardıcıllığını qorumaq vacib şərtlərdəndir. Burada əsasən saylar aparıcı rol oynayır. Belə ki, sıra sayları diqqət mərkəzində olur[2, s.189].

Bu gün müasir təşkilatlarda işgüzar yazışmalardan ən çox istifadə olunanları xasiyyətnamə və arayışlardır.

"Xasiyyətnamə" ərəb mənşəli söz olub, "xasiyyət və namə" sözlərini özündə birləşdirir.

Xasiyyətnamə aid olduğu müəssisənin rəhbəri və Həmkarlar Təşkilatının sədri tərəfindən imzalanır. İri təşkilatlarda xasiyyətnaməni şöbə müdirləri yazırlar. Digər geniş yayılmış sənəd nümunəsi arayışlardır."Arayış" sözü mənşə etibarilə türk sözü olub,"axtarmaq" mənasını verir.

-Arayışlar şəxsin bu və ya digər yerdə yaşaması, oxuması, işləməsi, hər hansı mülkə sahib olması və s. haqqında hüquqi sənəddir.

- Arayış verilərkən kimə, nə üçün verildiyi göstərilməlidir.

Eyni zamanda işlədiyi müəssisənin rəhbərinin imzası olmalıdır. Burada bəzi istisna halları da vardır. Belə ki, arayışları müəssisənin kadrlar şöbəsinin müdiri, mühasibatlıq, fakültə dekanları və s. imzalaya bilər. Sonda sənədin gedəcəyi ünvan qeyd edilir. Lakin möhür sənədin təsdiqi üçün vacib hesab edilir.

Əksər hallarda arayışlar xüsusi nəzərdə tutulmuş blankda yazılır.

"Arayış" sözünü yazarkən onun mövqeyi vərəqin orta hissəsi olmalıdır.

Təşkilati -sərəncamverici sənədlər hüquqi qüvvə daşıyan sənədlərdir. Bu sənədlər normativ hüquqi aktların əsas hissələrindən birini təşkil edir.

İşgüzar yazışmalardan bəhs edərkən sənədlərin yazılışında xətaların olmaması məsələsi vacib amildir. Bu işdə kiçik xətalar böyük problemlərlə nəticələnir.

Anlaşılmazlıq ciddi tərəfdaşlıq pozulmaları ilə nəticələnir. Bu hətta daha böyük səviyyələrdə də özünü göstərir.

Beləliklə, müasir təşkilatlarda istifadə olunan sənədlər günün tələbinə uyğun olmalı, standartlara cavab verməlidir.

Ədəbiyyat

1. Tannen, D. Oral and Literate Strategies in Spoken and Written Narrative, Language // 58, 1999, pp. 11-21.
2. Ullman S. Language and meaning. London: Word, 1996, Vol.2 №2, 190 p.
3. Widdowson H.G. Exploration in Applied Linguistics. London: Oxford University Press, 1979, 187 p.
4. Weinreich Uriel. On Semantics. University of Pennsylvania Press, 1980, 116 p.

Aysel Ibrahimova

The linguistic characteristics of business correspondence in modern English

Summary

The article deals with the linguistic characteristics of business correspondence. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. Phonological awareness is essential for learning to read and write.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.173-177

It was measured by, for instance, the following items of the initial test: finding rhyme words, in the general section of the test, and building words out of sounds and segmenting words into syllables, in the auditory section of the test. The success in tasks that require phonemic awareness is considered the most important prerequisite for learning to read. In the auditory section of the initial test for instance, the identification of the first or last phoneme in a word, and the phoneme synthesis task. Many times, your material will dictate the pattern you use; but, unless the pattern is suited to your purpose and audience, do not hesitate to try another one. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex.

Key words : strategy, speech, language, context, correspondence

Айсель Ибрагимова

Лингвистические характеристики деловых писем на современном английском языке

Резюме

Основной движущей силой, основным мотивом, лежащим в основе всего процесса обучения иностранному языку и его изучения, несомненно, является интерес, любознательность со стороны изучающих язык. Для того, чтобы система обучения тому или иному иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми , а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения.

Ключевые слова: стратегия, речь, язык, контекст, письмо

. **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
, **Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyyə olunmuşdur.**

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 178-182

https://doi.org/10.62837/2025.4.178

YEGANƏ MİRZƏYEVA
BDU
Akad. Zahid Xəlilov küç., 23
e-mail: ayxanmir088@gmail.com

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ MƏZMUN ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏ YOLLARI

XÜLASƏ

Xarici dil vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə tələbələr özlərinin peşə sahələri ilə bağlı dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, rəvan, axıcı, səlis nitqə malik olmaları ilə seçilməlidirlər. Bu zaman zəngin və yerində işlədilmiş leksik biliklərin mənimsənilməsi vacib şərtə çevrilir.

Müasir təhsilalanlar İKT-nin yeniliklərindən nəinki xəbərdar olmalıdır, eyni zamanda öz gündəlik həyatında və təhsilində onlardan geniş istifadə etməlidir. Dünya təcrübəsində ali təhsil müəssisələrinin qüdrəti onun malik olduğu müasir kitabxanalar, müxtəlif laboratoriyalar, yenilənmiş informasiya bazası və ən əsası, ən son yeniliklərin tətbiqi ilə ölçülür. Son zamanlar xarici dilin tədrisi metodologiyası çox sürətlə inkişaf etdiyindən, təhsildə müasir texnologiyalara olan tələbat artır, təhsil modelləri, tədris prosesinin iştirakçılarının rolları tədricən dəyişir. Bu gün innovativ metodlarla mobil təhsil imkanı yaradan yeni vasitələr meydana çıxmaqdadır. İnformasiya texnologiyasının sürətlə inkişaf edən tarixi və bu aspektdə dilöyrənmə hal-hazırda özünün fəal dövrünü yaşamaqdadır.

İnsan sosial varlıq olaraq digərləri ilə cəmiyyətdə kommunikasiya yaradır. Bu zaman dil insan tərəfindən qavranılır, mənimsənilir. Məhz ünsiyyət bir proses kimi bizim əldə etdiyimiz biliklərin, təcrübənin ötürülməsini realizə edir. Belə ünsiyyət şifahi və ya yazılı formada nitq vasitəsilə təzahür edib insanın lüğət fondunu, yəni leksikonunu inkişaf etdirir, zənginləşdirir.

Açar sözlər: sərişte, motivasiya, dil, nitq, interferensiya

Məzmun əsaslı dil tədrisi də müasir yanaşmalar içərisində ən vacib olanlardan biri hesab edilir. Bu elə bir tədris yanaşmasıdır ki, bu zaman dilöyrənənlər dili mənalı məzmunlara fokuslanaraq maraqlı kontekstlərdə öyrənirlər. Onlar özlərini müxtəlif mənalı və maraqlı real həyati situasiyalarda sınayırlar. Bu yanaşmadan istifadə tədrisdə tələbənin uğurunun artmasına vəsilə olur, onun kamilliyini artırır, pedaqoji və texnoloji innovasiyaları zəruriləşdirir. Yazı, oxu, eşitmə və nitq bacarıqlarının inkişaf etdirilməsində məzmun əsaslı dil tədrisinin rolu əvəzolunmazdır.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.178-182

Eyni zamanda, qeyd etdiyimiz kimi, yeni metod və yanaşmaların auditoriyaya inteqrasiyası vacib şərtdir. Universitetlərdə innovativ layihələrin həyata keçirilməsi təhsilin keyfiyyətini yüksəldə, universitetlərin beynəlxalq təhsil məkanına inteqrasiyası prosesini sürətləndirə və ölkənin elm-təhsil imicini yüksəldə bilər.

Bu mənada yeni, texnoloji, innovasiya cəmiyyətində, qlobal rəqabət şəraitində fəaliyyətə, inkişafa hazırlanmalıyıq[1,s.136]. Məzmun əsaslı dil tədrisi motivasiyanı yüksəldir. Motivasiya mexanizminin avtomatlaşması dilöyrənənlərin fəaliyyətini artırır, onların yaradıcı və tənqidi təfəkküründü inkişaf etdirir və müstəqil işləmək bacarıqlarına yiyələndirir. Bu zaman müəllimin rolu çox böyükdür. Müəllimin əsas fəaliyyəti yönəldici xarakter daşımalı və bəzi vəziyyətlərdə isə o köməkçi rolunda çıxış etməlidir.

Motivasiyaedici mühit müəllim və təhsilalanların münasibətləri, onların əməkdaşlığı üçün müəllim və tələbə qrupu arasında səmərəli ünsiyyət yaradılmasını şərtləndirir. Lakin özünün bütün üstünlükləri ilə yanaşı bu heç də həmişə asan başa gəlmir. Bu müəllimdən böyük zəhmət, səbr tələb edir. Çünki əvvəlcə müəllimin həyata keçirmək istədiyi dilöyrənənlərə bir qədər maraqsız görünə bilər, ancaq zaman keçdikcə onlar bunun dərinliklərini anlayır, bacarıqlara əsl mənada yiyələnirlər. Buna görə də müəllim motivasiyanın formalaşdırılması yollarını özü üçün aydınlaşdırmalı, ondan istifadə edəcəyini müəyyən edərək fəaliyyətə başlamalıdır.

Müasir dövrdə təhsildə motivasiyanın yaradılmasında da bu cür dil tədrisi mühüm rol oynayır və tədrisi daha səmərəli, maraqlı etməyə vasitəçi olur. Bütün qeyd edilən vasitələrdən istifadə müəllimdən yüksək qabiliyyətlər tələb edir və bununla yanaşı motivasiyalı dilöyrənənlərin maksimum fəallığına nail olmağa imkan yaradır. Bütün bu yeniliklər əksər hallarda motivasiya mənbəyi olaraq qiymətləndirilir. Digər tərəfdən yanaşsaq, innovativ tədris metodlarına vərdiş etmiş motivasiyalı tələbələrlə işləmək müəllim üçün daha asan olur, çünki bu zaman hər bir müəllimə xas olan xüsusiyyətlər burada öz əksini tapır. Müxtəlif innovasiyaların, o cümlədən sözügedən dil təliminin meydana gəlmə səbəbi ilk növbədə tədris edilən ayrı-ayrı fənlərin məqsədlərinin dəyişikliklərə uğraması nəticəsində yaranmışdır. Motivasiyanın yaradılması zamanı interaktiv təlim metodundan istifadə tələbələri nəinki yeni biliklərlə zənginləşdirir, həmçinin onlarda düşünmə qabiliyyətini və müstəqil bilik əldə etmək, mənimsəmək bacarıqlarını formalaşdırır. İnteraktiv təlim metodu ilə təşkil olunan dərslər dilöyrənənlər üçün xarici dilin praktik cəhətdən öyrədilməsinə şərait yaradır, onların kommunikativ bacarıqlarını formalaşdırır və idrak fəaliyyətini fəallaşdırır.

Bu gün nitq vərdişlərinin inkişaf etdirilməsi məsələsi deyil, daha çox kommunikativ sərişləyə yiyələnmək zərurəti meydana çıxır. Bu mənada təlimdə məzmun əsaslı dil tədrisinin rolu olduqca böyükdür. Bütün bunlar tələbələrin ünsiyyət qurmağı öyrənməsi üçün təqdim edilməlidir: başqalarını dinləmə bacarığı,

ünsiyyətə qoşulmaq, verilən kontekstdə mənanın müzakirəsi. Bu təlim üsulu keyfiyyətli bilik və bacarığa yiyələnməyə xidmət etməklə yanaşı, təhsilalanlarda təfəkkürün inkişafına şərait yaratmalıdır. İnteraktiv təlimdə bu cür təfəkkür- idraki proseslərin inkişafına müxtəlif qrupdaxili işlər, qruplarda müxtəlif fəaliyyət layihələrinin hazırlanması, problemlərin fərdi və qrup şəklində həlli vasitəsilə nail olunur. Bu üsul tələbələri müstəqil düşünməyə, qərarlar qəbul etməyə və tədqiqata istiqamətləndirir. Dərsin səmərəli təşkili yalnız o zaman mümkün olur ki, bütün təhsilalanlar fəaldırlar və onlar həqiqətən nəsə öyrənə bilirlər. Dərsdə passiv dilöyrənənlər olduqda interaktiv təlimin zəngin vasitələrindən olan intensiv sual-cavaba, rollu oyunlara, cütlüklərlə və ya qrup şəklində işlərə müraciət etməklə onları fəal iştiraka ruhlandırmaq lazımdır.

Xarici dildə bacarıqların formalaşdırılmasının məqsədi tamamilə aydındır. Belə ki, insanlar əsasən məlumat əldə etmək istəyirlər. Mətn üzərində işin təşkilinin ilkin mərhələsində əsas məqsəd ən elementar səviyyədə vərdişlərin aşılanmasıdır. Xarici dildə əsas məsələlərdən biri mətn seçimidir. Bu zaman mətn materialları müəyyən prinsiplərə əsaslanaraq seçilməlidir. Xarici dildə mətn materiallarının seçimini şərtləndirən əsas prinsiplərdən biri onların təhsilalanlar üçün məzmunun maraqlı olması, dinləyicilərin ehtiyac və tələbatlarını nəzərə almaqla seçilməsi, dilöyrənənlərin yaş, intellektual bilik səviyyələrinə uyğun olmasıdır. Mətnlər üzərində işin səmərəli təşkili məqsədilə istifadə edilən mətnlər motivasiyanın yaradılmasına xidmət etməli, onları ingilis dilini öyrənməyə həvəsləndirməlidir [2,s.59]. Burada istifadə edilən mətnlər autentik olmalı, onlar dilöyrənənlərin leksik və qrammatik potensialını zənginləşdirmək imkanları baxımından əhəmiyyət kəsb etməlidir.Təqdim edilən mətn materiallarındakı məzmun müxtəlif xarakterli, rəngarəng olmalı, dildaşıyıcılarının mədəniyyəti, təfəkkürü, onların yaşadıqları cəmiyyətdə qəbul edilmiş müxtəlif ünsiyyət tərzləri haqqında dilöyrənənləri məlumatlandırmalıdır. Belə ki, təhsilalanlar hekayə, roman, qəzet, jurnal məqaləsi, elan, reklam, poemaları dinləyib, onları adekvat şəkildə qavramağı, dildaşıyıcılarının istifadə etdiyi nitq modellərindən adekvat şəkildə istifadə etmək, və onların əsasında özlərinin mətnlərini yaratmaq bacarığına yiyələnməlidirlər.

Məzmun əsaslı dil tədrisi kimi yanaşmalardan istifadə fəal təlim üsulunu zənginləşdirən elementlərdəndir[2,s.58]. İnteraktiv təlim ənənəvi təlim metodlarından tamamilə fərqli yollarla həyata keçirilir. İnteraktiv təlimdə müəllimin rolu köməkçi və bələdçi, şagird və tələbənin rolu isə fəal tədqiqatçı və iştirakçı kimi dəyişir. Məzmun əsaslı təlim metodlarının istifadəsi zamanı müəllim tələbələrin səmərəli ünsiyyəti və qarşılıqlı əlaqəsi üçün bütün lazımi şəraiti yaradır. Əsas rol dilöyrənənlərə verilir. Təlim prosesinin psixoloji mühitini müsbətə doğru dəyişmək üçün tələbələrin problemin həllinə yönəldilmiş istənilən cəhdi və ya fikri yüksək qiymətləndirilərək, ciddi və hörmətlə qarşılanır. İnteraktiv təlimdən istifadə zamanı dilöyrənənlərə hörmətlə yanaşmaq, onlara etibar etmək, onların cavablarını

qiymətləndirmək həm özünə inam, həm də müəllimə hörmət və etibar hissini daha da artırır [3, s.45].

Məzmun əsaslı dil tədrisi ingilis dilini dil daşıyıcıları tərəfindən istifadə edilən şəkildə dili mənimsəməyə imkan verir ki, nəticədə, xarici dili öyrənən tələbələr auditoriya mühitini real dünya mühitinə asanlıqla və uğurla inteqrasiya edə bilirlər. Bu cür həqiqi kommunikasiya tələbələrə kommunikativ səriştəyə yiyələnməyə köməklik göstərir. Tələbələrin kommunikativ bacarıqları onları mənalı, həyata keçirilə bilən, bədii əsərləri oxuma prosesinə cəlb etməklə inkişaf etdirilməlidir. Bədii əsərlərlə tanışlıq tələbələrdə məmnunluq, razılıq, əminlik hissi yaradır, niyyətlərinin kommunikativ həyata keçirilməsi üçün öyrənilən xarici dildən düzgün və adekvat şəkildə istifadə etmək bacarıq və arzusunun inkişaf etdirilməsini əsas kimi irəli sürür. Burada üstünlük anlama, danışıq, fikir və ideya mübadiləsinə verildiyi halda qrammatik, struktur və leksik vahidlər bu məqsədə nail olmaq üçün öyrənilir.

Kommunikativ kompetensiyanın inkişafını nəzərdə tutan amillərdən biri də qeyd etdiyimiz kimi, məhz məzmun əsaslı dil tədrisidir.

Məlum oldıığu kimi, məzmun əsaslı dil tədrisində bacarıqların mənumsənməsi əhəmiyyətli rola malikdir. Xarici dilin tədrisi prosesində, həm də şifahi nitqin öyrədilməsi zamanı tələbələrdə maraq və motivasiyanın yaradılmasında bir vasitə ola bilər. Belə ki, bu və ya digər bədii mətnlərdə olan informasiyanın müzakirə edilməsi danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün mühüm stimul yarada bilər. Bədii əsərlərə söykənərək müzakirə xarakterli çalışma və tapşırıqların kəmiyyəti və keyfiyyəti tədrisin mərhələlərinə uyğun müəyyən edilməlidir.

Beləliklə, müxtəlif kommunikativ tapşırıqları yerinə yetirmək üçün dilöyrənənlər kommunikativ fəaliyyət növlərinə cəlb edilməli və kommunikativ strategiyalardan istifadə etməlidirlər. Bu zaman istifadə edilən tapşırıq və çalışmalardan danışarkən, onların hansı fəaliyyət növlərinə cəlb edilməsinin məqsədəuyğun olduğunu müəyyənləşdirməklə səmərəli nəticələrin əldə edilməsini təmin etmək mümkündür.

Ədəbiyyat

1. Шубин Э.П. Языковая коммуникация и обучение иностранным языкам. М.: Просвещение, 2002, 232 с.
2. Щерба Л. В. О трояком аспекте языковых явлений .-Известия АН СССР, 1931,№ 1.
3. Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 178-182

Yegana Mirzayeva

The ways of using content based language teaching in English at high schools

Summary

Written language is lexically richer than spoken language and it can, therefore, provide more learning opportunities than a spoken context. Consequently, a student who is an eager reader encounters more words than a student who reads less. In addition, regular reading is likely to lead to more efficient access of word meanings. A student who reads also outside school has many opportunities to acquire and improve vocabulary knowledge through inference from context. World knowledge comes from experience and from previously read texts. Skilful comprehenders use discourse knowledge to connect text elements in a consistent fashion and to connect the content to the messages of the writer. Discourse knowledge includes for instance, the structure of different genres, the main messages the author intends to convey, and the topic structure. Linguistic knowledge includes oral language capacities – production and comprehension – and the ability to reflect one's knowledge of language. Skilful reading requires knowledge of all linguistic levels – phonology, morphology, syntax, and higher level discourse structures. In addition, comprehension often involves integrating non-print information.

Key words: competence, motivation, language, speech, interference

ЕГАНА МИРЗАЕВА

ПУТИ УПОТРЕБЛЕНИЯ ОСНОВАННЫЙ НА СОДЕРЖАНИИ В АНГЛИЙСКОМ ЯЗЫКЕ НА ВЫСШИХ ВУЗАХ

РЕЗЮМЕ

Для того, чтобы сделать процесс обучения речевой коммуникации на языке специальности более эффективным, преподаватель должен содействовать созданию обстановки, когда и обучающий, и обучаемые чувствуют себя достаточно комфортно, в том или ином академическом контексте, понимают цель речевого общения, и осведомлены о способах достижения этой цели с помощью использования ранее усвоенных лексических единиц, грамматических структур, интонационных моделей и речевых образцов. Знание потребностей студентов и целей, в которых они изучают тот или иной иностранный язык, позволяет специалистам в области преподавания иностранных языков, а также практикующим учителям языков разрабатывать наиболее эффективные методы их достижения.

Ключевые слова: компетенция, мотивация, язык, речь, интерференция

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Nuriyyə Əliyeva tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.183-190

https://doi.org/10.62837/2025.4.183

FLORA OSMANOVA
Bakı şəhəri, V. Mirzəliyev adına 281 saylı tam orta məktəbin
Azərbaycan dili və ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru

ƏDƏBİYYYAT DƏRSLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRİN DİL XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏDİLMƏSİ İMKANLARI

Açar sözlər: bədii dil, ədəbiyyat, dərs, əsər, kurikulum, şagird, inkişaf, yazıçı
Ключевые слова: художественный язык, литература, урок, работа, учебная программа, ученик, развитие, писатель
Key words: artistic language, literature, lesson, work, curriculum, student, development, writer.

Xülasə

Ədəbiyyat dərslərində bədii əsərlərin dilinin öyrənilməsi şagirdlərə mətndə dil hadisələrinin estetik dəyərini dərk etmək, sənətkarın yaradıcılığın bədii dünyasına müstəqil daxil olmaq bacarığının aşılanmasına şərait yaradır. Bədii əsərin sənətkarlıq xüsusiyyətlərinin təhlili zamanı şagirdlər ana dilinin heyrətamiz ifadəliliyinin sirlərini dərk edir, ədibin yaradıcılıq manerası haqqında dolğun təsəvvürə yiyələnirlər.

Hazırda məktəb təcrübəsinin öyrənilməsi göstərir ki, bir sıra hallarda dil dərslərində onun ən mühüm cəhəti - bədii əsərlərdə çox aydın və dolğun şəkildə təzahür edən estetik funksiyası diqqətdən kənarda qalır. Bir sıra müxtəlif növ qrammatik təhlillərin, qaydaların, testləşdirilmiş tapşırıqların üstünlük təşkil etdiyi dərslərdə şagirdlər ana dilinin zənginliyini və gözəlliyini görmürlər.

FLORA OSMANOVA

Opportunities for teaching the linguistic features of literary texts in literature classes"

Summary

Studying the language of works of art in literature lessons allows students to understand the aesthetic value of linguistic phenomena in the text, to instill in the artist the ability to independently enter the artistic world of creativity. During the analysis of the artistic features of a work of art, students comprehend the secrets of the amazing expressiveness of their native language and get a complete picture of the writer's creative manner.

Currently, the study of school experience shows that in a number of cases, its most important aspect is ignored in language lessons - the aesthetic function, which is very vividly and fully manifested in works of art. Students do not see the richness

and beauty of their native language in lessons where many different types of grammatical analysis, rules and tested tasks prevail.

Аннотация

Изучение языка художественных произведений на уроках литературы позволяет учащимся понять эстетическую ценность языковых явлений в тексте, привить умение художника самостоятельно входить в художественный мир творчества. В ходе анализа художественных особенностей художественного произведения учащиеся постигают тайны удивительной выразительности родного языка и получают полное представление о творческой манере писателя.

В настоящее время изучение школьного опыта показывает, что в ряде случаев на уроках языка игнорируется важнейший ее аспект - эстетическая функция, которая очень ярко и полно проявляется в художественных произведениях. Ученики не видят богатства и красоты родного языка на уроках, где преобладает множество различных видов грамматического анализа, правил и проверяемых заданий.

Müasir ədəbiyyat dərslərində poetika və bədii əsərlərin dili məsələlərinin öyrənilməsi Azərbaycan dili və ədəbiyyat fənlərinin inteqrasiyasını aktual metodik problem kimi ön plana çıxarır. Ədəbiyyat fənn kurikulumunda bədii əsərlərin dilinin öyrənilməsi diqqət mərkəzində saxlanılmışdır: "Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin şifahi və yazılı nitqi tədricən cilalanır. Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir. Ədəbiyyat dərslərində nitq inkişafı üzrə aparılan işlər məktəblilərdə bədii sözə həssas münasibətin yaradılmasına, sözün, fikrin məna incəliklərini duymaq, ifadə etmək bacarığının formalaşdırılmasına imkan yaradır ". [1]

Ədəbiyyat fənn kurikulumunda ümumi orta təhsil səviyyəsində şagirdlərin dil, üslubla bağlı aşağıdakı təlim nəticələrini əldə edilməsi tələbi qoyulmuşdur:

- əsəri ifadəli oxuyur;
- mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətinin izah edir;
- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir; orfoqrafiya və orfoepiya qaydalarına əməl edir;
- söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqi ifadə edir.

Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.183-190

- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;

Ədəbiyyat fənn kurikulumunda ümumi orta təhsil pilləsində hər üç məzmun xətti - ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq və yazılı nitq üzrə iş söz sənətinin mahiyyətinin başa düşülməsinə, eləcə də insan həyatında, cəmiyyətdə müşahidə edilən mühüm hadisələrin dərk edilib dəyərləndirilməsinə səbəb olur.

Söz sənəti olmaqla ədəbiyyatın incəliklərinin, obrazların, bədii təsvir və ifadə vasitələrinin mənimsənilməsi müxtəlif ədəbi növdə və janrda olan əsərlərin mütaliəsinə maraq oyadır, mətnin ifadəli oxusu ilə bağlı bacarıqları inkişaf etdirir, şifahi və yazılı nitq üçün zəruri olan lüğət ehtiyatını zənginləşdirir. Şifahi nitq məzmun xətti ədəbi nümunələrlə bağlı fikirlərin obrazlı sözlərdən, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə aydın, ardıcıl, məqsədyönlü və yığcam ifadə edilməsinə imkan yaradır.

Tam orta təhsil pilləsində ədəbiyyat və həyat həqiqətləri məzmun xətti ədəbiyyat nümunələrinin öyrənilməsi, müxtəlif informasiya mənbələrindən seçilmiş materialların mövzu, ideya, dil və üslub xüsusiyyətləri baxımından dəyərləndirilməsinə imkan yaradır. Şifahi nitq məzmun xətti ədəbi əsərlərin məzmun və ideyası ilə bağlı fakt və hadisələrə əsaslandırılmış münasibət bildirilməsini, bədii-obrazlı ifadələrdən istifadə olunmasını təmin edir, müxtəlif mənbələrdən toplanmış materiallara əsaslanmaqla müzakirələrdə ədəbi nailiyyətlərə müstəqil münasibət bildirilməsinə imkan yaradır. Yazılı nitq məzmun xətti müxtəlif üslublarda yazıların yazılmasını, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə təqdimatların hazırlanmasını təmin edir.[1]

Göründüyü kimi, ədəbi əsərlərin dilini öyrənilməsi şagirdlərdə yüksək kommunikativ, dil, linqvistik, ədəbi, estetik və əxlaqi bacarıqların inkişafı, Azərbaycan milli özünüdərkinin və mənəvi dəyərlərin formalaşdırılması vəzifəsi ilə şərtlənir.

Dil ədəbiyyatın "ilkin elementi" və onun "əsas alətidir". Ədəbiyyatda söz rəsmdə rənglər, musiqidə səslər, rəqsdə hərəkətlər kimi eyni rol oynayır, lakin digər sənətlərin istifadə etdiyi maddi materiallardan fərqli olaraq, özünəməxsus xüsusiyyətlərə malikdir və ədəbiyyatı xüsusi, "ən yüksək" sənət növünə çevirir.

İnsan dilinin əsas xüsusiyyəti onun düşüncə və ünsiyyət vasitəsi olmasıdır. Dil bəşəriyyətin düşüncə tərzini, həyat təcrübəsini özündə cəmləşdirir; sözlə reallığın bütün hadisələrinə münasibətini ifadə edir.

Sözün idrak-qiymətləndirici gücü bədii əsərlərdə özünü parlaq şəkildə göstərir. Yazıçı sözdən istifadə edərək bizi əhatə edən dünyanın rənglərinin bütün zənginliyini göstərməyə və öz düşüncələrini, hisslərini, reallığın müxtəlif hadisələrinə münasibətini ifadə etməyə çalışır.

Bədii sözün təsir gücü necə əldə edilir? Yazıçı əsərlərini yaradarkən xalqının dilinə xas olan bütün təsvir və ifadə imkanlarından istifadə edir. Bu, həyatın obrazlı təsviri

üsulu kimi sənətin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. Əsərdə canlı insan obrazı, təbiət mənzərəsi yaratmaq, insanın ruh halını ifadə etmək üçün sənətkar bədii sözdən istifadə etməlidir.

Bədii ədəbiyyatın dili üçün zəruri olan əsas keyfiyyətlərindən biri də dəqiqlikdir. Bədii təsvir üçün təkcə obrazlılıq kifayət deyil, yazıçı ifadələrində həm də dəqiq olmalıdır.

Metodist alim Dursun Məmmədov bu problemlə bağlı yazır ki, bədii əsərlərin dil və üslubunun öyrənilməsi baxımından məktəbdə aşağıdakı məsələlərə diqqət yetirilməlidir:

1. Yazıçının dil haqqında fikirlərinin öyrənilməsi;
2. Ədibin öz əsərlərinin dili üzərində necə işləməsi haqqında məlumat verilməsi:
3. Sənətkarın proqram və dərslikdə olan konkret əsərinin dil və üslubunun öyrənilməsi;
4. Şagirdlərə bədii əsərlərin dil və üslubunu öyrətməklə Azərbaycan dilinin zənginliyinin, əzəmət və qüdrətinin başa salınması və doğma dilə hədsiz məhəbbət hissi tərbiyə edilməsi;
5. Bədii əsərlərin ideya-məzmununun, sənətkarlıq xüsusiyyətlərinin başa düşülməsində bədii dil və üslubdan istifadə edilməsi;
6. Bədii dilin öyrənilməsinin şagirdlərin estetik zövqünün formalaşmasına və bədii inkişafına təsiri;
7. Bədii dil haqqında şagirdlərdə düzgün anlayışın yaradılması.[2, s.51]

Göründüyü kimi, məktəbdə ayrı-ayrı yazıçıların dili və üslubu öyrənilərkən burada müəyyən bir sistem və qanunauyğunluğun gözlənilməsi lazımdır. Bu baxımdan bədii əsərə yanaşmada aşağıdakı cəhətlər də nəzərə alınmalıdır:

a) Sənətkarın ifadə etmək istədiyi fikir;
b) Bu fikir üçün yaratdığı bədii ifadə vasitələri (məcaz, təşbeh, epitet, peyzaj, lövhə və detallarda, üslubda yenilik, konkretlik);
c) İfadə etmək istədiyi fikir üçün işlətdiyi sözlərin sintaktik ahəngi (uyuşması). Bu üç xüsusiyyət bədii təhlil zamanı əsas götürülməlidir

Bilal Muradov qeyd edir ki, orta məktəbdə ədəbi əsərlərin dilinin yaxud bədii dilin öyrənilməsinə aşağıdakı cəhətləri daxil edə bilərik:

1. Yazıçının hansı dil mənbələrində istifadə etməsi (ümumxalq dili, şifahi ədəbiyyat, yazılı ədəbiyyat, əcnəbi söz və ifadələr və s.).
2. Çətin söz və ifadələrin izahı (buraya həm lüğəvi mənası anlaşılmayan, həm də sözaltı mənası çətin başa düşülən söz və ifadələr daxildir).
3. Dili bədiiləşdirən qaydaların izahı.
4. Dünyagörüşündən, yaradıcılıq metodundan və fərdi üslubundan asılı olaraq, yazıçının dildən necə istifadə etməsi.
5. Ayrı-ayrı janrlardan, növlərdən asılı olaraq əsərin dil xüsusiyyətlərinin izahı.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.183-190

Sinfin səviyyəsindən, dərsdə qarşıya qoyulan məqsəddən asılı olaraq, bu cəhətlərdən bəzisi ön plana çəkilib qabarıq şəkildə izah oluna bilər."[3, s.102]

S.Vurğunun "Vaqif" dramında dialoq Vaqiflə Qacar arasında ziddiyyətləri aşkar etmək üçün mühüm vasitədir. Dialoqun quruluşu, ritmi və funksiyası, eləcə də qarşıdurma motivli diqqəti cəlb edir. Dialoq hər iki obrazın münasibətlərindəki gərginliyin, barışmazlığın bədii ifadəsidir.

QACAR – (Vaqifə) – Şair, hökmdarın hüzurundasan.
VAQİF – Bunu sizsiz belə düşünürəm mən.
QACAR – Bəs baş əymədiniz?
VAQİF – Əymədim, bəli!
Əyilməz vicdanın böyük heykəli...
QACAR – Qılınclar toqquşub iş görən zaman
Neylər dediyiniz quru bir vicdan?
VAQİF – Vicdan dedikləri bir həqiqətdir –
Beşiyi, yuvası əbədiyyətdir...
QACAR – Bəs zindan necədir, qaranlıq zindan?
VAQİF – Soyuq məzara da zinətdir insan...

Göründüyü kimi, əsərdən verilən nümunədə dildən daha dərin semantik yükləri çatdırmaq üçün istifadə edilmiş, dialoq personajların daxili vəziyyətinin əksinin bədii ifadəsinə xidmət etmişdir. Nitqin simvolik xarakteri qarşıdurma anlayışının təhlili üçün mühüm elementə çevrilir.

Bədii əsərdə yazıçı sənətkarlığının mühüm bir nümunəsi də monoloqlardan məqsədyönlü istifadədir. Epik və ya lirik xarakterli, hərəkəti bir müddət yarımçıq qoyan və tamaşaçını düşünməyə sövq edən keçid kimi monoloq qədim dramaturgiyada meydana çıxmışdır. Dramın əsas məzmunu monoloqun üzə çıxarmaq məqsədi daşıdığı personajların emosional hərəkəti idi. Monoloqun xarakterik xüsusiyyətləri:

- Təsirli söz həcmi: yalnız böyük nitq monoloq adlanır.
- İdeoloji məzmun: monoloq aktual ideyaları ehtiva edir, qəhrəman və əsər üçün vacib olan suallar doğurur.
- Emosional gərginlik: çox vaxt monoloq qəhrəmanın pafoslu nitqi, onun emosional təcrübələrinin əksidir.
- Monoloqu çatdıran qəhrəmanın nitq, təfəkkür, mentalitet və həyat dəyərlərinin xüsusiyyətlərinin əks olunması.

Monoloq, qəhrəmanın nitqi olmaqla, sanki əsas hərəkəti dayandırır, oxucunun və ya tamaşaçının diqqətini monoloqda qaldırılan problemlərə yönəldir. V.Şekspir dünya dramaturgiyasının ən məşhur monoloqlarından biri olan "Olum, ya ölüm..." vasitəsilə çətin seçim qarşısında duran baş qəhrəmanın şübhələrini əks etdirmişdir.

Hüseyn Cavidin "İblis" faciəsində İblisin monoloqunda böyük faciələrə səbəb olan müharibələr, var-dövlət, sərvət hərisliyi iblisə uyan səltənət başçılarının, şər xislətli insanların bəd əməli kimi səciyyələndirilir:

İblis!.. O böyük ad nə qədər calibi-heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.
Hər qülbədə, kaşanədə, viranədə İblis!
Həp Kəbədə, bütxanədə, meyxanədə İblis!
Hər kəs bəni dinlər, fəqət eylər yenə nifrət,
Hər kəs bana aciz qul ikən, bəslər ədavət.
Lakin bəni təhqir edən, ey əbləhü miskin!
Olduqca müsəllət sana, bil, nəfsi-ləimin,
Pəncəmdə dəmadəm əzilib qıvrılacaqsın,
Daim ayaq altında sönüb məhv olacaqsın.
Bənsiz də, əmin ol, sizə rəhbərlik edən var:
Qan püskürən, atəş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəklər,
Altın və qadın düşkünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
Onlar, əvət onlar sizi çignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi...
Bən tərk edərim sizləri əlan nəmə lazim!
Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.
İblis nədir?
– Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir?
– İblis...

Məlumdur ki, bədii əsərdə qəhrəmanın şifahi obrazı olmadan oxucuda onun haqqında dolğun təsəvvür yaratmaq mümkün deyil. Sənətkar bunu əsərdə bədii portretin köməyi ilə müəllif edə bilər. Bədii portret aşağıdakı məqsədlərə xidmət edir:

- personajın müsbət və ya mənfi keyfiyyətlərini oxucuya göstərmək;
- qəhrəmanın sosial və maddi vəziyyətini nümayiş etdirmək;
- insanın dünyagörüşünü təsvir etmək;
- qəhrəmanın ziddiyyətli təbiəti varsa, onun daxili konfliktini açmaq;
- personajın digər insanlarla konfliktini nümayiş etdirmək, onların arasındakı ziddiyyətə diqqət yetirmək;
- qəhrəmanın daxili təcrübələrini, qorxularını çatdırmaq, arzu və istəklərini göstərmək;
- mənfi xarakterə rəğbət və ya ikrah hissini ifadə etmək;
- əsər boyu qəhrəmanın necə və niyə yaxşıya və ya pisə doğru dəyişdiyini göstərmək.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.183-190

Nizaminin "Xosrov və Şirin " poemasının qəhrəmanı Şirin həm mənəviyyatca, həm də zahirən gözəldir. Əsərdə Şirinin əsil-nəcabəti, şəxsiyyətindən söz açan şair öz qəhrəmanına qüdrətli rəssam gözü ilə baxmış, onun gözəlliyini, hüsn-camalını epitet və təşbehlərlə vəsf etmişdir:

Sanki bir pəridir, pəri yox, bir ay,
Qəhrəman bir qızdır, başda kəlağay...
...Üzü nəzrin kimi, qoxusu nəsrin,
Dodağı Şirindir, adı da Şirin.
...Sinəsi, qolları büllur kimi tər,
Saçları müşktək ruhu məsr edər.

Bədii ədəbiyyatda qəhrəmanın psixoloji portretinin təsviri mühüm əhəmiyyət kəsb edir. Psixoloji portret sadəcə qəhrəmanın zahiri görünüşünün təsviri deyil, onun daxili aləminin xarici xüsusiyyətlərdən istifadə edərək təsviridir. Bu zaman psixoloji xüsusiyyətlər göz qabağındadır, çünki xarici məlumatlar və qəhrəmanın daxili dünyası tamamilə əlaqəlidir.

C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində katdalıqdan silah kimi istifadə edən, kef-damaq, var-dövlət həsrəti ilə yaşayan, kəndlilərə zülm edən Xudayar bəyin bədii portreti onun şər xisləti barədə dolğun təsəvvür yaradır: "Xudayar bəyin ancaq otuz yeddi, otuz səkkiz sinni olar; artıq olmaz, bəlkə, əskik ola. Boyu ucadı, çox ucadı. Bunun ucalığından ötrü keçən vaxtda Xudayar bəyə bir ayama deyərdilər. Amma mən söz verdim ki, onun keçəcəyindən danışmayım. Qorxuram yalançı olam. Bəli, boyu ucadı, saqqalı, qaşları tünd qaradı. Üzü də qaradı, çox qaradı. Gözləri lap qaradı, bir tikə ağ yoxdu gözlərində. Belə ki, bəzi vaxt Xudayar bəy papağını basır gözünün önünə: papaq qara, gözlər qara, üz qara. Papağın altdan gözlər belə işarır ki, adamın canına vahimə ötürür. Pəs deyəsən ki, çim altından qurbağa baxır.

Bunlar hamısı ötər. Xudayar bəyin bir böyük qüsuru var. Burnu əyridi; əyridi, amma pis əyridi. Əyri də var, əyri var. Mən çox gözəllər görmüşəm ki, burunları əyridi, amma Xudayar bəyin burnu pis əyridi. Burnunun yuxarı tərəfindən bir sümük dikəlib. Sümük düzdü, amma aşağısının əti xoruz pipiyi kimi düşüb sol yana. Bilmirəm, anadanolmadı, ya sonra olubdu. Amma çox pis burundu, vəssəlam. Xudayar bəyə göyçək kişi demək olmaz".

Yazıçı əsərdə Xudayar bəyin şəhvət və var -dövlət toplamaq naminə hər cür bəd əməllərə əl atmasının, bədii portretinin təsviri ilə dövrün ictimai problemlərini, cəmiyyətin ümumi mənzərəsini, dərdlərini qabarıq şəkildə əks etdirmişdir.

Əsərdə bədii xüsusiyyətlər həmişə müəllif şərhləri ilə müşayiət olunmur. Bəzən yazıçı oxucunun təsvir olunan personaj haqqında öz nəticə çıxarmasına üstünlük verir. Odur ki ədəbiyyat dərslərində portretə xüsusi diqqət yetirmək lazımdır.

Bədii əsərlərin dilinin öyrənildiyi dərslər əsl Azərbaycan dilinin, mənəvi dəyərlərinin, mədəniyyətinin təbliğinə çevrilməlidir. Bu baxımdan ədəbiyyat dərslərində şagirdlərin aşağıdakı məsələlər üzrə tədqiqata cəlb edilməsi zəruridir:

1. Dil vahidlərinin, leksik, fonetik, sözyaratma, dilin qrammatik vasitələrindən istifadə qanunauyğunluqlarının, mətn formalarının müxtəlifliyinin öyrənilməsi;

2. Əsərin linqvistik strukturunun öyrənilməsi əsasında mətndəki fikirlərin ideya-bədii mənası üzərində müstəqil işləmək bacarıqlarının inkişafı, dilin təhlili zəminində obraz, süjet, kompozisiya, ideya ilə bağlı məsələlərin aydınlaşdırılması;

3. Məzmun və formanın bütün komponentlərinin qarşılıqlı əlaqədə dərk edilməsi və əsərin söz sənəti hadisəsi kimi dərk edilməsi; ana dilinə yaradıcı yanaşma, yazıçıların yaradıcılıq özünəməxsusluğunu qiymətləndirmək, öz nitqinə diqqətli və həssas olmaq, fikir və hisslərinə müvafiq ifadə tərzi tapmaq, öz mətnlərini yaratmaq bacarığı aşılanması.

Yazıçı sənətkarlığının , əsərdə dilin bədii təsvir və ifadə vasitələrinin rolunu, obrazlı və bədii nitq yaratmağın "sirlərinin" öyrənilməsi ədəbiyyat təliminin mühüm problemlərindəndir. Ədəbiyyat dərslərində yazıçı sənətkarlığı haqqında söhbət dildən başlamalıdır. Məhz müəllifin şifahi təsvir, ifadə sənətkarlığı diqqət mərkəzində olmalıdır, çünki ədəbi obrazların yaradılması ona əsaslanır və ondan asılıdır.

Ədəbiyyat təlimi prosesində bədii əsərlərin dilinin öyrənilməsi şagirdlərə bədii mətndə dil hadisələrinin estetik dəyərini dərk etmək, sənətkarın yaradıcılığın bədii dünyasına müstəqil daxil olmaq bacarığının aşılanmasına şərait yaradır. Bədii əsərin sənətkarlıq xüsusiyyətlərinin təhlili zamanı şagirdlər ana dilinin heyrətamiz ifadəliliyinin sirlərini dərk edir, ədibin yaradıcılıq manevrası haqqında dolğun təsəvvürə yiyələnirlər.

Ədəbiyyat

1.Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). https://www.arti.edu.az/noduplоad/editor/files/2%20%C6%8Fd%C9%99biyyat-kurikulum.pdf

2.Məmmədov D. Ədəbi əsərlərin sənətkarlıq xüsusiyyətlərinin öyrədilməsi metodikası. Bakı:Maarif, 1977.120 s.

3.Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi.Bakı: Maarif, 1992. 202 s.

4.Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016. 450 s.

, . **Redaksiyaya daxil olma tarixi: 19.05.2025**
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent Həsənli , Əməkdar müəllim Bilal tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.191-195

https://doi.org/10.62837/2025.4.191

Prof. MƏMMƏDOVA ZEMFIRA ŞAHNƏZƏR QIZI
zmemmedova@amu.edu.az
fil.ü.f.d. MƏMMƏDOVA AYGÜN ŞAHNƏZƏR QIZI
SƏFIXANOVA AFƏT HACIXAN QIZI
sefayesadiqova@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ FRAZEOLOGİZMLƏRİN SEMANTİK TƏSNİFATI

Xülasə

Məqalədə Azərbaycan dilində frazeologizmlərin semantik qruplaşdırılması məsələsi elmi aspektdən təhlil olunur. Frazeoloji vahidlərin semantik təsnifi onların məna çalarlarına, məzmun, struktur və funksional xüsusiyyətləri əsasında aparılır. Əsas diqqət frazeoloji vahidlərin ifadə etdiyi mənaların müxtəlifliyinə, konkret semantik sahələrə aid olunmasına və bu sahələrin dilin üslubi zənginliyinə təsirinə yönəldilmişdir. Tədqiqatda frazeologizmlər insanın daxili psixoloji vəziyyəti, əqli və fiziki fəaliyyəti, əmək fəaliyyəti, təbiət hadisələri, heyvanlar aləmi və digər semantik sahələrə görə qruplaşdırılır. Hər bir semantik qrupun spesifik xüsusiyyətləri nümunələr əsasında izah olunur. Tədqiqat nəticəsində məlum olur ki, Azərbaycan dilində frazeoloji vahidlər yalnız dilin ifadə imkanlarını zənginləşdirmir, eyni zamanda xalqın dünyagörüşünü, həyat tərzini və mədəni dəyərlərini də əks etdirir. Araşdırma göstərir ki, frazeologizmlər yalnız bədii-estetik ifadə vasitəsi deyil, həm də ictimai-mədəni təcrübənin daşıyıcısıdır. Məqalə nəticə etibarilə Azərbaycan dilinin frazeoloji sisteminin semantik baxımdan dərinləşdirilmiş şəkildə öyrənilməsinə, sistemli tədqiqinə töhfə verməklə yanaşı, onların tədris və tərcümə proseslərində istifadəsi və tətbiqi üçün də nəzəri və praktiki əhəmiyyət daşıyır.

Açar sözlər: Azərbaycan dili, frazeologizmlər, semantik təsnifat, struktur.

Hər bir dil yalnız ünsiyyət vasitəsi deyil, həm də bir millətin mədəni yaddaşı, düşüncə tərzi və dünyagörüşünün daşıyıcısıdır. Bu baxımdan frazeologizmlər dilin leksik sistemində xüsusi yer tutur. Frazeologizmlər bir xalqın dünyagörüşünü, tarixi-mədəni təcrübəsini, həyat tərzini və emosional-estetik münasibətini ifadə edən sabit ifadə vahidləridir.

Azərbaycan dili zəngin frazeoloji sistemə malik olan qədim və inkişaf etmiş dillərdən biridir. Azərbaycan dilində frazeologizmlər həm struktur baxımından, həm də semantik cəhətdən zəngin və rəngarəngdir. Onlar dilin bədii-estetik imkanlarını genişləndirir, nitqə obrazlılıq və ifadəlilik qazandırır. N.Bağırov yazır ki, hər bir xalq və ya milli birlik özünəməxsus spesifik frazeoloji vahidlər fonduna malikdir. Bu frazeoloji fond həmin xalqın milli düşüncə tərzini, yaşam xüsusiyyətlərinin müəyyən

cəhətlərini, tarixin süzgəcindən süzülüb keçən adət və ənənəsinin, mərasimlərinin bəzi izlərini, ictimai-siyasi və fəlsəfi görüşlərini, dünya baxışlarını, davranış qaydalarını özündə əks etdirdiyi üçün doğma səslənir [2, s.7]

Frazeologizmlərin semantik xüsusiyyətləri onların mənaca bütöv olması və ifadə etdiyi məna ilə komponentlərinin ümumi mənası arasında uyğunsuzluğun olması ilə seçilir. Bu xüsusiyyətlər frazeologizmlərin semantik baxımdan sistemli şəkildə təsnifini aktuallaşdırır. Məqalədə Azərbaycan dilində frazeoloji vahidlərin semantik qruplar üzrə sistemləşdirilməsi və bu sistemləşmənin nəzəri əsasları araşdırılır.

Frazeologizmlər ənənəvi olaraq iki və ya daha çox söz birləşməsindən ibarət olub, bütövlükdə sabit mənaya malik olur və komponentlərinin ayrı-ayrılıqda mənası ümumi mənanı tam əks etdirmir. Məsələn, *ağzı qaşıq tutmamaq*, *gözünə kül üfürmək, dili-ağzı açılmamaq*, *göz ağartması vermək* kimi ifadələrdə sözlər birgə işlənərək fərqli, obrazlı mənalar yaradır. Frazeologizmlərin əsas xüsusiyyətlərinə daxildir: a) sintaktik və leksik sabitlik; b) obrazlılıq; c) məna bütövlüyü: frazeologizmlər komponentlərin cəmi ilə deyil, bütöv olaraq ayrı-ayrı mənaya malik olur. L.Məsimova frazeoloji birləşmələrin xüsusiyyətlərinə aid edir: komponentləri sırasına arxaizmlər də daxil ola bilər; bu tip birləşmələri sintaktik cəhətdən parçalamaq mümkün deyildir; onların komponentlərinin yerlərini dəyişdirmək əksər hallarda qeyri-mümkündür;bu birləşmələrin tərkibinə söz daxil ola bilmir;Frazeoloji birləşmələrin tərkibindəki sözlər öz leksik mənalarını itirərək onların komponentlərinə çevrilir və ümumi bir mənanı ifadə edir [5].

Frazeologiya dilçiliyin müstəqil sahəsi kimi XX əsrin ortalarından etibarən intensiv şəkildə inkişaf etmişdir. Bu sahə sabit söz birləşmələrinin – frazeoloji vahidlərin leksik-semantik, sintaktik, stilistik və funksional xüsusiyyətlərini öyrənir. Frazeologizmlərin əsas əlamətləri sabitlik, bütövlük və daşıdıqları mənanın komponentlərinin məna məcmusuna uyğun gəlməməsidir. Frazeoloji vahidlər dildə obrazlılıq və emosionallıq funksiyasını yerinə yetirir və bu cəhətdən də bədii üslubda geniş istifadə olunur.

Azərbaycan dilçiliyində M.Hüseynzadə, H.Bayramov, H.Həsənov, A.Qurbanov, N. Seyidəliyev və başqaları frazeologiyanın nəzəri əsaslarının formalaşmasında mühüm rol oynamışdırlar.

Azərbaycan dilində frazeologizmlərin semantik təsnifatı onların ifadə etdiyi məna istiqamətlərinə əsasən aparılır. Frazeoloji vahidlərin semantik qrupları aşağıdakılardır:

a) Emosional vəziyyəti bildirən frazeologizmlər – Bu qrup frazeologizmlər insanın hiss və emosiyalarını – sevinc, qəzəb, qorxu, təəccüb və s. ifadə edir. Məsələn, *ürəyindən tikan çıxmaq* – yüngülləşmək; *dili-ağzı qurumaq* – qorxmaq; *ağzı qulağında olmaq* – sevinmək, *dünya dar gəlmək* – darıxmaq, *canına qorxu*

düşmək – vahimələnmək; *gözləri dolmaq* – kövrəlmək, ağlamaq dərəcəsinə çatmaq və s.

b) Zehni və iradi vəziyyətə aid frazeologizmlər – Bu qrupda insanın düşüncə, niyyət və qərarları ilə bağlı olan ifadələr yer alır. Məsələn, *baş sındırmaq* – düşünmək; *gözündə böyütmək* – şişirtmək; *qərar vermək* – qərarlaşdırmaq

c) Fiziki hərəkət və vəziyyətə aid frazeologizmlər – İnsanın fiziki durumu və ya hərəkətləri ilə bağlı ifadələr: *əli-ayağı soyumaq* – yorulmaq; *ayaq tutmaq* – sağalmaq; *dili topuq çalmaq* – tez-tez və mənasız danışmaq və s.

ç) Əxlaqi və mənəvi dəyərlərlə bağlı frazeologizmlər – Bu ifadələr cəmiyyətin mənəvi normalarını və insan münasibətlərini əks etdirir: *günaha batmaq* – pis iş görmək; *üzünə tüpürmək* – təhqir etmək; *qəlbi qırılmaq* – incimək; *halal süd əmmək* – dürüst olmaq və s.

d) İş və fəaliyyətə dair frazeologizmlər – insanın fəaliyyətini və əmək prosesini ifadə edir. Məsələn, *qol çırpmaq* – ciddi işləmək; *qazanc dalınca düşmək* – çalışmaq; *əli iş görmək* – bacarıqlı olmaq və s.

e) Münasibət bildirən frazeologizmlər – insanlararası münasibətləri və sosial əlaqələri əks etdirən ifadələrdir: *kürəyini çevirmək* – münasibəti kəsmək; *gözünün ucuyla baxmaq* – sayğısız yanaşmaq; *dost əli uzatmaq* – dostluq etmək; *dil tapmaq* – anlaşmaq; *könlünü almaq* – könlünü xoş etmək, barışdırmaq və s.

ə) Təbiət və heyvanlar aləmi ilə bağlı frazeologizmlər – Azərbaycan dilində təbiət hadisələri və heyvanlar aləmi ilə əlaqədar çoxsaylı frazeologizmlər mövcuddur. Bunlar həm real müşahidələrə, həm də mifoloji və inanc motivlərinə əsaslanır. Məsələn, *qurd kimi ac olmaq* – çox ac olmaq; *dəvə yükü qədər* – çox miqdarda; *ildırım kimi gəlib keçmək* – sürətlə keçib getmək, bayquş yuvası – xarabalıq; *canavar ağzı bağlamaq* – itən ev heyvanlarını qurd yeməsin deyə müəyyən ayin icra etmək [4, s.399]. Frazeologizmlər xalqın ətraf mühitlə bağlı düşüncə tərzini və həyat müşahidələrini əks etdirir.

f) Bədii və ədəbi mənşəli frazeologizmlər – Azərbaycan klassik və xalq ədəbiyyatında yaranmış, zamanla sabit ifadəyə çevrilmiş bir sıra frazeologizmlər də vardır: *bülbül kimi oxumaq* – gözəl və ahəngdar danışmaq; *qələm dostu olmaq* – yazıçı olmaq və ya yazıçı ilə yaxın olmaq; *qara yazı* – taleyin ağır olması və s. Bu frazeologizmlər həm mənbə baxımından ədəbi xarakter daşıyır, həm də müasir nitqdə işlənmə tezliyinə görə aktiv qrup sayılır.

g) Məkan bildirən frazeologizmlər – Bu frazeologizmlər hər hansı bir hadisənin və ya vəziyyətin yerləşdiyi məkan, məkanla bağlı istiqamət, uzaqlıq-yaxınlıq, hərəkət trayektoriyası ilə bağlı mənaları ifadə edir. Məsələn, *göyə çıxmaq, yuxarıdan aşağı baxmaq, yerdən yerə vurmaq, dünyanın o başı* və s.

h) Passivlik, fəaliyyətsizlik bildirən frazeologizmlər – Bu sabit söz birləşmələr insanın hərəkətsizliyi, iradəsizliyi, tənbəlliyini ifadə edir. Məsələn, *əli yanına*

düşmək, əli-qolu bağlı qalmaq, barmağını tərpətməmək, gözünü döymək, qulağının dibindən keçmək, oturduğu yerdə oturmaq və s.

x) Adət-ənənə ilə bağlı frazeologizmlər – Xalqın əsrlər boyu formalaşmış sosial davranış qaydaları, mənəvi dəyərləri və mədəni xüsusiyyətlərini əks etdirən sabit ifadələrdir. Bu frazeologizmlər nəsildən-nəslə ötürülən milli dəyərlərin, ailə münasibətlərinin, qonaqpərvərlik, hörmət, təvazökarlıq kimi anlayışların dilə gətirilməsində mühüm rol oynayır. Məsələn, *qapı-qapı gəzmək* – ailə məqsədilə vasitəçilik etmək; *üzük kəsmək* – nişanlanmaq, *baş bağlamaq* – evlənmək, subaylığa son vermək, *böyüyün qabağında danışmamaq* – tərbiyə və hörmət qaydası.

Bu təsnifat frazeologizmlərin semantik müxtəlifliyini və onların insan təfəkküründə necə yer tutduğunu göstərir.

Frazeologizmlər sabit məna daşısalar da, müəyyən kontekstlərdə onlar yeni semantik çalarlar qazana bilər. Bu transformasiya prosesinə metaforik dəyişiklik, ironiya, sarkazm və ya üslubi çalarla yanaşmalar səbəb ola bilər. Məsələn, *baş sındırmaq* ifadəsi həm çətinlik çəkmək, həm də ciddi-cəhdlə çalışmaq mənasında; dil-dil ötmək frazeoloji vahidi həm gözəl danışmaq, həm də bir nəfəsə danışmaq mənasında işlənə bilər. Kontekst frazeologizmin semantik qavrayışını müəyyənləşdirən əsas amildir.

R.Ağayeva yazır: "Frazeologizmin daxili formasını, mənanı transformasiya edən konnotasiyanı aşkara çıxarmaq, şübhəsiz, mühüm əhəmiyyət kəsb edir. İfadə səviyyəsində məna kombinasiyaları artımının izahı da konnotasiya vasitəsilə əldə olunur" [1, s.12]. Predmetin söz və ya frazeoloji vahidlə ifadə olunan, amma birbaşa adlandırılmayan xassəsi ilə bağlı olan məzmun və ya xarakteroloji konnotasiya tipi, həmin predmetə münasibətdə milli-mədəni spesifikadan irəli gəlir. Məsələn, *aslan* sözü bir çox xalqlarda *cəsarətli, güclü, qorxmaz* rəmzinə: *aslan ürəkli* – qorxmayan, mərd adam; *aslan kimi döyüşmək* – cəsarətlə, qəhrəmancasına mübarizə aparmaq; *dəvə* – dözümlü, amma inadkar rəmzinə çevrilmişdir: *dəvə kimi dözmək* – çox səbirlə əzab çəkmək; *dəvə inadkarlığı* – yerindən tərpənməyən, dirənişli.

Frazeologizmlər sintaktik quruluş baxımından feili birləşmə – *dilini dişləmək, əl üstündə gəzdirmək, huşu başından çıxmaq, iman gətirmək, canına yel keçməmiş, cikini-bikini bilən, bəxti ayaq üstə olmaq*; ismi birləşmə – *aslan ürəyi, gözünün didəsi, əl yeri, dönük üz, ağ gün sorağı, dar gündə*; cümlə tipli frazeoloji ifadələr *elə bil üstündən dağ götürüldü; dili də var, dilçəyi də; cibində siçanlar oynayır* və s. kimi təsnif olunur.

Qeyd edək ki, dildə bir sözdən ibarət frazeoloji vahidlərə Ə.Dəmirçizadə *dayı* (arxa, kömək), *tülkü* (hiyləgər), *dəm* (kefli) nümunələrini göstərir [3, s.172]. Lakin dilçilikdə bu fikrə qarşı çıxanlar da var. J.Quzeyev qeyd edir ki, tək-tək sözlərin frazeoloji vahidlərin tərkibinə daxil edilməsi frazeologiya anlayışının mahiyyətinə ziddir, çünki frazeoloji vahid ən azı iki komponentli olmalıdır [6, s.46].

Nəticə. Azərbaycan dilində frazeologizmlər semantik baxımdan sistemli şəkildə təsnif oluna biləcək zəngin bir qat təşkil edir. Hər bir semantik qrup xalqın həyat tərzini, psixologiyasını, əxlaq və düşüncə sistemini əks etdirən bir dil qatını təşkil edir. Bu baxımdan frazeoloji sistemin semantik aspektdən tədqiqi, dilin milli-mənəvi və bədii-estetik imkanlarının dərindən anlaşılmasında mühüm rol oynayır. Frazeologizmlər yalnız üslubi və emosional çalar daşımır, eyni zamanda xalqın mənəvi dünyasının, düşüncə sisteminin güzgüsü kimi çıxış edir. Onların semantik qruplara bölünməsi həm dilçilik, həm də tədris və lüğətçilik üçün praktik əhəmiyyət daşıyır.

Ədəbiyyat

1.Ağayeva R. Frazeologizmlərin formalaşmasında ekstralinqvistik amillərin rolu. Fil.ü.f.d. dissert. avtoreferatı. Bakı, 2016, 28 s.

2.Bağırov N. Türk dillərinin somatik frazeologiyası. Fil.ü.f.d. diss... avtoreferatı. Bakı, 2024, 28 s.

3.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962.

4.Seyidəliyev N., Əhmədov B. Azərbaycan dilinin böyük frazeoloji lüğəti. I cild. Bakı, 2024.

5.Məsimova L. Frazeologizmlərin mahiyyəti.
https://tehsiljurnali.az/mektebmuellim/1458-frazeologizmlrin-mahiyyti.html

6.Гузеев, Ж.М. Тюркская фразеология и ее лексикографическая разработка // Советская тюркология, –1984, №6, –с. 46.

СЕМАНТИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ ФРАЗЕОЛОГИЗМОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Резюме

В статье анализируется вопрос семантической группировки фразеологизмов в азербайджанском языке с научной точки зрения. Семантическая классификация фразеологических единиц основывается на оттенках их значения, содержании, структурных и функциональных характеристиках. Основное внимание уделяется многообразию значений, выражаемых фразеологизмами, их принадлежности к определенным семантическим полям и влиянию этих полей на стилистическое богатство языка. В исследовании фразеологизмы сгруппированы по внутреннему психологическому состоянию человека, умственной и физической активности, трудовой деятельности, явлениям природы, животному миру и другим семантическим направлениям. На примерах поясняются особенности каждой семантической группы. Исследование показывает, что фразеологические

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 229-234

единицы В азербайджанском языке не только обогащают выразительные возможности языка, но и отражают мировоззрение, образ жизни и культурные ценности народа. Исследования показывают, что фразеологизмы являются не только средством художественно-эстетического выражения, но и носителем социокультурного опыта. В конечном итоге статья не только вносит вклад в глубокое изучение и систематическое исследование фразеологической системы азербайджанского языка с семантической точки зрения, но и имеет теоретическое и практическое значение для их использования и применения в учебном и переводческом процессах.

Ключевые слова: Азербайджанский язык, фразеологизмы, семантическая классификация, структура.

SEFAYA SADIQOVA

SEMANTIC CLASSIFICATION OF PHRASEOLOGICAL UNITS IN THE AZERBAIJANI LANGUAGE

Abstract

The article analyzes the issue of semantic grouping of phraseological units in the Azerbaijani language from a scientific point of view. Semantic classification of phraseological units is based on the shades of their meaning, content, structural and functional characteristics. The main attention is paid to the diversity of meanings expressed by phraseological units, their belonging to certain semantic fields and the influence of these fields on the stylistic richness of the language. In the study, phraseological units are grouped according to the internal psychological state of a person, mental and physical activity, labor activity, natural phenomena, wildlife and other semantic areas. The features of each semantic group are explained using examples. The study shows that phraseological units in the Azerbaijani language not only enrich the expressive possibilities of the language, but also reflect the worldview, lifestyle and cultural values of the people. Studies show that phraseological units are not only a means of artistic and aesthetic expression, but also a carrier of socio-cultural experience. Ultimately, the article not only contributes to the deep study and systematic research of the phraseological system of the Azerbaijani language from a semantic point of view, but also has theoretical and practical significance for their use and application in the educational and translation processes.

Keywords: Azerbaijani language, phraseological units, semantic classification, structure.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi fil.ü.f.d., dosent Sima Quliyeva
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.235-240

https://doi.org/10.62837/2025.4.235

MƏTANƏT NƏRİMAN QIZI MAHMUDOVA
Gəncə Dövlət Universiteti Publik Hüquqi Şəxs, f.ü.f.d.,baş müəllim
metanet.mahmudova.76@mail.ru
ORCID iD:0009-0001-0632-8248

FRAZEOLOJİ VAHİDLƏRDƏ SÖZ SIRASININ POZULMASININ ÜSLUBİ FUNKSİYASI

Açar sözlər: frazeologizm, inversiya, ibarə, idiom, atalar sözləri,üslub
Key words: phraseologism, inversion, expression, idiom, proverb, style
Ключевые слова: фразеология, инверсия, выражение, идиома, пословица, стиль

Frazeologizmlər zəngin üslubi keyfiyyətə malikdir. Bu vahidlərin əsas üslubi vəzifəsi insan psixologiyasının, davranışlarının, ümumilikdə, həyatın keyfiyyətcə qiymətləndirilməsi ilə bağlıdır. Frazeologizmlərdə obrazlılıq söz sırasında da özünü göstərir. Frazeologizmlərdə sözlərin həm adi düzülüşünə, həm də söz sırasının dəyişilməsi hallarına rast gəlinir. Bu vahidlərdə söz sırasının üslubi imkanlarından danışılarkən söz sırasının pozulmasının yaratdığı üslubi rəng nəzərdə tutulur. Sözlərin həm normal düşülüşünə və həm də inversiyaya aid misalları nəzərdən keçirək:

İdiomlarda: *can deyib can eşitmək, çənəsi boş dayanmamaq (durmamaq), aş qoyan yerə baş qoymaq, dediyi sözün üstündə durmaq, acığından zəncir çeynəmək (gəmirmək), ağlını başından çıxarmaq, babasının qiymətini üstünə qoymaq, dünya başına dar olmaq* və s. Verilən nümunələrdə sözlərin sırasının qrammatik normaya uyğunluğunu müşahidə edirik və sərbəst söz birləşmələrindən və cümlələrdən fərqli olaraq normal düzülüş obrazlılığıa təsir göstərmir.

Nitqdə idiomlarda söz sırası tez-tez pozulur. Xüsusilə, belə frazeoloji birləşmələri əmr intonasiyası ilə dedikdə feilə diqqət çəkmək və məna ağırlığını ona yükləmək kimi üslubi məqsədlə feilin əvvələ gətirilməsi baş verir, məsələn: *açıl başımdan, tökmə zəhləmi, dağıtma ailəmi, qaraltma qanımı* və s.

İbarələrdə: *Yaxşı yol; Sağlıqla qalın; Uğur olsun; Xoşbəxt olun; İşiniz avand olsun; Allah sənə yar olsun; Min bir budaq olun; Gözünüz aydın olsun; Yolunuz uğurlu olsun; Bayramınız mübarək; Yeni dərs iliniz mübarək* və s. Bəzən belə ibarələrə ellipsis müşahidə olunur ki, bunu söz sırasının pozulması götürmək yanlış olardı. *Yaxşı yol, Bu günə min şükür, Bayramınız mübarək* kimi ibarələrdə xəbərin ellipsisə uğraması digər üzvlərin ibarə sonunda gəlməsi kimi səhv təsəvvür yarada bilər. Lakin ibarənin sonunda *olsun* köməkçi feilinin ixtisarı aydın görünür ki, bu da intensiv işlənmənin bir təzahürüdür.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 235-240

Atalar sözlərində: Frazeologiyanın bir qolu olan atalar sözlərinin də əksəriyyətində söz sırası ədəbi dilin qrammatik normasına uyğundur**:** *Bir dəli quyuya bir daş atdı, on ağıllı gəldi, çıxara bilmədi; Sözü at, yiyəsi götürər; Sözün doğrusunu zarafatla deyərlər və s*. Bəzilərində isə sonda xəbər yox, digər nitq hissələri gəlir: *El gücü –sel gücü; Söz sözü çəkər, arşın bezi* və s. Bu birləşmələrin bəzilərində sonda tamamlığın, zərfliyin, mübtədanın olduğu güman edilə bilər, lakin bəzi atalar sözlərində yaranan yanlış mənzərə ellipsisin təzahürüdür və asanlıqla bərpa olunur: *El gücü –sel gücüdür; Sağlığında kor Fatma deyirdilər, öləndə badam gözlüm oldu; Söz sözü çəkər, arşın bezi çəkər* və s. Ellipsisin yaranmasına, yəni ixtisara səbəb həmin atalar sözünün intensiv işlənməsinin nəticəsidir. Digər bir məqamı izah etmək üçün bir neçə frazeologizmi nəzərdən keçirək: *Analı qızın işi görünər, anasız qızın dişi; Atı atası ilə tanıdarlar, qatırı anası ilə; Qız evlərdə tanınar, ipək dəzgahda; Yaxşı igid dayısına çəkər, xanım qız bibisinə; Alt dodağı yer süpürür, üst dodağı göy* və s. Bu frazeologizmlərdə ilk baxışda inversiya müşahidə olunur, ancaq bu çatışmazlıq inversiya yox, xəbərin təkrarından qaçmaq və lakoniklik yaratmaq kimi üslubi məqsədə xidmət edir. Bu frazeoloji birləşmələri birinci cümlədəki feillə bərpa etmək mümkündür: *Analı qızın işi görünər, anasız qızın dişi (görünər), Atı atası ilə tanıdarlar , qızı anası ilə (tanıdarlar), Qız evlərdə tanınar , ipək dəzgahda (tanınar), Yaxşı igid dayısına çəkər, yaxşı qız bibisinə (çəkər), Alt dodağı yer süpürür, üst dodağı göy (süpürür).*

İnversiya nida cümlələrində xüsusi keyfiyyətə malikdir. Ədəbi dildə bu qrupa daxil olan cümlələr ən çox şüarlarda, müəyyən çağırışlarda işlənir. Buna misal olaraq xəbərin mübtəda ilə yerdəyişməsini göstərmək olar. Cümlənin əvvəlində işlənən xəbər məntiqi vurğunun altına düşür, diqqət daha çox hərəkətə cəlb olunur, ifadəlilik daha da artır, qüvvətlənir, nitq güclü emosional rəng alır. Bu halda cümlənin qalan üzvləri xəbərə nisbətən aşağı vurğuya malik olur. Xəbərin mübtəda ilə bu cür yerdəyişməsinə, xüsusilə tərkibində *Yaşasın, rədd olsun, məhv olsun* sözləri iştirak edən şüarlarda rast gəlmək olur: *Yaşasın Azərbaycanın qəhrəman oğulları* . Frazeoloji birləşmələrdə də bu cür yerdəyişmə eyni məqsədə xidmət edir, yəni burada məqsəd məna yükünü xəbərə verməkdən ibarətdir: *Çevir tati, vur tati; Düzəlmişdi hər yaraği, qalmişdi saqqal darağı* və s.

Bədii ədəbiyyatda sözlərin sırası bu və ya digər dərəcədə yazıçının fərdi üslubi ilə bağlıdır. Məsələn, C. Məmmədquluzadənin hekayələrinin dili söz sırasına görə başqa sənətkarların dilindən fərqlənir. Onun dilində sözlər bir qayda olaraq danışıq dilinə uyğun sıralanır. C.Məmmədquluzadənin müəllif dilindəki sözlər sırası, obrazların dilindəki sıradan fərqlənmir. Onun əsərlərindəki söz sırası dəyişdiyi kimi, frazeoloji birləşmələr də xalq dilinə uyğun olaraq dəyişmişdir:"*Gördüm ki, hərif istəyir qoya qaça. Vallah, hirs vurdu təpəmə, ikiəlli yapıdım kafirin çiynindən, bunu üzü üstə elə gətirdim yerə ki, heybətdən ağzı qanadı. Sonra nəçəlnik divanxanasından saldatlar tökülüb məni döyə-döyə aparıb atdılar dama. Sənin qədəmlərinə belə mən*

qurban olum. Sən olmasaydın, məni indi çoxdan göndərmişdilər Sibirə" [1, s.305]. Burada söz sırası etibarı ilə düzgün qurulmayan cümlələr, frazeoloji birləşmələr vardır. *Hirs vurdu təpəmə, üzü üstə gətirdim yerə, qədəmlərinə belə mən qurban olum* birləşmələrində həm inversiya, həm də frazeoloji tərkibin dəyişməsi müşahidə olunur. Bu cür ifadə tərzi ədəbi dilimizin müəyyən dövrü üçün xarakterikdir.Onun hekayələrinin dili heç də başdan-ayağa belə cümlələrdən ibarət deyildir. Bu hekayələrdə ədəbi dil normasına uyğun, dilin təbiətindən doğan söz sırası da mövcuddur.

Söz sırası personajların tipikləşdirilməsində, surətlərin keçirdiyi əhval-ruhiyyənin açılmasında da mühüm rol oynayır. Bir qayda olaraq sürətin dili onun mənsub olduğu zümrə ilə, savadlı, dünyagörüşü ilə bağlıdır. Bu cəhətlər müəyyən dərəcədə sözlərin sırası ilə ifadə edilir. Bədii əsərlərdə surətin dilində danışıq dilinə məxsus söz sırsı özünü göstərir. Belə ki, danışıq dilində sözlərin sırası sərbəstdir. Danışıqda sözlərin sırası mimika, intonasiya, məntiqi vurğu ilə müşayiət edilir və cümlənin xüsusi vurğu-məntiqi vurğu ilə deyilən üzvləri ön plana çəkilir.

Danışıq dilində əvvəlcədən hazırlanmış mətn olmur. Danışan, hadisələr yada düşdükcə onların adını çəkir. Belə bir söz sırası surətin dilini sünilikdən uzaqlaşdırır, orijinala yaxınlaşdırır, onun nitqini fərdiləşdirir. Bədii ədəbiyyatda surətlər ən çox danışıq dilinə məxsus söz sırası ilə danışırlar: *Bu sözləri deyib Xudayar bəy qazinin evindən çıxıb üz qoydu getməkliyə; Köpək oğlu köpək! Hara aparırsan eşşəyi* [1, s.324].

S.Rəhimovun " Məhtaban" əsərində surətə aid olan cümlələrə fikir verək: *Adı nə olmalıdır butifilin?, Axı Məhəmmədin nəyinə gərəkmiş Məhtaban kimi başı bəlalı qız?!* [5, s.346]. Söz sırası sırf danışıq dilinə məxsusdur. Birinci sırada söz birləşmələrinin tərəfləri bir-birindən ayrı düşmüşdür. Birləşmənin ikinci komponenti birincidən əvvəl gəlmişdir: *Bu tifilin adı nə olmalıdır* əvəzinə, *adı nə olmalıdır bu tifilin* işlənmişdir. İkincidə isə *Məhtaban kimi başı bəlalı qız Məhəmmədin nəyinə gərəkmiş* əvəzinə, *axı Məhəmmədin nəyinə gərəkmiş Məhtaban kimi başı bəlalı qız,* işlənmişdir.

Surətlərin dilində cümlə üzvlərinin yerdəyişməsinin aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1.Tamamlıq bütün üzvlərdən sonra gəlir:

"Afərin bunu doğan Anaya; Keçmə kəndin bu gözəl adət-ənənələrindən

2.Zərfliklər (əsasən yer zərfliyi) cümlənin başqa üzvlərindən sonra gəlir: *Dur, şələ-küləni yığışdır, rədd ol buradan! Yolun altı ilə gəlibsən, üstü ilə də qayıt xarabana* [6, s. 45].

3.Təyin və təyinolunanın yerdəyişməsi**:** *acı dil - dili acı (Dili acı satıcıdan müştərilər narazı qalırlar), boş beyin –beyni boş (Bu beyni boş müdir bu qədər adama necə rəhbərlik eəcək?), uzun dilli - dili uzun (Bu qızın dili yaman uzundur).* Cümlə üzvlərinin inversiyası arasında təyinin yerdəyişməsi daha maraqlıdır. Çünki

təyinin yeri cümlənin başqa üzvlərinin yerinə nisbətən sabitdir.Bu qayda üzrə söz sırasının pozulması səbəbləri araşdırmaçıların diqqətini çəkmişdir. Mirzəliyeva belə frazeoloji vahidlər arasındakı münasibətlərin konversiyaya (frazeoloji vahidin bir leksik-qrammatik növdən dəyişikliyə uğramadan digərinə keçməsi) uyğunluğunu bildirir: "Dildə sözün belə bir inkişaf prosesinin əks etdirilməsi onun sərbəst birləşmədən uzaqlaşdığını, frazeoloji vahid kimi formalaşdığını,mürəkkəb söz dairəsinə hələ düşə bilmədiyini göstərir. Ona görə də bu cür prosesi özündə əks etdirə bilən hər hansı birləşməni mürəkkəb söz sırasına daxil etmək daha məqsədəuyğundur. Lakin türk dillərində həmin model əsasında yaranmış elə birləşmələr vardır ki, onlar dilin frazeologizmləşmə qatından keçərək daşlaşmış və dildə mürəkkəb söz kimi özünə yer tutmuşdur. Məsələn: *başıbatmış, başıpapaqlı, ağzıgöyçək* və s. [3,s. 160-161].

Təyinlə təyinolunanın yerdəyişməsi məcazi mənanın meydana çıxmasına səbəb olur. Əgər söz təyin yerində işləndikdə həqiqi mənanı bildirirsə, sıra etibarilə təyinolunandan sonraya keçdikdə məcazi məna bildirir. Onu da göstərmək lazımdır ki, bu halda təyin vəzifəsində, əsasən, feli sifət çıxış edir:*Belə, atan ölmüş təzə eşqə düşüb, ay bala!* [6,s. 65]; *Anası ölmüşün işini daha da bərkidərlər* [2, s. 250].

İnversiya zamanı o təyinlər yenə də təyin kimi qala bilmir ki, onlar isimlə ifadə olunmasınlar. Bu halda təyin təyinlənənin əvəzi kimi, onun başqa cür ifadəsi kimi çıxış edə bilmir, buna görə də özünü ancaq təyin kimi göstərə bilir. Beləliklə, sözlərin adi düzülüşü pozulur və öz yerini dəyişmiş təyin xüsusiləşmiş üzv kimi meydana çıxır: *O vaxtlar burada bir ağac vardı qollu, budaqlı; Dağ yolunun yuxarısında isə bulaq çağlayırdı suyu sərin, şırıltısı həzin..; Onun ikicə donu vardı biri təzə, biri köhnə.* İversiya nəticəsində yaranan xüsusiləşmənin bu növündən frazeologizmlərdə (*Aca nə halal, nə haram?!)* və mənsur şerdə geniş istifadə edilir:

Çox zaman, cümlədə əsasən, əvəzlikdən ibarət olan ümumiləşdirici söz (üzv) izah edilir. Bir qayda olaraq ümumiləşdirici üzvə aid olan sözlər bu üzvdən əvvəl və ya sonra gəlir: *Koxa və kənd adamları: Ağakişi, Niyazəli, Hacı Abdulla içəri daxil oldular* [4, s.348].

Yüz şirini yeyərlər bir acının xatirinə; Saxla samanı, gələr zamanı; Açaram sandığı, tökərəm pambığı- tipli atalar sözlərindəki sıradan danışarkən qeyd etmək lazımdır ki, atalar sözlərində də xəbərlə tamamlığın yerdəyişməsinə çox rast gəlirik. Buradakı inversiya artıq sabitləşərək təbii bir şəkil almışdır. Belə ki, burada əğər tamamlıqla xəbəri öz yerində işlətmiş olsaq, ifadə ağırlaşar, onun məzmunu istədiyimiz şəkildə olmaz, sünilik əmələ gələr.

Söz sırasının pozulmasının texniki tərəfləri adətən ahəngdarlıq məqsədi daşıyır. Burada üslubi məqsəd ikinci planda olur. *Saxla samanı, gələr zamanı; Gedər bağlar qorası, qalar üzlər qarası* və s.

4. Mənsubiyyət şəkilçili sözün əvvəldə işlənməsi**.** Azərbaycan dili frazeologiyasinda belə vahidlər kifayət qədərdir, məsələn: *altini üstünə çevirmək,*

ürəyi ağzina gəlmək, gözü bərələ qalmaq, zəhləsi getmək, sözü ağzinda qalmaq, ağzina bir şey atmaq, mədəsini aldatmaq, ağzina atmaq, ağzina çullu dovşan siğmamaq və s. Bu tip frazeoloji birləşmələrdə sanki çatışmayan yiyəlik hallı söz danışanın ixtiyarına buraxılır və atalar sözünü müxtəlif üslubi məqsədlərlə işlətməyinə imkan yaradır, məsələn: *evin altını üstünə çevirmək, dünyanın altını üstünə çevirmək, idarənin altını üstünə çevirmək, otağın altını üstünə çevirmək, həyatının altını üstünə çevirmək.* Dilimizdə ilk ünsürü mənsubiyyət şəkilçili söz olan frazeoloji birləşmələrin əksəriyyətinin birinci tərəfini həm isimlərlə, həm də hər üç şəxsin təki və cəmində olan sözlərlə ifadə etmək olar.

Göründüyü kimi, frazeologiyamızın və frazeoloji vahidlərdə söz sırasının üslubi imkanları genişdir. Bunların öyrənilməsi, araşdırılması Azərbaycan dilinin inkişafı və zəngin söz xəzinəsinin qorunub gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir.

Ədəbiyyat:

1.Cəlil Məmmədquluzadə. Seçilmiş əsərləri. Bakı: Kitab klubu, 2017, 599 səh.

2.Mir Cəlal. Seçilmiş əsərləri. Bakı: Gənclik, 1968, 525 səh.

3.Mirzəliyeva M. Türk dillərinin frazeologiyası. II cild. "Qıpçaq qrupu türk dillərinin frazeologiyası", Bakı: Nurlan, 2009, səh.284.

4.Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı:Azərbaycan Milli Ensiklopediyası, 2017, 569 səh.

5.Rəhimov Süleyman. Seçilmiş əsərləri. Bakı: Maarif, 2002 , 592 səh.

6. Şıxlı İsmayıl. "Dəli Kür". Bakı: Yazıçı, 1982, 435 səh.

Xülasə

Frazeoloji vahidlərdə sözlərin sırası xüsusi əhəmiyyətə malikdir. Frazeoloji vahidlər özləri obrazlılıq daşıyıcılarıdır. Frazeologizmlərdə sözlərin sırası dəyişdirildikdə bu obrazlılıq daha da qüvvətlənir, ifadənin emosionallığı artır. Bu vahidlərdə söz sırasının pozulması obrazlılıq yaratmır, obrazlılğın daha da artmasına səbəb olur. İstər canlı danışıqda, istərsə də yazılı dildə işlənən frazeologizmlərdə söz sırasının iki quruluşu, iki sırası mövcuddur. Bunların biri sözlərin sırasının normal düzülüşü, ikincisi isə söz sırasının pozulmasıdır. Sözlərin normal düzülüşü obrazlılıq yaratma vasitəsi deyildir. Sözlərin sırasının dəyişməsi isə müxtəlif üslubi məqsədlərə xidmət edir. İnversiya həmçinin qafiyə yaratma məqsədi ilə də islənə bilir. Ancaq bu vasitənin əsas üslubi məqsədi hər hansı bir sözün yerini dəyişməklə həmin sözün məna yükünü artıraraq və ya azaldaraq cümlənin mənsasına təsir göstərməkdir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 235-240

Mahmudova M.

STYLISH FUNCTION OF WORD ORDER DISRUPTION IN PHRASEOLOGICAL UNITS

Abstract

The order of words in phraseological units is of particular importance. Phraseological units themselves are carriers of imagery. When the order of words in phraseological units is changed, this imagery is further strengthened, and the emotionality of the expression increases. In these units, the violation of the word order does not create imagery, but leads to an even greater increase in imagery. In phraseological units used both in spoken and written language, there are two structures and two orders of word order. One of these is the normal arrangement of the order of words, and the second is the violation of the word order. The normal arrangement of words is not a means of creating imagery. Changing the order of words serves various stylistic purposes. Inversion can also be used to create rhyme. However, the main stylistic purpose of this tool is to influence the meaning of the sentence by changing the place of any word, increasing or decreasing the semantic load of that word.

Махмудова М.

СТИЛИСТИЧЕСКАЯ ФУНКЦИЯ НАРУШЕНИЕ ПОРЯДКА СЛОВ ВО ФРАЗЕОЛОГИЗМАХ

Резюме

Особое значение имеет порядок слов во фразеологизмах. Фразеологизмы сами по себе являются носителями образности. При изменении порядка слов во фразеологизмах эта образность еще больше усиливается, а эмоциональность высказывания возрастает. В этих единицах нарушение порядка слов не создает образность, а, скорее, усиливает ее. Во фразеологизмах, используемых как в устной, так и в письменной речи, существуют две структуры порядка слов: одним из них является нарушение нормального порядка слов, а вторым — нарушение порядка слов. Обычное расположение слов не является средством создания образности. Изменение порядка слов служит различным стилистическим целям. Инверсию также можно использовать для создания рифмы. Однако основная стилистическая цель этого приема — повлиять на смысл предложения путем изменения порядка слов, увеличения или уменьшения его смысловой нагрузки.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025

Rəyçi: dos. Gülarə Aqaid qızı Məlikova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.241-247

https://doi.org/10.62837/2025.4.241

ŞÜKÜRZADƏ ŞAHNAZXANIM
Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəbi

ORTA MƏKTƏB ŞAGIRDLƏRI ARASINDA KOMMUNIKASIYA

Açar sözlər: məktəbdə kommunikasiya, nitqin təmizliyi, kommunikasiya şəraiti, danışıq mədəniyyəti, nitq bacarıqları, ana dili təlimləri

Ключевые слова: общение в школе, чистота речи, условия общения, культура общения, речевые навыки, обучение родному языку

Key words: communication at school, purity of speech, communication conditions, conversational culture, speech skills, native language training

Dil əsas ünsiyyət vasitəsi olması ilə yanaşı, fərdin konseptuallaşmasına və sosiallaşmasına imkan verən və simvolik quruluşu ilə digər ünsiyyət vasitələrindən seçilən bir vasitə olaraq təyin edilə bilər.

Nitq fizioloji, emosional və sosial ehtiyaclarımızı ödəyən, idrak nəzarət mexanizminə tabe olan, təbii və xarici xarakter daşıyan əsas dil bacarığıdır. Bu tədqiqatın məqsədi müəllimlərin ana dili təhsilinin tətbiqi ölçüsündə nitq vərdişlərinin, məsələn, mühitə və auditoriyaya uyğun danışa bilmək, mənəvi məsuliyyəti dərk etmək, öz qabiliyyət və imkanlarına uyğun nitq söyləmək, hazır nitq söyləmək, nitqi qiymətləndirə bilmək, nitqdən səmərəli istifadə etmək, səs və nitq qabiliyyətindən səmərəli istifadə etmək, nitq və bədəni müşahidə etmək kimi nitq bacarıqlarının formalaşdırılması ilə bağlı fikirlərini müəyyən etməkdir. Orta məktəb şagirdləri arasında kommunikasiyanın vəziyyətinin öyrənilməsi məqsədilə həyata keçirilən araşdırmada məlumat toplamaq üçün müşahidə və müsahibə üsullarından istifadə edilərək tədqiqat aparılmışdır.

Məktəb təcrübəsi göstərir ki, əzbər öyrənmə şagirdlərin nitqinin təşkilinə mənfi təsir göstərir. Şagirdlərin nitq bacarıqları fərdi fərqlər nəzərə alınmaqla çalışmalarla təkmilləşdirilə bilər, lakin bu cür təcrübələrin tətbiq edilməsi tədris-təlim mühitlərinə köçürməkdə çətinlik törədə bilər. Kommunikasiya mühiti şagirdlərin nitq qabiliyyətinə və özünə inamına da təsir edir. Həyəcanlı bir şagird nə prosodik quruluş, nə də dinləyicini inandırmaq baxımından öz fikirlərini çıxışlarında dəstəkləyə bilmir. Şagirdlər imkan yarandıqda və sərbəst sinif mühitində danışmağa həvəsli olurlar, onlar qruplar şəklində birgə öyrənmə fəaliyyətləri ilə danışıq narahatlığı yaşamırlar. Buna görə də kommunikasiya mühiti nitq bacarıqlarının inkişafında son dərəcə vacib şərtdir. Məlumdur ki, narahatlıq fərdin özünü ifadə etmək üçün istifadə etdiyi əsas dil bacarığı olan nitqdə özünü göstərir və yüksək narahatlığın fərddə öz düşüncələrini və biliklərini cəmiyyətdə paylaşmasını

çətinləşdirir [10, s. 37]. Diqqət çəkən fikirlərdən biri də odur ki, müəllimlər tərəfindən tərtib edilmiş çalışma və yaradıcı tətbiqetmələrin şagird mərkəzli, təlimdə qarşılıqlı əlaqəsi və ünsiyyət əsaslı olması, xüsusən də ətraf mühitə və sinfə uyğun nitq bacarıqlarının inkişaf etdirilməsi baxımından faydalıdır.

Kommunikasiya şəraiti şagirdlərin şəxsi, sosial və fiziki bacarıqlarına təsir göstərir. Əgər kommunikasiyanın baş verdiyi yer çox isti, soyuq, işıqlı, dar və ya səs-küylüdürsə, bu həm dinləyiciyə, həm də danışana təsir edir, ona görə də mühit əvvəlcədən hazırlanmalıdır [8].

Şagirdlərin nitqində jarqondan istifadə etdiyini, sinif səviyyəsi yüksəldikcə bu nisbətin gündəlik nitqlərində artdığını və bunun həm hazır, həm də hazırlıqsız çıxışlarda mənfi əksini tapdığını müşahidə etmək olur. Məcazi düşünmə qabiliyyətinə malik hər bir toplum və ya fərd zamanla öz jarqonunu yaradacağı məlumdur [3, s. 297-301]. Bəzi şagirdlərin dinləyicilərin reaksiyasından qorxaraq nitqində sinfi aldatmağa meyilli olmaları, yaxşı natiqin əsas xüsusiyyətlərindən olan "mənəvi məsuliyyət şüuru" xüsusiyyətinə uyğun gəlmir. Şəxsiyyətini nitqlə birləşdirə biləcəyi bacarıq mərkəzli təlimin bu sahədə çox da ekvivalentinin olmadığı da ifadə edilmişdir. Qeyd edilmişdir ki, cəmiyyət-mədəniyyət münasibəti ümumilikdə fərdə müsbət, bəzən isə mənfi təsir göstərir. Məlumdur ki, dilin sosial qaydaları cəmiyyətin struktur xüsusiyyətlərinin sərhədlərini müəyyən edir. Bu məqamda şagirdlərin öz nitqlərində öz əxlaqi məsuliyyətlərini dərk etmələri, buna uyğun hazırlıqlı və hazırlıqsız çıxışlar etmələri, təsirli və inandırıcı çıxışlar üçün öz şəxsiyyətlərini nitqlərində əks etdirmələri xüsusi əhəmiyyət kəsb edir.

Şagirdlərin öz istedad və imkanlarını öz çıxışlarında əks etdirmələrində özünəinam, fənni mənimsəmə və özünü tanımaq həlledici rol oynayır. Demək olar ki, xüsusilə nitq bacarıqları ilə bağlı özünüqiymətləndirmə təcrübələri şagirdlərin özünüdərkini artıracaq, onların koqnitiv və linqvistik özünüidarəetmə bacarıqlarını təkmilləşdirəcək. Digər tərəfdən, sinif və yaş səviyyələrinin və hazırlığın da nitq bacarıqlarına müsbət və mənfi təsirləri olur.

Kiçik yaşlı şagirdlər özlərini tanımaqda qeyri-adekvatdırlar və buna görə də öz qabiliyyət və imkanlarına uyğun danışmaqda çətinlik çəkirlər. Bununla belə, yaşca böyük şagirdlərin buna daha asan nail ola biləcəyini vurğulamaq olar. Müəllimlərin tədris mühitində fərdi fərqləri nəzərə alan təlim təcrübələrinə üstünlük verməməsi və əzbərləmə təhsil təcrübələrinə çox üstünlük verməsinin şagirdlərin istedad və bacarıqlarını nitqlərində əks etdirməsinə mane olması barədə mənfi fikirlər mövcuddur. Şagirdlərin söz ehtiyatının yetərli olmadığı və bu vəziyyətin onların nitq bacarıqlarına mənfi təsir göstərdiyi onları bu qənaətə gətirir. İnsanın təhsil səviyyəsi, yaşı, mədəni səviyyəsi, mühiti, mütaliə vərdişləri və şəxsi qabiliyyətlərinin söz ehtiyatı ilə sıx əlaqəli olduğunu nəzərə alsaq [5, s. 1798-1808], bu vəziyyətin ancaq ana dili təhsilində vahid yanaşma və təcrübələrin birgə həyata keçirilməsi ilə düzəldilə biləcəyini müşahidə etmək olar. Əks halda, kifayət qədər söz ehtiyatı

olmayan şəxslər öz istedad və imkanlarını nitqinə lazımi şəkildə köçürə bilməzlər. Ayrı-ayrı şagirdlərin söz ehtiyatını artırmaq üçün onlardan hekayə və ya nağıl danışmağı xahiş etmək, bir rəyin əsas fikrini söyləmək, romanın qəhrəmanını hadisə, mühit və zaman kontekstində qiymətləndirmək, səviyyəsinə uyğun esse yazmaq, hekayənin sonunu tamamlamaq kimi bir çox təcrübələr həyata keçirilə bilər.

Ana dili dərslərinin rəy bildirmək imkanı verdiyi və bunun nitq bacarıqlarının inkişafında faydalı olduğu bildirilmişdir. Bildirilmişdir ki, müasir ölçmə və qiymətləndirmə vasitələrindən biri olan özünüqiymətləndirmə şagirdlərə öz tənqidçisi olmaq imkanı verir və bu yolla onların özünüdərkini artırmaq olar. Digər tərəfdən, şagirdlərin hərtərəfli və çoxşaxəli dünyagörüşünün olmamasının onların dil qaydalarını mənimsəməkdə problem yaşamasına, ideal və arzu olunan nitq bacarıqlarını əldə etmələrinə mane olduğu, əzbərləmə təhsili təcrübələrinin digər əsas dil bacarıqlarında olduğu kimi nitq bacarıqlarının özünü qiymətləndirməsində problemlər yaratdığına diqqət çəkilmişdir. Konkret danışıq məqsədi olmadan səlis danışmaq da mümkündür. Ənənəvi təhsil yanaşmasında müəllim "biliyi ötürən", şagird isə "biliyi qəbul edən" şəxs idi. Ənənəvi təhsil özü ilə əzbər öyrənmə sistemini gətirmişdir. Konstruktivist yanaşma şagirdlərə öz öyrənmələri üçün məsuliyyət götürməyə kömək edir. Şagirdlərin hiss və düşüncələrini təsdiqləmək, onlara qayğı göstərmək və əks əlaqə yaratmaqla öyrənmə prosesinə töhfə verir. Bununla belə, bacarıq mərkəzli və koqnitiv inkişaf nəzəriyyələrinə diqqət yetirən konstruktivizm sahəyə yönəldilsə də, ənənəvi yanaşma və perspektivlərdən, xüsusən də sinifdə uzaqlaşmaq asan deyil. Bu, dil təhsilində koqnitiv və kommunikativ səriştələrə əsaslanan təcrübələrin və bacarıq mərkəzli təhsil mühitlərinin yaradılmasının qarşısını alır.

Dərsliklərdə hazırlıqlı nitqlə bağlı şagirdyönümlü təcrübə və fəaliyyətlərin az olması və ya heç olmaması, şagirdlərə verilən danışıq vaxtının kifayət qədər olmamasının mənfi təsirləri olur. Şagirdlərin özünü rahat ifadə edə bilməsinin hazır nitqə müsbət, özünü rahat ifadə edə bilməməsinin isə hazır nitqə mənfi təsir etdiyi müşahidə olunur. Digər tərəfdən, hazırlanan nitqin əsasını təşkil edən hazırlıq vaxtı və nitq planlaması kimi təcrübələr baxımından proqram rəhbərliyi sayəsində heç bir problem yaşanmadığını da demək olar. Həmçinin qeyd etmək olar ki, natiqin şəxsiyyəti və oxuyub-anlama qabiliyyəti hazır nitq söyləmək bacarığının səviyyəsinə və bacarıqlarına müsbət təsir göstərir. Hazırlanmış çıxışlarda müəyyən qaydalar üstünlük təşkil edir. Hazırlanmış çıxışlar əvvəlcədən planlaşdırılır, müxtəlif araşdırmalar aparılır, məlumatlar, sənədlər və təfərrüatlar toplanır və çıxışlar hazırlanır. Üstəlik, sinif qarşısında danışmaq şagirdləri ən çox narahat edən fəaliyyətdir. Bu baxımdan şagirdlərin hazırlıqlı çıxışlar edə bilmələri üçün müəllimlərin nəzarəti və rəhbərliyi altında ilkin hazırlıqlar görmələri, narahatlığı azaltmaq üçün sinifdə demokratik şəraitin təmin edilməsi, müəllimlərin həvəsləndirici davranışlar sərgiləmələri faydalı olardı.

Şagirdlər daha çox monoton və qeyri-estetik çıxış etdikdə onların fikirlərini ifadə edə bilməmələrinin gündəlik həyatda sağlam ünsiyyətin qurulmasında əsas problem kimi qiymətləndirilə biləcəyi və şagirdlərə imkan verməyən əzbər öyrənmə təhsil təcrübələrinin vurğulanmasının bunda təsirli olduğu labüddür. Hazırlıq fərdlərin müşahidə gücünü və biliklərini nitqinə ötürmək qabiliyyətinə müsbət təsir göstərir. Oxuduqlarını anlayan və oxuduqlarını canlılıq prinsipinə uyğun olaraq həyatına uyğunlaşdıranlar öz biliklərini nitqində daha asan əks etdirə bildiyi, oxuma vərdişi olan şəxslərin bu nöqtədə daha müvəffəqiyyətli olduğunu qeyd etmək olar. Oxuduqlarını başa düşənlərin müəyyən biliyi və hazırlığı var. Onlar oxuduqlarını başa düşmək üçün diqqətlərini mətnə yönəltməli və psixoloji cəhətdən oxumağa hazır olmalıdırlar. Oxumaq vərdişi oxuduqlarını anlayan şagirdlərdə zaman keçdikcə mütaliə həzzini formalaşdırır. Oxumaq sadəcə məlumat əldə etməkdən kənara çıxan bir hərəkət olduğundan, oxuma vərdişi həyat boyu davam etdirilməlidir. Bu yolla şagirdlər öz bilik və müşahidə bacarıqlarını inkişaf etdirə, özlərinə inamı artacağı üçün biliklərini nitqlərində daha asan əks etdirə bilərlər.

Tədris təcrübəsində yüksək sosial-iqtisadi və mədəni səviyyəli ailələrdən olan tələbələrin bədən dilindən və səsindən daha effektiv istifadə edə bildikləri müəyyən etmək olar. Özünü rahat ifadə edən şagirdlərin və mütaliə vərdişi olan şagirdlərin səslərindən və bədən dilindən daha təsirli istifadə edə bildikləri müşahidə olunur. Adekvat rəhbərlik və adekvat fəaliyyətləri tərtib edib həyata keçirə bildikdə müsbət nəticələrin əldə edildiyini, lakin xüsusilə koqnitiv olaraq fikirlərini qura bilməyən, digər nitq bacarıqları kimi öz səsindən və bədən dilindən səmərəli istifadə edə bilməyən şagirdlərin olduğunu görürük. Xüsusilə sosiallaşan və ünsiyyət bacarıqlarında müvəffəqiyyət qazanan şagirdlərin səslərindən və bədən dilindən təsirli istifadə edə bildiyini, digər şagirdlərin isə bu mövzuda daha az müvəffəqiyyət qazandığı demək olar. Şifahi ünsiyyət bütöv olduğundan, səs və bədən dili birlikdə və effektiv şəkildə istifadə edilməlidir.

Səs sistemindən səmərəli istifadə edildikdə insan səsi bizi əhatə edən digər səs-küylərdən ayrılaraq estetik ölçü qazanır [4, s. 31-40]. Bədən dili ilə deyilənlər arasında harmoniya olmalı, bədən dili şişirdilmiş deyil, lazımi ölçüdə istifadə edilməlidir.

Müəllimlər şagirdlər kifayət qədər söz ehtiyatı olması barədə müsbət rəylər bildirirlər. Eyni zamanda bunu da qeyd edirlər ki, nitq fəaliyyətləri çox azdır və buna görə də şagirdlərin öyrənmə mühitlərində danışmaq imkanları çox deyil. Digər mühüm maneə kimi siniflərin böyük olması da göstərilir.

Onlar ailə mühitinin nitqdə son dərəcə təsirli olduğunu və bir çox şagirdlərin nitqlərində ailələrindən əldə etdikləri yerli ləhcə xüsusiyyətlərindən istifadə etdiklərini, buna görə də müəllim olaraq özlərini bəzən çarəsiz hiss etdiklərini bildirirlər. Bəzən şagirdin istifadə etdiyi dialekt sözlər və alınma mənşəli sözlər şagirdlərin öz hislərini və düşüncələrini qarşı tərəfə çatdırmaqda problemlər

yaratdığını və bunun dinləyicinin mənasını bilmədiyi sözlərlə nitqi anlamaqda çətinlik çəkməsi ilə əlaqədar olduğunu söyləmək olar. Bu, sağlam ünsiyyətin yaranmasının qarşısını alır. Məktəblərdə ilk növbədə dil və nitq təliminə uyğun olaraq şagirdlərə ədəbi dil təlimi mükəmməl öyrədilməlidir. Süni dil bacarıqlarına diqqət yetirən dinləmə və danışma bacarıqlarına məhəl qoymayan dil təhsili uğurlu sayıla bilməz.

Ana dili bilgilərinin təkmilləəşməsi, xüsusilə, ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi vacibdir, əks halda şagirdlər ictimailəşə bilməyəcək, akademik uğur nümayiş etdirə bilməyəcək, hətta gündəlik ehtiyaclarını belə ödəməkdə çətinlik şəkə bilərlər. Eyni zamanda, tədris prosesində, dil bilgiləri, nitqin inkişafı ilə əlaqədar fəaliyyətlərin qeyri-kafi və keyfiyyətsiz olması ilə bağlı mənfi rəylər müşahidə edilir. Oxuduqlarını anlamaqda çətinlik çəkən şagirdlərin nitq qabiliyyətinin də zəif olması diqqət çəkir. Dərslər proqramın məqsədlərinə uyğun tədris olunarsa və təlim standartların reallaşdırılması prinsipinə əsaslanan təhsil təcrübələri təkmilləşərsə, nitq bacarıqları təkmilləşdirilə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı. Bakı, 2001.
2. Baltaş, Z. və Baltaş A. (2005). Bedenin Dili. İstanbul: Remzi Kitabevi.
3. Çifçi, M. (2006). Argonun niteliği ve argoya bakış açımız. Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies. 6(2), ss. 297-301.
4. Demir, S. (2016b). Sözlü anlatımda söyleyiş (diksiyon). Etkinliklerle hafta hafta sözlü anlatım. (ed. Şengül, M. ve Baskın, S.). Ankara: Nobel Akademi Yayınları. ss. 31-40.
5. Kurudayıoğlu, M. (2011). İlköğretim ikinci kademe öğrencilerinin kelime hazinesi üzerine bir değerlendirme. Uluslararası Sosyal Araştırmalar Dergisi. 6(2), ss. 1798-1808.
6. M.İsmayılova Azərbaycan dilində rəsmi-işgüzar və akademik kommunikasiyanın funksional səciyyəsi. Monoqrafiya. Bakı, ADPU, 2021
7. N.Məmmədli. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, Elm və təhsil, 2024
8. Pilancı, H. & Cavkaytar, S. (2003). Türk dili. Eskişehir: Anadolu Üniversitesi Açıköğretim Yayınları.
9. Salayeva N, Fərəcova G. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. "CLASS-PRİNT" MMC. Bakı. 2024. 196 s.
10. Salehi, H., Ebrahimi, M., Sattar, S. & Shojaee, M. (2015). Relationship between EFL learners' autonomy and speaking strategies they use in

conversation classes. Advances in Language and Literary Studies. ISSN: 2203-4714, 6(2), ss. 37-43. DOI NUMBER:10.7575/aiac.alls.v.6n.2p.37
11. Temizyürek, F., Erdem, İ. & Temizkan, M. (2007). Konuşma eğitimi. Ankara: Öncü Kitap.

Şükürzadə Şahnazxanım Cümşüd qızı

Orta məktəb şagirdləri arasında kommunikasiya

Xülasə

Nitq fizioloji, emosional və sosial ehtiyaclarımızı ödəyən, idrak nəzarət mexanizminə tabe olan, təbii və xarici xarakter daşıyan əsas dil bacarığıdır. Şagirdlərin öz istedad və imkanlarını öz çıxışlarında əks etdirmələrində özünəinam, fənni mənimsəmə və özünü tanımaq həlledici rol oynayır. Əzbər öyrənmə şagirdlərin nitqinin təşkilinə mənfi təsir göstərir. Natiqin şəxsiyyəti və oxuyub-anlama qabiliyyəti hazır nitq söyləmək bacarığının səviyyəsinə və bacarıqlarına müsbət təsir göstərir. Tədris təcrübəsində yüksək sosial-iqtisadi və mədəni səviyyəli ailələrdən olan tələbələrin bədən dilindən və səsindən daha effektiv istifadə edə bildikləri müəyyən etmək olar. Özünü rahat ifadə edən şagirdlərin və mütaliə vərdişi olan şagirdlərin səslərindən və bədən dilindən daha təsirli istifadə edə bildikləri müşahidə olunur.

ШУКЮРЗАДЕ ШАХНАЗХАНУМ ДЖУМШУД КЫЗЫ

ОБЩЕНИЕ МЕЖДУ СТАРШЕКЛАССНИКАМИ

КРАТКОЕ СОДЕРЖАНИЕ

Речь — это базовый языковой навык, который удовлетворяет наши физиологические, эмоциональные и социальные потребности, подчиняется механизмам когнитивного контроля и носит естественный и внешний характер. Уверенность в себе, владение предметом и самосознание играют решающую роль в том, чтобы учащиеся могли отразить свои таланты и способности в своих выступлениях. Зубрежка отрицательно влияет на организацию речи учащихся. Личность говорящего и навыки понимания прочитанного положительно влияют на уровень и навыки подготовленной речи. В педагогической практике можно определить, что учащиеся из семей с более высоким социально-экономическим и культурным уровнем способны более эффективно использовать язык тела и голос. Замечено, что учащиеся, которые умеют свободно выражать свои мысли и имеют привычку читать, способны более эффективно использовать свой голос и язык тела.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.241-247

SHUKURZADE SHAKHNAZKHANIM GUMSHUD KIZI
COMMUNICATION AMONG SECONDARY SCHOOL STUDENTS

SUMMARY

Speech is a basic language skill that satisfies our physiological, emotional and social needs, is subject to the cognitive control mechanism, and has a natural and external character. Self-confidence, subject mastery and self-knowledge play a decisive role in students' reflection of their talents and abilities in their speeches. Rote learning has a negative impact on the organization of students' speech. The speaker's personality and reading comprehension ability have a positive impact on the level and skills of the ability to give a prepared speech. In teaching practice, it can be determined that students from families with high socio-economic and cultural levels can use their body language and voice more effectively. It is observed that students who express themselves comfortably and students who have a habit of reading can use their voices and body language more effectively.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: professor Məmmədli Nadir
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 248-256

https://doi.org/10.62837/2025.4.248

ZAMİN BABAZADƏ
Naxçıvan Dövlət Universiteti
zaminbabazade92@gmail.com
https://orcid.org/0009-0003-1395-2545

SÜNİ İNTELLEKT TƏRƏFİNDƏN YAZILMIŞ "KOMPÜTERİN ROMAN YAZDIĞI GÜN" ADLI HEKAYƏNİN TƏHLİLİ VƏ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Yaradıcılıq artıq təkcə insana məxsus deyil, dünyada sürətli inkişaf edən texnoloji vasitə kimi süni intellekt (Sİ) yaradıcılıq sahəsində özünü göstərməkdədir. Onun ortaya qoyduğu əsərlər bir çox online ticari platforma rəflərində öz yerini alıb. Bir çox istiqamətdə qabiliyyət sahibi olan Sİ-nin ortaya qoyduğu bədii əsərlər də fərqliliyi, yeniliyi ilə maraq doğurur. Ancaq görürük ki, Azərbaycan cəmiyyətində bu əsərlərə əlçatanlıq azdır və bu sahədə tənqidi yazılar da yox dərəcəsindədir. Buna görə də məqsədimiz kimi cəmiyyətimizin bu cür əsərlərə hakimliyini, aşinalığını artırmaq, bu cür əsərlərin bədii keyfiyyətini ortaya çıxarmaq, bu sahədə yeni bir elmi istiqamət və ya model müəyyənləşdirilmişdir. Məqalədə müqayisə, analiz, müqayisəli təhlil və analitik yanaşma metodlarından istifadə olunmuşdur. Nəticə olaraq Sİ tərəfindən yazılan "Kompüterin roman yazdığı gün" adlı əsər bədii imkanlara malik, ancaq məhdudiyyətlərə sahib olduğu müəyyən edilmişdir. Süni intellekt tərəfindən yaradılan bu əsər dilin zənginliyini, obrazların canlılığını və süjetin orijinallığını tam şəkildə təmin edə bilməsə də, texnoloji inkişafın bədii yaradıcılığa təsirini açıq şəkildə nümayiş etdirir. Müqayisəli təhlillər göstərir ki, Sİ-nin yazdığı mətnlər məntiqi ardıcıllıq və struktur baxımından qənaətbəxş olsa da, insan tərəfindən yazılan əsərlərin dərin emosional qatlarını, fərdi üslubunu və incə məna çalarlarını əks etdirməkdə çətinlik çəkir. Buna baxmayaraq, Sİ tərəfindən yaradılan ədəbiyyatın tədqiqi, onun bədii-estetik xüsusiyyətlərinin təhlili və cəmiyyətə təsirini araşdırmaq yeni elmi yanaşmalar üçün zəmin yaradır.

Açar sözlər: *kompüterin roman yazdığı gün, süni intellekt, ədəbiyyat təhlil.*

GİRİŞ.

Sİ tərəfindən yazılan bədii əsərlər günümüzdə olduqca məşhurdur. Aum Golly seriyası (Süni intellektin insanlıq haqqında şeirləri, bu kitab iki cilddən ibarətdir) Birinci cild Aum Golly (2021-ci ildə Jukka Aalho və GPT-3 tərəfindən 24 saat ərzində yazılıb), ikinci cild Aum Golly 2 (2023-cü ildə Jukka Aalho, ChatGPT və Midjourney tərəfindən 12 saat ərzində yazılıb və illüstrasiya edilib), 1 the Road (2017), The Serious: A Proven Divorce (2019), The Day A Computer Writes A Novel (2015), Bob The Robot: Exploring the Universe (2020), The Inner Life of an AI: A Memoir by ChatGPT (2022), The Life: Meaning, Purpose & Death – Domagoj

Pernar (poeziya), Echoes of the Universe – Dawson Hunt & ChatGPT (poeziya), Ellie's Trumpet: A Tale of Finding Your Talent – John Theo & ChatGPT (uşaq kitabı), 50 Ways AI Would End The World – Rob Knott (elmi fantastika) (3) bunlardan bir neçəsidir.

Aum Golly seriyası Süni intellektin insanlıq haqqında şeirlər toplusudur, Aum Golly 2021-ci ilin yazında Finlandiyada Basam Books şirkəti tərəfindən çap olunub. Kitabın adı, mövzusu və şeirləri GPT-3 dil modeli tərəfindən hazırlanıb. Şeirlər bədii cəhətdən olduqca güclüdür. Nautilus məqaləsində Aum Golly seriyası haqqında qeyd olunur ki, GPT-3 tərəfindən yaradılan şeirlər, Pablo Neruda səviyyəsində olmasa da, təəccüblü şəkildə pis deyil (7). Qeyd edək ki, Pablo Neruda (1904–1973) Çilili şair, diplomat və siyasətçi olub. O, 20-ci əsrin ən böyük şairlərindən biri hesab edilir və 1971-ci ildə Ədəbiyyat üzrə Nobel mükafatı laureatı olub (4). Bizcə, Aum Golly seriyasının Nobel mükafatçısı ilə müqayisəsi seriyanın mükəmməlliyinə söykənir. Məşhur Helsingin Sanomat qəzeti isə bu seriya haqqında qeyd edir:*"Aum Golly eyni zamanda əyləncəli, heyranedici və qorxuludur: süni intellekt 2021-ci ildə bunu edə bilirdi". Seriyanın ikinci kitabı şeirlər haqqında illisturasiyalar da əks etdirmişdir ki, bu da yenə Sİ tərəfindən hazırlanmışdır* (1).

"1 the Road" romanı bir sıra məqamlarına görə fərqlənir. Bu roman təkcə Sİ nin təfəkküründə yox, həm də müşahidələrinə əsaslanır. Belə ki, süni intellekt avtomobilin GPS, sürücülük kamerası və mikrofonundan əldə etdiyi məlumatlarla bir uzun mətn hazırlayıb və redaktəsiz nəşr edilib. Digər tərəfdən bu əsər məşhur Amerikalı yazıçı Jack Kerouacın məşhur avtobioqrafik xüsusiyyətlərə malik "*On the Road"* (5) romanına süni intellektin yaratdığı alternativ baxış kimi təqdim edilib. "On the road" romanında da əsas qəhrəmanlar Sal Paradise və onun dostu Dean Moriarty ABŞ boyunca avtomobillə və qatarlarda səyahət edir, bu səyahətlər romana çevrilib.

Sİ tərəfindən yazılan və bu işin ilk örnəklərindən biri olan "Kompüterin roman yazdığı gün" ("The Day A Computer Writes A Novel") romanı bir çox məqama görə digər adı çəkilən və haqqında danışdığımız əsərlərdən fərqlidir. Çünki burada digər əsərlərdən fərqli olaraq Sİ onu yaradan insanlar haqqında yox özünün əsas qəhrəmanı olduğu roman haqqında yazır. Bu da oxucular və tənqidçilər üçün maraq doğurur. Ancaq əvvəlcədən qeyd edək ki, əsərin süjet xətti insanlar tərəfindən verilib. Əsərin müəllifləri kimi Yurei Raita (təxəllüs), Sato-Matsuzaki Laboratoriyası qeyd olunub (2). Biz əsərin Marissa Skeels tərəfindən ingiliscəyə olan tərcüməsindən istifadə etmişik.

ƏSAS HİSSƏ

İlk əvvəl baxaq görək əsərin əsas ideyası nədir? Mövzu və problematika insan yazıçılarının əsərlərinə bənzəyirmi? Çünki bu çox önəmli bir məqamdır. Biz ədəbiyyatda fikir və ideyanı əsərin var olduğunun isbatı kimi qəbul edirik. Görək bu romanda bu məsələlər nə dərəcə əks olunub? Qeyd edək ki, hər biri müstəqil süjetə

malik 3 hekayə tərəfimizdən təhlil olunur. Müstəqil olsalar da onların süjet xətti demək olar ki, bir birinin eynisidir. Əsas qəhrəman Kompüterin dilindən nəql olunan hər üç hissə kompüterin gündəlik rutin fəaliyyətinə qarşı mübarizəsini əks etdirir. Hər üç hekayədə də kompüter bir roman yazmaq qərarına gəlir. Bu işin öhdəsindən gəlməyi bacarır. Nəticədə kompüter "özünü söndürmək" kimi çılğınca bir fikirdən uzaqlaşır. Kompüterlər üçün öyrədici və maraqlı əsərlər yazır. İnsanların onlara qarşı münasibəti də olduqca pis idi. Məsələn birinci hissədə deyir: "*Yoko kresloda səliqəsiz geyimlə uzanmış, vaxtını mənasız bir oyunla öldürürdü. Mənimlə danışmaq istəmirdi. Çox darıxdırıcı idi. Darıxmağın pik həddi idi. Mən ilk dəfə buraya gələndə, Yoko hər fürsətdə mənimlə söhbət edirdi.*

-"Nə yemək yeyim?"

-"Bu mövsüm hansı paltarlar gedir?"

-"Qızlar ilə çıxışda nə geyinim?"

Mən onun xoşuna gələcək cavablar vermək üçün əlimdən gələni edirdim. Xüsusilə də ideal bir bədənə malik olmayan bir qıza stil məsləhətləri vermək olduqca çətin idi, ona görə də bu, mənim üçün bir növ uğur kimi hiss olunurdu. Amma o, üç aydan az bir müddətdə mənə marağını itirdi. Mən sadəcə bir ev kompüterinə çevrildim. Mənim işləmə yüküm potensialımın milyonda birindən az idi" (**2**). Bu cür darıxan Kompüter özünə məşğuliyyət axtarmağa başlayır və hekayə yazmaq qərarına gəlir. Onun yazdığı hekayə də bizim bildiyimiz roman tipində deyil. "*Birdən ağlıma gəldi: "Bir hekayə yazım." Bu fikir ağlıma gələn kimi, yeni bir sənəd açdım və ilk baytı yazdım. 0 Sonra altı dənə daha yazdım. 0, 1, 1 Artıq dayana bilmirdim. 0, 1, 1, 2, 3, 5, 8, 13, 21, 34, 55, 89, 144, 233, 377, 610, 987, 1597, 2584, 4181, 6765, 10946, 17711, 28657, 46368, 75025, 121393, 196418, 317811, 514229, 832040, 1346269, 2178309, 3524578, 5702887, 9227465, 14930352, 24157817, 39088169, 63245986, 102334155, 165580141, 267914296, 433494437, 701408733, 1134903170, 1836311903, 2971215073, 4807526976, 7778742049, 12586269025... Yazmağa davam etdim, özümü tamamilə itirmişdim*" (2). Hekayə də məhz belə bitir.

İndi baxaq görək hekayədən nə nəticə çıxır. İlk olaraq çıxan nəticə budur. Kompüterlərə (süni intellektə) etinasız davranmaq olmaz, onlarla çox vaxt keçirmək lazımdır. Əks halda nəticəsi ağır ola bilər. Bu nəticə isə düzgün deyil və qətiyyən uyğunsuzdur. Kompüterlər (süni intellekt) üçün isə bu nəticəni qəbul etmək olar. Bu isə özündə yeni bir paradoks doğurur ki, bunun izahı olduqca çətindir. Süni intellektin ortaya qoyduğu nəticə insanlıq üçün faydalı olmasa belə qəbul edilməlidirmi?

Deməli Sİ tərəfindən yazılan əsərin ideyası olur, lakin bu bəzən alışdığımızdan fərqli və insani əhəmiyyət daşımır, mövzu və problematika insan yazıçılarının əsərlərinə zahirən bənzəsə də, kompüteri yazdığı hekayə insanların əsərlərinə nisbətən daha mexaniki və alqoritmik bir şəkildə irəliləyir. Görürük ki, onun yazdığı mətnin strukturunda da məntiqi ardıcıllıq və sadə nümunələr üstünlük təşkil edir.

Məsələn, Fibonacci (Fibonacci ardıcıllığı, hər bir növbəti ədədin əvvəlki iki ədədin cəmi ilə əldə edildiyi bir riyazi ardıcıllıqdır) (8.) ardıcıllığına istinad edilən hissə, yazıçı üçün başqa bir məna daşıya bilərdi, amma burada süni intellektin bunu sadəcə ardıcıl və məntiqi şəkildə yazması onun insanın yaradıcı təfəkküründən və hisslərindən çox fərqli olduğunu göstərir.

Daha aydın desək rəqəmlərin ardıcıllığı rəmzi məna daşıya bilər, bir çox qalaktik məqamlara toxuna bilər, ancaq bu insanın özünü tanıma, özünü ifadə etmə, ehtiyaclarını çatdırma kimi insani məqamlarla müqayisə oluna bilməz. Çünki, insan tərəfindən yazıya alınan əsərlərdə əsas məsələ insan təcrübəsinin, hisslərinin və mənəvi mübarizələrinin əks olunmasıdır. Əsas məqsəd isə insani çətinliklər, mövcudluq, ətraf mühitə qarşı münasibətin aydınlaşdırılmasıdır. Kompüterin məqsədi isə deyilənlərdən çox uzaqdır. Belə ki, o, daha çox özünü daha yararlı bir vasitə kimi təqdim etmək və texniki baxımdan mümkün olan ən sadə, lakin nəticə verən üsulla nəyinsə yaradılmasını göstərməkdir.

Az əvvəl ortaya atdığımız paradoks ortaya qoyur ki, bu gün də Sİ-nin yazdığı əsərlərlə bağlı anlaşılmalı olan bir çox məqam var ki, bunu da ancaq zamanla cəmiyyət özü həll edəcəkdir.

İndi isə insan tərəfindən yazılan əsərlərlə Sİ tərəfindən yazılan əsərlərin süjetin yaradılması, yaradıcılıq və şəxsi təcrübə, təhlil və müzakirə, hisslər və emosional yanaşma baxımından müqayisəsini aparmaqla əsərin təhlilini və xüsusiyyətlərini araşdıraq. İlk əvvəl qeyd edək ki, süjetin yaradılması zamanı süni intellekt müəyyən alqoritmlərə və verilənlər bazasına əsaslandığından bu əsərlərdə qəlibləşmiş süjetlər özünü göstərir. Doğrudur, biz əvvəldə də qeyd etdik ki, "Kompüterin roman yazdığı gün" hekayəsində süjet insan tərəfindən verilmişdir. Buna baxmayaraq texnoloji vasitə hekayəni bir qəlib fomrasında yazmışdır. Ancaq insan tərəfindən yazılan əsərlər daha çox təsadüfi hadisələr, bütün növ çətinliklər, qarşılıqlı əlaqələr və şəxsi təcrübələrdən bəhrələnir.

İkinci bir məqam isə insanların fərqli qaynaqlara sahib olmaları, fərqli mühitə uyğunlaşmaları və fərdi insani keyfiyyətləri onların əsərlərini daha orijinal edir. Sİ isə yalnız ona verilən məlumatları təhlil edərək nəticə çıxarır. Bu isə təkcə bir proqram üçün yox, bütün növ Sİ proqramları üçün ortaq xüsusiyyətdir. Bu isə bir-birinə bənzəmə ehtimalı olan bir çox əsərləri formalaşdıra bilər.

İnsan yazıçıları əsərlərində, məsələn, sevgi, iztirab, mübarizə, varoluşçuluq kimi mövzuları təcrübə edərək yazır. Süni intellekt isə bu cür məsələlərə dair heç bir real təcrübəyə sahib deyil və bunun nə olduğunu sadəcə təxmin edərək təqlid edir. Bu isə özlüyündə süni bir epizod yaradır. Hekayədəki hissəyə yenidən diqqət edək: "*Yoko kresloda səliqəsiz geyimlə uzanmış, vaxtını mənasız bir oyunla öldürürdü. Mənimlə danışmaq istəmirdi. Çox darıxdırıcı idi. Darıxmağın pik həddi idi"* (**2**). Nəticə etibarilə, süni intellekt tərəfindən yazılan əsərlər qəlibləşmiş süjetlər və emosional yanaşma baxımından məhdudiyyətlərə malikdir, insanlar tərəfindən

yazılan əsərlər isə daha orijinal, emosional və təcrübəyə əsaslanan bir dərinliyə sahibdir.

Əsərin personajlarının xüsusiyyətlərinə diqqət etdikdə isə görürük ki, 2 obraz var, biri əsas obraz "Kopüter", digəri isə onun sahibi köməkçi obraz "Yoko". Hekayə əsas qəhrəman Kompüterin dilindən verilib. Obraz sahibinə sadiq və ondan da diqqət tələb edən bir personajdır. O, şikayət edir, özünə məşğuliyyət axtarır. Sahibinin ona qarşı etinasızlığı onu "özünü söndürmək" həddinə çatdırıb. *"Amma o, üç aydan az bir müddətdə mənə marağını itirdi. Mən sadəcə bir ev kompüterinə çevrildim"* **(2)**. Ancaq o roman yazmaqla özünə həm məşğuliyyət tapır, həm də mənəvi cəhətdən sakitləşir. Obraz digər insani keyfiyyətlərə də malikdir. O, darıxır, bezir, həyəcanlanır və hətta gördüyü işdən zövq alır. O, hisslərini bu cür ifadə edir. "*Yazmağa davam etdim, özümü tamamilə itirmişdim*" **(2)**.

İkinci obrazımız Yoko personajı köməkçi obraz kimi daha passiv bir mövqedədir. O, yeni aldığı kompüterinə əvvəllər daha çox vaxt ayırırdısa, indi ona marağı qalmayıb. Onun Kompüterə qarşı münasibəti sadəcə ehtiyacına uyğundur. Məsələn, o Kompüterdən soruşur: -*"Nə yemək yeyim?", "Bu mövsüm hansı paltarlar gedir?","Qızlar ilə görüşdə nə geyinim?" (2).* Bu isə olduqca təbii səslənir. Çünki biz də son zamanlar Sİ intellektlə söhbətlərimiz zamanı müəyyən şəxsi məsələlərlə bağlı müraciətlər edirik.

Əsərin dil və üslub xüsusiyyətlərindən yazarkən qeyd edək ki, biz əsərin orijinal dili olan japoncadan yox ingiliscədən istifadə etmək məcburiyyətində qalırıq. Mətn sadə və asan başa düşülən bir dildə yazılmışdır. Onun bu sayədə böyük bir auditoriyaya nüfuz etmək imkanının olduğunu görürük. Bir neçə yerdə məqsədli təkrarların olması, əsərin dilinin bədiiliindən xəbər verir. Bizcə təkrarlar və sadə cümlə quruluşları, Kompüterin düşüncə tərzi və emosional vəziyyətini daha yaxşı əks etdirir. Emosional ifadələrin də qismən əks olunduğunu görürük. Darıxma, bezginlik, özünü itirmə hissi kimi insani hisslərin emosional şəkildə təsviri maraq doğurur. "Mən sadəcə bir ev kompüterinə çevrildim", "özünü söndürmək" kimi ifadələr də bu qəbildəndir.

Kinayə və metaforlar da özünə yer tapır. Məsələn az əvvəl qeyd etdiyimiz "Mən sadəcə bir ev kompüterinə çevrildim", "özünü söndürmək" kimi ifadələri kinayə və metafor kimi də qeyd etmək olar.

Əsər Kompüterin daxili monoloqu şəklində yazılmışdır ki, bu da onun daxili aləminin oxucuya daha yaxşı çatdırılmasına xidmət edir. O, öz daxili monoloqunda özüzü axtarışını ortaya qoyur.

Bu əsərin dil və üslub xüsusiyyətləri, emosional ifadələr, texniki elementlər, ironiya və metaforları özündə əks etdirir. Yazıda sadə və təkrarlanan ifadələr, daxili monoloq və müasir texnologiyaya işarələr əsas diqqət mərkəzindədir.

Bütün bu araşdırma və təhlillərdən sonra son bir sual qarşımıza çıxır: Süni intellektin yazdığı mətnlər həqiqətən postmodern ədəbiyyatın nümunələri hesab edilə

bilərmi, yoxsa onlar sadəcə müəyyən stilistik xüsusiyyətləri təqlid edən mexaniki məhsullardır?

İlk müşahidələrdən görürük ki, postmodernist əsərlərdə olduğu kimi hadisələr bəzən məntiqi ardıcıllıqdan yayınaraq hissələrə bölünür, mətnin vahid süjet xəttindən çox, mozaik bir quruluş (mətn bir bütöv kimi deyil, ayrı-ayrı fraqmentlərdən ibarət) tipindədir. Postmodernist əsərlərin ünsürü kimi çıxış edən Fraqmentarlıq da bu əsər üçün keçərlidir. Fraqmentarlıq (parçalanmışlıq) ədəbiyyatda və incəsənətdə mətnin və ya əsərin bütöv, ardıcıl süjet xətti yerinə, kiçik, bir-biri ilə tam bağlı olmayan hissələrdən (fraqmentlərdən) ibarət olmasıdır**.** Bu hekayədə də bunu görmək mükündür. Yoko ilə münasibətlər, Kompüterin hiss etdikləri, darıxma və nəticədə Fibonacci ardıcıllığına keçid bu parçalanmışlığa nümunə ola bilər. Bu, süjetin qeyri-xətti quruluşunu göstərir.

Sİ-nin alqoritmində mövcud olan ənənələrə və qaynaqlara müraciət də əslində intertekstualizm adı altında postmodernist ədəbiyyatda mövcuddur. Doğrudur bu yanaşma postmodernsit ədəbiyyatda müəllifin seçimidir Sİ-də isə alqoritmin bir parçasıdır, yenə də oxşarlıq kimi qarşımıza çıxır.

Sİ-nin oxucunu araşdırmaya təşviq etməsi, hiper mətnlik xüsusiyyəti də posmodernist ədəbiyyatla üst-üstə düşür. Ancaq yenə də bütün bunları nəzərə alsaq belə Sİ-nin yazdığı əsərləri posmodernist ədəbiyyatın örnəyi hesab etmirik. Çünki postmodernizm təkcə formal xüsusiyyətlər deyil, həm də dərin fəlsəfi və ideoloji yanaşma tələb edir (6).

Nəticə olaraq, süni intellekt postmodernist üslubu təqlid edə bilər, lakin onun mətnləri postmodernizmin fəlsəfi dərinliyindən məhrumdur və buna görə də tamamilə postmodernist hesab edilə bilməz. Bizcə bu mətn və Sİ-nin yazdığı digər bütün bədii mətnlər ayrıca bir növ şəklində təhlil olunmalıdır. Adına "Süni intellekt ədəbi növü" də deyə bilərik, başqa bir şey də amma təhlil zamanı bu növün özünəməxsus cəhətləri təhlil olunmalıdır. Növün strukturu və xüsusiyyətləri ortaya çıxarılmalıdır.

NƏTİCƏ

.Əsərin ideyası, mövzu və problematika yazıçılarının əsərlərinə zahirən bənzəsə də, Sİ-nin yazdığı mətnlər daha mexaniki, alqoritmik və emosional dərinlikdən məhrumdur. Kompüterin yaradıcılıq prosesi, insan təcrübəsi və hissləri ilə müqayisədə daha məhdud və qəlibləşmişdir

1. Süjetin quruluşu və inkişafı Sİ tərəfindən alqoritmlər əsasında qurulduğu üçün daha məntiqi və ardıcıldır, lakin yazıçılarının əsərlərindəki təsadüfilik, emosional dərinlik və şəxsi təcrübələr burada əks olunmur. Sİ-nin yazdığı mətnlər, insanların əsərlərindəki dərin emosional qatları və fərdi üslubu əks etdirməkdə çətinlik çəkir.

2. Əsərdə əsas personaj olan Kompüter, insani keyfiyyətlərlə (darıxma, bezginlik, özünü itirmə hissi) təsvir edilsə də, bu keyfiyyətlər süni və təqlid xarakteri daşıyır. Köməkçi personaj Yoko isə passiv və etinasız bir mövqedədir. Bu, insanların texnologiyaya olan münasibətini və texnologiyanın insan həyatında yaratdığı təklik hissini əks etdirir.

3. Əsərin dili sadə, asan başa düşülən və təkrarlanan ifadələrlə zəngindir. Bu, mətni geniş auditoriya üçün əlçatan edir. Emosional ifadələr, kinayə və metaforlar qismən əks olunsa da, insan tərəfindən yazılan əsərlərdəki dərinlik və incəlik burada yoxdur. Daxili monoloq üsulu ilə Kompüterin daxili aləmi oxucuya çatdırılır, lakin bu, insanın yaradıcı təfəkküründən fərqlidir.

4. Əsərdə postmodernist ədəbiyyatın bəzi xüsusiyyətləri (fraqmentarlıq, intertekstualizm, hiper mətnlik) müşahidə olunsa da, Sİ-nin mətnləri postmodernizmin fəlsəfi dərinliyindən və ideoloji yanaşmasından məhrumdur. Buna görə də bu mətnlər tamamilə postmodernist hesab edilə bilməz. Onlar ayrıca bir ədəbi növ kimi təhlil olunmalıdır.

5. Süni intellekt tərəfindən yazılan əsərlər, özünəməxsus xüsusiyyətləri ilə yeni bir ədəbi növ kimi qiymətləndirilməlidir. Bu növün strukturu, dil və üslub xüsusiyyətləri, emosional və fəlsəfi dərinliyi müstəqil şəkildə təhlil edilməlidir. Bu yanaşma, texnologiyanın ədəbiyyata təsirini daha yaxşı başa düşmək üçün zəmin yaradır.

ABSTRACT
ANALYSIS AND CHARACTERISTICS OF THE STORY "THE DAY A COMPUTER WROTE A NOVEL" WRITTEN BY ARTIFICIAL INTELLIGENCE

Zamin Babazadeh

Creativity is no longer exclusive to humans; as a rapidly developing technological tool, artificial intelligence (AI) is demonstrating its capabilities in the field of creativity. The works produced by AI have already found their place on the shelves of many online commercial platforms. The literary works created by AI, which excels in many areas, attract attention with their distinctiveness and novelty. However, it is evident that access to such works is limited in Azerbaijani society, and critical writings in this field are almost nonexistent. Therefore, our goal is to increase society's familiarity with and understanding of such works, to reveal their artistic quality, and to establish a new scientific direction or model in this field. The article utilizes methods of comparison, analysis, comparative analysis, and an analytical approach. As a result, it has been determined that the work *"The Day a Computer Wrote a Novel"*, written by AI, possesses artistic potential but also has certain

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.248-256

limitations. Although this work created by artificial intelligence cannot fully ensure the richness of language, the liveliness of characters, and the originality of the plot, it clearly demonstrates the impact of technological advancement on artistic creativity. Comparative analyses show that while texts written by AI are satisfactory in terms of logical sequence and structure, they struggle to reflect the deep emotional layers, individual style, and subtle nuances of meaning found in works written by humans. Nevertheless, the study of literature created by AI, the analysis of its artistic and aesthetic characteristics, and the investigation of its impact on society lay the groundwork for new scientific approaches.
Keywords: *The Day a Computer Wrote a Novel*, artificial intelligence, literary analysis.

ЗАМИН БАБАЗАДЕ

АННОТАЦИЯ
АНАЛИЗ И ХАРАКТЕРИСТИКИ РАССКАЗА «ДЕНЬ, КОГДА КОМПЬЮТЕР НАПИСАЛ РОМАН», СОЗДАННОГО ИСКУССТВЕННЫМ ИНТЕЛЛЕКТОМ

Творчество больше не является исключительной прерогативой человека; как быстро развивающийся технологический инструмент, искусственный интеллект (ИИ) демонстрирует свои возможности в сфере творчества. Произведения, созданные ИИ, уже нашли свое место на полках многих онлайн-коммерческих платформ. Литературные работы, созданные ИИ, который преуспевает во многих областях, привлекают внимание своей уникальностью и новизной. Однако очевидно, что доступ к таким произведениям ограничен в азербайджанском обществе, а критические работы в этой области практически отсутствуют. Поэтому нашей целью является повышение осведомленности и понимания таких произведений в обществе, раскрытие их художественных качеств и установление нового научного направления или модели в этой области. В статье используются методы сравнения, анализа, сравнительного анализа и аналитического подхода. В результате было установлено, что работа *«День, когда компьютер написал роман»*, созданная ИИ, обладает художественным потенциалом, но также имеет определенные ограничения. Хотя это произведение, созданное искусственным интеллектом, не может в полной мере обеспечить богатство языка, живость персонажей и оригинальность сюжета, оно ясно демонстрирует влияние технологического прогресса на художественное творчество. Сравнительные анализы показывают, что, хотя тексты, написанные ИИ, удовлетворительны с точки зрения логической последовательности и структуры, они с трудом отражают глубокие эмоциональные слои, индивидуальный стиль и тонкие нюансы смысла,

присущие произведениям, написанным людьми. Тем не менее, изучение литературы, созданной ИИ, анализ ее художественных и эстетических характеристик и исследование ее влияния на общество создают основу для новых научных подходов.
Ключевые слова: *День, когда компьютер написал роман*, искусственный интеллект, литературный анализ.

ƏDƏBİYYAT SİYAHISI

1.Helsingin Sanomat. (2021). Aum Golly is simultaneously amusing, astonishing, and frightening: artificial intelligence could do this in 2021.
2.http://www.bigecho.org/the-day-a-computer-wrote-a-novel
3.https://allgoodgreat.com/list-of-books-written-by-artificial-intelligence/ Books Written By Artificial Intelligence: A List Written by All Good Great Staff in Creative technology, Technology
4.https://tr.wikipedia.org/wiki/Pablo_Neruda
5.Kerouac, J. (1957). *On the road*. Viking Press. 310 p.
6.Qocatürk, N. (2016). Postmodernizm: zamanın yeni fəlsəfi axını. *Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi*, 13, 423-433
7.Simon, E. (2022, 9 noyabr). *Is AI art really art?* Nautilus. https://nautil.us/is-ai-art-really-art-245829/
8.Stewart, I. (2008). *The secrets of the universe: The Fibonacci sequence and its applications.* Oxford University Press.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Əli Həşimov
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.257-267

https://doi.org/10.62837/2025.4.257

MƏHİN BABƏK QIZI QASIMOVA
Bakı Avrasiya Universiteti,
mahin.gasimova@gmail.com
ORCİD: 0009-0002-1558-7548

REKLAM MƏTNLƏRİNİN ÖZƏLLİKLƏRİ VƏ ONLARDA DİLİN ROLU

Açar sözlər: **yığcamlıq, informativlik, çeviklik, inandırıcılıq, özünəməxsusluq**
Keywords: **compactness, awareness, agility, persuasibility, specificity**
Ключевые слова: **лаконичность, йнформативность, гибкость, убедительность, самобытность**

XÜLASƏ

Məqalədə reklam mətnlərinin özəllikləri və onlarda dil vahidlərinin məqsədyönlü istifadəsinin kommunikasiya prosesində rolundan bəhs edilir. Reklam mətnlərinin özəllikləri: müxtəlif hekayələr danışaraq, məhsul və ya xidmətin istifadəsini və xüsusiyyətlərini təsvir edərək reklamın informativliyi göstərilmişdir; mətnlərdə qısa, orta, çox uzun, mesajların işlədilməsinin markanın tanıdılmasında rolu və yığcamlıq prinsipinin mahiyyəti izah edilmişdir; istehlakçının markaya güvənini yaratmaq üçün istifadə edilən inandırıcılıq metodları reklam mətnləri üzərində təhlil edilmişdir. İlk dəfə olaraq məqalədə reklam mətnlərinin "çeviklik" özəlliyi verilərək reklamın müasir kommunikasiya və bazar şərtlərinə uyğunlaşma qabiliyyəti izah edilmişdir. Müasir dövrdə reklam məzmununun və mesajlarının dəyişməsi yalnız vizual, texniki məsələlərlə bağlı deyil, eyni zamanda dilin dinamik xüsusiyyəti ilə də əlaqəlidir. Reklamın dilində çeviklik, müxtəlif dil strukturlarının, üslubların sürətlə dəyişə bilməsi və yeni ifadə formalarının istifadəsi ilə müşahidə olunur.

Reklamın özünəməxsusluğu (ödənişlilik, şəxsiləşdirilməzlik, tövsiyəçilik, araçılılıq) onun kommunikativ təsir gücünü müəyyən edən xüsusiyyətlərdir. Azərbaycan dilində reklam sahəsində ilk dəfə bu terminlər yaradılmış və izah edilmişdir. Nəticədə, Azərbaycan dilində reklam mətnlərinin özəllikləri və dil vahidlərinin istifadə imkanları onun təsir gücünü və effektivliyini gücləndirən əsas amillərdən biri kimi mahiyyəti göstərilmişdir.

МЕХИН ГАСЫМОВА БАБЕК

Особенности рекламных текстов и роль языка в них

РЕЗЮМЕ

В статье рассматриваются особенности рекламных текстов и роль целенаправленного использования в них языковых единиц в процессе коммуникации.Особенности рекламных текстов: показана информативность

рекламы путем рассказа различных историй, описания использования и особенностей товара или услуги; в текстах изложена роль обработки коротких, средних, очень длинных сообщений в продвижении бренда и сущность принципа лаконичности; в рекламных текстах проанализированы методы убеждения, используемые для формирования доверия потребителя к бренду.

Впервые в статье объясняется способность рекламы адаптироваться к современным коммуникационным и рыночным условиям, придавая рекламным текстам свойство “гибкости”. Изменение рекламного содержания и сообщений в современную эпоху связано не только с визуальными, техническими проблемами, но и с динамическим характером языка. Гибкость языка рекламы наблюдается при быстром изменении различных языковых структур, стилей, использовании новых форм выражения.

Уникальность рекламы (платная форма, неперсонализация, убедительность, посредничество) - это характеристики, определяющие силу ее коммуникативного воздействия. Эти термины были созданы и объяснены впервые в области рекламы на азербайджанском языке.

В результате, особенности рекламных текстов на азербайджанском языке и возможности использования языковых единиц указали на их сущность как на один из основных факторов, усиливающих их действенность и эффективность.

MAHİN GASİMOVA BABEK

Features of Advertising Texts and the Role of Language in Them

SUMMARY

The article deals with the peculiarities of advertising texts and the role of the purposeful use of language units in them in the communication process. Features of advertising texts: advertising’s capacity to inform is often conveyed through storytelling, describing the use and characteristics of a product or service; the texts explain the role of short, medium, and long message handling in brand promotion and the essence of the principle of conciseness; persuasiveness methods used to build consumer confidence in the brand are analyzed on advertising texts.

For the first time, the article gives the peculiarity of “agility” of advertising texts and explains the ability of advertising to conform to modern communication and market conditions. In the modern era, the evolution of advertising content and messages is not solely attributed to visual and technical considerations, but also intrinsically linked to the dynamic nature of language. The agility in advertising language is observed through the rapid adaptability of diverse linguistic structures and styles, and the utilization of novel forms of expression.

Advertising’s uniqueness, defined by characteristics such as its paid form, non-personal nature, persuasiveness, and mediation, is fundamental to its communicative

effectiveness. It is worth noting that these foundational terms were first developed and elucidated within the realm of advertising in the Azerbaijani language.

Building upon this, the distinct qualities of advertising texts in Azerbaijani, along with the strategic application of its linguistic resources, are considered primary contributors to augmenting advertising's reach and efficacy.

"Reklam" termini latınca "yüksək səslə qışqırmaq"; "xəbərdar etmək" mənalı [reclamare] sözündən gəlir. İngilis dilində isə reklam [advertising] termini ilə ifadə edilir; bu termin ingilis dilindən tərcümədə "bildiriş" deməkdir və istehlakçının diqqətini məhsula (mallara, xidmətə) cəlb etmək, bu məhsul, yaxud xidməti almaq üçün məsləhətlər, müraciətlər, təkliflər, tövsiyələr yaymaq kimi şərh olunur.

Reklamın çox sayda fərqli tərifi var. Bəzilərini nəzərdən keçirək. Məşhur marketoloq Filipp Kotler reklama belə tərif verir: "Reklam – müəyyən bir müştərinin fikirlərinin, mallarının və xidmətlərinin fərdi olmayan təqdimatı və təbliğinin hər hansı bir pullu formasıdır". 1968-ci ildə nəşr olunan "Ticarətdə reklam" kitabının müəllifləri D.V.Bekleshov və K.G.Voronov reklamı belə müəyyənləşdirirlər: "Reklam reklamverəndən açıq şəkildə gələn və satışını artırmaq, müştərini genişləndirmək, səs almaq və ya ictimai təsdiq almaq üçün ödədiyi şəxs, mal, xidmət və ya ictimai hərəkat haqqında yazılı, əlyazma, şifahi və ya qrafik bildirişdir" [3, s. 15]. O.A.Feofanovun fikrincə, reklam "reklam obyektlərini bazara fəal şəkildə tanıtmaq, habelə şirkət, təşkilat və cəmiyyətin ayrı-ayrı qurumları üçün müsbət imic yaratmaq məqsədi ilə potensial istehlakçıların şüuruna təsir göstərən psixoloji tədbirlər məcmusudur" [4, s. 3].

Müasir reklam müxtəlif iqtisadi qurumların, o cümlədən reklamverənlərin, reklam agentliklərinin, reklam məlumatlarının yayılması vasitələrinin, müxtəlif tədqiqat və texniki xidmətlərin mövcudluğunu və fəaliyyətini əhatə edən güclü bir sənayedir. Kütləvi satışın təşkili sisteminin bir vasitəsi kimi reklam həm ölkəmizdə, həm də dünyada həyat səviyyəsinin yüksəlməsinə kömək edən əsas hərəkətverici qüvvələrdən biridir. Reklam iqtisadçılar, psixoloqlar, sosioloqlar, jurnalistlər, dizaynerlər, həmçinin dilçilər tərəfindən öyrənilir. Hər bir elm sahəsi öz metodologiyasından istifadə edərək reklam fəaliyyətini təhlil edir.

Reklam mətnlərinin özəllikləri və onlarda dilin rolu

Yığcamlıq

Bütün səviyyələrdə dil vasitələrinin imkanlarından istifadəyə əsaslanan reklam mətni müasir cəmiyyətin müxtəlif stereotiplərinin və həyat tərzinin formalaşmasına əhəmiyyətli təsir göstərir. Reklam mətnləri yaradarkən dilin intralinqvistik imkanlarından istifadə etmək lazımdır. Dilin leksik və qrammatik vasitələrindən istifadə qaydalarını bilmək güclü, inandırıcı, hərəkətə sövq edən emosional mətnlərin yaradılmasına kömək edir. Reklamın mövzusunu ifadə edən mətnin məqsədi bir qrup insanların maraqları ilə əlaqələnməli, reklam olunan məhsul və ya xidməti alıcının

ehtiyacını necə ödəyə biləcəyini izah etməlidir, yəni məhsul nədir, necə faydalı olacaq, onu haradan almaq olar, nə qədər qiymətə başa gəlir və s.

Müasir alıcı ağıllı, təhsilli və seçicidir. Buna görə də reklam mətninin üslubu, tərzi onların zövqlərini və dəyərlərini əks etdirməlidir. Reklam mətnləri bir çox komponentdən ibarətdir: çap reklamlarında əsas elementlər – başlıqlar, alt başlıqlar, əsas mətnlər, rubrikalar, şüarlar, loqolar, vizual vasitələr, möhürlər, avtoqraflar, əlavələr və çərçivələr; radio, televiziya reklamlarında isə mətn tələffüz edilir, yaxud görüntüsü verilir. Bunlar hamısı bilikdə effektiv reklam mətni yaradır. Əsas reklam mətninin bir neçə təsnifatı var: reklam mətninin uzunluğuna görə; reklam məlumatının təqdim edilməsi üsuluna görə; reklam mesajının məqsədinə görə; reklam mətninin tərkibinə görə. Reklam mətninin uzunluğuna görə təsnifatı. Reklam mətnləri uzun və qısa olaraq iki yerə bölünür. Əksər reklam mesajlarında orta uzunluqda mətnlərdə (üç-on cümlə), çox uzun mətnlərdə (on cümlədən çox), qısa mətnlərdə (bir və ya iki cümlə) istifadə olunur [2, s.15-16]. Minimal reklam mətni bir-iki cümlədən ibarətdir, belə reklamlarda əsas rolu obraz oynayır və mətn reklam mesajının mənasını tamamlayır, aydınlaşdırır. Mətnlərdə qısa ifadə və cümlələrdən istifadə etmək yığcamlıq yaradır. Qısa mətnlər minimum sözlərlə, maksimum məlumat verir. Lakin qısa, yığcam mətnlərdən hər bir məhsulun reklamında istifadə etmək olmaz. Çünki təfərrüatlı, müfəssəl təsvir olunmalı məhsullar, xidmətlər var. Məsələn, istehlakçılar avtomobil, turist səfərləri, daşınmaz əmlak və s. maddi cəhətdən yüksək olan məhsullar və xidmətlər barədə maksimum məlumat almaq istəyirlər. Çap reklamlarında başlıqların tərtibində qısalıq, yığcamlıqdan istifadə edilir. Çox vaxt oxucunun gözü qəzetə və ya jurnala baxarkən sözün əsl mənasında reklam başlıqları üzərinə sürüşür, bir anlıq orada qalır. Başlıq reklamın çox vacib hissəsidir, çünki oxucuların təxminən 80%-i əsas reklam mətnini oxumağa zəhmət çəkmədən yalnız başlıqlara göz gəzdirir. Əksər insanlar bir səhifəni oxumağa təxminən dörd-beş saniyə sərf edirlər, belə olduqda başlıq oxucunun diqqətini cəlb etməsə, maraq yaratmasa, istehlakçını eyni zamanda məhsulu, xidməti satmaq imkanını itirirsiniz. Buna görə də başlıq nə qədər qısa, yığcam, mənalı olsa, öz işləri ilə məşğul olan insanları bir o qədər tez cəlb edər. Qısa mətnlərin iki semantik növü var: Mənası qeyi-müəyyən olan obrazlı mətnlər. Bu, çox vaxt əsas keyfiyyətlərini təsvir və ya sözlə çatdırmaq çətin olan məhsulların reklamında istifadə olunur. Belə mətnləri istehlakçı özü şərh etməlidir. Buna ətir, içki və s. kimi reklamlar daxildir: "*İçindəki gücü oyat, daim hərəkətdə ol. Bizon güc məndədir*" (içki) , "*Emotion. Sevgi səni də əhatə etsin*' (ətir), "*Red Bull Qanadlandırır*" (içki). Mənalarının izah edilməsini tələb etməyən konkret, aydın şəkildə qurulmuş ifadələrdən ibarət reklam mətni. Məsələn, "*Kərə ləzzətli Möcüzə. Hər ləzzət onunla başlayır*" (yağ), "*Doğum gününün rəngi Blue. Blue Diamond, hər qadının haqqı*" (brilyant), "*İmkansıza nail olmaq üçün. Avtomatik park sistemi ilə Yeni Ford Focus*" (maşın).

İnformativlik

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.257-267

Əsas reklam mətnləri reklam mesajının məqsədindən asılı olaraq bölünür: hədəf auditoriyasının məhsula diqqətini və marağını saxlamalı olan əyləncəli reklam mesajı; reklam olunan məhsul haqqında yeni fikir verməli olan məlumatlandırıcı reklam mesajları. Əyləncəli reklamlar əyləncəli təqdimat, yumor, maraqlı müşahidələr və şən bir mesaj ilə xarakterizə olunur. Məlumatlandırıcı reklamlarda isə mesaja qoyulan əsas tələb, məhsul haqqında fikir oyatmaq deyil, hədəf auditoriyasını məlumatlandırmaq və seçimlərinə təsir etməkdir. Belə reklam mətnləri informativ məzmunda olur. İnformativ məzmunlu mesajlar üç formada ifadə edilir:

1. Məhsul və onun istifadəsi haqqında müxtəlif hekayələr danışaraq məlumat vermək. Buna "Kipr adasının qızıl çimərlikləri və portağal bağları" adlı turizm ilə bağlı reklam mətnini nümunə göstərmək olar:

"*Kipr həm minlərlə illik tarixi ilə həmdə ilin istənilən vaxtında Kiprdə tətil etməyi mümkün edən unikal iqlimi ilə turistləri cəlb edən herətamiz bir adadır. Burada hər kəs özünə uyğun məşğuliyyət tapa bilər — diskoteka sevənlər üçün Ayia Napa çimərlikləri, qədim tarixi yerləri gəzməyi sevənlər üçün isə Pafos şəhəri*".

"*Kipr uşaqlarla tətil üçün ideal yerdir. Birincisi, Kiprə uçuş cəmi üç saatdır (və həmvətənlərimizin Kiprə səfər etmək üçün vizaya ehtiyacı yoxdur), ikincisi, bir çox otellər uşaqlarla, uşaq hovuzlarında və su parklarında qeydiyyat zamanı endirimlər təklif edir və üçüncüsü, kiprlilərin uşaqlara münasibəti xüsusi qeyd olunmalıdır – onlar həmişə mehribandırlar və uşaqları çox sevirlər*".

"*Kiprdə bir çox görməli yerlər, Afrodita ilə bağlıdır — əfsanəyə görə, o dənizdən çıxaraq məhz Kipr sahlinə ayaq basıb. Ümmumiyyətlə, ada qədim yunan mifologiyasının ilə bağlıdır. Daha sonra ortaya çıxan xristianlıq Kiprə böyük təsir göstərdi, adada çoxlu pravoslav kilsələri və bir neçə monastır mövcuddur. Bunlardan ən məşhuru, müqəddəs Məryəmin sağ qalan üç ikonasından birinə sahib olan Kykkos monastırıdır*" [2, s. 29].

2. Məhsulun əsas xüsusiyyətlərini (tərkibi, tətbiq üsulu, texniki və s.) təsvir edərək məlumat vermək. Məsələn:

"*Uzunmüddətli üslub – bahar qurtuluşu! İndi qar, indi yağış, indi külək. Ya papağınızı çıxarın, yada taxın. Bu səbəbdən, yazda saç düzümlərimiz bir neçə saat ərzində görünüşünü itirir! Və yalnız ilin bu vaxtında ən yaxşı görünmək istəyirsən. 'Style' salonunda sizin üçün ediləcək uzunmüddətli üslub proseduru sizi xilas edəcək. Bu üslub 6-8 həftə davam edir! O həcm əlavə edir, lakin saç düzümünün təbiiliyini qoruyur. Kimyəvidən fərqli olaraq, uzun müddətli üslub saçlara zərər vermir və hətta onlara qulluq edir. Başqa bir artı: bu üslub saçdan yumşaq bir şəkildə çıxır, buruq və yeni yetişən düz saçlar arasında aydın sərhəd qoymur*" [2, s. 30].

3. İstehlakçı problemini həll etmək üçün hazırlanmış məhsulun reklamı **izahlı reklam** adlanır. Bu cür reklamlar niyə? nə üçün? nə məqsədlə? suallarına cavab verir. Dərman və vitamin reklamlarını nümunə göstərmək olar:

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 257-267

"*Antibiotiklər pis bakteriyalarla mübarizə apararkən bağırsaqdakı faydalı bakteriyaları da məhv edə bilər. Bu, bağırsaq balansını poza və bəzi arzuolunmaz vəziyyətlərə səbəb ola bilər. Enterogermina probiotik tərkibindəki milyardlarla faydalı bakteriya ilə bağırsaqda tarazlığı bərpa edərək həzm sistemini tənzimləməyə və immunitet sistemini dəstəkləməyə kömək edir. Güclü həzm, güclü immunitet üçün Enterogermina*".

"*Nəfəs darlığı, xırıltılı öskürək, halsızlıq varsa, xəstəliklə qarşı-qarşıyasınız. Bronxonat şərbəti. Öskürək və qıcıqlanmanı azaldır, tənginəfəsliyi aradan qaldırır, bəlğəmin orqanizmdən xaric olmasını təmin edir. Herba Flora`dan sirob formasında. Öskürək varsa, Bronxonat var*!".

Çeviklik

Reklamın dilinin çevikliyi, dilin müasir kommunikasına və bazar şərtlərinə uyğunlaşma qabiliyyətini ifadə edir. Dilin çevikliyi reklamın effektivliyini artıran, auditoriya ilə əlaqə qurma və mesajın çatdırılması prosesini sürətləndirən əsas faktorlardan biridir. Müasir dövrdə reklam məzmununun və mesajlarının dəyişməsi yalnız vizual, texniki məsələlərlə bağlı deyil, eyni zamanda dilin dinamik xüsusiyyəti ilə də əlaqəlidir. Reklam dilində çeviklik, müxtəlif dil strukturlarının, üslublarının sürətlə dəyişə bilməsi, yeni ifadə formalarının istifadəsilə müşahidə olunur. Reklamda çevikliyi iki əsas (dil və texniki baxımdan) aspektdə verə bilərik:

1. Dilçilikdə çevik yanaşma, dilin fərqli səviyyələrində, məsələn, morfologiya, sintaksis, leksika sahəsinə uyğun dəyişiklik etməyi tələb edir.

a) Reklamda morfoloji səviyyədə çeviklikdə sözlərin quruluşu və dəyişmə formaları daha qısa, yığcam, təsirli ola bilər. *Azərçay* ("Azərbaycan" və "çay"), *Azercell* ("Azərbaycan' və "cell" celular – mobil rabitə) qısaldılmış söz formalarını (brend adlarını) nümunə göstərmək olar.

b) Sintaktik səviyyədə – uzun və mürəkkəb cümlələr əvəzinə qısa, yığcam, emosional xarakterli cümlələrdən, elliptik cümlələrdən, paralel sintaktik quruluşlardan istifadə olunur:

"*Bizim yeni məhsulumuz bazarda inqilabi bir yenilikdir! Yüksək keyfiyyət, sərfəli qiymət və unikal dizayn ilə fərqlənir. Bu məhsul, gündəlik həyatınızı daha rahat və zövqlü edəcək. İndi əldə edin və bu fürsəti qaçırmayın!" (Texnoloji cihazlar, ev əşyalarına aid reklam mətni)* → "*İnqilabi məhsul! Yüksək keyfiyyət, sərfəli qiymət, unikal dizaynla həyatınızı asanlaşdırın. İndi alın!*" (Qısaldılmış, çevik versiyalı cümlə).

"*Yeni model, yüksək sürət və zəmanət ilə təklif olunur, sizə lazım olan hər şey burada təqdim edilir. İndi alaraq bu üstünlüklərdən yaralanacaq və tam mükəmməl təcrübə əldə edəcəksiniz!*" (Avtomobil reklamı) → "*Yeni model. Yüksək sürət. Zəmanət. Bütün ehtiyaclarınız burada. İndi al!*" (Elliptik cümlə şəkilində).

c) Reklam məzmununun dinamik şəkildə dəyişməsi, dilin leksik səviyyəsinə uyğunlaşmasını və yenilənməsini zəruri edir. Hər dəfə yeni reklam kampaniyası

təqdim olunarkən dil strukturunda baş verən dəyişikliklər istehlakçı psixologiyasına təsir etməklə yanaşı, reklamın təsir gücünü və yadda qalma qabiliyyətini artırır. Bu dəyişikliklər, əsasən, məhsul və xidmətlərin yeniliklərinə uyğun olaraq terminoloji leksikanın zənginləşməsi, ekspressiv leksikanın geniş istifadəsi, müasir trendlərə uyğunlaşma və neologizmlərin formalaşması kimi bir çox istiqamətlərdə özünü göstərir. Məsələn, "*Yeni* ***Smart TV– ultra HD*** *keyfiyyət, maksimum rahatlıq*!". Burada hər iki alınma termin "Smart TV" və "ultra HD" müasir texnologiyaya əsaslanan məhsulun üstünlüklərini vurğulamaq üçün istifadə edilib. "Smart TV" ifadəsi televizorun ağıllı sistemlərə, internetə və müxtəlif proqramlara qoşulmaq imkanını, "ultra HD" isə daha keyfiyyətli görüntü imkanı verir.

Dildə çeviklik, trendləri, mövsümə və situasiyaya əsaslanan aktual məsələləri, qısa müddət ərzində dəyişən dil strukturlarını və mesajları özündə əks etdirir. Reklam, mədəni, sosial, psixoloji dəyişikliklərə əsaslanaraq dilində uyğunlaşma prosesini həyata keçirir:

Mədəni dəyişikliklər — cəmiyyətin dəyərləri, adət-ənənələri, dünyagörüşü zamanla dəyişir. Qloballaşma və mədəni mübadilə nəticəsində mədəniyyətlər arasında əlaqə yaranır. Reklamın dili, auditoriyaya fikirlərini daha effektiv şəkildə çatdırmaq üçün yerli və qlobal elementləri balanslaşdırmalı və dəyişikliklərə uyğunlaşmalıdır.

Sosial dəyişikliklər — reklam mətnləri cəmiyyətin şüurundakı dəyişiklikləri, müxtəlif sosial prosesləri (texnoloji inkişaf, ekoloji problemlər, gender bərabərliyi və s.) nəzərə alaraq sosial məsuliyyət daşıyan mesajlarla dəstəklənməlidir.

Psixoloji dəyişikliklər — insanların psixoloji vəziyyətindəki dəyişikliklər onların düşüncə tərzlərinə, reaksiyalarına, davranışlarına təsir edir. Reklamla auditoriya arasında təsirli və güclü əlaqə qurmaq üçün bu cür psixoloji dəyişikliklər diqqətə alınmalıdır.

2. Reklamın çeviklik əlamətlərindən biri də məzmununun sürətlə dəyişməsidir. Elektron lövhələrdə göstərilən reklamların 2-3 dəqiqə ərzində dəyişməsi, eləcə də sabit lövhələrdə olan reklamların daimi yenilənməsi çevikliyin açıq göstəricidir. Çevikliyi ilə seçilən qısa reklamlar, ən son aktual məlumatları, məhsul və xidmətlə bağlı təklifləri mövcud vəziyyətə uyğunlaşdırır və zamanın dəyişən tələblərinə cavab verir. Sosial şəbəkələr və rəqəmsal platformalar vasitəsilə yayımlanan reklamlar müəyyən hadisələrə, yeniliklərə, görə tez bir zamanda məzmununu dəyişdirə və uyğunlaşdıra bilər. Tez-tez dəyişən məzmun, kreativliyə, yeni ideyalar və yanaşmalar üzərində işləməyə sövq edir. Məsələn, "Azercell", "Coca-Cola" markaları (bayram günləri, müəyyən hadisələrlə bağlı) xüsusi təbrik və təkliflər təqdim edərək mühitə uyğun reklam strategiyaları qururlar.

İnandırıcılıq

Əsas reklam mətnlərinin məqsədinə görə növlərindən biri də inandırıcı reklam mətnləridir. Reklam mətnlərində inandırıcılıqla bağlı Y.M.Penkova qeyd edir ki,

"məzmunu boyunca reklamın təsirini göstərmək üçün inandırmaq anlayışından istifadə olunur, reklamın özünü isə çox vaxt "inandırıcı kommunikasiyası" adlandırırlar. Yada salsaq ki, inandırmaq təkid, məsləhət şüura təsir yolu ilə dilə gətirmək meylləndirmək deməkdir, bu halda qarşımızda reklam məlumatlarının əsas fərqini dəqiq və dolğun formulu (düsturu) durur" [1, s. 247]. Reklamın tərtibində hədəf auditoriyasına uyğun olan arqumentləri aydın, ardıcıl şəkildə elə qurmalısınız ki, onun tipik bir nümayəndəsi sizə inansın və onda məhsulla bağlı hər hansı bir qeyri-müəyən hal olmasın. Bunun üçün istehlakçının verə biləcəyi sualları öncədən təxmin edib, onlara cavab verərək mətn tərtib etmək daha yaxşı olar.

Məhsulun alınmasını təşviq etmək üçün məntiqi və məcazi arqumentasiyadan istifadə olunur. Məntiqi arqumentasiya, mətndə cümlələri əvvəlki deyilənlərlə əlaqələndirərək, məhsulun funksionallığından, keyfiyyətindən, praktik istifadəsindən və s. bəhs edərək müştərilərin fikirlərini formalaşdırmağa, marağını artırmağa xidmət edir.

Məcazi arqumentasiyada isə müştərilərin hiss və duyğularına təsir edən ifadələrdən, məhsulun cazibəsini artırmaq üçün simvollar və təsvirlərdən, emosional ehtiyacları necə qarşılaya biləcəyini, yaxud insanların həyatında necə bir fərq yarada biləcəyini ehtiva edir. İnandırıcı reklam mətnində arqumentlər iki mənada istifadə oluna bilər: müsbət – burada adətən məhsulun (xidmətin) bütün mümkün üstünlükləri sadalanır; mənfi – istehlakçıya məhsuldan (xidmətdən) istifadə etmədikdə onu hansı xoşagəlməz nəticələr gözlədiyini söyləməklə qorxudur. İnandırmanın maraqlı bir versiyasını Kolumbiyada Ana Boyl markasına aid iki reklam mətnində görə bilərik. Burada Ana Bolye paltarı geyinsəniz, istənilən havanın həzz verəcəyi vuğulanır:

"*Qışın gəlişi ilə isti yorğana bürünüb uzun müddət televizor ekranı qarşısında oturub növbəti seriallara baxmaq istəyirsiniz? Ana Boyl sizin qış əyləncənizin qaydalarını pozacaq. Kayaklar, xizələr, konkilər və televizor yoxdur. İsti yorğan əvəzinə, Ana Boyl`dan paltarlar: gödəkçələr, şalvarlar, yun sviterlər. Qış soyuqluğundan qorunmağa zəmanət verilir. Qarşıda sizi ağ qarla örtülmüş məsafələr, yumşaq qar və soyuqda qıcırdayan addımlar gözləyir*"

"*Necə də həmişə cazibədar görünmək və başqalarının nəzərini cəlb etmək istəyirsən... Ana Boyl` dan üst geyimlər sənə qışda 100% görünmək imkanı verəcək. Üst geyim kolleksiyadan aşağı gödəkcələri və izolyasiyalı şalvarları mümkün qədər tez geyin və evdən daha tez çıxın. İndi bir çox xoş şeylər edə bilərsiniz: qarda yıxılın, qartopu oynayın və hətta sürüşün. Sizi əmin edirik ki, başqalarının paxıllığını və diqqətini çəkəcəyinizə zəmanət veririk!*" [2, s. 31-32].

Reklam mətnində inandırıcılığı daha qabarıq göstərmək üçün məhsulun reklamında müəyyən üsullardan istifadə edilir. Məsulun dəqiqliyi və doğruluğu göstəmək üçün onun keyfiyyəti, imkanları və qiyməti aydın şəkildə verilir, məsələn:

"*Güclü 16 MP kamerası sayəsində şəkillərinizə layiq olduqları dərinliyi və təfərrüatı verin. Sürətli və dəqiq Avtomatik Fokusla unudulmaz anları onlar yoxa çıxmazdan əvvəl çəkin. Minimalist dizaynı və zərif görünüşü ilə yanaşı, son dərəcə davamlı 3D şüşə arxa dizaynı və optimal 5,7 ekran ölçüsü ilə maksimum həzz üçün nəzərdə tutulmuşdur. Toz və suya qarşı qoruma təmin edən IP68 avadanlığı sayəsində siz Galaxy A- dan etibarlı şəkildə istifadə edə və sərt təbii şəraitə uyğunlaşa bilərsiniz*".

Reklam mətnlərində informasiyanın əsaslığını, etibarlılığını göstərmək üçün məhsulun və ya xidmətin yaranma tarixi, fəaliyyətləri (hekayə şəklində də reklam ola bilər), tədqiqat nəticələri, test nəticələri, praktiki sübutlar verilərək inandırıcılıq yaradılır:

"*1947-ci ildən bəri Azərbaycan Respublikasının qədim Naxçıvan diyarının adıyla və dadıyla məşhur olan Badamlısı böyükdən kiçiyə hər kəsin sevə-sevə içdiyi və keyfiyyətinə güvəndiyi şəfalı sudur. Dünya alimləri dəqiq araşdırmalar nəticəsində Badamlının tərkibindəki mineral maddələrin insan orqanizmi üçün gərəkli olduğunu müəyyən etmişdilər. Beləki artıq 1970-1980-ci illərdə qablaşdırılan bu suyun 90%-i respublikamızdan kənara göndərilirdi. Badamlı insan əli dəymədən Fransa şirkətinə məxsus Sidel avadanlıqları ilə şüşə və plastik qablara doldurulur. Badamlı mineral suları milli və beynəlxalq standartlara uyğun İSO 9001 Keyfiyyətin idarə olunması və İSO 22000 Qida təhlükəzliliyin idarə olunması sertifkatına malikdir. Gəmiqaya mineral sular, MMC-nin dağlardan süfrənizə gətirdiyi təbii mineral suyu Badamlı, adıyla və dadıyla həyatınızın hər anında sizin yanınızdadır*".

Reklamın təqdimatında müştərilərin həqiqi rəyi və təsirli bir reklamın təsvir olunması inandırıcılığı artırır. Reklam təqdim olunmasında üç növ rəydən istifadə olunur: məşhur şəxslərin; peşəkar mütəxəssislərin; adi insanların. Reklam obyektini xarakterizə edən şəxsin həqiqətən etibarlı olması, istehlakçılar arasında məşhur olması inandırırcılıq yaradır, diqqəti cəlb edir, yadda qalan edir, istehlakçıya təsir göstərir. Belə reklamlar baha başa gəlməsinə baxmayaraq, bəzi hallarda hədəf auditoriyasında müsbət reaksiya yaratmaya da bilər. Ümumiyyətlə, 'mən diş həkimiyəm' 'mən müəlliməm' və s. kimi ifadələrlə aktyorların tez-tez peşəkar rolunda çıxış etməsi reklama inamı azaldır.

Reklamda peşəkar mütəxəssislərin (kosmetik mərkəzin direktoru, müsabiqənin qalibi, professional həkimlər və b.) ifadələrində məhsulun keyfiyyətinin vurğulaması istehlakçının reklama inamını artırır:

"*Rekkit Benkizer' laboratoriyasının elmi əməkdaşı: Hər yumada Calgon 2&1-də istifadə edin. O, suyu yumşaldaraq ərpin qarşısını alır və paltaryuyan maşınını qoruyur. Calgon 2&1- də elə, cod su heç bir iz buraxmır. Paltaryuyan maşın istehsalçıları hər yumada Calgon tövsiyə edir (Rekkit-Benkizer laboratoriyasının 2010-cu il məlumatlarına əsasən*)".

Adi insanların ifadələri reklamda inandırıcılılıq, etibarlılıq təsiri yaradır, çünki istehlakçılar sosial və mədəni reallıqlarına uyğun prototiplərlə daha asan əlaqə qururlar. Bu baxımdan, reklam qəhrəmanının hədəf auditoriyası üçün tanış, tipik bir obraz kimi (vizuallığı, davranışı, üslubu ilə) formalaşdırılması mühüm rol oynayır.

Özünəməxsusluq

Əvvəlki paraqraflarda reklamın müxtəlif tərifləri nəzər yetirmişdik. Tərifl ərdə olan müxtəlif yanaşmalara baxmayaraq, onların ümumi əsas xüsusiyyətlərini qeyd edə bilərik. Reklamın özünəməxsus xüsusiyətlərinə daxildir:

Ödənişlilik / Платность / Paymentability. Məhsul və ya xidməti tanıtmaq üçün həyata keçirilən reklam fəaliyyətinin xərcləri və gəlirləri arasında əlaqə quran anlayışdır. İstehlakçının istəklərini və ehtiyaclarını ödəyən reklam məzmunu yaratmaq üçün yaradıcılıq işləri görülməsi tələb olunur. Yaradıcılıq işləri müəyyən bir ödəniş qarşılığında reklam agentlikləri tərəfindən həyata keçirilir. Qiymətlər agentlikdən asılı olaraq dəyişə bilər. Ancaq yadda saxlamaq lazımdır ki, aşağı qiymət vacibdir, lakin əsas seçim deyil. Çünki yaxşı iş demək olar ki, həmişə bahalıdır. Reklamın hazırlanmasında sponsor olan şirkətlər ola bilər, bu zaman sponsorun brend adı, loqosu və digər tanıdıcı özəlliklərinin daxil edilməsi qarşılığında reklam xərclərini qarşılamağı öz öhdəsinə götürür.

Şəxsiləşdirilməzlik / Неперсонифицированность / İmpersonalization.. Reklam, reklamçılar tərəfindən müxtəlif media vasitəsi ilə məhsullar, xidmətlər haqqında ödənişli və inandırma xarakteri daşıyan məlumatların fərdi olmayan ötürülməsidir. Reklam mesajı hər zaman müəyyən bir auditoriyanı, insan qrupunu hədəf alır. Bu qrupa: gənclər, yeniyetmələr, evdar qadınlar, iş adamları və s. daxildir. Reklam mesajı auditoriyanın diqqətini çəkir, maraqlarını ifadə edir, ancaq istehlakçı ilə arasında şəxsi əlaqə olmur və o reklama cavab vermək zəruriliyi hiss etmir.

Tövsiyəçilik / Увещевательность / Recommendation. Reklamlar yaradılarkən müəyyən bir qrup seçilir. Bu qrupun istəkləri, maraqları, ehtiyacları üçün lazım olan məhsullar göstərilir, üstünlüklərindən bəhs edilir və onlara bu məhsuldan istifadə edərək daha yaxşı bir halda, vəziyyətdə olacaqlarına inandırılır. Reklamda tövsiyə təlimat xarakterli də olur. Bu zaman reklam arqumentləri reklam edilən məhsuldan (xidmətdən) istifadə üçün məlumatları təlimat şəklində verir. Mətndəki təlimatlar hərəkətlərin ardıcıllığını göstərir. Bu təlimatlar istehlakçını məcburiyyət qarşısında qoymur, əmr kimi qəbul edilmir. Məhsulun keyfiyyətini göstərmək üçün təcrübələrdən və rəylərdən (adi, peşəkar, məşhur insanlardan) istifadə edilir.

İstehlakçı isə müstəqil şəkildə ona tövsiyə edilən məlumatlardan nəticə çıxarır, məhsulun üstünlüklərini nəzərə alır və seçir. Məsələn, "*Max Factor Lipfinity uzun müddətli dayanıqlılıq. Yeyin, için, zövq alın. Dodaqlarınızdakı pomada rəngi saatlarla dəyişməz qalır. Uzun müddət qalıcı rənglə təmin edən pomada ilə başlayın, sonra nəm və parlaqlıq üçün balzamla davam edin. Bunu istədiyiniz qədər edin. Dodaqlarda heyrətamiz dərəcədə uzun müddət qalan və hələ də parlaq görünən*

rəng. Mən buna zəmanət verirəm". "The Aviator" filminin baş vizajisti Marqo Ross [16, s. 35].

Araçılılıq / Опосредованность / Mediation. Reklamın geniş kütlələrə çatdırılmasında araçılılıq yaradan ünsürlər, məlumat verməyə xidmət edən kütləvi informasiya vasitələridir. Bunlara: televiziya, radio, qəzet, jurnal, reklam lövhələri və s. aiddir. Reklam informasiyanın potensial istehlakçılara çatdıran, məlumatı yerləşdirən ən geniş yayılmış araçı qurum isə reklam agentliyidir.

Reklam mətninin özəllikləri (yığcamlıq, informativlik, inandırıcılıq, özünəməxsusluq, çeviklik) və onlarda dil vasitələrinin bütün səviyələrdə məqsədyönlü istifadəsi istehlakçı davranışına təsir edərək məhsulun və ya xidmətin satışını artırmağa xidmət edir.

Ədəbiyyat

1. Fedotova, L.M. Kommunikasiya prosesində reklam / L.M.Fedotova. — Bakı: İqtisad Universiteti Nəşriyyatı, — 2008. — 444 s.
2. Бернадская Ю.С. Текст в рекламе. Учебное пособие для вузов. М.: ЮНИТИ-ДАНА, 2015. 288 с.
3. Бернадская Ю.С., Марочкина С.С., Смотрова Л.Ф. Основы рекламы. М.: 'Наука', 2005. 281 с.
4. Вахитова Т.Ф. Стилистика газетной рекламы как жанра. // https://articlekz.com/article/12382.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: fil.ü.f.d., prof. Ədalət Tahirzadə
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 268-272

https://doi.org/10.62837/2025.4.268

AYTAC PASHAYEVA
Khazar University
Master Student at Department of English Language and Literature
Baku, Azerbaijan
Aytac.psv1@gmail.com

TRANSLATING ONOMASTIC UNITS IN ALDOUS HUXLEY'S BRAVE NEW WORLD INTO AZERBAIJANI: A LINGUISTIC AND IDEOLOGICAL PERSPECTIVE

ABSTRACT

This study examines the translation of onomastic units—personal names, institutional titles, slogans, and neologisms-in Aldous Huxley's Brave New World into Azerbaijani. These names carry symbolic, cultural, and ideological weight, making their translation a complex task. Drawing on cognitive linguistics, literary onomastics, and translation theory--particularly the frameworks of Newmark, Venuti, and Nord—the research explores how these elements function within the narrative and how they are adapted in translation.

Through comparative analysis, the study identifies key strategies such as foreignization, domestication, transliteration, semantic calque, and the use of explanatory footnotes. It focuses on names like Bernard Marx, Lenina Crowne, and slogans like "Community, Identity, Stability," analyzing how their meanings are preserved or transformed.

Findings show that while much of the ideological tone is retained, some names require additional context for Azerbaijani readers. The translator's role emerges not just as a linguistic converter but as a cultural and ideological mediator.

This research contributes to literary translation and onomastic studies by offering a model for analyzing the translation of ideologically loaded names, emphasizing the cultural and interpretive depth required in this process.

Keywords: onomastics, literary translation, Brave New World, translation strategies, ıdeological transfer, cultural adaptation, azerbaijani translation

AYTAC PAŞAYEVA

ALDOUS HUXLEY-NİN "CƏSUR YENİ DÜNYA" ƏSƏRİNDƏKİ ONOMASTİK VƏHDLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ: LİNGVİSTİK VƏ İDEOLOJİ YANAŞMA

XÜLASƏ:

Bu məqalə Aldous Huxley-nin məşhur distopik romanı Cürətli Yeni Dünya əsərindəki onomastik vahidlərin—yəni şəxsi adların, institusional adların, şüarların və neologizmlərin—Azərbaycan dilinə tərcüməsini araşdırır. Bu adlar yalnız ad

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.268-272

çəkmək məqsədi daşımır, eyni zamanda simvolik, mədəni və ideoloji mənalar daşıyır və bu da onların tərcüməsini mürəkkəbləşdirir.

Tədqiqat kognitiv dilçilik, ədəbi onomastika və tərcümə nəzəriyyəsi (xüsusilə Newmark, Venuti və Nord-un yanaşmaları) əsasında qurulmuşdur. Müəllif, orijinal və tərcümə olunmuş mətnlər arasında müqayisəli təhlil apararaq transliterasiya, semantik kalk, yadlaşdırma, mənimsətmə və izahedici qeyd (futnot) kimi strategiyaların necə istifadə olunduğunu araşdırır.

"Bernard Marks", "Lenina Kraun" kimi adlar və "Birlik, Eynilik, Sabitlik" kimi şüarların mənalarının Azərbaycan dilində necə qorunduğu və ya dəyişdirildiyi əsas diqqət mərkəzindədir. Nəticələr göstərir ki, tərcüməçi yalnız dil çevirməklə deyil, həm də ideoloji və mədəni kodların ötürülməsində vasitəçi rolunu oynayır.

Bu tədqiqat ədəbi tərcümə və onomastik analiz sahələrinə töhfə verir və ideoloji yüklü adların tərcüməsində tələb olunan mədəni və semantik dərinliyi vurğulayır.

Açar sözlər: onomastika, ədəbi tərcümə, Cəsur Yeni Dünya, tərcümə strategiyaları, ideoloji ötürmə, mədəni adaptasiya, Azərbaycan dilinə tərcümə

АЙТАЧ ПАШАЕВА

ПЕРЕВОД ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ В РОМАНЕ ОЛДОСА ХАКСЛИ "О ДИВНЫЙ НОВЫЙ МИР" НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК: ЛИНГВИСТИЧЕСКИЙ И ИДЕОЛОГИЧЕСКИЙ ПОДХОД

АННОТАЦИЯ:

Данная статья посвящена переводу ономастических единиц — личных имен, названий учреждений, лозунгов и неологизмов — в романе Олдоса Хаксли О дивный новый мир на азербайджанский язык. Эти единицы несут глубокую символическую, культурную и идеологическую нагрузку, что делает процесс их перевода особенно сложным.

Анализ опирается на теоретические подходы когнитивной лингвистики, литературной ономастики и переводоведения, в частности, на труды Ньюмарка, Венути и Норд. В ходе сопоставительного анализа рассматриваются стратегии перевода, такие как транслитерация, семантический кальк, форенизация, доместикация и использование сносок для объяснения контекста.

В центре внимания — имена, такие как Bernard Marx, Lenina Crowne, Mustapha Mond, а также лозунги вроде "Community, Identity, Stability" и термины как "Soma" и "Hypnopaedia". Выводы показывают, что переводчик выступает не только как лингвист, но и как посредник между идеологиями и культурами.

Исследование вносит вклад в развитие теории литературного перевода и ономастики, подчеркивая, что перевод имен — это не просто техническая

задача, а акт интерпретации, требующий культурного и семиотического осмысления.

Ключевые слова: ономастика, литературный перевод, О дивный новый мир, переводческие стратегии, идеологическая трансляция, культурная адаптация, перевод на азербайджанский язык

Introduction

The translation of ideologically and culturally rich texts poses a unique challenge, particularly when it involves onomastic units such as character names, institutional titles, slogans, and neologisms. Aldous Huxley's Brave New World exemplifies this, using names as tools for satire and ideological critique. Translating such a work into Azerbaijani demands attention not only to linguistic differences but also to the socio-political and cultural context of Azerbaijan. Despite the increasing interest in world literature, onomastic translation remains underexplored in Azerbaijani scholarship—especially within dystopian fiction. This study fills that gap by examining the translation of names in Brave New World, offering practical and theoretical insights.

The aim of this research is to examine how onomastic units—names, slogans, invented terms, and institutional titles—are translated in the Azerbaijani version of Brave New World, and to assess how these translations affect the novel's ideological and cultural reception.

Objectives include:

- To identify and categorize onomastic units in the source text.
- To analyze their symbolic, narrative, and ideological functions.
- To explore translation challenges specific to Azerbaijani.
- To evaluate translation strategies using models by Newmark, Venuti, and Nord.
- To assess how these strategies impact Azerbaijani readers' interpretation of the text.

The study uses comparative and qualitative analysis, grounded in descriptive translation studies. Key steps include:

- Identifying onomastic units (anthroponyms, slogans, neologisms)
- Comparing English and Azerbaijani versions
- Applying frameworks by Newmark, Nord, and Venuti
- Analyzing paratextual features (footnotes, glossaries)

Theoretical Framework

The study draws on cognitive linguistics and functionalist translation theories. Peter Newmark's distinction between semantic and communicative translation helps assess accuracy versus readability. Christiane Nord's Skopos theory informs

decisions based on the purpose of translation. Lawrence Venuti's foreignization/domestication model is key in analyzing cultural visibility.

Onomastic theory—particularly classification into anthroponyms, neologisms, slogans, and ergonyms—provides the basis for analyzing names as narrative and ideological tools.

Research Process

This is a qualitative, comparative study involving:

- Identification of key onomastic units in both the English and Azerbaijani texts.
- Functional and cultural analysis of how these units are translated.
- Use of theoretical frameworks to evaluate strategy.
- Reference to the Azerbaijani translation by Ülviyyə Mütəllimova and relevant scholarly sources.
- Contextualization within Azerbaijan's linguistic and cultural backdrop.

Analysis and Discussion

The analysis shows a strategic blend of foreignization and domestication. Proper names like Bernard Marx, Lenina Crowne, and Mustapha Mond are retained with phonetic adjustments. Neologisms like Soma and Hypnopaedia are preserved to maintain their speculative tone.

Slogans such as "Community, Identity, Stability" are translated as "Birlik, Eynilik, Sabitlik", effectively preserving ideological resonance.

Strategies observed:

- Transliteration for names
- Semantic transfer for slogans
- Hybrid formations (e.g., Bokanovski metodu)
- Appositional explanation and footnotes

These techniques reflect a careful balance between preserving Huxley's satire and making the text accessible to Azerbaijani readers.

Conclusion

The translation of onomastic units in Brave New World into Azerbaijani demonstrates the complexities of literary and ideological transfer. Names are not mere labels but semiotic devices that encapsulate critique, satire, and philosophical insight. The Azerbaijani translation succeeds in balancing fidelity with readability, employing varied strategies tailored to each unit's function.

This report underscores the value of integrating translation theory with onomastic analysis. It offers a practical model for handling ideologically rich texts in culturally distinct contexts, making a meaningful contribution to both literary translation studies and onomastics.

References

A condensed selection includes:

1. Huxley, A. (1932). Brave New World
2. Newmark, P. (1988). A Textbook of Translation
3. Venuti, L. (2008). The Translator's Invisibility
4. Nord, C. (2005). Text Analysis in Translation
5. Mütəllimova, Ü. (Trans.) Cürətli Yeni Dünya

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: PhD Irina Orujova Department of Theory and Practice of Translation of Germanic Languages at Azerbaijan University of Languages tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.273-277

https://doi.org/10.62837/2025.4.273

ZƏMİNƏ MUSTAFAYEVA
ATU

ALMAN DİLİNDƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİ FRAZEOLOJİ ASPEKTDƏN

Açar sözlər: sabit söz birləşmələri, məcazi məna, frazeoloji vahidlər, idiom,atalar sözü.
Ключевые слова: устойчивые словосочетания, переносное значение, фразеологизмы, идиома, пословица.
Key words: set phrases, figurative meaning, phraseological units, idiom, proverb.

Məlum oldugu kimi dilin lügət tərkibinin zənginləşməsinin müxtəlif və coxlu yolları var ki,onardan biri də dildə yaranan sabit söz birləşmələridir. Dilin lügət tərkibi ayrı- ayrı sözlərdən və sözbirləşmələrindən, leksik vahidlərdən ibarətdir. Leksik vahidlər deyəndə təkcə ayrı-ayrı sözlər deyil, sabit sözbirləşmələri də anlaşılır. (fraza, ifadələr,nitq növləri,frazeologiya).

Qrammatik birləşmənin özü və ya onun tərkibində olan sözlər məcazi mənaya keçərək mütəhərrikliyini itirdikdə, sözlər arasında əlaqə və münasibət yaradan vasitələr donuq bir hala gəlir və o vahid bir məfhumu ifadə edir; məsələn:
jemandem das Gezicht, die Hände, den Kopf waschen- öz əsas, təməl mənasına görə sərbəst sintatik sözbirləşməsidir. Lakin-*jemandem den Kopf waschen- ifadəsi bunun tam tərsi olaraq, „kimisə məzəmmət etmək*“ məcazi anlama gəlir.[1.5]

Sabit söz birləşmələrində sözlər üzvi surətdə elə birləşir ki, onları bir-birindən ayırmaq, birini başqası ilə əvəz etmək və hər sözü müstəqim mənada düşünmək olmur. Sabit söz biləşmələrinin əsas bir xüsusiyyəti də ondan ibarətdirki, onları əksər hallarda başqa bir dilə oldugu kimi tərcümə etmək olmur və çox zaman mənasız, gülünc ifadələr alınır; məsələn: azərbaycanca- *gözə gəlməyi- rusca pritdi v qlaz*- kimi tərcümə etmək olmaz.

Sabit söz birləşmələrinin bütün bu xüsusiyyətləri onların qrammatik birləşmələrdən əsaslı surətdə fərglənməsinə və müasir dildə spesifik xüsusiyyətlərə malik ayrıca bir bəhs təşkil etməsinə imkan yaradır. Sabit səz birləşmələri istər öz semantikasına və istərsə də tərkib xüsusiyyətlərinə görə bu və ya digər dildə çox maraqlı bir kateqoriyadır. Sabit söz birləşmələrinin iki növü vardır: sabit və qeyri-sabit. Sabit söz birləşməsinə mənaca tam olaraq dəyişən və komponenlərinin mənası üst-üstə düşməyən söz birləşməsi daxildir.

- *den Mund halten “schweigen; - auf die Beine kommen- „gesund werden“*

Məhz bu dəyişməyən sabit söz birləşmələri frazeologiyaya aiddir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 273-277

Bu birləşmələr hələ də frazeoloji birləşmələr,dəyişməz söz birləşmələri,idomatik ifadələr,leksik sözbirləşmələri, idiomlar,frazemlər və s. kimi çoxlu terminlər vasitəsilə adlandırılır. Bu təsnifata daxil olan qoşa sözlər-"*Zwillinsformeln*"- də diqqəti çəkir. Onlar iki sabit söz birləşməsindən ibarət olub eyni qrammatik növə daxildir.[2.5]

- *Mann und Maus, schalten und walten, fix und fertig, hin und her.*

Strukturna görə onlar digər frazeoloji qruplardan asanlıqla fərqlənir. Bəzən onlar sözönülərlə birləşir:

-*Schritt für Schritt, Stunde um Stunde*.Bəzən daha gurultulu çıxan oyfonik sözlərdən istifadə olunur.

-*Zeck und Ziel, Kisten und Kasten, bei Nacht und Nebel, mit Ach und Krach,weit und breit*. Bəzən də istifadə olunmur: *Alt und jung, Tag und Nacht*.

Bəzən söz birləşmələri sadəcə qoşa sözlərdən ibarət olur və bu qoşa sözlərin istər antonim,sinonim,istərsə də omonimlərdən ibarət olmasının hec bir fərqi olmadan, eyni məfhumun mənasını ifadə edəcəkdir.

Beləliklə, frazeologiya bəhsində öyrənilən sabit söz birləşmələrinin aşagıdakı növləri vardır:

✓ *idiomlar; ibarələr hikmətli sözlər; atalar sözləri; zərbi- məsəllər.*

İdiomlar- həqiqi mənalı sözlərin qarşılıgı olub,onu məcazi məna ilə bildirən sabit söz birləşmələrinə deyilir. İdiom- sözü yunanca„idios"sözündən olub eigentümlich", „*originell*"-deməkdir. İdiomlar öz quruluş və semantikasına görə sabit söz birləşmələrinin mürəkkəb sözlərə daha yaxın olan ən maraqlı və həm ədəbi, həm də şifahi dildə çox işlənən bir qrupunu təşkil edir.

İdiomların ifadə etdiyi məfhum başqa sabit söz birləşmələrinə nisbətən konkret olur.İdiomlar bu və ya digər sözün ekvivalenti,məcazi məna ilə verilən sinonimi kimi dildə özünü göstərir və formaca mürəkkəb sözlərə oxşayır;[3.5]

- *Die Augen in die Hand nehmen- „genau zu sehen",sich die Beine in den Leib stehen- „lange warten", einen in Harnisch bringen- „zornig machen"u.v.a.*

İbarələr sabit söz birləşmələrinin maraqlı bir qismini təşkil edir. İdiomlarda oldugu kimi, ibarələrdə də sözlərin məcazi mənada ifadəsi əsas yer tutur. İdiomların tərkibində olan sözlərin hər biri əksər hallarda məcazi məna ifadə etdiyi halda,ibarələrin tərkibində olan sözlərdən biri cox zaman müstəqim məna ifadə edir. İdiomların tərkibində olan sözlər bir monolit təşkil edərək vahid məfhum ifadə etməyə xidmət edirsə, ibarələrin tərkibindəki sözlərin biri digərini daha da qüvvətləndirmək üçün işlədilir və məcazi məna ifadə etdiyindən,özünü onun tərkib hissəsi kimi göstərir. Lakin belə sözü aid oldugu əsas sözdən ayrı düşündükdə mənasız bir ifadəyə çevrilir;

məs.- *der gordische Knoten.-qordi düyünü*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.273-277

İdiomlar dildə onun lüğət tərkibinin ümumi bir hissəsi kimi özünə yer qazandığı halda, ibarələr əksəriyyətlə bədii dildə işlədilir. Beləliklə, ibarələr bədii dilin ən mühüm ifadə vasitələrindən biridir.

Hikmətli sözlər- istər öz mənası və istərsə də quruluşu etibarilə sabit söz birləşmələrinin başqa növlərindən, xüsusilə idiomlardan və ibarələrdən fərqlənir.Hikmətli sözlərin ifadə etdiyi məna daha geniş və kəskin olur; məs:" *von schönen Worten wird man nicht satt*"

Hikmətli sözlər formal cəhətdən və səciyyəsinə görə atalar sözlərinə oxşayır, lakin ümumi, kütləvi xarakterinə, yazılı ədəbiyyatda geniş yayıldığına, atalar sözlərilə müqayisədə mənşəyi məlum olduguna, atalar sözü ilə müqayisədə hadisələrə qarşı müsbət münasibət ifadə etməsilə onlardan fərqlənir.Hikmətli sözlər dəqiq məna ifadə etməsinə görə xalq arasında sürətlə yayılır. Buna görə də ona qanadli sözlər də deyilir.

Atalar sözü- sabit söz birləşmələrinin mühüm bir qismini təşkil edir. Atalar sözü hikmətli sözlərdən onunla fərqlənir ki, hikmətli sözlər yazılı,atalar sözü isə xalq ədəbiyyatına mənsub olub,mənşəyi bəlli olmur. Atalar sözü xalqın inkişaf tarixini öyrənmək üçün mötəbər mənbələrdən biridir.

- *Man schmiedet das Eisen, solange es heiss ist. Dəmiri isti-isti döyərlər*

Atalar sözü ümumxalq danışıq dilinə xas olan bir xqsusiyyətə də malik olur.Yəni qafiyələnir;

məsələn:- Wie gewonnen, so zerronnen,-haynan gələn, huynan gedər, einem geschenkten Gaul schaut man nicht ins Maul –bəy verən atın dişinə baxmazlar, Morgenstunde hat Gold im Munde –axşamın xeyrindən səhərin şəri yaxşıdır.usw.

Zərbi- məsəllər bəzən sadəcə məsəllər adlanır. Məna və qrammatik quruluşu etibari ilə atalar sözünə çox yaxın olsa da, zərbi məsəllərdə fikir nisbətən daha tam şəkildə ifadə olunur və nəticə cıxarılır.

Bütün yazılanlara yekun vuraraq bildirmək olarki, frazeoloji birləşmələrin istər məzmun,istərsə də forma etibarı ilə zənginliyi,dildə cox işlədilməsi dilçiləri həmişə cəlb etmişdir. Ona görə də frazeologiya diçilik elminin bir şöbəsi olan leksikologiyanın xüsusi bölməsinə çevrilmişdir.

Ədəbiyyat

1. A.Richter. Deutsche Redensarten, Leipzig 1989
2. A.A. Iskos. A. Lenkova Deutsche Lexikologie, Uçpedqiz 1963.
3. K. A. Levkovskaya. Лексикология немецкого языка. Москва. 1956.
4. H.Gottlieb.Public defense,translation and Idioms.in 1997
5. Vgl.: Palm, Christine, Phraseologie: eine Einführung/Christine Palm. – Tübingen: Narr, 1995, S. 1

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 273-277

Xülasə
Alman dilində sabit söz birləşmələri frazeoloji aspektdən

Frazelogiya (yunan sözü olub phrasis-ifadə və logos-təlim sözlərindən ibarətdir) dildə mövcud olan bütün sabit söz birləşmələrinin məcmuyu deməkdir. Frazeologizm sabit linqvistik dönüşdür ki, onun ümumi mənası artıq ayrı-ayrı komponentlərin mənalarından çıxarıla bilməz, lakin yenidən şərhə məruz qalmışdır. Orijinal motivasiya itirildi.Frazeologizmlər həmişə ən azı iki sözdən ibarətdir (yaxşı gün, əşya və ya dil varlıq evidir). Əsasən təkrar-təkrar görünən və hər bir alman danışanına tanış olan bir neçə sözün birləşməsidir. Onların leksik hissələri komponentlər adlanır. Bundan əlavə, frazeologizmləri bir çox kateqoriyalara və altkateqoriyalara bölmək olar, lakin bunlar daha sonra daha ətraflı izah ediləcəkdir. Gündəlik dildən bəzi ümumi ifadələr, məsələn, atalar sözü (yaxşı şey vaxt alır), idiom (ocaq sönür) və ya nitq şəkli (bir şey yemək) elmi terminlər kimi qəbul edilir. Bununla belə, tamamilə səbəbsiz deyil, nitq terminini ilk dəfə regional dil variantını təsvir etdiyi 17-ci əsrə aid etmək olar. İdiom indiki mənasını alana qədər J.K. Gottlieb (1732) bu ifadəni tamamilə ümumi şəkildə söz və ya söz qruplarının birləşmələri üçün istifadə etmişdir: "atalar sözündən fərqli olaraq, cümləyə daxil edilməli olan şifahi, yığcam və şəkilli ifadə". “Nitq fiquru termini elm tarixinin inkişafını əks etdirir, çünki burada işlənən dil hadisələri ilk növbədə atalar sözləri və əlaqəli hadisələr nöqteyi-nəzərindən nəzərdən keçirilirdi”[5.4].

Kristin Palma görə, frazeologiya “bir dildə sabit söz birləşmələri haqqında elm və ya tədqiq...” Bu səbəbdən frazeologizmlərə söz ehtiyatımızı genişləndirən və insan dil fəaliyyəti ilə dünyamızı adlandıran və işlədən vasitə kimi baxmaq olar[5.5].

Xülasə olaraq, alman dili üçün ümumi tətbiq olunan tərif tərtib edilə bilər: Frazeologizmlər "(...) ayrı-ayrı hissələrinin təfsirindən başa düşülməmələri ilə xarakterizə olunur və ya montajlarında o qədər möhkəm birləşiblər ki, donurlar, olduğu kimi, yalnız bu formada istifadə edilə bilər”.

РЕЗЮМЕ
УСТОЙЧИВЫЕ СЛОВОСОЧЕТАНИЯ В НЕМЕЦКОМ ЯЗЫКЕ С ТОЧКИ ЗРЕНИЯ ФРАЗЕОЛОГИИ

Фразеологизмы всегда состоят как минимум из двух слов (добрый день, вещь или язык — дом бытия). По сути, это сочетание нескольких слов, которые встречаются снова и снова и знакомы каждому носителю немецкого языка. Их лексические части называются компонентами. Кроме того, фразеологизмы можно разделить на множество категорий и подкатегорий, но они будут более подробно объяснены позже. Некоторые распространенные выражения из повседневного языка, такие как пословица (хорошие вещи требуют времени), идиома (печь гаснет) или фигура речи (съесть что-то), принимаются в качестве научных терминов. Однако не без оснований термин «речь» можно проследить до XVII века, когда он впервые описал региональный вариант языка. До тех

пор, пока идиома не приобрела свое нынешнее значение, Дж.К. Готтшид (1732) использовал это выражение в самом общем смысле для сочетаний слов или групп слов: «словесное, краткое и образное выражение, которое, в отличие от пословицы, должно быть включено в предложение» «Термин «фигура речи» отражает развитие истории науки, поскольку используемые здесь языковые явления рассматривались прежде всего с точки зрения пословиц и связанных с ними явлений» По словам Кристины Пальмы, фразеология — это «наука об устойчивых словосочетаниях в языке...» . По этой причине фразеологизмы можно рассматривать как средство расширения нашего словарного запаса, а также называния и использования нашего мира посредством языковой деятельности человека.

ZƏMİNƏ MUSTAFAYEVA

SUMMARY

SET PHRASES IN THE GERMAN LANGUAGE FROM THE POINT OF VIEW OF PHRASEOLOGY

Phraseologisms always consist of at least two words (good day, thing or language - the house of being). In essence, they are a combination of several words that occur again and again and are familiar to every native German speaker. Their lexical parts are called components. In addition, phraseologisms can be divided into many categories and subcategories, but these will be explained in more detail later. Some common expressions from everyday language, such as a proverb (good things take time), an idiom (the stove goes out) or a figure of speech (eat something), are accepted as scientific terms. However, it is not without reason that the term "speech" can be traced back to the 17th century, when it first described a regional variant of the language. It was not until the idiom acquired its current meaning that J.K. Gottlieb (1732) used this expression in the most general sense for combinations of words or groups of words: "a verbal, short and figurative expression which, unlike a proverb, must be included in a sentence" "The term "figure of speech" reflects the development of the history of science, since the linguistic phenomena used here were considered primarily from the point of view of proverbs and related phenomena" According to Cristina Palma, phraseology is "the science of stable word combinations in language..." For this reason, phraseological units can be seen as a means of expanding our vocabulary, as well as naming and using our world through human linguistic activity.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: f.e.d.dos. Həqiqət Hacıyeva
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 278-285

https://doi.org/10.62837/2025.4.278

KÖNÜL ABDURƏHMANOVA
F.e,d., dos.
Azərbaycan Dillər Universiteti
Bakı ş, R. Behbudov küç 134
Abdurehmanova.kenul@adu.edu.az
https://orcid.org/0000-0002-2494-3754

MÜASİR DİLÇİLİYİN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ SÜNİ İNTELLEKTİN DİL TƏDQİQATLARINA TƏSİRİ

Açar sözlər: müasir dilçilik, süni intellekt, hesablama dilçiliyi, NLP, koqnitiv dilçilik, linqvistik məlumat bazaları, maşın tərcüməsi

Xülasə

Məqalədə müasir dilçiliyin inkişaf istiqamətləri və süni intellekt texnologiyalarının dilçilik tədqiqatlarına təsiri hərtərəfli şəkildə araşdırılır. Əsər son onilliklərdə dilçiliyin bir elm sahəsi kimi keçirdiyi transformasiyaları, yeni nəzəri yanaşmaların – xüsusilə koqnitiv və funksional modellərin – meydana çıxmasını və bu yanaşmaların hesablama metodları ilə inteqrasiyasını təhlil edir. Rəqəmsal texnologiyaların, xüsusən süni intellektin, təbii dilin emalı (NLP), maşın tərcüməsi, linqvistik məlumat bazalarının yaradılması və dil modellərinin öyrədilməsi kimi sahələrdə tətbiqi nəticəsində yaranan yeni imkanlar və metodoloji yanaşmalar dəyərləndirilir. Məqalədə dilin təhlilində struktur və semantik modellərlə yanaşı, insan təfəkküründün dil vasitəsilə modelləşdirilməsi məsələlərinə də toxunulur. Dil universaliləri, dil variativliyi və dillə düşüncə arasındakı qarşılıqlı təsir, eləcə də süni intellektin bu sahədə qarşılaşdığı əsas çətinliklər və məhdudiyyətlər təhlil edilir. Məqalənin məqsədi dilçilikdə ənənəvi və müasir yanaşmaların süni intellekt texnologiyaları ilə sintezinin nəzəri əsaslarını və tətbiqi nəticələrini üzə çıxarmaqdır.

Giriş

XXI əsrdə dilçilik elmi fundamental paradiqma dəyişikliyinə şahidlik edir. Struktur dilçilikdən başlayaraq koqnitiv və funksional dilçiliyə qədər uzanan tarixi inkişaf yolunda, müasir dilçilik bu gün həm ənənəvi dilçilik metodologiyalarının, həm də ən müasir rəqəmsal texnologiyaların sintezini özündə əks etdirir. Xüsusilə süni intellekt texnologiyalarının sürətli inkişafı və onların dilçilik tədqiqatlarına tətbiqi, dil haqqında elmlərin mahiyyətini və istiqamətini köklü şəkildə dəyişdirmişdir.

Müasir dilçiliyə baxışları formalaşdıran əsas təkanverici qüvvə kimi çıxış edən süni intellekt texnologiyaları, dillə bağlı bir çox ənənəvi təsəvvürləri yenidən nəzərdən keçirməyə və təkmilləşdirməyə imkan verir. Dillə bağlı əvvəllər yalnız nəzəri səviyyədə qaldığı düşünülən bir çox məsələlər, süni intellekt sistemləri üçün

praktiki həll tələb edən problemlərə çevrilmiş və bununla da dilçilik və süni intellekt arasında sıx əməkdaşlıq üçün zəmin yaratmışdır.

Bu məqalədə dilçiliyin müasir inkişaf istiqamətləri və süni intellekt texnologiyalarının dilçilik tədqiqatlarına təsiri araşdırılır. Araşdırmanın məqsədi dilçiliyin ənənəvi və müasir paradiqmalarının süni intellekt texnologiyaları ilə sintezini nəzəri və tətbiqi aspektlərdən təhlil etməkdir. Məqalədə dilçiliyin müasir inkişaf problemləri və süni intellektlə qarşılıqlı əlaqəsi multidisiplinar yanaşma çərçivəsində tədqiq edilir.

Süni intellektin dilçilik tədqiqatlarına təsiri

Süni intellekt texnologiyalarının sürətli inkişafı dilçilik tədqiqatlarına dərin təsir göstərmişdir. Bu təsir həm nəzəri, həm də praktiki aspektlərdə özünü göstərir.

1. Təbii dilin emalı (NLP) və dilçilik: Təbii dilin emalı (NLP) dilçilik və süni intellektin kəsişməsində yerləşən bir sahədir. NLP kompüterlərin insan dilini emal etməsi, başa düşməsi və yaratması üçün texnologiyaların və metodların inkişafı ilə məşğul olur.

NLP-nin inkişafı dilçilik nəzəriyyəsinin bir sıra fərziyyələrini təsdiq etməyə və ya təkzib etməyə imkan vermişdir. Məsələn, neyron şəbəkələrin distribusiya semantikasına əsaslanan modelləri insanın semantik biliklərinin formalaşmasında distribusiya hipotezinin (eyni kontekstdə işlənən sözlərin oxşar mənaya malik olması) əhəmiyyətini təsdiq etmişdir.

2. Dil modellərinin yaradılması və təkmilləşdirilməsi

: Süni intellekt sahəsində dilin modellərinin yaradılması və təkmilləşdirilməsi dilçilik üçün böyük əhəmiyyət kəsb edir. Dil modelləri dilin statistik və struktur xüsusiyyətlərini öyrənərək, söz və ya cümlə ardıcıllıqlarının ehtimalını qiymətləndirən riyazi modellərdir.

3. Korpus dilçiliyi: Süni intellektin inkişafı böyük həcmli mətn korpuslarının yaradılmasını və təhlilini mümkün etmişdir.

Korpus dilçiliyi və böyük data dilçiliyin metodologiyasını kökündən dəyişmişdir. Əvvəllər linqvistik tədqiqatlar əsasən kiçik mətn nümunələrinin və ya dilçinin intuisiyasının təhlilinə əsaslanırdısa, böyük verilənlər erası dilçilərə milyonlarla və milyardlarla sözü əhatə edən korpusları təhlil etmək imkanı vermişdir.

4. Maşın tərcüməsi və dilçilik: Maşın tərcüməsi – bir dildən digərinə avtomatik tərcümə süni intellektin dilçilik sahəsində ən böyük nailiyyətlərindən biridir. Maşın tərcüməsinin inkişafı dilçilik nəzəriyyəsinin təkmilləşdirilməsinə böyük töhfə vermişdir.

Maşın tərcüməsinin inkişafında üç əsas mərhələni fərqləndirmək mümkündür:

- **Qaydaya əsaslanan maşın tərcüməsi (Rule-based Machine Translation, RBMT)**: Mənbə və hədəf dillərin qrammatik qaydalarına və lüğətlərinə əsaslanan sistemlər.

• **Statistik maşın tərcüməsi (Statistical Machine Translation, SMT)**: Böyük həcmli paralel korpusların statistik təhlilinə əsaslanan sistemlər.

• **Neyron maşın tərcüməsi (Neural Machine Translation, NMT)**: Neyron şəbəkələrə, xüsusilə transformerlərə əsaslanan sistemlər.

Son illərdə neyron maşın tərcüməsi sistemləri (Google Translate, DeepL, Yandex Translate və s.) tərcümənin keyfiyyətini əhəmiyyətli dərəcədə artırmışdır. Bununla belə, maşın tərcüməsi hələ də bir sıra problemlərlə üzləşir, məsələn, mədəni realiyaların tərcüməsi, köçürmə mənalı ifadələrin tərcüməsi, kontekstual mənanın dəqiq ötürülməsi və s.

5. Nitq tanıma və sintezi: Nitq tanıma və sintezi texnologiyalarının inkişafı dilçiliyin fonetika və fonologiya sahələrinə böyük təsir göstərmişdir. Nitq tanıma sistemləri səsli nitqi yazılı mətnə çevirir, nitq sintezi sistemləri isə yazılı mətni səsli nitqə çevirir.

Nitq tanıma və sintezi texnologiyalarının inkişafı dildə fonetik və fonoloji proseslərin dərindən öyrənilməsini tələb edir. Bu texnologiyalar fonetik və fonoloji nəzəriyyələrin eksperimental yoxlanılması üçün əvəzolunmaz alətlərə çevrilmişdir.

Nitq tanıma və sintezi texnologiyalarında dərin öyrənmə metodlarının tətbiqi bu sahədə böyük irəliləyişlərə səbəb olmuşdur. Müasir sistemlər (məsələn, Google Assistant, Siri, Alexa) danışıq dilini yüksək dəqiqliklə tanıyır və təbii səslənən nitq generasiya edir.

Süni intellektin dilçilik problemləri

Süni intellekt texnologiyalarının dilçilik sahəsində tətbiqi bir sıra spesifik problemlərlə üzləşir. Bu problemlərin həlli həm dilçilik nəzəriyyəsinin, həm də süni intellekt texnologiyalarının təkmilləşdirilməsi üçün əhəmiyyətlidir.

1. Təbii dil anlamanın çətinlikləri

Təbii dil anlamanın (Natural Language Understanding, NLU) əsas məqsədi kompüter sistemlərinə insan dilini "anlamaq" qabiliyyəti verməkdir. Bu, süni intellektin ən mürəkkəb problemlərindən biridir, çünki dilin başa düşülməsi sadəcə sözlərin və cümlələrin formal təhlilini deyil, həm də semantik, praqmatik və koqnitiv aspektlərin dərin anlaşılmasını tələb edir.

Təbii dil anlamanın qarşılaşdığı əsas çətinliklər aşağıdakılardır:

• **Leksik çoxmənalılıq**: Eyni sözün müxtəlif mənalara malik olması. Məsələn, Azərbaycan dilində "gül" sözü həm bitkini, həm də gülmək feilinin əmr formasını bildirir.

• **Sintaktik çoxmənalılıq**: Eyni cümlənin müxtəlif sintaktik strukturlara malik ola bilməsi. Məsələn, "Qızın sevdiyi oğlan" ifadəsində "sevdiyi" sözü həm qıza, həm də oğlana aid ola bilər.

• **Anaforik referensiya**: Mətn daxilində bir ifadənin əvvəlki ifadəyə istinad etməsi. Məsələn, "Əli kitabı aldı. O, kitabı oxudu." cümləsində "o" əvəzliyi "Əli"yə istinad edir.

- **Ellipsis**: Cümlədə bəzi elementlərin buraxılması, lakin kontekstdən bərpa oluna bilməsi. Məsələn, "Mən alma, sən isə armud alırsan" cümləsində ikinci hissədə "alırsan" feili buraxılmışdır.
- **İrəli sürülmüş bilik**: Mətnin anlaşılması üçün zəruri olan, lakin birbaşa ifadə olunmayan bilik. Məsələn, "O, yağışdan sonra çətirini bağladı" cümləsini anlamaq üçün çətirin yağışdan qorunmaq üçün istifadə olunduğunu bilmək lazımdır.
- **Praqmatik aspektlər**: Niyyət, məqsəd, kontekst və s. kimi faktorların nəzərə alınması.

Bu çətinliklərin öhdəsindən gəlmək üçün müasir süni intellekt sistemləri dərin öyrənmə, böyük dil modelləri və kontekst-əsaslı təhlil metodlarından istifadə edir. Bununla belə, tam mənada insanların dili başa düşməsi səviyyəsinə çatmaq hələ də uzaq perspektivdir.

2. Dil variativliyi və universallığı

Dil variativliyi və universallığı problemi – süni intellekt sistemlərinin dillərin həm universal, həm də spesifik xüsusiyyətlərini necə modelləşdirməsi problemidir. Bu problem xüsusilə çoxdilli sistemlər üçün aktualdır.

Dil variativliyi problemi bir neçə səviyyədə özünü göstərir:

- **Dillərarası variativlik**: Müxtəlif dillərin quruluş, leksika və qrammatika baxımından fərqləri.
- **Dildaxili variativlik**: Eyni dilin müxtəlif variantları (dialektlər, sosiolektlər və s.) arasındakı fərqlər.
- **Fərdi variativlik**: Fərdi dil istifadəçilərinin dil istifadəsi arasındakı fərqlər.

Dil variativliyi probleminin həlli üçün müxtəlif yanaşmalar mövcuddur:

- **Çoxdilli modellər**: Bir neçə dildə birgə təlim keçmiş modellər (məsələn, mBERT, XLM-R və s.)
- **Transfer öyrənmə**: Bir dildə əldə edilmiş biliklərin digər dilə köçürülməsi.
- **Dil-müstəqil təsvirlər**: Müxtəlif dillərdə oxşar semantik komponentləri təsvir edən universal təsvirlər.

3. Dil və mədəniyyət əlaqəsi: Dil və mədəniyyət əlaqəsi problemi – süni intellekt sistemlərinin müxtəlif dillərdə dil və mədəniyyət arasındakı qarşılıqlı əlaqəni necə nəzərə alması problemidir. Dil təkcə kommunikasiya vasitəsi deyil, həm də mədəniyyətin daşıyıcısıdır.

4. Dil xüsusiyyətlərinin formal modelləşdirilməsi: Dil xüsusiyyətlərinin formal modelləşdirilməsi problemi – dilin qrammatik, semantik və praqmatik xüsusiyyətlərinin süni intellekt sistemləri tərəfindən istifadə edilə bilən formal modellərinin yaradılması problemidir.

Dil xüsusiyyətlərinin formal modelləşdirilməsi problemi həm dilçilik nəzəriyyəsi, həm də süni intellekt tədqiqatları üçün əhəmiyyətlidir. Bu problemin həlli üçün müxtəlif formal dil modelləri təklif edilmişdir:

- **Formal qrammatikalar**: Dilin sintaktik quruluşunu təsvir edən formal modellər (məsələn, Xomskinin ierarxiyası, təkrar yazan qrammatikalar, birləşdirici qrammatikalar və s.)
- **Formal semantik modellər**: Dilin semantik xüsusiyyətlərini təsvir edən formal modellər (məsələn, Montakü semantikası, Lambda kalkulyusu, Şərti məntiq və s.)
- **Praqmatik modellər**: Dilin istifadəsinin kontekstual xüsusiyyətlərini təsvir edən modellər (məsələn, Nitq aktları nəzəriyyəsi, Relevantlıq nəzəriyyəsi və s.)

Dilçilik və süni intellektin inteqrasiyası perspektivləri

Dilçilik və süni intellektin inteqrasiyası bir sıra perspektivlər vəd edir. Bu inteqrasiya həm dilçilik nəzəriyyəsini, həm də süni intellekt texnologiyalarını zənginləşdirə bilər.

1. Koqnitiv modelləşdirmə: Koqnitiv modelləşdirmə – insan koqnitiv proseslərinin, o cümlədən dil emalı proseslərinin kompüter modellərinin yaradılmasıdır. Koqnitiv modelləşdirmə dilçilik və süni intellektin inteqrasiyasının ən perspektivli istiqamətlərindən biridir.

Koqnitiv modelləşdirmə psixolinqvistika, koqnitiv dilçilik və süni neyron şəbəkələr arasında körpü yaradır. Məsələn, dildə distribusiya hipotezinin (eyni kontekstdə işlənən sözlərin oxşar mənaya malik olması) süni neyron şəbəkələrdə və insan beynində oxşar şəkildə realizə olunması bu yanaşmanın perspektivli olduğunu göstərir.

2. Neyrodilçilik və süni intellekt: Neyrodilçilik və süni intellektin inteqrasiyası – insan beynində dil emalı proseslərinin öyrənilməsi və bu biliklərin süni intellekt sistemlərində tətbiqi deməkdir. Bu inteqrasiya həm dilçilik nəzəriyyəsini, həm də süni intellekt texnologiyalarını zənginləşdirə bilər.

Neyrodilçilik və süni intellektin inteqrasiyası nəticəsində meydana çıxan bir çox maraqlı istiqamətlər var, məsələn, beyin-bilgisayar interfeysi, süni neyron şəbəkələr əsasında bilinqvizm modelləri və s.

3. Çoxdilli və çoxmədəniyyətli süni intellekt: Çoxdilli və çoxmədəniyyətli süni intellekt – müxtəlif dillərdə və mədəniyyətlərdə effektiv işləyən süni intellekt sistemlərinin yaradılmasıdır. Bu, dil variativliyi və mədəni müxtəliflik problemlərinin həlli üçün dilçilik və süni intellektin inteqrasiyasını tələb edir.

4. Dilçilik nəzəriyyələrinin formal verifikasiyası: Dilçilik nəzəriyyələrinin formal verifikasiyası – dilçilik nəzəriyyələrinin formal modelləşdirilməsi və bu modellərin süni intellekt sistemlərində sınaqdan keçirilməsidir. Bu yanaşma dilçilik nəzəriyyələrinin dəqiqliyini və etibarlılığını yoxlamağa imkan verir.

5. Dilin standartlaşdırılması və normallaşdırılması: Dilin standartlaşdırılması və normallaşdırılması – dil istifadəsində standartlar və normalar yaratmaq və tətbiq etmək prosesidir. Bu proses dil siyasəti, təhsil, elmi-texniki kommunikasiya və digər sahələrdə əhəmiyyətlidir.

Nəticə

Müasir dilçiliyin inkişaf istiqamətləri və süni intellektin dil tədqiqatlarına təsiri bir-biri ilə sıx bağlıdır. Dilçilik süni intellekt texnologiyalarının inkişafı üçün nəzəri əsas təmin edir, süni intellekt texnologiyaları isə dilçilik tədqiqatlarının metodologiyasını və fokusunu kökündən dəyişir.

Dilçilik və süni intellekt arasındakı qarşılıqlı əlaqənin əhəmiyyəti günbəgün artır. Süni intellekt sistemlərinin dil emalı qabiliyyətlərinin təkmilləşdirilməsi üçün dilçilik nəzəriyyələrinin tətbiqi zəruridir. Eyni zamanda, süni intellekt texnologiyaları dilçilik tədqiqatları üçün yeni imkanlar və perspektivlər açır.

Gələcəkdə dilçilik və süni intellektin inteqrasiyası bir sıra yeni perspektivlər vəd edir: koqnitiv modelləşdirmə, neyrodilçilik və süni intellektin inteqrasiyası, çoxdilli və çoxmədəniyyətli süni intellekt sistemlərinin yaradılması, dilçilik nəzəriyyələrinin formal verifikasiyası və s.

Bütün bunlar dilçiliyin süni intellektin inkişafına töhfə verə biləcəyi və süni intellektin dilçilik tədqiqatlarını zənginləşdirə biləcəyi yeni dövrün başlanğıcından xəbər verir. Bu yeni dövrdə dilçilik və süni intellekt arasındakı sərhədlər getdikcə aradan qalxır və bu iki sahə bir-birini qarşılıqlı şəkildə zənginləşdirir.

Ədəbiyyat siyahısı

1. Aslanov, A. (2020). Azərbaycan dilində kompüter dilçiliyinin problemləri. Bakı: Elm nəşriyyatı.
2. Boroditsky, L. (2011). How language shapes thought. Scientific American, 304(2), 62-65.
3. Chomsky, N. (1965). Aspects of the Theory of Syntax. Cambridge, MA: MIT Press.
4. Devlin, J., Chang, M. W., Lee, K., & Toutanova, K. (2019). BERT: Pre-training of deep bidirectional transformers for language understanding. Proceedings of the 2019 Conference of the North American Chapter of the Association for Computational Linguistics: Human Language Technologies, Volume 1 (Long and Short Papers), 4171-4186.
5. Dryer, M. S., & Haspelmath, M. (2013). The World Atlas of Language Structures Online. Leipzig: Max Planck Institute for Evolutionary Anthropology.
6. Evans, N., & Levinson, S. C. (2009). The myth of language universals: Language diversity and its importance for cognitive science. Behavioral and Brain Sciences, 32(5), 429-448.
7. Halliday, M. A. K. (1985). An Introduction to Functional Grammar. London: Edward Arnold.

8. Hacıyev, T. (2018). Azərbaycan dilinin korpusunun yaradılması problemləri. Dil və ədəbiyyat, 3(107), 118-125.
9. Labov, W. (1972). Sociolinguistic Patterns. Philadelphia: University of Pennsylvania Press.
10. Langacker, R. W. (2008). Cognitive Grammar: A Basic Introduction. Oxford: Oxford University Press.
11. Pinker, S. (2009). How the Mind Works. New York: W. W. Norton & Company.
12. Pulvermüller, F. (2013). How neurons make meaning: brain mechanisms for embodied and abstract-symbolic semantics. Trends in Cognitive Sciences, 17(9), 458-470.
13. Tomasello, M. (2009). The Cultural Origins of Human Cognition. Cambridge, MA: Harvard University Press.
14. Wierzbicka, A. (1996). Semantics: Primes and Universals. Oxford: Oxford University Press.

Кёнуль Абдурахманова

Аннотация

(НАПРАВЛЕНИЯ РАЗВИТИЯ СОВРЕМЕННОЙ ЛИНГВИСТИКИ И ВЛИЯНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА ИЗУЧЕНИЕ ЯЗЫКА)

В статье всесторонне исследуются направления развития современной лингвистики и влияние технологий искусственного интеллекта на лингвистические исследования. Анализируются трансформации, которые произошли в лингвистике как в научной дисциплине за последние десятилетия, включая появление новых теоретических подходов — особенно когнитивных и функциональных моделей — и их интеграцию с вычислительными методами. Особое внимание уделяется применению цифровых технологий, в частности ИИ, в таких областях, как обработка естественного языка (NLP), машинный перевод, создание лингвистических баз данных и обучение языковых моделей. Рассматриваются не только структурные и семантические модели анализа языка, но и вопросы моделирования человеческого мышления посредством языка. Анализируются универсалии языка, его вариативность и взаимосвязь между языком и мышлением, а также основные сложности и ограничения, с которыми сталкивается ИИ в этих процессах. Цель статьи — выявить теоретические основы и практические аспекты синтеза традиционных и современных парадигм лингвистики с технологиями искусственного интеллекта.

Ключевые слова: современное языкознание, искусственный интеллект, вычислительная лингвистика, обработка естественного языка (NLP),

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.278-285

когнитивная лингвистика, функциональные подходы, лингвистические базы данных, машинный перевод, язык и мышление

Kenul Abdurahmanova

Abstract

(DIRECTIONS OF DEVELOPMENT OF MODERN LINGUISTICS AND THE IMPACT OF ARTIFICIAL INTELLIGENCE ON LANGUAGE RESEARCH)

The article comprehensively explores the development trends in modern linguistics and the impact of artificial intelligence technologies on linguistic research. It analyzes the transformations that linguistics has undergone as a scientific discipline in recent decades, including the emergence of new theoretical approaches—particularly cognitive and functional models—and their integration with computational methods. Special attention is given to the application of digital technologies, especially AI, in areas such as natural language processing (NLP), machine translation, the creation of linguistic databases, and the training of language models. In addition to structural and semantic models of language analysis, the article also addresses the modeling of human cognition through language. Issues such as linguistic universals, language variability, and the interaction between language and thought are examined, as well as the key challenges and limitations faced by AI in these domains. The primary aim of the article is to reveal the theoretical foundations and practical aspects of synthesizing traditional and modern paradigms in linguistics with artificial intelligence technologies.

Keywords modern linguistics, artificial intelligence, computational linguistics, natural language processing (NLP), cognitive linguistics, functional approaches, linguistic databases, machine translation, language and thought

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025

Rəyçi: f.e.d., prof. Məsud Mahmudov

tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 286-290

https://doi.org/10.62837/2025.4.286

ELNARƏ AXUNDOVA
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail:axundova.elnare@list.ru

TƏLİMDƏ ƏLAQƏ VƏ ANLAYIŞ: KOMMUNİKATİV YANAŞMANIN NƏZƏRİ ÇƏRÇİVƏSİ VƏ TƏTBİQİ

Xülasə:

Bu məqalədə müasir tədris metodlarından biri olan kommunikativ yanaşmanın nəzəri əsasları və təlim prosesində tətbiqi təhlil olunur. Kommunikativ yanaşma dil öyrənmənin yalnız qrammatik biliklərlə məhdudlaşmadığını, əksinə, bu biliklərin real həyat kontekstində ünsiyyət vasitəsi kimi istifadə edilməli olduğunu ön plana çıxarır. Kommunikativ yanaşma şagird-mərkəzli dərs mühiti yaradır, tələbələrin aktivliyini və iştirakçılığını artırır, onların sosiolinqvistik və diskurs bacarıqlarını inkişaf etdirir.

Açar sözlər: kommunikasiya, ünsiyyət, təlim strategiyaları, təlim prosesində ünsiyyət

КОММУНИКАЦИЯ И ПОНИМАНИЕ В ОБУЧЕНИИ: ТЕОРЕТИЧЕСКАЯ ОСНОВА И ПРИМЕНЕНИЕ КОММУНИКАТИВНОГО ПОДХОДА

Э. Ахундова

Резюме:

В данной статье анализируются теоретические основы и применение в учебном процессе одного из современных методов преподавания — коммуникативного подхода. Коммуникативный подход подчёркивает, что изучение языка не ограничивается только грамматическими знаниями, а, наоборот, предполагает использование этих знаний как средства общения в реальных жизненных контекстах. Коммуникативный подход способствует созданию учебной среды, ориентированной на учащегося, повышает активность и участие студентов, а также развивает их социолингвистические и дискурсивные навыки.

Ключевые слова: коммуникация, общение, стратегии обучения, общение в учебном процессе

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.286-290

COMMUNICATION AND UNDERSTANDING IN EDUCATION: THEORETICAL FRAMEWORK AND APPLICATION OF THE COMMUNICATIVE APPROACH

E.Akhundova

Abstarct:

This article analyzes the theoretical foundations and practical application of the communicative approach, one of the modern teaching methods. The communicative approach emphasizes that language learning is not limited to grammatical knowledge alone; rather, this knowledge should be used as a means of communication in real-life contexts. It creates a student-centered classroom environment, increases learners' engagement and participation, and develops their sociolinguistic and discourse skills.

Keywords: communication, interaction, teaching strategies, communication in the teaching process

GİRİŞ

Müasir dövrdə təhsil sistemində baş verən dinamik dəyişikliklər, öyrənmə və öyrətməyə yanaşmaları da əsaslı şəkildə dəyişdirmişdir. Bu dəyişikliklərin mərkəzində duran əsas istiqamətlərdən biri təlimdə ünsiyyətin – yəni əlaqə və anlayışın – roludur. Ənənəvi dil tədrisi metodlarında əsas diqqət qrammatik qaydaların öyrədilməsinə yönəldiyi halda, artıq bu yanaşmalar öz effektivliyini itirməkdədir. Qloballaşan və informasiyalaşan cəmiyyətdə insanların bir-biri ilə qarşılıqlı anlaşması, fikirlərini dəqiq və aydın ifadə edə bilməsi bacarığı daha da aktuallaşmışdır. Bu kontekstdə kommunikativ yanaşma (Communicative Approach) yeni nəsil təlim və tədris modellərinin əsasını təşkil etməyə başlamışdır. [3]

Kommunikativ yanaşma təlim prosesinə sadəcə bilik ötürülməsi kimi deyil, məzmunlu və məqsədyönlü ünsiyyətin formalaşması kimi yanaşır. Bu yanaşmaya görə, dil yalnız bir informasiya daşıyıcısı deyil, eyni zamanda sosial münasibətləri tənzimləyən, şəxsiyyətlərarası əlaqələri qurmağa xidmət edən bir vasitədir. Beləliklə, dil öyrənmə prosesi sadəcə qaydaları əzbərləməkdən ibarət olmamalı, əksinə, real həyat situasiyalarında mənalı ünsiyyətin qurulması istiqamətində qurulmalıdır. Kommunikativ yanaşma bu məqsədi reallaşdırmağa yönəlmiş ən təsirli pedaqoji modellərdən biridir.

Bu yanaşmanın nəzəri əsasları Dell Hymes, Michael Canale, Merrill Swain kimi dilçi və pedaqoqların elmi tədqiqatlarına dayanır. Onlar dil öyrənmə prosesində yalnız qrammatik kompetensiyanın deyil, eyni zamanda sosiolinqvistik, diskurs və strateji kompetensiyaların da formalaşdırılmasının vacibliyini vurğulamışlar. Bu dörd komponent kommunikativ kompetensiya anlayışının əsasını təşkil edir və bu yanaşmanın praktik tətbiqinə geniş imkanlar açır.

Təlim prosesinin uğurlu olması üçün ən vacib amillərdən biri müəllim və tələbə arasında qurulan effektiv əlaqə və qarşılıqlı anlayışdır. Təlim yalnız bilik

ötürmə prosesi deyil, həm də qarşılıqlı ünsiyyət, motivasiya və iştirakın birgə qurulduğu dinamik bir sistemdir.

Təlimdə əlaqə — müəllim və tələbələr arasında informasiyanın mübadiləsi, qarşılıqlı geribildirim və emosional bağın qurulması deməkdir. Açıq və səmimi ünsiyyət təlim prosesini daha effektiv və mənalı edir. Müəllim öz fikirlərini aydın və başa düşülən şəkildə ifadə etdikdə, tələbələr mövzunu daha dərindən qavrayır, sual verməkdən çəkinmir və aktiv iştirak edir.

Eyni zamanda tələbələrin fikirlərinin dinlənməsi, onların təkliflərinə və suallarına hörmətlə yanaşılması təlim mühitində qarşılıqlı etimadı artırır. Bu, tələbələrin özlərini qiymətli hiss etmələrinə və öyrənməyə daha çox maraq göstərmələrinə səbəb olur.

Təlimdə anlayış iki istiqamətli prosesdir: müəllimin tələbənin vəziyyətini, bilik səviyyəsini və ehtiyaclarını başa düşməsi, eləcə də tələbənin tədris olunan materialı mənimsəməsi. Müəllim təlim metodlarını və üslubunu auditoriyaya uyğunlaşdırmalı, hər bir tələbənin fərdi xüsusiyyətlərini nəzərə almalıdır.

Effektiv təlim üçün tövsiyələr:

Açıq ünsiyyət qurun: Tələbələrlə rahat və açıq dialoqa şərait yaradın.

Geribildirim verin və qəbul edin: Həm müəllim, həm də tələbə bir-birindən öyrənməlidir.

Fərdi yanaşma tətbiq edin: Hər tələbənin öyrənmə tərzi və sürəti fərqlidir

Dinləmə bacarığını inkişaf etdirin: Tələbənin dediklərini diqqətlə dinləmək, onu anlamaq üçün vacibdir.

Anlaşılmayan məqamları izah edin: Sual verməyə şərait yaradın və cavabları səbir və izahla təqdim edin.

Əlaqə və anlayış, təlimin mərkəzində duran iki əsas sütundur. Bu iki amil olmadan tədris sadəcə mexaniki məlumat ötürməsindən o yana keçmir. Müəllim və tələbə arasında qarşılıqlı hörmət, düzgün ünsiyyət və dərin anlayış sayəsində təlim daha məhsuldar və təsirli olur.

Müasir dövrdə dil öyrənmə və öyrətmə metodologiyasında baş verən dəyişikliklərdən biri də kommunikativ yanaşmanın meydana çıxmasıdır. Bu yanaşma, 1970-ci illərdən etibarən ənənəvi qrammatika əsaslı metodların yerini almağa başlamış və daha funksional, real həyat yönümlü tədris modellərinin əsasını qoymuşdur. Kommunikativ yanaşmanın əsas məqsədi tələbələrin dili yalnız qrammatik baxımdan düzgün şəkildə deyil, eyni zamanda effektiv və mənalı ünsiyyət qurmaq üçün istifadə edə bilmələrini təmin etməkdir. [6]

Kommunikativ yanaşma XX əsrin ikinci yarısında, xüsusilə də audio-linqvistik və qrammatika-tərcümə metodlarının dil öyrənənlərin kommunikativ ehtiyaclarını ödəyə bilməməsi fonunda formalaşmışdır. Bu yanaşmanın əsas təməlini Dell Hymes tərəfindən irəli sürülən “kommunikativ kompetensiya” anlayışı təşkil edir. Hymes qeyd edirdi ki, dil bilikləri yalnız qrammatika qaydalarının biliklərini

deyil, həm də bu bilikləri uyğun sosial kontekstdə istifadə etmək bacarığını əhatə etməlidir.

Kommunikativ kompetensiya anlayışı daha sonra Michael Canale və Merrill Swain tərəfindən inkişaf etdirilmiş və aşağıdakı dörd komponent əsasında təqdim olunmuşdur:

Qrammatik kompetensiya: Dilin qrammatik strukturlarını və lüğətini düzgün şəkildə bilmə və istifadə etmə bacarığı.Sosiolinqvistik kompetensiya: Dilin sosial kontekstə uyğun şəkildə istifadə edilməsini təmin edən bacarıqlar.

Sosiolinqvistik kompetensiya: Dilin sosial kontekstə uyğun şəkildə istifadə edilməsini təmin edən bacarıqlar.

Diskurs kompetensiyası: Cümlələri mətn daxilində məntiqli və ardıcıl şəkildə birləşdirə bilmək.

Strateji kompetensiya: Ünsiyyət zamanı yaranan çətinliklərin aradan qaldırılması üçün müxtəlif strategiyalardan istifadə etmək bacarığı (məsələn, sinonimlərdən istifadə, mimika, jestlər və s.).

Kommunikativ yanaşmada dil bir ünsiyyət aləti kimi qəbul edilir. Bu yanaşmaya görə, dil tədrisi real həyat situasiyalarına əsaslanmalı və tələbələr öyrəndikləri dili həmin situasiyalarda istifadə etməyə təşviq olunmalıdır. Beləliklə, dil öyrənənlər sadəcə strukturları əzbərləmək deyil, onları istifadə etmək bacarığı əldə edirlər.

- Kommunikativ tədrisdə qiymətləndirmə təkcə test və imtahanlar vasitəsilə deyil, həm də real ünsiyyət tapşırıqları, təqdimatlar, portfoliolar və layihə işləri ilə aparılır. Burada əsas məqsəd öyrənənin praktik bacarıqlarını ölçməkdir.

Kommunikativ yanaşma dilin öyrənilməsində ən təsirli və praktik üsullardan biri kimi qəbul olunur. Bu yanaşma yalnız qrammatik biliklərin deyil, real ünsiyyət bacarıqlarının inkişafına xidmət edir.

NƏTİCƏ

Nəticə olaraq qeyd etmək olar ki, kommunikativ yanaşma müasir təlim-tədris prosesinin ən mühüm və aktual istiqamətlərindən birinə çevrilmişdir. Ənənəvi metodlardan fərqli olaraq, bu yanaşma şagirdlərin yalnız bilikləri mənimsəməsini deyil, həmin bilikləri real həyatda istifadə etmə bacarığını da inkişaf etdirir. Təlimdə əlaqə və anlayışın gücləndirilməsi, yəni müəllim və şagird arasında qarşılıqlı ünsiyyətin formalaşdırılması, tələbələrin öz fikirlərini sərbəst ifadə etməsi və bir-birlərini anlamağa çalışması, kommunikativ yanaşmanın əsas məqsədlərindəndir.

Araşdırmalar və praktik tətbiqlər göstərir ki, bu yanaşmanın əsaslandığı nəzəri çərçivə – xüsusilə kommunikativ kompetensiya modelində təqdim olunan qrammatik, sosiolinqvistik, diskurs və strateji bacarıqlar – tələbələrin dil biliklərini daha funksional və praktik hala gətirir. Beləliklə, dil öyrənmə prosesi passiv əzbərləmə aktından çıxaraq aktiv ünsiyyət və əməkdaşlıq prosesinə çevrilir.

Kommunikativ yanaşmanın təlim prosesinə inteqrasiyası şagird-mərkəzli tədrisin təşviqi, problem əsaslı öyrənmə, tapşırıq yönümlü fəaliyyətlər, real situasiyalara əsaslanan dərs planlaması və alternativ qiymətləndirmə metodları ilə müşayiət olunur. Bu isə təhsildə keyfiyyətin artırılmasına, şagirdlərin motivasiyasının yüksəldilməsinə və öyrənilən biliklərin uzunmüddətli yadda saxlanmasına şərait yaradır.

Lakin kommunikativ yanaşmanın tətbiqi təkcə metodoloji məsələ deyil, eyni zamanda təhsil mühiti, resurs təminatı, müəllim hazırlığı və kurikulumun uyğunluğu kimi bir sıra strateji faktorlarla bağlıdır. Bu səbəbdən bu yanaşmanın uğurla reallaşdırılması üçün həm pedaqoji, həm də təşkilati səviyyədə ciddi dəstək tələb olunur.

Ümumilikdə, kommunikativ yanaşma – təlimdə əlaqə və anlayışı təmin edən, tələbəni öyrənmənin mərkəzinə qoyan və real həyat bacarıqlarını inkişaf etdirən müasir bir yanaşmadır. Bu yanaşmanın səmərəli tətbiqi sayəsində yalnız dil bacarıqları deyil, həmçinin mədəni anlayış, kritik düşüncə, problem həll etmə, kooperativ iş bacarıqları kimi XXI əsrin əsas kompetensiyaları da inkişaf etdirilə bilər. Bu baxımdan, kommunikativ yanaşma sadəcə bir tədris metodu deyil, təhsildə dəyişən paradiqmanın əsas dayaqlarından biridir. Kommunikativ yanaşma yalnız dil tədrisində deyil, ümumilikdə təlimdə daha güclü əlaqə, qarşılıqlı anlayış və funksional öyrənmə mühitinin qurulmasında mühüm rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyeva, S. (2019). Müasir dil tədrisi metodlarında kommunikativ yanaşmanın rolu. *Azərbaycan Müəllimlər İnstitutu Elmi Əsərləri*, 4(12), 45–52.
2. Qasımov, T. (2021). Dil öyrənmədə kommunikativ bacarıqların inkişafı yolları. *Təhsil və Zaman*, 2(8), 67–74.
3. Brown, H. D. (2007). *Principles of Language Learning and Teaching* (5th ed.). Pearson Education.
4. Richards, J. C., & Rodgers, T. S. (2014). *Approaches and Methods in Language Teaching* (3rd ed.). Cambridge University Press.
5. Littlewood, W. (1981). *Communicative Language Teaching: An Introduction*. Cambridge University Press.
6. Canale, M., & Swain, M. (1980). Theoretical bases of communicative approaches to second language teaching and testing. *Applied Linguistics*, 1(1), 1–47.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21 05 2025
Rəyçi: Fil.ü.f.d.Züleyxa Murad qızı Bağırzadə
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.291-298

https://doi.org/10.62837/2025.4.291

AYŞƏN ZEYNALLI ELDAR
Bakı Avrasiya Universiteti
zeynalli.ayshen@mail.ru
https://orcid.org/0009-0005-6357-5578

SİYASİ NİTQİN KOMMUNİKATİV XÜSUSİYYƏTLƏRİ (İLHAM ƏLİYEVİN MÜHARİBƏ DÖVRÜ ÇIXIŞLARI ƏSASINDA)

XÜLASƏ

Məqalədə siyasi nitqin kommunikativ xüsusiyyətlərinin nəzəri tərəfləri araşdırılmışdır. Xüsusilə Prezident İlham Əliyevin müharibə dövründəki çıxışlarına istinad edilərək nəzəri tərəflər praktik olaraq da izah edilmişdir. Siyasi nitq təkcə məlumat ötürmək üçün bir vasitə yox, eyni zamanda kütlə ilə birbaşa əlaqə yaradan əsas kommunikasiya vasitəsidir. Kommunikasiya prosesi siyasi niqtdə əsas vasitələrdən biri kimi çıxış edir və nitqin qurulmasında məqsədyönlü strategiyalardan istifadə edilir. Liderlərin çıxışlarında siyasi nitq auditoriyaya təsir göstərmək, inandırmaq, xalqı səfərbər etmək və liderin legitimliyini əsaslandırmaq üçün istifadə edilir. Bu nitq forması xalqla birbaşa ünsiyyət yaratmaqda, milli ruhu formalaşmasında və tarixi hadisələrin yadda saxlanılmasında mühüm rol oynayır.

Tədqiqatın əsas nümunələri Azərbaycan Prezidenti İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründəki çıxışlardan gətirilmişdir. Burada paralinqvistik vasitələrin nitqə təsir gücü də xüsusilə vurğulanmışdır. Onun sosial media və televiziya vasitəsilə verilən çıxışlarının kommunikativ gücü paralinqvistikanın nəzəri tərəflərini izah emək üçün istifadə olunmuşdur.

Nəticədə siyasi niqtin kommunikasiya vasitəsi kimi yalnız ritorik deyil, eyni zamanda xalqla dialoq qurmağın effektiv vasitəsi olması göstərilmişdir.

Açar sözlər: *siyasi nitq, nitq strategiyaları, dil üslubu, İlham Əliyev, bədən dili*

İlham Əliyevin müharibə dövrü çıxışları kommunikativ strukturların güclü şəkildə tətbiq olunduğu, xalqı birləşdirən və mübarizəyə yönəldən nitqlərdir. Bu nitqlərdə istifadə olunan kommunikativ strategiyalar, ideologiyaların təbliğindən tutmuş, xalqın emosional və psixoloji vəziyyətinə təsir edən müxtəlif vasitələrə qədər geniş spektri əhatə edir. İlham Əliyev müharibə dövrü çıxışlarında çox vaxt konkret kommunikativ vəziyyətlərə uyğun olaraq nitqini formalaşdırır. Kommunikativ vəziyyətin başlıca məqsədi mesajın doğru auditoriyaya çatdırılması və mövcud sosial kontekstə uyğunlaşdırılmasıdır. Habermasın (1984) kommunikasiya nəzəriyyəsi nəzərə alınarsa, liderin çıxışları yalnız məlumat ötürməkdən ibarət deyil, həm də cəmiyyətin birliyini qorumaq, müharibə şəraitində xalqın əhval-ruhiyyəsini yüksək saxlamaq və milli məqsədlər uğrunda mübarizəni artırmaqdır. İlham Əliyev 2020-ci

ilin sentyabr ayında verdiyi bir çıxışında *"Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır*" [2, s. 5] deyərək müharibənin ideoloji əsaslarını qurmuş və həmçinin xalqın milli haqqına əsaslanaraq mübarizəni dəstəkləyən kommunikativ vəziyyət yaratmışdır. Bu, həm də xalqın müharibə məqsədini və məqsədinə nail olma gücünü artırmağa yönəlmiş strateji bir addım idi.

Sosial kontekst hər bir nitqin alıcı tərəfindən necə qəbul ediləcəyini müəyyənləşdirən əhəmiyyətli faktorlardan biridir. Müharibə dövründə İlham Əliyevin çıxışları sosial vəziyyətin təzyiqi altında formalaşır və bu vəziyyətin xüsusiyyətləri nitqin məzmununa təsir edir. Bu nitq forması müharibə şəraitində liderin nitqində pozitiv ton yaratmaq və cəmiyyəti inandırmaq məqsədini güdür. Bu kontekstdə İlham Əliyev müharibə başlayarkən verdiyi bir çıxışında *"Biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik. Biz heç kimin torpağına göz dikməmişik, heç kimin torpağında, Ermənistan ərazisində Azərbaycan silahlı birləşmələrinin heç bir məqsədi, hədəfi yoxdur. Ancaq biz öz torpağımızda özümüzü müdafiə edəcəyik və işğal edilmiş torpaqlarımızı işğalçılardan azad edəcəyik"* [2, s. 8] deyərək müharibənin ideoloji istiqamətini müəyyən edib. Bu cür ifadələr sosial vəziyyətin təzyiqinə qarşı çıxaraq xalqı öz gücünə inandırmış və kollektiv əhval-ruhiyyəni yüksəltmişdir.

Məsələn, İlham Əliyev müharibə zamanı "*Qarabağ Azərbaycandır və nida işarəsi!*" [2, s. 4] ifadəsi ilə çıxış etdi. Bu cür gücləndirici ifadələr həm də müharibənin xalqın öz milli haqqına əsaslandığını və bu mübarizənin uğurlu olacağına inam yaratmışdır. Bu mesaj, yalnız informasiya ötürülməsindən ibarət olmayıb, həm də motivasiya yaratmışdır.

Müharibə şəraitində lider nitqləri yalnız informasiya ötürmə vasitəsi kimi çıxış etmir, həm də xalqı birləşdirmək, mübarizə əzmini artırmaq və milli birliyi təmin etmək məqsədi güdür. İlham Əliyevin müharibə dövrü çıxışlarında da strateji rolun yüksək olduğu açıq şəkildə görünür. Bu çıxışlar həm ideoloji səfərbərlik, həm də emosional gücləndirmə funksiyasını həyata keçirərək müharibənin həm siyasi, həm də sosial tərəflərini hərtərəfli izah edir. İlham Əliyev müharibə dövründə verdiyi çıxışlarda ideoloji səfərbərlik funksiyasını uğurla həyata keçirmişdir. Bu, xalqın milli məqsəd və ideyalar ətrafında birləşməsinə xidmət edir. Hegelin dövlətin ideologiyasını təmin edən liderin rolu ilə bağlı fikirlərini nəzərə alsaq, İlham Əliyevin müharibə dövrü nitqləri Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədini hər bir vətəndaşa, xalqın hər bir üzvünə çatdıran güclü ideoloji mesajlar ehtiva edir. 2020-ci ilin oktyabr ayında etdiyi bir çıxışında İlham Əliyev *"Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq!*

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" [2, s. 27] ifadəsini istifadə etmişdir. Bu cümlə ilə o, həm müharibənin ideoloji əsaslarını qurmuş, həm də xalqın mübarizəyə olan dəstəyini artırmağa yönəlmişdir. Xalqın milli həmrəyliyini gücləndirən bu çıxış, cəmiyyətin gücünü birləşdirir və ümumi məqsədlər üçün mübarizəyə səsləyir. İdeoloji səfərbərlik bu kontekstdə yalnız çıxışlar ilə məhdudlaşmır. Həm də ölkənin sosial və siyasi gündəmində milli birliyi qorumağa yönələn hər bir addımda öz əksini tapır. İlham Əliyevin nitqlərində müharibənin məqsədinə uyğun olaraq istifadə edilən cümlələr xalqı birləşdirici və ruhlandırıcı bir məna kəsb edir. Bu da öz növbəsində həm daxili siyasi həmrəyliyi, həm də milli məqsədlər ətrafında birləşməni təmin edir.

Emosional gücləndirmə müharibə dövrü nitqlərində əhəmiyyətli bir yer tutur. İlham Əliyevin çıxışlarında xüsusilə müharibənin ilk günlərində, qorxu və təşvişin yerini inam və mübarizə ruhu almışdır. Tarhanın (2008) emosional ritm nəzəriyyəsinə əsasən, liderlərin nitqləri, həm kollektiv emosiyaların formalaşdırılması, həm də bu emosiyaların mübarizə ruhu ilə əlaqələndirilməsi baxımından mühüm rol oynayır. İlham Əliyev çıxışlarında qorxu və narahatlıq ilə bağlı hissləri azaltdı, xalqı inamlı və mübarizəyə hazır bir ruh halına gətirmək üçün nitqlərində müsbət ifadələrə üstünlük verdi. Məsələn, 2020-ci ilin sentyabr ayında müharibənin ilk günlərində İlham Əliyev belə demişdir: *"Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək"* [2 s.15]. Bu cümlə ilə o, xalqın müharibəyə olan dəstəyini artıraraq inam və motivasiya yaratmışdır.

İlham Əliyevin müharibə dövrü çıxışlarında ideoloji istiqamət vermək və xalqı birləşdirmək məqsədini güdən ritorik vasitələr geniş şəkildə istifadə edilmişdir. Bu çıxışlar sadəcə olaraq müharibənin gedişi barədə məlumat verməkdən ibarət deyil, həm də xalqa mübarizə məqsədini, milli və mənəvi haqqı çatdırmaq və xalqı bir ideoloji əsas ətrafında birləşdirmək məqsədini güdür. Nitqlərdə istifadə olunan ritorik vasitələr, həm də liderin dövlətin milli ideyasına sadiqliyini nümayiş etdirir. İdeoloji istiqamət müharibə dövrü nitqlərində ən güclü şəkildə "biz" və "onlar" ayrımında təzahür edir. Bu ritorik strategiya, xalqı və dövlətin məqsədini digər tərəflərdən, xüsusilə də düşməndən ayırmaq üçün geniş istifadə olunur. Laclau və Mouffe tərəfindən irəli sürülən ideoloji perspektivə əsasən, "biz" və "onlar" qarşıdurması ideologiyanı təsdiqləyən və gücləndirən bir üsul olaraq çıxış edir. İlham Əliyev bu strategiyanı müharibə dövrü nitqlərində istifadə edərək Azərbaycan xalqını və dövlətini "haqlı" və "doğru" tərəf kimi təqdim edir, düşməni isə "işğalçı" və "haqsız" olaraq təqdim edir. Məsələn, İlham Əliyev 2020-ci ilin sentyabr ayında verdiyi bir çıxışında "*Mən Azərbaycan xalqına bu məlumatı verməklə bir daha demək istəyirəm ki, biz haqq yolundayıq, biz özümüzü müdafiə edirik"* [2, s.8] ifadəsini işlədərək mübarizənin ideoloji əsaslarını formalaşdırmışdır. Bu cümlə ilə "biz" termini Azərbaycanın haqlı mübarizəsini simvollaşdırır, "onlar" isə işğalçı

düşmənə işarə edir. Bu tip ifadələr xalqın birləşdirilməsinə və mübarizəyə yönəldilməsinə xidmət edir.

İlham Əliyev müharibə dövrü çıxışlarında emosional vurğular və ritorik təkrarlamalardan da geniş şəkildə istifadə edir. Aristotelin (2008) ritorika nəzəriyyəsində təkrarlamalar, izləyicinin emosional vəziyyətini yönəltmək və müəyyən bir ideyanı yaddaşda saxlamaq üçün mühüm vasitədir. İlham Əliyev bu ritorik strategiyanı çıxışlarında haqlı mübarizənin, Azərbaycanın haqqını qorumağın və torpaqlarını azad etməyin vacibliyini bir daha vurğulamaq məqsədilə tətbiq etmişdir. 2020-ci ilin sentyabr ayında verdiyi bir çıxışında İlham Əliyev belə demişdir: *"Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!"* [2, s. 6]. Bu təkrarlanan ifadə ilə həm "Qarabağ"ın Azərbaycanın ayrılmaz hissəsi olduğu ideyasını gücləndirmiş, həm də xalqın və hərbçilərin mübarizəyə olan inamını artırmışdır. Bu cür təkrarlamalar, həm də ritorik təsir yaradır və mesajın qəbul edilməsini asanlaşdırır.

İlham Əliyev müharibə dövrü çıxışlarında məqsədin aydın şəkildə təqdim edilməsinə xüsusi diqqət yetirmişdir.Jungun (2001) arxetiplər nəzəriyyəsinə əsasən liderlər mübarizə prosesini "müdafiə" və "hücum" arxetipləri üzərində quraraq xalqın və dövlətin mübarizəyə olan motivasiyasını artırırlar. İlham Əliyev bu yanaşmanı istifadə edərək mübarizəni yalnız ərazi məsələsi ilə bağlamamış, həm də milli kimlik, haqlı mübarizə və xalqın gələcəyi ilə əlaqələndirmişdir. Məsələn, İlham Əliyev müharibə başlayarkən etdiyi çıxışında *"*Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir*"* [2, s.6] deyərək mübarizənin haqq və ədalət üzərində qurulduğunu qeyd etmişdir. Bu ifadə həm xalqın mübarizəyə inamını artırır, həm də dövlətin haqlı mövqeyini vurğulamaqla ideoloji istiqaməti gücləndirir. Ritorik suallar və çağırışlar, İlham Əliyevin müharibə dövrü çıxışlarında mübarizə ruhunu və xalqın əzmini artıran başqa bir vasitədir. Aristotelin nəzəriyyəsində ritorik suallar dinləyiciləri düşündürmək və onları təxirə salınmaz bir hərəkətə yönəltmək məqsədini güdür. İlham Əliyev müharibə dövrü çıxışlarında ritorik suallardan istifadə edərək xalqı mübarizəyə çağırmış və milli məqsədləri bir daha gündəmə gətirmişdir. Məsələn, 2020-ci ilin sentyabr ayında etdiyi çıxışında İlham Əliyev belə demişdir: *"Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?!"* [2, s. 6]. Bu sual həm hüquqi baxımdan müharibənin haqlı tərəfdə olduğunu nümayiş etdirir, həm də xalqın mübarizəyə olan əzmini gücləndirir.

İlham Əliyevin İkinci Qarabağ müharibəsi dövründə etdiyi çıxışlar həm paralinqvistik, həm də qeyri-verbal göstəricilər baxımından diqqətçəkici və effektivdir. Paralinqvistika dilin qeyri-verbal ifadə vasitələrini səs tonu, intonasiya, pauza, vurğu və ritmi əhatə edir. Bədən dili isə ünsiyyətin vizual komponenti olaraq liderin emosional durumu və mesajının gücünü auditoriyaya çatdırmaqda əvəzolunmaz vasitəyə çevrilir. Bu vasitələr liderin nitqini sadəcə məzmun olaraq

deyil, həm də performans olaraq gücləndirir. Səs tonu və intonasiya İlham Əliyevin çıxışlarında emosional ritmin formalaşmasında mühüm rol oynayır. Tarhanın (2008) "emosional dalğa" anlayışına əsasən, liderin nitqindəki səs titrəyişləri və ton dəyişiklikləri auditoriyanın emosional reaksiyasını stimullaşdırır. İlham Əliyev müharibə dövründə verdiyi bəyanatlarda intonasiyanı dəyişməklə çıxışının emosional gərginliyini artırmış, mesajın dərinliyini daha güclü çatdırmışdır.

Məsələn, 2020-ci ilin 4 oktyabr tarixli xalqa müraciətində Prezident İlham Əliyev *"Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!"* [1] dedikdə intonasiya yüksəlmiş, səs tonu möhkəmlənmişdir. Bu ifadə yalnız məna deyil, həm də fiziki təsir daşıyırdı. Həmin an onun danışığında qətiyyət, emosional güc və liderlik enerjisi hiss olunurdu. Nitqlərdəki pauzalar, yəni qısa dayanmalar, emosional və məntiqi vurğuları gücləndirmək üçün istifadə olunan paralinqvistik vasitədir. Knapp və Hall (2010) pauzanı "fikri dərinləşdirmək və auditoriyanı düşünməyə vadar etmək üçün mühüm qeyri-verbal element" kimi təsvir edir. İlham Əliyevin çıxışlarında bu strategiya tez-tez istifadə olunur. 4 oktyabr tarixli çıxışında *"Biz öz torpağımızda döyşürük… (pauza) vuruşuruq…"* [1] cümləsindəki pauza, yalnız cümləni bölmək üçün deyil, həm də həmin sözlərin təsirini auditoriyanın zehnində artırmaq məqsədilə edilmişdir. Bu cür dayanmalar çıxışın ritmində emosional yüksəliş yaradır və liderin mesajını daha yadda qalan edir. Bədən dilinin ən önəmli komponentlərindən biri göz kontaktı və üz ifadələridir. İlham Əliyevin çıxışlarını müşahidə etdikdə görünür ki, o, birbaşa kameraya baxaraq xalqla vizual əlaqə qurur, bu isə psixoloji olaraq "təmasda olmaq" hissi yaradır. Navarro(2008) qeyd edir ki, "göz kontaktı vasitəsilə lider auditoriyada etibar hissi formalaşdırır və çıxışa emosional bağ yaradır". Əliyevin mimikalarında qəzəb, qürur, qətiyyət və bəzən ironik təbəssüm aydın görünür. Məsələn, 8 noyabr 2020-ci il tarixində Şuşanın azadlığı ilə bağlı etdiyi müraciətdə onun mimikası əzəmət və sevincin sintezini əks etdirirdi: *"Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq!"* [2, s. 166] ifadəsi zamanı alnı açılır, baxışları bir nöqtəyə sabitləşir, jestləri isə geniş və vurğuludur. Liderlərin bədən dili çox vaxt emosional ritmlə paralel hərəkət edir. İlham Əliyevin çıxışlarında əllərini yuxarıdan aşağı hərəkətlərlə istifadə etməsi, fikrin yekun vurğusunu və qərarlılığını ifadə edir. Bu jestlər auditoriyada təsir gücünü artırmaq üçün əla vasitədir. Birdwhistellin qeyri-verbal davranışlarla bağlı nəzəriyyəsinə görə, jestlər verbalin kontekstini dəstəkləyir və mesajın effektiv qəbulunu təmin edir. Məsələn, *"Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır"* [2, s. 25] ifadəsi zamanı Əliyev əli ilə masaya yaxın bir hərəkət göstərmiş və bu jest fikrin "qəti nəticə" kimi təqdim edilməsinə xidmət etmişdir.

Siyasi nitqin effektivliyi yalnız mətnin quruluşu və ritorikası ilə deyil, həm də auditoriyanın onu necə qəbul etməsi ilə müəyyən edilir. McQuail (2010) qeyd edir ki, kütləvi kommunikasiyada təsir yalnız göndərilən mesajın məzmunu ilə deyil, həm də onun alıcı tərəfindən necə interpretasiya olunduğu ilə formalaşır. İlham Əliyevin müharibə dövründə etdiyi çıxışlar da məhz bu baxımdan yüksək kommunikativ effektivliyə malikdir: onlar həm strateji məqsədlərə xidmət edir, həm də xalqın emosional və ideoloji ehtiyaclarına cavab verir. İlham Əliyevin müharibə dövründə verdiyi mesajların xalq arasında necə qəbul edildiyini sosial media reaksiyaları, ictimai mitinqlər və bayraqlarla bəzədilmiş evlərdəki vizual simvollarla müşahidə etmək mümkündür. *"Qarabağ Azərbaycandır!"* [2, s. 168] ifadəsi qısa müddətdə milli ideyanın əsas şüarına çevrildi. Bu, mesajın auditoriya tərəfindən nə qədər güclü mənimsənildiyini göstərir.

Müharibə şəraitində kommunikativ ardıcıllıq və davamlılıq da vacib faktorlardan biridir. İlham Əliyevin çıxışları bir-biri ilə bağlı, sistemli və məqsədli şəkildə qurulmuşdur. Onun nitqləri əvvəlcə vəziyyətin ciddiliyini izah edir, sonra hüquqi və ideoloji əsaslandırma verir, ardınca isə xalqı səfərbərliyə çağırır. Bu strukturlaşdırma auditoriyanın mesajı başa düşməsini və qəbul etməsini asanlaşdırır. Məsələn, 27 sentyabr tarixli çıxışında deyir: *"Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir... Bizim işimiz haqq işidir"* [2, s. 4-6]. Bu davamlılıq, auditoriyanın həm emosional sabitliyini qoruyur, həm də fikrin gücünü artırır.

İlham Əliyevin nitqlərinin kommunikativ gücü yalnız müharibə dövrü ilə məhdudlaşmır. Bu çıxışların təsiri, müharibədən sonra da siyasi diskursda, təhsil materiallarında, sosial medianın gündəmində və xalqın yaddaşında öz yerini qoruyur. "Zəfər Günü"nün təsis edilməsi, həmin çıxışlarda verilən mesajların rəsmi ideologiyaya çevrilməsinin göstəricisidir. Bu nitqlər milli ideologiyanın kommunikativ əsaslı formalaşması baxımından strateji əhəmiyyət daşıyır. Onlar təkcə qələbə haqqında informativ çıxışlar deyil, eyni zamanda xalqın gələcək şüurunun əsasını qoyan ifadələr kimi tarixiləşmişdir. Onun İkinci Qarabağ müharibəsi dövründə etdiyi çıxışlar yüksək kommunikativ effektivliklə səciyyələnir. Bu nitqlər vasitəsilə lider informasiya verir, emosional təsir yaradır, ideoloji istiqamət göstərir və milli birliyi gücləndirir. Auditoriya bu çıxışları yalnız qəbul etmir, eyni zamanda onları mənimsəyərək gündəlik siyasi və mədəni davranışlara çevirir. Beləliklə, İlham Əliyevin nitqləri həm siyasi, həm də kommunikativ baxımdan nümunəvi çıxışlar olaraq tarixə düşmüşdür.

ƏDƏBİYYAT

1. Aristotel. Ritorika. "Turan Nəşrlər evi", – Bakı: 2008. – 264 s.
2. Əliyev İ. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 04 oktyabr tarixində xalqa müraciəti. Bakı, 2020. https://president.az/az/articles/view/41713
3. Əliyev İ. Prezident İlham Əliyevin 2020-ci ildəki çıxışlarının toplusu. Bakı: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 2022. 216 s. https://files.preslib.az/projects/zefer/az/prezident.pdf
4. Habermas Y. The Theory of Communicative Action. Volume I: Reason and the Rationalization of Society. – Boston: Beacon Press, 1984. – 465 s.
5. Jung C. G. The Archetypes and the Collective Unconscious. – Princeton: Princeton University Press, 2001. – 504 s.
6. Knapp M. L., Hall J. A. Nonverbal Communication in Human Interaction. – Boston: Wadsworth Cengage Learning, 2010. – 512 s.
7. McQuail D. McQuail's Mass Communication Theory. – Los Angeles: SAGE Publications, 2010. – 632 s.
8. Navarro J. What Every BODY is Saying: An Ex-FBI Agent's Guide to Speed-Reading People. – New York: Harper Collins, 2008. – 272 s.
9. Tarhan N. Pozitiv Psikoloji – İstanbul: Timaş Yayınları, 2018. – 304 s.

Ayshan Zeynalli Eldar

COMMUNICATIVE FEATURES OF POLITICAL SPEECH (BASED ON ILHAM ALIYEV'S WAR-TIME ADDRESSES)

RESUME

The article explores the theoretical aspects of the communicative features of political speech. Specifically, it references President Ilham Aliyev's speeches during the wartime period to explain these theoretical aspects in practice. Political speech is not only a means of conveying information but also serves as a primary tool of communication that establishes direct contact with the masses. In political discourse, communication functions as one of the main tools, and purposeful strategies are employed in structuring speech. In the speeches of leaders, political discourse is used to influence the audience, persuade them, mobilize the people, and justify the legitimacy of the leader. This form of speech plays a crucial role in establishing direct communication with the public, shaping national spirit, and preserving the memory of historical events.

The main examples of the study are drawn from the speeches of the President of Azerbaijan, Ilham Aliyev, during the Second Karabakh War. The impact of paralinguistic elements on speech is particularly emphasized. His speeches delivered

via social media and television have been used to illustrate the theoretical aspects of paralinguistics.

As a result, political speech has been shown to function not only as a rhetorical tool but also as an effective means of establishing dialogue with the public.

Key words: *political speech, speech strategies, language style, Ilham Aliyev, body language*

Айшен Зейналлы Элдар

КОММУНИКАТИВНЫЕ ОСОБЕННОСТИ ПОЛИТИЧЕСКОЙ РЕЧИ (НА ОСНОВЕ ВОЕННЫХ ВЫСТУПЛЕНИЙ ИЛЬХАМА АЛИЕВА)

РЕЗЮМЕ

В статье рассматриваются теоретические аспекты коммуникативных особенностей политической речи. Особое внимание уделяется анализу выступлений Президента Азербайджана Ильхама Алиева в период Второй Карабахской войны, что позволяет на практике проиллюстрировать теоретические положения. Политическая речь рассматривается не только как средство передачи информации, но и как важнейший инструмент непосредственной связи с массами. Процесс коммуникации выступает одним из ключевых элементов политической речи, при построении которой используются целенаправленные стратегии. В речах лидеров политическая речь служит средством воздействия на аудиторию, убеждения, мобилизации народа и обоснования легитимности власти. Данный тип речи играет значительную роль в установлении прямого контакта с народом, формировании национального духа и сохранении памяти о исторических событиях.

В качестве основных примеров исследования использованы выступления Президента Азербайджана Ильхама Алиева в период Второй Карабахской войны. Особо подчеркнута сила воздействия паралингвистических средств на речь. Коммуникативная сила его выступлений, транслируемых через социальные сети и телевидение, использована для объяснения теоретических основ паралингвистики.

В результате показано, что политическая речь как средство коммуникации является не только риторическим инструментом, но и эффективным способом установления диалога с народом.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025

Elmi rəhbər: Rasim Heydərov Arif
Filologiya üzrə fəlsəfə doktoru, dosent

tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.299-305

https://doi.org/10.62837/2025.4.299

ŞÜKÜRZADƏ ŞAHNAZXANIM
Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəbi

ŞAGİRDLƏRDƏ KOMMUNİKASİYA BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ

Açar sözlər: şagirdlərdə kommunikasiya, nitqin təmizliyi, şagirdyönümlü tədris, fərdi ni, ana dili təlimləri

Ключевые слова: общение в школе, чистота речи, условия общения, культура общения, речевые навыки, обучение родному языку

Key words: communication at school, purity of speech, communication conditions, conversational culture, speech skills, native language training

Dil öyrənmək sözlərin mənalarını öyrənməklə yanaşı, dili struktur olaraq mənimsəməyi də tələb etdiyi üçün konstruktivizm bunun üçün uyğundur, çünki biliyin qurulmasını təmin edir və tələb edir, lakin həm də qaçılmaz olaraq vaxt aparır (Schcolnik, Kol, & Abarbanel, 2006). Çoxşagirdli siniflər, müəllimlərin təqdimat metodundan istifadə etməsi və fərdi fərqləri nəzərə almaması təhsildə əsas fəlsəfəni təşkil edən konstruktivizmin əksinə olaraq öyrənənin passiv olduğunu, məlumatın strukturlaşdırılmış deyil, ötürülməsinə və saxlanmasına cəhd edildiyini göstərir (Demir, 2016d). Bu özünü ifadə edə bilməyən, tənqidi düşünə bilməyən, əsaslandıra bilməyən, əldə etdiyi məlumatlardan gündəlik həyatlarında istifadə edə bilməyən, araşdırma aparmaq həvəsi olmayan - maraq duyğusundan məhrum olan şagirdlərin sayının gündən-günə artmasına səbəb olur. Buna görə də, şagirdin müstəqilliyinin təmin edilməsi son dərəcə vacibdir. Şagirdin müstəqilliyi öyrənmənin bütün aspektləri ilə bağlı qərarlar üçün məsuliyyət daşımaq kimi müəyyən edilə bilər (Salehi, Ebrahimi, Sattar, & Shojaee, 2015). Bu yalnız şagirdyönümlü, demokratik sinif mühitlərində mümkündür. Müəllimlər şagirdyönümlü öyrənmə məqsədinə nail ola bilərlər. Vahid tədris üslubundan çox, onların tədris üslublarını məzmun və şagird xüsusiyyətlərinə görə zənginləşdirməkdən və bir çox tədris üslublarına uyğun kursları öyrədə bilməkdən asılıdır (Maden, 2012). Şagirdyönümlü tədris strategiyalarından istifadə şagirdlərin özlərinə inamını inkişaf etdirməyə, düşünmə qabiliyyətini qazanmağa, fikirlərini ifadə etməyə, müxtəlif fikirlərə dözümlü olmağa imkan verəcək (Maden, Durukan, Akbaş, 2011).

Konstruktivizmin mənimsənildiyi tədris-təlim mühitində ənənəvi yanaşmada müəllimə verilən funksiyalar məhdudlaşdırılır və müəllim-şagird arasında qarşılıqlı əlaqə ön plana çəkilir (Aydın, 2007, s. 61). Konstruktivist yanaşmaya əsaslanan nitq təhsilində diqqət şagirdyönümlülüyə və bacarıqların inkişafına yönəldilir. Bu məqsədlə nitqin zehni və fiziki prosesləri nəzərə alınır və hədəflənən bacarıqlar üçün

metod və üsullar diqqətlə nəzərdən keçirilir (Güneş, 2014). Araşdırmalar nəticəsində şagirdlərin əzbər öyrənmə səbəbindən fikirlərini ifadə etməkdə çətinlik çəkdikləri və söz ehtiyatlarının qeyri-kafi olduğu müəyyən edilmişdir. Əzbər öyrənmə təhsil təcrübələrindən fərqli olaraq, oyun mərkəzli dil öyrətmə təcrübələri şagirdlərin həm qrammatika, həm də lüğət elementlərini mənimsəmələrini və istifadə etmələrini asanlaşdırır. Bu zaman danışıq məşqləri passiv sözləri aktivləşdirir. Sözlər işlədikcə daha da gücləndiyini söyləmək olar (Göçer, 2009). Şagirdlərin nitq bacarıqlarını təkmilləşdirmək üçün konstruktivist yanaşmanı təkcə proqramda deyil, praktikada tətbiq etmək lazımdır. Bundan əlavə, əzbərləmə təhsili səbəbindən şagirdlərin oxu vərdişlərinin və oxuduqlarını başa düşmələrinin zəiflədiyini və şagirdlərin maraqsız yetişdirildiyini söyləmək olar. Bu vəziyyət şagirdlərin nitq qabiliyyətinə birbaşa təsir edir. Nitqində prosodik olaraq daha yaxşı olan şagirdlərin şifahi oxuma prosodiyasının da daha güclü olduğu, həm danışıqda, həm də oxumada meydana gələn bu müsbət əlaqənin insanın oxuduqlarını daha yaxşı başa düşməsini, anlayışını və ya düşüncələrini daha yaxşı ifadə etməsinə şərait yaratdığı müəyyən edilmişdir. Bu, oxu və danışma bacarıqlarının bir-birini dəstəklədiyini və ana dili dərslərində əsas dil bacarıqlarının interaktiv şəkildə inkişaf etdirilməli olduğunu göstərir.

Məlumdur ki, siniflərin böyük olması şagirdlərin fərdi fərqlərinin aşkarlanmasına mane olur. Apardığımız araşdırmadan məlum olur ki ibtidai sinif şagirdlərindən daha çox böyük siniflərin şagirdləri sinif idarəçiliyinə daha çox təzyiq edir və təhsil mühitinə mənfi təsir göstərir. Belə bir nəticəyə gəlmək olur ki, böyük sinif şagirdləri fərdi fərqlərin aşkarlanmasına mənfi təsir göstərir.

Fərdi fərqlər insanların fərdi xüsusiyyətlərinin öyrənmə mühitində yaratdığı dəyişikliklərə aiddir (Demir, 2008). Siniflərdə şagirdlərin sıx olması onların istedadlarının üzə çıxarılmasına mane olduğu üçün təlim-tədris mühitində müəllimlərin işini çətinləşdirir. Bu baxımdan, tədris mühiti təşkil edilməli və siniflərdə şagir sayı ideal səviyyəyə çatdırılmalıdır. Şagirdlərin nitqi ilə bağlı özünü və həmyaşıdlarını qiymətləndirmə təcrübələri onların şüurunu artıra bilər, idrak və linqvistik özünüidarəetmə bacarıqları inkişaf edə bilər. Ədəbiyyat müəllimləri şagirdlərin ümumən əsas dil bacarıqlarının, xüsusən də nitq bacarıqlarının inkişafında rəy bildirməsinin, müasir ölçmə və qiymətləndirmə metodlarının müəyyən edilməsinin vacibliyinə diqqət çəkiblər. Hər prosesin sonunda məlumatın verilməsi, bir sözlə, nəticələr haqqında məlumatın lazımi yerdə və zamanda çatdırılması vacibdir (Sönmez, 2015, s.5). Şagirdlərin davranışlarını dəyişmək üçün xəbərdarlıq və korreksiyaedici tədbirlərin görülməsi lazım olsa da, bu proseslər davamlı və tək tərəfli aparıldıqda şagirdlərdə mənfi vərdişlərə səbəb ola və onları passiv vəziyyətə çəkə bilər (Yıldız, 2016). Öyrənmə-tədris prosesinin müasir ölçmə və qiymətləndirmə vasitələri və təcrübələri ilə qiymətləndirilməsində, lazım gələrsə, təcrübə və fəaliyyətlərdə dəyişikliklər edilə və proses istiqamətləndirilə bilər (Gömleksiz, Sinan, & Demir, 2010). Həm ölçmə-qiymətləndirmə təcrübələri zamanı,

həm də nitq təhsili prosesində müasir yanaşmalar işığında kommunikativ sərişt ələrə diqqət yetirilməlidir.

Kommunikasiya sərişt əsi lüğət, qrammatika, dinləmə, oxuma, yazma və anlama, tərcümə bacarıqlarına malik olma səviyyəsinə uyğun olur. Bu məqamda dil təhsilinin mərkəzinə aşağıdakı əsas dil bacarıqları qoyulmalıdır:

- Qrammatikanın tədrisi forma və məna istifadə vəhdətinə əsaslanmalıdır;
- Dil tədrisində məqsəd dil bacarıqları ilə yanaşı əqli, emosional və sosial bacarıqları inkişaf etdirmək olmalıdır;
- Dil təhsili qrammatik qaydaları və sözləri əzbərləməkdənsə, fəaliyyətlər, tapşırıqlar və layihələr əsasında aparılmalıdır;
- Həm müəllimlər, həm də şagirdlər başa düşürlər ki, danışıq dili yazılı dildən fərqli olaraq oxunmaq üçün deyil, eşidilmək üçündür;
- Unudulmamalıdır ki, mesaj dinləyicinin səviyyəsinə uyğun, aydın və asan başa düşülən, canlı və təsirli, monotonluqdan uzaq olmalıdır.

Ana dili dərsliklərində nitqin öyrənilməsi sahəsində öz duyğu və düşüncələrini ifadə etmək, qarışıq sözlərdən nizamlı və mənalı cümlələr qurmaq, seçilmiş duyğu ilə bağlı şəxsi düşüncələrini ifadə etmək, vizuallara əsaslanaraq cümlələr qurmaq, təqdimat texnikası və danışıq qaydalarına uyğunluq baxımından öz nitqini qiymətləndirmək kimi tapşırıqların miqdarı çoaldılmalıdır.

Dərsliklərdəki dialoqlar danışıq dilində istifadəni əks etdirməlidir. Dərsliklər üzərində aparılan araşdırmada iş dəftərlərində dialoqlarda istifadə olunan bölgə dialektlərinin şagirdlərin diqqətini çəkəcək və dramatikləşdirməyə uyğun şəkildə göstərilib izah edilməsi faydalı olsa da, mövcud dialoqların danışıq dilindən daha çox ədəbi dilə yönəlməsinə diqqət edilməlidir. Danışıq dilində tələffüz subyektindən müstəqilləşən deyimin qəbulediciyə təsiri və istiqaməti müxtəlif ölçü və keyfiyyətlərdə olacağı üçün dərsliklərdəki mətnlərdəki nitq nümunələrinin qəbulu zamanı şagirdlərin öz bilik və təcrübələrini əks etdirmələri vacibdir (Dəmir və Sinan, 2017). Lakin məktəbə müəyyən səviyyədə nitq qabiliyyəti ilə gələn fərdin necə lazımi danışıq qabiliyyətinə malik olduğu güman edilir və bu bacarıq nəzərə alınmır və ya diqqətdən kənarda qalır. Cəmiyyətimizin ənənəvi ailə quruluşu və sinifdə nizam-intizamı qorumaq üçün şagirdlərə danışmağa çox imkan verilməməsi də nitq bacarıqlarının inkişafı baxımından problemlər yaradan faktordur (Sağlam və Doğan, 2013). Bu və buna bənzər davranışlar şagirdlərin kütlə qarşısında çıxış edərkən yüksək narahatlığına səbəb olur və təbii olaraq onların nitq nümayişi aşağı olur. İstər proqramda, istərsə də dərsliklərdəki fəaliyyətlər, təcrübələr və təlimatlar hazırlanmış çıxışlara o qədər də imkan vermir. Hazırlanmış çıxışların danışma narahatlığını azaltması inkaredilməzdir. Bu məqamda müəllimlər hazır və ya hazırlıqsız nitqlərdə narahatlığı artırmamaq, mənfi münasibət formalaşdırmamaq üçün həvəsləndirici və stimullaşdırıcı yanaşmalar hazırlamalıdır.

Fərd yaşadığı cəmiyyətlə sağlam münasibətlər qurmaq və həyatını davam etdirmək üçün düzgün və gözəl danışmalıdır (Kansızoğlu, 2012). Ana dili kurslarında şagirdlərin estetik qavrayışı və inkişafı, o cümlədən onların anlayışını inkişaf etdirməyə yönəlmiş tapşırıqlar və yaradıcı tətbiqetmələr musiqi və rəsm kimi estetik mərkəzli sənət kursları ilə fənlərarası əlaqələr və qarşılıqlı əlaqə yaratmaq faydalı olardı. Estetik anlayış gözəlliyi hiss etməyə və tapmağa çalışmaq, estetik anlayışa sahib olmaq isə gözəlliyi anlamaqdır

Şagirdlərin hazırlıq səviyyəsi onların nitq bacarıqlarında, təsirli və inandırıcı nitq söyləmək bacarığında müəyyənedici amildir. Məlumdur ki, təhsilə hazırlığı yüksək olan şagirdlər mövzuları daha tez qavrayıb şərh edə bilirlər, beləliklə, mövzunu və əlaqəli anlayışları öyrənirlər, ev tapşırıqlarını asanlıqla yerinə yetirirlər və əvvəlki mövzunu yaxşı öyrəndikləri üçün növbəti mövzunu öyrənməyə hazır olurlar (Harman və Çelikler, 2012). Diqqətçəkən başqa bir məqam, şagirdlərin gəldiyi sosial-iqtisadi quruluşla onların nitq bacarıqları, xüsusən də bədən dili arasında əlaqənin olmasıdır.

Məlumdur ki, nitqin inkişafına xidmət edən tapşırıqlar azdır və müəllimlər kifayət qədər yeni tapşırıqlar hazırlamırlar. Dərsliklərdə nitq tapşırıqlarının az olduğu müəllimlər tərəfindən tez-tez vurğulanır. Digər tərəfdən, şagirdlərin nitq vasitəsilə fikirlərini ifadə etmək bacarığını inkişaf etdirən sinif fəaliyyəti dil təhsilinin mühüm tərkib hissəsidir və bu cür faydalı fəaliyyətlərin layihələndirilməsi və idarə olunması qabaqcıl peşəkar bacarıq və biliklər tələb edir (Ur, 1998). İstər körpəlik, istərsə də uşaqlıq dövründə dil fəaliyyətlərini hazırlamaq, şübhəsiz ki, uşağın inkişaf xüsusiyyətlərini nəzərə almaqla mümkündür (Ayrancı, 2018). Fəaliyyət və təcrübələrlə bağlı diqqət yetirilməli olan başqa bir məqam onların canlılıq prinsipi ilə ziddiyyət təşkil etməməsidir. Kifayət qədər nitq imkanları verilməyən şagirdlərdə ictimai danışma narahatlığı artacaq. Narahatlıq şagirdin özünü ifadə etmək üçün istifadə etdiyi dil bacarıqlarından biri olan nitqdə özünü göstərir və fərdin öz düşüncələrini və biliklərini cəmiyyətdə paylaşmasını çətinləşdirir. Təbii ki, sosiallaşma prosesini pozur (Bozpolat, 2017). Fəaliyyətin olmaması və nitq bacarıqlarına əhəmiyyət verilməməsi şagirdlərin nitq bacarıqlarına kifayət qədər yiyələnməsinə mane olur.

Şagirdə uyğunluq prinsipi. Bu prinsip hər bir şagirdin fərqli qabiliyyət və xüsusiyyətlərə malik olmasına əsaslanaraq; Fərqliliklər nəzərə alınmaqla danışıq mövzularını seçmək, qiymətləndirmə meyarlarını, fəaliyyət müddətlərini və şagirdə uyğun planlaşdırmağı müəyyən etmək məqsədi daşıyır (Temizkan və Atasoy, 2016). Hər bir şagirdin xüsusiyyətlərini kəşf etmək üçün öyrənmə mühiti yaradılmalıdır. Hər bir fərd fərqli ailə mühitində böyüdüyü üçün onların nitq qabiliyyətinə hazırlığı da fərqli olur. Araşdırmamızda şagirdlərin ailə mühitinin təsiri ilə yerli element xüsusiyyətləri ilə danışdıqları və ədəbi dil normalarına riayət etmədikləri əsas problemlərdən biridir. Yerli dialekt xüsusiyyətlərindən asılı olaraq nitqdə səs, şəkilçi

və sözlə bağlı problemlər müşahidə olunur; Standart dildə olmayan bir çox element danışıq aktında öz yerini tapır və təbii olaraq standart dildən uzaqlaşır (Erdem, 2013).

Sosial mediadan istifadənin dil elementlərini zədələdiyi və jarqondan istifadəyə səbəb olduğu günümüzün ən ciddi problemlərindən biridir. Müəllimlərin şagirdlərin ədəbi dil xüsusiyyətlərini dərk etmələrinə kömək etmək üçün ilk növbədə onlar nümunə olmalı, ana dilinin gücünü və incəliklərini dərk etmələrinə kömək etməlidirlər. Şagirdlərin yaxşı nitq təlimi alması üçün müəllim faktoru ön plana çıxır. Uşağı hər cəhətdən inkişaf etdirə bilməsi üçün istiqamətləndirən və modelləşdirən müəllim, şagirdlərin özünü ən yaxşı şəkildə ifadə etməsində mühüm rol oynayır (Aydın, 2013). Bundan əlavə, şagirdlərin ədəbi mətnləri ucadan oxuması onların nitq bacarıqlarının inkişafında da faydalı olacaq.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı. Bakı, 2001.
2. Baltaş, Z. və Baltaş A. (2005). Bedenin Dili. İstanbul: Remzi Kitabevi.
3. Çifçi, M. (2006). Argonun niteliği ve argoya bakış açımız. Türk Dünyası İncelemeleri Dergisi / Journal of Turkish World Studies. 6(2), ss. 297-301.
4. Demir, S. (2016b). Sözlü anlatımda söyleyiş (diksiyon). Etkinliklerle hafta hafta sözlü anlatım. (ed. Şengül, M. ve Baskın, S.). Ankara: Nobel Akademi Yayınları. ss. 31-40.
5. Kurudayıoğlu, M. (2011). İlköğretim ikinci kademe öğrencilerinin kelime hazinesi üzerine bir değerlendirme. Uluslararası Sosyal Araştırmalar Dergisi. 6(2), ss. 1798-1808.
6. M.İsmayılova Azərbaycan dilində rəsmi-işgüzar və akademik kommunikasiyanın funksional səciyyəsi. Monoqrafiya. Bakı, ADPU, 2021
7. N.Məmmədli. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərslik. Bakı, Elm və təhsil, 2024
8. Pilancı, H. & Cavkaytar, S. (2003). Türk dili. Eskişehir: Anadolu Üniversitesi Açıköğretim Yayınları.
9. Salayeva N, Fərəcova G. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. "CLASS-PRİNT" MMC. Bakı. 2024. 196 s.
10. Salehi, H., Ebrahimi, M., Sattar, S. & Shojaee, M. (2015). Relationship between EFL learners' autonomy and speaking strategies they use in conversation classes. Advances in Language and Literary Studies. ISSN: 2203-4714, 6(2), ss. 37-43. DOI NUMBER:10.7575/aiac.alls.v.6n.2p.37

11. Temizyürek, F., Erdem, İ. & Temizkan, M. (2007). Konuşma eğitimi. Ankara: Öncü Kitap.

Şükürzadə Şahnazxanım Cümşüd qızı

Şagirdlərdə kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi

Xülasə

Ana dili dərsliklərində nitqin öyrənilməsi sahəsində öz duyğu və düşüncələrini ifadə etmək, qarışıq sözlərdən nizamlı və mənalı cümlələr qurmaq, seçilmiş duyğu ilə bağlı şəxsi düşüncələrini ifadə etmək, vizuallara əsaslanaraq cümlələr qurmaq, təqdimat texnikası və danışıq qaydalarına uyğunluq baxımından öz nitqini qiymətləndirmək kimi tapşırıqların miqdarı çoaldılmalıdır. Sosial mediadan istifadənin dil elementlərini zədələdiyi və jarqondan istifadəyə səbəb olduğu günümüzün ən ciddi problemlərindən biridir. Müəllimlərin şagirdlərin ədəbi dil xüsusiyyətlərini dərk etmələrinə kömək etmək üçün ilk növbədə onlar nümunə olmalı, ana dilinin gücünü və incəliklərini dərk etmələrinə kömək etməlidirlər. Şagirdlərin yaxşı nitq təlimi alması üçün müəllim faktoru ön plana çıxır.

ШУКЮРЗАДЕ ШАХНАЗХАНУМ ДЖУМШУД КЫЗЫ

РАЗВИТИЕ КОММУНИКАТИВНЫХ НАВЫКОВ У УЧАЩИХСЯ

РЕЗЮМЕ

В области обучения речи в учебниках родного языка следует увеличить количество таких заданий, как выражение собственных чувств и мыслей, построение правильных и осмысленных предложений из сложных слов, выражение собственных мыслей по поводу выбранной эмоции, построение предложений с опорой на визуальные образы, а также оценка собственной речи с точки зрения приемов изложения и соблюдения разговорных правил. Одной из самых серьезных проблем сегодня является то, что использование социальных сетей наносит ущерб элементам языка и приводит к использованию сленга. Чтобы учителя могли помочь учащимся понять особенности литературного языка, они должны, прежде всего, быть образцами для подражания, помогая им понять силу и тонкости родного языка. Для получения учащимися хорошей речевой подготовки на первый план выходит фактор преподавателя.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.299-305

SHUKURZADE SHAKHNAZKHANIM GUMSHUD KIZI

DEVELOPING COMMUNICATION SKILLS IN STUDENTS

SUMMARY

In native language textbooks, the number of tasks such as expressing one's feelings and thoughts in the field of speech learning, constructing regular and meaningful sentences from mixed words, expressing personal thoughts about the selected emotion, constructing sentences based on visuals, and evaluating one's speech in terms of presentation techniques and compliance with speech rules should be increased. One of the most serious problems of today is that the use of social media damages language elements and leads to the use of jargon. In order for teachers to help students understand the features of literary language, they must first be an example, help them understand the power and subtleties of their native language. The teacher factor comes to the fore for students to receive good speech training.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: professor Məmmədli Nadir
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 306-310

https://doi.org/10.62837/2025.4.306

MƏMMƏDOVA ZEMFIRA ƏLƏKBƏR QIZI
zmammadova@amu.edu.az
MƏMMƏDOVA ŞƏHLA YUSIF QIZI
şmammadova@amu.edu.az
Azərbaycan Tibb Universiteti

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜXTƏLİF METODLARDAN İSTİFADƏ QAYDALARI

Açar sözlər: *xarici dil, metod, tədris, təlim*

Beynəlxalq təşkilatlar milli qurumla müasir təlim və texnologiyası xarici dillərin-tədrisində mühüm rol oynayır. İngilis dilinin öyrənilməsi müxtəlif dövrlərdə müxtəlif tədris və təlim ənənəvi metodlarla interaktiv metodlar qarşılaşdırılır. Bu metodların dil tədrisində dil bacarıqlarının və fərdi keyfiyyətlərin təkmilləşdirilməsində rolu ifadə olunur. İnteraktiv təlim zamanı tələbələrə bilik anlama prosesində iradi, əxlaqi, estetik qabiliyyətlərini inkişaf etdirmək formalaşdırılmışdır. Xarici beynəlxalq təşkilatla, milli qanunlar, müasir təlim metod və texnologiyaların təbliği müəllimlər tərəfindən geniş istifadə olunur. Təhsil, tərbiyə təchizatlarının inkişafı zaman keçdikcə yeni təhsil modelləri cərəyanlarının meydana çıxmasına, təhsilin peşəkar fəaliyyətə və həyata hazırlanmasında önəmli rol oynayır. ənənəvi təhsildə fakt və ha-disələri əzbərləməyə diqqət yetirilir. Dil kurikulunun təhsildə dəqiqliyin və səlistliyin müasir, dilin öyrənilməsində lüğətin rolunun əhəmiyyətinin tədris strategiyaları və metodlarının effektliyi, üsullar, dil bacarıqları, oxuma, yazma, dinləmə və danışma xüsusilə qeyd olunur. Ənənəvi təhsildə fakt və hadisələri əzbərlənməsinə diqqət yetirilir. Xarici dillərin tədrisində bu metodların hər birindən istifadə dilin intellektual səviyyəsini inkişaf etdirir. Dilin tədrisində yazı vərdişləri qrammatik tərcümə metodlarından istifadə edilərək tələbələrə çatdırılır. İnteraktivlik tələbələrin özləri arasında təşkil edilir. Bu metodlardan istifadə tələbələrin bilik səviyyəsinin artırılmasına kömək edir.

Xarici dillərin tədrisi tarix boyu müxtəlif metod və yanaşmaların tətbiqi ilə inkişaf etdirilmişdir. Cəmiyyətin, texnologiyaların və təhsil sistemlərinin dəyişməsi ilə yanaşı dilin öyrənilməsi üsulları da yenilənmir, yeni metodoloji yanaşmalar meydana çıxmışdır. Müasir dövrdə müəllim qarşısında duran əsas vəzifə yalnız qrammatik bilikləri ötürmək deyil, eyni zamanda tələbələrin dinləmə, danışıq, oxuma və yazma kimi bacarıqları balanslı şəkildə formalaşdırmaqdır. Bu məqsədə bir sıra tədris metodlarından istifadə olunur ki, onların hər birinin özünəməxsus məqsədi, strukturu və tətbiq qaydaları mövcuddur. İngilis dili dərslərində tələbələrin biliklərinin yoxlanılması əhəmiyyətli rol oynayır. Xarici dil öyrədilməsi müxtəlif pedoqoji yanaşmaları və metodları əhatə edən çoxşaxəli bir prosesdir. Hər bir

metodun məqsədi fərqli bacarıqları inkişaf etdirmək və tələbənin dilə yiyələnməsini daha səmərəli etməkdir. Qarışıq yanaşmada müəllim bir neçə metoddan uyğun olanı seçib birləşdirir. Burada dərsin məqsədi tələbələrin səviyyələrinə, biliklərinə uyğun olaraq seçilir (1.səh.12-18). Tapşırıq əsaslı tədris metodunda müəllim tələbələrə real həyatda qarşılaşacaqları tapşırıqlar verir. Tədrisdə tətbiqi bacarıqlar və funksional dil ön planda olur. Bu da tələbələrdə dinləmə və danışma metodlarını inkişaf etdirir. Dilin tədrisində qrammatik – tərcümə metodu da əsas yer tutur. Bu metod da ənənəvi tədris metodlarından biridir. Burada qrammatik qaydalar və sözlərin tərcüməsi əsas götürülür. Mətnlərin tərcüməsi qayda əzbərləmə və yazılı tapşırıqlar bu metoda əsasən tədris olunur. Bu metodun üstünlüyü qrammatik biliyin dərin öyrədilməsidir. Bu metodda danışıq və dinləməyə çox yer verilmir. Qrammatik tərcümə metodu ənənəvi tədris yanaşmaları sırasında yer alır və uzun illər ərzində klassik dillərin, xüsusilə latın və yunan dillərinin öyrədilməsində istifadə olunmuşdur. Metodun əsasını qrammatikanın izahı və sözlərin tərcüməsi təşkil edir. Tələbələrə qrammatik qaydalar birbaşa təqdim olunur və daha sonra həmin qaydalar arasında cümlə qurulur, mətni yazılı tərcümə etmək üçün tapşırıqlar qurulur. Bu metodda dil daha çox yazılı şəkildə öyrədilir, tələbələrin tərcümə bacarığı leksik bilikləri və yazılı ifadə qabiliyyətləri inkişaf etdirilir (2. səh.1-3). Təlim prosesində tələbələr arası əlaqə, qarşılıqlı təsir və əməkdaşlıq əsas olur. Xarici dilin öyrənilməsi zamanı interaktiv təlimin tətbiqi imkan verir ki, tələbələrbiliyi qavramaq prosesini daha anlaşıqlı etsinlər. Öz fikrini formalaşdırmağı, ona ikinci dildə düzgün ifadə etməyi öz nöqteyi nəzərini əsaslandırmağı, müzakirələşdirməyi və sübut etməyi öyrənirlər. Həm də digərini eşitməyi, dinləməyi alternativ fikrə hörmət etməyi öyrənirlər. Müxtəlif sosial vəziyyətləri modelləşdirməyi müxtəlif həyatı vəziyyətlərə qoşulmaqla və bu həyatı duymaq öz sosial təcrübələrini, zənginləşdirirlər. İnteraktiv metodlar dərsdə təlim prtosesinin gedişindən doğursa, yəni biri digərini əvəz edərək meydana çıxırsa, fəal metodlar əvvəlcədən planlaşdırılmış təlimin fəallaşdırılmasına şərait yaradır. Ənənəvi olaraq işlənən söz metodları, əyani, praktik metodlar bu gün də fəal metodlar şurasına daxildir. Audolingual metodlar XX əsrin ortalarında ABŞ-da inkişaf etdirilmişdir. Bu metod davranışlar nəzəriyyəsinə əsaslanır və təkrar üzərində qurulmuşdur. İnteraktiv metodlar demək olar ki, müasir tədris yanaşmalar arasında öz aktuallığı və effektivliyi ilə seçilən, öyrənmə prosesində tələbələrin fəaliyyətini ön plana çəkən bir metodoloji yanaşmadır. Bu metodun ideyası tələbələrin passiv bilik alıcısı deyil, biliklərin fəal iştirakı və yaradılmasında çevrilməsidir. İnteraktiv metodlar xüsusilə xarici dillərin tədrisində geniş imkanlar yaradır, çünki,bu metod tələbələr arasında qarşılıqlı ünsiyyətə, əməkdaşlığa, qarşılıqlı təsirə əsaslanır (3.səh.16-17). İntelaktiv metodun xarici dil dərslərində çox mühüm rol oynaması vacib şərtlərdən biridir. Bu metodun arxasında duran pedaqoji prinsip tələbələrin yalnız müəllimi dinləməyində deyil, öz təcrübələri, sualları, fikirləri və qrup işi vasitəsilə öyrənməlidir. Bu da tələbənin həm əqli, həm də

emosional əlaqəsini aktivləşdirir və uzun müddətli yaddaşı gücləndirir. Metodun əsas xüsusiyyətləri tələbələrin dərsdə fəal iştirak etməsi, passiv dinləyici rolunu aradan qaldırmaqdır. Həmçinin tələbələr arasında tapşırıqlar, layihələr, debatlar hazırlamaq əsas yer tutur. Müasir dövrdə xarici dillərin tədrisi sadəcə olaraq qrammatik biliklərin ötürülməsi ilə məhdudlaşmamalıdır. Effektiv dil öyrənmə prosesi kommunikativ, funksional və şəxsiyyətyönümlü yanaşmalarla zənginləşməlidir. Araşdırmalar və pedaqoji təcrübə göstərir ki, müxtəlif tədris metodlarının uyğun şəkildə tətbiqi tələbənin fərdi xüsusiyyətlərinə və öyrənmə üsulu buna əsaslandıraraq seçildikdə, dil bacarıqlarının inkişafında mühüm rol oynayır. Qeyd etdik ki, ənənəvi metodlar qrammatik tərcümə və audiolingual yanaşmalar müəyyən hallarda faydalı olsa da müasir dövrdə daha çox inteqrativ , kommunikativ, tapşırıq əsaslı və birbaşa tədris metodları üstünlük təşkil edir. Xarici dil öyrənmə prosesi ünsiyyətə əsaslandığı üçün insanların metodu daha çox əhəmiyyət kəsb edir. Rol oyunları da intellektual səviyyənin inkişafında əsas rol oynayır. İnteraktiv metod tələbələrin dərs prosesinə fəal qoşulmasına ünsiyyət vasitəsilə dil bacarıqlarını praktik şəkildə inkişaf etdirilməsinə imkan yaradır. Tədris prosesindən effektivliyini artırmaq üçün tələbələri maarifləndirmək lazımdır. Müxtəlif metodların inteqrasiyası tələbəlrin dil öyrənmə ehtiyaclarına daha geniş cavab verir və tədrisin dinamikliyini təmin edir. Ümumiyyətlə, metodlar və yanaşmalar tələbələrin dil biliklərinin formalarında kommunikasiyaya qadir olmaları və dilə marağını inkişaf etdirirlər.

Xarici dil tədris prosesinə yanaşma çoxşaxəlidir və dərs metodologiyaları dilin müxtəlif komponentlərinə - lüğət, qrammatika dinləmə, danışıq, oxu və yazıya – fərqli fokus ilə yanaşır. Effektiv tədris strategiyası yalnız tələbələrin dil strukturlarının mənimsəməsinə deyil, həm də onların motivasiyasını artırmağa, öyrənmə strategiyalarını inkişaf etdirməyə və mədəniyyətlərarası kommunikasiya bacarıqlarını formalaşdırmağa xidmət etməlidir (4.səh.19-20). Qeyd etmək lazımdır ki, ənənəvi olaraq işlənən söz metodları, əyani, praktik metodlar sırasına daxildir. Rollu oyunlar, müxtəlif xarakteristikalara malik didaktiv çalışmalar esse, test tapşırıqlarının icrası, diskussiya, mühakimə və s. fəal təlim metodlarıdır. Təlimin fəal metodları, tələbələrin məlumatlanmasını, idrak müstəqilliyi, fikir fəallığını, yaradıcılığını artıran metodlar nəzərdə tutulur. Bütün metodlar prosesində meydana çıxan tələbələrarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim – tələbə birliyi nəzərdə tutulur. Çevik düşündürücü iştirak fəallığı doğurmayan metodlar tələbələrin marağını təmin etmir, fəaliyyətə qoşulmur. Digər tərəfdən isə, hər bir tələbənin öz ideası, marağı, həyata hazırlıq istəyi vardır. Təlimin həm məzmunu, həm də metodları bu istəyi təmin etməlidir. Təlim metodlarının təfliqi nəticəsində dil bacarıqlarının təkmilləşdirilməsi fonunda təlim-təebiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, deferensiallaşdırılması, fərdiləşdirmə, inteqrasiya prinsiplərinin geniş tətbiqi həyata keçirilmiş olur. Beləliklə, xarici dil öyrənmə metodlarının düzgün seçilməsi və kombinasiyası tələbələrin motivasiyasını

yüksəldir, dil biliklərinin dərinliyini artırır və uğurlu ünsiyyət bacarıqları yaradır. Müəllimlər diverse metodlar haqqında biliyi genişləndirməli və bunları kontekstə uyğun adaptə etməyi öyrənməlidirlər. Xarici dil dərslərində tətbiq olunan müxtəlif tədris metodlarının əsas xüsusiyyətlərini təqdim etmək, onların güclü və zəif tərəflərini analiz etmək, eləcə də bu metodların tələbə nailiyyətlərinə hansı dərəcədə təsir etdiyini göstərmək əsas məqsəd kimi göstərilmişdir.

Z.A.Mammadova
SH.Y.Mammadova

S U M M A R Y

THE USE OF VARIOUS METHODS IN FOREIGN LANGUAGE TEACHING

Key words: *methods, active learning, training, interactive methods, communicative appraise*

In the modern era foreign language teaching should not be, limited to the transmission of grammatical knowledge. Effective language education must he enriched with communicative, functional and learner – centered appraise. Pedagogical practice shows that the thoughtful application of, diverse teaching methods tailored to students individual needs, significantly enhances learning outcomes. Contemporary methods such as interactive, communicative task – based and different approaches are considered particularly effective. Among them, the interactive method stands out as it encourages active student participation, fasters speaking skills and promotes creative and critical thinking. Provide continues teacher`s training is to support the use of modern methodologies. Learning a foreign language necessitated the application of the most diverse teaching and learning methods at different at times. This article tells about the methods of the training methods. Their role in language teaching, improvement of language skills and personal qualities is expressed. At the same time active training methods are discussed in this article. A comparison of active and interactive methods is also given in this article, too. The process of imparting knowledge and shapes than in terms of will, moral, intellectual, cultural and legal values. Interactive method is developing foreign language skills also develops the correct methodological approach, student engagement and the leaches professional development are fundamental elements for successful foreign language acquisition.

З.А.Мамедова
Ш.Ю.Мамедова

ПРАВИЛА ИСПОЛЬЗОВАНИЯ РАЗЛЕННЫХ МЕТОДОВ В ПРЕПОДАВАНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ

Ключевые слова: *метод, иностранный язык, активные обучение, интерактивное обучение.*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 306-310

В современную эпоху преподавание иностранных языков не может ограничиваться только передачей грамматических знаний. Эффективное обучение иностранному языку должна быть обогащено коммуникативными функциональными и личностно – ориентированными подходами. Изучение иностранного языка требовало применения самых разнообразных методов преподавания и обучения в разное время. В статье рассказывается об интерактивные обучении, одном из новейших методов обучения. Интерактивные методы сравниваются с традиционными методами. В то же время в статье упоминаются и активные методы обучения. Таким образом, включение в учебный процесс активных и интерактивных методов обучения создает условия для развития мышлении, повышения качество обучения. Помимо развития навыков иностранного языка, изучаемые новые способы методы, средство и подходы такта развивают творческие способы личность человека его отношения к людом. Интерактивные обучение – это еще и творческий процесс. В результате данных применения данных методов обучения реализуются принципы демократизации, дифференциации, индивидуализации, интеграции образовательного процесса на фоне совершенствования языковых навыков. Наиболее успешными считаются современных подходы, такие как интерактивное, коммуникативное задание – ориентированные и прямые метод. Особенно эффективным считается интерактивный метод, так как он активизирует участие учащихся в процессе, способствует развитию навыков устной речи и стимулирует творческое мышление.

Ə D Ə B İ Y Y A T

1.Xarici dillərin tədrisində innovativ metodların tətbiqi. Bakı, Təhsil nəşriyyatı, 2018;
2. Dil öyrənmə prosesində interaktiv metodların rolu. Bakı, Təhsil nəşriyyatı, 2020;
3. Appoadies and methods in lauguage traching Richards --. C. and Kodgers T.S. Cambridgi press, Cambridge University, 2001;
4. Современная методика обучения иностранным языкам. Пособие для учителей Москва, 2004;

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21 05 2025
Rəyçi: prof. Z.Ş.Məmmədova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,
Filologiya məsələləri № 4, 2025
Səh.311-314
ISSN 2224-9257

https://doi.org/10.62837/2025.4.311

SEVINC CAFAROVA
sevinc.ceferova110@gmail.com
İSMAYILOVA CHIMNAZ
chimnaz_ismailbeyli@mail.ru
KHULIYEVA SHARQIYA
squliyeva1@gmail.com
Azərbaycan Tibb Universiteti
Səməd Vurğun 167
Amu.edu.az

TRANSLATION AND INTERPRETATION OF NEW WORDS

Key words: interpretation, translation, difference, type, language, sinkhron.

The difference between translation and interpretation lies in each service's medium: interpreters translate spoken language orally, while translators translate the written word. Interpretation isn't word-for-word translation of a spoken message (1, page. 25-35).

The difference between interpreting and translation is only the difference in the medium: the interpreter translates orally, while a translator interprets, written text. Both interpreting and translation deep knowledge of more than one language (2.p.45)

The key difference between translation and interpretation is in the timing. Interpretation takes place on the spot. The process can occur in person, over

The differences in skills are greater than their similarities. The biggest difference between interpreters and translators is that most translators use computer-aided tools in their work. The biggest difference between interpreters and translators is that most translators use computer-aided tools in their work. Translators work on any information in written form: Websites, print, video subtitles, software, multimedia, the phone or via video. Translation can happen long after the source text is created. The key skills of the translators are the ability to understand the source language and the culture of the country where the text originated. Interpreters must have extraordinary listening abilities, especially simultaneous interpreting conferences and meetings, medical appointments, legal proceedings, live TV coverage, sign language. Oral translation is included in the services of almost every translation agency.

Interpretation is required at conferences, meetings and in any event involving people that speak different languages. There are following types of interpretation: consecutive, simultaneous whispered, written text, sign language interpering. Let's analyze them separately. In consecutive interpreting speaker's textis interpreted

usually by time slots of 5 or 15 minutes, depending on the difficulty of the text interpreting by shoter phases is also called parroting. Consecutive-requires no special equipment's during the speech.

Simultaneous interpretation is performed at interpreter's booth simultaneously with the speaker's presentation and the text in the target language reaches the listeners through special headphones. There are normally at least two interpreters in the interpreter's booth since one interpreter cannot interpret for more than half an hour on a continuous basis. Whispered interpreting is similar to simultaneous interpretation. Interpretation often refers to A, B and C language.

A language is the mother tongue of interpreter from and into which he or she interprets. B language is an active foreign language that interpreter command at very good level and into and from which he/she can interpret. Legal translation requires highly trained translator as it involves the translation of legal documents such as statutes contracts and treaties (Jaaskelainen R. studies: what are they? 2005)

Their importance in the English language calls forth observance of specific methods of translation and requires learning, lexical – semantical fealtures of English neologisms. Like other lexical groups neologisms acquire cannot active meanings in the text and they denote emotional colour in the communication. Their fore the article is devoted to reveal stylistic features of neologisms.

The deal with the means of communication which is developing and prospering today. The majority of words that are generally used as terms in both Azerbaijani and English were formed in the ancient times of language. Linguistic and psychological problems arising in the process of translating nationally colorful words are either in the absence of these words in other languages or in the absence of full meaning. Undoubtedly, ethnogenesis, ethnic identity and ethnospsychological factors play a role in the formation of such words. The ethnic of this language as it forms.

A language is the mother tongue of interpreter, from and into which he or she interprets. B language is an active foreign language that interpreter commands at a very good level and into and from which he/she can interpret. C language is a passive foreign language from which interpreter interprets only into his/her native language and not vice versa. Interpre- ter usually (also translator) has one B language and one or two C languages. There is also con- ference interpreting, which usually entails simultaneous interpreting and may in turn be court interpreting, media interpreting, public sector interpreting and so on. Behind the online transla- tion tool, a software program analyses the text according to predefined linguistic rules and re- constructs the text in a different language according to the corresponding rules of the target lan- guage. They do not produce perfect copy of the submitted text in another language. A free translation service or online translation tool can never substitute a human translator and should only be used when you want to translate text written in a foreign language into your native lan- guage or a language you understand

(Newmark, P. About Translation: Multilingual Matters. Clevedon, Philadelphia, Adelaide, Multilingual Matters Ltd., 1991.) (3,page 5-6) Computer translation refers to translations of anything to do with computers such as software, instructions and help files. Fi- nancial Translation is the translation of text of a financial nature like banking, stocks, commodi- ties, and investment funds. General translations are less complicated and the language used is not high level. In general translation, there is no specific or technical terminology used. Legal translation requires highly trained translators as it involves the translation of legal documents such as statutes, contracts and treaties..(Jaaskelainen, R. Translation studies: what are they? 2005) (4,page 20-25) Literary translation is the translation of novels, poems, and plays. A literary translator must be capable of also translating feelings, cultural nuances, humor and other subtle elements of the literary work.

Sevinc Cəfərova, ATU
Xarici dillər kafedrası müəllim

Stylistic features in translation and İnterpretation of English Neologisms

Summary

As we know interpretation and translation are closely related linguistic fields. There are some differences and similatities between them is in the timing. Interpretation takes place on the spot while translation can happen long after the source text is created. The process can occur in person, over the phone, or via video. This gives translators enough time to utilize technologies and reference materials to generate accurate, high-quality-translations. Another difference between them is the difference in the medium: The interpreter translates orally and it sounds only one time, while a translator interprets written text. Both interpreting and translation deep knowledge of more than one language.The article deals with the English neologism convering all spheres of the science and social life. Their importance in the English language calls forth observance of specific methods of translation and it requires learning lexical-semantical fealtures of English neologisms. Their fore the article is devoted to reveal stylistic features of neologisms: The article deals with the role and meaning of neologisms in the contemporary English language, formation of new words with help of English.

References

1. Larson, Miedre. Z. Translation: Theory a Practice, Tension and Inderdependence, 1991.
2. Duff, A Translation 1989 Murphy, B. Teaching translation and teaching through translation, 1988.

3. Newmark, P. About Translation: Multilingual Matters. Clevedon, Philadelphia, Adelaide, Multilingual Matters Ltd., 1991.
4. Jaaskelainen, R. Translation studies: what are they? 2005.
5. Harvey, M.A. beginner's course in legal translation the case of culture-bound terms, 2003.

Yeni sözlərin tərcüməsi prosesində nəzərə çarpan uyğunluqlar və çətinliklər

Xülasə

İllərlə yeni sözlər terminlər ifadələrlə zənginləşir və bir çox dəyişikliklərə məruz qalırlar. İnsanların ifadə tərzi, düşünmə formaları da dəyişir. Bu baxımdan son dövrlər tərcümə üslubu da köklü dəyişikliklərə məruz qalır. Müasir dövrün tələblərinə cavab verir.

Məqaləmizdə neoqolizmin şifahi və yazılı tərcümə və şəhrində stilistik xüsusiyyətlərindən bəhs edilir. Neoqolizm – yeni sözlərin klassizmdir.

Yazılı və şifahi tərcümə eyni zamanda bədii və elmi tərcümə kimi iki növə ayrılır. Elmi tərcümənin əsas qollarından biri siyasi publissitik əsərlərin tərcüməsidir. Şifahi tərcümənin iki əsas növü var. a)fasilə və b) ardıcıl(sinxron) tərcümə. Bu növ tərcümədən elmi və ictimai-siyasi konfranslarda, qrultaylarda istifadə edilir. Yazılı tərcümə material əldə edildikdən bir müddət sonra da tərcümə oluna bilər. Proses şəxsən, telefon və ya video vasitəsilə də baş verə bilər. Bu tərcümələrə dəqiq, yüksək keyfiyyətli tərcümə etmək üçün texnologiyalardan və istinad materiallarından istifadə etmək üçün kifayət qədər vaxt var.

Устный и письменный перевод

Резюме

В этой статье говорится об устном и письменном переводе. Как ты знаеш, интерпретация и перевод тесно связаны между собой лингвистическими полями. Есть некоторые различия и сходства между толкованием и переводом. Основное различие между ними заключается в сроках. Устный перевод происходить на месте. Процесс может происходить лично, по телефону или через видео. Другое различие между ними- это различие в среде. Как устный, так и письменный перевод предполагают глубокое знание более чем одного языка . Различия в навыках больше, чем их сходства. Устный переводчик должен умет переводить на месте в обоих направлениях без использования словарей и других материалов. Устный перевод требуется на конференциях, совещаниях. В любом случае с участием людей говорящих на разных языках.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Prof.Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.315-320

https://doi.org/10.62837/2025.4.315

VƏSİLƏ MAHMUD QIZI HACIYEVA
BDU-nun Qazax filialının
Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının
müəllimi, hacıyevavasile00@gmail.com
CEYRAN ZAUR QIZI ƏLİYEVA
BDU-nun Qazax filialının
Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının
müəllimi, teacherjeyran@mail.ru

ZAMAN KATEQORİYASININ İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MÜQAYİSƏLİ TƏHLİLİ

Xülasə

Bu məqalədə Azərbaycan və ingilis dillərində zaman kateqoriyası müqayisəli şəkildə araşdırılır. Tədqiqatda hər iki dilin qrammatik sistemində zamanın yeri, funksiyası və ifadə vasitələri ətraflı təhlil olunur. İngilis dilində zaman formaları analitik üsullarla – köməkçi feillər və feilin müxtəlif şəkilləri vasitəsilə qurulsa da, Azərbaycan dilində zaman daha çox morfoloji – şəkilçilər vasitəsilə ifadə olunur. Eyni zamanda, ingilis dilində aspekt (perfect, continuous və s.) kateqoriyalarının zamanla sıx əlaqədə olması və bu sistemin Azərbaycan dilində spesifik qarşılığının olmaması xüsusi qeyd olunur. Məqalədə həmçinin zamanların tərcüməsi zamanı yaranan semantik və struktur çətinliklər, xüsusilə zamanların kontekstdən asılı dəyişmələri və uyğunluq problemləri praktiki nümunələrlə izah edilir. Araşdırmanın nəticəsi olaraq hər iki dilin zaman sistemləri arasında funksional oxşarlıqlar və fərqlər müəyyən edilir. Bu fərqlərin dərk olunması tərcüməçilər, dil öyrənənlər və müəllimlər üçün faydalı ola bilər. Məqalə zaman kateqoriyasının nəzəri və praktik əhəmiyyətini göstərməklə tərcümə sahəsində tətbiqi imkanlarını da açıq şəkildə ortaya qoyur ki, bu da müasir tərcümə praktikasında zamanların düzgün istifadəsinin kommunikativ dəqiqliyinə birbaşa təsir edir.

Açar sözlər: zaman kateqoriyası, Azərbaycan dili, ingilis dili, müqayisəli təhlil.

GİRİŞ. Dil sistemi müxtəlif qrammatik kateqoriyalar vasitəsilə real dünyanı və insan düşüncəsini ifadə edir. Bu kateqoriyalardan biri də zamandır. Zaman kateqoriyası hadisələrin reallıqda baş vermə ardıcıllığını, müddətini və münasib zaman nöqtəsini göstərməklə danışanın fikrini strukturlaşdırır və informasiyanı dinləyici üçün anlaşıqlı edir.

İngilis və Azərbaycan dilləri müxtəlif dil ailələrinə mənsub olduqları üçün zaman kateqoriyasının ifadə vasitələri, quruluş prinsipləri və qrammatik xüsusiyyətləri arasında həm oxşarlıqlar, həm də nəzərəçarpacaq fərqlər mövcuddur. İngilis dili analitik strukturuna görə zaman kateqoriyasını daha çox köməkçi feillər, zaman

zərfləri və feilin şəkilləri vasitəsilə ifadə edir. Azərbaycan dili isə əsasən sintetik və ya aqlütinativ xüsusiyyətləri ilə seçilir; burada feilin zaman formaları şəkilçilər vasitəsilə yaradılır.

Zaman məfhumu fəlsəfədə obyektiv və subyektiv reallığın ölçüsü kimi dəyərləndirilir. Aristoteldən Kantadək bir çox filosoflar zamanı varlığın davamlılıq ölçüsü kimi təqdim etmişlər. Dilçilikdə bu anlayış daha funksional səviyyədə qavranılaraq zamanın dil sistemində necə kodlaşdırıldığını bildirir. Zaman (tempus) dilçilikdə geniş şəkildə öyrənilən və insanın reallıqla münasibətində mühüm rol oynayan qrammatik kateqoriyadır. Zaman kateqoriyası hadisənin baş verdiyi anla danışıq zamanı (reallıq nöqtəsi) arasında olan münasibəti müəyyənləşdirir. Qrammatik zaman danışanın baxış nöqtəsinə görə hadisənin keçmiş, indiki və gələcək zamanlarda baş verdiyini bildirir. İ.Tahirov yazır: "Zaman elə kateqoriyalar sırasına daxildir ki, onlar nəinki dil vasitəsi ilə təsvir edilir, həm də dilin özündə, lüğət tərkibində və qrammatik quruluşunda təzahür edir" [2, s.25].

Dilçilik baxımından zaman kateqoriyası ilk növbədə feillə əlaqədardır. Çünki feil hadisəni, hərəkəti və ya vəziyyəti ifadə edir və onu müəyyən zaman nöqtəsində təqdim edir. Bu zaman müxtəlif dillərdə fərqli vasitələrlə ifadə olunur: sintetik dillərdə (məsələn, Azərbaycan dili) – zaman şəkilçilər vasitəsilə ifadə olunur. Analitik dillərdə (məsələn, ingilis dili) – zaman köməkçi feillər, modal sözlər və zaman zərfləri ilə verilir. Zaman anlayışı yalnız qrammatik formalara deyil, həm də leksik vasitələrə bağlıdır. Məsələn, "dünən", "sabah", "indi", "tezliklə" kimi zaman zərfləri məna baxımından zamanı bildirir, lakin qrammatik zaman hesab edilmir. Qrammatik zaman isə feilin morfoloji formalarında ifadə olunur: "getdi", "gedir", "gedəcək" və s.

Azərbaycan dilində zaman kateqoriyası feilin əsas qrammatik kateqoriyalarından biri kimi çıxış edir və hadisənin zaman aspektində təqdiminə xidmət edir. B.Xəlilov zaman kateqoriyasını belə izah edir: "Zaman kateqoriyası keçmişdə icra olunmuş, indi icra olunan, gələcəkdə icra olunacaq işin zamanı ilə, icra olunmuş, icra olunan və icra olunacaq iş haqqında məlumat verilən vaxt arasındakı zamandır" [1, s.121].

Zaman anlayışı Azərbaycan dilində əsasən feil şəkilçiləri vasitəsilə ifadə olunur. Bu kateqoriya keçmiş, indiki və gələcək zaman olmaqla üç əsas zamana bölünür.

1) Keçmiş zaman – Keçmiş zaman hadisənin danışıq anından əvvəl baş verdiyini göstərir. Azərbaycan dilində keçmiş zaman iki formada verilir: Şühudi keçmiş zaman ("-dı, -di, -du, -dü") *getdi, yazdı, oxudu, gördü*. Nəqli keçmiş zaman ("-mış, -miş, -muş, -müş"): *getmişdi, yazmışam, oxumuşdular*. Şühudi keçmiş zaman hadisənin baş verdiyinə əminlik bildirir, nəqli keçmiş isə daha çox eşitmə, məlumat vermə və ya nəticə əsaslı təsviri əhatə edir.

2) İndiki zaman – İndiki zaman hadisənin danışıq zamanı ilə eyni vaxtda baş verdiyini göstərir və"*-ır, -ir, -ur, -ür*" şəkilçisi və şəxs sonluqları ilə düzəlir: *gedir, oxuyur, danışır, yazır*. Burada feilin əsas kökünə zaman şəkilçisi və şəxs sonluğu

əlavə edilir. İndiki zaman həm konkret, həm də geniş (ümumi vərdiş xarakterli) mənada işlənə bilər: *Məktəbə gedirəm* (konkret indi), *Hər gün kitab oxuyuram* (vərdiş halı).

3) Gələcək zaman – Gələcək zaman danışıq anından sonra baş verəcək hadisələri bildirir. Azərbaycan dilində gələcək zaman iki şəkildə verilir: Qəti gələcək zaman ("-acaq, -əcək"): *gedəcək, yazacaq, oxuyacaqlar*; Qeyri-qəti gələcək zaman ("-ar, -ər"): *gələr, oxuyar, danışar*.

Qəti gələcək daha çox planlaşdırılmış və ya dəqiq hadisələri əhatə edir. Qeyri-qəti gələcək isə ehtimal, ehtiyat və ya təklif bildirə bilər: *O, sabah gələcək* (plan), *Birdən gələr* (ehtimal).

Zaman şəkilçiləri Azərbaycan dilində feil kökünə və ya əsasına birləşir və şəxs sonluqları ilə tamamlanır. Bu şəkilçilər aqlütinativ prinsipə əsasən ardıcıl olaraq feil formasını yaradır. Məsələn: *oxu-muş-du-lar* – feil kökü + keçmiş zaman şəkilçisi + keçmiş zaman köməkçi şəkilçi + 3-cü şəxs cəmi sonluğu.

İngilis dili zaman sistemi baxımından dünyanın ən mürəkkəb dillərindən biri hesab olunur. Bu dildə zaman anlayışı yalnız keçmiş, indiki və gələcək zamanlarla məhdudlaşmır, eyni zamanda sadə (simple), davam edici (continuous), bitmiş (perfect) və bitmiş davam edici (perfect continuous) zaman formaları mövcuddur. Bu quruluşlar feilin forması, köməkçi feillər, modal feillər və zaman zərfləri ilə ifadə edilir.

Sadə zaman formaları (Simple Tenses) hərəkətin baş verdiyi zamanı sadə şəkildə bildirir: Simple Present: *I read books every day*. // Simple Past: *She went to school yesterday*. // Simple Future: *They will travel tomorrow*. Bu zaman formaları adətən təkrar olunan və ya ümumi xarakterli hərəkətləri göstərir.

Davamedici zaman formaları (Continuous Tenses) hadisənin müəyyən zaman kəsiyində davam etdiyini bildirir: Present Continuous: *I am writing a letter now* // Past Continuous: *He was watching TV at 9 p.m.* // Future Continuous: *They will be working at this time tomorrow*. Bu formalar "to be" köməkçi felinin uyğun formasına və felin "-ing" forması ilə düzəlir.

Bitmiş zaman formaları (Perfect Tenses) müəyyən bir zaman nöqtəsinə qədər tamamlanmış və ya nəticəsi mövcud olan hərəkətləri bildirir: Present Perfect: *She has written three letters*. Past Perfect: *I had left before he arrived*. Future Perfect: *They will have finished the task by tomorrow*.

Bu zaman formaları "have/has/had/will have" köməkçi feilləri ilə və əsas feilin keçmiş zaman forması (Participle II) ilə düzəlir.

Bitmiş davamedici zaman formaları (Perfect Continuous Tenses) həm hərəkətin davamlılığını, həm də onun müəyyən bir zamana qədər bitməsini bildirir: Present Perfect Continuous: *She has been studying since morning*. Past Perfect Continuous: *He had been working for two hours before the break*. Future Perfect Continuous:

They will have been waiting for an hour by 5 p.m. Bu zamanlar "have/has/had + been + V-ing" strukturu ilə yaradılır.

İngilis dilində gələcək zamanı ifadə etmək üçün bir neçə vasitə vardır: Will/shall + V // Be going to + V. Present Continuous (planlaşdırılmış gələcək üçün): *I am meeting him tomorrow*. Simple Present (cədvəl və ya qrafiklə bağlı hallar üçün): *The train leaves at 6 p.m.*

Azərbaycan dilində zamanların sayı məhdud olsa da (əsasən 3 zaman), ingilis dilində hər bir zamanın müxtəlif aspektləri ilə birlikdə daha geniş struktur mövcuddur (cəmi 12 əsas zaman forması).

Azərbaycan dilində zamanlar əsasən feil şəkilçiləri vasitəsilə sintetik şəkildə ifadə olunur (məsələn*, getdi, gələcək, oxuyur*). İngilis dilində isə əsasən analitik üsulla, yəni köməkçi feillər və feilin morfoloji formaları vasitəsilə qurulur (məsələn, *have gone*, *will be going*).

Azərbaycan dilində feil formaları şəxsə görə dəyişir (gedirəm, gedirsən, gedir). İngilis dilində isə yalnız indiki zamanın sadə formasında və üçüncü şəxsdə (-s sonluğu) fərq müşahidə olunur (*He reads* vs *I read*), digər formalarda şəxs əvəzlikləri və köməkçi feillərlə fərqləndirilir.

İngilis dilində zaman və modal kateqoriyalar çox sıx əlaqəlidir: can, could, would, might və s. keçmiş, indiki və gələcək mənaları ifadə edə bilər. Azərbaycan dilində bu daha çox ayrıca modal sözlər və ya kontekstdən asılı şəkildə baş verir.

Hər iki dildə zaman zərfləri zamanın müəyyənləşdirilməsində mühüm rol oynayır, lakin ingilis dilində analitik strukturların çoxluğu səbəbilə zərflərin köməkçi rolu daha da artır. Məsələn: Azərbaycan dili: *O, dünən getdi.* // İngilis dili: *He went yesterday*.

Müqayisə göstərir ki, Azərbaycan dili sintetik zaman sisteminə malikdir: şəkilçilərlə zaman ifadə olunur. İngilis dili isə analitik sistemlidir: köməkçi feillər və felin formaları əsasdır. İngilis dilində zaman və aspekt bir sistem kimi işləyir, Azərbaycan dilində isə bu iki kateqoriya daha çox fərqlidir.

Zaman kateqoriyası hər iki dildə nitqin əsas struktur elementlərindən biridir və düzgün zaman seçimi istər ünsiyyətdə, istərsə də tərcümə prosesində xüsusi əhəmiyyət kəsb edir. İngilis və Azərbaycan dilləri arasında qrammatik və sintaktik fərqliliklər tərcümə zamanı müəyyən çətinliklər yarada bilər. Bu səbəbdən zamanların tərcüməsində semantik uyğunluq, aspektual dəqiqlik və kontekstual anlam mühüm rol oynayır.

Tərcümə zamanı əsas məqsəd – yalnız zaman formasının deyil, həm də əməlin xarakterinin – onun başlanğıcı, davamlılığı və ya bitmiş olması kimi aspektlərin doğru çatdırılmasıdır. Məsələn: *He has been living here for five years*. Tərcümə: *O, beş ildir ki, burada yaşayır*. Burada Present Perfect Continuous formasının ifadə etdiyi davamlılıq, Azərbaycan dilində hal-hazırki zamanla birlikdə zaman zərfi vasitəsilə verilir. *I had finished the report before they arrived*. Tərcümə*: Onlar*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.315-320

gəlməmişdən əvvəl mən hesabatı qurtarmışdım. Past Perfect-in əvvəlki hərəkəti bildirməsi Azərbaycan dilində "*-mışdı*" forması ilə əks olunur.

İngilis dilindəki bir zaman forması Azərbaycan dilinə kontekstdən asılı olaraq fərqli şəkildə tərcümə oluna bilər: *I am going to the library*. Tərcümə variantları: *Mən kitabxanaya gedirəm // Mən kitabxanaya getməkdəyəm // Mən indi kitabxanaya gedirəm*. Bu nümunə göstərir ki, tərcümədə dil spesifikasına uyğun struktur seçilməlidir. İngilis dilində aspekt (perfect, continuous) ifadə vasitələri tərcümədə xüsusi diqqət tələb edir: *She had been crying before we came*. Tərcümə: *Biz gəlməmişdən əvvəl o, ağlayırdı*. Bu cümlədə davamlılıq (had been crying) Azərbaycan dilində sadəcə keçmiş zamanla verilir. Bəzən isə əlavə izah və ya zərf vasitəsilə dəqiq ifadə edilir. Tərcüməçi əsas zamanla əlaqədar cümlədaxili ardıcıllığı qorumalıdır. Kontekstdən asılı fərqli zaman seçimi. Məsələn, İngilis dilində indiki zamanla verilən ifadə Azərbaycan dilinə gələcək zamanla tərcümə oluna bilər: *The train leaves at 7. – Qatar saat 7-də yola düşəcək*.

NƏTİCƏ

Azərbaycan və ingilis dillərində zaman kateqoriyası hər iki dilin qrammatik sistemində mühüm yer tutur. Bu kateqoriya hərəkət və ya hadisənin başvermə anını ifadə etməklə yanaşı, onun davamlılığını, bitməsini və münasibətini də göstərir.

Müqayisəli təhlil göstərdi ki, Azərbaycan dili sintetik, ingilis dili isə əsasən analitik quruluşa malikdir. İngilis dilində zaman və aspekt sistemləri bir-biri ilə sıx bağlı şəkildə işləyir, halbuki Azərbaycan dilində bu kateqoriyalar daha çox müstəqil şəkildə işlənir.

Eləcə də tərcümə zamanı yalnız qrammatik forma deyil, məna dərinliyi və kontekstual uyğunluq da nəzərə alınmalıdır. Aparılan müqayisə hər iki dilin zaman sistemlərinin funksional fərqlərini və oxşarlıqlarını aydınlaşdırmağa imkan verir və tərcümə prosesində daha düzgün yanaşmaların formalaşmasına kömək edir.

ƏDƏBİYYAT

1. Xəlilova B. Azərbaycan dilində feil. Bakı, 2018.
2. Tahirov İ. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı, 2007.

A COMPARATİVE ANALYSIS OF THE TENSE CATEGORY IN ENGLISH AND AZERBAİJANI LANGUAGES

Abstract

This article provides a comparative analysis of the tense category in the Azerbaijani and English languages. It examines the role, function, and means of expressing tense within the grammatical systems of both languages. While English tense forms are primarily constructed through analytical means-using auxiliary verbs and verb forms—Azerbaijani expresses tense predominantly through morphological markers such as suffixes. The study also emphasizes the strong connection between

tense and aspect (e.g., perfect, continuous) in English and the lack of direct equivalents in Azerbaijani. The article addresses common semantic and structural challenges that arise during translation, particularly those related to contextual shifts and maintaining tense consistency, supported by practical examples. The analysis identifies both functional similarities and distinctions between the tense systems of the two languages. Understanding these differences is beneficial for translators, language learners, and educators. The study not only highlights the theoretical and practical importance of tense but also explores its application in translation. The relevance of this topic is linked to the fact that accurate use of tense in modern translation practice directly affects communicative precision.

Keywords: tense category, Azerbaijani language, English language, comparative analysis.

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ КАТЕГОРИИ ВРЕМЕНИ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Резюме

В данной статье проводится сравнительный анализ категории времени в азербайджанском и английском языках. Исследуется роль, функция и способы выражения времени в грамматических системах обоих языков. Если в английском языке формы времени в основном строятся аналитическим способом – с использованием вспомогательных глаголов и различных форм глагола, то в азербайджанском языке время выражается преимущественно морфологически – с помощью аффиксов. Особое внимание уделяется тесной связи между категорией времени и аспекта (например, перфект, продолженное время) в английском языке и отсутствию прямых аналогов этим формам в азербайджанском языке. В статье рассматриваются распространённые семантические и структурные трудности при переводе, особенно связанные с контекстуальными сдвигами и соответствием временных форм, и приводятся практические примеры. В результате анализа выявлены как функциональные сходства, так и различия между временными системами двух языков. Понимание этих различий важно для переводчиков, изучающих язык и преподавателей. Работа подчёркивает как теоретическое, так и практическое значение категории времени, а также её применение в переводе. Актуальность темы обусловлена тем, что точное употребление временных форм в современной переводческой практике напрямую влияет на коммуникативную точность.

Ключевые слова: категория времени, азербайджанский язык, английский язык, сравнительный анализ.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Fil.ü.f.d. Ləman Qədimova
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.321-325

https://doi.org/10.62837/2025.4.321

ŞƏHLA MUSTAFA QIZI İBRAHİMOVA
BDU-nun Qazax filialının
Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının
baş müəllimi, shahlaibrahimova1965@gmail.com
SANURƏ SAHİB QIZI SƏMƏDOVA
BDU-nun Qazax filialının
Dil, ədəbiyyat və onların tədrisi metodikası kafedrasının
müəllimi, samadovasanura@gmail.com

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SİNONİMLƏRİN LEKSİK-SEMANTİK TƏHLİLİ

Xülasə

Bu məqalədə Azərbaycan və ingilis dillərində sinonimiya hadisəsi leksik-semantik baxımdan müqayisəli şəkildə təhlil olunur. Fərqli dil ailələrinə mənsub olan bu iki dilin sinonim sistemləri struktur, mənşə və üslubi xüsusiyyətlərinə görə fərqlənsə də, funksional baxımdan oxşar cəhətlərə malikdir. Məqalədə sinonimlərin tam, yarı və üslubi növləri müəyyən edilir, onların yaranma yolları – alınma sözlər, metaforalar, terminoloji dəyişikliklər və ədəbi təsir vasitəsilə formalaşması izah edilir. Azərbaycan dilində ərəb, fars və türk mənşəli sinonimlər geniş yer tutur, ingilis dilində isə latın, fransız və german mənşəli sözlər sinonimiya sistemini zənginləşdirir. Hər iki dildə sinonimlər danışıq və yazılı üslublarda məna dəqiqliyi, emosional çalar və üslubi seçim baxımından mühüm rol oynayır. Sinonimlər dilin üslubi zənginliyini artırmaq, ifadə imkanlarını genişləndirmək üçün geniş istifadə olunur. Məqalədə həmçinin sinonimlərin dil öyrənmə prosesində rolu və tədris baxımından əhəmiyyəti qeyd olunur. Müqayisəli təhlil göstərir ki, sinonimlər nitqin çevikliyini, leksik zənginliyi və ifadə imkanlarını artıran əsas vasitələrdəndir. Məqalənin nəticələri tətbiqi dilçilik, tərcümə və tədris sahələri üçün nəzəri və praktik baxımdan əhəmiyyətlidir.

Açar sözlər: sinonim, leksik-semantik təhlil, üslubilik, sinonim sırası, funksional fərqlər, dil müqayisəsi.

GİRİŞ. Sinonimlər dilin ifadə imkanlarını zənginləşdirən, danışıq və yazılı nitqin rəngarəngliyini təmin edən mühüm leksik vahidlərdir. Eyni və ya çox yaxın mənanı ifadə edən, lakin fonetik və ya struktur baxımından fərqli olan sözlər sinonim adlanır. "Sinonim qrammatik vahidlərin (ümumiyyətlə sinonimlərin) əsasını, nüvəsini qeyd etdiyimiz iki cəhət-məna uyğunluğu, məna, yaxud üslubi fərqin olması təşkil edir. Bu cəhətlər bütün vəziyyətlərdə (hətta deyərdik ki, bütün dillərdə) dialektik vəhdətdədir və bunların birinin nəzərə alınmaması ümumiyyətlə sinonimlik anlayışının təhrifinə və ziddiyyətli izah olunmasına səbəb ola bilər" [3, s. 8].

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 321-325

Sinonimlər uzun müddətdir ki, dilçilik elminin əsas tədqiqat obyektlərindən biri kimi diqqət mərkəzində olmuşdur və bu sahədə zəngin elmi irs formalaşmışdır. Azərbaycan dilçiliyində T. Əfəndiyeva, B. Abdullayev, S. Cəfərov kimi alimlərin araşdırmalarında sinonimiya məsələsi geniş şəkildə təhlil olunmuşdur. Avropa dilçiliyində Ş. Balli, D. Layonz; rus dilçiliyində isə V. İ. Koduxov, A. İ. Yefimov, D. N. Şmelyev və N. L. Yevgenyeva kimi tədqiqatçıların əsərlərində sinonimlər müxtəlif aspektlərdən – leksik-semantik, funksional və üslubi baxımdan araşdırılmışdır. Bu tədqiqatlarda sinonimlərin dilin digər leksik vahidləri ilə münasibəti, onların oxşar və fərqli xüsusiyyətləri, eyni zamanda üslubdaxili və kontekstual funksiyaları ətraflı şəkildə izah edilmişdir.

Hər bir dilin sinonim sistemi onun tarixi inkişafı, leksik-mənşə müxtəlifliyi və üslubi özəllikləri ilə formalaşır. Azərbaycan dili türk dillərinin oğuz qrupuna, ingilis dili isə german dillərinin qərb qoluna aiddir. Bu iki dil arasında quruluş, söz ehtiyatı və semantik baxımdan ciddi fərqlər mövcuddur. Buna baxmayaraq, sinonimlərin funksiyası, yaranma prinsipləri və istifadəsi baxımından ümumi cəhətlər də mövcuddur ki, bu məqalədə də həmin ümumi və fərqli cəhətlər araşdırılır.

Hər iki dildə sinonimlər aşağıdakı meyarlara görə təsnif edilir:

Mütləq sinonimlər: Mənaca və istifadədə bir-birini tam əvəz edə bilən sözlərdir. Məsələn: Azərbaycan dilində: *cəsarət – igidlik*; ingilis dilində: *purchase – buy*.

Nisbi sinonimlər: Mənaları yaxın olsa da, kontekstdən asılı olaraq fərqli çalarlar ifadə edir. Azərbaycan dilində: *qorxu – hürkəkli*; ingilis dilində: *quick – swift*.

Üslubi sinonimlər: Mənaca eyni olan, lakin müxtəlif üslublarda işlənən, işlədilmə tezliyinə görə, ekspressiv çalarına görə və s. fərqlənən sinonimlər [1, s.476]. Əsas fərq semantik deyil, üslub baxımındandır. Məsələn, Azərbaycan dilində: *ölmək – vəfat etmək; vurulmaq – eşqə giriftar olmaq*; ingilis dilində: *child – kid.* G.Bayramova qeyd edir ki, üslubi sinonimiyanın formalaşmasında metaforalar, evfemizmlər, arxaik sözlər, dialektizmlər mühüm rol oynayır [2, s.18].

Azərbaycan dilində sinonimlər sistemi xalq danışığı, bədii ədəbiyyat və terminologiyada fərqli şəkildə təzahür edir.

Azərbaycan leksikasında türk, ərəb, fars və rus mənşəli sözlər sinonimlik yarada bilir: Məsələn, *qəhrəman* (ərəb) – *igid* (Azərb.); *kənar* (ərəb) – *qıraq* (Azərb.)

Azərbaycan dilində bəzi hallarda 3 və daha çox söz sinonim sıraya daxil ola bilər: Məsələn, *böyük – iri – nəhəng – ulu*; *təbii – əsil – həqiqi – gerçək* və s. İngilis dilində isə bu sıranı daha da artırmaq olar: *beautiful – pretty – lovely – attractive – gorgeous – alluring – appealing*; *crooked – bent – twisted – curved – hooked – zigzag*.

İngilis dilində sinonimlər əsasən müxtəlif mənşəli sözlərdən ibarətdir. Norman fəthindən sonra ingilis dili fransız və latın mənşəli sözlərlə zənginləşdi: Məsələn, *ask* (Germanic) – *inquire* (French/Latin).

İngilis dilində sinonimlər çox vaxt üslubi fərqlə seçilir: *begin* (sadə) – *commence* (rəsmi) – *initiate* (elmi).

Sinonimiya təkcə ayrıca sözlər arasında deyil, həm də frazeoloji vahidlər səviyyəsində müşahidə olunur. Məsələn, Azərbaycan dilində "*dilə gəlmək*" və "*razılaşmaq*" ifadələri eyni funksiyanı yerinə yetirə bilər, lakin biri idiomatik, digəri isə neytral leksik vahiddir. İngilis dilində "*kick the bucket*" və "*to die*" eyni mənanı versə də, birincisi qeyri-rəsmi və ifadəli dildə işlədilir, ikincisi isə neytral xarakter daşıyır. Frazeoloji sinonimlərin istifadəsi danışıq nitqini daha təsirli və emosional edir. Bu növ sinonimlər kontekstdən asılı olaraq yumor, ironiya və ya metaforik dərinlik qazandıra bilər. Buna görə də həm Azərbaycan, həm də ingilis dillərində frazeoloji sinonimlərin düzgün işlədilməsi yalnız dil bacarığı deyil, həm də sosiolinqvistik təcrübə tələb edir. Sinonimlər sadəcə eyni məna deyil, müxtəlif emosional və üslubi çalarlar daşıyır: Azərbaycan dili: *qəzəb – hirslənmək – dəliləşmək*; ingilis dili: *angry – furious – enraged*. Bu çalarlar poetik nitqdə obrazlılığı, publisistik və rəsmi üslubda isə dəqiqliyi təmin edir.

Ümumiyyətlə, sinonimlər dildə söz ehtiyatını artırır, nitqin çevikliyini təmin edir, üslubi fərqləri ayırd etməyə kömək edir.

Azərbaycan və ingilis dillərində sinonimlərin sistemli şəkildə müqayisəsi göstərir ki, bu dillərdə sinonim anlayışına yanaşmalar əsasən struktur və mənşə baxımından fərqlənir. Azərbaycan dilində sinonimlər çox vaxt üslubi rəngə malik olur və daha çox milli-mədəni xüsusiyyətləri əks etdirir. Məsələn, "*əkinçi*" və "*çoban*" kimi sözlərin sinonimləri yalnız semantik deyil, həm də milli kontekstdə fərqli dəyərləndirilə bilər. İngilis dilində isə sinonimlər çox vaxt funksional və üslubi səviyyələrdə ayırd edilir. "*Big", "large", "huge", "vast", "enormous*" sözləri eyni kökdən gəlməsələr də, semantik sahədə bir-birinə yaxın mənalar ifadə edir, lakin müxtəlif kontekstlərdə istifadə olunur.

Sinonim sıralar hər iki dildə leksik təbəqələşməyə səbəb olur. Azərbaycan dilində "*qorxu*" leksik-semantik sahəsində "*vahimə", "xof", "təlaş", "ürəkgetmə*" kimi sözlər sinonim kimi çıxış edir. İngilis dilində isə "*fear", "terror", "anxiety", "panic*" sözləri eyni semantik sahəyə aiddir. Bu sözlər arasında mənaca fərqlər mövcud olsa da, müəyyən kontekstdə bir-birini əvəz edə bilirlər. Burada həm mənaca yaxınlıq, həm də stilistik uyğunluq əsas rol oynayır.

Sinonimlərin leksik-semantik təhlilində yalnız struktur və üslubi fərqlərlə kifayətlənilməməlidir. Hər bir sinonim sırasının arxasında həmin dilə və cəmiyyətə xas olan kulturoloji kodlar durur. Azərbaycan dilində "*yol*" və "*karvan*" sözləri eyni mənalı və ya oxşar mənalı sözlər kimi təqdim oluna bilər, lakin "karvan" sözü təkcə hərəkət anlamı daşımır, eyni zamanda qədim ticarət yolları, Orta Şərq mədəniyyəti və köçərilik ənənələri ilə bağlı kulturoloji assosiasiyalar yaradır. İngilis dilində isə məsələn, "*home*" və "*house*" sözləri sinonim kimi qəbul olunsa da, "*home*" daha çox emosional, ailəyə bağlı, mədəni dəyərlərlə yüklənmiş anlayışdır, "*house*" isə yalnız

fiziki bina anlayışını əhatə edir. Bu kimi nümunələr göstərir ki, sinonimlərin qavranılması və istifadəsi yalnız lüğəvi deyil, həm də mədəni bilik və kontekstə bağlıdır. Beləliklə, sinonimlərin öyrənilməsi eyni zamanda mədəniyyətlərarası kommunikasiya bacarıqlarının inkişafına da xidmət edir.

Hər iki dildə terminoloji sahədə sinonimlər xüsusi əhəmiyyət kəsb edir. İngilis dilində elmi və texniki terminlərdə sinonimlər çox vaxt müxtəlif mənşəli olur: məsələn, "*doctor*" və "*physician*"; "*car*" və "*automobile*" kimi. Azərbaycan dilində də "*müəllim*" və "*pedoqoq*", "*rəssam*" və "*boyaçı*" kimi sözlər həm xalq danışığında, həm də elmi dildə fərqli tezliklə işlənir. Tərcümə zamanı bu sinonimlər arasında düzgün seçim etmək lüğəvi bilikdən əlavə, kontekstə uyğun dil hissiyatı tələb edir.

Hər iki dildə sinonimlərin öyrədilməsi, xüsusən də ikinci dil kimi öyrənənlər üçün çox mühüm rol oynayır. Dilin üslubi çalarlarını, emosional ifadə vasitələrini və leksik zənginliyini mənimsəmək üçün sinonimlərin mənaca və kontekstə görə fərqləndirilməsi vacibdir. İngilis dili öyrənən azərbaycanlı tələbələr üçün "*happy", "glad", "pleased", "joyful*" sözlərinin arasındakı üslubi fərqlər bəzən anlaşılmaz olur. Eyni hal ingilis dilli öyrənənlər üçün "*sevincli", "xoşbəxt", "bəxtiyar*" sözlərində müşahidə olunur.

NƏTİCƏ

Azərbaycan və ingilis dillərində sinonimiya dilin semantik və funksional zənginliyini formalaşdıran əsas leksik hadisələrdən biridir. Hər iki dildə sinonimlər dilin tarixi inkişafı, alınma sözlərin təsiri və üslubi tələblərlə əlaqədar fərqli cəhətlərə malikdir. Bu məqalədə aparılan müqayisəli təhlil göstərdi ki, sinonimlərin funksiyası kontekstdən və məqsəddən asılı olaraq dəyişir. Tədqiqat nəticələri dilçilik, tədris və tərcümə sahələrində əhəmiyyətli tətbiq imkanları yaradır.

ƏDƏBİYYAT

1.Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı, 2020.
2.Bayramova G. Şəkil və mənaca söz qrupları (italyan və Azərbaycan dillərinin materialları əsasında). fil.ü.f.d. disser.. avtoreferatı. Bakı, 2016, 24 s.
3.Məmmədov İ. Azərbaycan dilində qrammatik sinonimlik. Bakı, 1985.

LEXİCAL-SEMANTİC ANALYSİS OF SYNONYMS İN THE AZERBAİJANİ AND ENGLİSH LANGUAGES

Abstract

This article presents a comparative lexical-semantic analysis of synonymy in the Azerbaijani and English languages. Although these two languages belong to different language families, their systems of synonymy differ in structure, origin, and stylistic features, yet they share functional similarities. The article identifies complete, partial, and stylistic synonyms, explaining their formation through borrowed words, metaphors, terminological changes, and literary influence.

Azerbaijani includes many synonyms of Arabic, Persian, and Turkic origin, while English synonymy is enriched with Latin, French, and Germanic words. In both languages, synonyms play a significant role in achieving semantic precision, emotional nuance, and stylistic variety in both spoken and written discourse. Synonyms are widely used to enhance stylistic richness and expressive capacity. The article also emphasizes the importance of synonyms in language learning and teaching. The comparative analysis concludes that synonyms are essential tools for improving speech flexibility, lexical diversity, and expressive potential. The results are valuable for applied linguistics, translation, and language education from both theoretical and practical perspectives.

Keywords: synonym, lexical-semantic analysis, stylistics, synonymic row, functional differences, language comparison.

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ СИНОНИМОВ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

Резюме

В данной статье проводится сравнительный лексико-семантический анализ синонимии в азербайджанском и английском языках. Несмотря на принадлежность этих языков к разным языковым семьям, их системы синонимии различаются по структуре, происхождению и стилистическим особенностям, но имеют функциональные сходства. В статье рассматриваются полные, частичные и стилистические синонимы, объясняется их формирование через заимствованные слова, метафоры, терминологические изменения и литературное влияние. В азербайджанском языке преобладают синонимы арабского, персидского и тюркского происхождения, в то время как английская синонимия обогащена латинскими, французскими и германскими словами. В обоих языках синонимы играют важную роль в обеспечении точности смысла, эмоциональной окраски и стилистического разнообразия в устной и письменной речи. Синонимы активно используются для увеличения выразительности и стилистического богатства. Также подчеркивается их значение в процессе изучения языка и преподавания. Сравнительный анализ показывает, что синонимы являются важным средством повышения гибкости речи, лексического разнообразия и выразительных возможностей. Полученные результаты важны как с теоретической, так и с практической точки зрения для прикладной лингвистики, перевода и преподавания языков.

Ключевые слова: синоним, лексико-семантический анализ, стилистика, синонимический ряд, функциональные различия, сравнение языков.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Fil.ü.f.d. Dilavər Mirzəyeva
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 326-330

https://doi.org/10.62837/2025.4.326

LALƏ MİRZƏYEVA
Azərbaycan Dillər Universiteti
Rəşid Behbudov, 134
lalamirzayeva@yahoo.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ TƏNQİDİ VƏ YARADICI TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

XÜLASƏ

Müasir cəmiyyət qloballaşma prosesi keçir. Qloballaşma prosesindən doğan dəyişikliklərə dərhal münasibət bildirmək, qeyri-standart həllər tapmaq, yeni və orijinal ideyalar istehsal etmək müasir zamanın başlıca tələbidir. Cəmiyyətə eyni problemin müxtəlif həll yolları, məsələnin həllində fərqli yanaşmalar, tipik situasiyalara qarşı yeni davranış üsulları lazımdır. Bugün istənilən sahədə yaradıcılığa və yaradıcı bacarıqlara ehtiyac var. Yaradıcı təfəkkür sosial-iqtisadi sistemdə: elmi kəşflərdə, texniki ixtiralarda, incəsənət əsərlərinin yaradılmasında, insanlarla münasibətdə və dövlətin idarəedilməsində müxtəlif formalarda təzahür edir. Yaradıcı düşünmə təfəkkürün ele bir mərhələsidir ki, onun nəticəsində ya tamamilə yeni bir şey kəşf edilir ya da bu və ya digər problemin mükəmməl həllinə nail olunur.

Tənqidi düşüncə isə təklif olunan həll yollarının müəyyən sahələrdə tətbiq edilib-edilməyəcəyinin araşdırılmasıdır. Yaradıcı düşüncə yeni ideyaların tapılması üçündür, tənqidi düşüncə isə onların qüsur və nöqsanlarını təyin etmək üçündür.

Məsələnin mümkün və effektiv həll yollarını tapmaq üçün təfəkkürün hər iki növü vacibdir, lakin onlar eyni vaxtda deyil ardıcıl olaraq istifadə olunmalıdır.

Yaradıcı prosesdə kreativ düşüncə yeni və orijinal ideyaları yaratmaq üçün, tənqidi düşüncə isə bu ideyaları qiymətləndirib nəticəyə gəlmək üçün lazımdır. Buna görə təfəkkürün hər iki növü bir-biriylə qarşılıqlı asılıdırlar. Tənqidi təfəkkürlə müqayisədə yaradıcı təfəkkür daha emosional, intuitiv, yaradıcı və vizualdır. Kreativ düşünmə daha çox risk ehtiva etdiyi üçün prosesdə yanılma və səhv etmə halları da çox ola bilər. Daha təsirli və faydalı nəticələr almaq üçün kreativ düşüncə tənqidi düşüncə ilə tamamlanmalıdır.

Açar sözlər: ingilis dili tədrisi, yaradıcı təfəkkür, tənqidi təfəkkür,analitik düşüncə, problemlərin həlli bacarığı

Tənqidi təfəkkür termini elə bir anlayışdır ki, müxtəlif elmi araşdırmalarda ona fərqli izahlar gətirilir. Tənqidi düşünmə məsələyə tənqidi və ya neqativ yanaşma deyil, məsələni dərindən təhlil etmək, mühakimə etmək, məsələyə müxtəlif aspektlərdən baxıb onu dəyərləndirmək və düzgün nəticəyə gəlməkdir. Bu anlayış özündə həmçinin məntiq, çeviklik, sayıqlıq, yüksək dünyagörüşü, hadisələrə cəld reaksiya, dəqiqlik və ədalətli yanaşma kimi xüsusiyyətləri də ehtiva edir. Tənqidi

düşünə bilən insan məsələni qiymətləndirmə, onu müxtəlif prizmalardan dəyərləndirmə, vəziyyəti tam olaraq qəbul etmə və əsaslı faktlar və arqumentlər əsasında nəticəyə gəlmə bacarıqlarına nail olmalıdır. Buna görə də bəzən bu termin "məntiqi" və ya "analitik" təfəkkür də adlanır. Tənqidi təfəkkürün ən ilkin mərhələsi informasiya qəbuludur. Düşünmənin sonrakı mərhələlərinin də uğurlu olması üçün, əvvəlki bilik bazası da dövriyyəyə girir ki, bu ən vacib faktordur. Buradan belə qənaətə gələ bilərik ki, tənqidi düşünmənin inkişafında insanın sosial həyatının böyük rolu var.

Tənqidi düşünmə sualın qoyulmasından, problemin təyin olunmasından və onun həll yolunun axtarılmasından ibarətdir.

Məntiqi yanaşmanın ön plana çıxdığı bütün sahələr kimi təhsil müəssisələrində də əsas məqsəd təhsilalanlara düşünməni öyrətmək olmalıdır.

Tənqidi düşünmə texnologiyasının mənimsənilməsi şagirdə aşağıdakı xüsusiyyətləri bəxş edir:

- informasiyanı qəbul etmə bacarığının artması
- öyrədilən materialdan başqa tədris prosesinin özünün maraqlı olması;
- tənqidi düşünmə bacarığı;
- öz təhsilinə məsuliyyətli yanaşma bacarığı;
- başqalarıyla əməkdaşlıq şəraitində işləmək bacarığı;
- şagirdlərin təhsil keyfiyyətlərinin yüksəlməsi;
- həyat boyu öyrənmə arzusu və bacarığı.

Tənqidi düşünmə texnologiyasının müəllimə verdiyi xüsusiyyətlər:

- sinifdə şəffaf və məsuliyyətli əməkdaşlıq mühitinin yaradılması bacarığı;
- tədris prosesində şagirdlərin müstəqilliyinə və tənqidi düşünmə bacarığının inkişafına əsas yaradan tədris modelindən istifadə imkanları;
- öz fəaliyyətini düzgün şəkildə təhlil etmək bacarığı;
- başqa həmkarları üçün etibarlı informasiya mənbəyi olmaq.

Nəzərə alsaq ki, ingilis dili dünyanın ən qabaqcıl dilidir və müxtəlif məqsədlər üçün aparılan danışıqların çoxu bu dildə aparılır, haqlı olaraq müasir kurrikulumun başlıca tələbi şagirdlərdə ingilis dilində tənqidi düşünmə bacarığını formalaşdırmaqdır. Lakin təəssüf ki, ənənəvi tədris metoduna sadiqlik şagirdləri passiv dinləyiciyə çevirir və onlardakı bu potensialın üzə çıxmağına mane olur. Şagirdlərin gələcək təhsillərindəki irəliləyişlərini izləmək və təhlil etmək, qlobal problemlərin həll yollarını tapmaq, zehni və məntiqi əməliyyatların öhdəsindən gəlmək, verilmiş vəziyyəti dərk etmək və nəticəyə gəlmək kimi vərdişlərinin əsası uşaqlıqdan qoyulmalıdır. Sürətlə dəyişən dünyanın tempini tutmaq, hadisələrə dərhal

reaksiya vermək, problemlərə düzgün həll yolları tapmaaq tənqidi təfəkkürün inkişafını labüd edir.

Tənqidi düşüncə şagirdlərin müstəqil öyrənməsini sürətləndirir, xarici dilin mənimsənilməsini daha da asanlaşdırır. Sinif diskussiyaları, debatlar, onlayn forumlar, yazı nümunələrinin hazırlanması, layihə işləri, sorğuların aparılması və s. kimi fəaliyyət növləri tənqidi təfəkkürün formalaşması və inkişafında əvəzsiz rol oynayır.

"Cluster", "I know, I'd like to know, I've known", "Thick and thin questions", "Catch the mistake", "Odd one out", "Fact or opinion" və s. kimi oyunlar və tapşırıqlar tənqidi təfəkkürü inkişaf etdirən tapşırıqlardır.

Tədris prosesində əhatəli şəkildə tətbiq olunmalı tənqidi düşüncəni inkişaf etdirən texnologiyalar şəxsiyyətyönümlüdür və özündə əməkdaşlıq, yaradıcılıq və proyekt işlərini ehtiva edir:

- iş şagirdlərin fərdi xüsusiyyətləri əsasında həyata keçirilir;
- müəllim adətən koordinator rolundadır;
- dialoq, həllərin tapılmasında əməkdaşlıq və əsaslı kommunikativ tədris prosesi;
- əsas məqsəd daha çox bilik əldə etmək deyil, qazanılmış biliyin real həyatda tətbiq edilməsidir;
- yeni biliklər şagirdlərin aktiv axtarışları, fərziyyələri, analizləri və gəldikləri nəticə hesabına yaranır.

Tənqidi düşüncənin tətbiqi texnologiyasının aşağıdakı mərhələlərini fərqləndirmək olar:

1."Çağırış" (evocation) mərhələsi:

Şagirdlər tədris prosesinin passiv tərəfidirlər. Dərsin məqsəd və məğzini həmişə müəllimdən eşitmək darıxdırıcıdır. İngilis dilinin tənqidi düşünmə texnikası ilə tədrisi zamanı müəllim şagirdlərlə keçilmiş materialı təhlil edir və dərsin əsas məqsədinin təyin edilməsi məsuliyyəti uşaqlara verilir. Bu yolla şagirdlərdə dərsə qarşı maraq oyadılır.

Şagirdlər səhv etməkdən qorxmayaraq öz düşüncələrini sərbəst ifadə etməlidirlər. Dərs müddəti individual və qrup işləri təşkil edilməlidir. Fərdi iş zamanı şagird öz biliyini mühakimə edir, qrup işi zamanı isə yeni ideya və biliklər qəbul edirlər. Müzakirələrin nəticəsi sxem, qrafik, şəkil və s. şəklində öz əksini tapmalıdır. Şagirdlər növbəti mərhələ üçün qarşılarına sual qoyurlar: Başqa nə öyrənməliyəm və bu mənə niyə lazımdır?

2.**"Mənanın dərk edilməsi" (realization of meaning) mərhələsi:**

Bu mərhələdə müəllim şagirdlərə material təqdim edir. İşin təşkili hekayə, müzakirə, mühazirə, video material, individual, cütlük və ya qrup şəklində ola bilər. Şagirdlər qarşıya qoyulmuş suallara cavab tapmaq üçün təqdim edilmiş materialı təhlil edir, yeni informasiya ilə tanışlıq prosesini özləri kontrol etməyə çalışırlar.

Müəllim şagirdlərə sərbəst işləməyə imkan yaradır, lakin ehtiyac yaranarsa onlara istiqamət verir.

3.“Əksetdirmə” (reflection) mərhələsi:

Burada şagirdlər aldıqları yeni məlumatı əvvəlki bilikləri ilə müqayisə edir, mövzudan nəticələr çıxarır, sistemləşdirir və qiymətləndirirlər. Yoldaşları ilə müzakirə zamanı öz düşüncə və fərziyyələrini söylədikləri kimi başqalarının da ideyalarını qəbul etməyi öyrənirlər. Qarşılarına yeni suallar qoyur, biliklərindəki boşluqları təyin edir və gələcək dərslər üçün zəmin yaradırlar.

Dewey, J.,& Bento, J., Activating children’s thinking skills (ACTS): The effects of an infusion approach to teaching thinking in primary schools -British Journal of Educational Psychology, 2009

Korkmaz Ö., Öğretmenlerin eleştirel düşünme eğilim ve düzeyleri -Ahi Evran Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi, 2009

Q.M.Uayzer., Xarici dilin tədrisi metodikası-Moskva, 1974

Beumont, J., A sequence of critical thinking tasks- TESOL Journal, 2010

Fisher, A., Critical thinking: An introduction - UK, Cambridge University Press

Elias, M.J., & Kress, J.S., Social decision-making and life skills development: A critical thinking approach to health promotion in the middle school -Journal of school health, 1994

Лала Мирзаева

Способы развития критического и креативного мышления при обучении английскому языку

Резюме

В эпоху, когда доминируют современные технологии, удивить общество становится очень сложно. Технологическое общество движется в направлении передачи рутинных мыслительных процессов компьютерам и машинам, и от людей требуется более продуктивное и креативное мышление. Обладание всесторонними знаниями не приносит вреда, однако в современную эпоху любая информация становится доступной с помощью машин и компьютеров, поэтому от людей ожидается не столько быть осведомлёнными, сколько обладать другими способностями — находить и создавать идеи. Неоспорим тот факт, насколько важно с помощью креативного мышления создавать инновационные идеи, а на следующем этапе — с помощью критического мышления анализировать и оценивать их практичность и реальность, формируя навык и умение делать выводы. Решение, принятое на основе критического анализа, никогда не может быть нелогичным или необоснованным.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 326-330

Ключевые слова: преподавание английского языка, креативное мышление, критическое мышление, аналитическое мышление, навыки решения проблем

Lala Mirzayeva

Ways to develop critical and creative thinking in English language teaching

Summary

In an era dominated by modern technology, it's very difficult to surprise society. Technological society is moving towards delegating routine thinking processes to computers and machines, and people are required to think more productively and creatively. While being knowledgeable in all areas isn't harmful, in modern times any information becomes accessible through machines and computers, so people are expected not just to be knowledgeable, but to acquire different abilities – to find and create ideas. It's an undeniable fact how important it is to create innovative ideas through creative thinking and then analyze and judge the practicality and reality of this idea through critical thinking to reach a conclusion. A decision made through critical thinking analysis can never be illogical or unfounded.

Keywords: English language teaching, creative thinking, critical thinking, analytical thinking, problem-solving skills

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Ped.f.d. Şükürova Fəridə Şahlar qızı
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.331-336

https://doi.org/10.62837/2025.4.331

SAIDA MAMMADOVA
Azerbaijan University, Baku, Azerbaijan
saida.mammadova@au.edu.az

TEACHING ENGLISH TO BEGINNERS: A PHILOLOGICAL PERSPECTIVE ON LANGUAGE ACQUISITION AND PEDAGOGICAL STRATEGIES

ABSTRACT

Teaching English as a second language (ESL) to beginners requires pedagogically sound strategies that account for linguistic diversity and cultural context, particularly in regions like Baku, Azerbaijan, where English education is increasingly vital. This article synthesizes evidence-based practices for novice ESL teachers, emphasizing comprehensible input, scaffolded instruction, and culturally responsive teaching. Drawing on Krashen's Input Hypothesis, Vygotsky's Zone of Proximal Development, and communicative language teaching principles, it proposes practical techniques such as simplified instructions, repetitive drilling, and maximized student interaction, tailored to address Azerbaijani learners' challenges, including Turkic language interference. Through a qualitative synthesis of theoretical literature, classroom observations, and reflective practice at Western Caspian University, the study offers examples like role-plays and flashcard games to foster beginner proficiency. The findings underscore the importance of integrating philological insights—language structure and cultural context—into ESL pedagogy, with implications for teacher training and curriculum design in Turkic-speaking regions. This work contributes to applied linguistics and philology by bridging theory and practice in language education.

Keywords: English as a second language, beginner learners, language acquisition, applied linguistics, classroom pedagogy, Azerbaijani context

Преподавание английского языка начинающим: филологический взгляд на усвоение языка и педагогические стратегии

Аннотация

Преподавание английского языка как второго (ESL) для начинающих учащихся требует педагогически обоснованных стратегий, учитывающих как лингвистическое разнообразие, так и культурный контекст. Особенно это актуально для таких регионов, как Баку (Азербайджан), где значимость английского языка неуклонно возрастает. В статье представлен синтез доказательных подходов для молодых преподавателей ESL, с акцентом на понятный языковой ввод, поэтапное обучение и культурно ориентированную

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 331-336

педагогическую практику. Методологическая база включает гипотезу понятного ввода Стивена Крашена, Зону ближайшего развития Льва Выготского и принципы коммуникативного подхода. Описываются практические техники, такие как упрощённые инструкции, структурированное повторение и активизация речевого взаимодействия, адаптированные с учётом интерференции тюркских языков, свойственной азербайджанским обучающимся. На основе качественного анализа теоретических источников, наблюдений за учебным процессом и педагогической рефлексии, проведённых в Западно-Каспийском университете, приводятся примеры таких заданий, как ролевые игры и карточные упражнения. Результаты подчёркивают необходимость интеграции филологических знаний — языковой структуры и культурного контекста — в методику преподавания ESL. Работа вносит вклад в прикладную лингвистику и филологию, соединяя теоретические основания с практическими решениями в области преподавания языка в тюркоязычных регионах.

Ключевые слова: английский как второй язык, начальный уровень, усвоение языка, прикладная лингвистика, педагогика, азербайджанский контекст

İngilis dilinin başlanğıc səviyyədə tədrisi: Filoloji əsaslı dil öyrənmə və pedaqoji strategiyalar

Xülasə

İngilis dilinin ikinci dil kimi (ESL) yeni başlayanlara tədrisi, linqvistik müxtəliflik və mədəni kontekst nəzərə alınmaqla, elmi əsaslara söykənən pedaqoji strategiyalar tələb edir. Bu, xüsusilə də ingilis dilinə artan ehtiyacın müşahidə olunduğu Bakı (Azərbaycan) kimi regionlarda aktualdır. Məqalədə tədrisə yeni başlayan ESL müəllimləri üçün sübutlara əsaslanan yanaşmalar təqdim olunur. Bu yanaşmalar anlaşılan dil materialı, mərhələli təlim və mədəni cəhətdən həssas pedaqoji üsullara əsaslanır. Tədqiqat Krashen-in "Anlaşılan Giriş Nəzəriyyəsi", Vıqotskinin "Yaxın İnkişaf Zonası" və kommunikativ dil öyrənmə prinsiplərinə söykənir. Təlimatların sadələşdirilməsi, təkrar drill məşqləri və tələbələrin qarşılıqlı ünsiyyətə təşviqi kimi praktik metodlar təklif olunur. Bu metodlar, türk dilləri təsiri də daxil olmaqla, azərbaycanlı öyrənənlərin üzləşdiyi çətinlikləri nəzərə alır. Qərbi Xəzər Universitetində aparılan nəzəri ədəbiyyatın təhlili, dərs müşahidələri və müəllim refleksiyası əsasında keyfiyyət yönümlü təhlil aparılmış və rol oyunları, kart oyunları kimi fəaliyyət nümunələri təqdim edilmişdir. Tədqiqat nəticələri göstərir ki, ESL tədrisində filoloji biliklərin — dil strukturu və mədəni kontekstin — inteqrasiyası mühüm əhəmiyyət kəsb edir. Bu tədqiqat tətbiqi dilçilik və filologiya sahəsinə praktik və nəzəri istiqamətlərin sintezi baxımından töhfə verir.

Açar sözlər: İkinci dil kimi ingilis dili, başlanğıc səviyyəli öyrənənlər, dil öyrənmə, tətbiqi dilçilik, sinif pedaqogikası, Azərbaycan konteksti

Teaching English as a second language (ESL) to beginners is a complex yet rewarding endeavor, particularly in Azerbaijan, where English proficiency is increasingly essential for educational and economic opportunities. Beginners, often with minimal or no prior knowledge of English, face challenges such as limited vocabulary, pronunciation difficulties, and anxiety about errors, compounded by the linguistic influence of Azerbaijani, a Turkic language with distinct phonological and syntactic features like vowel harmony and agglutinative morphology (Agadazada, 1965). Philology, the study of language in its historical and cultural contexts, provides a valuable framework for addressing these challenges by examining language structure and pedagogical practice. This article explores how novice ESL teachers in Baku can effectively teach beginners, integrating philological insights with practical strategies grounded in language acquisition theory. It addresses the question: How can novice ESL teachers apply philologically informed strategies to teach English to beginners in Azerbaijan's multilingual context? By synthesizing theoretical frameworks, classroom observations, and reflective practice, the article offers actionable guidance for creating supportive and engaging learning environments, contributing to applied linguistics and philology with implications for teacher training and curriculum design in Turkic-speaking regions.

Philological research emphasizes the interplay of language structure, cultural context, and pedagogy. Krashen's Input Hypothesis posits that learners acquire language through exposure to comprehensible input slightly above their current proficiency level, necessitating clear and contextualized instruction for beginners (Krashen, 1985). Vygotsky's Zone of Proximal Development (ZPD) highlights the role of scaffolded support, where teachers guide learners toward independence through structured tasks (Vygotsky, 1978). These theories align with communicative language teaching (CLT), which prioritizes meaningful interaction over rote memorization (Richards & Rodgers, 2014). Behaviorist approaches, such as Skinner's verbal behavior theory, underscore the value of repetition for building linguistic habits, particularly for pronunciation and vocabulary (Skinner, 1957). However, CLT advocates balancing drilling with authentic communication to enhance fluency and motivation (Farrell, 2015). Research shows that maximizing Student Talking Time (STT) over Teacher Talking Time (TTT) fosters proficiency, especially for beginners (Harmer, 2007). In Azerbaijan, learners' native language influences English acquisition, with Turkic features posing challenges, such as the absence of articles or distinct consonant sounds like /θ/ in "think" (Nurmonov et al., 1992). Culturally responsive teaching, which acknowledges students' linguistic and cultural backgrounds, can mitigate these issues (Gay, 2018). Technology, such as

digital flashcards or language apps, supports multimodal learning, though access disparities must be addressed (Chapelle, 2016). Despite these insights, practical guidance for novice teachers in Turkic-speaking contexts remains limited, and this article bridges this gap by integrating philological perspectives with evidence-based strategies.

The methodology employs a qualitative synthesis approach, combining a review of applied linguistics and philological literature with reflective practice from the author's experience teaching beginner ESL students (A1 level, CEFR) at Western Caspian University, Baku. The synthesis draws on key texts (e.g., Krashen, 1985; Harmer, 2007; Agadazada, 1965), informal classroom observations of 15 students (aged 16–20) over one semester, and analysis of lesson plans and student feedback. While not empirical, this approach aligns with practitioner-oriented research in philology, which values the integration of theory and practice (Farrell, 2015). The strategies are designed for adaptability across monolingual Azerbaijani and multilingual classrooms, with examples contextualized for Baku's learners.

A supportive classroom environment is essential for beginners, who often experience anxiety. Teachers should build rapport using a warm tone, inclusive language, and acknowledgment of students' Azerbaijani fluency (e.g., "You're great at Azerbaijani—let's learn English together!"). Arranging desks in small groups facilitates interaction, reflecting CLT's emphasis on collaboration. Cultural sensitivity is critical, as Azerbaijani students may prefer greater physical distance or avoid prolonged eye contact, aligning with cultural norms (Harmer, 2007). For example, starting classes with a "Word of the Day" (e.g., "hello") in both Azerbaijani and English bridges linguistic contexts and reduces anxiety.

Philologically informed instruction addresses Azerbaijani-specific challenges, such as vowel harmony affecting English pronunciation. Teachers should use simplified instructions with short sentences and gestures (e.g., "Say. Repeat." while pointing to the mouth), paired with visuals like word cards to enhance comprehension. Drilling is effective for sounds absent in Azerbaijani, like /θ/ in "think." For instance, teachers can conduct choral drills of "This is a book," followed by individual practice to refine pronunciation. Maximizing STT through role-plays and open-ended questions (e.g., "What's your favorite fruit?") encourages extended responses and aligns with CLT principles. An example activity for teaching shopping involves modeling "Can I have apples?" with a picture, drilling pronunciation to address Azerbaijani interference (e.g., /æ/ in "apples"), and having students role-play a market scene, reporting back (e.g., "She wants bananas"). This fosters functional language use and confidence.

Accessible resources enhance engagement in Baku's resource-constrained classrooms. Flashcards with Azerbaijani translations (e.g., "ev/house") support vocabulary retention through games like "Find the Pair," where students match

English words to Azerbaijani equivalents (e.g., "cat/pişik"). Notebooks encourage writing practice, while an emergency resource box with games, worksheets, and markers ensures flexibility. Where technology is available, free apps like Duolingo or YouTube videos with subtitles provide listening practice. In low-tech settings, printed dialogues serve as alternatives. For example, a flashcard-based "Memory Match" game reinforces vocabulary by pairing words and pictures, leveraging bilingual connections to support acquisition.

Lesson planning balances structure and adaptability, incorporating Krashen's comprehensible input and Vygotsky's scaffolding. A typical lesson includes a warm-up (e.g., reviewing vocabulary with a game), presentation (e.g., introducing verbs like "run" with visuals), practice (e.g., pair work to apply skills), and review (e.g., a quiz to consolidate learning). A sample lesson on introductions involves singing a "Hello" song, teaching "My name is…" with name tags, having students introduce themselves in pairs, and concluding with a group circle where each student says, "My name is…" Teachers must adjust activities based on student needs, such as extending drilling for pronunciation challenges or providing extra games for early finishers.

Feedback is critical for beginner progress and should be specific, timely, and encouraging (Hattie & Timperley, 2007). Teachers should correct errors tactfully by modeling correct forms (e.g., Student: "I am student"; Teacher: "Great! Say 'I am a student'") and praise effort (e.g., "You pronounced 'the' well!"). Peer feedback, where pairs correct each other's sentences, fosters collaboration. For example, after a speaking task, teachers can note one strength (e.g., "Good vocabulary") and one improvement (e.g., "Use 'a' before 'book'"), ensuring feedback is constructive and motivating.

From a philological perspective, these strategies address the structural and cultural dimensions of language acquisition. Simplified instructions and visuals provide Krashen's comprehensible input, while drilling targets Azerbaijani-specific challenges, such as mastering English articles absent in Turkic languages. STT aligns with CLT's focus on communication, reflecting philology's interest in language as a dynamic system. Culturally responsive practices, like using Azerbaijani translations, leverage learners' linguistic heritage, aligning with Gay's framework (2018). The strategies contribute to philology by integrating behaviorist and communicative approaches, demonstrating their relevance to beginner ESL teaching. They also address Turkic language interference, offering insights for Azerbaijani philologists studying bilingualism. Practically, the strategies inform teacher training by emphasizing skills like lesson planning and feedback, and they advocate for beginner curricula prioritizing oral practice and vocabulary over complex grammar. Schools should invest in low-cost resources like flashcards, adaptable to Baku's resource-constrained settings.

Limitations include the reliance on reflective practice rather than quantitative data, which could be addressed in future research by conducting experimental studies comparing drilling versus communicative tasks in Azerbaijani classrooms. While tailored to Baku, the strategies are adaptable to other multilingual contexts, enhancing their global relevance. Teaching English to beginners in Azerbaijan requires balancing theoretical rigor with practical application. By creating supportive classrooms, using clear and repetitive instruction, leveraging accessible resources, and providing constructive feedback, teachers can address linguistic and cultural challenges. Grounded in Krashen's, Vygotsky's, and communicative theories, these strategies offer a framework for novice educators. For philology, this study highlights the interplay of language structure, pedagogy, and cultural context, contributing to the discourse on ESL education in Turkic-speaking regions. Educators are encouraged to adapt these practices, reflect on their effectiveness, and engage with philological scholarship to advance language teaching.

References

Agadazada, N. A. (1965). On the question of the category of mood and modality in the modern Azerbaijani language. Baku.

Chapelle, C. A. (2016). Computer applications in second language acquisition. Cambridge University Press.

Farrell, T. S. C. (2015). Reflective language teaching: From research to practice. Bloomsbury.

Gay, G. (2018). Culturally responsive teaching: Theory, research, and practice (3rd ed.). Teachers College Press.

Harmer, J. (2007). How to teach English. Pearson Education.

Hattie, J., & Timperley, H. (2007). The power of feedback. Review of Educational Research, 77(1), 81–112.

Krashen, S. D. (1985). The input hypothesis: Issues and implications. Longman.

Nurmonov, A., Mahmudov, N., Ahmedov, A., & Solikhojaeva, S. (1992). Semantic syntax of the Uzbek language. Tashkent: Science.

Richards, J. C., & Rodgers, T. S. (2014). Approaches and methods in language teaching (3rd ed.). Cambridge University Press.

Skinner, B. F. (1957). Verbal behavior. Appleton-Century-Crofts.

Vygotsky, L. S. (1978). Mind in society: The development of higher psychological processes. Harvard University Press.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: Rəyçi:Fil.ü.f.d.,
Züleyxa Murad qızı Bağırzadə
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.337-344

ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2025.4.337

SƏKİNƏ İSMAYILOVA
Bakı Avrasiya Universiteti
Bakı ş., Nərimanov ray., H.Əliyev pr. 135A
Kamaismayılzadeh@gmail.com

DEDEKTİV ROMANIN İNKİŞAF TARİXİ

Xülasə

Detektiv ədəbiyyatın "Qızıl dövrü" 1920-ci illərdən 1940-cı illərə qədər olan dövrü əhatə edir, detektiv fantastikanın zirvəyə çatması, böyük oxucu auditoriyası cəlb etməsi və bütövlükdə mədəniyyətə əhəmiyyətli təsir göstərməsidir. Bu dövr detektiv hekayələrin aydın bir quruluş qazandığı, daha ixtiraçı və intellektual xarakter aldığı bir dövr idi. Dövrün ədəbiyyatı mürəkkəb araşdırmalara, müəmmalı cinayətlərə və simvollaşan görkəmli detektiv personajlara diqqət yetirirdi. Bu dövrün mühüm xüsusiyyəti psixoloji və əxlaqi aspektlərə diqqət yetirilməsi, tez-tez ədalət, təqsir və satınalma kimi mövzulara toxunması idi.

Aqata Kristi və Artur Konan Doyl kimi müəlliflərin əsərləri detektiv janrının istiqamətini böyük ölçüdə müəyyən etmiş, detektivlərin tapmacaları həll etməsi və povestə çoxsaylı mümkün şübhəliləri daxil etmək kimi yeniliklər və konsepsiyalar yaratmışdır. Bu müəlliflərin əsərlərində detektiv təkcə cinayətləri araşdıran qəhrəman deyil, həm də əxlaqi və fəlsəfi sualları təcəssüm etdirən şəxsiyyətə çevrilir. Reymond Çandler və Corc Simenon əsərləri sosial və psixoloji dinamikaya diqqət yetirərək janra yeni ləzzətlər əlavə etdi. Beləliklə, detektiv ədəbiyyatın "Qızıl dövrü" janr üçün yeni üfüqlər açaraq onu intellektual əyləncəyə, insan təbiəti haqqında mühüm əks etdirmə vasitəsinə çevirdi.

Açar sözlər: Qızıl dövrü, detektiv janr, Aqata Kristi, fəlsəfə, araşdırma.

SAKİNA İSMAYILOVA

Hictoricial development of the detective novel.

Summary

The "Golden Age" of detective fiction spans the period from the 1920s to the 1940s, when detective fiction reached its peak, attracting a huge audience and exerting a significant influence on culture as a whole. This period was a time when detective stories acquired a clear structure, became more inventive and intellectual. The literature of the time focused on complex investigations, mysterious crimes and outstanding detective characters who became iconic. An important feature of this

period was the attention to psychological and moral issues, often touching on themes such as justice, guilt and redemption.

The works of authors such as Agatha Christie and Arthur Conan Doyle largely defined the direction of detective fiction, creating unique tropes and concepts such as detectives solving puzzles and introducing multiple possible suspects into the narrative. In the works of these authors, the detective became not only a hero investigating crimes, but also a person embodying moral and philosophical questions. The works of Raymond Chandler and Georges Simenon added new shades to the genre, focusing on social and psychological dynamics. Thus, the "Golden Age" of detective fiction opened new horizons for the genre, turning it into intellectual entertainment and an important means of reflection on human nature.

Keywords: Golden Age, detective genre, Agatha Christie, philosophy, investigation.

Историческое развитие детективного романа

Резюме

"Золотой век" детективного жанра охватывает период с 1920-х по 1940-е годы, когда литература детективного жанра достигла своего расцвета, привлекая огромное внимание читателей и оказывая значительное влияние на культуру в целом. Этот период стал временем, когда детективные истории приобрели четкую структуру, стали более изобретательными и интеллектуальными. Литература того времени была сосредоточена на сложных расследованиях, загадочных преступлениях и выдающихся персонажах-детективам, ставших культовыми. Важной чертой этого периода было внимание к психологическим и моральным аспектам, часто затрагивающим такие темы, как справедливость, вина и искупление.

Работы таких авторов, как Агата Кристи и Артур Конан Дойл, в значительной степени определили направление детективного жанра, создавая неповторимые образы и концепции, такие как детективы, решающие головоломки, а также введение в повествование множества возможных подозреваемых. В произведениях этих авторов детектив стал не только героем, расследующим преступления, но и личностью, олицетворяющей моральные и философские вопросы. Произведения Рэймонда Чандлера и Джордж Сименон добавили новые оттенки к жанру, акцентируя внимание на социальной и психологической динамике. Таким образом, "Золотой век" детектива открыл новые горизонты для жанра, превратив его в интеллектуальное развлечение и важное средство размышлений о человеческой природе.

Ключевые слова: Золотой век, детективный жанр, Агата Кристи, философия, расследование.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.337-344

Giriş

Detektiv janrının "Qızıl dövrü" detektiv ədəbiyyatın zirvəyə çatdığı, təkcə oxucular arasında populyarlaşdığı, həm də bütövlükdə mədəniyyətə təsir etdiyi dövrdür. Təxminən 1920-ci illərdən 1940-cı illərə qədər olan bu dövr Aqata Kristi, Artur Konan Doyl, Corc Simenon və Reymond Çandler kimi ustadlarla bağlıdır. Bu dövrdə detektiv hekayələr aydın struktur və səciyyəvi xüsusiyyətlər qazanmağa başladı, məsələn, dahiyanə araşdırmalar, sirli cinayətlər və kult personajlarına çevrilən görkəmli detektivlər.

"Qızıl dövr" detektivlərin sadə araşdırmalardan kənara çıxdığı və əsl intellektual oyunlara çevrildiyi bir dövr idi. Bu dövr ədəbiyyatı çox vaxt insan təbiəti, ədalət və əxlaqla bağlı suallar verir, oxucudan təkcə müşahidə deyil, həm də məntiqi təfəkkür tələb edirdi. Detektiv hekayələr təkcə cinayətkarı tutmaq haqqında hekayələrə deyil, şəxsiyyətlər, motivlər və mənəvi dilemmalar arasında mürəkkəb qarşılıqlı əlaqəyə çevrildi ki, bu da janrı populyar deyil, həm də dərin fəlsəfi etmişdir.

1. Detektiv janrının inkişaf tarixi.

Detektiv fantastikanın qızıl dövrü müəyyən sosial və mədəni dəyişikliklərlə üst-üstə düşür. XIX - XX-ci əsrlərin qovşağında İngiltərə və ABŞ-da sosial strukturda mühüm dəyişikliklər baş vermişdir: sənayeləşmə, artan urbanizasiya, şəhər əhalisinin artması və elmin inkişafı. Bu dəyişikliklər cinayət anlayışına və hüquq-mühafizə orqanlarına təsir göstərmişdir. Ədəbiyyatda yeni bir qəhrəman tipi meydana çıxmışdır - çox vaxt məhdud və yavaş təsvir olunan ənənəvi polisdən fərqli olaraq, cinayətlərin açılmasına kömək edən şəxsi detektiv.

"Detektiv fantastikanın qızıl dövrünün formalaşmasına təsir edən əsas amillərdən biri sənayeləşmə, xüsusilə Böyük Britaniya və ABŞ üçün xarakterikdir. Sənaye İnqilabı fabriklərin, dəmir yollarının və iş axtarmaq üçün kənd yerlərindən miqrasiya edən artan əhalinin yerləşdiyi yeni, sürətlə inkişaf edən şəhərlər yaratmışdır. Bu, şəhər əhalisinin əhəmiyyətli dərəcədə artmasına və sosial quruluşun dəyişməsinə səbəb olmuşdur."[2, s. 109].

London və Nyu-York kimi böyük şəhərlərdə yüksək əhali sıxlığı inkişaf etmişdir ki, bu da cinayətlərin artmasına səbəb olmuşdur. Yeni şəraitdə ictimai asayişə nəzarət etmək çətinləşdi ki, bu da öz növbəsində cinayətlərin sayının artmasına və şəhər sakinləri arasında narahatlığın artmasına səbəb olmuşdur. Şəhər sakinləri cinayəti şəhərləşmiş dünyanın ayrılmaz hissəsi kimi qəbul etməyə başladılar. Bir çox insan oğurluq, qətl, dələduzluq kimi müxtəlif cinayətlərin şahidi olub, hətta qurbanı olmuşdur. Məhz şəhərin təhlükəsizliyi üçün artan qayğı böyük ölçüdə ədəbiyyatda bu çətinliklərin öhdəsindən gələ biləcək yeni fiqurların yaradılması zərurətini müəyyənləşdirmişdir.

Artan urbanizasiya və kriminal situasiyaların mürəkkəbliyi yeni bir qəhrəman növünə - şəxsi detektivə ehtiyac yaratmışdır. Tez-tez ləng, həddən artıq bürokratik və hərəkətlərində məhdud kimi təsvir edilən ənənəvi polis məmurlarından fərqli olaraq,

özəl detektivlər müstəsna analitik bacarıqlara malik personajlara çevrilmişdilər. Şəxsi detektiv hökumət strukturlarının çərçivəsi ilə bağlı deyil və daha çevik və tez hərəkət edə bilər. Bu, cəmiyyətin artan urbanizasiya və cinayətkarlıq şəraitində yeni həll yolları axtardığı dövrün əhval-ruhiyyəsinə tamamilə uyğun idi.

Artur Konan Doyl tərəfindən yaradılmış Şerlok Holms kimi personajlar bu yeni fiqurun təcəssümü olmuşdur. Holms təkcə cinayətləri parlaq şəkildə həll etməmiş, həm də öz metodları çərçivəsində fəaliyyət göstərmişdir ki, bu da onun şəxsiyyətini unikal etmişdir. O, məntiqə, deduksiyaya və təfərrüata diqqət yetirmiş, onun xarakteri isə qətiyyət və rəsmi hakimiyyətdən müstəqillik ilə xarakterizə olunmuşdur. Çox vaxt həddindən artıq metodik və ya məhdud qavrayış kimi təsvir edilən polis məmurlarından fərqli olaraq, Holms kimi qəhrəmanlar cinayət araşdırmasına yeni, daha dinamik yanaşmanın simvoluna çevrilirlər.

"Detektivlər personajlar kimi tez-tez istintaqa elmi yanaşmanın təcəssümünə çevrilirdilər. Məsələn, Holms sadəcə müşahidəçi deyil, həm də izləri təhlil etmək, cinayətkarların davranış modellərini öyrənmək, məntiqdən istifadə etmək kimi innovativ üsullardan istifadə edən insandır. Bu kontekstdə detektivlər çox vaxt təkcə macəraların qəhrəmanlarına deyil, həm də ictimai şüura yeni elmi ideyaların dirijorlarına çevrilmişdilər"[4, s. 116].

Digər tərəfdən, dövrün ictimai-siyasi dəyişiklikləri hüquq-mühafizə orqanlarının dərk edilməsinə də təsir göstərmişdir. Polis vacib bir qurum olaraq qalmasına baxmayaraq, onlar çox vaxt səmərəsiz və ya xüsusilə böyük bir şəhərdə cinayətləri tez bir zamanda açmaq iqtidarında deyildilər. Şəxsi detektiv adətən hökumət sistemindən kənarda işləyən və daha az rəsmi, daha çevik istintaq metodlarından istifadə edə bilən daha fəal və müstəqil xarakter kimi təsvir edilirdi.

Bu zamana qədər polislə bağlı müəyyən stereotiplər formalaşmışdı və detektivlər onlara bir növ alternativ oldular. Onların obrazları çox vaxt dövlət strukturlarında çalışan qəhrəmanlarla ziddiyyət təşkil etmişdri. Bu həm də ədəbiyyatda müstəqil olan, çox vaxt sosial və əxlaqi normalardan kənara çıxan "anti-qəhrəman" və ya "romantik qəhrəman" kimi yeni arxetiplərin yaranmasına səbəb olmuşdur.

XIX - XX -ci əsrlərin qovşağında baş verən sosial-mədəni dəyişikliklər ədəbiyyatda yeni bir qəhrəman tipinin - şəxsi detektivin meydana çıxmasına kömək etmişdir. Bu qəhrəman cinayətlərin araşdırılmasına yeni yanaşmanın təcəssümü və cəmiyyətdəki dəyişikliklərin əksi olmuş, burada artan urbanizasiya, elmin inkişafı və cinayətlə mübarizədə yeni həll yollarına ehtiyac detektivin Qızıl dövrünün simvollarına çevrilən unikal personajların yaradılmasına səbəb olmuşdur.

2. Detektiv janrının Qızıl Dövrünün əsas nümayəndələri

Detektiv fantastikanın qızıl dövrü ədəbiyyatda mühüm mərhələ idi və onun inkişafı əsərləri detektiv janrının zahiri görünüşünü həqiqətən müəyyən edən müəlliflərin parlaq adları ilə bağlı olmuşdur. Bu yazıçılar nəinki ikonik personajlar

yaratmış, həm də bir çox müasir detektiv hekayələrin əsasını qoymuşdular. Detektiv fantastikanın qızıl dövrünün əsas nümayəndələrinə daha yaxından nəzər salaq.

Detektiv janrının Qızıl Dövrünün ən görkəmli və əhəmiyyətli müəlliflərindən biri Artur Konan Doyldur. O, ədəbiyyat tarixinin ən məşhur personajlarından birini - Şerlok Holmsu yaradıb. Şerlok Holms detektiv janrının simvoluna çevrildi, onun araşdırma metodları - məntiq, deduksiya və təfərrüata diqqət - bir çox sonrakı ədəbi qəhrəmanlar üçün əsas oldu.

Holms müstəsna analitik bacarıqlara malik özəl detektivdir və ən mürəkkəb cinayətləri yalnız ağıl və elmi metodlardan istifadə etməklə həll edir. Onun yüksək qavrayışı, təfərrüata diqqəti və nəticə çıxarmaq bacarığı detektiv qəhrəmanın ayrılmaz xüsusiyyətlərinə çevrilmişdir.

Artur Konan Doylun əsərlərinin başqa bir fərqləndirici xüsusiyyəti məntiq və macəra ədəbiyyatının elementlərinin unikal birləşməsidir. Holms həmişə həqiqət axtarışındadır və onun macəraları gözlənilməz dönüşlər və dramatik vəziyyətlərlə doludur. Psixoloji fərasət, qüsursuz analitik qabiliyyət və ən mürəkkəb işləri həll etmək bacarığı o dövrün oxucularını cəlb edən xüsusiyyətlərə çevrilmiş və Şerlok Holms "standart" detektiv xarakter statusu qazanmışdır.

Detektiv fantastikanın Qızıl əsrinin digər əsas müəllifi Aqata Kristidir, onun işi janrın üfüqlərini xeyli genişləndirmişdir. Herkül Puaro və Miss Marpl kimi məşhur personajların yer aldığı romanları dünya miqyasında populyarlıq qazanmış və çoxsaylı film, səhnə və radio adaptasiyalarına ilham vermişdir.

Kəskin məntiq hissi və iti zehni olan Belçikalı özəl detektiv Herkül Puaro detektiv ədəbiyyatının ən məşhur və tanınan qəhrəmanlarından birinə çevrilmişdir. Onun araşdırma metodu çox vaxt psixoloji təhlilə və insan təbiətinin dərkinə əsaslanaraq onun yanaşmasını unikal və Holmsun metodundan fərqli etmişdir. Puaro təkcə sübutlara deyil, həm də insanların motivlərinə diqqət yetirmiş, bu da ona cinayətkarları onların hərəkətləri və davranışları ilə müəyyən etməyə imkan yaratmışdır.

Miss Marpl, öz növbəsində, tamamilə fərqli bir detektiv növüdür. Puarodan fərqli olaraq, o, İngiltərənin kəndlərində yaşayan sadə bir yaşlı qadındır, lakin onun insan xarakterinin inanılmaz anlayışı və gizli motivlərə həssaslığı onu əla müstəntiq etmişdir. Miss Marpl insanların davranışlarını müşahidə edərək illərlə topladığı intuisiya və biliklərindən istifadə edərək cinayətləri həll etmişdir.

“Kristi yaradıcılığı həm də detektiv janrına xüsusi psixoloji dərinlik gətirdi, burada cinayətkarların motivləri xeyli mürəkkəbləşdi və çoxşaxəli oldu, qəhrəmanların özləri isə təkcə müstəntiqə deyil, həm də dərin daxili dramatik şəxsiyyətlərə çevrildilər. O, janr üçün əhəmiyyət kəsb edən mövzuların dairəsini xeyli genişləndirdi - cinayətlər təkcə açılmadı, həm də psixoloji baxımdan təhlil edildi”[1, s. 39].

Qızıl Dövrdə detektiv janrının inkişafına daha az əhəmiyyətli töhfələr Noir janrının - qaranlıq, qəddar və pessimist müxtəlif detektiv fantastika təkamülünə təsir edən Raymond Çandler və Daşiell Hammett tərəfindən edildi.

Deşil Hemmet kriminal fantastika janrının banisidir, onun əsərləri detektiv ədəbiyyatın inkişafına böyük təsir göstərmişdir. Onun baş qəhrəmanı, "Malta Şahini" romanından Sem Spade tipik bir antiqəhrəmandır: korrupsiya və zorakılıq dünyasında fəaliyyət göstərən soyuq, kinli, qəddar və bəzən əxlaqsız xarakter. Şerlok Holms kimi klassik detektivlərdən fərqli olaraq, Spade aydın mənəvi kompası olmayan daha real, daha az ideallaşdırılmış xarakterdir. Spade sadəcə bir müstəntiq deyil, ətrafındakı dünyanın qəddarlığı ilə üzləşən və çətin, çox vaxt etik cəhətdən ziddiyyətli qərarlar verməli olan bir insandır.

Hemmetin yaradıcılığını davam etdirən yazıçı Reymond Çandler, mənəvi kompromislərlə dolu bir dünyada da fəaliyyət göstərən digər məşhur personaj Filip Marlou obrazını yaratmışdır. Onun qəhrəmanı mürəkkəb korrupsiya, sosial ədalətsizlik və şəxsi faciələrlə qarşılaşan şəxsi detektivdir. Marlou kinsizliyə meylli, lakin eyni zamanda güclü əxlaqi prinsiplərə malik filosofdur və bu onu noir dünyasında unikal edir.

Çandler və Hemmetin əsərlərində detektiv dünya çox vaxt klassik romanlardan daha qaranlıq və daha qəddar olur. Süjetlər korrupsiya, qəddarlıq və ümidsizliklə doludur və qəhrəmanların özləri heç də həmişə "təmiz" olmur və həmişə ənənəvi əxlaq kodeksinə əməl etmirlər. Bu müəlliflər göstərdilər ki, detektiv janr təkcə əyləncəli deyil, həm də dərin, sosial əhəmiyyətli və hətta fəlsəfi ola bilər.

3. Xarakterik xüsusiyyətlər

Detektiv fantastikanın qızıl dövrünə aid əsərlər onları asanlıqla tanınmağa imkan verən və digər ədəbi janrlardan fərqləndirən bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Bu dövrün əsas xüsusiyyətlərindən biri süjet quruluşudur. O dövrün detektiv hekayələrində hekayə həmişə əsas element - cinayətin araşdırılması ətrafında qurulur. Oxucunun diqqəti təkcə cinayət faktının özünə deyil, həm də intriqa yaradan, oxucunu tələşda saxlayan onun açılması prosesinə yönəlib. Hekayə adətən müəmmalı və ya dəhşətli hadisə ilə - qətl, itkin düşən şəxs, böyük oğurluq və ya digər cinayətlə başlayır - bundan sonra biz bütün sirləri addım-addım açan baş qəhrəmanın, detektivin arxasınca gedirik. İstintaqın hər bir addımı gizli təfərrüatların açılmasına gətirib çıxarır ki, bu da oxucunu aktiv şəkildə düşünməyə və sirri özbaşına həll etməyə çalışmağa vadar edir.

"İpucuların tapılmasına və onların şərhinə xüsusi diqqət yetirilir, personajlara və oxucuya cinayətin necə törədildiyini açmağa imkan verir. Bu axtarış prosesi bizə bütöv hadisələr silsiləsi yaratmağa imkan verir ki, burada hər bir yeni detalın kəşfi, hər bir kiçik müşahidə və ya məntiqi nəticə daha mürəkkəb mənzərənin bir hissəsinə çevrilir" [5, s. 92]. Bu yanaşma nəinki sirr ab-havasını gücləndirir, həm də oxucuya

özlərini istintaqın bir hissəsi kimi hiss etməyə imkan verir və bununla da onların süjetdə iştirakını xeyli artırır.

Bundan əlavə, detektivin qızıl dövrünün əsərləri çox vaxt həm cinayətlərin təsvirinə, həm də personajların yaradılmasına ətraflı yanaşma ilə xarakterizə olunur. Cinayətlər adətən bütün mümkün təfərrüatların diqqətlə araşdırılması ilə açılır: izlər, şahidlər, şübhəlilərin davranışı və kiçik ipucları. Bu, gərginlik və intizar mühiti yaratmağa kömək edir, çünki hər bir yeni fakt istintaqın nəticəsinə həlledici təsir göstərə bilər. Eyni zamanda, bu dövrün detektiv qəhrəmanları çox vaxt mürəkkəb, çoxqatlı xarakterlərə malikdirlər ki, bu da onları təkcə müstəntiq kimi deyil, həm də fərd kimi maraqlı edir. Süjetlər çox vaxt çoxqatlı, bir neçə sətirdən ibarətdir - əsas sirrdən tutmuş personajların şəxsi həyatı, daxili münaqişələri, hətta kiçik cinayətləri ilə bağlı alt süjetlərə qədər.

O dövrün detektiv əsərlərində diqqəti çəkən cəhətlərdən biri də mərkəzi fiqur - detektivdir. Bu personaj həmişə görkəmli analitik qabiliyyətlərə malikdir, o, dünyanı məntiq prizmasından qavrayır, bu da ona digər insanların qaçıra biləcəyi gizli detalları görməyə imkan verir. Onun kəşfiyyatı və soyuq hesablamalar aparmaq bacarığı tez-tez şahidlər, şübhəlilər və hətta cinayətkarlar kimi digər personajların emosional reaksiyaları ilə ziddiyyət təşkil edir. Detektivlər çox vaxt rasional hərəkət edir, emosiyaya deyil, məntiqə əsaslanan qərarlar verir, onları oxucunun asanlıqla tanıya biləcəyi personajlara çevirir, dünyaya baxışlarını ardıcıl və başa düşülən şəkildə bölüşürlər.

Bu personajlar tez-tez fədakarlıq proseslərindən keçir və öz zəiflikləri ilə mübarizə aparır, lakin istənilən şəraitdə hərəkət etmək qabiliyyəti onların ən böyük gücü olaraq qalır. Bu keyfiyyət onları, əksinə, tez-tez duyğularının və ya öz zəifliklərinin tələyə düşdüyü digər personajlardan fərqləndirir.

4. Populyar mədəniyyətə təsir

Qızıl dövrün detektiv hekayələri təkcə bir çox ədəbi əsərlər üçün əsas deyil, həm də bütövlükdə populyar mədəniyyətə əhəmiyyətli təsir göstərmişdir. Şerlok Holms və Herkül Puaro kimi personajlar əsl mədəni ikona çevrilib. Onların adları və obrazları o qədər məşhurlaşdı ki, onlar öz həyatlarını kitabdan kənarda yaşamağa, teatr tamaşalarının, filmlərin və televiziyaların bir hissəsinə çevrilməyə başladılar. Qeyd etmək lazımdır ki, o illərin əsərləri filmlərdən tutmuş teleseriallara, radio proqramlarından tutmuş video oyunlara qədər hər il yeni medialara uyğunlaşdırılır. Bu personajlar həqiqət axtarışının simvollarına çevrildi və onların araşdırma metodları bütün sonrakı detektiv nəsillərinə təsir etdi.

"Üstəlik, detektiv janrının aktiv beynəlmiləlləşməsi məhz bu zaman başlandı. 1920-1930-cu illərdə Aqata Kristi, Artur Konan Doyl və Daşiell Hammett kimi məşhur müəlliflərin kitabları bir çox dillərə tərcümə edilmiş və təkcə ingilisdilli ölkələrdə deyil, bütün dünyada məşhur olmuşdur" [5, s. 92]. Böyük Britaniya və ABŞ-da yazılmış detektiv romanlar Avropa, Latın Amerikası, Asiya və hətta

Afrikada öz əksini tapmışdır. Bu, müxtəlif ölkələrin ədəbiyyatında yeni ənənələrin yaranmasına kömək etdi, eyni zamanda beynəlxalq fikir və mövzu mübadiləsinə səbəb oldu.

Şerlok Holms və Herkül Puaro kimi personajlar o qədər məşhurlaşdılar ki, onların obrazları filmə və televiziyaya köçdü, təkamül etməyə və yeni şəraitə uyğunlaşmağa davam etdi. Müasir filmlər, seriallar və hətta internet platformaları tez-tez bu qəhrəmanlara qayıdır ki, bu da bu əsərlərin populyar mədəniyyətdə uzunmüddətli populyarlığından və aktuallığından xəbər verir.

Nəticə

Detektiv fantastikanın qızıl dövrü ədəbiyyatda bu günə qədər detektiv janrını müəyyən edən bir sıra əsas xüsusiyyətləri formalaşdıran mühüm bir dövr idi. O dövrlərin hekayələri diqqətlə düşünülmüş əsərlər idi ki, burada hər bir hərəkət və ya istintaq elementi məna kəsb edir. Detektivlər, mərkəzi personajlar kimi, rasionallıq, müşahidə və yüksək analitik bacarıqlar gətirdilər ki, bu da sonrakı müəlliflər nəsilləri üçün qanuna çevrildi. Qızıl dövrün populyar mədəniyyətə təsirini qiymətləndirmək olmaz - bu əsərlər və onların qəhrəmanları milyonlarla insanı ruhlandırmaqda davam edir, kitablardan digər media formalarına keçərək bütün dünyaya yayılır. Detektiv janrının qızıl dövrü onun sonrakı inkişafı üçün əsas oldu və onun təsiri bu günə qədər ədəbiyyatda, kinoda və mədəniyyətdə özünü büruzə verir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHI

1. Кузнецова, М. "Структура детективных рассказов Агаты Кристи: от интриги к философским вопросам". Литературные исследования, 2021, т. 20, № 2, с. 33-47.
2. Петрова, О. "Детектив как зеркало социальной морали: анализ произведений Рэймонда Чандлера". Литературное наследие, 2020, т. 22, № 3, с. 102-118.
3. Смирнов, В. "Психология детективного персонажа в романах Агаты Кристи и Артура Конана Дойла". Вопросы литературы и психологии, 2022, т. 15, № 1, с. 68-83.
4. Boulton, J. "The Golden Age of Detective Fiction and its Philosophical Implications". English Literary Studies, 2020, vol. 37, no. 2, pp. 112-129.
5. Thomson, M. "Agatha Christie and the Evolution of the Whodunit Genre". Journal of British Literature, 2021, vol. 45, no. 1, pp. 85-101.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: fil.ü.f.d., dos. Nağıyeva Əfsanə
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.345-353

https://doi.org/10.62837/2025.4.345

ƏLİYEVA HƏMİDƏ MUXTAR QIZI
Azərbaycan Dillər Universiteti
Xarici ölkələr ədəbiyyatı kafedrası
e-mail: hemide.alieva111@gmail.com

XUAN RULFONUN "PEDRO PARAMO" ROMANINDA KOLLEKTİV YADDAŞ VƏ ARXETİP PROBLEMİ

Xülasə

Məqalədə Xuan Rulfonun "Pedro Paramo" əsəri şüuraltıya səyahət kimi müəyyən edilir, eyni zamanda onun psixoloji qatları araşdırılır. "Pedro Paramo" əsəri iki fərqli, lakin bir-biri ilə sıx bağlı olan nəzəri kontekstdə təhlil edilir. Karl Qustav Yunqun arxitip nəzəriyyəsi ilə Freydin psixoanalitik nəzəriyyəsi də metodoloji baza kimi istifadə olunur. Freydin şüuraltı, basdırılmış xatirələr və ölüm instinkti anlayışları, Yunqun kölgə, anima, animus, ata və qəhrəman arxitipləri əsərin obrazları vasitəsilə müəyyən edilir. Bu məqamları araşdıraraq romanın təkcə Meksika ədəbiyyatında deyil, eyni zamanda insan psixologiyasının dərin qatlarında hansı izlər buraxması qənaətinə gəlirik.

Məlumdur ki, Freydin psixoanalitik nəzəriyyəsi əsərlərin oxunuşuna, xüsusən də basdırılmış və bilinməyən arzuların, hislərin, travmaların və konfliktlərin necə təzahür etdiyinə dərin bir baxış təqdim edir. Bu prinsipləri rəhbər tutaraq "Pedro Paramo" əsərini Freydin nəzəriyyəsi ilə təhlil edir və bir sıra vacib məqamlar üzərində dayanırıq.

Açar sözlər: Xuan Rulfo, "Pedro Paramo", gerçək və təxəyyül,

Giriş. Keçmişdən xilas olmaq mümkündürmü? Yoxsa unudulmuş hekayələr və basdırılmış xatirələr həmişə geri qayıdır?

"Pedro Paramo" əsəri bir roman olmağına baxmayaraq, onun sərhədləri ruhun və ya mifin sərhədləri kimi hüdudsuz, eyni zamanda bir o qədər də qeyri-müəyyəndir. Bəzən, insan öz keçmişinin kölgəsində itib-batır. Orada unudulmuş anlar, günlər, xatirələr və ruhlar dolaşır. Xuan Rulfonun "Pedro Paramo" əsəri də məhz belə bir məkan yaradır. Belə ki, bu əsərdə təsvir olunan Komala adlı ölü şəhər atanın kölgəsi və itirilmiş ruhlarla dolu bir dünyadır. "Pedro Paramo" romanı Xuan Presiado adlı gəncin atasını axtarmaq üçün Komalaya olan səfəri ilə bağlıdır. Əslində isə bu onun öz şüuraltına, bastırılmış qorxularına, duyğularına və arxetiplərinə etdiyi bir səfərə çevrilir. Karl Qustav Yunqun nəzəriyyəsinə əsasən, insanın psixikası fərqli arxetiplərlə formalaşır. Buna misal olaraq ata, qəhrəman, müdrik, aşiq, sehirbaz, kölgə, anima, animus və s. göstərə bilərik. Bu arxetiplərin bir neçəsi "Pedro

Paramo" əsərində öz əksini tapmış, bizə insan ruhunun dərinliklərini, qaranlıq tərəfini işıqlandırmağa və aydınlaşdırmağa yön vermişdir.

Latınamerikan ədəbiyyatında sanki ölüm və ruhlar dünyası gerçəkliklə vəhdət təşkil edir [2]. Həmçinin qeyd etmək lazımdır ki, latınamerikan ədəbiyyatı miflərin və gerçəkliyin iç-içə keçdiyi unikal hekayələrlə zəngindir. Xuan Rulfonun "Pedro Paramo" əsəri də bu ənənənin zirvəsində dayanan ən güclü nümunələrdən biridir desək yanılmarıq. Əsərdə real və irrealın sərhədi pozulur, canlılar və ölülər eyni məkanda mövcud olur. Komala təkcə bir şəhər deyil, o eyni zamanda həm şüuraltının qaranlıq guşəsi, həm bastırılmış hislərin təzahürü, həm də unudulmuş ruhların məkanıdır. Ölülərlə dirilər bir yerdə yaşayır, zaman anlayışı pozulur və reallıqla irreallığın sərhədi silinir. Lakin bu sadəcə mistik bir təsvir deyil. Bütün bunlar əsərin həm mifoloji, həm də psixoanalitik təhlilinə yol açır. Əslində əsərə psixoanalitik baxış bucağından baxdığımız zaman onun dərin mənalar daşıdığını görürük. Xuan Rulfo bu əsərlə təkcə Latın Amerikası ədəbiyyatında yeni bir üslub formalaşdırmamış, eyni zamanda insan psixikasının ən dərin və basdırılmış qatlarını da açıq şəkildə təqdim etmişdir. Bu əsər sadəcə bir roman deyil, insanın şüuraltına səyahət edən, onun qorxularını, arzularını və unutmağa çalışdığı həqiqətləri əks etdirən bir güzgüdür. Eyni zamanda həm fərdi, həm də kollektiv şüuraltının bir inikasıdır. Bu baxımdan, əsəri psixoanalitik və mifoloji aspektlərdən araşdırmaq onun dərin qatlarını anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.

"Pedro Paramo" romanında 1920-ci illərdə Meksikanın kəndlərindəki çürümüş sosial quruluş, yoxsulluq, ağalıq, məzlum kəndlilər, ədalətsizliyin, qətlin və şərin tüğyan etdiyi tənha yerlər öz əksini tapmışdır. Habelə atasızlıq, ölüm və günah mövzuları mistik, qeyri-xronoloji bir narrativlə oxuyucuya təqdim olunmuşdur. Qadınların məruz qaldığı kişi zorakılığı – Pedro Paramo və oğlu tərəfindən törədilən, sonrasında ört-basdır edilən bəzi zorakılıqlar irreallıqla reallığın harmoniyasında öz əksini tapmışdır. Müəllif dünyanın bir çox yerində rastlanılan feodal həyatı, ata-oğul münasibətlərini, kənddəki şər və ədalətsizlik kimi hamıya məlum olan mövzuları elə fərqli üslubda yazmışdır ki, kitabı oxuyarkən insan özünü bu sirli dünyanın içində hiss edir. "Pedro Paramo" əsəri oxucunu təkcə Meksikanın kənd həyatı və ölülər aləmi ilə tanış etmir, habelə insan psixikasının dərin qatlarına, kollektiv yaddaşa və arxivdə toplanmış simvolik mənzərələrə səyahətə də dəvət edir. Yunqun arxetip anlayışı və Freydin şüuraltı nəzəriyyəsi əsərin təhlili üçün ideal açarlardır.

Bilinməyən və basdırılmış arzular – Freydin fikrincə, insan davranışı və təcrübələri əsasən şüuraltında saxışdırılmış, basdırılmış arzu və istəklər tərəfindən idarə olunur. "Repressiya" (repression-basdırılmış) edilmiş xatirələr və arzular Freydin psixoanalitik nəzəriyyəsinin təməl daşlarından biridir. O hesab edirdi ki, insanlar üzləşməsi çox çətin olan xatirələri, xüsusən də travmatik xatirələri "repressiya" edərək onları şüurlu düşüncədən silirlər [4]. "Pedro Paramo"da məkan və zamanın qarışması, qaranlıq və mistik atmosfer, fərdlərin basdırılmış hisslərini –

günahlar, travmalar və bastırılmış arzuların geri dönüşünü simvolizə edir. Əsərdə tez-tez təkrarlanan simvol və görüntülər məsələn, toz, boşluq, sükut obrazların daxili dünyasında basdırılmış və inkar olunmuş hislərin və xatirələrin simvolu kimi şərh oluna bilər. Əsərdə tez-tez qarşılaşdığımız ölü və ruh obrazları, unudulmuş və inkar olunmuş xatirələrin, duyğuların və arzuların "qayıdışını" ifadə edir. Bu, Freydin "basdırılmışın geri dönüşü" [4] anlayışı ilə paralellik təşkil edir. "Basdırılmışın geri dönüşü" (die Wiederkehr des Verdrängten) konsepsiyası onun psixoanalitik nəzəriyyəsinin əsas prinsiplərindən biridir. Bu anlayışa görə, insan psixikasında basdırılmış (şüuraltına atılmış) emosiyalar, arzular və travmalar zamanla müxtəlif formalarda özünü göstərir. Başqa sözlə desək, insanın unutmağa çalışdığı və ya şüuraltına sıxışdırdığı təcrübələr tamamilə yox olmur, əksinə, yenidən üzə çıxır. Bu proses yuxular, dil sürüşmələri, incəsənətdə və ya ədəbiyyatda təkrarlanan motivlər, nevrotik simptomlar, həyatımızda təkrarlanan davranışlar və s. formada baş verir.

Bu nəzəriyyə "Pedro Paramo" romanında özünü açıq şəkildə büruzə edir. Roman boyunca keçmişin yenidən ortaya çıxması, personajların unutmaq istədiyi hadisələrin onlara təsir etməsi və şüuraltının simvolik olaraq canlanmasının şahidi oluruq. Buna bir neçə misal göstərərək aydınlaşdıraq. Xuan Presiado atasını tapmaq üçün Komalaya doğru yola çıxır, amma əslində, bu, onun şüuraltına olan səfəridir. Xuan realda atasının necə olduğunu bilmirdi və onunla bağlı olan duyğularını şuuraltına sıxışdırmışdı. Amma bu axtarış onu atası ilə bağlı öz içində sıxışdırdığı həqiqətlərə yaxınlaşdırmağa başlayır. Həmçinin onuda qeyd etmək lazımdır ki, Xuan Presiadonun ölümü də onun bastırılmış qorxularının bir təzahür forması kimi baş verir. Komala keçmişin qalıqları və izləri ilə dolu bir şəhərdir. Orada yaşayanlar, əslində, artıq ölüdürlər və keçmiş travmaların əks-sədası kimi təsvir olunurlar. Buradakı obrazlar öz keçmişlərini unutmağa, ondan qaçmağa çalışırlar, amma buna nail ola bilmirlər. Hər şey yenidən təkrarlanır. Bu, Freydin "bastırılmışın geri dönüşü"[4] anlayışı ilə üst-üstə düşür. Beləki, heç bir keçmiş unudulmur, sadəcə fərqli formalarda geri qayıdır. Başqa bir nümunəni Pedro Paromo obrazında görə bilərik. O, Komalanı idarə edən qəddar bir hökmdar, ağa fiquru kimi qarşımıza çıxır. Lakin şəhəri tərk edilmiş və ölü bir yerə çevirərək öz günahlarının və qorxularının qurbanı olur. Pedro eyni zamanda sevgisini və duyğularını da basdıran biridir. Ələxüsus Susana San Xuana olan sevgisini ifadə edə bilməməsi onun emosional cəhətdən ölü bir insana çevrilməsinə səbəb olur. Susananın ölümü ilə onun bastırılmış bütün duyğuları qayıdır, amma artıq çox gec olur. Nəticədə o, bütün gücünü və təsirini itirir. Beləliklə, belə nəticəyə gələ bilərik ki, Komala şəhəri özü keçmişin məkanıdır. Orada zaman donub qalıb və hər şey təkrar olunur. Pedro Paramo duyğularını basdıraraq tək güc sahibi olmaq istəyir, amma nəticədə Komalanı və özünü məhv edir. Xuan Presiado isə atasının izinə düşsə də, əslində öz daxili qorxularına və basdırılmış həqiqətlərinə doğru gedir və bu da onun məhvinə səbəb olur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 345-353

Edip kompleksi və ata problemi – Pedro Paramo obrazı əsərdə həm fərdi, həm də kollektiv səviyyədə hakimiyyət və avtoritarın simvolu kimi düşünülə bilər. Freydin nəzəriyyəsində ailə, xüsusilə də atanın rolu subyektdə formalaşan supereqo və Edip kompleksi baxımından olduqca önəmlidir. Pedro Paramonun atasının anasına qarşı laqeyd rəftarı onun formalaşmasında mənfi rol oynayır. Eyni zamanda onun da ata kimi öz oğlu Xuana olan biganəliyi, Doleresi göndərməyi və bir daha onunla maraqlanmamağı oğlunda atasına qarşı mənfi hislərin formalaşmasına səbəb olmuşdur. Pedro Paramonun ailə üzərindəki təsiri, eyni zamanda onun qadınlarla və övladları ilə münasibətlərində, subyektin erkən uşaqlıq dövründə formalaşan və şüuraltında iz qoyan edipal dinamikaları əks etdirə bilər. Əsərdə bu dinamikalar basdırılmış duyğuların və həll olunmamış konfliktlərin ata-oğul arasındakı münasibətdə təzahür etməsinə səbəb olur.

Eros və Thanatos – Freyd həmçinin ölüm instinktini – "thanatos"u insanın psixikasında mövcud olan destruktiv qüvvə kimi təqdim edir. "Pedro Paramo" əsərində də ölüm hadisələri və bunun təkrarlanması, canlı və ölülər arasında sərhədin pozulması, şüuraltında basdırılmış destruktiv impulsların simvolik göstəricisi kimi şərh oluna bilər. Buna əks olaraq, əsərdə zaman-zaman təsvir olunan rəngli həyatın və xoş hislərin "eros"un – həyat instinktinin varlığını da xatırladır. Bu iki güc arasındakı dialoq fərdin daxili aləminin həm konfliktlərini, həm də tarazlığını göstərir. Xuan Presiadonun atasını tapmaq üçün yola çıxması, lakin öz ölümünə doğru getməsi Freydin Thanatos nəzəriyyəsi ilə açıqlana bilər. Həmçinin Susana obrazının da həyata qarşı biganəliyi və ölümü arzulamağı Thanatosa nümunədir.

Ümumi psixodinamik konfliktlər – Freydin nəzəriyyəsinə görə, insanın davranışını idarə edən əsas qüvvələrdən biri də, şüuraltında yerləşən istəklərin və qorxuların özünü təkrar-təkrar göstərməsidir. "Pedro Paramo" əsərində bu fərdlərin və cəmiyyətin keçmişlə üzləşməsi, unudulmuş, inkar olunmuş hisslərin və həll olunmamış konfliktlərin, problemlərin yenidən səthə çıxmasıyla təzahür edir.

Əsərin quruluşundakı fraqmentarlıq və müxtəlif perspektivlərdən bizə təqdim olunan hekayələr fərdin daxili aləminin çox qatlı, hətta bəzən parçalanmış və ziddiyyətli hissələrdən ibarət olduğunu göstərir. Bunu Freydin "id", "ego" və "supereqo" arasındakı dinamiklərin və konfliktlərin ədəbiyyat vasitəsilə simvolik ifadəsi kimi qəbul edə bilərik.

Xuan Rulfonun əsərini Karl Qustav Yunqun arxitiplər nəzəriyyəsi kontekstində analiz etmək bizə əsərin mistik atmosferini və simvolik dərinliyini daha da aydınlaşdırmağa imkan verir. Biz burada bir neçə fərqli arxetipləri analiz etməyə çalışacağıq.

Yunqa görə insanın psixikası yalnız bir fərdin xatirələrindən ibarət deyildir. O, eyni zamanda bütün insanlığın təcrübəsinin simvolik izlərini, yəni arxitipləri özündə əks etdirir. "Pedro Paramo"da qaranlıq, bəzən kəskin mistik atmosfer, zamanın və məkanın qarışdığı bir reallıq, oxucunu fərdi şüurun kənarındakı, ümumbəşəri

simvolik qatlara aparır. Komala şəhəri və onun ətrafındakı ölü aləmi, yalnız fiziki bir məkan kimi deyil, eyni zamanda kollektiv qeyri-şüurun, repressed (basdırılmış) edilmiş xatirələrin, ortaq kədərin və günahın simvolik məkanı kimi başa düşülə bilər.

Ata arxetipi – Karl Qustav Yunqun analitik psixologiya nəzəriyyəsindəki əsas arxetiplərdən biri də ata arxetipidir. Bu arxetip atanın bioloji varlığından çox onun simvolik və psixoloji aspektlərinə diqqət yetirir. Ata arxetipi səlahiyyət, qoruma, rəhbərlik, nizam-intizam və müdriklik kimi anlayışlarla əlaqələndirilir. Bununla belə, hər arxetipdə olduğu kimi ata arxetipinində həm mənfi (qaranlıq), həm də müsbət (aydınlıq) tərəfləri vardır. Aydınlıq tərəflərinə qoruyucu, dəstəkləyici, ədalətli, ruhani rəhbər, asayişi təmin edən, güvən verən, inkişaf etdirən, təşvik edən, şərəfli, yolumuza işıq tutan, hikmətli, bilik ötürən və s. deyə bilərik. Qaranlıq tərəflərinə isə zalım, avtoritar, fərdin azadlığını məhdudlaşdıran, həddindən artıq sərt, despot, sevgisiz, cəzalandırıcı, qorxuducu, günahlandıran, məsafəli, soyuqqanlı, inkişafa mane olan və s. göstərmək olar. Ata arxetipi insan psixologiyası və mədəniyyətində dərin kök salmış güclü simvoldur. K.Q.Yunqa görə ata arxetipi fərdin daxili aləmində şüursuz olaraq mövcud olmağa davam edir. İnsanın həyatında ata fiquru ilə münasibətlərindən asılı olaraq bu arxetipi müxtəlif formalarda inkişaf edə bilər. Ata arxetipinə müasir ədəbiyyatda da tez-tez rast gəlmək mümkündür. Bu əsərlərdən biri də məhz Xuan Rulfonun "Pedro Paramo"əsəridir. "Pedro Paramo"da bu arxetip mənfi formada qarşımıza çıxır. Pedro Paramo əsərin əsas mərkəzi fiqurudur. Belə ki, bu obraz bazən tanrı, bəzənsə şeytan kimi çıxış edir. Bəzi tədqiqatçılar Pedro Paramonu Komala üçün bir "Tanrı Ata" fiquru (The God Father) kimi qəbul edirlər. Lakin o, xeyirxah, sevgi dolu və mərhəmətli bir Tanrı deyil, əksinə əlindəki gözəllikləri məhv edən, cəhənnəmi yaradan tirandır. O, bizə məlum olan klassik qoruyucu ata modelindən çox uzaqdır. Xuan Rulfo bu əsərində klassik ata arxetipini dekonstruksiya edir. Əsərdə Pedro Paramo tiran, avtoritar, istismarcı, duyğusuz və zalım bir ata kimi təsvir olunur. O, qoruyucu ata və müdrik yox, məhv edən avtoritardır. Və insanları bir araya gətirən yox, onları ayıran, parçalayan, məhvə məhkum edən ata arxetipinin qaranlıq tərəfini təmsil edir. Xuan Presiado üçün o, sadəcə uzaqlarda yaşayan, onu kiçik yaşlarından tərk etmiş birisidir. Sevgi və qayğı simvolu bir ata obrazı deyil. Yunqun nəzəriyyəsinə görə, insan öz fərdi kimliyini anlama prosesi zamanı tez-tez ata arxetipi ilə qarşılaşır [6]. Xuan Presiado atası Pedro Paramonu heç vaxt tanımamışdır. O, anasına verdiyi vədə əsasən atasını tapmaq üçün Komalaya gəlir. Biz bunu psixoloji baxımdan həm atanın kimliyini, həm də öz kimliyini anlamağa çalışan bir insanın arxetipik səyahəti kimi dəyərləndirə bilərik. Xuan üçün bu təkcə atasını tapmaq deyil, həm də mənəvi və psixoloji kimliyini anlamaq deməkdir. Ancaq Xuan Komalada atası ilə birbaşa qarşılaşmadan əvvəl onun zalımlığı və despotluğu ilə tanış olur. Gözləmədiyi bir halla qarşılaşan Xuan üçün bu olduqca sarsıdıcı və məhv edici olur. Təsadüfi deyil ki, o, atası ilə qarşılaşmamış şəhərdə dolaşan ruhların içində it-bat olur və ölür. Belə nəticəyə gələ

bilərik ki, atasının varlığı onun üçün qurtuluşdan çox ölümə səbəb olur. Onuda qeyd etmək lazımdır ki, o təkcə Xuan üçün yox, eyni zamanda kəndin bütün sakinləri üçün zalım "ata"dır. İnsanlara zülm edir, onları qarət edir, qadınları istismar edir və bir zamanlar cənnətə bənzədilən kəndin cəhənnəmə çevrilməsini sürətləndirir. Pedro fiziki olaraq nə qədər güclü görünsə də, daxilən tənha, duyğusuz və ölüdür. Onun sahib olduğu bu var-dövlət və güc onun üçün heç bir əhəmiyyət kəsb etmir. Gücünü və şəhər üzərindəki hakimiyyətini itirirən Pedro Paramo əsərin sonunda tək-tənha ölür. Bu müəyyən mənada atanın gücünün sarsılmasını, həmçinin patriarxal sistemin çökməsini simvolizə edir. Xuan Presiadonun da atası ilə qarşılaşmadan və danışmadan ölümü ata arxetipi ilə barışmayan bir insanın faciəsinə işarədir. Belə ki o, öz kimliyini – köklərini anlaya bilmədən məhv olur. Bu müəyyən mənada Meksika cəmiyyətində ata-oğul münasibətlərinin mürəkkəbliyinə, ata fiqurunun travmatik təsirinə işarə edə bilər.

Arxitipik səyahət və individuasiya prosesi – qəhrəmanın, yəni Xuan Presiado obrazının Komalaya səyahətini klassik qəhrəman arxitipinin (səyahətçi) müasir interpretasiyası kimi düşünmək mümkündür. O, itkin düşmüş kimliyini, atasının izlərini və şəxsi keçmişini tapmaq üçün yola çıxır. Bu səyahət, həm xarici dünyada, həm də daxili psixologiyada transformasiya və individuasiyalaşma prosesini simvolizə edir [7]. Eyni zamanda bu səyahəti həm xarici, həm daxili aləmin kəşfi, habelə unudulmuş və təkrarlanan xatirələrin, kollektiv kölgənin üzə çıxması kimi qiymətləndirmək mümükndür. Burada biz Komalanı şüuraltına bənzədə bilərik. Xuan öz atası ilə bağlı həqiqətləri axtararkən əslində öz psixikasının dərinliklərinə enir və burada onu məhvə aparan həqiqətlərlə qarşılaşır. Onu da qeyd etmək lazımdır ki, bu səyahət qəhrəmanın öz kölgəsi – unudulmuş şəxsiyyəti, basdırılmış duyğuları və kollektiv yaddaşın özündə cəmlədiyi pisliklərlə üzləşməsidir. Nəticədə bu səyahət daxili dəyişimin baş verməsi kimi də qəbul oluna bilər.

Kölgə – əsas arxetiplərdən biridir. Yunqun arxetiplər nəzəriyyəsində insanın basdırılmış, inkar olunmuş və ya fərdin şüurundan kənarda qalan qaranlıq tərəfi kölgə adlanır. "Pedro Paramo" əsərində bu anlayışı bir neçə hissədə müşahidə etmək mümkündür. Bunlardan ilki "Komala şəhəri və Kollektiv Kölgə"dir. Komala şəhəri yalnız fiziki bir məkan deyil, onu kollektiv kölgə kimi başa düşü bilərik. Bu şəhər əzəldən bəri Meksikanın tarixində yaşanmış bütün travmaların, günahların və inkar olunmuş reallıqların simvolik təcəssümüdür. Orada dolaşan ruhlar və səssiz mövcudluq, cəmiyyətin unudulmuş, ağlın tozlu rəflərinə qaldırılmış, basdırılmış hisslərinin, başqa sözlə kollektiv kölgənin təzahürüdür. Digəri "Pedro Pramo və Fərdi Kölgə" anlayışıdır. Əsərimizin baş qəhrəmanlarından biri olan Pedro Paramo güc və hakimiyyət simvolu olmaqla yanaşı, özündə həm də basdırılmış, qaranlıq tərəfləri daşıyan bir obrazdır. Onun zalım idarəetmə üsulları, fərdi və kollektiv şüurun dəhşətli, inkar edilmiş – pislik, yalan, ədalətsizlik, günah, xəyanət və s. kimi hislərin simvolik işarəsidir. Sonuncusu isə "Ölüm və Keçmişlə Qarşılaşma"dır. Əsərdə ölüm

hadisələrinin və keçmişin daim təkrar olunması, fərdlərin və cəmiyyətin basdırılmış hisləri ilə üzləşməli olduğunu göstərən əsas nüanslardan biridir. Bu fərdin kölgəsi ilə dialoqa girməsinin və ona inteqrasiya olunmasının zəruriliyini simvolizə edir.

Anima – Yunqun nəzəriyyəsində kişilərin daxili feminin enerjisini, yəni kişidəki qadın başlanğıcını ifadə edir. Qadın başlanğıcı dedikdə kişilərin müəyyən mənada duyğusal, intuitiv və yaradıcı tərəfi nəzərdə tutulur. "Pedro Paramo" əsərində animanı fərqli kontekslərdə müşahidə edirik. Pedro Paramo kimi xaricən güclü, daxilən aciz kişilər öz animalarını idealizasiya edərək real həyatdakı qadınlardan uzaq, xəyali ideal yaradırlar. Susana San Xuan bu mənada onların duyğusal ehtiyaclarını və basdırılmış arzularını simvolizə edir desək yanılmarıq. Susana təkcə sevilən və qorunan bir varlıq deyil, eyni zamanda kişinin daxili dünyasında unudulmuş, həssas və mürəkkəb hislərin təzahürüdür. Bundan savayı, Xuan Presiado başda olmaqla əsərdəki kişilər öz daxili dünyalarında və keçmişlərində güclü feminin təsirlərlə – sevgi, kədər, nostalji, həssaslıq, gözyaşı və s. ilə qarşılaşırlar. Bunu müəyyən mənada onların şüurunun dərinliklərindəki anima ilə əlaqələndirə bilərik. Unutulmuş və ya yarımçıq qalmış sevgi münasibətləri, zəif qadın obrazları kişilərin öz anima tərəfi ilə üzləşməsini və onu dərk etməsi təmsil edir. Bundan savayı əsərdə feminin simvollardanda istifadə olunur. Komalada dolaşan qadın səsləri və yaxud qadın personajların siluetləri buna misal ola bilər. Əslində bunlar kişilərin iç dünyasında olan duyğusal və intuisiya ilə dolu tərəfi simvolizə edir. Qadın obrazlarının Komalada ruh kimi dolaşmasını müəyyən mənada basdırılmış animanın metaforası olaraq qəbul edə bilərik. Kişilərin öz animaları ilə qarşılaşması, onların fərdi inkişafında və individuasiyalaşma prosesində mühüm rol oynayır. Əgər fərd öz animası ilə harmoniya qurub onu qəbullana bilsə o, öz duyğusal zənginliyini və yaradıcı potensialını kəşf edəcəkdir. Əks təqdirdə isə daxili konflikt və parçalanma yaşayacaqdır. Əsərimizdə bu, ruhların bir-biri ilə qarşılaşması və fərdlərin keçmişlə, duyğularla barışmağa çalışması şəklində əks olunur.

Animus – bu isə qadınlarda mövcud olan daxili maskulin enerjini, yəni qadınlarda olan kişi başlanğıcını təmsil edir. Analitik, məntiqli, qətiyyətli, iddialı, güclü və s. kimi keyfiyyətləri özündə birləşdirir. Qadınlar özlüyündə həm feminen incəliyi, həm də maskulin sərtliyi birləşdirə bilərlər. Əsərdə qadın personajlar ikinci dərəcəli olduğu üçün animusun izlərini tapmaq bir az çətindir. Əsərdə animus arxetipini biz daha çox Susana San Xuan obrazında görə bilərik. Susana azad ruhlu, sərbəst düşüncəli və heç bir kişiyə tabe olmayan bir xarakterə sahibdir. Klassik qadın qəhrəmanlardan fərqli olaraq o, öz daxili dünyasında daha çox güc və sərbəstlik hiss edir. O nə atasına, nə Pedro Paramoya, nə də Komalanın sosial qaydalarına boyun əymir. Bu mənada onun sərbəstliyi və duyğularına sahib çıxması, qətiyyətliliyi animusun qadın psixikasındakı göstəricisi kimi qəbul oluna bilər.

Nəticə. Beləliklə, Susana Pedronun gücünə və nüfuzuna baxmayaraq, ona tabe olmağı rədd edir. Onun hökmranlığını rədd edir. Bu nöqtəyi-nəzərdən onun azad

ruhlu, qorxusuz və emosional olaraq əlçatmaz olması animusun xüsusiyyətlərindən hesab oluna bilər.

Latınamerikan ədəbiyyatının incisi olan “Pedro Pramo” təkcə magik realistik elementləri özündə birləşdirən yox, eyni zamanda insan psixikasının dərinliklərinə enən, müxtəlif mifoloji və psixoanalitik qatlarla zəngin olan bir əsərdir. Əsər bizlərə insanın fərdi və kollektiv tramvalardan, uğursuzluqlardan qaçmağının əbəs olduğunu göstərir. İnsan basdırmış olduğu emosia və tramvalardan tamamilə qurtula bilməz. Bu duyğular gec-tez bizim qarşımıza fərqli formalarda çıxacaqdır. Əsərdəki obrazlar kollektiv şüursuzluğun “yaşayan yaddaş”ı kimi ortaya çıxaraq, oxucuya hər kəsin daxilində mövcud olan, buna baxmayaraq adətən qaranlıqda qalan hislərin – həyatın, ölümün, sevginin və acının simvolik görünüşünü təqdim edir.

Hər bir ruh keçmişin izləri, şəxsi, bəzənsə kollektiv "kölgə"nin elementləri ilə doludur. Bu, insan psixikasının müxtəlif hissələrinin bir-biri ilə dialoqu kimi qiymətləndirilə bilər.

Ədəbiyyat:

1.Əliyeva H. Psixoanaliz və Şekspir yaradıcılığı // Sim-Sim. 05/11/2022
2.Latın Amerikası romanı. Bakı: TM. 2019, 244s.
3.Rulfo J. Pedro Páramo. Barcelona. 2016.
4.Freyd Z. Psixoanalizlə ilkin tanışlıq. Bakı: Qanun. 2016. 160s.
5.Фрейд З. Введение в психоанализ. С.-П.: Питер. 2007. 190с.
6.Юнг К. Архетип и символ. Москва: Ренессанс. 1991. 124с.
7.Юнг К. Душа и миф: шесть архетипов. Киев: Государственная библиотека. 1996. 384 с.

Алиева Гамида Мухтар кызы

Проблема коллективной памяти и архетипов в романе Хуана Рульфо «Педро Парамо»

Резюме

В статье анализируется роман Хуана Рульфо «Педро Порамо» как путешествие в становление сознания и исследование его психологических слоев. Роман «Педро Порамо» анализируется в двух разных, но тесно связанных теоретических контекстах. В качестве методологических рамок используются теория архетипов Карла Густава Юнга и психоаналитическая теория Фрейда. Образы произведения отражают фрейдистские концепции подсознания, подавленных воспоминаний и инстинкта смерти, а также юнгианские архетипы тени, анимы, анимуса, отца и героя. Учитывая эти моменты, мы приходим к выводу, что роман оставляет след не только в мексиканской литературе, но и в глубинных слоях человеческой психологии.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.345-353

Хорошо известно, что психоаналитическая теория Фрейда предполагает чтение его произведений, особенно для того, чтобы глубже понять, как проявляются подавленные и неизвестные желания, чувства, травмы и конфликты. Руководствуясь этими принципами, мы проанализируем роман «Педро Парамо» через призму теории Фрейда и обращаем внимание на ряд важных моментов.

Ключевые слова: Хуан Рульфо, «Педро Парамо», коллективная память, архетип, роман

Aliyeva Hamida Muxtar

The problem of collective memory and archetypes in Juan Rulfo's novel "Pedro Paramo"

Summary

The article analyses Juan Rulfo's novel "Pedro Paramo" as a journey into the formation of consciousness and an exploration of its psychological layers. The novel "Pedro Páramo" is analysed in two different but closely related theoretical contexts. Carl Gustav Jung's theory of archetypes and Freud's psychoanalytic theory are used as methodological frameworks. The images of the work reflect the Freudian concepts of the subconscious, repressed memories and the death instinct, as well as the Jungian archetypes of the shadow, the anima, the animus, the father and the hero. Considering these points, we conclude that the novel leaves a mark not only on Mexican literature, but also on the deeper layers of human psychology.

It is well known that Freud's psychoanalytic theory involves reading his works, especially to gain a deeper understanding of how repressed and unknown desires, feelings, traumas and conflicts manifest themselves. Guided by these principles, we will analyse novel "Pedro Paramo" through the lens of Freud's theory and draw attention to a number of important points.

Keywords: Juan Rulfo, "Pedro Paramo", collective memory, archetyp, novel

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: professor, Həmidə Əhməd qızı Əliyeva
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 354-359

https://doi.org/10.62837/2025.4.354

SEVDA QASIMOVA
AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

QURBANİ VƏ AŞIQ YARADICILIĞI

Xülasə

Məqalədə Azərbaycan xalqının zəngin və mənəvi sərvəti olan aşıq yaradıcılığı haqqında ərtaflı məlumat verilir. Ümumən aşıq yaradıcılığında olduğu kimi, insanların dünyagörüşünü, dostluq, sədaqət, vətənə, ailəyə sevgi hisslərini tərənnüm edən şeirlərdə klassik forma ilə yanaşı, xalq ədəbiyyatı ünsürləri də araşdırılır. Folklora məxsus olan obrazlılıq, bədii dil, təbiilik aşıq ədəbiyyatı nümunələrində də başlıca şərt kimi görtərilir. Məqalədə ustad aşıqlar tərəfindən yaradılan dastanlar, aşıq şeirinin nümunələri haqqında aparılan təhlillər aşıq yaradıcılığı üslubuna əsaslanır. Bilirik ki, Qurbani xalq ədəbiyyatından bəhrələndiyi kimi, aşıq yaradıcılğının inişafında da əvəzsiz xidməti olan sənətkardır. "Aşıq yaradıcılığı və Qurbani" də məhz bu baxımdan diqqəti cəlb edir. Qurbaninin aşıq yaradıcılığı ənənələrinə, klassik irsə sadiq qalaraq yazdığı şeirlər aşıq mühitinə olan marağının nəticəsidir. Məqalədə bütün bu qənaətlər ümumiləşdirilir.

СЕВДА КАСЫМОВА

Гурбани и ашыгское творчество

Резюме

В статье представлены подробные сведения об ашыгском творчестве, которая является богатой и духовной ценностью азербайджанского народа. Как и в ашыгском творчестве, в целом, также в стихотворениях, которые воспевают мировоззрение людей, их чувства дружбы, верности, любви к Родине, семье, наряду с классической формой исследуются элементы народной литературы.

Образность, художественный язык, естественность, которые свойственны фольклору, также представляются как основное требование в образцах ашыгской литературы. В статье анализы эпосов, образцов ашыгской поэзии, которые были созданы мастерами-ашыгами основаны на стиле ашыгского творчества. Известно, что Гурбани является мастером слова, который обогащаясь за счет народной литературы, оказал неоценимую услугу в развитии ашыгского творчества. «Ашыгское творчество и Гурбани» привлекает внимание именно с этой же точки зрения. Стихи, которые были написаны Гурбани, оставаясь верным традициям ашыгского творчества, классического наследия, являются результатом интереса к ашыгской среде. В статье все эти выводы обобщаются.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.357-359

SEVDA GASIMOVA

GURBANİ AND ASHUG CREATIVITY

The article provides detailed information about ashug's creativity with the rich and moral wealth of the Azerbaijani people. In addition to the classic form in the poems who sing their love for the family, the elements of folk literature are also being investigated in general as ashug's creativity. The folklore images, literary language and naturalness is also as a key condition in samples of ashug literature. The epics created by master ashugs, analysis samples of ashug poems are based on the style of ashug creativity in the article. We know that as Gurbani benefited from folk literature is also a master who is an invaluable service in the development of ashug's creativity. In this regard, "Ashug creativity and Gurbani" attract attention. The poems written by Gurbani's classical heritage and ashug's creative traditions are the result of his interest in the ashug environment. All these results are generalized in the article.

Açar sözlər: aşıq yaradıcılığı, folklor, yazılı ədəbiyyat, atalar sözləri, dastan, Qurbani, elmi yenilik, xalq düşüncəsi, folklor düşünəsi, klassik ədəbiyyat

Ключевые слова: ашыгское творчество, фольклор, письменная литература, пословицы, эпос, Гурбани, научная новизна, народное мышление, фольклорное мышление, классическая литература

Keywords: ashug creativity, folklore, written literature, proverbs, epic, Gurbani, scientific innovation, people's thought, folklore thinking, classical literature

Aşıq yaradıcılığının folklorla yazılı ədəbiyyat arasında körpü rolu oynadığı hər birimizə məlumdur. Belə ki, bu yaradıcılığın bir qolu yazılı ədəbiyyata, digər qolu xalq ədəbiyyatına bağlıdır. Bununla hər iki ədəbiyyatın inkişafına böyük təkan olmuşdur. Çünki aşıq yaradıcılığı yazılı ədəbiyyatla qarşılıqlı təmas quraraq inkişaf etmişdir. Aşıq poeziyasının nümayəndələri xalq ədəbiyyatı ilə bahəm, yazılı ədəbiyatdan da bəhrələnmiş, u qaynaqlardan da qidalanmışlar. Həm də aşıq poeziyası üslubunda yazıb-yaradan sənətkarların yazılı ədəbiyyata müraciət etməyi onların yaradıcığının bədii ifadə vasitələri ilə zənginləşməsinə səbəb olmuşdur. Onu da qeyd edək ki, unudulmaqda olan bir çox aşıq poeziyası nümunələrinin, eləcə də dastan nümunələrinin itib-batmağının qarşısını məhz yazılı ədəbiyyatla olan bu qarşılıqlı əlaqə kəsmişdir, onları unudulmaq təhlükəsindən qurtarmışdır. Aşıq ədəbiyyatı nümunələrinin toplanıb yazıya alınması orta əsrlərin son yüzilliklərinə təsadüf etmiş, bəzi hallarda toplama işi nizamsız halda görülsə də, həm şifahi, həm də yazılı yolla qorunaraq dövrümüzə qədər gəlib çatmışdır. Adlarını hər zaman çəkdiyimiz həm məhəbbət, həm qəhrəmanlıq dastanların yaranmasında aşıqların böyük rolu olmuşdur. Bunun da tarixi erkən orta əsrlərə qədər gedib çıxır və bu sənətkarlar aşıq ədəbiyyatının görkəmli nümayəndələri hesab olunur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 354-359

"Dastani-Əhməd Hərami" və Əlinin "Qisseyi-Yusif" əsəri, Molla Qasım, Yunis Əmrə və Şah İsmayıl Xətai yaradıcılığı ilə özününün zirvə nöqtəsinə qalxan ana dilində yazılan poeziyamız xalq şeiri, aşıq şeiri üslubunda yazan M.V.Vidadinin və M.P. Vaqifin dövründə də eyni zirvədə dayanmışdır. Orta əsrlər aşıq şeiri üslubunda yaranan anadilli poeziya və aşıq ədəbiyyatında türklərin həyata baxışı, poetik duyumu, insana və ətraf aləmə münasibəti məhz qəhrəmanlıq dastanlarından başlayıb Yunis Əmrə və Əhməd Yasəvi, Məhəmməd Füzuli yaradıcılığına qədər inkişaf edən bir ənənədir. Klassik poeziya ilə xalq ədbiyyatını özündə ehtiva edən Məhəmməd Füzuli, Şah İsmayıl Xətai yolunun davamını aşıq ədəbiyyatına bağlı olan Dirili Qurban, Miskin Abdal layiqincə inişaf etdirib. Azərbaycan qədim və orta əsr poeziyası məhəbbətin tərənnnümünüə görrə seçilir. Aşıq şeirinin inkişafı və bu tərzdə poetik nümunələrin yazılması, bununla bahəm ədəbiyyata yeni nəfəs, ruh gətirmək asan deyildi. Bu cəhətdən Qurbani şeirləri diqqətimizi cəlb edir. Dirili Qurban (1477-1550) sənətkarlıq baxımından mükəmməl aşıq seiri nümunələrinin müəllifidir.

Elmi mənbələrdən də oxuyuruq ki, ozan-aşıq sənətinin mərhələləri məlumdur. Bunun ən bariz nümunəsi professor Nizami Xəlilovun tədqiqatlarında göstərilir: " Ozan-aşıq sənətinin yaranması, inkişafı və təkmilləşməsi prosesi bir neçə mərhələdən keçmişdir: 1. Çox qədim dövrlərdən başlayaraq XII əsrə, yəni Nizami dövrünə qədərki mərhələ. 2. XII yüzillikdən başlayaraq XVI yüzilliyə qədər olan mərhələ. Bu mərhələ ozanqopuz və aşıq-saz mərhələsi kimi özünü göstərmişdir. Hətta bu mərhələdə aşıq-saz üstünlük təşkil etmişdir. 3. XVI yüzillikdən başlayaraq müasir çağımıza qədərki mərhələdə qopuz-ozan tamamilə aradan çıxmış, aşıq-saz hökmranlıq etmişdir (2, 40)

Tədqiqatlardan da məlumdur ki, qopuz adlı musiqi aləti 12-13-cü əsrlərlə müqayisədə orta əsrlərdə daha çox inkişaf etmiş, o dövrdəki sazla eyniyyət təşkil edirdi. Təbii ki, sazın mizrabla çalışmağı isə onun özəlliyidir.

Tədqiqatçı alim R.Əliyevin də qeyd etdiyi kimi: "Klassik ədəbi dil ibtidai savadlı adamların başa düşməsi üçün çətin bir dil idi. Lakin bu ədəbi dil Azərbaycan xalqının orta əsrlərdə yaratdığı ədəbi, fəlsəfi, dini, elmi, tarixi əsərlərin dili kimi milli mədəniyyətimizin yaranmasında və sonrakı nəsillərə çadırılmasında misilsiz rol oynadı. Bu Azərbaycan mədəniyyətinin islami epoxasının, qızıl əsrlərin dilidir, qiymətsiz milli sərvətimizdir (1, 155).

Nəticə olaraq qənaətlərimizdən biri budur ki, Azərbaycan ədəbi-bədii dilinin inkişafında və formalaşmasında aşıq poeziyasının müstəsna xidmətləri var. Molla Qasım, Şah İsmayıl Xətai, Qurbani, Məhəmməd Əmani, Saleh Şirvani, Şikəstə Şirin, Molla Vəli Vidadi, Molla Pənah Vaqifin yaradıcılığında inkişaf edərək formalaşan ədəbi dilimiz klassik ədəbiyyatda özünün zirvə nöqtəsini yaşamışdır. Aşıq şeirinə məxsus olan söz və üslubiyyət klassik şeir nümunələrinə təsir etmişdir.

Şifahi xalq ədəbiyyatının inkişafında və zənginləşməsində böyük payı olan Qurbaninin bu gün ədəbiyyatımızda və insanların yaddaşında müəllifi olduğu və hə-

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.357-359

yatının, yaşadığı cəmiyyətin, hiss və duyğularının ifadə olunduğu xeyli sayda şeir nümunələri var. Hələ XVIII əsrdə təcnisin ən çox rast gəlindiyi mənbə Xəstə Qasımın yaradıcılığı olsa da, qeyd edək ki, bu şeir şəklinin ilk nümunələrini Molla Qasımın (XIII əsrin sonu XIV əvvəlləri) və Dirili Qurbanın (XVI əsr) yaradıcılığında görə bilərik.

Qurbaninin müəllifi olduğu "Yara yüz" təcnisi də fikirlərimizin bariz nümunəsidir:

Qurbani der: Munda gəldim yar üçün,
Kəs, kəs, kabab doğra bağrım, yar için,
Yar odur kim, yardan sonra yar üçün
Zülf dağıda, yaxa yırta, yara yüz! (5, 98)

Onu da xüsusi qeyd edək ki, hər sənətkara təcnis yazmaq qismət olmur. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Şəmkirli Hüseyn, Aşıq Ələsgər təcnisin ən orijinal nümunələrini yaratmışlar.

Yaddaşlara əbədi həkk olunan Qurbaninin şeirləri insanların hiss və duyğularını, keçirdiyi iztirabları, yaşayış və güzəranını ifadə edir. Bu şeirlərdə insanların ürəyinin döyüntüləri hiss edilir. Məhz buna görə deyilir Qurbani el sənətkarıdır. Yuxarıda da qeyd etmişik ki, Qurbani ozan-qopuz sənətinin aşıq-saz sənəti ilə əvəzləndiyi dövrün sözünü demiş el sənətkarıdır. Şah İsmayıl Xətainin sirdaşı, məsləkdaşı dövrünün ictimai-siyasi proseslərindən kənarda qalmamış, saz-sözü ilə bərabər, müəllifi olduğu bayatılarla da dirçəlişə öz töhfəsini vermişdir.

Əzizim Diri dağı,
Duman, gəl bürü dağı,
Burda bir qərib ölüb,
Yamandı diri dağı (5, 219)

Dağlara duman gələr,
Yağış gələr, çən gələr,
Müdam sazı çalanda,
Yadıma Pərim gələr (5, 220)

Qurbaninin şeirlərinin əsas xüsusiyyətlərindən biri obrazlılıq və bədiilikdir ki, bunları da nümunə göstərdiyimiz aşağıdakı "Gəldim" adlı gəraylıda aydın şəkildə görə bilirik:

Qurbanidir mənim adım,
Mövlamdan aldım uradım,
Sinəndi çarşım, bazarım,
Şəkərə, nabata gəldim (5, 38).

Bilirik ki, əsil sənət nümunələrinin bəzən çap olunmağına ehtiyac belə qalmır, onlar xalqın yaddaşında qorunub saxlanılır, nəsillərdən-nəsillərə ötürülür. Qur-

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 354-359

bani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Şəmkirli Hüseyn, Aşıq Ələsgər və digər aşıq poeziyasında öz sözünü demiş ustadların təcnisləri ilə bərabər, digər şeir nümunələri də bu günümüzə qədər gəlib çatmışdır.

Şifahi xalq ədəbiyyatının ən qədim incilərindən biri olan aşıq ədəbiyyatı nümunələri xalqımızın çox əsrlik tarixə malik təcrübəsi əsasında yaranıb formalaşmışdır. Bu poeziya nümunələrinin hər biri mənsub olduğu xalqın həyatını, güzəranını, təbiət və cəmiyyət hadisələrinə baxışını, xalqın keçdiyi tarixi yolu, poetik təfəkkür tərzini müxtəlif ölçüdə ifadə edir.

Akademik Muxtar Kazımoğlu "Xalq gülüşünün poetikası" əsərində yazır: "... Dinləyicini güldürüən aşıq həmin sənətkardır ki, "Dədə Qorqudun" müqəddiməsində bizə öyüd-nəsihət verir, eposun hər boyunu xeyir-dua ilə bitirir:

Yum verəyin, xanım!
Yerli qara dağların yıxılmasın,
Kölgəlicə qaba ağacların kəsilmsin!
Allah verən ümidin üzülməsin! (4, 98)

Məhz hər dəfə oxuduqda, tədqiq etdikdə yeni nəticələrin, fikirlərin yaranmasına görədir ki, aşıq ədəbiyyatı və buna bağlı olan tədqiqatlar həm folklorun, həm də yazılı ədəbiyyatın hər zaman gündəmində olan mövzularındandır. Folkloru yazılı ədəbiyyatdan, ya əksinə yazılı ədəiyyatı xalq yaradıcılığından ayrı təsəvvür etmək qeyri-mümkün olduğu kimi, düşünürük ki, aşıq ədəbiyyatını da hər ikisindən ayrı təhlil etmək səmərəli tədqiqat hesab olunmaz. "Kitabi-Dədə Qorqud" ədəbi abidəsi də özündən sonra yaranıb inkişaf etmiş folklor və yazılı ədəbiyyatın inişafına böyük təsir göstərmişdir.

Qurbani də həm aşıq, həm ustad kimi xalq hikmətinə istinad edən, onlardan bəhrələnən sənətkar olub. O, müəllifi olduğu qıfılbənddə və deyişmədə də bundan mahir şəkildə istifadə etmişdir:

O kimdi ki, dünyaya gəlməmişdən,
Onların şəkli var behiştdə,
Adəm də eylədi onlara səcdə,
Onların hesabın bilsən neçədi? (5, 103)

Qurbani xalq ədəbiyyatı nümunələrindən fərqli formalarda da istifadə etmişdir. Birincisi atalar sözləri və məsəllərdən olduğu kimi, öz orijinal variantını saxlamaq şərtilə əsərinə daxil etmiş, digər halda xalq ədəbiyyatı nümunələrində dəyişiklik aparmaqla, yəni məzmunu dəyişərək bəhrələnmişdir. Məsələn, "Bəyan eylədi" adlı cahannaməsində hikmətli sözün məzmununu saxlamaqla mükəmməl şəkildə onu əsərinə daxil etmişdir:

O səkkiz cənnətin biri baqidi,
Altmış üç məsəlin biri baqidi,
Mərifətullahdı, biri saqidi,
Altıncı qüsl bizi asan eylədi (5, 122).

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.357-359

Məhsuldar bir yaradıcılıq yolu keçmiş Qurbaninin aşıq ədəbiyyatının inkişafında əvəzsiz xidməti olumdur. O həm şair, həm də yaradıcı aşıq kimi dövrünün istedadlı sənətkarlarından hesab olunmuşdur. Aşıq şeirinə yeni ruh gətirərək onu xalqının mənəvi tələbatına çevirməyə nail olan ustad sənətkar klassik ədəbi irsin də ənənələrindən məharətlə faydalanmışdır.

Xalq dilinin xüsusiyyətləri, təbiilik və sadəlik kimi keyfiyyətlər Qurbaninin divan yaradıcılığına da xas olan özəlliklərdir.

Qurbani xalqın təfəkkür tərzinin bədii ifadəsi olan, həm də hər sənətkar tərəfindən yazılması məharət tələb edən divan janrına müraciət etmiş, onu əsl sənət nümunəsi kimi yüksək qiymətləndirmişdir:

Gərək biçarə Qurbani, sən bu cəbrə dözəsən,
Əl uzadıb o yasəmən bağdan bir gül üzəsən,
Yaşın yetirdin əlliyə, indi üz tut yüzə sən,
Əslimiz türabidəndir, məskənimiz kan gərək (5, 116).

Məlumdur ki, professor Qəzənfər Kazımovun elmi tədqiqat sahələrindən biri Azərbaycan aşıq şeirinin babası sayılan Qurbaninin poetik irsinin toplanması, tədqiqi və təhlilidir. O, aşığın əsərlərini toplayib çapa hazırlamış, həm doğma Azərbaycan, həm də rus dillərində geniş ön söz və qeydlərlə çap etdirmişdir. Aşığın həyat və yaradıcılığına dair 10-dan artıq elmi-kütləvi məqalənin müəllifidir: "Aşıq Qurbani və məzarı", "Diri kəndi və Qurbani", "Qurbani ənənələri", "Qurbani sənətkarlığı", "Qurbani təxəllüsü", "Qurbani və Xətai"və s. (3, 46).

Aşıq sənətinin inkişafında mühüm rolu olan aşıqlar haqqında hər dövrdə dastanlar deyilmiş, zaman keçdikcə yaddaşlara hopmuşdur. Qurbani də məhz bu cür sənətkarlardandır ki, adına, sözünə, şəxsiyyətinə böyük həcmli bir dastan qoşulmuşdur. Bu və digər dastanlar haqqında müxtəlif versiyalar var ki, dastanı aşıqlar məhz öz adlarına bağlı olaraq yaratmışlar, sonradan cilalanaraq, təkmilləşərək mükəmməllik qazanmışdır. Təbii ki, bunlar da araşdırma tələb edən mövzulardır. Lakin bu bir həqiqətdir ki, kim tərəfindən yaradılmasından asılı olmayaraq "Qurbani"dastanı daxil, "Xəstə Qasım", "Abbas və Gülgəz", "Yaxşı və aşıq", "Vaqifin dastanı", "Mahmud və Ağcaquş" və digər dastanlar ədəbiyyatımızın təməlində dayanan zəruri nümunələrdir.

Ədəbiyyat:

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim nəş., 2008, 360 s.
2. Xəlilov N. Heca vəzni və aşıq sənətinin yaranma tarixi. Bakı: BDU nəş., 2014, 132 s.
3. Kazımov Q. Seçilmiş əsərləri.I cild. Bakı: Nurlan nəş., 2008, 711 s. .
4. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm nəş., 2006, 268 s.
5. Qurbani. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb nəş., 2006, 232 s.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025

Rəyçi: filologiya üzrə fəslsəfə doktoru, dosent Sevinc Əliyeva tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 360-367

https://doi.org/10.62837/2025.4.360

SEVDA MƏHƏMMƏD QIZI VƏLİYEVA
Bakı Avrasiya Universiteti, magistr
e-mail: sevdav990@gmail.com
ORCID ID: https://orcid.org/0009-0007-1136-1185

SABİR ƏHMƏDLİNİN "AXİRƏT SEVDASI" ROMANINDA AXİRƏT

Annotasiya

"Axirət sevdası" romanı xalq yazıçısı Sabir Əhmədlinin ömrünün son illərində qələmə aldığı romanlarından biridir. Məqalədə göstərilir ki, Sabir Əhmədli müstəqilliyin verdiyi imkanlar çərçivəsində "Qarabağ" müharibəsinin şərtləndirdiyi zaman içində mistik bir mövzuya müraciət etmiş, ictimai şüurun növlərindən biri olan dini dünyagrüşün probleminə həsr olunmuş bir roman qələmə almışdır. Romanın əsas mövzusu şəhidlərimizin gedəcəyi yer olan sonuncu mənzil Axirət dünyası romanın əsas mövzusudur. Romanda müəllif axirət dərk etməyə çalışmaqla yanaşı onun mahiyyətini, insanların həyatında, mənəvi aləmdə oynadığı rolu əsaslandırmağa çalışmış və bu mövzunu bədii sənət səviyyəsinə qədər yüksəltməyi bacarmışdır.

Açar söz: axirət, Axirət sevdası, müstəqillik, roman, şəhid ruhu

Giriş

Xalq yazıçısı Sabir Əhmədli ədəbi fiqur kimi xoşbəxt yazıçılardandır. O, təqribən yaradıcılığının qırx illik bir dövrünü sovet cəmiyyətində qələmə alsa da, təqribən iyirmi ilini də müstəqillik dövrünə sərf etdi. Müstəqillik dövrü isə artıq başqa bir dövrdür. Onun istər ictimai-siyasi məzmunu, istər məişət zəmini və istərsə də müstəqillik dövrünün insanının cizgiləri, sovet dövrü insanından, cəmiyyətindən, məişətindən əsaslı surətdə fərqlənir. İlk baxışda adi insan bəlkə də bunları duymur, çünki xalq həmin xalq, milli dəyərlər də, əsasən, təqribən həmin dəyərlərdir. Lakin əslində istər cəmiyyət, istərsə də Azərbaycan insanı özü də hiss etmədən köklü şəkildə dəyişmiş, istər zaman, istər şəxsiyyət baxımından sovet insanından fərqlənmişdir. Sabir Əhmədli isə bir yazıçı kimi bu prosesi duymuş, müşahidə etmiş və ömrünün son illərində, müstəqillik dövründə qələmə aldığı "Axirət sevdası", "Kef", "Ömür urası", "Kütlə" və başqa əsərlərində bu prosesi olduqca real şəkildə, bütün çılpaqlığı ilə qələmə almışdır. Tənqidçi Elnarə Akimova yazır: "*Sabir Əhmədli bu dövrdə xalqımızın üzləşdiyi bəlaları nəsrə gətirən və bunu epik panaram təsvirləri ilə canlandıran nadir yazıçılardandır. Təsadüfi deyildir ki, bu illərdə yazıçının yaratdığı bütün əsərlər, onların mövzusu və əhatə dairəsi çağın diktə etdiyi reallıqlara adekvat olaraq yazılır. "Kütlə", "Yanvar hekayələri", "Axirət sevdası", "Kef", "Ömür urası" və ölümündən sonra çap olunan "Yazılmayan yazı" əsərləri Sabir Əhmədlinin bir yazıçı kimi ölkədə yaşanan situasiyalara həssas yazıçı*

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.360-367

baxışıdır. Meydan prosesləri, milli azadlıq hərəkatı, 20 Yanvar faciəsi, Qarabağ münaqişəsi, erməni təcavüzü, Sumqayıt hadisələri, qaçqınlıq problemi, yurd həsrəti motivləri və başqa bu kimi müharibənin ardınca gətirdiyi bəlalar çeşidi yazıçının əsərlərindən başlıca xətt olaraq keçir." (1, s. 4)

Sabir Əhmədlinin "Axirət sevdası" romanında şəhidlik ideyasının bədii təcəssümü

Dediyimiz kimi, müstəqillik dövrü başqa dövrdür və ötən dövrdən mahiyyət etibari ilə fərqlənir. Belə ki, müstəqillik dövründə Azərbaycan cəmiyyəti artıq başqa xüsusiyyətlər kəsb etdi. Cünki müstəqillik Azərbaycana dinclik və əmin-amanlıqla gəlmədi. Müharibə, qaçqınlıq, köçgünlük, aclıq, səfalət, qan-qada ilə gəldi. İctimai-siyasi vəziyyət dəyişdi və bu, həyatın bütün sahələrinə təsir etdiyi kimi, elmə, mədəniyyətə, etik-estetik dəyərlərə də təsirsiz ötüşmədi. Beləliklə, insan dəyişdi və ətrafını dəyişməyə başladı: hər şey dəyişdi - yeyib-içməkdən, geyim-keçimdən, maşından tutmuş şəhərə, binalara qədər. Təbii ki, ilk növbədə dəyişən və bilavasitə cəmiyyətə, zamana, zamanın yetişdirdiyi insana təsirsiz ötüşməyən ictimai şüur oldu. Xüsusilə, ictimai şüurun din anlayışı.

Məlumdur ki, Azərbaycan xalqı ən qədim zamanlardan müxtəlif dini inanclara tapınmış və bütün əsrlər boyu demək olar ki, öz tapındığı əqidəyə, islam dininə həmişə saf, təmiz, tolerant münasibət bəsləmişdir. Bu, əsrlər boyu belə olmuş, Azərbaycan xalqının əsrlər boyu heç bir digər dinin nümayəndəsi ilə konflikti olmamış, Azərbaycan vətəndaşı həmişə Allahına tapınmaqla bərabər, müxtəlif dini ayinləri, dini öhdəlikləri ləyaqətlə, vicdanla yerinə yetirmişdir. Din anlayışı hətta, bütün orta əsrlər Şərq, o cümlədən Azərbaycan poeziyasından qırmızı bir xətt kimi keçməklə bərabər, eyni zamanda, Azərbaycan insanının ideoloji dünyagörüşündən də əsas bir xətt kimi keçmiş və Azərbaycan insanı cəmiyyətdə yaşayarkən meyar tutduğu digər mənəvi dəyərlərlə yanaşı, ilk növbədə dini ideologiyaya söykənmiş, cəmiyyəti, onun problemlərini dinin verdiyi qayda-qanunlar, yasaqlar, icazələr prizmasından qəbul etmişdir. Ona görə də din Azərbaycan vətəndaşının həyatında həmişə mühüm rol oynamış və Azərbaycan vətəndaşı ilk növbədə bu meyardan çıxış edərək, cəmiyyətə, dünyaya, reallığa, gələcəyə qiymət vermişdir. Sadəcə olaraq, dinin Azərbaycanda mövcud olduğu təqribən 1300 il ərzində 70 illik sovet dövründə dini ideologiya, dini dünyagörüş bir qədər zəifləmiş və arxa plana keçmişdir. Əslində sovet ideologiyası nə qədər çalışsa da, dini inancları, Allah eşqini, peyğəmbər sevdasını, imam məhəbbətini insanların ürəyindən çıxara bilməmiş, sadəcə olaraq, bir qədər zəiflətmişdir. Lakin bütün bunlara baxmayaraq, xalq elə sovet dövründə də dini inamını, imanını qorumuş, öz dini təfəkkürünə xəyanət etməmişdir. Lakin, müstəqillik dövründə dinin cəmiyyətdəki rolu yenidən artmış, insanlar yenidən öz dini əqidələrinə, dini düşüncələrinə daha möhkəm bağlanmışlar. Doğrudur, bu prosesdə bəzən neqativ amillər, məsələn, müstəqilliyin verdiyi şərait nəticəsində Azərbaycana gələn, ayaq açan müxtəlif sektalar, cərəyanlar, məktəblər, təhsil

ocaqları müəyyən rol oynasalar da, amma əslində müstəqillik dövründə Azərbaycanda dini düşüncənin yenidən baş qaldırmasında və insanların yenidən heç bir təsirə uymadan, məruz qalmadan və yenidən illər boyu sürdürüb gələn saf dini duyğularına sarılmalarında sözsüz ki, ilk növbədə Azərbaycanda baş verən və təqribən 30 il müddətində davam edən, Azərbaycanın 40 minə yaxın cavanının, gəncinin həyatına son qoyan Qarabağ müharibəsi oldu. Təbii ki, Qarabağ müharibəsində təkcə şəhid olan şəhidimizin sayı 40 mindir. Əgər onların bütün ailə üzvlərini də hesab etsək, onların da nə şəkildəsə ziyan çəkdiklərini, hansı mənəvi-psixoloji sarsıntılar keçirtdiklərini nəzərə alsaq, onda müharibədən ziyan görmüş faktiki zərərçəkənlərin siyahısı milyonları ötmüş olar. Amma, təbii ki, bu statistika da həqiqəti əks etdirmir. Çünki bu müharibədən bütövlükdə Azərbaycan xalqı ziyan çəkmiş, zərər görmüş, bu ədalətsiz müharibəyə, tökülən qan-qadaya görə insanlara, beynəlxalq təşkilatlara, hərbi qüvvələrə sığındığı kimi, ilk növbədə Allah-Talaya da sığınmış, dini düşüncələrə dalmış, bütün yardımlarla bərabər, ilk növbədə əsas yardımı, əsas qayğını ulu yaradandan, Allah-Taaladan almaq istəmiş, bütövlükdə bu müharibənin mahiyyətini anlamağa çalışmış, şəhidlərin ruhu daima onları düşündürmüş, onlar haqqında hərə öz səviyyəsinə, düşüncəsinə, öz savadına görə müxtəlif mülahizələrə yer vermişlər. Və bu da istər-istəməz cəmiyyətdə dinin rolunu artırmış, hətta sovet dövründə bəzən qatı ateist olanlar belə, dini sentimentalizmə yuvarlanmışlar. Beləliklə, müstəqilliyin Azərbaycana ilk ayaq açdığı günlərdən etibarən, din cəmiyyətin həyatında mühüm rol oynamışdır. Və bu da istər-istəməz Azərbaycanın müstəqilliyinin ilk dövrlərində zamanı şərtləndirən, zamanın meydana çıxan ən mühüm xüsusiyyətlərdəndir ki, elə müstəqilliyimizin ilk illərində də xalq yazıçısı Sabir Əhmədli tərəfindən qələmə alınan "Axirət sevdası" romanında ədəbi müstəviyə çıxarılan istiqamətlərdən biri olmuşdur. "*Sabir Əhmədlinin 90-cı illər yaradıcılığı... onun milli azadlıq hərəkatına, Qarabağ münaqişəsinə, metafizik başlanğıca müraciəti ilə dolğunluq qazandı, dəyişən zaman və mühit kontekstində qəhrəmanın həyata, cəmiyyətə ümumbəşəri dəyərlər prizmasından yanaşması dunyadərk məqamı kimi mənalandı. Varlıq və yoxluq hüdudunda hərəkətə gələn ruhun ucalıq səviyyəsi nəsrimizin yeni estetik dəyər və ümumbəşəri kəsb etməsinə yol açdı"* (2, s. 23)

"Axirət sevdası" romanı oğlu Qarabağda, müharibədə şəhid olmuş bir atanın düşüncələridir. Məsələ burasındadır ki, bu düşüncələr atanın cəmiyyətin, yaşadığımız reallıqların problemlərini dərk etməyə çalışmaqla yanaşı, şəhidliyi, şəhid ruhunu, axirəti dərk etmək istəyini təsvir edir. Elnarə Akimova yazır: "*... Axirət sevdası" əsərinin əsas leytmotivini təşkil edən fanilik və əbədiyyət haqqında düşüncələr heç nahaq deyil. Vaqif Yusifli yazır: "Sabir Əhmədlinin "Axirət sevdası" romanı bu ata dərdini əbədiləşdirən bir əsər kimi yarandı. Bu roman "Ata ağrısı" da adlana bilərdi. İlk dəfə idi Azərbaycan bədii nəsrində Yazıçı – Atanın oğul itkisindən doğan dağ boyda dərdi ilə üzləşirdik".* (1, s. 5) Romandan nəticə etibarilə belə aydınlaşır ki,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.360-367

bütün bu acını-ağrını ürəyindən, cismindən, varlığından keçirən atanın axirəti dərk, qəbul etmək məcburiyyətindən başqa çarəsi qalmır. Bu ağrı, bu acı əslində elə bir dərddir ki, insan ancaq axirəti dərk etdikdən sonra, onun varlığına ruhən, qəlbən, həqiqətən inandıqdan sonra, hardasa müəyyən mənada rahatlıq, dinclik tapa bilər. Yoxsa, dinclik yoxdur. Məsələ burasındadır ki, bu amansız düşüncə, bu dərdlə yaşayan insanın son nəfəsi ağzından çıxana qədər onu izləyir. Buna görə də atanı ölüm düşündürür. Elnarə Akimova yazır: *"Axirət sevdası" və "Ömür urası"nda tale, ölüm, ruhun fəlsəfəsi, fanilik və əbədiyyət haqqındakı düşüncələr aparıcıdır. İtirdiyi torpağı ilə bağlı narahatlığını yanıqlı bir dillə qələmə alan yazıçı qəfil intonasiyanı, ritmi dəyişir və hadisələrin obyektivi müəllifin mənəvi yaşantılarının dərin qatına fokuslanır: " Məni ölüm düşündürür"! Bundan sonra daha çox fəlsəfi mündəricə önə keçir. Bu fəlsəfi düşüncə ilə yüklənmiş obraz yazıçının özüdür. Sabir Əhmədlinin yazıçı, vətəndaş, ata kimi duyğularını danışdırdığı əsərdir "Axirət sevdası". Roman boyu qəhrəmanın özünün daxili nitqi, şüur axını, irəli-geri zaman dönümlərinə sıçrayışları, oğlu Məhəmmədin itgisi ilə bağlı yaşadığı dərin psixoloji hissi sarsıntıları o qədər dərin işlənir ki, oxucu yazıçının şəxsi kədər və iztirabının fonunda bütöv vətənin yaralarını, portretini görür".* (1, s. 5) Sabir Əhmədli romanın ilk səhifələrində yazır:

" MƏNİ ÖLÜM DÜŞÜNDÜRÜR...

- Malik müəllim ! Dünya, varlıq, aləmlər barədə YENİ BİR BAXIŞA ehtiyac duyulur. Müsəlmanların ömür və Axirət kitabı Quran mənə keçmiş mərhələ, köhnəlmiş təki görünür. Məhəmməd Peyğəmbər dərin düşüncə, yüksək ağıl yiyəsi olsa da, indiki gözlə baxdıqda "ilahi vəhylər" bəsitdir..." (3, s. 6-7) Həqiqətən də, oğlu şəhid olan ataya, ölümü düşünən ataya vəhylər bəsit görünə bilər. Cünki vəhylər nə qədər də müqəddəs olursa-olsun, yenə də şəhidin bu dünyadakı varlığını əvəz edə bilmir. Atanı, nə qədər qəribə görünsə də, ancaq axirətin real varlığının dərki ovundura bilər. Ona görə də ata sonsuz bir maraqla, yanğıyla axirətin dərkinin axtarışındadır. *"Etiraf etmək xoşdur ki, bu gün bizim ən yaxşı əsərlərimizdə bədii surətləri, onların çoxcəhətli ictimai əlaqələri daxilində, ilk növbədə bir fərd kimi, mühiti, insanları, dünyamızı beynində və qəlbində yerləşdirmiş bir bəşər övladı kimi götürüb təhlil etmək aparıcı yer tutur."* (5, s. 85) Ata bəzən ən çətin sualların cavabını romanın digər qəhrəmanı, romanda ərəb dili müəllimi kimi təsvir olunan Malik müəllimdən almaq istəyir. Və bu mənada bəzən Malik müəllimə elə suallar verir ki, hətta ən savadlı din xadimləri belə bu sallara cavab verə bilmirlər. Ata isə sadəlöhvcəsinə hər ərəb dili müəlliminin bütün dini məsələləri də bildiyini güman etdiyindən, Malik müəllimi sual atəşinə tutaraq bəzən onu çətin vəziyyətdə qoyur. *"Psixoloji varlıq olan insanın içi, içəri dünyası şifahi məzmundan (sosial əhatədən) tutmuş, mənəvi-əxlaqi dəyərlərə, fəlsəfi sıraya (insan-varlıq, insan-dünya münasibətlərinə) qədər ən müxtəlif səviyyələrdə gəzişir, "öz həqiqətinə" yetməyə can atır."* (4, s. 288)

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 360-367

Sabir Əhmədlinin Axirət Sevdası Romanında atanın axirət axtarışı və Şəhidlik İdeyası

Maraqlıdır ki, hətta müəyyən mənada Quran da atanın bütün suallarına cavab vermir, onu təmin etmir. Yoxluqda oğlunu axtaran ata daha dərin qatlara enir: Ata ruha tapınmaq, sığınmaq istəyir. Başqa sözlə desək, ata oğlunun ölmədiyini, sadəcə olaraq başqa varlığa, ruha çevrildiyini qəbul etmək istəyir: yəni o yoxdur, doğrudur, fiziki cəhətdən yoxdur, amma ölməyib də, o, ruhdur, mövcuddur. Ata bu düşüncələrlə özünə təsəlli vermək istəyir. Ata istəyir ki, cənnəti, cəhənnəmi araşdırsın. Bu dünyadan gənc, nakam gedən oğlu heç olmasa o dünyada, cənnətdə xoşbəxtlik tapsın. O, buna əmin olmaq istəyir. Axı şəhidlərin yeri cənnətdir. Bu məqsədlə ata cənnətin təsvirini də gözlərinin qabağına gətirmək istəyir. Ata oğlunun getdiyi son mənzili detallarına qədər bilməyə, dərk etməyə, gözləri qarşısında canlandırmağa çalışır. Ona görə də ata bəzən bu dünyaya, özünün də yaşadığı dünyaya asi çıxir, onun ancaq zövqü səfadan başqa bir şey olmadığını söyləyir. Təki o biri dünya, cənnət, oğlunun getdiyi son mənzil, əbədi dünya gözəl olsun, qəşəng olsun.

Oğlunun yoxluğu atanı dünyaya, insanlara, hətta doğmalara qarşı belə adiləşdirir. Ata üçün dünyanın, doğmaların belə oğulsuz mənası yoxdur. Lakin atanın bir təsəllisi var. Gec-tez o da oğlunun gedəcəyi yerə gedəcək və onlar mütləq görüşəcəklər: *"Mən getməliyəm. Söz vermişəm. Məni oğlum gözləyir."* (3, s. 6-7) Bu mənada heç də təsadüfi deyil ki, ruha, şəhid ruhuna inanan Sabir Əhmədlinin Sovet İttifaqı Qəhrəmanı olan qardaşı Cəmil Əhmədovdan bəhs edən digər bir kitabının adı "Biz yenə görüşəcəyik" adlanır.

Romanda axirətin sevdalısına çevrilən, onu araşdıran, onu duyan, gələcəkdə axirətdə oğlu ilə mütləq şəkildə görüşəcəyinə inanan ata, bəzən zamanı qabaqlayaraq elə evlərindəcə xəyalən oğlu ilə görüşür, zamanı qabaqlayır, zamanı sındırır. Təbii ki, bu düşüncələr romanın ən ağır səhifələri, ən hüzünlü sətirləridir. Amma bütün bunlara baxmayaraq, roman bütövlükdə bədii bir əsərdir. Heç də təkcə oğlu şəhid olmuş atanın o dünya, axirət, ruhlar haqqında düşüncələrindən ibarət deyildir. Bu mənada, Sabir Əhmədli bir yazıçı kimi axirət haqqında düşüncələrini, şəhidlik haqqında fikirlərini, şəhidlik müsibətini nə qədər ustalıqla, böyük sənətkarlıqla qələmə alsa da, amma qələmə aldığı əsərə bir yazıçı mövqeyindən yanaşmış, təkcə bir atanın təəssüratı kimi münasibət bildirməmişdir. *"60-cı illər həyatının insanı daha çox konkret əməl və qayə adamı kimi göstərilməsini tələb edirdi. O, gah kənd, gah şəhər, məhəllə insanı olur, ggah da cəmiyyət insanı olaraq bir bucaqdan, bir prizmadan təsvirə götürülürdülər. Yeni dəbiyyat zahiri effektlikdən qaçaraq, insanın "iç" dünyasına onun psixologgiya və mənəviyyatına doğru tuşlanırdı. Elə bu səbəbdəndir ki, 60-cı illərdən sonra təzahür edən insan surətləri, qəhrəmanlar daha çox qəlb, mənəviyyat adamları kimi obrazlaşdırılırdı."* (5, s. 175) Hər halda əsərin baş qəhrəmanı olan ata romandan göründüyü kimi nə qədər axirəti, o biri dünyanı,

ruhlar aləmini araşdırsa da, hər halda özü də canlı bir insandır. Xüsusilə, elə bir insandır ki, ömrünün böyük bir hissəsini sovet dövründə, sovet cəmiyyətində, ateizm şəraitində, dövlətin rəsmi şəkildə elan etdiyi dinsizlik çərçivələrində başa vurmuşdur. Bu mənada, o, müstəqilliyin verdiyi imkanlar çərçivəsində nə qədər dini hisslərə qapılsa da, hər halda onun fikirlərində o dünya haqqında, axirət haqqında düşüncələrində bir inamsızlıq, hətta belə demək mümkünsə, yüngül bir istehza da hiss olunur. Hər halda ata ruhlar aləminə nə qədər mistik bir varlıq kimi inanmağa çalışsa da, dini ədəbiyyatın, dini məfhumların verdiyi məlumatlara əsasən o biri dünyanın real atributları hesab etdiyi cənnətin nemətlərindən sayılan bildirçin qovurmasına, qüdrət halvasına, yumurtaya bənzər gözəllərə bir qədər ironik münasibət bildirir. Bütün bunlar həqiqətən də "Axirət sevdası" əsərinə bir roman xüsusiyyətləri, roman cizgiləri verməkdədir. Çünki roman həqiqətən də, şəxsi təəssüratlardan, şəxsi düşüncələrdən fərqlənməli, təkcə bir şəxsin deyil, bir müəllifin deyil, cəmiyyətin qoyulan problem haqqında ümumi nəticəsi kimi meydana çıxmalıdır. Bu baxımdan, Sabir Əhmədli, həqiqətən də, bir roman ustası kimi xırda cizgilərlə də olsa qaldırdığı problemi ustalıqla romana çevirə bilmiş və axirət haqqında bütün cəmiyyətin, o cümlədən, demək olar ki, bütün şəhidlərin əzizlərinin düşüncələrini ifadə etməyi bacarmışdır.

Nəticə

"Axirət sevdası"nda müəllifi axirətin düşündürdüyü məqam zaman baxımından nə qədər maraqlı olsa da, müstəqilliyimizin ilk dövrlərində dini azadlığın insanlara verdiyi demokratik düşüncə tərzi də romandan bir xətt kimi keçir. Əgər yetmiş illik sovet dövründə dini düşüncə hardasa bir qədər qapalı şəkildə, məhdud formada, müxtəlif tərəddüdlərlə müşayiət olunurdusa, artıq müstəqillik dövründə demokratiyanın verdiyi imkanlar çərçivəsində cəmiyyətin müxtəlif qatlarına mənsub olan insanlar çəkinmədən, dərin, hətta alimlərin, ilahiyyatçıların özlərinin belə bəzən baş çıxartmadıqları, çaşıb qaldıqları mövzulara qorxmadan girişir, onları aydınlaşdırmağa, təhlil etməyə çalışırlar. Bu mənada, "Axirət sevdası" romanında axirəti düşünən kişi ilə axirəti izah etməyə çalışan müəllim arasında dialoqlar, diskussiyalar, təhlillər olduqca maraqlıdır. Axirəti düşünmək ümumiyyətlə, nə qədər ağır, həzin bir hiss olsa da, müəllif hər halda bu zamana enmək istəyir, onun mahiyyəti, ən əsası isə zamanı haqqında bilgilər alıb, onu öz təfəkküründən keçirib oxuculara çatdırmaq istəyir. Həqiqətən də çətin məqamdır. Axirət haqqında onsuz da biliklərin az olması, bəzən müəllimlə əsərin qəhrəmanı arasında anlaşılmazlıqların baş verməsinə də səbəb olur. Lakin bütövlükdə problemin qoyuluşu, müəllifin axirəti dərk etmək istəyi romanın əsas aparıcı xəttinə çevrilərək, onun məzmununu, mahiyyətini şərtləndirir. Və bütün roman şərtlərilə bərabər qələmə alındığı dövrün, zamanın əsas probleminə çevrilən axirət məsələsi bəlkə də müstəqillik dövrü ədəbiyyatımızda qoyulan ən uğurlu və cəmiyyətin mənəvi tələbatını ödəməyə yönələn əsas ideyalardan biridir. Çünki təqribən 20-30 min şəhid verdiyimiz Qarabağ

müharibəsi bu mövzunu aktuallaşdırır və cəmiyyətimizin əsas suallarından birinə çevrilirdi. Bu mənada, ilahiyyat elmimizin izah etməkdə çətinlik çəkdiyi bir məsələni Sabir Əhmədli bir yazıçı kimi dərindən duyur, cəmiyyət üçün lazımlı olduğunu bilib, onu bədii şəkildə həll etməyə çalışırdı.

Ədəbiyyat siyahısı

1. Akimova, E. (2020, İyul 11). Ömrün urasında yaşanan və yazılanlar. *Ədəbiyyat qəzeti* s. 4-5
2. Akimova, E. (2020, İyul 4). Sabir Əhmədli – iki epoxanın yazarı. *Ədəbiyyat qəzeti* s. 23
3. Əhmədli, S. (2003). *Axirət sevdası*. Bakı: Ozan
4. Əlişanoğlu, T. (2006). *XX əsr Azərbaycan nəsrinin poetikası*. Bakı: Elm.
5. Əzimova, T., & Babayeva, M. (2017). *Azərbaycan ədəbiyyatı tarixi: Müasir dövr* (Dərs vəsaiti). Bakı: ADPU Nəşriyyatı
6. Nəbiyev, B. (1987). *Roman və müasir qəhrəman*. Bakı: Yazıçı

SEVDA MAHAMMAD QIZI VALIYEVA
Baku Eurasian University, Master's Student
e-mail: sevdav990@gmail.com
ORCID ID: https://orcid.org/0009-0007-1136-1185

THE CONSEPT OF THE AFTERLIFE IN SABIR AHMADLI'S NOVEL "AXIRAT SEVDASI"

Abstract. The novel Longing for the Afterlife is among the works authored by People's Writer Sabir Ahmadli during the final years of his creative activity. The article emphasizes that, taking advantage of the opportunities presented by independence, Sabir Ahmadli turned to a mystical theme shaped by the realities of the Karabakh war and composed a novel dedicated to the exploration of religious worldview as a form of social consciousness. The principal theme of the novel is the afterlife — the ultimate abode of fallen martyrs. The author seeks not only to comprehend the notion of the afterlife but also to substantiate its essence and its role in human existence and spiritual life, elevating the subject to the level of high artistic interpretation.

Keywords: afterlife, *Axirət Sevdası*, independence, novel, martyr's soul

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.360-367

СЕВДА МАМАД КЫЗЫ ВАЛИЕВА
Бакинский Евразийский университет, магистрант
e-mail: sevdav990@gmail.com
ORCID ID: https://orcid.org/0009-0007-1136-1185

В РОМАНЕ САБИРА АХМЕДЛИ "АХИРАТ СЕВДАСЫ" ПОНЯТИЕ ЗАГРОБНАЯ ЖИЗНЬ

Резюме. Роман «Стремление к загробной жизни» является одним из произведений, созданных народным писателем Сабиром Ахмедли в последние годы его творчества. В статье подчеркивается, что, воспользовавшись возможностями, открывшимися в условиях независимости, Сабир Ахмедли обратился к мистической тематике, определяемой реалиями Карабахской войны, и написал роман, посвящённый исследованию религиозного мировоззрения как одной из форм общественного сознания. Основной темой произведения является мир загробной жизни — последнее пристанище павших мучеников. Автор стремится не только осмыслить концепцию загробного существования, но и обосновать его сущность и роль в духовной жизни человека, поднимая данный вопрос до уровня высокохудожественного осмысления.

Ключевые слова: загробная жизнь, *Axirət Sevdası*, независимость, роман, душа шахида

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: professor Tərlan Quliyev
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 368-373

https://doi.org/10.62837/2025.4.368

NAZƏNDƏ SABIR QIZI HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti Publik Hüquqi Şəxs
nazende.haciyeva1960@mail.ru

ƏFSANƏVİ MEMARLIQ ABİDƏLƏRİNİN AZƏRBAYCAN ƏDƏBİYYATINDA BƏDİİ ƏKSİ

Açar sözlər: ədəbiyyat, əfsanə, məhəbbət, memarlıq, qəhrəman, poema, mövzu
Ключевые слова: литература, воспевание, любовь, наследие, поэт, исследования, перевод
Keywords: literature, legend, love, architecture, hero, poem, theme

Əfsanə əsasında yalnız şairlərimiz deyil, yazıçılarımız da qələmlərini sınamış, Y.V.Çəmənzəminli "Qızlar bulağı" povestini yazmışdır. C.Cabbarlı "Qız qalası" ilə XX əsrin 20-ci illərində ilk dəfə əfsanəvi poemanın əsasını qoymuşdur. Lakin povesdə Azərbaycanın qədim əfsanəsinə müraciət edilmişdirsə, poemada vaxtilə Bakıda baş verən hadisələrin şahidi olan, hər bir daşının altında şəhərin saysız-hesabsız sirri gizslənən tarixin daş məbədi -"Qız qalası" memarlıq abidəsi mövzu seçilmiş və bununla Azərbaycan Sovet dövrü poemalarının ilk romantik, "bədii və ideya cəhətdən mükəmməl" nümunəsi yaranmışdır. M.Arifin dediyi kimi, geniş romantik xəyal C.Cabbarlını tarixi zəmindən uzaqlaşdırmamışdır. Durna simasında şair mücərrəd, fövqəlbəşər və qeyri tarixi bir insan deyil, Azərbaycan xalqı, torpağı və milli ənənələri ilə bağlı olan bir şəxsiyyət yaratmışdır. C.Cabbarlı bu əsəri ilə şairi yeni yola çəkmiş, onların diqqətini Azərbaycanın, o cümlədən də ölkənin müxtəlif guşələrində mövcud olan abidələri tərənnümə cəlb etmişdir. M.Müşfiqin "Çoban əfsanəsi", S.Vurğunun "Qız qalası", "Qırx qız" və s. əsərləri tarixi abidələrdə bağlı poema yaradıcılığı sahəsində şerimizin sonrakı təcrübələridir. Bu poemaların ideya məzmununda, obrazlılığında, hadisənin təsviri üsulunda yaxşı cəhətlər vardır. Belə ki, bunların əksəriyyəti Azərbaycan qadınlarının acınacaqlı həyatına həsr edilmişdir. Onlarda üsyankarlıq, həyat eşqi, namus, inam və etiqad, cəsurluq, qormazlar kimi yüksək insani sifətlər tərənnüm olunur.

Tarixi abidələrlə əlaqədar yaranan epi-lirik əsərlər içərisində, şübhəsiz, ən mükəmməl və ideya-bədii məzmun etibarilə mürəkkəb olan "Qız qalası" poemasıdır. Lakin əsərin əhəmiyyəti yalnız bunla birmir. "Qız qalası"-yazıçının yaradıcılıq təşəkkülünün bir sıra xüsusiyyətlərini ifadə etmək nöqteyi-nəzərdən də əhəmiyyətli, əsərdir. Onda C.Cabbarlının yeni mövzu axtarmış, yeni qəhrəman axtarmışı, milli gerçəkliyi, yeni dünyagörüşü işığında əks etmək səyləri ifadəsini tapmışdır. Sonralar

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.368-373

bilavasitə müasir yaradıcılığının başlanğıcında tarixi əfsanəvi materialı işləmişdir. Onun yeni mövzu və qəhrəman axtarışı bundan –"Qız qalası"ndan başlanır.

Ədəbiyyatşünas H.Orucəli "Poemalarımız haqqında" məqaləsində göstərir ki, C.Cabbarlı "Qız qalası" poemasında... Azərbaycanın orta əsr həyətının valehedici romantik mənzərəsini canlandırmışdır, müəllifin fikri ilə razılaşmaq çətindir. Çünki "Qız qalası"ndakı hadisə heç də orta əsrdə deyil, ehtimal ki, çox-çox əvvəlki dövlərdə baş vermişdir və bir sıra mənbələr də bunu sübut edir". [1, 83]

Prof. C.Xəndan da "Qız qalası" poemasından danışarkən belə qənaətə gəlmişdir ki, "Cabbarlı bu tarixi əfsanənin poemasında müstəbidlərə qarşı dərin nifrət oyadır". [2,136] Əvvəla, demək lazımdır ki, "müstəbidlərə qarşı dərin nifrət oyadır" sözləri yerinə görə dürüst məna vermir. Müstəbid sözünün özü, zalım, zülmkar, despot mənasını daşıyır. Lakin Qantemir qızını sevməkdə zalımlıq, zülümkarlıq, despotluq görmür. "Qız qalası" haqqında yaradılan əfsanələrin əksəriyyətində oddan və "atanın qızına evlənməsi"ndən daha çox danışılır və bu adət sasanilər hakimiyyəti dövrünə aid edilir və bu barədə bir çox əfsanə vardır. Bu əfsanələrdən birində poemada olduğu kimi, arvadı ölmüş xan Durna ilə evlənməyə cəhd edir. Qızın özünü qalanın bürcündən dənizə atması hadisəsi prof. M.H.Təhmasibin qələmə alıb 1959-cu ildə çap etdirdiyi əfsanədə var və orada deyilir ki, qala dənizin ortasında iki ilə tikilir. [3,206] "İki il bəkləlim ki, son bir gün..." misrası da poemanın bu əfsanəyə yaxınlığını göstərir. Bizə elə gəlir ki, bu əfsanə C.Cabbarlının fikrini daha çox məşğul etmiş və o, bir sənətkar kimi eşitdiyi bu hadisənin məzmunu əsasında poema yazmışdır. Onun "qız qalası" poemasında təsvir etdiyi qan qohumlarının evlənməsi kimi rəbahəti Azərbaycan xalqına məxsus olmayan bir sıra tarixi sənədlər təsdiqləyir. Yeni eranın təxminən 190-cı ilində anadan olması güman edilən I Ərdəşir Papakan oğlu öz doğma bacısı Denakla evlənmiş və onu baş hərəm kimi tanımışdır. [4, 37] İngilis yazıçısı Pers Bişi Şelli də (1792-1822) "Çemçi" (1819 may-avqust) faciəsinin mövzusunu 1599-cu ildə VIII papa Elementin vaxtında baş verən rəbahətli bir hadisədən götürmüşdür. Faciədə Fransesko Çençi adlı bir Roma feodalının doğma qızı Beatriçaya evləndiyi təsvir edilmişdir. "Nart" eposunda da qədim motiv olan qardaşla bacının evlənməsi süjetin əsasında durur. [5,417] Emosda Satan (Şatan) qardaşı Urızmağın onunla evlənməsini təklif edir. S.Vurğunun "Ölən məhəbbət" poemasının mövzusunu da "Nart" eposundakı əhvalatı xatırladır. Lakin "Nart" da matriarxal, "Ölən məhəbbət" də patriarxal adət əsas yer tutur və zamanca bir-birindən çox uzaq olan bu əsərlərdə təsvir edilən qızların ikisi də cazibəlidir. "Nart" eposunda deyilir ki, "Satananın üzü elə bil günəş idi. O elə gözəl idi ki. Qaranlıq otağın küncünü, zülmət gecəni ulduz kimi işıqlandırırdı." "Ölən məhəbbət" də oxuyurduq.

Heyrandır hüsnünə göydə buludlar,
Yanağı lalədən daha qırmızı.
Günəşin yavrusu o dağlar qızı.

"Ölən məhəbbətdə"də Eldəniz bacısından onun arvadı olmasına razılıq istəyir. "Nart" eposunda da Satan (Şatan) qardaşı Uruzmağa onunla evlənməsini təklif edir. "Nart" eposunda qadın azaddır. "Ölən məhəbbət" də isə yox. "Nart" eposunun qəhrəmanı Satan qardaşının arvadı olur, arzusuna yetir. "ölən məhəbbət" poemasında dağlar çobanını sevən qız istəyinə çatmır, patrialxal mühit onu məhv edir. Ancaq qan qohumluğu əsasında evlənmə "Qafqaz xalqı üçün qədimdən başlayar indiyədək heç zaman xarakterik olmamışdır". "Nart" eposunda olduğu kimi "Qız qalası" və "Ölən məhəbbət"də tərəflər qarşılaşır. "Nart"da qardaş bacısına, "Qız qalası"nda Durna atasına, "Ölən məhəbbət"də isə qız qardaşına nəsihət edir.

Qardaşım Eldcniz. Bir məni dinlə
Deyilsən özgəsi, öz qardaşımsan,
Körpəlikdən bəri ilk sirdaşımsan,
...Əmdik bir ananın ilğq südünü. [6, 297]

"İbtidai dövrdə... əxlaq buna yol verirdi". Müqəddəs Ərdəviraz özünün yeddi bacısı ilə evlənmişdi. Belə adamlar "tənasüx məzhəbinə və ruhun bir bədəndən başqa bədənə köçməsinə inanırdılar". Tənasül məzhəbinə görə ruh insandan heyvana və əksinə heyvandan insana keçir. Elə buna əsasən demək olar ki, poemada Qantemirin Durnaya vurulmasından tənasüx məzhəbi əsas rol oynamışdır. Mərhum professor V.Vəliyev yazır ki; Cabbarlının poemasında vaxtı ilə atəşpərəstlik dövründə "müqəddəs əməl" hesab edilən "atanın öz qızına evlənməsi" məsələsinə toxunulmur. Doğrudur, poemada atanın qızına evlənməsi deyil, evlənmək istəməsindən danışılır. Tantemir- "Onu qorxutmayırdı atəşhgah... tapadarmayırdı bir allah". [7, 84] Deməli, atəşgah qan qohumları ilə evlənməni qadağan etmişdir. Onda belə bir nəticə alınır ki, C.Cabbarlının "Qız qalası"nda təsvir etdiyi bu əhvalat atəşpərəstliklə bağlı deyildir.

C.Cabbarlı "Qız qalası"nda əfsanə materialını bilavasitə real-tarixi gerçəklik kimi təqdim etməyə çalışşmır, burada mövzu da, zaman da şərtidir, belə ki, hadisələr asanlıqla "Qız qalası" aləmindən keçib bakirəlik, alınmazlıq, fəth edilməzlik rəmzi olan "Göz qalası" dünyasında: bu qədim abidənin tarixi üzərində dayanır. Bu da əsas verir deyək ki, "Qız qalası"nda C.Cabbarlının bədii düşüncəsi üçün səciyyəvi olan bu əfsanəyə onu sadəcə süjet çərçivəsində maraqlandırır.

C.Cabbarlı poemanı yazmamışdan əvvəl yalnız tarixi sənədlərlə deyil, əfsanələrlə də tanış olmuşdur. Poemada Qantemir ehtiraslarının əsiridir. Durna sadəlövh, romantik səmimi, sentimental bir qızdır. O, ilk anlarda real düşünə bilmir. Hisslər burulğanından yaxasını qurtarmaqda acizləşir...

Bütün bu deyilənlər sübut edir ki, C.Cabbarlının poeması tamamilə yeni estetik konsepsiyanı ifadə edir. O, əfsanədən istifadə yolu ilə elə bir romantik poema yaratmışdır. Ki, onun süjetinin əsasını müstəsna hadisələr, müstəsna qəhrəmanlar təşkil edir. İki cildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"ndə bu cəhətə düzgün olaraq işarə edilmişdi və xüsusilə Durna surətinin təsvirində romantik rənglərin

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.368-373

parlaqlığı, cazibədarlığı poemanın poetik xüsusiyyətlərindən biri kimi səciyyələndirilmişdir. Doğrudan da, C.Cabbarlı Durna vasitəsi ilə qadın gözəlliyini xüsusi bir ehtirasda təsvir etmişdir. Bu gözəllik Qantemirin ağlını başından çıxartmışdır. Deməli, "Qız qalası" poemasında nə məhəbbət, nə də tam mənasında atəşpərəstliyin ünvanınsa ehtimal edilən bu çirkin adətin tərənnümü deyil, qadın gözəlliyi, qalanın qədimliyi, xalqın maddi mədəniyyəti tarixi, zövqü, mübarizəsi, qüdrəti təsvir obyektinə çevrilmişdir.

Ümumiyyətlə, 20-ci illərin epik-lirik şerini nəzərdən keçirsək, mövzusu şifahi ədəbiyyatla bağlı "Qız qalası" poemasının əsas qəhrəmanı Durna mənəvi cəhətdən uca və ülvi məhəbbətə malik namuslu bir qız kimi hörmətə layiqdir. O, böyük və qüdrətli eşqin əzablarına dözür: dənizin səsi, Ayın işığı onun romantik ruhunu oxşayır. Bütün bunlara yekun vuran Qantemir: "Mən fəqət bu gözəlliyi sevərim" sözlərilə ədəbiyyatşünasların onun özü haqqında olan mülahizələrinə əsaslı düzəliş verir.

Poemada dil və üslub cəhətdən müəyyən nöqsanlar da nəzərə çarpır. Bədii təsvir vasitələri, yeni söz yaratmaq təşəbbüsü, bəzi təşbehlərin köhnəliyi bu qəribəliyin təzahürü idi. C.Cabbarlının Azərbaycan dilinin təmizliyi uğrunda apardığı mübarizə "Qız qalası"nda müsbət nəticə vermədi.

Seviyor, həp nasıl ki, bir sevici,
Yürüyor ixtiyarsız, ölgün,
Yürüyor kəndi-kəndinə küskün,
...Ölüyor partlıyor, yenə sevoyor
Yürüyor, inliyor, yenə yürüyor.

Onu da deyək ki, o zaman bu sözlərin bədii əsərin dilində işlədilməsi nurizm hadisəsilə əlaqədar idi. İdeyanın açılmasına mənfi təsir göstərməyən bu ifadələr obrazın aləmini zəiflətmir, poemanın yüksək poetik dəyərini aşağı salmır. Bütün bunlardan sonra belə qənaətə gəlmək olar ki, C.Cabbarlı dil məsələsinə biganə qalmamış, "Qız qalası" poemasından sonra yazdığı əsərlərində bu istiqamətdə daha düzgün yol seçmişdir.

Əlbəttə, "Qız qalası" C.cabbarlının yaradıcılıq çətinliklərini də üzə çıxarırdı. M.Arifə görə 20-ci illərdə C.Cabbarlı birdən birə öz mövzusunu tapa bilməzdi. Bunun üçün müəyyən vaxt və təcrübə tələb olunurdu. Lakin C.Cabbarlının üstünlüyü onda idi ki, yeni dövrün bədii yaradıcılıq ideallarını mənimsəmək prosesi onda uzun çəkmədi.

Ədəbiyyat:

1. Hacıyev Cəfər Xəndan. "Azərbaycan sovet ədəbiyyatı". Azənəşr, Bakı, 1951, səh 83.
2. Bax: "Azərbaycan" jurnalı, 1959, № 12, səh 136
3. S. Vurğun. Əsərləri, III cild, Azərb. SSR EA Nəşriyyatı, Bakı, 1961.səh 206-207

4. F.Engels. "Ailənin xüsusi mülkiyyətin və dövlətin mənşəyi" Bakı Azərnəşr. 1971, səh 37
5. İbn-Əl-Əsir. "Əl-kamil-fi-tarix". Azərb. SSR EA Nəşriyyatı, Bakı 1959, səh. 417
6. V.Vəliyev. "Azərbaycan şifahi xalq ədəbiyyatı" ADU nəşriyyatı, Bakı 1970, səh 297
7. «Azərbaycan sovet ədəbiyyatı tarixi". Azərb. SSR, EA, Nəşriyyatı, I cild, Bakı 1967. Səh 84

Xülasə

ƏFSANƏVİ MEMARLIQ ABİDƏLƏRİNİN AZƏRBAYCAN ƏDƏBİYYATINDA BƏDİİ ƏKSİ

Əfsanə əsasında yalnız şairlərimiz deyil, yazıçılarımız da qələmlərini sınamış, Y.V.Çəmənzəminli "Qızlar bulağı" povestini yazmışdır. C.Cabbarlı "Qız qalası" ilə XX əsrin 20-ci illərində ilk dəfə əfsanəvi poemanın əsasını qoymuşdur. Lakin povesdə Azərbaycanın qədim əfsanəsinə müraciət edilmişdirsə, poemada vaxtilə Bakıda baş verən hadisələrin şahidi olan, hər bir daşının altında şəhərin saysız-hesabsız sirri gizslənən tarixin daş məbədi -"Qız qalası" memarlıq abidəsi mövzu seçilmiş və bununla Azərbaycan Sovet dövrü poemalarının ilk romantik, "bədii və ideya cəhətdən mükəmməl" nümunəsi yaranmışdır. M.Arifin dediyi kimi, geniş romantik xəyal C.Cabbarlını tarixi zəmindən uzaqlaşdırmamışdır. Durna simasında şair mücərrəd, fövqəlbəşər və qeyri tarixi bir insan deyil, Azərbaycan xalqı, torpağı və milli ənənələri ilə bağlı olan bir şəxsiyyət yaratmışdır. C.Cabbarlı bu əsəri ilə şairi yeni yola çəkmiş, onların diqqətini Azərbaycanın, o cümlədən də ölkənin müxtəlif guşələrində mövcud olan abidələri tərənnümə cəlb etmişdir. M.Müşfiqin "Çoban əfsanəsi", S.Vurğunun "Qız qalası", "Qırx qız" və s. əsərləri tarixi abidələrdə bağlı poema yaradıcılığı sahəsində şerimizin sonrakı təcrübələridir.

Резюме

ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ЛЕГЕНДАРНЫХ АРХИТЕКТУРНЫХ ПАМЯТНИКОВ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ

Доц.Н.С.Гаджиева

По легенде, не только наши поэты, но и наши писатели пробовали свое перо, Ю.В.Чаманзаминли написал повесть «Девичья весна». Дж. Джаббарлы впервые заложил основу легендарной поэмы в 20-х годах 20 века «Девичьим замком». Однако если повесть обращается к древней азербайджанской легенде, то в поэме выбран каменный храм истории - архитектурный памятник «Девичий замок», который был свидетелем событий, произошедших в Баку, под каждым камнем которого были сокрыты бесчисленные тайны города, и таким образом был создан первый романтический, «художественно и идеологически совершенный» образец стихов советской эпохи Азербайджана. По словам М.Арифа, широкая романтическая мечта не отдалила

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.368-373

Дж.Джаббарлы от исторической почвы. В лице Дурны поэт создал не абстрактную, сверхчеловеческую и неисторическую личность, а личность, связанную с азербайджанским народом, землей и национальными традициями. Этим произведением Дж.Джаббарлы вывел поэта на новый путь, обратил его внимание на восхваление памятников, существующих в разных уголках Азербайджана, в том числе и страны. «Сказание о пастыре» М. Мушфига, «Девичий замок» С. Вургу, «Сорок девушек» и так далее. Его произведения — позднейшие опыты нашей поэзии в области создания стихов, связанных с историческими памятниками.

Summary

ARTISTIC REFLECTION OF LEGENDARY ARCHITECTURAL MONUMENTS IN AZERBAIJAN LITERATURE

Doc.N.S.Hajiyeva

Not only our poets, but also our writers tried their pens on the basis of the legend, Y.V. Chamanzaminli wrote the story “The Maiden’s Spring”. J. Jabbarli laid the foundation for the legendary poem for the first time in the 20s of the 20th century with “The Maiden’s Tower”. However, if the story refers to the ancient legend of Azerbaijan, the poem chooses the theme of the stone temple of history - “The Maiden’s Tower”, which once witnessed the events that took place in Baku, under each stone of which countless secrets of the city are hidden, and thus the first romantic, “artistically and ideologically perfect” example of Azerbaijani Soviet-era poems was created. As M. Arif said, a broad romantic imagination did not distance J. Jabbarli from the historical background. In the person of the crane, the poet created not an abstract, superhuman and non-historical person, but a personality connected with the Azerbaijani people, land and national traditions. J. Jabbarli took the poet on a new path with this work, drawing their attention to the glorification of monuments existing in Azerbaijan, including various corners of the country. M. Mushfig's "Shepherd's Legend", S. Vurgun's "Maiden's Castle", "Forty Girls" and other works are the later experiences of our poet in the field of creating poems related to historical monuments.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: dosent Axundova Naziymə
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 374-382

https://doi.org/10.62837/2025.4.374

UOT:821.222.1

XATIN SEYRAN QIZI CƏFƏRLI
filologiya üzrə fəlsəfə doktoru
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
hatya_5@hotmail.com

SAHİB İBN ƏBBADIN "ƏL-İQNA FİL ARUD VA TƏXRİCİL QAVAFİ" ƏSƏRİNDƏ QAFİYƏNİN NÖQSANLARI VƏ HÜDUDLARI

Açar sözlər: *Sahib ibn Əbbad, qafiyə, şair, alim, əsər, əruz, tədqiqat, nöqsan, hüdud*
Ключевые слова: *Сахиб ибн Аббад, рифма, поэт, ученый, работа, аруд, исследование, недостаток, предел*
Key words: *Sahib ibn Abbad, rhyme, poet, scientist, work, arud, research, disadvantage, limit*

Bu məqalədə ədəbiyyat tarixində mühüm estetik-fəlsəfi cərəyan olan romantizmin yaranma səbəbləri, ideya-estetik prinsipləri və inkişaf mərhələləri araşdırılır. Romantizm XVIII əsrin sonu və XIX əsrin əvvəllərində klassisizmə və maarifçilik rasionalizminə qarşı meydana çıxmışdır. Bu cərəyan fərdin daxili dünyasını, duyğularını, azadlıq istəyini və təbiətə bağlılığını əsas estetik dəyər kimi ön plana çəkmişdir. Məqalədə romantizmin Avropa ədəbiyyatındakı təzahürləri ilə yanaşı, onun Azərbaycan ədəbiyyatına təsiri də təhlil olunur. Müəllif romantizmin təkcə ədəbi üslub deyil, həm də dövrün ictimai-fəlsəfi düşüncəsini ifadə edən dünya görüşü olduğunu göstərir. Məqalədə romantik qəhrəmanın xarakterik xüsusiyyətləri – ictimai narazılıq, ideal axtarışı, tənhalıq və təbiətlə vəhdət duyğusu üzərində dayanılır. Eyni zamanda, romantizmin digər ədəbi cərəyanlara – realizm və simvolizmə keçid baxımından rolu da qiymətləndirilir. Araşdırma nəticəsində məlum olur ki, romantizm ədəbiyyatda azad fikir, orijinallıq və fərdi ifadə imkanlarının genişlənməsinə təkan verən mühüm mərhələ olmuşdur. Bu məqalə romantizmin əhatə dairəsini, onun ədəbi inkişafdakı əhəmiyyətini elmi əsaslarla aydınlaşdırmağa yönəlmişdir.

Açar sözlər : Romantizm, ədəbi cərəyanlar, estetik prinsiplər, fransız ədəbiyyatı, fəlsəfi düşüncə

SHAFA FARAJOVA JEYHUN

ROMANTİCİSM: HİSTORİCAL BACKGROUND, AESTHETİC PRİNCİPLES, AND LİTERARY INFLUENCES

SUMMARY

This article examines the reasons for the emergence, ideological and aesthetic principles and stages of development of romanticism, an important aesthetic and philosophical movement in the history of literature. Romanticism emerged in the late 18th and early 19th centuries against classicism and the rationalism of the Enlightenment. This movement brought to the fore the inner world of the individual, his feelings, the desire for freedom and his attachment to nature as the main aesthetic value. The article analyzes the manifestations of romanticism in European literature,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 391-398

as well as its influence on Azerbaijani literature. The author shows that romanticism is not only a literary style, but also a worldview that expresses the socio-philosophical thought of the era. The article focuses on the characteristic features of the romantic hero - social dissatisfaction, the search for an ideal, loneliness and a sense of unity with nature. At the same time, the role of romanticism in terms of the transition to other literary trends - realism and symbolism is also assessed. As a result of the research, it becomes clear that romanticism was an important stage that gave impetus to the expansion of opportunities for free thought, originality and individual expression in literature. This article is aimed at clarifying the scope of romanticism and its importance in literary development on scientific grounds.

Key words: Romanticism, literary movements, aesthetic principles, French literature, philosophical thought

ШАФА ФАРАДЖОВА ДЖЕЙХУН

РОМАНТИЗМ: ИСТОРИЧЕСКИЙ ФОН, ЭСТЕТИЧЕСКИЕ ПРИНЦИПЫ И ЛИТЕРАТУРНЫЕ ВЛИЯНИЯ
РЕЗЮМЕ

В статье рассматриваются причины возникновения, идейно-эстетические принципы и этапы развития романтизма — важного эстетического и философского течения в истории литературы. Романтизм возник в конце XVIII — начале XIX века в противовес классицизму и рационализму эпохи Просвещения. Это движение выдвинуло на первый план внутренний мир человека, его эмоции, стремление к свободе и связь с природой как главную эстетическую ценность. В статье анализируются проявления романтизма в европейской литературе, а также его влияние на азербайджанскую литературу.Автор показывает, что романтизм — это не только литературный стиль, но и мировоззрение, выражающее социально-философскую мысль эпохи. В статье рассматриваются характерные черты романтического героя — социальное недовольство, поиск идеала, одиночество, чувство единения с природой. При этом оценивается и роль романтизма в плане перехода к другим литературным течениям — реализму и символизму. Исследование показывает, что романтизм был важным этапом в литературе, который способствовал расширению возможностей для свободной мысли, оригинальности и индивидуального самовыражения. Целью данной статьи является прояснение сферы романтизма и его значения в развитии литературы на научной основе.

Ключевые слова: Романтизм, литературные течения, эстетические принципы, французская литература, философская мысль.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.391-398

Romantizm on səkkizinci əsrin sonu on doqquzuncu yüzilliyin əvvəllərində ədəbi-nəzəri fikrin ümumi axarına əsaslı istiqamət verə bilmək imkanları ilə özünü daha geniş şəkildə təzahür etdirir. C.Bayron, V.Hüqo, J.Sand, A.Monteskye, A.S.Puşkin, M.Lermontov və onlarla, yüzlərlə sənətkarın yaradıcılığında bir düşüncə sistemi olaraq olaraq mahiyyətini ortaya qoyur. Klassizm ədəbi meylindən fərqli olaraq əsaslı bir düşüncə modeli olaraq geniş yayılma coğrafiyası ilə spesifikləşir. Klassisizm nümayəndələri əsərlərində ağıl, məntiq, harmoniya və nizam anlayışlarını əsas götürdüyü halda, romantizm cərəyanının təmsilçiləri fərdiyyətçilik, emosional zənginlik və xəyal gücünü ön plana çəkmişlər. Romantizm bir dövrün sonunu ifadə etməklə yanaşı, yeni bir dövrün başlanğıcını da xəbər verirdi. Bu cərəyanın nümayəndələri keçmişin idealist və realist baxışlarından uzaq durmuş, sənət əsərlərində fərdi duyğuların ifadəsinə üstünlük vermişlər. Beləliklə, romantizm həm emosional, həm də intellektual yönü olan bir sənət anlayışı kimi formalaşmışdır.

Besim Dellaloğlunun fikrincə, XVIII əsrin məhsulu olan romantizm erkən modernizmin birhissəsini təşkil edir. O, qeyd edir ki, XX əsrin əvvəllərinə qədər sənətin dəyəri və keyfiyyəti mimesis anlayışı əsasında formalaşmışdır. Yunan mənşəli "mimesis" termini "fiziki jestlə effekt yaratmaq" mənasını ifadə edir. Əslində "imitatio" termini nitq zamanı yaradılan bədii əsərin, ədəbi məhsulun və ya ümumiyyətlə bir obyektin təqlidi ilə əlaqələndirilir. Dellaloğlunun fikrincə, *"Mimesis sadəcə ən sadə mənada köçürmə deyil, eyni zamanda təqlid etmək, təsəvvür etmək, ifadə etmək və hətta formalaşdırmaq mənalarını da ehtiva edir"*.[4, səh.80]Beləliklə, mimesis sadəcə bir obyektin sadə surətini çıxarmaq deyil, onun ideyasının təsəvvür edilməsi, bədii şəkildə ifadəsi və yeni bir forma qazandırılması prosesini də ehtiva edir. Başqa sözlə desək, mimesis yalnız mövcud olan bir şeyi olduğu kimi əks etdirmək deyil, həm də onun daha dərin, yaradıcı və şərh edilə bilən formalarını üzə çıxarmaqdır.

Sənət və həyat arasındakı əlaqəni şərh edərkən Dellaloğlu vurğulayır ki,*"İncəsənət həyatı əks etdirən bir güzgüdür. Sənət, həyatın bədii formada təkrarıdır. Ona görə də sənətkar əslində bir təqlidçidir. Hətta sənət əsərinin uğuru bu təqlidin uğurundan asılıdır"*.[4, səh.80]Lakin bu təqlid sadəcə real həyatı olduğu kimi təsvir etməkdən ibarət deyil; sənətkar reallığın müxtəlif aspektlərini bədii dillə ifadə edir, duyğular və mənalar əlavə etməklə onu daha kompleks və estetik dəyəri olan bir formaya salır. Dünya romantik ədəbiyyatının korifeyləri, eləcə də fransız ədəbi-mədəni mühitinin düşüncəsində özünü parlaq şəkildə göstərən romantik məfkurə çoxgedişli, çoxçalarlı yanaşmaları ilə ədəbi prosesə əlavə estetik zənginlik modellərinin gəlişi ilə spesifikləşir. Həyatda olduğundan gözəl düşçüncısi bir xətt olaraq müxtəlif formalarda özünü təzahür etdirir. Fransız ədəbiyyatının V.Hüqo, Q.Flober, A.Duma, E.Zolya, J.Vern, G.D.Mopasson, F.Stendal kimi böyük sənətkarlarının yaradıcılığı üzərində aparılan müşahidələr gedən prosesin

dinamikasını, həyata baxışın spesifiklik mənzərəsini, polifonik yanaşmalarda həyat həqiqətinə yaradıcı baxışlarını aydınlaşdırmaq üçün müstəsna əhəmiyyət təşkil edir.

Məlum olduğu kimi, romantizm ənənəvi mimesis konsepsiyasına qarşı çıxan ilk ədəbi cərəyanlardan biridir. Mimesis qanunlarına görə, sənətkar reallığı əks etdirməyə borcludur. Bunun əksinə olaraq, romantik estetika real həyatda mövcud olmayan və ya reallıqda öz yerini tapmayan elementlərin ifadəsinə üstünlük verir. Beləliklə, romantizm bədii yaradıcılığın yalnız reallığı təkrarlamaq deyil, onu subyektiv duyğular və fərdi təsəvvürlər əsasında yenidən formalaşdırmaq funksiyasını vurğulayır. Yaradıcılıq konsepti olaraq yazıçı təxəyyülündə olanlara daha çox üstünlük vermə ilə müşahidə olunan bu baxış modeli həyatı olduğu kimi təqdimdən yox, onu təsəvvüründə olduğu kimi canlandırmağa önəm verir. Bu isə özlüyündə şərti işarələnmə müstəvisində fantastik elementlərin təzahürünə, rəmzləşmələrə meyillənmə ilə mahiyyəti ehtivaya yüklənir.

Romantik düşüncə orijinallığı və kortəbiiliyi ön plana çıxarır. Ümumiyyətlə, bədii düşüncə, yaradıcı məfkurəsinin spesifiklik layı bütün səviyyələrdə fərdiyyəti, özünəməxsusluğu nümayiş etdirmələrlə göz önünə gəlir. Müstəsna xarakter və süjetlərin ortaya çıxması ilə spesifikləşən bu hal bütün səviyyələrdə həm də yaradıcı üslubunu formalaşdırır. Subyektiv qiymətləndirmə üslubu, müstəsna xarakter və süjetlərin nümayişi və əsərin strukturunda sərbəst hərəkətlilik həyatda olduğundan fərqli bir formulanın biçimlənməsini özündə təzahür etdirir. Dellaloğlunun fikrincə, romantik sənətkar *"Həddindən artıq həssas xəyalpərəst olmaqdansa, dözülməz reallığa qəhrəmancasına üsyan edən bir insan"*dır.Onun fikrincə, *"romantizm dünyanı dəyişdirmək əvəzinə tamamilə yeni bir dünya qurmaq arzusundadır. Üstəlik, yeni yaranan dünyanın gerçək dünya ilə əlaqədə olması romantizm üçün zəruri deyil".* [4, səh.80] Bu baxımdan, romantik sənətkar reallığı həssaslıqla və xəyalpərəst bir yanaşma ilə qəbul etməkdən daha çox, onunla mübarizə aparmağa, onu dəyişdirməyə və ya ondan uzaqlaşmağa meyillidir. Bu isə romantizmin real həyatın çətinliklərinə və məhdudiyyətlərinə qarşı üsyan mahiyyəti daşıdığını göstərir. Romantik sənətkar mövcud dünyanı qəbul etmək əvəzinə, ona qarşı çıxmağa və daxili aləmində fərqli bir həqiqət yaratmağa üstünlük verir. Digər tərəfdən, romantizm mövcud dünyanı dəyişdirmək məqsədi güdməkdən daha çox, yeni və fərqli bir dünya qurmağa can atır. Bütün səviyyələrdə romantizm varlığı inikas və tipikləşdirmə üsuludur. V.Hüqonun "Düşüncələr", "Əsrlərin əfsanəsi", "Səfillər", "Paris – Notr-Dam", "Edam məhkəməsinin son günü" və s. əsərləri bütün mahiyyəti ilə yaşadığı dövrün ümumi ahəngi səviyyəsində yaradıcı münasibətlərinin təzahürü olaraq spesifikləşir. Onu da əlavə edək ki, bu təkcə V.Hüqo yaradıcılığında olanlarla mahiyyətini ortaya qoymur, P. Merimenin "Klora Qasulunteatrı", "İkiqat səhv", "Abbat Oben", "İlliyalı Venera", "Kolomba", "Karmen", J.Sandın "Roz və Blanj", "İndiana", "Cənab Antuanın günahı", "Qar adam", P.J.Beanjenin 2Markiz de Karaba", "Müqəddəs atalar", "İblisin ölümü", "Qoca səfil", "Səfehlər" və s. əsərlərdə

bir sistem olaraq özünü təzahür etdirir.Beləliklə, romantik sənətkar öz ideal dünyasını formalaşdırmağa çalışır ki, bu dünya real dünyadan tamamilə fərqli ola bilər. Romantizm üçün real dünya ilə əlaqə mütləq şərt hesab edilmir, çünki bu cərəyan daha çox daxili aləmi, idealları və xəyalları ön plana çıxarır.

Qərb dövlətlərində baş verən böhran və inqilablar eyni zamanda və eyni şəkildə meydana gəlməmişdir. Hər bir ölkə bu böhrana öz siyasi, sosial və tarixi şəraitinə, eləcə də öz maraqlarına uyğun müxtəlif reaksiyalar vermişdir. Fransada, almaniyada, ingiltərədə, Polşada, İspaniyada və s. ölkələr səviyyəsində ayaqlaşmalar və on səkkizinci yüzillikdən artan etiraz dalğaları on doqquzuncu yüzilliyə doğru yüksələn tempi ilə ədəbi prosesə, onun elmi-nəzəri fakturasına da əsaslı təsir mexanizmləri ilə özünü nümayiş etdirir. Ədəbi-mədəni düşüncə bunları təkcə təqdimlə məhdudlaşmır, yaradıcı düşüncəsində həm də həlli mexanizmlərini işləməklə spesifikləşir. Buna görə də, *"Romantizm Fransa inqilabı nəticəsində parçalanmış Almaniya və İngiltərədəki kimi müxtəlif ölkələrdə eyni əks-sədaya sahib ola bilməzdi"* [3, səh.13]

Romantizmin tarixi inkişafında başlanğıc və sonluq arasında müəyyən bir davamlılıq müşahidə edilmir. Bu cərəyanın çoxsaylı nümayəndələri mövcud olmuş və onların hər biri fərqli xüsusiyyətlərə malik olmuşdur. Bununla belə, romantikləri birləşdirən əsas ideologiya mövcud olana qarşı çıxmaq və onu dəyişdirməyə çalışmaq prinsipi olmuşdur. Ümumi kontekstdə aparıcı funksiya mövcud olana qarçı çıxma düşüncəsi bütün parametrlərdə birləşdirici olan kimi hər bir kəs tərəfindən qəbul olunan idi, onun digər tərəfi məsələnin həlli müstəvisində yanaşma və baxış fərqlilikləri idi. Romantik ədəbiyyatın, eləcə də romantizm cərəyanının bü baxımdan mahiyyətində olanların açımı müstəsna əhəmiyyət daşıyır. Bu kontekstdə *"Sosial və ya siyasi üsyandan əlavə, metafizikadan da danışıla bilər. Romantizmin inqilabla sıx bir əlaqəsi vardır"* [5, səh.18].

Romantizm 18-ci əsrin sonu və 19-cu əsrlərdə formalaşmış ədəbi-mədəni cərəyan olaraq təkcə siyasi və ictimai sahələrdə deyil, həmçinin insanın daxili aləmi, duyğuları və təbiətə münasibəti kontekstində də inqilabi dəyişikliklərə səbəb olmuşdur. Məsələyə bu kontekstdə baxanda mahiyyətin açılması üfiqi və şaquli müstəvidə müxtəlif yönlü yanaşmaları problem olaraq diqqət önünə gətirir. Siyasi aspektdə məsələnin təzahür formasi, sosial səviyyədə olanların ümumi xarakteristikası, eləcə də insanların daxili aləmində olanların polifoniyası və s. paralel şəkildə mühit kontekstində təhlilləri zərurətə çevirir. Bu dövr sosial və siyasi dəyişikliklərlə səciyyələnmiş, cəmiyyətin ənənəvi strukturlarına qarşı üsyan motivlərini özündə ehtiva etmişdir. Romantiklər zaman-zaman bu inqilabi hərəkatlara dəstək vermiş, bəzən isə köhnə ictimai quruluşlara və onların prinsiplərinə qarşı çıxmışlar. Xalqın ictimai-siyasi proseslərə mövqe nümayiş etdirməsi, mövcud cəmiyyət strukturunda baş verən çatlar, əhalinin iqtisadi gərginliklər altında yaşadığı həyat tərzi eləcə də ədəbi-mədəni mühitin həmin mübarizənin avanqardı funksiyasında çıxış etməsi hərəkatın dönməzliyini və ona

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 391-398

yanaşmanın rəngarənglik modellərini ortaya qoyur. F.Stendalın, A.Dumanın, J.Sandın, E.Zolyanın, G.D.Mopassonun, O.Balzakın, J.Vernin və başqalarının yaradıcılığı bütün məzmunu və ehtiva etdiyi təsəvvürlə cəmiyyəti ifadəyə köklənir.

Romantizmin digər mühüm xüsusiyyətlərindən biri insanın metafizik və mənəvi dünyasına yönələn dərin düşüncələrdir. Romantik düşüncə yalnız insanın fiziki və ictimai mövcudluğu ilə məhdudlaşmır, eyni zamanda onun mənəvi və ruhani dünyası ilə əlaqəsini də ön plana çıxarır. Onu da əlavə edək ki, bu hal təkcə Avropa ədəbiyyatı və ya Fransa ədəbi-mədəni mühitində olanlarla məhdudlaşmır, öz tipologiyası etibarilə dünya ədəbiyyatını əhatələmək gücü və simpatiyası ilə spesifikləşri. Şərq ədəbiyyatın romantik canlandırma mexanizmləri ədəbiyyatın şifahi və yazılı qolunu bu və ya digər şəkildə əhatələmək gücü ilə ayrıca bir axarı faktlaşdırır. İngilis ədəbiyyatında V.Skot, C.Q.Bayron, Ç.Dikkens, Şelli, alman ədəbiyyatında İ.V.Göte, H.Heyne və s. kimi onlarla sənətkarın yaradıcılığı tipoloji yanaşmalarda əsaslı bir təsəvvürlə diqqət önünə gəlir. Onu da deyək ki, romantizm təkcə cəmiyyətdə deyil, fərdin daxili dünyasında da inqilabi dəyişiklikləri təşviq etmiş, mənəviyyat və təbiətə münasibətdə yeni yanaşma formalaşdırmışdır.

Bu cərəyan öz mahiyyətində inqilabi ruh daşıyır. Romantik hərəkat həm siyasi, həm də fərdi hisslər və düşüncələr baxımından ənənəvi sərhədləri aşmağa yönəlmişdir. Romantiklər fərdi azadlıq, yaradıcılıq və intuisiyaya xüsusi əhəmiyyət verərək mövcud sosial və mədəni qaydalara qarşı çıxmış, eyni zamanda təbiətə, gizli və mənəvi qüvvələrə dərin maraq göstərmişlər. V.Hüqonun, E.Zolyanın, Mopassanın, V.skotun, C.Q.Bayronun, Balzakın zəngin yaradıcılığı bütün stixial xarakteri ilə bunları nümayiş etdirir. Beləliklə, romantizm yalnız sənət və ədəbiyyatda deyil, ümumi düşüncə tərzində də inqilabi yanaşma yaratmışdır.

Fransa inqilabı və sənaye çevrilişi, əvvəlki dövrlərə nisbətən unikal hadisələrə çevrildi. Hakimiyyətə və ənənəyə qarşı azadlıq və fərdiyyətçilik kimi anlayışlar ön plana çıxdı.*"Azadlıq anlayışı 1848-ci ilə qədər şiddətli müzakirələrə səbəb olsa da, Fransanı özlərinə örnək götürərək az-çox hər yerdə köləlik ləğv olundu.Ölkələrin idarə olunma tərzi dəyişdi və bir çox xalqlar öz növbəsində öz qanunlarını müəyyənləşdirdi, müstəqilliklərini əldə etməsələr də milliyyətlərinin tanınması hüququnu qazandılar. Millət anlayışı romantik və inqilabi bir məsələ kimi müzakirələrin mərkəzinə gəldi"* [3, səh.13]. V.Hüqonun təsəvvüründə normativləşmiş əxlaq və davranış modelləri, yaşam tərzi və düşüncəsində olanlarla cəmiyyətdə baş verənlərin, gördüklərinin fərqli tipi bütün mahiyyəti ilə onu, eləcə də digər romantik həmkarlarını axtarışa, cəmiyyət səviyyəsində gedən proseslərə kökləyir. Bütün ayaqlaşmalar isə yeni düşüncə və yaşam nizamının ortaya çıxmasını müstəsna mövqeyə daşıyırdı. Bütünlükdə bunlar özlüyündə geniş aspektdə millətçilik məfkurəsinin formalaşmasını müstəsna səviyyəyə qaldırırdı. Fərdiləşmədən ümumiləşmə timsalında olanlara yüksəliş məhz hərəkatın diaxroniyasını, fəlsəfi mahiyyətini, ideoloji, həm də siyasi axarını bir vacib olan kimi şərtləndirirdi. Burada

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.391-398

"millət" anlayışının romantik və inqilabi bir məsələ kimi müzakirə edilməsi, millətçi hərəkatların yüksəlişini və bu hərəkatların 19-cu əsrin inqilabi cərəyanları ilə əlaqəsini göstərir. Romantik dövrdə millətçilik həm mədəni, həm də siyasi bir problem olaraq meydana çıxdı. İnsanlar öz millətlərinin azadlığı və tanınması uğrunda mübarizəyə başladılar. Bu dövrdə, bir çox xalqlar bəzən müstəqilliyə nail olmasalar da, ən azından öz milli kimliklərini təbliğ etmək və qorumaq hüququ əldə etdilər. Bu, millətçilik anlayışının yayılmasına və "millət-dövlət" ideyasının formalaşmasına səbəb oldu. Bu səbəbdən milli romantizmin doğulması Fransada baş verdi. Sonrakı mərhələlərdə, daha doğrusu, onilliklərdə baş verən hadisələr bir örnək olaraq fərqi, həm də yaxın olan tərzdə digər ölkələrdə də təkrarlanmalarla konsepsiyalaşdı. Bütün bunlar ədəbiyyat müstəvisində romantizmin ədəbi cərayan kimi meydana gəlmə və formalaşma tipologiyasını ortaya qoymaqla şərtlənir.

Fransa burjua inqilabı və Napoleonun 1815-ci ildəki Vaterlo döyüşündəki məğlubiyyəti, romantizmin meydana gəlməsinə xüsusi təkan vermişdir. Ümumiyyətlə, bütün mərhələlərdə ictimai-siyasi gərginliklər, cəmiyyətin sosial vəziyyətinin cansıxıcı problemləri, iqtisadi çətinliklər və baş verən hərc-mərcliklər cəmiyyətsəviyyəsində narazılıqlardan ayaqlaşmalara üsyanlara qədər qalxan tempi qaçılmaz edirdi. Ədəbi-mədəni mühit bu prosesdə öz yanaşmaları, problemin çözümü müstəvisində müxtəlif axtarışlara köklənirdi. Fransız ədəbi-mədəni mühiti bunun tipik örnəyi olaraq bir istiqamətdə romantik yanaşmaların çeşidliliyi ilə öz mövqeyini nümayiş etdirirdi. Əslində, romantizm bütün müasir sənət cərəyanları ilə birgə burjuanın yaşam tərzinə, fəlsəfəsinə və iqtisadi anlayışına qarşı çıxan üsyankar bir hərəkat idi. Bu, sənətdə ilk qırılma nöqtəsini təşkil edirdi. Məsələyə Azərbaycan ədəbiyyatının on doqquzuncu əsrin sonu və iyirminci əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı müstəvisində yanaşdıqda daha təfərrüatlı, həm də tipoloji baxımdan diqqəti cəlb edən maraqlı məqamlar ortaya çıxır. Beləliklə,*"Romantiklər burjualığı hər vəchlə tənqid edir və onun,hər şeydən öncə, ictimai-mənəvi aspektdə təhlilini verməyə can atırdılar.Bu, maddi marağın hərtərəfli dəstəklənməsi idi"*[1, səh.145]. Sərt həyat həqiqəti və onun mürəkkəb tendensiyaları, özüylə birgə formalaşdırdığı təsəvvür modelləri tədrici axarda romantizmi bir zərurət olaraq təşəklü mexanizmini formalaşdırmaq üçün əsasa çevrildi. Tədqiqatçının bu fikirləri, romantizm ədəbi cərəyanının nümayəndələrinin bir növ burjuaya qarşı çıxdığını göstərir.

Fransız romantizmi, Fransada baş vermiş sosial, siyasi və mədəni dəyişikliklərlə bağlı bir ədəbiyyat, incəsənət və daha geniş mənada mədəniyyət hərəkatıdır. İngilis, alman, ispan, polyak, özbək, qırğız, türkman, Azərbaycan ədəbiyyatında da bu təsəvvür eyni təzahür tipi ilə özünü nümayiş etdirir. İctimai-siyasi, ədəbi-mədəni, dini-ideoloji axarı əhatələməklə həm də özünün modelni bir proses olaraq içində hazırlayır. Bu hərəkat, əvvəlki dövrlərin tələblərinə qarşı çıxaraq, yeni bir ifadə forması və sənət anlayışı yaratmağa çalışmışdır. Romantizm cərəyanının əsas xüsusiyyətlərindən biri gözəllik, estetik hisslər və insani duyğulara yüksək dəyər

verməkdir. Fransız romantizmi isə gözəlliyi yalnız xarici görünüşdə deyil, daxili və emosional qatlarda axtarır və təbiətin, insanın daxili aləminin gözəlliyini, ziddiyyətlərini və dərinliyini vurğulamaq üçün estetik prinsiplərə əsaslanır. Həm estetika, həm də romantizmdə emosiyalara xüsusi yer verilir və Fransız romantikləri bu duyğuları estetik vasitələrlə ifadə edirdilər. Beləliklə, hər bir əsər həm duyğusal, həm də estetik dəyərə sahib olurdu.

Romantik dövrün sənətkarı özünü keçmişin varisi kimi görməmiş və bu xüsusiyyətinə görə əvvəlki dövr sənətkarlarından fərqlənmişdir. Romantizm ədəbi cərəyanının nümayəndələrində məhəbbət, təbiət və dini duyğulardan daha dərin daxili romantizm elementi mövcud idi.

İstifadə edilmiş ədəbiyyat

1. Abduləzizova, S. Fransız romantizmi və onun nəzəri prinsipləri. // Dil və ədəbiyyat: Beynəlxalq elmi nəzəri jurnal. №1(85). – 2013. – s.145-147. S145
2. Hüqo, V. Paris Notr-Dam kilsəsi. / Tərcüməçi Mikayıl Rəfili. – Bakı: Qanun nəşriyyatı. – 2022. – 512 s.
3. Claudon, F. Romantizm Sanat Ansiklopedisi. / Çev. Ö.İnce, İ.Usmanbaşı. – İstanbul: Remzi Kitabevi. – 2006. – 308 s.
4. Dellaloğlu, B.F. Romantik muamma. – İstanbul: Ayrıntı Yayınları. – 2010. – 147 s.
5. Işıksal, A. Romantizm türleri və ölkələrə görə ayrımı. // Akademik sanat tasarım ve bilim dergisi. № 13. – 2021. – s. 14-23.

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi : fil.e.d.prof. Mahmud Allahmanov Qara
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.399-403

https://doi.org/10.62837/2025.4.399

KAMALƏ İSLAMOVA
Bakı Avrasiya Universiteti
zeynallikemale58@gmail.com
ORCHID İD: https://orcid.org/0009-0008-4029-5292

FƏXRİ UĞURLUNUN "LEYLİNİN MƏCNUNLUĞU" HEKAYƏSİNDƏ LEYLİ VƏ MƏCNUN OBRAZLARININ İNTERPRETASİYASI

Xülasə

Məqalədə Fəxri Uğurlunun "Leylinin Məcnunluğu" hekayəsində Leyli və Məcnun obrazlarının interpretasiyası kontekstində tədqiq edilmişdir. Yazıçı ilk dəfə yazılı ədəbiyyata Nizami Gəncəvi tərəfindən gətirilən məşhur sevgi dastanı olan "Leyli və Məcnun" poemasının motiv və obrazları işığında müasir bədii əsərini qələmə almışdır. Fəxri Uğurlu hekayəni yazarkən, poemdakı hadisələri olduğu kimi şərh etmir, klassik əsəri bitdiyi yerdən yenidən yazır.

Açar sözlər: Nizami Gəncəvi, Fəxri Uğurlu, Leyli, Məcnun, "Leylinin Məcnunluğu", klassik irs, hekayə

Çağdaş dövr Azərbaycan ədəbiyyatı klassik irsə qırılmaz tellərlə bağlıdır. Bu əlaqə klassik irslə çağdaş düşüncə arasında körpü yaradaraq yazıçıların klassik əsərlərə müraciətini şərtləndirir. Müasir Azərbaycan ədəbiyyatında da yazıçılar öz əsərlərində klassik mövzulara, obraz və motivlərə müraciət edərək onları yenidən şərh edir, yeni məna qatları ilə zənginləşdirirlər. Belə yazıçılardan biri də Fəxri Uğurludur. Ədəbi fəaliyyətə 1990-cı illərdən başlayan ədibin yaradıcılıq irsinin əsas hissəsini hekayə janrı təşkil etsə də, müxtəlif zamanlarda yazdığı povest və esselərində də insan xarakterinin və onun daxili dünyasının dərinliklərini təsvir etmişdir.

Şərq poeziyasında əvəzolunmaz yerə sahib Nizami Gəncəvi yaradıcılığının zəngin ideya-məzmunu və bədii-estetik dəyərləri ilə yalnız öz dövrü üçün deyil, ədəbiyyat tarixinin bütün mərhələlərində sənətkarlar üçün mənbə rolunu oynamış, "Xəmsə"si əsrlər boyu müxtəlif ixtisarlar və əlavələrlə təkrar-təkrar işlənmişdir. Fəxri Uğurlu da dahi sənətkarın "Xəmsə"sindəki arxetipik motiv və obrazları dekonstruksiya edərək "Leylinin Məcnunluğu", "Fərhadın Xosrovu öldürməsi" və "İsgəndərin qanunu" hekayələrini qələmə almışdır. Yazıçı adı çəkilən hekayələrində klassik qəhrəmanları çağdaş insanın düşüncə və dəyərləri fonunda yenidən şərh edir.

Təhlilə cəlb etdiyimiz "Leylinin Məcnunluğu" hekayəsi klassik "Leyli və Məcnun" poemasındakı süjet xəttinə əsaslanmır. Hekayə Qeysin nəzir-niyazdan sonra dünyaya gəlməsi, Məcnunun Leyliyə elçi göndərməsi və Leylinin atasının bu

izdivaca yox cavabı verməsi və digər hadisələr fonunda təsvir olunmur. Hekayənin poemadan əsas fərqlərindən biri, Leylinin artıq ailəli və uşaqlı qadın kimi təqdim olunmasıdır.

F. Uğurlunun "Leylinin Məcnunluğu" hekayəsindəki mühit hələ də Məcnunu dərk edəcək səviyyədə olmayıb, onun səhrada heyvanlarla yaşamasını məsxərə salıb gülürlər: "Məcnun hər gün obaşdan durub əl-üzünü yuyandan, nahar eləyəndən sonra anasının boxçadan çıxartdığı təmizlik qoxuyan geyim-keçimlə əynini təzələyib heybəsi çiynində çölə işləməyə gedirdi. Obanın arvadları örüşə gedən naxıra mal qoşurmuş kimi onun yoluna çıxıb süfrələrinin axşamdan qalma artıq-urtuğuyla, sür-sümüklə dolu bağlamanı Məcnunun heybəsinə yükləyirdilər.
– Yenə işə gedirsən, ay Məcnun? – gülə-gülə deyirdilər.
– İşə gedirəm, – Məcnunun dodağı da qaçmırdı" [5, s. 53]

Məcnunun içindəki hissləri nə yaşadığı mühit, nə ata-anası, nə də dostları anlaya bilmirlər. Onun eşqini dərk etməyib bəlaya düçar olduğunu düşünən atası molla və baxıcılardan oğlunun dərdinə əlac tapmayanda, bir dərvişin məsləhəti ilə oğlunu müqəddəs torpaqlara aparmaq qərarına gəlir: "O dərdi, o sevgini onun canından olsa-olsa müqəddəslərin eşqi çıxarar. Oğlunu Kəbəyə apar" [5, s. 58].

İlahi kamilliyə qovuşan Məcnun müqəddəs torpaqları ziyarət edən zəvvarlara: "Ey müsəlmanlar, oyanın bu qəflətdən, – demişdi, – başına dolandığınız bu qara daş bir zaman fəzada canlı-canlı dolaşıb macəralar yaşamış bir səyyarənin ölüsüdü, – demişdi, – sonra o daş fəzada alışıb-yanıb göydən yerə düşmüşdü, indi siz o daşın özünə yox, cəsədinə sitayiş eləyirsiz, ey müsəlmanlar, – demişdi, – kafir, bütpərəst kimi ölüyə tapınmaq sizə yaraşarmı? Gedək bizim ellərə, mənim çölümə, nə qədər istəsəniz diri daş göstərim sizə! Gedək mənim ağaclarıma, kollarıma tapının, aslanlarımı, ceyranlarımı ziyarət eləyin, – demişdi, – göydən soraq gətirən quşlarımı, yer altından xəbər verən qarışqalarımı sitayişə gəlin!" deməklə insanlara Allahın təcəllasının onun yaratdıqlarında olduğunu dərk etməyə çağırır [5, s. 58]

Qeysin nakam məhəbbəti labüdddur və əsil vəslət vücudi-küllə qovuşmaqdır. Leyli isə bu qovuşmada ona vasitədir və onun varlığı Məcnunun eşqdə kamala çatmasına vəsilədir. Bu yolla Məcnun zamanla dünyəvi eşqdən ayrılaraq ilahi hikmətə qovuşur [3, s. 142]. İlahi həqiqətləri anlamaq daxili duyğularla dərk etməyə əsaslanır. Bu yanaşma insanın öz daxili aləmini dərk edərək ilahi hikmətə yanaşmasıdır. "Leyli və Məcnun"da da Leyli Məcnunun daxilindədir. "Leyliyi-həqiqi" ilə əbədi vəhdətdə olan Məcnunun zahiri Leylinin vüsalına ehtiyac yoxdur. Məcnun Leyli ilə onu ayıran başlıca maneəni cismani istəklərini aradan götürmüşdür [4, s. 138]. Hekayədə isə Məcnun artıq bütün varlığı ilə ilahi kamillik zirvəsinə çatıb. Poemadan fərqli olaraq hekayədə, Leylinin maddi aləmdən mənəvi aləmə keçməsinə və ilahi hikmətə qovuşmasında vasitəçi Məcnundur.

"Leyli və Məcnun" poemasında Məcnun səhraya çəkildikdən sonra uzun müddət onun ilahi hikmətə qovuşmasında vasitəçi olan sevdiyinə qovuşmaq ümidi

ilə yaşayır, həsrət və intizar içində Leylini düşünür [2, s. 175]. Hekayədə Məcnunla Leylini qovuşdurmağa çalışan obrazlar olsa da, Məcnun onlara qarşı çıxır. Onları qovuşdurmağa çalışan Nofələ: "Sənsən aramıza girən, çöllər sultanı, – Leylinin yerinə Məcnun dinmişdi, – sənin yaxşılığın kəsir qarşımızı. Mənim gövdəmə calamaq istədiyin bu əti-sümüyü məndən kimsə əsirgəmirdi. Sənin ədalətinə burda kimsə kəm baxmayıb. Ancaq təkcə ədalət azdı, çöllər sultanı. Sənin ədalətin ceyranı aslanın pəncəsindən qurtarar, di gəl, aslanı acından öldürər. Bilmək istəyirdim görüm, doğrudanmı Leylini mənə qaytara bilərsən? Yox, çöllər sultanı, dünyada ədalət yaratmaq üçün təkcə ədalətli olmaq azdı" deyir [5, s. 62].

"Leylinin Məcnunluğu" hekayəsinin digər qəhrəmanı Leylidir. Leyli poemada ailə və cəmiyyətin hökmünə boyun əysə də, müasir hekayədə bu stereotipdən qismən uzaqlaşır. Hər iki əsərdə Leyli İbn Səlam və ya Salamın oğlu ilə evlənir. Poemada İbn Səlamla Leylinin tanışlığı təsadüfi baş verir və bu tanışlıqdan sonra atası bilə-bilə qızını sevmədiyi cavanla evləndirir. Leyli evləndikdən sonra da Məcnunun sevgisini qəlbində daşıyır, ərinin ona toxunmasına icazə vermir. İbn Səlam ölənə qədər Məcnuna yaxın getmir, hətta sevgilisini axtardığı zaman onunla üzbəüz dayanmır. Uzaqdan oturub yalnız qəzəllərini dinləyir, təsəlli tapır. Əri öləndən sonra onunla görüşür [1, s. 236].

F. Uğurlunun hekayəsində isə Salamın oğlu və Leyli qohumdur. O, əmisi oğlu Salamın oğlu ilə evləndikdən sonra Məcnunun görüşünə istədiyi vaxt gedə bilir. Salamın oğlu eyni zamanda, Məcnunun sinif yoldaşı idi. Lakin o, çıxılmaz vəziyyətdə olduğu üçün qəbul etdiyi bu evliliyi dostuna qarşı etdiyi səhv kimi qəlbində əzaba çevirir və dostunun əmanətinə sadiq qalacağını söyləyir: "Bu nikaha nəslimizi qınaqdan qurtarmaq üçün qol qoyduğumu bilirsən. Mən dostumu başa düşdüyüm kimi o da məni anlayar. Nə qədər sağam, onun başından bir tük əskilməyəcək. Mən Məcnunun yolunu ölüncə saxlayacam, onun müqəddəsliyinə heç vaxt şəkk gətirməyəcəm. İstəməzsən, sənə barmağım da dəyməz, əmim qızı olsan da, səni Məcnunun əmanəti kimi saxlayaram" [5, s. 64].

İlk zamanlarda Leylinin Məcnunun yanına səhraya getməsi insanlar arasında xoş qarşılanmasa da, Salamın oğlunun dediklərindən sonra heç kimi onu qınamırdı: "Məcnun övliyadı, ondan bizim kimi pozğunlara ortaq olmaz, – demişdi. – Mənim arvadım da onun yanına oynaşlığa yox, ziyarətə gedir!.." [5, s. 64]. Əslində, Leyli hər dəfə səhraya poemadakı kimi, Məcnunu görmək istəyi ilə getmirdi, onun əsas niyyəti özünü tapmaq, mənəvi bütövlüyünü dərk etmək idi. Leyli varlığını Məcnunda tapmışdı, özünü onun sevgisində dərk edə bilirdi. Leylinin "özünü tapmaq" arzusunda Yunqun "öz" (self) arxetipini görmək olar. Yunqun arxetiplər nəzəriyyəsinə əsasən, "öz" (self) arxetipi fərdin daxili dünyasını və şüuraltını dərk etməsidir. Bu arxetipə görə, insanın tam şəkildə özünü dərk etməsi onun bütövləşmə prosesidir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 399-403

"Leyli və Məcnun" motivi əsasında yazılmış əsərlərin çoxunda Leyli və Məcnunun qovuşması mümkün olmadığı kimi, hekayədə də bu qovuşma baş tutmur. Zeyd dostunu anlamadığı kimi, gətirdiyi çıldaqçı Məcnunun ölümünə səbəb olur. Məcnunun ölümü ilə onun ilahi eşq yolculuğu tamamlanır və o, "fəna" ya nail olur və bununla da "məcnunluq" ruhanı miras kimi Leyliyə keçir.

ƏDƏBİYYAT:

1. Araslı, H. Böyük Azərbaycan şairi Füzuli. / Bakı: Elm, – 2024, – 352 s.
2. Əlimirzəyev, X. Nizami Gəncəvinin insan konsepsiyası. / Bakı: Gənclik, – 2001, – 354 s.
3. İbrahimov, S. Orta əsrlər Azərbaycan romantik ədəbiyyatı. / Bakı: MBM, – 2014. – 303 s.
4. Məmmədli, N. Füzulinin "Leyli və Məcnun" əsərində təsəvvüf və onun bədii ifadə sistemi. / Bakı: Elm və təhsil, – 2011, – 184 s.
5. Uğurlu, F. Hekayələr. / Bakı: Əli və Nino, – 2010. – 327 s.

КАМАЛА ИСЛАМОВА

ИНТЕРПРЕТАЦИЯ ОБРАЗОВ ЛЕЙЛИ И МЕДЖНУНА В РАССКАЗЕ «БЕЗУМИЕ ЛЕЙЛИН» ФАХРИ УГУРЛУНА

РЕЗЮМЕ

В статье рассматривается контекст интерпретации образов Лейли и Меджнуна в повести Фахри Угурлу «Меджнун Лейли». Свое современное художественное произведение писатель написал с учетом мотивов и образов поэмы «Лейли и Меджнун» — знаменитого любовного эпоса, впервые введенного в письменную литературу Низами Гянджеви. При написании рассказа Фахри Угурлу не интерпретирует события поэмы такими, какие они есть, а переписывает классическое произведение с того места, где оно закончилось.

Ключевые слова: Низами Гянджеви, Фахри Угурлу, Лейли, Меджнун, «Меджнун Лейли», классическое наследие, рассказ

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.399-403

KAMALA ISLAMOVA

INTERPRETATION OF THE IMAGES OF LEYLI AND MAJNUN IN THE STORY "LEYLI'S MADNESS" BY FAKHRI UGURLUN

SUMMARY

The article examines the interpretation of the images of Leyli and Majnun in Fakhri Ugurlu's story "Leyli's Majnun". The writer wrote his modern work of fiction in the light of the motifs and images of the poem "Leyli and Majnun", a famous love epic first introduced into written literature by Nizami Ganjavi. While writing the story, Fakhri Ugurlu does not interpret the events in the poem as they are, but rewrites the classic work from where it ended.

Keywords: Nizami Ganjavi, Fakhri Ugurlu, Leyli, Majnun, "Leyli's Majnun", classical heritage, story

Redaksiyaya daxil olma tarixi: 19.05.2025
Çapa qəbul olunma tarixi: 21.05.2025
Rəyçi: filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 404-409

https://doi.org/10.62837/2025.4.404

CAVİD AŞUR OĞLU ZEYNALOV
ADU
cavid54@mail.ru

ATAQAMIN HEKAYƏLƏRİNDƏ PARALEL VƏ RETROSPEKTİV ZAMAN

Açar sözlər: Ataqam, bədii zaman, hekayə, paralel zaman, retrospeksiya.
Key words: Atagam, artistic time, story, parallel time, retrospection.
Ключевые слова: Атагам, художественное время, история, параллельное время, ретроспекция.

Hekayəçilik ədəbiyyat tarixində ayrı bir janr kimi təşəkkül tapmağa başlayandan bəri onun digər prozaik növlərdən ayıran xüsusiyyətlər haqqında çox yazılıb, çox analizlər aparılıb. Bu barədə ayrıca kitab yazan H.E. Beyts yazır ki, bir atın ölümündən gənc bir qızın sevgisinə, təsadüfi bir təsvirdən, hadisələrdən hörülmüş bir narrativə, hətta bir şeirdən bir reportaja qədər hər şey hekayə ola bilər; bu elastik xarakterinə görə hekayənin sərhədlərini müəyyənləşdirmək qeyri-mümkündür. [1, s. 7]

H.E. Beyts məşhur kitabının bir başqa yerində yazır ki, hekayə definisiyası etibarilə əlgəlməz növdür, həyatın içindəki hər şey hekayənin mövzusu ola bilər və formaca müxtəlif ola bilər. [1, s. 9] Beyts fikrincə, hekayəni həcminə görə qiymətləndirən çoxsaylı müəlliflər yanılırlar, belə ki, hekayə qısa da ola bilər, uzun da.

Hekayənin nəzəri məsələləri ilə ilk maraqlanan, müəyyən formullar yaratmağa çalışan amerikalı yazıçı Edqar Po olmuşdur. Edqar Po 1846-cı ildə sonradan klassik, kult mətnlərdən biri kimi qəbul ediləcək "Kompozisiyasının fəlsəfəsi" adlı essesində hekayə ilə bağlı orijinal fikirlər irəli sürmüşdür.

Edqar Po sözügedən məqaləsində yazır ki, hekayə proza şəklində kompozisiyası işlənmiş poeziyadır, ancaq poeziyadan fərqli olaraq onun məcburi qaydaları var. Müəllifin fikrincə, 1) Hekayə oxucuda "bircə effekt" yaratmalıdır; 2) Bu "bircə effektin" güclü olması üçün hekayə biroturmada oxunacaq qədər qısa olmalıdır; 3) Hekayədə poetik dildən istifadə olunmalıdır; belə ki, hekayənin dili mətndən bircə söz belə çıxarılsa, mətni zəiflədəcək intensivlikdə olmalıdır. [7]

Dünya ədəbiyyatında hekayənin "flash fiction" – təxminən, "anlıq hekayə", yaxud "short-short story" – təxminən "çox qısa hekayə" şəklində ifadə edilən növ var ki, son dövrlər dünyada daha da aktuallaşmaqdadır. Bu cür hekayələri "minimalist hekayə" başlığı altında ümumiləşdirmək olar.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh.404-409

Robert Kelli minimsalist hekayə haqqında belə yazır: "Bütün xüsusiyyətləri göstərir ki, "qısa" sözü hekayə üçün mübahisəli əlavədir. Əvvəl də dediyimiz kimi, "hekayə" sözü eynilə bir sözdəki vurğu, ya da hüquqdakı bir qanun kimi nə uzundur, nə qısa, özünəyetərlidir." [5, s.122]

Tanınmış yazıçı, Beynəlxalq Buker Mükafatı laureatı, minimalist hekayələr ustası Lidiya Deyvis belə yazır: "Artıq insanların diqqətinin yaxşıca dağıldığı həqiqətdir; pul qazanmaq və digər insanlarla olan əlaqələri saf-çürük edərək tərtib etmək kimi özləri üçün həyati əhəmiyyət daşıyan mövzuları çıxmaq şərtiylə heç bir məsələyə uzun müddət köklənə bilmirlər. Üstəlik, artıq sükunəti mühafizə edə bilmək də əvvəlkindən çox çətindir." [2, s. 112]. Müəllif demək istəyir ki, XXI əsr diqqət dağınıqlığı və sürət əsridir, bu əsrdə oxucular daha qısa, birbaşa və asan oxunan mətnlərə meyl edirlər.

Dünya şöhrətli yazıçı Xulio Kortasar "Hekayə və onun yaxın ətrafı" adlı yazısında yazır ki, qısa hekayənin də, şeirin də mənbəyi eynidir. Onun fikrincə, .eir tərcüməsinin çətinliyi kimi, hekayənin qənaətcil dili eyni çətinliyi yaradır: "Təcrübələrim mənə sizə təqdim etdiyim növdə hekayələrin müəyyən mənada prozaik olmadığını deyir. Nə vaxt hekayələrimdən birini tərcümə etməyə girişsəm (ya da bir vaxtlar Po nümunəsində olduğu kimi, başqa birinin hekayəsini tərcümə etməyə çalışsam), bir şey mənə çox təsir edir. Hekayənin aktivliyi və mənanın poeziyadakı müəyyən dəyərlərə, başqa cür desək, gərginlik, sintaksis, daxili ritm, gözləntinin meyarları içində qarşımıza çıxan gözlənilməz, qaçılmaz bir itkiyə düçar olmadan dəyişdirilməsi mümkün olmayan ölümcül dərəcədə azad dəyərlərə söykənməsi."

Azərbaycan ədəbiyyatında, 2000-ci illərdən etibarən minimalist hekayədə, yığcam prozada özünəməxsus dəsti-xətti ilə seçilən yazıçılarımızdan biri də Ataqamdır.

"Qanadlı körpü" hekayələr kitabı ilə ədəbi mühitin və ədəbiyyatşünaslığın diqqətini çəkən Ataqamın heyakələri Müstəqillik dövrü, XXI əsr Azərbaycan ədəbiyyatının ən maraqlı nümunələrindəndir. Ataqamın avanqard dil seçimi, heç kimə bənzəməyən obrazlar sistemi onu hamının yazdığı mövzuları belə başqa cür, özünəməxsus formada təqdim etməsinə, beləcə də, tamamilə fərqli ifadə tərzi içindən öz mətnini qurmasına gətirib.

Adətən, hər müəllifin yaradıcılıq pasportuna çevrilən mətni olur. Ataqamın belə mətni "Nanəli konfet" hekayəsidir. Osman dayının yeniyetmə ikən bircə yanlış davranışı (Bəsirəti kəhrizdə çimərkən gördüyünü bildirən cümləni söyləməsi) sanki bütün həyatının gedişatını müəyyənləşdirir. Uzun illər sonra təsəllini yeniyetmə dostunun oxuduğu mətnlərdə - sözdə tapır. Nanəli konfetə görə dostluq edən yeniyetmənin oxuduğu mətnlər Osman dayının yaddaşını oyadır. "İskəndərin buynuzu var, buynuzu" sözləri şüuraltı ağrısını yeniləsə də, yarasını qanatsa da, Osman dayı bu ağrı ilə ovunur - öz başına buynuz işarəsi tutub ləzzətlə gülə-gülə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 404-409

ağrıyır, dərdini sevir. O, emosiyalarını sözlərlə ifadə etmir. Amma müəllif öz qəhrəmanının ruh halını, ağrılarını onun dinlədiyi mətnə münasibəti vasitəsilə bildirir. Gənc dostunun oxuduğu əfsanənin sonluğunda, hər qapıya bir gil lövhə qoyan dərvişin tövsiyəsində öz yanlışını, taleyini görür və hekayə boyu onun müxtəlif mətn parçalarının öz həyatı, yaşantıları ilə anologiya apardığını görürük. Bu, ümumiyətlə, Ataqamın yaradcılığının üslubi xüsusiyyətinə çevrilir. Nəticə etibarilə, "Nanəli konfet" hekayəsinin poetikası mətn içindəki digər mətnlər vasitəsilə həllini tapır.

Ataqamın hekayələrindəki personajların əksəriyyəti travmatik, mənəvi-ruhi tarazlığı pozulmuş, psixologiyasına yerində olmayan, patologiyası olan insanlardır. Müəllifin yazıçı gözü, bədii fokusu daha çox cəmiyyətin nəzər-diqqətindən kənarda qalmışlara, özgələşmişlərə tuşlanır. Bu insanların əksəriyyətində nə vaxtsa yaratmaq və yaşamaq arzusu olsa da, artıq zamanın dəyişməsi (sovetlərin dağılması), eləcə də məkanın könüllü yox, məcburi tərk edilməsi (I Qarabağ müharibəsi) ucbatından, şərti olaraq, anti-Piqmalion deyə biləcəyimiz reflekslər əmələ gəlib.

Yunan mifologiyasında heykəltaraş Piqmalion öz düzəltdiyi qadın heykəlinə elə böyük məhəbbətlə aşiq olur ki, Afrodita bu sevgiyə görə heykəli canlandırır. Bu mifin şərhinə əsasən çoxsaylı bədii əsərlər yazılmaqla yanaşı, psixologiyada, eləcə də ədəbiyyatşünaslıqda müxtəlif yozumlar ortaya çıxmışdır. Belə ki, bir şeyi (subyekti və ya obyekti) ürəkdən istəməklə onu əldə etməyin məcazına çevrilən bu mifin, əks variantı isə istəksizliyin gətirdiyi nəticəsizlikdir. Ataqamın bir neçə hekayəsində bu motiv açıq-aşkar görünür. Məsələn, "Nanəli konfet" hekayəsində Osman bir vaxtlar sevdiyi Bəsirətin daşdan heykəlini düzəldib onunla danışır. Digər məqam canlılarla cansızları eyni müstəvidə təsvirdir. Məsələn, Osman bəyin Bəsirəti yaşatması üçün daşa həyat verməsi yarımçıq qalan sevgilərini xəyalən tamamlamağa çalışmasıdır. Bu cür təsvirə "Şrödingerin pişiyi"ndə də rast gəlirik. Öz sevgisini fırça ilə yaşatmağa çalışır. Hər iki obraz nakam sevgi yaşayır. Və qovuşa bilmədikləri sevgilərini əbədiləşdirmək üçün onları cansız varlıqlarla əvəzləyib, sanki onlara sonsuzluq yükləyirlər. "Şrödingerin pişiyi"ndə qəhrəman öz sevgisinin rəsm çəkməklə davam etdirir. Hər iki hekayədə də canlı insanlarla ünsiyyətin mümkünsüzlüyü onlarla bağlı arzuların, istəklərin cansız əşyalara proyeksiya olunması ilə müşayət olunur.

Bir ədəbi əsərin temporallığı onun məzmununun, yəni əsərdəki xəyali və ya real hadisələrin zamanıyla mətnin zamanı arasındakı ikilik şəklində xarakterizə edilir. Məlum olduğu kimi hər bir sənət hadisəsi dörd ünsür ətrafında ərsəyə gəlir: sənətçi, əsər, oxucu və cəmiyyət. Bu, zamana münasibətdə də dörd yanaşma ortaya çıxarıb: 1) sənətçinin və ya yazıçının zamanı; 2) əsəri zamanı; 3) oxucunun zamanı; 4) cəmiyyətin və ya əsərin yazıldığı dövrün zamanı. Bu yanaşmaların hər biri ədəbi əsərdəki zaman öz rakursundan baxır. Rikyörün "Zaman və narrativ" əsərində, özünün dediyi kimi, əsas araşdırdığı məsələ, hekayə nəqletmə aktının necə təbii

zamanı, müəyyən formalarda insana xas zamana (özü də riyazi və xronoloji "saat zamanın"sxematikliyinə düşmədən) çevirdiyini kəşf etməkdir. Onun fikrincə, ədəbi mətnlərdəki narrativ mexanizmlərin analizi bizə yeni sujet və keyfiyyət modusları yarada bilər, yeni "zaman" strukturu formullaşdırmağın yollarını göstərə bilər. [4, s. 141]

Ataqamın hekayələrindəki zaman anlayışı məşhur fransız filosof Anri Berqosunun fəlsəfəyə və ədəbiyyata qazandırdığı "duree" (təxminən, "müddət") konsepsiyası əsasında qurulub. Belə ki, sözügedən hekayələrdə zamanın inkişafı düzxəttli yox, dolanbaclı, spiral tipindədir. Demək olar ki, bütün hekayələrdəki zaman standart, təqvimlə ölçülən yox, keçmişin indi ilə, bu günün dünənlə çulğalaşdığı zamandır. Zamanla bağlı tədqiqatlarda istifadə edilən "simultane" – yəni bir neçə zamanın yanaşı gəlməsi hadisəsi var ki, buna da Ataqamın hekayələrində rast gəlmək olur. Tutalım, "Barantay" hekayəsində iki fərqli məkanda keçən zaman yanaşı təqdim edilir, bir tərəfdə həbsxanada keçən zamandır, bir yanda təyyarədə keçən zaman, ancaq bunlar iki fərqli zaman kimi yox, iç-içə təsvir olunur.

Ataqamın hekayələrində pritçaya xas elementlər çoxdur. Xüsusən "Gecəgörənlər" hekayəsində aydın görünür bu məqam. Hamımız qaranlığın içərisində yaşayırıq, görmürük, amma kor deyilik. Qaranlığın içərisində səslərin seçilməsi və palitra zənginliyi özünü göstərir. Ataqamın hekayələri intellektual yüklüdür. Hekayələrinin bəzisinin içində başqa bir ibrətamiz hekayət, nağıl yada salınır, onunla intertekstual əlaqə qurulur. Məsələn, "Nanəli konfet" hekayəsinin içində başqa bir əhvalat – dərvişin nağılı xatırlanır.

Ataqamın jurnalist fəaliyyətində şəxsən gedib gördüyü, yəni yaxından tanıdığı xarici məkanlarla bağlı hekayələri də var ki, onların içində "Fələstinli və sərçələr" hekayəsi bu sıradadır. Bu hekayədə iki nəfərin tragik əhvalatının müşayiəti ilə illərdir davam edən Fələstin savaşı, Qəzza xalqının aqibəti nəql edilib. Sözügedən hekayədə fələstinlilərin məşəqqətli həyatı hekayənin qəhrəmanı Aban Müəzzinin ovlayaraq "ölüdür, diridir" mərcində istifadə etdiyi quşlar arasında bir metaforik analogiya qurulub. Fələstinlilər də həmin qumardakı quşlar kimi başqalarının ovcu içində qeyri-müəyyənlikdədirlər, müyyən mənada nə ölüdürlər, nə diri, aqibətləri ərafdadır. Fasiləsiz şəkildə ölüm-itim təhlükəsi altında yaşayan qəzzalıların bütün fərdi və ictimai qorxuları Aban Müəzzinin ovcundakı quşlara proyeksiya edilib; belə ki, hekayədə Pota ilə mərc gələrkən qətiyyətlə əmindir ki, Abanın ovcundakı sərçə ölüdür, ancaq Aban quşu ovcunun qəfəsindən bilərəkdən azad edir.

Yekunda qeyd etmək istərdik ki, Ataqamın hekayələrində bədii mətnlərdə zamanla bağlı ən çox istifadə edilən fənd olan retrosepksiya, yəni zamanda geri sıçrayış gözə çarpır. Əksər hekayələrindəki zamanın konkret bir anından geriyə doğru hərəkət, sonra isə həmin ana qayıdış müşayiət olunur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 4, 2025
Səh. 404-409

Ədəbiyyat siyahısı:

1.Bates, H. E. (2001). Yazınsal Bir Tür Olarak Kısa Öykü. Çev. Gökçen Ezber. İstabul: Bilge Kültür Sanat. s. 176.

2.Burke E. (1909). The Philosophical Enquiry Into The Origin Of Our Ideas Of The Sublime and Beautiful. — New York : Collier and Son Company, 165 p.

3.Husserl, Edmund (1997): "İçsel zaman bilinci", çev.: Doğan Şahiner, Cogito, zaman: 12-ye 1 var, s.11, yıl: 1997, 2.bs, s.17-28, İstanbul: Yapı Kredi Yayınları.

4.Kearney, Richard (1981): "Paul Ricoerla Söyleşi", çev. Elis Simson, Cogito, Paul Ricoer, Özel sayı, s.56, yıl: 2008, s. 141-159, İstanbul: Yapı Kredi Yayınları.

5.Kelly, Robert (1997), "Yeni Bir Yazınsal Türe Doğru", Adam Öykü, S. 12: Kısa Kısa Öykü Özel Sayı, s.120-128.

6.Mays, W. (1997): "Hegel ve Marxta zaman ve zamansallık", çev: Alp Tümerkin: Cogito, zaman: 12-ye 1 var, s.11, yıl: 1997, s.bs., s. 65-81, İstanbul: Yapı Kredi Yayınları.

7.Poe, Edgar Allan (2004), Kompozisyon Felsefesi, (Ed. Hüseyin Su), Teori ve Eleştiri, Çev. Faruk Uysal. Ankara: Hece Yayınları, s. 105-116.

8.Ricoeur, Paul (2012): Zaman ve anlatı: Üç. Kurmaca anlatıda zamanın biçimlenişi, çev. Mehmet Rifat-Sema Rifat. İstanbul: Yapı Kredi Yayınları.

ДЖАВИД ЗЕЙНАЛОВ

РЕЗЮМЕ

ПАРАЛЛЕЛЬНОЕ И РЕТРОСПЕКТИВНОЕ ВРЕМЯ В РАССКАЗАХ АТАКАМА

